AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MEMARLIQ VƏ İNCƏSƏNƏT İNSTİTUTU

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL
NAZİRLİYİ
BAKI BİZNES UNİVERSİTETİ

SABİR ƏMİRXANOV

# AZƏRBAYCANDA MUZEYŞÜNASLIĞIN AKTUAL PROBLEMLƏRİ

BAKI – 2011

Monoqrafiya Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun Elmi Şurasının 27 aprel 2011-ci il tarixli iclasının qərarı ilə nəşrə tövsiyə edilmişdir.

**Elmi redaktor:**

**R.H.Abdullayeva**- sənətşünaslıq doktoru, AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun "Estetika və informasiya mədəniyyəti" şöbəsinin müdiri.

**Rəyçilər:**

**R.S.Tağıyeva** – sənətşünaslıq doktoru, professor, L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin direktoru.

**Ü.K.Talıbzadə** - sənətşünaslıq namizədi, Abdulla Şaiq mənzil muzeyinin direktoru

hh8456

**S.A.Əmirxanov: "Azərbaycanda muzeyşünaslığın aktual problemləri". Bakı Biznes Universitetinin nəşriyyatı. 2011, - 570 səh.**

Monoqrafiyada Azərbaycan muzeyşünaslığının təşəkkülü, milli muzey quruculuğunun aktual problemləri və muzeyşünaslığın inkişaf mərhələləri, müasir muzeyşünaslıqda sistem halını alan qarşılıqlı əlaqələr, qanunauyğunluqlar, qanunlardan ardıcıl olaraq bəhs edilmişdir. Eyni zamanda müasir muzeyşünaslıqda sürətli inkişafa təkan verən texnologiyaların mahiyyəti və əhəmiyyəti elmi şəkildə aydınlaşdırılmışdır.

Monoqrafiya muzey işçiləri, muzeyşünaslar, sənətşünaslar, kulturoloqlar üçün nəzərdə tutulmuşdur. Ondan digər peşə sahibləri də faydalana bilərlər.

4306030000 Qrifli nəşr
031-2011

Bakı Dövlət Universiteti
ELMİ KİTABXANA

© Sabir Əmirxanov
© Bakı Biznes Universiteti

# GİRİŞ

Bəşər mədəniyyətinin tərkib hissələrindən olan Azərbaycan mədəniyyətinin daha dərindən tədqiqi və təbliği müstəqil respublikamızda aparılan geniş inkişaf, hərtərəfli formalaşma işləri, ayrı-ayrı tarixi dövrlərə aid maddi və mənəvi mədəniyyət nümunələrini, insanların milli, müasir ənənələrə əsaslanan zəngin yaradıcılıq əzmini müxtəlif vasitələrlə üzə çıxarmağa zəmin yaradır. Son onilliklərdə qədim tarixə malik çox zəngin milli mədəniyyətimizin daha dərindən tədqiqi və ayrı-ayrı dövrlərdə bəşər mədəniyyətinin zənginləşdirilməsi, onun inkişafına təkan verməsinin dəyərləndirilməsi, təbliği Azərbaycan hökuməti tərəfindən daim diqqət mərkəzində saxlanılır. Bu məqsədlə milli və bəşər mədəniyyəti nümunələrindən, zəngin maddi-mənəvi dəyərlərdən müvafiq olaraq dolğun şəkildə istifadə olunmasına əməli köməklik göstərilir, bu prosesdə zəruri vasitələrdən istifadə yolu ilə bütün mədəniyyət təsisatlarının elmi-nəzəri, əməli tətbiqinə maksimum şərait yaradılır.

Heç şübhəsiz, belə bir mövqe milli mədəni dəyərlərimizin aşkarlanması, qorunması, toplanması, öyrənilməsi, nümayişi və təbliğinin təkmilləşdirilməsi, ən müasir tələblər əsasında bu işlərin elm, təhsil və mədəniyyət işçiləri, mütəxəssislər tərəfindən həyata keçirilməsi zərurətini qarşıya qoyur.

Milli mədəniyyətimizin elmi-nəzəri və əməli inkişafı üçün əsas götürülən "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda (310) mədəni irsdən və mədəniyyət sərvətlərindən istifadənin təmin edilməsi məqsədilə bu sərvətlərin yaradılması, artırılması və yayılmasına təkan verilməsi, habelə yaradıcıların sosial müdafiəsinin yaxşılaşdırılmasına xüsusi diqqətin artırılması təsadüfi deyil. Belə münasibət tarixin müxtəlif inkişaf mərhələlərində sosial-iqtisadi məsələlərlə sıx bağlı olmuşdur. Məhz elm, təhsil və mədəniyyətin kompleks şəkildə təsiri nəticəsində müxtəlif nəsillərin dünyagörüşlərinin inkişafı, formalaşmasında mədəniyyət müəssisələri, o

cümlədən muzeylər mühüm rol oynamış, milli yaradıcılıqda möhkəm bünövrə, etibarlı zəmin yaratmışdır.

Məhz mədəniyyət fəaliyyətinin əsas növlərindən olan muzey fəaliyyətinin elmi, mədəni-mənəvi və estetik tələbatın ödənilməsində əsas amil olması bunu bir daha təsdiq edir və bu, "Muzeylər haqqında" Azərbaycan Respublikasının 24 mart 2000-ci il tarixli Qanunu ilə tənzimlənir. Əlbəttə, böyük tarixi əhəmiyyətə malik maddi mədəniyyət nümunələrinin toplanması, komplektləşdirilməsi, qorunması, tədqiqi, bərpası, nümayişi, təbliğini həyata keçirən, müxtəlif yaş qruplu və ixtisaslı insanları elmi informasiya ilə zənginləşdirən, hərtərəfli formalaşdıran muzeylərlə heç bir digər mədəniyyət və tərbiyə ocağı rəqabətə girə bilməz. Çünki, ayrı-ayrı tarixi dövrlər haqqında elmi informasiyanı özündə cəmləşdirən əşya və eksponatlar məhz muzeylərdə mühafizə, tədqiq və təbliğ, nümayiş edilir, əyani-əşyavi, elmi təsirlərlə insanlarda hərtərəfli bədii zənginlik yaradır. Əlbəttə, muzey sərgiləri və digər tədbirlər vasitəsilə insanların formalaşdırılması üçün zəruri olan keyfiyyətlər muzey fəaliyyətinin səmərəliliyi ilə ölçülür ki, bu da muzeyin elmi-nəzəri, əməli fəaliyyət mexanizminin əhatəliliyi ilə əlaqədardır. Muzey fəaliyyəti vasitəsilə həyata keçirilən sərgi-ekspozisiyalar və digər muzey tədbirlərinin elmi-bədii, yaradıcı, tərbiyəvi təsir əhəmiyyəti böyükdür. Məhz belə təsirlər nəticəsində mənən elmi-bədii zənginləşmə mexanizmi həyata keçirilir, əyani şəkildə eksponatların zəminində nəzəri məlumatlar əldə edilir, biliklər əmələ gəlir, təcrübi bacarıq və vərdişlər formalaşır.

Təsadüfi deyildir ki, ərazilərimizdə hələ daş dövründən başlamış daş məmulatların, alətlərin fəaliyyətə təkan verməsi, getdikcə təkmilləşməsi, zehni fərqlər nəticəsində idraki proseslərin mərhələlərlə formalaşması nəticəsində müxtəlif dövr mədəniyyətləri nümunələrinin qiymətləndirilməsi, seçilməsi, toplanması, bəzən də istifadəsi zərurətə çevrilmişdir. Ayrı-ayrı tarixi mərhələlərdə zehni fəaliyyət nəticəsində bədii sənətkarlıq, yaradıcılıq nümunələrinin tədqiqi və qorunmasına olan ehtiyac

toplanc mənbələrinin təşəkkülünə səbəb olmuş, əvvəlcə şəxsi kolleksiyalar, sonralar isə muzeylər yaranmağa başlamışdır.

Beləliklə, insanı mənən zənginləşdirən, xalq tərəfindən bəyənilən, qəbul edilən, əməli bədii-yaradıcı xassə və keyfiyyətlər təqdir edilmiş, nəsillərdən-nəsillərə ötürülmüşdür. Xalq içərisindən formalaşan müdriklər, mahir sənətkarlar bədii yaradıcılıq nümunələri və digər təsir vasitələrindən istifadə edərək uzunömürlü irs, "zənginləşmə, tərbiyə, inkişaf, formalaşma məktəbləri" yaratmışlar. Beləliklə, həmin fəaliyyətlər nəticəsində ölkəmizdə də muzey quruculuğunun inkişafına, muzeyşünaslığın bir elm kimi formalaşmasına səbəb olmuşdur.

Tədqiqatlar göstərmişdir ki, muzey quruculuğunun təşəkkülü üçün mühüm amillər sırasında ərazilərimizdə ilk mərhələ hesab edilən, eramızdan əvvəlki tarixi dövrləri əhatə edən abidələr, qayaüstü təsvirlər, qalıqlar, daş-metal, məişət və silah nümunələri, alətlər, əşyalar, qəbir abidələri, sikkələr, yazılı daş kitabələr, astronomik əhəmiyyətli əşyalar və sair vacib mənbələrdir. Eramızın əvvəllərindən ortalarına qədərki tarixi dövrlərdə ərazilərimizdə yaşayış məskənlərinin çoxluğu, elə bu səbəbdən də həmin məskənlərin həyat və fəaliyyətinin insanların fərqli məşğuliyyət formalarına malik olmalarını, elm və mədəniyyətin, incəsənətin ayrı-ayrı sahələrinin mövcudluğunu sübut edən dünya əhəmiyyətli, ölkə əhəmiyyətli və yerli əhəmiyyətli abidələr, abidə qalıqları, əşya-materiallar növbəti fəaliyyət mərhələsindən xəbər verir. Nəhayət, orta əsrlər və sonrakı dövrlərdə ərazilərimizdə dünyanın digər yaşayış məskənlərindən fərqli olaraq, daha aktiv fəaliyyət mərhələsinin mövcudluğunu təsdiq edən həmin dövrlərə aid çox nadir tapıntılar, nümunələr nəinki Azərbaycan, hətta dünya tədqiqatçıları üçün mənbəyə çevrilmişdir.

Araşdırmalardan məlum olmuşdur ki, müxtəlif tarixi dövrlərə aid əşya və nümunələrin, abidələrin qorunması, toplanması bir sıra obyektiv və subyektiv amillərlə bilavasitə bağlı olmuş, müvafiq olaraq dağılmaya, məhv edilməyə, qarətə mə-

ruz qalmışdır ki, bu da digər xalqlara, ölkələrə nisbətən Azərbaycanda fərdi şəkildə toplanma, qorunma, bərpa, saxlanma, eləcə də muzeylər kimi mərkəzlərdə cəmləşdirilməsinə maneçilik törətmişdir. Beləliklə,ölkəmizdə şəxsi kolleksiyaların və muzeylərin təşəkkülü, formalaşması XX əsrin əvvəllərinə qədər özünün çox gərgin, mürəkkəb mərhələlərini yaşamışdır.

Ümumiyyətlə, ərazilərimizin qarətçilər tərəfindən müxtəlif dövrlərdə basqınlara, dağıntılara məruz qalması, təbii fəlakətlərin tez-tez baş verməsi, sənətkarlıq və yaradıcılığın pərakəndə halda olması, bədii sənətkarlıq nümunələrinin digər ölkələrə müxtəlif məqsədlər üçün daşınması və sair bu qəbildən olan səbəblər muzey quruculuğunu əsrlərlə ləngitmişdir. Lakin bütün bu cür gərgin və mürəkkəb mərhələlərə baxmayaraq eramızın IX-XIX əsrlərində xalqımızın elmi, mədəniyyəti, incəsənəti, sənətkarlığında baş vermiş sıçrayışlı inkişaf orta əsrlər mədəniyyətimizin tərəqqi dövrünü keçirdiyini bir daha sübut edir. Həmin tarixi mərhələdə intibah dövrünü yaşayan xalqımız Avropa intibahını iki əsr geridə qoymuş və bütövlükdə dünya elmi, mədəniyyətinin, incəsənətinin inkişafına təkan vermiş, onu daha da sürətləndirmiş, zənginləşdirmişdir.

XIX əsrin sonu və XX əsrin əvvəllərində Bakının neft sənayesi mərkəzinə çevrilməsi bütün sahələrdə olduğu kimi, muzey quruculuğunun təşəkkülü və fəaliyyətinə böyük tələbat yaratmışdır.

ADR dövründə bu sahədə ilk qərarın qəbulu həyata keçirilmiş, sonrakı onilliklərdə - SSRİ dövrünün ilk illərində 1920-1930-cu illərdə muzey quruculuğunun təşəkkülü və ilkin fəaliyyət mərhələsində işlərin yerinə yetirilməsinə başlanıldı. Lakin bu onilliklərdə milli-mədəni dəyərlərə bolşevizm nöqteyi-nəzərindən yanaşıldığına görə təzyiqlər və repressiyalar sahənin elmi-tədqiqat fəaliyyətinə imkan verməmişdir. İkinci Dünya Müharibəsi dövründə də məlum hadisələr nəticəsində maddi mədəniyyət nümunələrinin toplanması, bərpası, işlənməsi, qorunması həyata keçirilməmişdir. Müharibədən

sonrakı quruculuq – bərpa illərində muzey quruculuğuna da nisbətən diqqət verilirdi.

Azərbaycanda tarixi-mədəniyyət abidələrinin tədqiqi, bərpası və təbliği, sıçrayışlı muzey quruculuğu, muzeyşünaslığın inkişafı və tərəqqisi 1969-cu ildən sonra, yəni Ulu Öndərin həm birinci, həm də ikinci dəfə ölkəmizə rəhbərliyi dövründə həyata keçirildi. 1969-1982-ci illərdə eyni zamanda 1993-2003-cü illərdə Ulu Öndər Heydər Əliyev Azərbaycanın bütövlüyünə, tərəqqisinə, eləcə də milli mədəniyyətimizin, eyni zamanda muzey quruculuğu, muzeyşünaslığın sıçrayışlı inkişafına nail olmuşdur. Sonrakı onilliklərdə və bu gün Möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının bütün sahələrdə olduğu kimi, bu sahəyə də ciddi diqqəti, qayğisi sayəsində tərəqqi prosesi davam etməkdədir.

Belə bir cəhəti də yaddan çıxarmaq olmaz ki, dünya şöhrətli müdriklərimiz, sənətkarlarımız, mütəfəkkirlərimiz Nizami, Xaqani, N.Tusi, Nəsimi, Füzuli, Vaqif, A.A.Bakıxanov, M.Ş.Vazeh, M.F.Axundov, S.Ə.Şirvani, M.Ə.Sabir, A.Səhhət, H.B.Zərdabi, R.B.Əfəndiyev, N.B.Vəzirov, F.B.Köçərli, N.Nərimanov, C.Məmmədquluzadə, A.Şaiq, Ü.Hacıbəyov, B.Kəngərli, Ə.Əzimzadə, C.Cabbarlı, S.Vurğun, S.Bəhlulzadə, L.Kərimov, T.Salahov, M.Abdullayev, N.Həbibov, P.Əfəndi və başqaları xalqın bədii təfəkkür zinətlərindən bəhrələnməklə, dəyərli incilər, nümunələr, əsərlər yaratmış, elmimizin, mədəniyyətimizin, ədəbiyyatımızın, incəsənətimizin inkişafı, formalaşması məqsədilə qiymətli fikirlər söyləmişlər. Məhz bu fikirlər, əsərlər, nümunələr, bütün sahələrdə inkişaf və formalaşmaya müxtəlif dövrlərdə öz müsbət təsirini göstərmiş, o cümlədən araşdırdığımız problemin ideya istiqamətinin təyinində mühüm əhəmiyyət kəsb etmişdir.

Elmi-ixtisas ədəbiyyatının araşdırılması və problemin müxtəlif aspektləri üzrə aparılan tədqiqatlar göstərdi ki, ölkəmizin tanınmış bir çox filoloq, filosof, mədəniyyətşünasları, etnoqraf, antponoloq, toponimika, arxeoloq, memar, pedaqoq,

psixoloq, sənətşünas, muzeyşünas alimləri müxtəlif dövr arxeoloji tədqiqatlar, əşya və nümunələrin seçilməsi, toplanması, öyrənilməsi, mühafizəsi, bərpası, təbliği, nümayişinin mahiyyəti, əhəmiyyəti, qarşılıqlı əlaqəli şəkildə formalaşması, bu sahədə aparılmış işlərin başlıca istiqamətlərinə toxunmuşlar.

Tanınmış muzeyşünas alimlər L.M.Şlyaxtina, Y.A.Starikova, K.Q.Levıkin, B.Xerbst, T.Y.Yureneva, Z.Stranskiy, Q.Qresse, S.Kixelberq, İ.D.Mayor, K.Linney, B.Bode, K.Xadson, R.Lyuis, X.Xellenkemper, Y.Romeder, A.Leon, L.Titer, V.Voşbern, Q.Burkov, V.Berns, D.Kameron, İ.Beneş, K.Şpayner, A.Razqon, M.Qnedovskiy, D.Ravikoviç, N.Nikişina, İ.Neustupnıy və digərlərinin muzeyşünaslığın mahiyyəti, vəzifələri baxımından dəyərli fikirləri mühüm əhəmiyyətə malikdir.

Araşdırmalardan məlum olmuşdur ki, elmi-ixtisas ədəbiyyatında problemin qoyuluşu hüquqi-normativ aktlarda, namizədlik, doktorluq dissertasiyalarinda, elmi-tədqiqat əsərlərində, dərslik, dərs vəsaiti, monoqrafiya, tədris-metodik vəsaitlərdə, jurnal-qəzet məqalələrində öz əksini tapmışdır. Muzeyşünaslıq sahəsində müxtəlif inkişaf prosesləri zəminində 1899-1950-ci, 1950-1968-ci, 1969-1990-ci, 1991-2010-cu illər inkişaf mərhələləri üzrə tədqiqat işləri aparılmış, vacib əhəmiyyətli müqayisələr nəticəsində müasir muzeyşünaslıq üçün lazımlı nəticələr əldə edilmişdir. 1899-1950-ci illər mərhələsində muzeylərin yaranması, muzeyşünaslığın təşəkkülü, inkişafı, müxtəlif illərdə fəaliyyətindəki ləngimələrin səbəbləri, yenidən bərpa işlərinin mənbələri araşdırılmış, bu mövzuda 19 muzeyin (finallarla birlikdə) mənbəyində problem əhəmiyyətli maraqlı nəticələr əldə edilmişdir.

1950-1968-ci illərin muzey quruculuğu və muzeyşünaslığının vacib inkişaf mərhələlərinin tədqiqi nəticəsində 38 muzeyin bazasında muzeyşünaslıq əhəmiyyətli faktlar aşkarlanmışdır.

1969-1991-ci illər və 1991-2010-cu illərin muzeyşünaslığının nəzəri və təcrübi istiqamətləri araşdırılmış, müxtəlif

inkişaf mərhələlərinin probleməhəmiyyətli elmi nəticələri ardıcıllıqla xronoloji qaydada sistemləşdirilmişdir.

XX əsrin 60-cı illərindən başlayaraq T.Salahov, L.Kərimov, M.Nəcəfov. F.Əmirov, Q.Qarayev, Ə.Bədəlbəyli, T.Quliyev, S.Ələsgərov, Ş.Axundova, A.Məlikov, Ə.Cavanşirov, O.Zülfüqarov, İ.Cəfərzadə, M.Abdullayev, K.Kərimov və bu kimi görkəmli mədəniyyət-incəsənət xadimlərinin muzeyşünaslıq nöqteyi-nəzərindən dəyərli elmi tövsiyələri problem əhəmiyyətlidir.

Müasir mərhələdə milli muzey quruculuğu və muzeyşünaslığın inkişafında N.Həbibov (219, 220), P.Əfəndi (134, 135), M.Nəcəfov (364, 365, 366), İ.Cəfərzadə, Ə.Salamzadə (427, 521, 522, 523, 524), S.Əmirxanov (176, 177, 178, 179, 180, 181, 182, 183, 184, 185, 186, 187, 188, 189, 190, 191, 192, 193), A.Bayramov (76, 77, 78, 79, 80, 81, 82, 83, 84, 85, 86, 87, 88, 89, 90, 91, 92, 93), A.Baxşıyeva (489, 490, 491, 492), H.Sadıqzadə (423, 424, 425) və başqalarının əsərlərində, elmi-metodik məqalələrində irəli sürdükləri fikir və mülahizələrdə muzey quruculuğu, sərgi-ekspozisiya fəaliyyəti, əşya-nümunələrin seçilməsi, toplanması, mühafizəsi, tədqiqi, bərpası, təbliği ilə əlaqədar muzeyşünaslığın nəzəriyyəsi və təcrübəsinin inkişafına əhəmiyyətli təsir göstərmişlər. Onlar muzey quruculuğu, muzeyşünaslıqla bağlı öz fikirlərini sənətşünaslıq, kulturoloji aspektlərdə işləyərək insanların muzeylər vasitəsilə, sərgi-ekspozisiyalar, digər rəngarəng muzey tədbirlərinin gücündən istifadə edilməklə öz təklif və tövsiyələrini işıqlandırmışlar.

Elmi-metodik aspektdə dərslik, dərs vəsaiti, monoqrafiya, tədris vəsaiti və elmi-tədqiqat işlərində isə ən çox muzeydaxili, muzeydənkənar sərgilərdən, tədbirlərdən, ayrı-ayrı yaradıcı sənətkarların əl işlərinə həsr edilmiş sərgi-tədbirlərindən, muzey yubiley tədbirləri, ölkədə baş vermiş dövlət əhəmiyyətli tədbirlər, yaradıcılıq bayramları, elmi-metodik xarakterli tövsiyələr, ayrı-ayrı muzeylərin elmi-yaradıcı imkan-larından, yollarından bəhs edilmişdir. Belə bir mövqe heç şübhəsiz, "Azər-

baycanda muzeyşünaslığın aktual problemləri"ni daha konkret şəkildə araşdırmaq, bununla əlaqədar müvafiq təhlil və ümumiləşdirmələr aparmaq zərurətini irəli sürür.

Tədqiqatın obyekti – Azərbaycanda muzey quruculuğu, muzeyşünaslığın elmi-nəzəri və təcrübi əsasları, muzey fəaliyyəti prosesində qarşılıqlı əlaqəliliyin nəticəsi, muzeyşünaslığın ən effektli imkanları, vasitələri, forma və yollarıdır.

Tədqiqatın predmeti – Azərbaycan muzeyşünaslığının elmi-nəzəri və təcrübi əsasları, muzey fəaliyyəti prosesində qarşılıqlı əlaqəliliyin nəticələri, muzeyşünaslığın ən effektli imkanları, vasitələri, metodları, forma və yollarıdır.

Tədqiqatın məqsədi - Azərbaycan muzeylərinin fəaliyyəti vasitəsilə muzeyşünaslığın aktual problemlərini, ümumi nəzəri və təcrübi məsələlərini, səciyyəvi xüsusiyyətlərini öyrənmək, ayrı-ayrı istiqamətlər üzrə müəyyən təhlillər və ümumiləşdirmələr aparmaq, milli muzeyşünaslığın təşəkkülü və formalaşması mənbələrini araşdırmaq, ünsürlərarası qarşılıqlı əlaqəliliyin mahiyyəti və əhəmiyyətini, muzey fəaliyyətinin imkan və formalarının milli muzeyşünaslıqda əhəmiyyətini müəyyənləşdirmək, müasir dövrün tələblərinə müvafiq olaraq problemin real həllinə zəmin yaradan işlərin forma, vasitə və yollarını araşdırmaq, təhlil etməkdən, optimallığı təmin edən problem əhəmiyyətli metodik tövsiyələr və təkliflər irəli sürməkdən ibarətdir.

Tədqiqat prosesində belə bir fərziyyə əsas götürülmüşdür ki, Azərbaycan muzeyşünaslığını dövrün başlıca tələblərinə müvafiq formada inkişaf etdirib tərəqqiyə nail olmaq üçün muzey fəaliyyətinin bütün istiqamətləri üzrə elmi-nəzəri və təcrübi işlərin inkişafına, formalaşmasına müvafiq elm, təhsil və mədəniyyət müəssisələri işçiləri, mütəxəssisləri tərəfindən xüsusi fikir verilərsə və bu proses milli muzeyşünaslıq prinsipləri əsasında aparılarsa, problem əhatəsində müvafiq qurumların əlbir fəaliyyəti mexanizmi təmin və tətbiq edilərsə, muzey fəaliyyəti sistem halında yerinə yetirilər, eyni zamanda milli

muzeyşünaslığımız səmərəli şəkildə, optimal əsaslarda inkişaf edər, formalaşar. Bu şərtlə ki;

– Azərbaycan xalqının qədim və zəngin mədəniyyətinə, milli və bəşəri dəyərlərə, milli adət-ənənələrin təcəssümü olan ayrı-ayrı maddi və mənəvi mədəniyyət nümunələrinə, bədii sənətkarlıq əsərlərinə istinad olunsun, bu istiqamətdə muzeyşünaslığın ümumi nəzəriyyəsi və təcrübəsi üzrə irəli sürülən vəzifələr müntəzəm, sistemli həyata keçirilsin;

– Azərbaycan muzeyşünaslığının tərəqqisi naminə muzeylərin elmi-tədqiqat mərkəzlərinə çevrilməsinə, muzeyşünaslığın nəzəri-metodoloji, tətbiqi fəaliyyət istiqamətlərinin mərhələlərlə tədqiqi daha da artırılsın, bu sahədə daha yeni, mütərəqqi forma və metodlar əldə edilsin;

– muzeylər bir institut kimi toplama, öyrənmə, qoruma, bərpa, təbliğ və nümayiş etdirmə proseslərinin muzeydənkənar müvafiq mühitlərlə əlbir fəaliyyət mexanizmi çərçivəsində həyata keçirmə mənbəyi kimi elmi-tarixi, mədəni informasiyaları əldə etsin və fasiləsiz olaraq gələcək nəsillərə ötürsün;

– muzey sərgi-ekspozisiyaları, digər muzey tədbirləri elmi əsaslarda təşkil edilsin və insanları hərtərəfli zənginləşdirməklə yanaşı, muzey işçilərinin özlərinin fasiləsiz təkmilləşdirilməsi, onların attestasiyası, müasir muzey texnologiyalarının öyrənilməsinə, tətbiqinə şərait yaradılsın, müasir seyrçilərin tələbatları peşəkarlar tərəfindən ödənilsin;

– milli muzeyşünaslığımızın dünya muzeyşünaslığındakı yeri, mövqeyi, çəkisi bilinsin və bəşəri muzeyşünaslığa inteqrasiya prosesi daha da sürətləndirilsin;

– muzeylərdə elmi kataloqlaşdırma işlərinin mexanizmə çevrilməsinə şərait yaradılsın.

Tədqiqatın məqsədi və fərziyyəsindən asılı olaraq qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

1. Azərbaycan muzeyşünaslığının elmi-nəzəri əsaslarının formalaşması üçün zəmin rolunu oynamış əsas mənbələri, müvafiq fikirlər sistemini öyrənib müqayisə etmək, ümumiləşdir-

mək, müxtəlif tarixi dövrlər mədəniyyətinin maddi və mənəvi dəyərlərindən istifadənin vəziyyətini araşdırıb təhlil etmək.

2. Milli muzeyşünaslığın ümumi nəzəriyyəsi və təcrübəsinin əsas formalarını, inkişaf yollarını, müasir muzey təcrübəsi zəminində problemin real vəziyyətini öyrənib araşdırmaq.

3. Problemin həlli istiqamətində muzeyşünaslığın mahiyyəti, vəzifələri, vasitə və yolları haqqında tədqiqatlar aparmaq, bu barədə nəzəri məlumatlar sisteminin hazırlanmasına nail olmaq.

4. Azərbaycanda muzey quruculuğunun mərhələlərlə tədqiqi və hər mərhələ üzrə müqayisə və ümumiləşdirmələr aparmaq.

5. Problemlə bağlı elmi-ixtisas ədəbiyyatının araşdırılması nəticəsində Azərbaycanda muzeyşünaslıq probleminin qoyuluşu və əsas inkişaf mərhələlərinin tədqiqinə nail olmaq.

6. Muzeyşünaslıqda ünsürlərarası qarşılıqlı əlaqələrin və qanunauyğunluqların mahiyyəti, əhəmiyyətinin tədqiqini həyata keçirmək.

7. Azərbaycanda muzey fəaliyyətinin imkanları və formalarının mahiyyətini araşdırmaq, muzeyşünaslıqda onların vacibliyinin əhəmiyyətini tədqiq etmək.

8. Müasir muzey texnologiyasının tətbiqinin muzeyşünaslıqda vacibliyi və əhəmiyyətini araşdırmaq, ümimiləşdirmələr aparmaq.

Tədqiqatın metodoloji əsaslarını müxtəlif tarixi dövrləri əhatə edən milli və ümumbəşəri dəyərlər, mənbələr, Azərbaycan bədii sənətkarlığı ustalarının, nümayəndələrinin mədəni-mənəvi ideyaları, xalq yaradıcılığının bir sıra növ və janrlarındakı bədii-təsir istiqamətləri, müdriklərimiz və mütəfəkkirlərimizin, mədəniyyət xadimlərimizin, rəssam, memar, heykəltəraş və bəstəkarlarımızın, teatr sənəti korifeylərinin mədəni-mənəvi fikirləri təşkil edir.

Tədqiqat prosesində aşağıdakı tədqiqat üsullarından istifadə edilmişdir:

1. Nəzəri təhlil. Problemlə əlaqədar əsərlər, "Muzeyşünaslıq"la bağlı dərsliklər, dərs vəsaitləri, monoqrafiyalar, elmi-təcrübi konfransların materialları, muzey quruculuğu, muzey işi, muzeyşünaslığa həsr olunmuş elmi-ixtisas ədəbiyyatı öyrənilib təhlil edilmiş, ümumuləşdirmələr aparılmış, müvafiq nəticələr çıxarılmışdır.

2. Sənədlərin öyrənilməsi. Muzey quruculuğu, muzey fəaliyyəti və müzeyşünaslıqla bağlı müxtəlif illərdə qəbul edilmiş normativ-hüquqi sənədlər, habelə proqramlar, dərsliklər, dərs vəsaitləri, monoqrafiyalar, tədris-metodik vəsaitlər, tövsiyələr araşdırılmış, tədqiqat üçün xarakterik olan müvafiq müqayisələr, ümumiləşdirmələr aparılmışdır.

3. Müşahidə. Muzeydaxili və muzeydənkənar sərgi-ekspozisiyalarda, digər müxtəlif muzey tədbirlərində müşahidələr həyata keçirilmişdir. 1997-ci ildən başlayaraq 138 muzeyində – o cümlədən Bakı şəhərindəki AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyində, AMEA-nın N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində, L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyində, P.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində, C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Müzeyində, Gəncə, Lənkəran, Lerik, Masallı, Quba, Qax, Şəki, Zaqatala, Qazax, Ağsu, Şamaxı və digər şəhər, rayon tarix-diyarşünaslıq, ev-xatirə muzeylərində sərgi və digər muzey tədbirlərində aparılan müşahidələr nəticəsində təhlillər aparılmış, müvafiq elmi nəticələr əldə edilmişdir.

4. Müsahibə. Yuxarıda göstərilən şəhər, rayonların müxtəlif profilli 138 muzeylərinin 1670 nəfər muzey işçisi, habelə 18.500 nəfər seyrçi-tamaşaçı ilə iki istiqamətdə müsahibə aparılmışdır: a) muzey fəaliyyəti, metodikası, muzeyşünaslığın ümumi nəzəriyyəsi, təcrübəsinə həsr olunmuş əsərlərdən, elmi-metodik məqalələrdən tamaşaçı – muzey münasibətlərini yüksək şəkildə, keyfiyyətlə qurmaq üçün hansı metodlardan, hansı hallarda istifadə edilməsini müəyyənləşdirmək məqsədilə mu-

zeyin bölmə, şöbə rəhbərləri, elmi-yaradıcı işçiləri, fond əməkdaşları, bərpaçılar, bələdçilər, kitabxanaçılar, direktor müavinləri, nəhayət direktorlarla şifahi müsahibə; b) seyrçi-tamaşaçıların sərgi-ekspozisiyadan əvvəl və sonrakı bilikləri qavramaları, zənginləşmə səviyyələri, formalaşma keyfiyyətlərini daha real səkildə öyrənmək məqsədilə anket sorğusu.

5. Eksperiment. Muzeydaxili və muzeydənkənar sərgilər və digər muzey tədbirləri prosesində tamaşaçıların maraqlarının artırılması, hansı metod, forma və yollardan istifadə ilə zənginləşmə keyfiyyətinin sürətlənməsinə nail olmanı öyrənmək məqsədilə Bakı, Gəncə, Lənkəran, Astara, Şəki, Ağsu, Qax, Zaqatala, Göyçay, Ağdaş, Oğuz muzeylərində həm işçi personalı, həm də seyrçilərlə eksperimentlər, sınaq təcrübələri aparılmışdır.

Tədqiq olunan əsas müddəalar:

1. Muzeyşünaslığın mahiyyəti, vəzifələri, prinsipləri, vasitə və yolları haqqında nəzəri məlumatların araşdırılması və sisteminin yaradılması.

2. Müxtəlif tarixi dövrlər Azərbaycan mədəniyyətini, milli yaradıcılığını və sənətkarlığını əhatə edən mənbələrin tədqiqi.

3. Azərbaycanda muzeylərin təşəkkülü və inkişafı, muzeyşünaslıq probleminin qoyuluşu və əsas inkişaf mərhələləri.

4. Azərbaycan muzeyşünaslığında ünsürlərarası qarşılıqlı əlaqələr və qanunauyğunluqların mahiyyəti və əhəmiyyəti. Muzey fəaliyyətinin mahiyyəti, məqsədi məzmunu, imkanları, mərhələləri və nəticələri üzrə qarşılıqlı əlaqələr, qanunauyğunluqlar.

5. Azərbaycanda muzey fəaliyyətinin formaları və imkanları. Muzeydaxili sərgi-ekspozisiyaların və muzeydənkənar səyyar sərgilərin milli muzeyşünaslıqda əhəmiyyəti.

6. Muzeydaxili və muzeydənkənar digər muzey tədbirlərinin səmərəliliyinin artırılmasında vacib başlıca tələblər.

7. Texnologiyaların muzeyşünaslıqda rolu.

Tədqiqatın elmi yeniliyi:

1. Tədqiqat prosesində problemin real araşdirilmasi, hərtərəfli müqayisələrin aparılması məqsədilə muzeyşünaslığın mahiyyəti, vəzifələri, prinsipləri, vasitə və yolları haqqında nəzəri məlumatlar sistemi hazırlanmışdır:

- ilk dəfə olaraq muzeyşünaslığın mahiyyəti ilə bağlı tədqiqatlar nəticəsində predmet, məqsəd, vəzifələr, prinsiplər aşkarlanmış, tiplərinə görə muzeylərin təsnifatı, profillərinə görə muzeylərin qrupları aydınlaşdırılmışdır. Muzeyşünaslığın predmetinin dörd əsas hissəni – muzey işinin tarixini, muzey işinin təşkilini, muzey mənbəşünaslığını və tətbiqi muzeyşünaslığı özündə birləşdirməsi də elmi ardıcıllıqla şərhini tapmışdır;

- ilk dəfə olaraq muzeyşünaslığın vəzifələri ilə əlaqədar araşdırmalar nəticəsində Azərbaycan və bir sıra dünya muzeyşünaslarının bu sahədəki elmi-tədqiqi fikirləri müqayisə edilmiş, müvafiq nəticələr əldə edilmişdir. İlk dəfə olaraq müəyyənləşdirilən muzeyşünaslığın vəzifələrinin elmi-nəzəri və təcrübi əhəmiyyəti əsaslandırılmış, müxtəlif mövzulu sərgi və digər muzey tədbirlərinin nəzəri və əməli gücə malik olması, muzeyşünaslığın tədqiqində sistemliliyin əldə edilməsi, fond fəaliyyətinin elmi araşdırma mexanizminin təyini, ekspozisiya, eksponat, məlumatlar, elmi araşdırma nəticələrinin qorunması, gələcək nəsillərə çatdırılmasının elmi həlli, muzey mənbəşünaslığının elmi-tədqiqi mahiyyəti, ekspozisiyanın nəzəri və təcrübi əsaslarda təyini, bərpa proseslərinin elmi əsaslarda həlli istiqamətləri və digər məsələlər tədqiqatın məzmununda əks etdirilmişdir;

- muzeyşünaslığın prinsiplərinin tədqiqi nəticəsində ayrı-ayrı muzeyşünasların araşdırmaları zəminində müvafiq nəticələrin təsnifatı verilmişdir. Muzey elmi-tədqiqatlarının təşkili, ekspozisiya işinin təşkili, sərgi və digər muzey kütləvi tədbirlərinin keçirilməsi, muzey əşyalarının elmi-tədqiqi, muzeyşünaslığın kompleks inkişafına təkan verən fond işinin elmi əsaslarda təşkili prinsipləri əsaslandırılmışdır;

- muzeyşünaslığın imkanları və vasitələrinin tədqiqi nəticəsində nəzəri və tətbiqi istiqamətlər sıx qarşılıqlı əlaqədə müqayisə edilmişdir. Burada nəzəriyyənin ümumi nəzəriyyə, sənədləşdirmə nəzəriyyəsi, elmi-fond işi nəzəriyyəsi və əlaqə nəzəriyyəsindən ibarət olması aydınlaşdırılmışdır. Tətbiq isə metodika, texnika, təşkil və idarəetməni birləşdirir;

- ilk dəfə olaraq muzeyşünaslığın elmi-tədqiqatlar vasitəsilə həm nəzəri, həm də tətbiqi istiqamətlər zəminində, qarşılıqlı əlaqəlilik və ziddiyyətlilik şəraitində zənginləşdiricilik, tərbiyəedicilik, maarifləndiricilik, təhsilləndiricilik, inkişafetdiricilik və formalaşdırıcılıq imkanları aşkar edilmiş və müasir muzeyşünaslığın keyfiyyətli inkişafı baxımından mühüm əhəmiyyəti göstərilmişdir.

2. Araşdırmalar nəticəsində müxtəlif tarixi dövrlər Azərbaycan mədəniyyətini, milli yaradıcılığını və bədii sənətkarlığını əhatə edən mənbələr aşkar edilmişdir.

3. İlk dəfə olaraq Azərbaycanda muzeylərin yaranması səbəbləri, muzey quruculuğu və inkişafı dinamik şəkildə təhlil edilmiş, ümumiləşdirmələr, müqayisələr aparılmış, müvafiq elmi nəticələr verilmişdir.

4. İlk dəfə olaraq Azərbaycanda muzeyşünaslığın ümumi nəzəriyyəsi və təcrübəsi probleminin elmi-ixtisas ədəbiyyatında qoyuluşu, əsas inkişaf mərhələləri əhatəli şəkildə araşdırılmış, Bakı şəhərində, Azərbaycanın ayrı-ayrı zonalarında fəaliyyət göstərən müxtəlif profilli muzeylərin fəaliyyətinin elmi-metodik istiqamətləri təhlil edilmiş, milli muzeyşünaslığın perspektivi istiqamətində nəzəri və təcrübi əhəmiyyətli nəticələr verilmişdir.

5. Muzeyşünaslıqda ilk dəfə olaraq muzey fəaliyyətində ünsürlərarası qarşılıqlı əlaqələr və qanunauyğunluqlar aşkarlanmış, onların mahiyyəti və əhəmiyyəti ardıcıllıqla sistemləşdirilmişdir. Muzeyşünaslıqda mühit amilinin nəzəri və təcrübi aspektləri ilk dəfə tədqiq edilmiş, ümumiyyətlə mühitin mühüm əhəmiyyəti aşkar edilmişdir:

- fəaliyyətdə mühit və şəraitin yeri, əhəmiyyəti üzrə qarşılıqlı əlaqələrdə muzey fəaliyyətinin əhatə olunduğu mühitdən, şəraitdən, muzey mühitindən asılılığı, muzey mühitində yaradıcı ilə tamaşaçı arasındakı qarşılıqlı əlaqələrin qanunauyğunluğa çevrilməsi tədqiq edilmişdir;

- muzey fəaliyyətinin mahiyyəti üzrə qarşılıqlı əlaqələr və qanunauyğunluqlarda muzey işçisi, ekspozisiya və tamaşaçı fəaliyyətinin biri-birini şərtləndirməsi, muzey mühiti vasitəsilə dərketmənin ekspozisiya materialından asılılığı, zəngin-ləşmənin muzey tədbirlərinin keyfiyyətindən asılılığı və elmi idrakla yaradıcı idrak arasındakı ziddiyyətlərin baş verməsi, aradan qaldırılması səbəbləri araşdırılaraq muzeyşünaslıq əhəmiyyətli yeniliklər əldə edilmişdir;

- muzey fəaliyyətinin məqsədi üzrə qarşılıqlı əlaqələr və qanunauyğunluqlarda qarşıya qoyulan məqsədin yerinə yetirilməsində muzeydaxili əlaqə və asılılıqların nizamlanması, əlaqələrdə vahid məqsədə xidmət edilməsi və müvafiq nəzarətin vacibliyi tədqiq edilmiş, müvafiq qanunauyğunluqların və qanunların yaranması səbəbləri elmi ardıcıllıqla təhlil edilmişdir;

- muzey fəaliyyətinin məzmunu üzrə qarşılıqlı əlaqələr və qanunauyğunluqlarda məzmunun elmi-bədii yaradıcılıqdan asılılığı, muzey fəaliyyətində planlılıq, ardıcıllıq və mütəmadiliyin əlaqəsi, biri-birini şərtləndirməsi, məzmunla vasitələrin əlaqəsi, muzey fəaliyyətində mövcud tədqiqat metodlarının əlaqəsinin qanunauyğun şəkil alması və qanuna çevrilməsi araşdırılmış, sahənin elmi nəticələri əldə edilmişdir;

- muzey fəaliyyətinin imkanları üzrə qarşılıqlı əlaqələr və qanunauyğunluqlarda tərbiyəedici, təhsilləndirici, inkişafetdirici və formalaşdırıcı imkanlar arasındakı sıx qarşılıqlı əlaqəlilik tədqiq edilmiş, ilk dəfə olaraq bu əlaqələrin qanunauyğunluğa çevrilməsi əsaslandırılmışdır;

- muzey fəaliyyətinin nəticələri üzrə qarşılıqlı əlaqələr və qanunauyğunluqlarda mənəvi zənginləşmə nəticəsinin mu-



Bakı Dövlət Universiteti ELMİ KİTABXANA

zey fəaliyyətinin üsul və vasitələrindən asılılığı, nəticənin muzey fəaliyyəti ünsürlərinin əlaqə və vəhdətindən, biri-birini şərtləndirməsindən asılılığı, fəaliyyət nəticəsində mənəvi zənginləşmənin elmi-yaradıcı dünyagörüşü və hərtərəfli formalaşmanı inkişaf etdirməsinin qanunauyğunluğa çevrilməsi araşdırılaraq nəticələr əldə edilmişdir;

– muzey fəaliyyətinin mahiyyəti, məqsədi, məzmunu, imkanları, mərhələləri, nəticələri üzrə qarşılıqlı əlaqələr və qanunauyğunlar arasındakı fəaliyyət mexanizmi müəyyənləşdirilmiş, hər qanunauyğunluğun digəri üçün zəminə çevrilməsi aşkarlanmışdır.

6. İlk dəfə olaraq Azərbaycanda muzey fəaliyyətinin formaları və imkanlarının, sərgi-ekspozisiyaların və digər muzeydaxili, muzeydənkənar tədbirlərin muzeyşünaslıq əhəmiyyəti sistemləşdirilmiş, onların səmərəliliyinin artırılmasında vacib başlıca tələblər müəyyənləşdirilmiş, ardıcıllıqla verilmişdir.

7. Texnologiyaların muzeyşünaslıqda yeri və əhəmiyyəti ilk dəfə olaraq müəyyənləşdirilmişdir.

Tədqiqatın nəzəri əhəmiyyəti bundan ibarətdir ki, Azərbaycan muzeyşünaslığının ümumi nəzəriyyəsi və təcrübəsi problemi üzrə nəzəri məlumatlar sistemi, milli muzeyşünaslığın təşəkkülü, inkişaf mərhələləri və formalaşması mənbələrinin elmi-nəzəri əsasları (prinsiplər, şərtlər, istiqamətlər), ünsürlərarası qarşılıqlı əlaqələrin və qanunauyğunluqların mahiyyəti, əhəmiyyəti, muzey fəaliyyətinin formaları, imkanlarının milli muzeyşünaslıqda əhəmiyyəti (sərgi-ekspozisiyalar, digər muzey tədbirləri, texnologiyalar) üzrə müəyyənləşdirilən başlıca tələblər və muzey fəaliyyətinin daha da təkmilləşdirilməsi baxımından elmi-nəzəri təminat yaradılmışdır.

Tədqiqat nəticələrinin praktik əhəmiyyəti və təcrübəyə tətbiqi bu sahədə mövcud olan inkişafın vəziyyəti ilə şərtlənir. Müəllifin Azərbaycan muzeyşünaslığının ümumi nəzəriyyəsi və təcrübəsi sahəsində əhəmiyyətli dönüş yarada bilən tədris proqramları, dərslikləri, dərs vəsaitləri, monoqrafiyaları, meto-

dik vəsaitləri, metodiki tövsiyələri, elmi-metodik məqalələri çap edilmiş (165 çap vərəqi həcmində), oradakı ideyalar muzey işi təcrübəsinə, ayrı-ayrı profilli muzeylər üçün peşəkarların hazırlığı prosesinə tətbiq edilmiş, muzey rəhbərlərinə, bölmə, şöbə müdirlərinə, bələdçilərə, təşkilatçılara, muzeyşünaslara, nəzəri-əməli köməklik göstərmişdir.

Tədqiqatın aprobasiyası problemlə əlaqədar müxtəlif məzmunlu, formalı eksperimentlər, sınaq təcrübələri, onların nəticələrinin öyrənilməsi, araşdırılması, ümumiləşdirilməsi, yayılması mühazirə və çap materialları vasitəsilə həyata keçirilmişdir (2 dərslik, 1 dərs vəsaiti, 7 monoqrafiya, 16 tədris proqramı, 4 metodik vəsait və tövsiyə, 14 tezis, 30 jurnal məqaləsi şəklində).

Tədqiqatın gedişi, nəticələri Bakı şəhəri və Respublikanın şəhər və rayon muzeylərində - Gəncə, Lənkəran, Astara, Göyçay, Oğuz, Şəki, Qax, Zaqatala və digər muzeylərdə müzakirə edilib bəyənilmişdir.

Tədqiqatın əsas məzmununu əks etdirən nəzəri-praktiki müddəalar beynəlxalq və respublika elmi-praktik konfranslarında (Bakı, 1998, 1999, 2000, 2001, 2002, 2010, 2011), həmçinin Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində muzeyşünaslıq üzrə ayrı-ayrı fənn müəllimlərinə, muzey rəhbərləri və işçilərinə çatdırılmışdır.

# I FƏSİL. AZƏRBAYCANDA MUZEYŞÜNASLIĞIN AKTUAL PROBLEMLƏRİ İLƏ BAĞLI NƏZƏRİ MƏLUMATLAR SİSTEMİ

## 1.1. Azərbaycan muzeyşünaslığının mahiyyəti

Müxtəlif tarixi dövrlərdə cəmiyyətin inkişafı ayrı-ayrı elm sahələrinin yaranması, tərəqqisi ilə sıx əlaqədə olduğundan, elm və mədəniyyətin təkanverici təsiri bəzi dövrlərdə hətta qanunauyğun şəkil almış, dövlətlərin mədəniyyət sistemi yaranmışdır. Dövlət mədəniyyət sisteminin əsaslarından hesab edilən muzeylər müxtəlif profilli olmaqla, hazırda aparıcı mövqeyə malikdir. “Muzey (latınca – museum, yunanca – museyon-muzalara həsr edilmiş yer, muzalar məbədi; musa – muza sözündən) – təbiyyat tarixi, maddi və mənəvi mədəniyyət abidələrini komplektləşdirən, saxlayan, öyrənən və nümayiş etdirən elmi-maarif müəssisəsi” (40, s. 86; 352, s. 6; 310; 354; 181, s. 48-49; 217, s.8). “Muzeyşünaslıq, muzeologiya-muzeylərin yaranması, elmi-ictimai fəaliyyəti, muzey işinin nəzəriyyə və metodikası, muzey memarlığının əsasları, muzeylərin müasir avadanlıq və eksponatlarla təchizi məsələləri ilə məşğul olan elm sahəsi” (352, s. 86). “Muzeyşünaslıq” dərsliyində isə tərif aşağıdakı şəkildə verilmişdir: “Muzeyşünaslıq – muzeylərin yaranması, muzey fəaliyyətinin elmi-tədqiqi, ictimai mərhələləri, nəzəri əsasları, metodu, metodoloji əsasları, qanunauyğunluqları, qanunları və prinsiplərindən bəhs edən elmdir” (352, s.8).

Bir sıra Rusiya muzeyşünas – alimlərinin muzeyşünaslığa verdiyi təriflərdə də eynilik mövcuddur. Belə ki, T.Y.Yurenevaya görə “Muzeyşünaslıq insanın reallığa qarşı xüsusi muzey münasibətini və ondan törənən muzey fenomenini öyrənən, sosial informasiyanın qorunub saxlanılması proseslərini,

onun muzey əşyaları vasitəsilə dərk olunması və ötürülməsini, eləcə də muzey işinin inkişafını və muzey fəaliyyətinin istiqamətlərini tədqiq edən, formalaşmaqda olan elmdir" (536, s.12).

L.M.Şlyaxtinaya görə isə "Muzeyşünaslıq – sosial informasiyanın qorunub saxlanılması proseslərini, muzey əşyaları vasitəsilə bilik və emosiyaların dərk olunması və ötürülməsini, muzey işini, muzeyi ictimai institut kimi, onun sosiomədəni funksiyaları və onların müxtəlif ictimai-iqtisadi şəraitdə həyata keçirilmə formalarını öyrənən elmdir" (533, s.6).

Onlar bu təriflərdə muzeyşünaslığa qismən fərqli yanaşsalar da, məzmun etibarı ilə eynilik mövcuddur. Bu eynilik xüsusilə T.Y.Yurenevanın "Muzeyşünaslıq" (rus dilində) dərsliyində (407, s.12), L.M.Şlyaxtinanın "Muzey işinin əsasları" (rus dilində) dərs vəsaitində (533, s.6), Y.A.Starikovanın "Muzeyşünaslıq" (rus dilində) mühazirə konspektlərində (526, s.3), professorlar K.Q.Levıkin və B.Xerbstın redaktorluğu ilə çap edilmiş "Muzeyşünaslıq" (rus dilində) dərs vəsaitində (514, s.9) nəzərə çarpır. Bu təriflərdə muzeyşünaslıq bir neçə "proses"in mövcud muzey "vasitələri"lə həyata keçirilmə "formaları"nı öyrənən elm kimi xarakterizə edilmişdir. Burada sosial informasiyanın muzey əşyaları vasitəsilə qorunub saxlanması, dərk olunması, öyrənilməsi, gələcək nəsillərə ötürülməsi formalarının kompleks şəkildə tədqiqi əsas məzmunu təşkil edir. Bütün bu proseslər müvafiq obyekt, mühit, şəraitdə, yaradılan vəziyyətlərdə həyata keçirilir ki, bu mühit də muzeydir. Məhz muzey vasitəsilə muzeyşünaslıq "prosesləri", bütövlükdə müzeyşünaslıq elminin kompleks xarakteri öz həllini tapmışdır. Muzey mühitində, şəraitində isə mövcud imkanlar, ayrı-ayrı fəaliyyət mənbələri, idraki proseslər, texnoloji vasitələr də əlavə edilməklə komplekslilik yaranır ki, bu da ümumi fəaliyyət mexanizminin yaranmasına səbəb olur.

Araşdırmalar nəticəsində məlum olmuşdur ki, bütövlükdə həmin kompleks fəaliyyət mexanizminin yaranmasında müvafiq qanunauyğunluq da vardır. Bu qanunauyğunluq fəaliyyətin ayrı-ayrı sahələrində öz müsbət təsirini göstərir. Məhz bu təsi-

rin keyfiyyət dərəcəsi fəaliyyət prosesləri arasındakı qarşılıqlı əlaqəliliyin qanunauyğunluqlara çevrilməsi effektivliyində, sürətində, mərhələliliyində özünü büruzə verir. Belə qarşılıqlı əlaqəlilik muzey fəaliyyətinin bütün sahələrində mövcuddur. Toplanma, öyrənilmə, dəyərləndirilmə, bərpa, qorunma, nümayiş, təbliğ, gələcək nəsillərə ötürülmə mexanizminin həyata keçirilməsi və sair proseslər qarşılıqlı əlaqəli şəkildə idraki proes daxilində qanunauyğun şəkil alır. Təbiidir ki, bu qanunauyğunluq mərhələlər nəticəsində baş verir. Fond fəaliyyəti, ayrı-ayrı bölmə və şöbələrin fəaliyyəti, sərgi-ekspozisiya, elmi-tədqiqat, toplama , bərpa və qorunma fəaliyyəti, tərbiyəedici, təhsilləndirici,zənginləşdirici fəaliyyətlər və digər muzeydaxili, muzeydənkənar fəaliyyətlərarası qarşılıqlı əlaqəlilik qanunauyğun şəkil almaqla, inkişafa təkan verir və mövcud qanunauyğunluq gücü sayəsində yeni, daha vacib, səmərəlilik gətirən fəaliyyətlər üçün zəmin yaranır, lazımsız fəaliyyətlər isə getdikcə sıradan çıxır.

Mənbələrdə göstərildiyi kimi, "Muzey fəaliyyətinə:

- muzey kolleksiyalarının və əşyalarının komplektləşdirilməsi, onların qeydiyyatının mühafizəsinin məqsədyönlü təşkili və bütövlüyünün təmin olunması;
- muzey kolleksiyaları, arxiv, kitabxana və digər materiallar əsasında səmərəli elmi tədqiqatlar;
- muzey ekspozisiyalarının və sərgilərin təşkili, muzey fəaliyyəti sahəsində dizayn və tərtibat işlərinin həyata keçirilməsi;
- muzey əşyalarının konservasiyası və bərpasının bütün növləri;
- muzey kolleksiyalarının kataloqlarının hazırlanması və nəşr olunması;
- muzeydaxili kütləvi tədbirlərin təşkili və muzeydənkənar tədbirlər;
- muzey mühiti vasitəsilə tərbiyə prosesinin səmərəli təşkili;
- muzey kolleksiyalarının tətbiqi daxildir" (310; 354; 352, s.6).

Beləliklə, yuxarıda göstərilən fəaliyyət növləri arasında da sıx əlaqəliliyin olması muzeyşünaslıqdakı elmiliyin, planlılığın, ardıcıllığın biri-digəri üçün zəminə çevrilməsini bir daha təsdiq edir.

Muzeyşünaslığın quruluşu tarixiliyi, nəzəriyyəni, mənbəşünaslığı və tətbiqi özündə birləşdirmişdir (536, s.371; 533, s.9; 514, s.24; 352. s.9).

Mahiyyət baxımından quruluş ünsürləri arasında da sıx əlaqəlilik mövcuddur. Belə ki, muzeyşünaslığın nəzəriyyəsi özündə "Ümumi nəzəriyyə", "Sənədləşmə nəzəriyyəsi", "Elmi fond işi nəzəriyyəsi" və "Kommunikasiya nəzəriyyə"lərini birləşdirir ki, bunlar da biri digərini şərtləndirir, inkişafa səbəb olur, komplekslilliyə zəmin yaradır, həmçinin "Tətbiqi muzeyşünaslığ"ın tərkib hissələri olan elmi metodika, texniki avadanlıq, təşkil və idarəetmə də sıx əlaqəli xarakterə malikdir. Tədqiqatçı-muzeyşünas C.Əmirxanov tətbiqlə, nəzəriyyənin zaman daxilində sıx qarşılıqlı əlaqəsini belə əsaslandırmışdır: "Tətbiqi muzeyşünaslıq bir tərəfdən, əldə edilmiş təcrübənin müəyyən zaman, tarixi dövr ərzində formalaşmasını sübut edir. Burada fəaliyyətin tarixə istinadən baş verdiyi bəlli olur. Digər tərəfdən isə, muzeyşünaslığın nəzəri əsaslarının təkmilləşməsi və tətbiq edilməsi tədqiq edilir. Bu prosesdə də zaman öz işini görür. Lakin hər iki halda nəzəriyyənin təcrübəyə tətbiqi və tətbiqdən yeni nəzəri fikirlərin, ideyaların, konsepsiyaların əmələ gəlməsi prosesi baş verir. Yəni, qarşılıqlı əlaqəlilik müəyyən tarixi zaman çərçivəsində "yeni"nin yaranmasında zəminə çevrilir" (179, s.214). S.Əmirxanov "Tətbiqi kulturologiya" dərsliyində "Tətbiqi muzeyşünaslıq"ın tərkib hissələri (179, s. 213-217) və onun əsas xüsusiyyətlərini araşdırmış (179, s.217), bu sahədəki elmi nəticələrini ilk dəfə olaraq göstərmişdir.

Dünyanın tanınmış muzeyşünas-ailmlərinin müzeyşünaslıq məsələlərinin tədqiqi ilə bağlı bir sıra fərdi fikirləri, elmi nəticələri mövcuddur.

T.Y.Yureneva göstərmişdir ki, "muzeologiya" anlayışı

XIX əsrin sonuncu onilliyində elmə bəlli olmuşdur. 1877-ci ildə Drezdendə "Muzeologiya və antikvarşünaslıq jurnalı" ("Zeitschrift tür Museologie und Antiguitətenkunde") işıq üzü görmüş, 1883-cü ildə isə onun səhifələrində doktor Y.Q.Qrassenin yeni tədqiqatlarının nəticəsi olaraq "Muzeologiya bir elm kimi" məqaləsi çap olunmuşdur (536, s.3).

XX əsrin əvvəllərində muzey problemlərinə həsr edilmiş ilk jurnallar çap olunmağa başlamışdır. 1901-ci ildə Böyük Britaniyada "Museums Journal", 1905-ci ildə isə Almaniyada "Museumkunde" nəşr edilmişdir. 1927-1946-cı illərdə isə muzeologiya problemləri monoqrafiya seriyası çap edilmişdir. 1946-cı ildə Parisdə Beynəlxalq Muzeylər Şurası (İCOM) təsis edildi (international Council of Museums). Həmin qurum dünyanın muzeyləri və muzey peşəkarları arasında qarşılıqlı əlaqəli şəkildə muzey işinin inkişafı sahəsində proqramların hazırlanması və texniki təchizatı məsələləri mexanizmini yerinə yetirirdi. 1948-ci ildən isə "Museum" jurnalı nəşrə başlamışdır (536, s. 3-4). Bu jurnalda bütün növ və profillərdən olan muzeylərin fəaliyyəti, təcrübəsi və muzey işinin aktual problemlərindən bəhs edən məqalələr çap edilirdi.

Araşdırmalardan məlum olmuşdur ki, ayrı-ayrı ölkə alimləri problemlərilə əlaqədar muzeyşünaslığa müxtəlif mövqelərdən yanaşmışlar.

Qərbi Avropa tədqiqatçılarının bir qrupunun – S.Kuxelberq, İ.D.Mayor, K.Linney, Y.Q.Qresse, V.Bode və digərlərinin adları muzey işinin uzunmüddətli qədim kökləri ilə bağlıdır, bu gün isə aparılan tədqiqatlar K.Xadson, R.Lyuis, X.Xellenkem-per, Y.Romeder, A.Leon və digər muzeyşünas-alimlərin adları ilə bağlıdır.

Amerika muzeyşünasları muzey fəaliyyətinə münasibətdə empirik xüsusiyyətləri ilə fərqlənməklə, fərdi münasibətdədirlər. Belə müəlliflərdən L.Titer, V.Voşbern, Q.Burkov, V.Berns, D.Kameron (Kanada) və başqalarını göstərmək olar.

Şərqi Avropa alimləri – V.Qluzinskiy (548), Y.Beneş

(549,550,551,552,553), Z.Stranskiy (554,555,556), K.Şrayner (534),A.Razqon, M.Qnedovskiy, D.Ravikoviç, N.Nikişina və digər ölkə alimlərinin – E.Alexanderin (538), Hudsonun (539, 540), E.Şneyderin (542), A.Uittlinin (543,544), B.Ennenbaxın (545), E.Hofmanın (546), L.Holmun (547) muzeyşünaslığın müstəqil bir elm olması ilə əlaqədar tədqiqatları mövcuddur (533, s.6).

1950-ci illərin çex muzeyşünası Y.Neustupnıy muzeyşünaslığı elm kimi iki hissəli – ümumi və xüsusi muzeyşünaslıq hesab etmişdir (533, s.6; 536,s.5). O, muzeyşünaslıqda elmi profili əsas hesab etmişdir (533, s. 6; 514, s.10;536, s.5).

Azərbaycanda və digər ölkələrdə muzeyşünaslığın inkişafı, ayrı-ayrı eksponatların təsir gücündən bəhs edən internet saytlarında da problem əhəmiyyətli bəzi məsələlərə qismən də olsa aydınlıq gətirilmişdir (557, 558, 559, 560, 561, 562, 563, 564, 565, 566, 567, 568, 569, 570, 571).

Muzeyşünaslıq haqqında mövcud fikirlərdən çıxış edərək öz fikrini sistemləşdirməyə çalışan Slovak tədqiqatçısı Z.Stranskiy muzeyşünaslığa dörd qrup yanaşmanı aşağıdakı şəkildə vermişdir:

- muzeyşünaslıq – müstəqil elmi predmetdir;
- muzeyşünaslıq – muzey işinin nəzəriyyəsi və metodikası, tətbiqi, köməkçi elmdir;
- muzeyşünaslıq – kəmiyyətcə texniki və metodiki yanaşmalardır;
- muzeyşünaslığın bir elm kimi inkar edilməsi (536, s. 5; 533, s.7).

Z.Stranskinin muzeyşünaslığa elmi yanaşmasının əsasını təşkil edən ideya ondan ibarətdir ki, muzeyin topladığı və qoruduğu "əşyalar" deyil, sənədlərdir ki, bunlar da təbiətdə və cəmiyyətdə baş verən prosesləri əks etdirir" (533, s.7; 514, s.11).

Muzeyşünaslığın predmeti ilə bağlı bir sıra dünya muzeyşünaslarının nəzəri nöqteyi-nəzərdən nisbətən fərdi yanaş-

maları mövcuddur. İnstitual yanaşma tərəfdarları hesab edirlər ki, muzeyşünaslığın predmeti – muzeyin sosial institut kimi fəaliyyəti deməkdir (536, s. 6). Bununla bəzi tədqiqatçı-alimlər muzeyşünaslığın tədqiqat predmetini muzey və onun funksiyaları ilə məhdudlaşdırmışlar, digərləri isə buna bütöv muzey işini də əlavə etməklə daha geniş məna vermişlər (536. s.6). Məsələn, slovak tədqiqatçısı İ.Beneşin fikirlərinə görə muzeyşünaslığın predmeti öz sosial funksiyaları vasitəsilə muzey işinin fəaliyyət sahələrinin cəmindən ibarətdir (536, s.6; 514, s.11). Fransız muzeyşünası J.A.Ruverə görə muzeyşünaslığın predmeti muzeylərin tarixinin və onların cəmiyyətdəki rolunun tədqiqindən ibarətdir. İCOM tərəfindən isə göstərilmişdir ki, "Muzeologiya – muzeylər haqqında elmdir" (536, s.7).

Tədqiqatçı – alim T.Y.Yurenevanın araşdırmalarında göstərilir ki, institusional yanaşmanın opponentlərinin fikirlərinə görə muzey, muzeyşünaslığın predmeti sayıla bilməz, çünki muzey – müvafiq işləri yerinə yetirən müəssisədir, təşkilati mərkəzdir. Digər vasitənin – muzey əşyasının burada mühüm rolu, əhəmiyyəti, bu və ya digər dərəcədə təsir qüvvəsinə malik olması ön plana çəkilməlidir ki, buradan da əşyavi yanaşma meydana çıxır (536, s.7). Bununla əlaqədar alman tədqiqatçısı K.Şraynerin fikri maraqlıdır: "... muzeyşünaslıq – muzey obyektlərinin toplanması, qorunub saxlanması, öyrənilməsi və istifadə edilməsi haqqında elmdir" (534, s.47; 514, s.12).

Çex alimi Z.Stranskinin (536,s.7) və Polşa tədqiqatçısı V.Qluzinskinin (514, s.11) fikirlərinə görə muzeyşünaslığın predmetindən bəhs edərkən kompleks yanaşmanın əhəmiyyəti nəzərə alınmalıdır. Z.Stranskinın və V.Qluzinskinin bu sahədəki elmi fikirləri slovak tədqiqatçısı A.Qreqorovanın, rus tədqiqatçısı A.M.Razqonun kompleks yanaşma ilə bağlı fikirlərilə uyğun gəlir (536, s.8).

Beləliklə, "Muzeyşünaslığın predmetini – muzeylərin, muzey işinin yaranması, inkişafı və ictimai funksiyalaşması,

muzey əşyaları vasitəsilə sosial informasiyaların toplanması, elmi biliklərin, adət-ənənələrin dərki və ötürülməsi proseslərinin obyektiv qanunauyğunluqları təşkil edir" (514, s.12, 536, s.8).

Azərbaycan muzeyşünaslığında ilk dəfə olaraq tədqiqatçı – muzeyşünas S.Əmirxanov tərəfindən muzeyşünaslığın predmeti, məqsədi, vəzifələri və prinsipləri verilmiş, muzey işinin tarixi, muzeyşünaslığın quruluşu, muzey işinin nəzəriyyəsi, muzey fəaliyyətinin mərhələləri, elmlər sistemində yeri, qısa şəkildə sənədləşdirmə nəzəriyyəsi, fond işi nəzəriyyəsi, muzey işinin təşkili metodikası elmi ardıcıllıqla göstərilmişdir (352, s.6-23). S.Əmirxanov muzeyşünaslığın predmetini aşağıdakı şəkildə vermişdir; "... muzeyşünaslığın predmeti – obyektiv qanunauyğunluqlar əhatəsində tarixi dövrlərdən bu günə qədər baş vermiş hadisələrin təcəssümünü əks etdirən əşya, materiallar, bədii sənətkarlıq nümunələri və bunların əsasında yaranmış məlumatlar, bilik və yaradıcı bacarıqlar, qabiliyyətlərin muzey fəaliyyətilə nəsillərə ötürül-məsinin sistemləşdirilməsidir" (352, s.8). S.Əmirxanovun bu fikrində komplekslilik mövcuddur. Belə ki, birincisi, obyektiv qanunauyğunluqlar – mühit sayılır; ikincisi, əşyalar, materiallar, bədii sənətkarlıq nümunələri ayrı-ayrı tarixi dövr hadisələrinin təcəssümçüsü, daşıyıcısı hesab edilir; üçüncüsü, həmin nümunələrin əsasında mərhələlərlə məlumatlar, biliklər, bacarıqlar yaranır, qabiliyyətlər formalaşır; dördüncüsü, yaranan məlumat və biliklər, bacarıqların gələcək nəsillərə ötürülməsi sistemləşdirilir. Beləliklə, Azərbaycan muzeyşünaslığındakı bu tərif kompleks xarakterə malik olmaqla, daha əhatəlidir, tamdır.

Muzeyşünaslığın məqsədi milli muzeyşünaslıqda ilk dəfə olaraq S.Əmirxanov tərəfindən aşağıdakı şəkildə göstərilmişdir:

"Muzeyşünaslığın məqsədi – fəaliyyət vasitəsilə məzmunun mahiyyətini, səciyyəvi xüsusiyyətlərini, əsas istiqamətlərini, qanunauyğunluqlarını, prinsiplərini, forma, metod, vasitə

və yollarını araşdırmaq, həmçinin formalaşmada təsirini müəyyənləşdirməkdir" (352, s.8).

S.Əmirxanov da muzeyşünaslığın tarixilik, nəzəriyyə, mənbəşünaslıq və tətbiqdən ibarət olduğunu göstərmişdir (352, s. 9).

Muzeylər sosiomədəni müəssisə olmaqla fəaliyyətlərinə görə kolleksiyaların zənginliyindən asılı olaraq tipinə (növü), forması və profilinə görə fərqlənirlər. "Muzeylər əsasən, tədqiqi-elmi-maarifçi (əksəriyyət təşkil edir və ümumi kütləvi xarakter daşıyır), elmi-tədqiqat institutlarının nəzdində tədqiqat, həmçinin tədris tipli olurlar; profillərinə görə (tarix, təbiyyat, incəsənət, ədəbiyyat, texnika muzeyləri) bir-birindən fərqlənirlər. Memorial (xatirə) muzeyləri xüsusi qrup təşkil edir. Bunlardan başqa kompleks muzeylər də mövcuddur" (51, s. 86).

Tiplərinə görə muzeylərin təsnifatı elmi-tədqiqat, elmi-maarif və tədris muzeylərinə bölünürlər (533, s.36; 536, s. 336-340). Elmi-maarif muzeyləri daha geniş yayılmaqla, ictimai biliklərin yayılması baxımından mühüm əhəmiyyət kəsb edirlər. Buraya şəhər, qəsəbə tarixi muzeyləri, Şirvanşahlar Muzey kompleksi, Qobustan Tarixi Muzeyi və s. aiddir.

Elmi-tədqiqat tipli muzeylərdə isə əsas vəzifə muzeyin profili üzrə elmi-tədqiqat işlərinin həyata keçirilməsindən ibarətdir. Məsələn, AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyi, AMEA-nın Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi və s.

Tədris muzeyləri cəmiyyətdə təhsilləndiriciliyi, öyrədici fəaliyyətləri ilə seçilirlər. Azərbaycanın bütün ali təhsil ocaqları, orta ixtisas və ümumtəhsil məktəblərində fəaliyyət göstərən muzeylər bu qəbildəndir və yüksək təhsilləndiricilik əhəmiyyətinə malikdirlər.

Azərbaycanda hazırda 3 tipi özündə əks etdirən muzeylər mövcuddur. Məsələn, AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinin həm elmi-tədqiqatçılıq, həm elmi-maarifçilik, həm də təhsilləndiricilik imkanları böyükdür və 3 tipli muzeydir. Həmçinin, AMEA-nın N.Gəncəvi adına Azərbaycan Ədəbiyyatı

Tarixi Muzeyi də hər 3 tipi özündə birləşdirmişdir. Azərbaycanın bölgələrində fəaliyyət göstərən bütün tarix-diyarşünaslıq muzeyləri də bu qəbildəndirlər.

Ev-xatirə muzeylərinə gəldikdə qeyd etməliyik ki, həmin sahə üzrə elmi-tədqiqat işinin aparılmasında bilavasitə ondan istifadə edilir. Məsələn Qaxda fəaliyyət göstərən SSRİ Xalq artisti İsmayıl Dağıstanlının ev-muzeyi bilavasitə Azərbaycan Teatrının korifeylərindən sayılan bu dahi aktyorun həyat və yaradıcılığını tədqiq edən alimlər üçün çox böyük mənbədir. Bu muzeydə eksponatların gücündən istifadə yolu ilə tədqiqatın bu və ya digər sahəsi üzrə ümumləşdirmələr əldə etmək mümkündür.

Bu muzeyin həmçinin qismən də olsa elmi-maarifçilik əhəmiyyəti mövcuddur. Belə muzeylər konkret sahənin tədqiqi üçün əhəmiyyət kəsb edirlər. Digər ev-xatirə və memorial muzeylər də sahələr üzrə əhəmiyyətlidirlər.

L.M.Şlyaxtinaya görə yuxarıda göstərilən təsnifatlaşdırma ilə yanaşı, mütəxəssislər müvafiq prinsiplər zəminində digər təsnifat yanaşmalarını da qeyd etmişlər. Bunlar inzibati və profillərinə görə təsnifatların prinsipləridir. İnzibati prinsipə görə muzeylərin təsnifatı formalarına və onların tabeçilikləri ilə fərqləndirilir. Birinci növbədə burada dövlət, ictimai və şəxsi muzeylər fərqləndirilirlər. Təbiidir ki, bu təsnifata uyğun fəaliyyət xətti müəyyənləşdirilir. Yəni, hər hansı nazirlik, komitə, idarə tabeçiliyində olan muzeylər həmin nazirlik, komitə və yaxud idarənin göstərişlərinə əsasən fəaliyyət göstərirlər. İctimai əsaslarla fəaliyyət göstərən muzeylər isə mövcud mədəni tələbatlara, vəziyyətə uyğun öz işlərini qururlar. Şəxsi muzeylər də həmçinin muzey sahibinin mövcud vəziyyətə, şəraitə münasibətindən yaranan fəaliyyəti ilə işlərini qururlar.

Muzeyin profili isə elm, incəsənət və digər fəaliyyət sahələrindən birini əhatə edən toplantıları və sahəvi işi ilə təyin edilir. Başqa sözlə, profil – muzeyin nəyə həsr olunmasıdır. Profil təsnifatı bir neçə bölmədən ibarət olmaqla, əsas profil

qruplarını özündə əks etdirir.

Rus tədqiqatçı – muzeyşünası L.M.Şlyaxtina muzeylərin profillərinə görə bölmələrin təsnifatını aşağıdakı şəkildə vermişdir:

tarixi:
- ümumtarixi (geniş profilli);
- hərbi – tarixi;
- etnoqrafik;
- arxeologiya;
- din tarixi;
- tarixi şəxsiyyətlərə aid;
- tarixi monoqrafik (hadisə ilə bağlı);
- ayrı-ayrı təşkilat və müəssisələrin tarixinə aid;
- digər tarixi;

bədii:
- təsviri incəsənət (geniş profilli);
- dekorativ – tətbiqi incəsənət;
- bədii xalq yaradıcılığı;
- dekorativ saray və park incəsənəti;
- bədii yaradıcıq;
- bədii monoqrafik;
- digər bədii;

sənətşünaslıq:
- teatr incəsənəti;
- musiqi incəsənəti və musiqi alətləri;
- foto və kino incəsənəti;
- sənətşünaslara həsr edilmiş;
- sənətşünas – monoqrafik;
- digər sənətşünaslıq;

ədəbiyyat:
- Ədəbiyyat (geniş profilli);
- kitab və kitab nəşri tarixi;
- ədəbi şəxsiyyətlərə aid;
- ədəbi monoqrafik;

- digər ədəbiyyat;

memarlıq:

- memarlıq (geniş profilli)
- muzey əhəmiyyətli memarlıq abidələri və şəhərsalma;
- xalq abidələri (etnoqrafik, muzey-qoruq);
- memar şəxsiyyətlərə aid;
- digər memarlıq;

elmi təbiətşünaslıq:

- coğrafi;
- biologiya (geniş profilli);
- zoologiya (o cümlədən heyvanxanalar da daxil olmaqla);
- botanika (o cümlədən botanika bağları);
- mineralogiya;
- paleontologiya;
- toxumçuluq;
- antropologiya;
- tibbi;
- digər təbiətşünaslıq;

texniki:

- politexniki;
- texnikanın ayrı-ayrı sahələri üzrə;
- texniki – monoqrafik;
- digər texniki;

kompleks:

- diyarşünaslıq;
- tarix və memarlıq;
- memarlıq və etnoqrafiya;
- tarixi – bədii;
- ədəbiyyat və incəsənət;
- tibbi sağlamlıq;
- digər kompleks (533, s.39-43).

T.Y.Yureneva hazırda Rusiyada fəaliyyət göstərən muzeylərin digər iki tipini də göstərmişdir. O, kolleksiya tipli və

ansambl tipli muzeylərin mövcudluğunu qeyd etmişdir (536, s.339). O göstərmişdir ki, kolleksiya tipli muzeylər öz fəaliyyətlərini profillərinə görə əşyavi, yazılı, təsviri sənət materiallarının ənənəvi toplantılığı əsasında qururlar.

Beləliklə də, həmin tipli muzeylər sənədləşdirmə funksiyasını muzey əşyalarını fondun komplektləşdirilməsi və saxlanılması əsasında yerinə yetirirlər.

Ansambl tipli muzeylərin fəaliyyətində təbiət mənzərəli sahəsi ilə birlikdə interyerlə bərabər memarlıq abidələri mühüm əhəmiyyət kəsb edir. Bu tipə açıq səma altında muzeylər, saray-muzeylər, ev-muzeylər, muzey-mənzillər, muzey-emalatxanalar aid edilir (536,s.339).

T.Y.Yureneva isə profillərinə görə muzeylərin qruptəsnifatını aşağıdakı qaydada vermişdir: elmi-təbiətşünaslıq, tarixi, bədii, memarlıq, ədəbiyyat, teatr, musiqi muzeyləri, elm və texnika muzeyləri, sənaye muzeyləri, kənd təsərrüfatı muzeyləri, pedaqoji muzeylər ( 536, s.333).

Y.A.Starikova isə muzeylərin təsnifatından bəhs edərkən qeyd etmişdir ki, "... muzeylər sosiomədəni müəssisələr olmaqla kolleksiyaların miqdarı və rəngarəngliyinə görə, tematikaya, təyinatlarına və digər xüsusiyyətlərinə görə fərqlənirlər" (526, s.5). O, qeyd etmişdir ki, hər şeydən əvvəl muzeylərin təsnifatı tiplərinə, mülkiyyət formalarına və profillərinə görə fərqləndirilir. Tiplərinə görə isə muzeylər el-mi-maarif, elmi-tədqiqat və tədris olmaqla 3 yerə bölünürlər (526,s.5).

Mülkiyyət formalarına görə muzeylər dövlət, bələdiyyə və şəxsi-fərdi olmaqla 3 yerə ayrılır.

Profillərinə görə muzeylər aşağıdakı qruplara bölünürlər: memarlıq-ansambllı, elmi-təbiətşünaslıq, tarixi, bədii, elmi-texniki və xalq təsərrüfatının ayrı-ayrı sahələri üzrə, memorial, muzey-panoramlar, muzey-qoruqlar.

Professorlar K.Q.Levıkin və V.Xerbstın redaksiyası ilə işıq üzü görmüş "Muzeyşünaslıq" dərs vəsaitində də profil qruplarında muzeylərin təsnifatında tipoloji bölümün də əhə-

miyyəti göstərilir. Belə ki, yuxarıdakı digər müəlliflərin qeyd etdikləri kimi, yəni muzey şəbəkəsinin 3-elmi-tədqiqat, maarif (kütləvi); tədqiqat, akademik; tədris tipləri qeyd edilmişdir (514, s.51).

Təsnifatına görə isə əsas profil qruplu muzeylər qeyd edilmişdir: tarixi, bədii, təbiət-tarixi, texniki, ədəbiyyat, kompleks muzeylər.

Azərbaycan muzeyşünas-alimlərinin araşdırmalarına diqqət yetirdikdə məlum olmuşdur ki, təsnifat baxımından müəyyən fərqlər mövcuddur. Yəni, Azərbaycanda tarix, memorial, diyarşünaslıq, sənətşünaslıq və digər profilli – tibbi, kənd təsərrüfatı və muzey-qoruqlar mövcuddur ki, bu da gələcəkdə müxtəlif profilli muzeylərin sayının artırılması məqsədini qarşıya qoyur. Bunun üçün Azərbaycanda kifayət qədər qədim və zəngin mənbələr mövcuddur.

Beləliklə, araşdırmalardan məlum olmuşdur ki, muzeyşünaslıq bir elm kimi aşağıdakı prosesləri öyrənir:

– müxtəlif tarixi dövrlərə aid sosiomədəni informaşıyaların qorunması, dərki və onların muzey əşyaları, bədii sənətkarlıq nümunələri vasitəsilə ötürülməsini;

– muzey işinin mərhələlərlə inkişafını;

– muzey fəaliyyətinin müxtəlif forma, vasitə və yollarla istiqamətləndirilməsini;

– muzey fəaliyyətinin kompleks tədqiqinin sistemləşdirilməsini.

Muzeyşünaslığın tədqiqinin bazası muzeylərdir və onların fəaliyyətinə əşya və nümunələrin toplanılması, öyrənilməsi, qorunub saxlanılması, tarixi-mədəni abidələrin, maddi və mənəvi mədəniyyət nümunələrinin, ayrı-ayrı əşya və materialların eksponat şəklində nümayişi daxildir.

Muzeyşünaslığın predmeti dörd əsas hissəni özündə birləşdirir:

1. Muzey işinin tarixi – aşağıdakı problemləri öyrənir:

– muzeylərin təfəkkülü, ayrı-ayrı tarixi dövrlərdə

fəaliyyətləri;

– muzey şəbəkələrinin formalaşdırılması.

2. Muzey işinin təşkili – aşağıdakıları öyrənir:

– elmi-fond işi (muzey əşyalarının tədqiqi, onların uçotu və qorunması);

– muzey kommunikasiyasının öyrənilməsi.

3. Muzey mənbəşünaslığı – ayrı-ayrı mənbələrdən istifadəni tədqiq edir, sistemləşdirir;

4. Tətbiqi muzeyşünaslıq – tanınmış muzeylərin fəaliyyətini təcrübi aspektdə kompleks şəkildə öyrənir.

Beləliklə, muzeyşünaslığın mahiyyəti çox genişdir və muzey fəaliyyətinin bütün sahələrini əhatə edərək, bütöv sistem halını almışdır. Muzeyşünaslıq son onilliklərdə geniş araşdırılsa da, bu elmin digər elmlərlə qarşılıqlı əlaqəli şəkildə tədqiqinə böyük ehtiyac duyulur və milli muzeyşünaslığın dünya muzeyşünaslığı ilə inteqrasiyası mexanizmində ayrı-ayrı sahələr üzrə hərtərəfli tədqiq edilməsi vacib problemdir.

## 1.2. Azərbaycan muzeyşünaslığının vəzifələri

"Muzeylər haqqında" Azərbaycan Respublikasının Qanununun II fəslinin 4-cü maddəsində muzeylərin funksiyaları aşağıdakı şəkildə göstərilmişdir: "Azərbaycan Respublikasında muzeylər mədəniyyət, elmi-tədqiqat, maarifləndirmə funksiyalarını yerinə yetirən müəssisə forması kimi..." qısa xarakterizə edilmişdir. Əlbəttə, burada mədəniyyət funksiyasının yerinə yetirilməsi "geniş mənada" nəzərdə tutulmuşdur. Yəni, həm maddi mədəniyyət nümunələri, həm də mənəvi mədəniyyət nümunələrinin muzeylər tərəfindən toplanması, qorunması, tədqiqi, nümayişi, illərlə, mərhələ-mərhələ həyata keçirilən mürəkkəb proses olduğundan elmi-nəzəri və təcrübi zəhmət tələb edir. Eyni zamanda bu proseslərdə əsasən mütəxəssislərin, peşəkarların fəaliyyəti daha vacib sayılır.

Elmi-tədqiqat funksiyasını yerinə yetirmək üçün muzey

kifayət qədər həm əşya, material, eksponat mənbəyi – bazası, həm də həmin mənbələrin tədqiqi, öyrənilməsi, yeri gəldikcə tətbiqi prosesləri üçün daxili və digər elmi-tədqiqat müəssisləri ilə əlaqəli fəaliyyət sistemi sayəsində zahiri elmi-yaradıcı potensiala malik ola bilər. Bütün bunların nəticəsi olaraq muzeylər elmi-tədqiqatçılıq funksiyasını yüksək keyfiyyətlə yerinə yetirmək gücünə malikdirlər.

Maarifləndirmə funksiyasını yerinə yetirərkən muzeylər profilləri daxilində ayrı-ayrı elm sahələri üzrə eksponatların gücündən istifadə yolu ilə məqsədyönlü fəaliyyətdə olmaqla, müxtəlif yaş qrupu və ixtisasa aid insanların bilik, bacarıq, vərdişlərinin formalaşmasına nail olurlar. Əlbəttə bütün bu funksiyalar muzey işinin müxtəlif forma, vasitə və yollarından səmərəli istifadə yolu ilə yerinə yetirilir.

Rusiya alimləri, professorlar K.Q.Levıkin və V.Xerbstın redaksiyası ilə işıq üzü görmüş "Muzeyşünaslıq" dərs vəsaitində (rus dilində) muzeylərın ictimai funksiyaları aşağıdakı şəkildə fərqləndirilmişdir: elmi-sənədləşdirmə, qorunma, tədqiqatçılıq və maarif-tərbiyə funksiyaları (514, s. 45). Həmin funksiyalar biri-biri ilə sıx qarşılıqlı əlaqədə olmaqla, muzey əşyası, eksponat mənbəyində ümumi məqsədə xidmət daxilində öz təsirlərini göstərirlər.

T.Y.Yurenevanın tədqiqatlarına görə muzey sosial funksiyalarının nəzəri işlənmə problemi muzeyşünaslığın inkişafının müəyyən mərhələsi üçün vacib sayılır (536, s. 326). Rusiya tədqiqatçı - alimləri A.M.Razqon, D.A.Ravikoviç, Y.P.Puşulina, A.B.Zaks özlərinin 1960-1970-ci illərdəki tədqiqatlarında bu problemi tədqiq etmişlər (536, s. 326).

Dünyanın bir sıra tədqiqatçı alimləri muzey fəaliyyətinin spesifik xüsusiyyətlərini əks etdirən 2 əsas funksiyanı qeyd etmişlər. Bunlar sənədləşdirmə və maarifçilik-tərbiyə funksiyalarıdır (536, s. 326; 533. s. 46-47).

D.A.Ravikoviçə görə isə yuxarıdakı iki funksiyaya üçüncü – asudə vaxtın təşkili funksiyası da əlavə edilmişdir (536, s.

327).

Bir sıra muzey işi nəzəriyyəçiləri və tətbiqçiləri ayrı-ayrı muzeylərin sərbəst müvafiq funksiyalara malik olduqlarını araşdırmışlar. A.M.Razqon, A.İ.Frolov elmi-tədqiqatçılıq, qoruma, yaxud saxlama funksiyalarını qeyd etmişlər, İ.V.İksanova isə həmçinin kommunikativ funksiyasının möcvudluğunu göstərmişlər (536, s. 327).

L.M.Şlyaxtina muzeyin sosiomədəni funksiyalarını "mədəniyyət-cəmiyyət-şəxsiyyət" əlaqəliliyi nöqteyi-nəzərindən fərqləndirmişdir (533. s.48). "Mədəniyyət" əhəmiyyətli funksiyalara sənədləşdirmə, uçot, qoruma, muzey zinətlərinin öyrənilməsini aid etmişdir. O, "cəmiyyət" əhəmiyyətli funksiyalara maarifçilik və tərbiyəni göstərmişdir, "şəxsiyyət"lə bağlı isə bədii yaradıcılıqla əlaqədar muzey funksiyalarının əhəmiyyətini qeyd etmişdir (533, s. 48).

Y.A.Starikova isə sənədləşdirmə, elmi-tədqiqatçılıq, yenidən təşkil etmə, mədəni-maarifçilik, əyləncə-istirahət, ideoloji və maarif-tərbiyə funksiyalarının muzeyşünaslıq əhəmiyyətindən bəhs etmişdir (526, s. 4-5).

M.B.Qnedovskiy və Polşa muzeyşünası V.Qluzinskiy bu problemə daha tənqidi yanaşaraq muzeyin özünə məxsus funksiyalarının cəmiyyətə təsirindən bəhs etmişlər (548, s.37).

Beləliklə, dünya muzeyşünasları problemlə bağlı fərqli nəticələrə gəlmişlər. Lakin, qeyd etməliyik ki, muzeylər illərlə inkişaf etdiyindən, onların funksional fəaliyyətləri də təkmilləşmiş, qarşılarında duran vəzifələrin yerinə yetirilməsi formaları, metodları, vasitə və yolları təkmilləşməkdə davam edir. Təcrübi fəaliyyətin keyfiyyət dərəcəsinin yüksəldilməsində nəzəri konsepsiyaların, layihələrin, elmi-tədqiqat nəticələrinin mühüm əhəmiyyəti aktuallıq kəsb etdiyinə görə, bunlara bütün dövrlərdə böyük ehtiyac olmuşdur.

Muzeyin hər bir funksiyasının daxilində xırda funksional vəzifələr sırası mövcuddur. Yəni, muzey qarşısında duran mühüm böyük bir vəzifəni yerinə yetirmək üçün mərhələli, ardıcıl,

planlı, nəhayət elmi şəkildə xırda vəzifələr sırasını yerinə yetirmək qanunauyğunluğa çevrilir. Eyni zamanda həmin xırda sıra-vəzifələr biri digəri üçün zəminə, başlanğıca, şərtə çevrilir. Məsələn, AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyində elmi -tədqiqatçılıq funksiyası hər bir qurumun, bölmənin, şöbənin, nəhayət hər bir elmi-tədqiqatçının, muzey işçisinin funksiyaları ilə əlaqələndirilir, onların hər fəaliyyət mexanizmində qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi sırası meydana çıxır və bu da bütövlükdə muzey üçün sistemə çevrilir. Yəni, hər şöbə öz funksiyasını yerinə yetirməkdən ötrü digər şöbələrlə qarşılıqlı əlaqəli şəkildə fəaliyyətdə olmalıdır. Məlum olduğu kimi, hər şöbənin ayrı-ayrı işçiləri, yaxud elmi-tədqiqatçıları öz vəzifələrini yerinə yetirmək üçün planlasdırma, ardıcıllıq, mərhələlilik, əyanilik, elmilik və sair prinsiplərə də öz növbəsində əsaslanmaqla, sıra – vəzifələri yerinə yetirirlər. Beləliklə, elmi-tədqiqatçılıqda muzey üzrə komplekslilik yaranır və sistem halında müvafiq elmi nəticələr komplektləşdirilir.

Həmçinin sənədləşmədə, mədəni-maarifçilikdə asudə vaxtın təşkilində, ideolojilikdə, mənəvi-tərbiyəvi fəaliyyətdə və sairədə sistem yaradılmalıdır. Bu prosesdə incə və xırda detallara qədər dəqiq işlənilməyə diqqət yetirilməlidir. Məsələn, sənədləşmənin ancaq fond işinin sənədləşməsini götürsək, burada fonda daxilolma işinin yerinə yetirilməsində qarşıda duran vəzifələrin (muzey əşyalarının və kolleksiyalarının fonda daxil edilmə qaydalarına əməl edilməklə ekspertiza fəaliyyətindən sonra həyata keçirilməsinin ardıcıllığındakı vəzifələr, əşya və kolleksiyaların əsas uçot sənədlərində qeydə alınmasında işçi qarşısında duran vəzifələr, bu və digər sənədləşmə əməliyyatlarında işçi qarşısındakı vacib vəzifələr və s.), fonda daxil olan əşya və kolleksiyaların dövriyyəsi prosesində müvafiq işçilər qarşısında duran vəzifələr (dövlət muzey fonduna daxil olan muzey əşyası və kolleksiyalarının müəyyən edilmiş müvafiq qaydada bir hüquqi şəxsdən digər hüququ şəxsə verilməsindəki vəzifələr, müvafiq icra orqanı tərəfindən yaradılmış ekspert

komissiyası üzvlərinin daxil olmada vəzifələri, dövriyyə prosesində müvafiq məsul işçilərin vəzifələri və s.), əsas uçot sənədlərinin aparılması sahəsində müvafiq məsul əməkdaşların vəzifələri və sairənin çox mühüm əhəmiyyəti vardır. Hər bir funksiyanın yerinə yetirilməsində müvafiq əməkdaşların qarşısında duran vəzifələrin yerinə yetirilməsi muzey fəaliyyətinin əsas ana xəttini təşkil edir.

Muzey direktorunun, baş mühafizin vəzifələri, mühafizin və mühafizəetmə funksiyalarını yerinə yetirən digər əməkdaşların vəzifələri, muzey sərvətlərinin konservasiyası və bərpası proseslərində müvafiq əməkdaşların vəzifələri, fondun dövlət uçotunu yerinə yetirən əməkdaşların vəzifələri, muzey sərvətlərinin mühafizəsi üzrə işin təşkilini yerinə yetirən əməkdaşların vəzifələri, muzey sərvətlərinin qablaşdırılması və daşınması işlərini yerinə yetirən əməkdaşların vəzifələrinin ümumilikdə əsas əhəmiyyəti vardır.

Azərbaycanda ümumi muzey fəaliyyətində muzey əməkdaşları və kolleksiyalarının komplektləşdirilməsi, onların uçot və mühafizəsinin təşkili və bütövlüyünün təmin edilməsində, arxiv, kitabxana fəaliyyətinin, muzey ekspozisiyaları və sərgilərinin, digər muzey tədbirlərinin təşkilində, dizayn və tərtibat işlərinin həyata keçirilməsində, konservasiya, bərpa işlərinin keyfiyyətlə yerinə yetirilməsində, kataloqlaşdırma işinin təşkili, nəşrində, kolleksiyaların təbliğində, tədqiqində müvafiq muzey əməkdaşlarının hər birinin vəzifələri planlı şəkildə yerinə yetirilməlidir.

Azərbaycanda fəaliyyət göstərən bədii və incəsənət, tarix və tarix – diyarşünaslıq muzeyləri, ədəbiyyat, teatr və musiqi profilli, memorial, xatirə muzeyləri, muzey- qoruqların özlərinə məxsus funksiyaları, vəzifələri müvafiq dərəcədə yerinə yetirilir, normativ-hüquqi aktlara dəqiq əməl edilməsi çərçivəsində həyata keçirilir.

Tədqiqatçı S.A.Əmirxanovun "Muzey pedaqogikası" sahəsindəki araşdırmalarında bu elmin vəzifələrindən bəhs edil-

miş və müəllif həmin vəzifələri aşağıdakı şəkildə vermişdir:

1. Muzeylər vasitəsilə məktəbli şəxsiyyətinin hərtərəfli və ahəngdar inkişafının nəzəri və təcrübi məsələlərinin aşkarlanması.

2. Məktəbli şəxsiyyətinin formalaşmasının qanunauyğunluqlarının tətbiqi.

3. Ailə, məktəb, mədəniyyət müəssisələri, eləcə də muzeylərin tərbiyə-təhsil fəaliyyətlərinin nəzəriyyə və metodlarının tədqiqi və tətbiqi.

4. Muzeyin yaradıcı kollektivinin təhsil fəaliyyətinin nəzəri və təcrübi məsələlərinin hazırlanması.

5. Muzeylərlə ümumtəhsil məktəblərinin qarşılıqlı əlaqə formalarının, yollarının tərbiyəyə təsirinin müəyyənləşdirilməsi;

6. Tərbiyə prosesini fəallaşdıran, bu istiqamətdə ailə, məktəb və muzeylərin müntəzəm, əlbir fəaliyyəti sisteminin yaradılması" (352, s.226).

Araşdırdığımız problem baxımından yuxarıda verilən vəzifələrin də əhəmiyyəti mühümdür.

Muzey fəaliyyətinin funksiyaları və vəzifələrindən doğan muzeyşünaslığın vəzifələri haqqında bu günə qədərki, elmi-ixtisas ədəbiyyatında S.Əmirxanovun 2002-ci ildə təqdim etdiyi fikirlərindən başqa konkret tədqiqat işləri, nəticələr yoxdur. Tədqiqatçı S.A.Əmirxanov Azərbaycan muzeyşünaslığının vəzifələrini aşağıdakı şəkildə təsnifatlaşdırmışdır:

1. Muzey fəaliyyəti prosesində sərgi və müxtəlif məzmunlu tədbirlər, iş formaları vasitəsilə nəzəri və təcrübi məsələləri aydınlaşdırmaq.

2. Muzeyşünaslığın bir elm kimi mahiyyətini açıqlamaq.

3. Muzeylərin tədqiqat mərkəzləri kimi fəaliyyət mexanizmini təyin etmək.

4. Muzey fondlarının iş sistemi, fond işinin əsas istiqamətlərini aydınlaşdırmaq.

5. Fond işinin komplektləşdirilməsi istiqamətləri, mahiy-

yət və əhəmiyyətini sistemləşdirmək.

6. Muzey fondlarının elmi sənədləşdirilməsi istiqamətində görülən işlərin məzmununun müəyyənləşdirilməsi.

7. Muzey fondlarının qorunması və saxlanılması mexanizminin təkmilləşdirilməsi.

8. Muzey fəaliyyətində tarixiliyin mahiyyəti, dünyanın məşhur muzeylərinin yaranması səbəblərinin araşdırılması.

9. Muzey ekspozisiyasının elmi-nəzəri və təcrübi əsaslarının təyini.

10. Muzey ekspozisiyasının bədii – memarlıq həllinin quruluşunu müəyyən etmək.

11. Muzey tədbirlərinin mahiyyət baxımından əhəmiyyətinin aydınlaşdırılması.

Beləliklə, muzeyşünaslığın son onilliklərdə daha da inkişaf etmiş digər elmlərlə qarşılıqlı əlaqədə olması, ümumi fəaliyyətə, formalaşmaya təkan verməsi real gerçəkliyə çevrilmişdir" (352, s. 8,9.).

Tədqiqatçı S.A.Əmirxanov tərəfindən ilk dəfə olaraq müəyyənləşdirilən muzeyşünaslığın vəzifələri bu gün də aktuallıq baxımından dəyərlidir. Bu vəzifələr sərgilər, ekspozisiya və digər muzey tədbirlərinin elmi-nəzəri, təcrübi tərəfləri, elmi-tədqiqatçılıq fəaliyyətində sistemlilik, fond işinin elmi araşdırılmasının mexanizmi, əşya, eksponat, informasiya, elmi-tədqiqat nəticələrinin qorunması, saxlanması, gələcək nəsillərə ötürülməsinin elmi həlli, muzey fəaliyyətində tarixiliyin mahiyyəti, mənbələrin elmi-tədqiqi mahiyyəti, ekspozisiyaların elmi-nəzəri və təcrübi əsaslarının təyini, muzey tədbirlərinin təsir gücünün elmi əsaslarda təyini kimi vəzifələrin həyata keçirilməsi milli muzeyşünaslığımızın vacib problemləridir.

Beləliklə, muzeylərin strukturundan və fəaliyyətlərinin məzmunundan, yerləşdiyi coğrafi, ictimai mühit və şəraitdən, profillərindən asılı olaraq hər bir muzey əməkdaşının, struktur bölmələri rəhbərlərinin vəzifələri kompleks halda, əlaqəlilik prinsipinə əsasən sistemləşdirilməli və muzeyin perspektivində

mühüm əhəmiyyət kəsb etməlidir.

## 1.3. Azərbaycan muzeyşünaslığının prinsipləri

Muzeyşünaslığın təşəkkülü, inkişafında müvafiq prinsiplərin, ayrı-ayrı muzey işi sahələri üzrə başlıca tələblərin mühüm əhəmiyyəti vardır. Ümumiyyətlə, muzeyşünaslıqda prinsipliliklə bağlı son onilliklərdə, xüsusilə də 1980-ci illərdən sonra A.Adilov, M.Məmmədov, K.Q.Levıkin, V.Xerbst, S.Əmirxanov, E.Qurbanova, B.Kərimov, B.Xəlilov, H.Sadıqzadə tərəfindən aparılmış tədqiqatlarda bu və digər dərəcədə nəticələr verilmişdir. Həmin araşdırmaları analiz etdikdə, məlum olmuşdur ki, müvafiq olaraq hər bir nəticə problem əhəmiyyətlidir. 1969-cu ildə rus dilində nəşr olunmuş və 1974-cü ildə A.Adilov tərəfindən tərcümə edilmiş "Mədəni-maarif işi" dərs vəsaitində verilmiş "Mədəni-maarif işinin prinsipləri" qismən problem əhəmiyyətlidir (311, s.60-66). Doğrudur, həmin prinsiplərin bəziləri artıq müasir dövr üçün məqbul sayılmasa da, orada əks olunan bəzi prinsiplər bu gün də yararlıdır. Mədəni-maarif işinin həyatla əlaqələndirilməsi, fərdi yanaşma, kütlələrin yaradıcı təşəbbüsləri və özfəaliyyətlərinin nəzərə alınması, fasiləsizlik, konkretlilik, məqsədəuyğunluq, aydınlıq prinsipləri bu gün də əhəmiyyətini saxlamaqdadır.

Tarix muzeylərinin ekspozisiyalarının qurulması prinsiplərindən "Muzeyşünaslıq" dərs vəsaitində bəhs edilmiş və burada ekspozisiyanın elmi konsepsiyaya əsasən qurulması, ideyalılıq, əşyavilik, əyanilik və universallığın əhəmiyyəti göstərilmişdir (352, s.199-202).

Əlbəttə, ekspozisiya quruluşunda bu prinsiplərlə kifayətlənmək bir o qədər də əhəmiyyət kəsb etmir. Ekspozisiyada eksponatların elmi-təsir gücü və sərginin mövzusuna uyğun seçilməsində planlılıq, seçiləcək eksponatın bərpaya ehtiyacı varsa, bərpaya təqdimində elmi araşdırıcılıq, ekspozisiyanın eksponat, material, əşyaları arasındakı qarşılıqlı əlaqəlilik, tarı-

xilik, aydınlıq, təşkilatçılıq və digər prinsiplərin də əhəmiyyəti qiymətləndirilməlidir.

A.Adilovun tərcüməsində "Klubşünaslıq" dərs vəsaitində probleməhəmiyyətli üç prinsip verilmişdir. Bunlar "Bədii materialın məzmunu və ideyasının tədbirin mövzu və ideyasına uyğun olması, məntiqi və emosional başlanğıcın psixoloji əsaslandırılması və bədii illüstrasiya vasitələrindən kompleks istifadə olunması, incəsənətin müxtəlif növlərinə müraciət edilməsidir" (278, s.185).

Tədqiqatçı alim Mərdan Məmmədovun araşdırmalarında estetik-emosional şəraitin yaradılması, mənəvi-estetik təsir imkanlarının qabaqcadan nəzərə alınması, dərs məşğələlərinin əyani-illüstrativ vasitələrlə əlaqələndirilməsi, formalaşmada kompleks yanaşmanın vacibliyi, sistemli əlaqəlilik, peşəkarlıq ünsürlərinin vacibliyi, bədii hissin qüvvətləndirilməsində ayrı-ayrı incəsənət növlərindən əlaqəli şəkildə istifadənin vacibliyi prinsipləri göstərilmişdir ki, (306, s.11) bu prinsiplər araşdırdığımız problemlə əlaqədar diqqəti cəlb edir. Çünki, ümumtəhsil məktəbi şagirdlərinin estetik tərbiyəsinin formalaşmasında təsviri incəsənət üzrə sinifdənxaric işlərə aid həmin prinsiplər muzeyşünaslıq əhəmiyyətlidir.

Son onilliklərin muzeyşünaslıq əhəmiyyətli təqdiqatlarından sayılan S.Əmirxanovun incəsənət muzeyləri ilə ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdlərinin əlaqəsilə bağlı araşdırılmasında 9 ədəd vacib prinsip maraq doğurur. Muzey-məktəb əlaqəsindən bəhs edən bu tədqiqat işində şagirdlərin estetik tərbiyəsində vacib prinsiplər aşağıdakı şəkildə təsnifatlaşdırılmışdır:

1. Məktəblilərin estetik tərbiyəsi naminə incəsənət muzeylərinin və ümumtəhsil məktəblilərinin qarşılıqlı fəaliyyəti təmin olunmalıdır.

2. Məktəblilərin estetik tərbiyəsi üzrə incəsənət muzeyləri və ümumtəhsil məktəblilərinin qarşılıqlı fəaliyyətində müntəzəmliyə, sistemliyə, ayrı-ayrı tədbirlərin mənəvi-estetik təsi-

rinə fikir verilməlidir.

3. İncəsənət muzeylərində müxtəlif məzmunlu sərgilərə kollektiv baxışlarla əlaqədar qabaqcadan lazımi hazırlıq işləri görülməli, şəxsiyyətin ümümestetik mədəniyyəti məsələsi ön plana çəkilməlidir.

4. Kollektiv baxış üçün müəyyənləşdirilən sərgilər, nəzərdə tutulan eksponatlar, lektoriya məşğələləri, aparılan söhbətlər məktəblilərin yaş səviyyəsinə uyğun olmalıdır.

5. Müxtəlif məzmunlu ekskursiyaların məktəblilərin estetik tərbiyəsinə daha səmərəli təsir göstərməsi üçün yuxarı məktəb yaşlı şagirdlərin ayrıca qrupda kollektiv baxışı təşkil edilməlidir.

6. İncəsənət muzeylərinin daimi və metodik ekspozisiyalarına təşkil edilən kollektiv baxışlar, ekskursiyalar bədii-estetik silsilə fənlərinin tədrisi ilə əlaqələndirilməlidir.

7. İncəsənət muzeylərində ekskursiyaların təşkili zamanı məktəblilərdə müxtəlif səpgili estetik hisslər oyadan sərgilərə, ekspozisiyalara geniş yer verilməlidir.

8. İncəsənət muzeylərinə kollektiv baxışlardan, ekskursiyalardan sonra məktəblilərin estetik təəssüratlarının səviyyəsi müvafiq müsahibələr, şərhlər, inşa yazıları və digər bədii fəaliyyət formaları ilə müəyyənləşdirilməlidir.

9. İncəsənət muzeylərinə müntəzəm, sistemli ekskursiyalar, sərgilər, orada aparılan söhbət və mühazirələr nəticəsində yaranan maraq, estetik tələbat məktəbliləri geniş bədii özfəaliyyətə (məktəb muzeylərinə və bədii dərnəklərə) cəlb etməlidir" (181, s.95-96).

Araşdırmamız baxımından mühüm əhəmiyyəti olan bu prinsiplərin – başlıca tələblərin milli muzeyşünaslığın inkişafında da yeri özünü göstərmişdir.

Tədqiqatçı Elfura Qurbanovanın araşdırmalarında bədii prosesin kompleks tədqiqi nəticəsində muzeylərin bir sıra başlıca tələbləri – bədii proses və incəsənət tarixinin kompleks tədqiqi, maraqlar yaratmaq, bədii əsərlər toplamaq, mədəni in-

kişafı izləmək, elmi-yaradıcılığın ön plana çəkilməsinin vacibliyi, əldə edilən nümunələrin tədqiqi və nümayişi, sərgi, mühazirə, ekskursiyalar təşkil etmək kimi istiqamətləri əhatə etməklə, muzeyşünaslığın inkişafında əhəmiyyət kəsb edir (403, s.19).

Tədqiqatçılar Bəhmən Kərimovun tarix-diyarşünaslıq muzeylərinin eksponatları vasitəsilə elmi-maarifçilik və tərbiyəvi istiqamətli prinsiplər (265, s. 23), pedaqoji elmlər doktoru, professor Vidadi Xəlilovun isə müxtəlif sinifdənxaric tədbirlərin zəminində estetik təsirin yaranmasının başlıca tələbləri də araşdırmamız baxımından qismən əhəmiyyətlidir (473, s. 57).

Tədqiqatçı – muzeyşünas Hicran Sadıqzadə tərəfindən elmi-tədqiqat işində irəli sürülən başlıca tələblər son illər milli muzeyşünaslığımızın inkişafını bir daha sübut etmişdir. Kompleks xarakterli bu başlıca tələblər 8 ədəd nümunələrin toplanması üzrə, 13 ədəd nümunələrin işlənməsi üzrə və 13 ədəd nümunələrin təbliği üzrə olmaqla elmi-fond işinin müəyyən qismini əhatə etmişdir (424, s.90-94). Bu prinsiplər "... eyni zamanda ayrı-ayrı profilli muzeylərin yaradıcı kollektivləri ilə elm, təhsil və mədəniyyət müəssisələri kollektivləri arasında sıx əlaqə yaratmağın elmi-metodiki təminatını vermək, müxtəlif məzmunlu muzey tədbirlərinin elmi-bədii, emosional təsirini artırmaq baxımından da əhəmiyyətlidir" (424, s.94).

Tədqiqatçı-alim Sabir Əmirxanov özünün "Tətbiqi muzeyşünaslıq və onun əsas istiqamətləri" araşdırmasında muzey kollektivinin inkişafındakı rolunu qiymətləndirmiş və mərhələlərdə inkişafın başlıca tələblərini ardıcıllıqla vermişdir ki, bu da tətbiqi muzeyşünaslıqda ilk dəfədir ki, təqdim edilmişdir (455, s.220-227).

Sabir Əmirxanov araşdırma nəticəsində muzeyin elmi-kütləvi işinin planlaşdırılması, elmi-tədqiqat işinin və muzey ekspozisiyasının təşkili prinsiplərini vermişdir ki, bu prinsiplər – başlıca tələblər muzeyşünaslığın əsas tərkib hissəsi sayılır və araşdırmamız baxımından mühüm əhəmiyyət kəs edir. S.Əmir-

xanov bu prinsipləri müxtəlif fəaliyyət istiqamətləri üzrə ardıcıllıqla aşağıdakı təsnifatda vermişdir. "Muzeyin elmi-kütləvi işinin planlaşdırılması aşağıdakı prinsiplərə əsaslanır:

1. Elmi-kütləvi tədbirlər muzey mühitinə uyğun olaraq planlaşdırılmalı, muzeyin daxili potensialı nəzərə alınmalıdır.

2. Muzey elmi-kütləvi tədbirlərində yaş xüsusiyyəti nəzərə alınmalı, yaşa müvafiq şərait yaradılmalı, müvafiq metodlardan istifadə edilməlidir.

3. Muzey tədbirlərində günün tələbləri nəzərə alınmalı, maraq doğuran, iqtisadi duruma uyğun gələn mövzuları əhatə edən tədbirlər planlaşdırılmalıdır.

4. Muzey tədbirləri zamanı ətraf mühitlə qarşılıqlı əlaqəlilik prinsiplərinə əməl edilməlidir.

5. Muzey tədbirlərində millilik nəzərə alınmalı, milli-maddi və mənəvi dəyərlərin dərkinə xüsusi fikir verilməlidir.

6. Vətənpərvərlik tərbiyəsi istiqamətli tədbirlərin elmi təşkilinə xüsusi diqqət verilməlidir.

7. Yeniyetmə gənclərin estetik tərbiyəsinin formalaşdırılması istiqamətində kütləvi tədbirlərin planlaşdırılması vacibdir.

8. Uşaq və yeniyetmələrin mənəvi-əxlaqi tərbiyəsi istiqamətində muzeydə tədbirlər planlaşdırılmalı, tədbirin keyfiyyətinə xüsusi fikir verilməlidir.

9. Muzey tədbirləri planlaşdırılarkən radio və televiziya şirkətinin müvafiq redaksiyalarının dəvəti də planlaşdırılmalı, tədbir zamanı yeri gəldikcə müxtəlif audio, video lent yazılarından istifadə edilməlidir.

10. Əlamətdar hadisə və günlər nəzərə alınmalı, müvafiq silsilə tədbirlər planlaşdırılmalıdır.

11. İlboyu muzey auditoriyasının işinə nəzarət edilməli, iş sisteminin yaradılması diqqət mərkəzində olmalıdır.

12. Muzeydənkənar elmi-kütləvi işin planlaşdırılması zamanı tədbirin keçiriləcəyi mühit, işin məzmunu, mahiyyəti, məqsədi, forması və səyyar sərginin təşkili xüsusiyyətlərinə xüsusi fikir verilməlidir.

13. Tərbiyə funksiyalarını yerinə yetirən digər müəssisələrlə birgə fəaliyyətə diqqət yetirilməli, səmərəli nəticələr əldə edilməsinə nail olmaq hər bir muzey işçisinin vəzifəsi olmalıdır.

Elmi-tədqiqat işinin təşkilində aşağıdakı başlıca tələblər məqsədəmüvafiqdir:

1. Muzey şuralarında elmi-tədqiqat xarakterli işlərin, monoqrafiyaların, açıqçaların, tövsiyələrin, metodik vəsaitlərin planlı və kompleks şəkildə müzakirələri keçirilməlidir.

2. Muzey əşyalarının, materiallarının, eksponatların elmi-tədqiqi mütəmadi xarakter daşımalıdır.

3. Elmi-tədqiqat fəaliyyətinin səmərəliliyi üçün digər muzeylər, mədəniyyər müəssisələri, elmi-tədqiqat institutları, təhsil müəssisələri və akademiyalarla, yaradıcılıq birlikləri ilə əlaqəli tədqiqatların aparılması planlaşdırılmalı, birgə müzakirələr təşkil edilməlidir.

4.Muzey tədqiqatında müvafiq üsullardan istifadə edilməli, nəzəriyyə ilə təcrübə əlaqələndirilməli, muzey eksponatları bazasında təcrübi-eksperimentlər, sorğular təşkil edilməli, alınan nəticələr tətbiqə cəlb edilməlidir.

5. Müşahidə, müsahibə, nəzəri təhlillər, elmi-ixtisas ədəbiyyatından istifadə, anket-sorğu prosesi planlaşdırılmış formada olmalıdır.

6. Elmi-tədqiqat prosesində müasir kompüter sistemi və texniki vəsaitdən istifadə edilməlidir.

Muzey fəaliyyətində muzey ekspozisiyası işinin təşkili və metodikası əsas amillərdən hesab olunur. Muzey ekspozisiyasının təşkilində aşağıdakı prinsiplərə əməl edilməlidir:

1. Ekspozisiyanın bədii-memarlıq həllinə xüsusi diqqət verilməlidir.

2. Ekspozisiyanın qurulması prinsiplərinə əməl edilməli, bütün tələblər yerinə yetirilməlidir.

3. Ekspozisiyada bədii layihələşmənin nəzəri və təcrübi əsaslarına əməl edilməli, layihənin təşkili və həyata keçirilmə-

sində mövcud imkan və şərait nəzərə alınmalıdır.

4. Ekspozisiyanın təşkilinin əsas metodlarından istifadə edilməli, bütün mərhələlər ardıcıllıqla, həm də elmi şəkildə yerinə yetirilməlidir (352, s.20-21).

Aparılmış tədqiqatlardan məlum olmuşdur ki, S.Əmirxanov, H.Sadıqzadə, B.Kərimov və E.Qurbanovanın təqdim etdikləri prinsiplər muzeyşünaslığı tam əhatə etməsə də müəyyən inkişaf istiqamətlərini əhatə etmişdir. Xüsusən, S.Əmirxanov problemlə bağlı əhatəli şəkildə vacib prinsiplərin - başlıca tələblərin əhəmiyyətini qeyd etmişdir. Lakin müasir muzeyşünaslıq üçün bunlar heç də kifayət etmir.

Beləliklə, muzeyşünaslığı tam əhatə edəcək prinsiplərin kompleks təyini və təsiri sistemləşdirilməlidir. Muzeyşünaslığın ümumi prinsiplərini tarixilik, elmilik, əşyavilik, planlılıq, fasiləsizlik, ardıcıllıq, mərhələlilik, əyanilik, konkpetlilik, dərketdiricilik, universallıq, ideyalılıq, həyatla bağlılıq, yaradıcılıq, təşəbbüsün nəzərə alınması, məqsədəuyğunluq, aydınlıq, təşkilatçılıq, əlaqəlilik, vahidlik, diferensial (fərdi) yanaşma əhatə edir. Fəaliyyət formalarında bütün prinsiplərə müvafiq olaraq əməl edilməlidir. Bu prinsiplər ayrı-ayrı muzey qurumları, əməkdaşlar tərəfindən müxtəlif fəaliyyət formalarında nəzərə alınmalıdır. Əşya və nümunələrin toplanma işində, fondun elmi komplektləşdirilməsində, fondun elmi təşkilində, fondun uçotu və elmi sənədləşdirilməsində, ekspozisiyanın elmi quruluşunun səmərəli nəticə verməsində, ekspozisiyanın bədii-memarlıq həllində, muzey vasitəsilə ideya-tərbiyə işinin elmi təşkilində, müxtəlif muzey tədbirlərinin elmi nəzəri və əməli təşkilində yuxarıdakı prinsiplərə ciddi əməl olunmalıdır. Bu zaman muzey əməkdaşlarının elmi-yaradıcılıq və təşkilatçılıq bacarıqları, qabiliyyətləri, bilik və vərdişləri mühüm əhəmiyyət kəsb etdiyindən, bu keyfiyyətlərin getdikcə təkmilləşdirilməsi vacibdir. Yəni, belə keyfiyyətlər prinsiplik baxımından səmərəli nəticələrə gətirib çıxarır.

Muzeyin elmi-kütləvi işinin planlaşdırılması, elmi-tədqi-

qat işinin təşkili, muzey ekspozisiyasının təşkilinin prinsipləri tədqiqatçı S.A.Əmirxanov tərəfindən (352, s.20-21), nümunələrin toplanması, işlənməsi və təbliği üzrə prinsiplərin - başlıca tələblərin isə tədqiqatçı H.Sadıqzadə tərəfindən (424, s.90-94) verildiyinə görə digər fəaliyyət istiqamətləri üzrə prinsiplərin – başlıca tələblərin təsnifatı üçün ümumi muzeyşünaslığın başlıca tələblərinin aşağıdakı qaydada təyin olunmasını məqsədə müvafiq hesab edirik:

1. Muzey əşyaları, kolleksiyalarının elmi komplektləşdirilməsinin nəzəri və təcrübi əsaslarda mərhələlərlə yerinə yetirilməsi vacibdir. Elmi sənədləşmənin prinsiplilik əsasında yerinə yetirilməsi mühümdür.

2. Muzey kolleksiyalarının, arxiv və kitabxanasının, digər materiallarının bazasında muzeyşünaslıq əhəmiyyətli səmərəli elmi-tədqiqatların profillərə, mühitə, şəraitə uyğun aparılması muzeyin və muzeydənkənar elmi-yaradıcı potensialın qüvvəsindən istifadə yolu ilə həyata keçirilməlidir.

3. Muzey ekspozisiyaları və sərgilərinin elmi təşkilinə nail olunmalıdır:

- ekspozisiyanın elmi quruluşunun qabaqcadan planlaşdırılmasına muzey rəhbərliyi tərəfindən ciddi diqqət yetirilməlidir;
- eksponatların elmi təsir gücü nəzərə alınmaqla ekspozisiyaya seçilməlidir;
- ekspozisiyanın mövzusuna uyğun eksponatların seçimi həyata keçirilməli, seçilən eksponatların elmi nöqteyi-nəzərdən ekspozisiyaya tam hazırlığı yoxlanılmalıdır;
- ekspozisiyanın tam məzmunda seyrçiyə təqdimi üçün müasir texniki vəsaitdən müvafiq olaraq istifadə edilməsinə muzey rəhbərliyi tərəfindən ciddi fikir verilməlidir;
- ekspozisiya muzeyşünaslığın son elmi nailiyyətləri ilə sıxı surətdə əlaqələndirilməli, mövzuya uyğun elmi faktlardan, materiallardan müvafiq olaraq istifadə edilməlidir;
- radio və televiziyanın elmi-publisistik redaksiyaları tə-

rəfindən ekspozisiyaların elmi-bədii-yaradıcı təsirinə aid bədii-silsilə verilişlərinə geniş yer verilməsi məqsədəuyğun olardı;

- ekspozisiya ssenarisinin elmi əsaslarda hazırlanmasının vacibliyinə xüsusi nəzarət işi həyata keçirilməlidir;
- seçilmiş eksponatların gücündən istifadə edilməklə rəngarəng informasiya, elmi məlumatlar verilməsi prinsiplərinə əməl edilməlidir;
- eskiz-layihələrin elmi əsaslarda hazırlanması və müzakirəsinin sistemləşdirilməsinə nail olmaq lazımdır;
- audiovizual vasitələrin elmi təsnifatına xüsusi diqqət yetirilməli, səs vasitələrinin əhatəliliyi təmin edilməlidir;
- ekspozisiyanın bədii-memarlıq həlli müasir dövrün tələblərinə cavab verən mövzuya tam uyğun yerinə yetirilməlidir.
- ekspozisiyanın bədii-memarlıq həllində məzmun elmiliyə əsaslanaraq yüksək zövq tərbiyə etməli, müvafiq sahələr üzrə maraqlar yaratmalıdır;
- bədii-memarlıq həllində mövzu-ekspozisiya-eksponat qarşılıqlı əlaqəliliyi vahidliyə xidmət etməli, ümumi ideyaya nail olunmalıdır;
- ekspozisiyanın bədii-memarlıq həllində milli xüsusiyyətlər nəzərə alınmalı, yerli coğrafi mühitlə əlaqəlilik vahidlik təşkil etməlidir.

4. Muzey əşyalarının elmi-tədqiqinin müvafiq prinsiplər əsasında aparılması muzey rəhbərliyinin nəzər-diqqətində olmalıdır:

- muzey əşyalarının tədqiqi planauyğun şəkil almalı, ardıcıllıqla davam etdirilməlidir.
- əşyaların tədqiqində AMEA-nın müvafiq elmi-tədqiqat institutlarının əməkdaşlarının əməyindən də istifadə edilməlidir;
- nümunələrin tədqiqinin nəticələri vaxtaşırı maraqlı məqalələrlə, mətbuatda işıqlandırılmalı, bədii-təsir gücü dəyərləndirilməlidir;

- nümunə və eksponatların tarixi haqqında, sərgi və ekspozisiyalarla bağlı radio və televiziyanın müvafiq redaksiyaları tərəfindən mütəxəssis-muzeyşünasların iştirakı ilə maraqlı silsilə verilişlərin təşkilinə üstünlük verilməli, teledebatlar, telediskussiyalar maraq doğuracaq səviyyədə palnlaşdırılmalıdır.

5. Muzeyşünaslığın kompleks inkişafına təkan verən elmi fəaliyyətlərdən sayılan muzey kolleksiyaları kataloqlarının hazırlanması və keyfiyyətli nəşri prosesi bütün muzeylərdə həyata keçirilməlidir.

6. Muzey əşyalarının keyfiyyətli bərpası məqsədilə elmi-bərpa emalatxanalarının fəaliyyət mexanizminin təkmilləşdirilməsi və bu prosesdə elmi-yaradıcı mütəxəssis bacarığından sistemli istifadəyə mühüm əhəmiyyət verilməlidir.

7. Muzeydaxili və muzeydənkənar kütləvi tədbirlərin elmi əsaslarda təşkili və həmin tədbirlərin elmi müzakirələri, təhlilləri və təsir keyfiyyətinin artımının əhəmiyyətinin qiymətləndirilməsi vacibdir. Bu tədbirlərin tərbiyəvi təsir dərəcələrinin təhlili mütəmadi həyata keçirilməlidir.

8. Mühüm muzeyşünaslıq əhəmiyyəti kəsb edən fond işinin elmi əsaslarda təşkilinə muzey rəhbərliyi tərəfindən xüsusi diqqət yetirilməlidir;

- fondun elmi quruluşuna nail olunmalı və orada tədqiqat işlərinə mühüm əhəmiyyət verilməlidir.

- fond komplektləşdirilməsini elmi-metodik əsaslarda qurmaq vacibdir. Elmi-kompleкləşdirmə üzrə işin təşkili istiqamətləri, vasitələri və yollarından məqsədyönlü istifadə həyata keçirilməlidir;

- fond sənədlərinin elmi sistemləşdirilməsi əldə edilməlidir. Elmi köməkçi materiallardan istifadə, fondun elmi qeydiyyatı, fond işində elektron-hesablama sistemi, kompüterləşmədən istifadə mexanizmi təyin edilməlidir;

- mühafizə işində elmi-texniki vasitələrdən istifadə edilməlidir;

- muzeydə arxivin elmi fəaliyyət mexanizminə əhəmiyyət

verilməlidir;

- muzey klubları və dərnəklərinin işinin elmi əsaslarda təşkilinə nail olunmalıdır;

- muzey-məktəb-ailə münasibətlərinin elmi əsaslarda təşkilinə geniş yer verilməlidir.

- muzeylərin digər elm, təhsil, mədəniyyət müəssisələri ilə elmi ünsiyyətləri və birgə elmi-tədqiqatlarının genişləndirilməsinə əhəmiyyət verilməlidir;

- muzeylərarası ekspozisiya mübadilələrinin elmi əsaslarda təşkili mexanizminin əldə olunması vacibdir. Elmi-nəzəri və təcrübi məsələlər belə mübadilələr zəminində aşkarlanır ki, bu proseslərin elmi-tədqiqi, analizi, ümumiləşdirmələrin aparılması sistemi yaradılmalıdır.

9. Muzeylərdə elmi-maarif fəaliyyətinin elm, təhsil, mədəniyyət müəssisələri ilə birgə təşkili mexanizminə nail olunmalıdır.

10. Muzeylər vasitəsilə turizmin elmi əsaslarda təşkilinin əhəmiyyəti nəzərə alınmaqla, digər müvafiq komitə, nazirlik və təşkilatlarla əlbir fəaliyyət sisteminin yaradılması vacibdir.

11. Muzeylərdə ekskursiya işinin elmi təşkilinin tətbiqinə və təhlilinə əhəmiyyət verilməlidir.

Muzeyşünaslığın ayrı-ayrı inkişaf istiqamətləri üzrə prinsiplərinin araşdırılması, üzə çıxarılması və onlardan istifadənin təkmil şəkildə, sistem halında həyata keçirilməsi vacibdir və bu sahədə geniş tədqiqatlar muzeyşünaslarımız tərəfindən yerinə yetirilməlidir.

### 1.4. Azərbaycan muzeyşünaslığının imkanları və vasitələri

Muzeyşünaslığın nəzəri və tətbiqi tərəfləri biri-biri ilə sıx qarşılıqlı əlaqədə inkişaf etməklə, biri digəri üçün zəminə çevrilir və ümumiyyətlə, muzeyşünaslığın inkişaf mexanizminin əsas hissələri sayılırlar. Muzey işinin elmi əsası olan muzeyşünaslığın strukturundakı nəzəri və tətbiqi hissələrin öz-

ləri də yarım hissələrdən ibarətdir. Belə ki, nəzəriyyə - ümumi nəzəriyyə (metamuzeologiya), sənədləşdirmə nəzəriyyəsi, tezavrirə (elmi-fond işi) nəzəriyyəsi, əlaqə nəzəriyyəsindən, tətbiq isə - elmi metodikalar, muzey işinin texnikası, muzey işinin təşkili və idarəedilməsindən ibarətdir (536, 533, 526, 514);

Muzeyşünaslığın ümumi nəzəriyyəsində muzeyşünaslığın elmlər sistemində yeri, onun quruluşu, anlayışları aydınlaşdırılır, muzeyin və muzey əşyasının əsas əhəmiyyəti əsaslandırılır. Sənədləşdirmə nəzəriyyəsi vasitəsilə muzey toplantılarının sənədləşdirmə metodu və metologiyasının əsasları əks etdirilir, fond işi ilə əlaqələndirilir. Tezavrirə (elmi fond işi) anlayışı çex muzeoloqu Zbinek Stranskiy tərəfindən ilk dəfə işlədilmişdir (554, s.23). Yunan sözü thesauros - "Tezauros"dan götürülmüşdür ki, mənası "xəzinə"dir, qorunma yeri kimi də bəzən muzeyşünaslıqda işlədilir (514, s.26), elmi-fond işi nəzəriyyəsi vasitəsilə muzey əşyalarının elmi sənədləşdirmə mexanizmi öz həllini tapır, sənəd-məlumat əhəmiyyətli sistem yaranır.

Əlaqə nəzəriyyəsi vasitəsilə bir əlaqə institutu kimi muzeydə əşya və nümunələrin əsasında əlaqəlilik sayəsində məlumatlar tədqiq edilir.

Tətbiqi muzeyşünaslıq isə muzeylərin mədəni-kütləvi fəaliyyəti ilə daha sıx bağlı olduğundan dörd əsas bölməni özündə birləşdirir: 1) elmi metodika; 2) muzey işinin texnikası; 3) muzey işinin təşkili; 4) muzey işinin təşkili və idarəedilməsi. "Tətbiqi muzeyşünaslıq bir tərəfdən, əldə edilmiş təcrübənin müəyyən zaman, tarixi dövr ərzində formalaşmasını sübut edir. Burada fəaliyyətin tarixə istinadən baş verdiyi bəlli olur. Digər tərəfdən isə, muzeyşünaslığın nəzəri əsaslarının təkmilləşməsi və tətbiq edilməsi tədqiq edilir. Bu prosesdə də zaman öz işini görür. Lakin hər iki halda nəzəriyyənin təcrübəyə tətbiqi və tətbiqdən yeni nəzəri fikirlərin, ideyaların, konsepsiyaların əmələ gəlməsi prosesi baş verir. Yəni, qarşılıqlı əlaqəlilik

müəyyən tarixi zaman çərçivəsində "yeni"nin yaranmasında zəminə çevrilir" (455, s.213-214).

Elmi metodikalar tətbiqi muzeyşünaslığın əsas bölmələrindən biri kimi nəzəriyyə ilə sıx bağlıdır. "Metodiki tədqiqatlar ümumi və xüsusi olmaqla iki istiqamətdə aparılır. Ümumi metodikalar muzeyin bütün fəaliyyət prosesinə aiddir. Məsələn, ekspozisiyanın metodiki prinsiplərinin nümayişi, kommunikasiyasının xüsusi forması kimi əhəmiyyəti, ekskursiya işinin prinsipləri, muzey əşyalarının saxlanılması metodikası və s. Xüsusi metodiki tədqiqatlar muzeylərin profili və növlərindən asılı olaraq ümumi elmi metodikalardan yaranır" (455, s. 214).

Texnikaya muzey binalarının, avadanlığının layihələşdirilməsinin öyrənilməsi, muzey materiallarının texniki eksponatlaşdırılması, məlumatların verilmə texnikası, nəqliyyat vasitələri, muzey əşyalarının vəziyyətinin texniki tədqiqi, bərpa və konservasiya işlərinin texniki tərəflərinin tədqiqi və s. aiddir.

Təbiətdə və cəmiyyətdə kifayət qədər maraq doğuran əşya və nümunələr mövcuddur. Bu əşya və nümunələr elmi, bədii, tarixi, memorial gücünə görə muzey əhəmiyyətli əşyalar adlanır. Muzey əşyaları informativlik, attraktivlik və ekspressivlik xüsusiyyətlərinə malik olmaqla, müvafiq təsir gücünü göstərirlər.

İnformativlik tarixi hadisələr, mədəni, ictimai və təbiət hadisələri və proseslərini özündə əks etdirən muzey əşyalarına xasdır.

Attraktivlik öz xarici görünüşü, cizgiləri, forması, ölçüsü, rəngi ilə diqqəti cəlb edən muzey əşyalarına xasdır.

Ekspressivlik hadisə, faktla bağlı dəyərli məlumatlar verə biləcək muzey əşyalarına xasdır (533, s.36; 536, s.336-340).

Muzey işinin təşkili və idarəedilməsi muzey fəaliyyətini əhatə edir və aşağıdakı tərkib hissələri özündə birləşdirir:

1. Muzey işinin elmi-maarif fəaliyyətinin təşkili.
2. Elmi-kütləvi işin planlaşdırılması və təşkili.

3. Elmi-tədqiqat işlərinin planlaşdırılması, təşkili və idarəedilməsi.
4. Muzey ekspozisiyasının təşkili və idarəedilməsi.
5. Muzey əşyalarının elmi-tədqiqinin təşkili.
6. Muzey fondlarının tədqiqi, mühafizəsi, bərpasının təşkili və idarəedilməsi.
7. Muzeydə turizmin təşkili və idarəedilməsi.
8. Muzeydə ekskursiya işinin təşkili və idarəedilməsi.
9. Beynəlxalq muzeylərarası ekspozisiya mübadiləsi işinin təşkili və idarəedilməsi.
10. Muzey işinin idarəedilməsində maliyyə işlərinin tənzimlənməsinin təşkili.
11. İdarə və müəssisələrlə muzey işinin əlaqələndirilməsinin təşkili və s.

Muzeyşünaslığın həm nəzəri, həm də tətbiqi istiqamətləri birgə fəaliyyət sisteminə əsaslanmaqla müəyyən imkanlara malikdir. Bu imkanlara zənginləşdiricilik, tərbiyəedicilik, maariflәndiricilik, təhsilləndiricilik, inkişafetdiricilik və formalaşdırıcılıq aiddir. Həmin imkanlar ayrı-ayrı vasitələr sayəsində müvafiq funksiyalara malikdir. Yəni imkanlar və vasitələr arasında da qarşılıqlı əlaqəlilik mövcuddur.

Muzey vasitəsilə zənginləşmə prosesi müvafiq imkan daxilində əhatəli, yaxud məhdud şəkildə yerinə yetirilir. Yəni, geniş imkanlar sayəsində sərgi, yaxud digər muzey tədbiri hərtərəfli zənginləşdirmə prosesini yerinə yetirməyə malikdir. Vasitələrdən – muzey əşyaları, sərgi-ekspozisiyalar, digər muzey tədbirlərindən imkana müvafiq istifadə edilməklə, istər muzeydaxilində, istərsə də muzeydənkənar yerlərdə müxtəlif yaş qruplu və peşə sahiblərinin zənginləşdirilməsi həyata keçirilir, Burada əsas və aparıcı qüvvə isə insan amili – muzey işçisidir. Muzeyşünaslıq baxımından muzey işçisinin bilik, bacarıq, vərdişləri, peşəkarlığı mühüm əhəmiyyət kəsb edir və keyfiyyət amilində aparıcı funksiyaya malikdir. Həm nəzəri, həm də təcrübi baxımdan zənginləşmə elmi əsaslara istinadən

getdikcə təkmilləşdirilir.

Muzeyşünaslıqda tərbiyəedicilik imkanları əşyaları toplama, elmi aşkarlama, sənədləşdirmə, mühafizə, bərpa, təbliğ, nümayiş vasitəsilə prinsiplik daxilində həyata keçirilir. Zehni, əqli, ideya-mənəvi, əmək, əxlaq tərbiyəsi, estetik tərbiyə, vətənpərvərlik tərbiyəsi məhz muzey əşyalarının, eksponatların ekspozisiya mühitində kompleks təsiri ilə mexanizm təşkil edir. Təhsilləndiricilik imkanlarının da əhatəsi genişdir. Belə ki, elmin ayrı-ayrı sahələri üzrə eksponatın gücündən istifadə edilməklə, nəzəri biliklər təcrübi olaraq əyani şəkildə müqayisə edilir, təfəkkür mexanizmində aktivlik yaradır, müqayisə sayəsində inandırma öz təsdiqini tapır, problemlə bağlı kompleks informasiya əldə olunur, elmi faktlar, məlumatlar dəqiqləşdirilir, idraki aktivlik sayəsində yekun nəticələr öz müsbət təsirini göstərir və s.

Muzeyşünaslıqda inkişafetdirici və formalaşdırıcı imkanlar xarakterlə əlaqələndirilir. Muzeydaxili və muzeydənkənar mühitlərdə ayrı-ayrı elm, təhsil, mədəniyyət, yaradıcılıq müəssisələri, idarə və təşkilatların birgə fəaliyyətləri əsasında inkişafetdiricilik, formalaşdırıcılıq imkanlarından maksimum istifadə edilir. Aparılan araşdırmalardan məlum olmuşdur ki, inkişafetdiricilik, formalaşdırıcılıq imkanlardan əsasən yeniyetmə gənclər daha çox istifadə etmişlər. Yeniyetmə gənclər istər Bakı şəhəri muzeyləri, istərsə də rayon və bölgələrdə əşyaların toplanması, muzeyə təhvili, tədqiqatların aparılmasında müvafiq şəkildə iştirak etmək arzusunda olduqlarını bildirmişlər və Vətənimizin tarixi, mədəniyyəti, elmi, ədəbiyyatı, incəsənəti, iqtisadiyyatı, qədim tarixi əlaqələrdə iştirakı, təsərrüfat fəaliyyətilə dərindən maraqlanaraq, bu sahələrdə biliklər əldə etmək arzusunda olmuşlar.

Beləliklə, muzeyşünaslıqda zənginləşdiricilik, tərbiyəedicilik, təhsilləndiricilik, inkişafetdiricilik, formalaşdırıcılıq imkanları əhatəlidir və bilavasitə əlaqəlilik prosesində kompleks mexanizmə çevrilir.

# II FƏSİL. TARİXİ MƏNBƏLƏR, MİLLİ MUZEY QURUCULUĞU, MUZEYŞÜNASLIĞIN ELMİ-İXTİSAS ƏDƏBİYYATINDA QOYULUŞU VƏ İNKİŞAFI

## 2.1. Azərbaycan mədəniyyətinin tarixi mənbələri

Bəşər tarixində öz elmi, mədəniyyəti, adət-ənələrinin qədimliyi və zənginliyi ilə tanınan Azərbaycan xalqı dünya mədəniyyətinə çox qiymətli töhfələr bəxş etmiş, sivil inkişafa təkan vermişdir. Azərbaycan ərazilərində qədim mədəniyyət nümunələri əsasında nəinki ibtidai insanların yaşadıqları isbat edilmiş, həm də ərazilərimizdə ən qədim insanların uzun müddət məskən salması, formalaşması üçün əlverişli coğrafi şəraitin mövcudluğu elmi əsaslarla təsdiqlənmişdir. Qədim daş dövründən başlayaraq yaşayan insanlar təbii hadisələrə tab gətirərək təbiətin sirlərini mərhələ-mərhələ dərk etmiş, bəşəriyyət üçün vacib maddi və mənəvi mədəni sərvətlərini yaratmışlar. Müxtəlif dövr mədəniyyətlərinin abidələri və nümunələri ərazilərimizin bəşər sivilizasiyasının mərkəzlərindən biri olduğunu söyləməyə əsas vermişdir (273,s.7). Arxeologiya, etnoqrafiya, toponimika, tarix, sənətşünaslıq, kulturologiya və digər elmlərin bu günə qədər əldə etdiyi elmi nailiyyətlər müxtəlif dövr mədəniyyətləri abidələrinin, əşya və materialların, nümunələrin aşkar edilməsinə şərait yaratmış, onların tədqiq olunmasına, bir qisminin eksponatlaşdırılaraq muzeylərdə, şəxsi toplantılarda cəmləşdirilməsi, qorunması, nümayişi üçün vacib vasitəyə çevrilmişlər.

Tarixi zərurəti özündə yaşadan, qoruyan, nəsillərdən-nəsillərə ötürən, zəngin bədii-sənətkarlıq və yaradıcılıq nümunələri zəminində təşəkkül tapan, inkişaf edən, formalaşan muzeylərimizin fəaliyyəti bu gün də diqqət mərkəzindədir, aktuallıq kəsb edir. Müxtəlif dövrlərdə ayrı-ayrı mədəniyyətlərin inkişafına, yayılmasına təkan verən qüvvə sayılan insan, öz

zəkasının köməyi ilə sadə ibtidai alətlərdən tutmuş ən incə, zərif nümunələrə qədər yaradıcılıq yolunda tarixi məqamların yaşadılması, qorunması və ötürülməsinə məhz muzeylər vasitəsilə nail olmuşdur (352, s.9).

Məhz, vacib mənbələrin aşkarlanması, qorunması, toplanması, bərpası, tədqiqi, gələcək nəsillərə ötürülməsi məqsədilə elmi-nəzəri və təcrübi əsaslarda inkişaf edən muzeylər sayəsində təşəkkül edən, elmi inkişaf yolu keçən Azərbaycan muzeyşünaslığı probleminə yaxından nəzər yetirmək, bir sıra aktual araşdırmalar, ümumiləşdirmələr, təhlillər aparmaq zərurəti yaranır.

Buna görə də illərlə şəxsi toplantılarda və muzeylərdə cəmləşdirilən, qorunan, tədqiq-təbliğ edilən maddi mədəniyyət nümunələrinin, müxtəlif tarixi dövrlər mühitinin müəyyən vəzifələrini özündə əks etdirən əşya və materialların mənbələri sayılan Azərbaycan ərazisindəki məskənlərdən qısa bəhs etmək problem əhəmiyyətlidir. Belə ki, Respublikamızda aparılan arxeoloji tədqiqatlar zamanı ilk sakinlərin məskunlaşmasına aid çox zəngin maddi mədəniyyət nümunələrimiz aşkar edilmiş və belə böyük elmi nəticələr Azərbaycan ərazilərinin insanın formalaşdığı məskənlər siyahısına daxil olmasına zəmin yaratmışdır (273, s.7). Tədqiqatçı alimlər Q.M.Aslanovun, S.B.Aşurbəylinin, İ.A.Babayevin, P.İ.Boriskovskinin, F.Bordun, T.Bünyadovun, Z.M.Bünyadovun, Ə.Q.Cəfərovun, İ.M.Cəfərzadənin, İ.H.Əliyevin, İqrar Əliyevin, F.Qədirovun, K.H.Əliyevin, O.Əfəndiyevin, B.H.Əliyevin, M.M.Hüseynovun, Q.S.İsmayılovun, C.D.Klarkın, Q.Kazımovun, A.K.Kalankadzenin, İ.İ.Korobkovun, Q.Ə.Qeybullayevin, A.D.Lümleyin, V.P.Lübinin, T.M.Məmmədovun, F.C.Məmmədovanın, F.M.Muradovanın, M.M.Mənsurovun, M.A.Museyibovun, İ.H.Nərimanovun, A.Nuriyevin, Ə.Babayevin, F.L.Osmanovun, S.M.Onullahinin, M.S.Ordubadinin, C.H.Rüstəmovun, S.N.Zamyatinin tədqiqatlarında, əsərlərində və digər mənbələrdə Azərbaycanın Araz, Quruçay, Arpaçay, Tərtərçay, Viləşçay, Zuvandçay və

digər vadilərdə aşkar edilmiş 1,7 – 1,8 milyon illik tarixə malik olan Olduvay, Aşel, Mustye, Orinyak, Solyutre, Madlen, Azil, Mezolit, Neolit, Kür-Araz və Boyalı qablar mədəniyyətlərinin maddi mədəniyyət nümunələri haqqında zəngin arxeoloji əşya-materialları haqqında elmi faktlar öz şərhini tapmışdır (273, s.7).

Araşdırmalardan məlum olmuşdur ki, ulu sakinlərimizin qarşısına çıxan çətinliklərin aradan qaldırılmasında birgə yaşayışın mühüm əhəmiyyəti olmuşdur və bu günə qədərki maddi və mənəvi sərvətlərin yaradılmasına səbəb olmuşdur. Bu baxımdan maraq yaradan amillərdən birincisi odur ki, istər dünyanın ayrı-ayrı qitələrində, istərsə də Azərbaycanda ilk qədim insanlar bir məskəndə-mağaralarda yaşamış, qidaları da bir növ – mağara ayıları, marallar və təbiətin hazır nemətləri olmuşdur (439, s.6). İkincisi isə odur ki, onlar öz bacarıq və qabiliyyətlərini bir yerə - qayalar üzərinə yazmışlar. "İstər Qobustan qayaüstü rəsmləri, Kəlbəcər, Gəmiqaya, Fransa, İtaliya və istərsə də Afrikadakı qayalar üzərinə ulu sakinlərin həkk etdikləri incəsənət əsərləri (bacarıq və qabiliyyətlərin həkki – S.A.) dediklərimizi bir daha təsdiq edir" (273. s.9).

İnsanlığın yaşaması, fəaliyyəti üçün əlverişli coğrafi şərait seçilməsi təbii idi, çünki həmin ərazilərdə - dağlıq əraziyə yaxın çay vadiləri yaxınlığında yerləşən mağara və sığınacaqlar həm təbii fəlakətlərdən qorunmaq, həm müxtəlif alətlər hazırlamaq, həm də təhlükəsizlik baxımından diqqəti cəlb edirdi.

Tədqiqatlardan məlum olmuşdur ki, Azərbaycanın Araz və Quruçay vadilərində ulu sakinlərimiz 2 – 1,5 milyon il bundan əvvəl məskunlaşmağa başlamışlar (273, s.15). XX əsrin 50-80-ci illərində Qarabağda aparılan arxeoloji qazıntılar zamanı Azıx qədim insan düşərgəsində əvvəllər ancaq Azərbaycan alimləri iştirak etmiş, sonralar isə alimlərimizlə birgə Moskva, Sankt-Peterburq və Fransa mütəxəssisləri də iştirak etməyə başladılar (273,s.40).

Mağarada tədqiqat aparan M.Hüseynov, D.Hacıyev,

Ə.Məmmədov, N.Şirinov, V.Veliçko, Ə.Cəfərov, V.Hacıyev, S.Əliyev, M.Süleymanov və digər alimlərin əməyi nəticəsində 10 arxeoloji təbəqə aşkar edilmiş, zəngin bəşəri əhəmiyyətli məlumatlar aşkarlanmışdır. Düşərgənin I, II təbəqələrində orta əsrlər, Tunc və Eneolit dövrlərinə aid maddi mədəniyyət nümunələri, III təbəqəsindən Mustye, V təbəqəsindən orta Aşel, VI təbəqəsindən qədim Aşel, VII-X təbəqələrindən isə Quruçay mədəniyyətinə aid maddi mədəniyyət nümunələri aşkar edilmişdir (273, s.38). Düşərgənin çöküntülərindən 10 mindən artıq daş və 100 mindən artıq sümük məmulatı aşkarlanmış və həmin mənbələr əsasında bəşəri əhəmiyyət kəsb edən çox dəyərli elmi faktlar əldə edilmişdir.

Maraqlıdır ki, düşərgənin təkcə VII-X təbəqələrindən mühüm elmi əhəmiyyətə malik maddi mədəniyyət nümunələri, o cümlədən 400-dən artıq aşkar edilən daş məmulatı içərisində, həmçinin kobud çapacaqlar, kubvari alətlər, kobud qaşovlar, vurma səthi yaxşı saxlanmış qəlpələr və sair bu kimi əşyalar qeydə alınmışdır (273, s.39). Məlum olmuşdur ki, VII-X təbəqələrdən aşkarlanmış əmək alətləri Şərqi Afrikanın Olduvay mədəniyyəti kompleksi ilə uyğunluq təşkil edir. Lakin həmin əmək alətlərinin tipologiyasında müəyyən fərqli cəhətlər vardır ki, bu da VII-X təbəqələrin materialları əsasında yeni arxeoloji mədəniyyətin müəyyən olunmasına səbəb olmuşdur.

Ölkəmizdə ən qədim arxeoloji mədəniyyət sayılan Quruçay mədəniyyətinin maddi mədəniyyət qalıqları əsasında respublika ərazisində ibtidai insanların 1,8 milyon il bundan əvvəl yaşamağa başlamaları və əmək alətləri hazırlamaları elmi əsaslarla sübuta yetirilmişdir (273, s.41).

Araşdırmalar nəticəsində qədim, orta və son Aşel mədəniyyətlərinə aid maddi mədəniyyət qalıqları Afrikada, Avropada, Asiyada, Zaqafqaziya ərazilərində, eləcə də Azərbaycanda Azıx düşərgəsinin V və VI təbəqələrində, Qazax rayonunun Qayalı, Acıdərə, Əli Bayramlı və Şişquzey açıq paleolit düşərgələrində tapılmışdır. Eyni zamanda Lerik, Kəlbəcər və

Naxçıvan ərazilərində də Aşel mədəniyyətinə aid əmək alətləri aşkarlanmışdır (273, s.42)

Azərbaycanda paleolit dövrünün maddi mədəniyyət qalıqları Azıx, Tağlar, Daş Salahlı, Damcılı, Şuşa mağara düşərgələrindən aşkar olunmuşdur" (274, s.437). Göründüyü kimi Azıxdan başqa digər düşərgələrdə də problemlə bağlı mənbə olan mədəniyyət nümunələri mövcuddur. Təkcə Azıx düşərgəsindən VI təbəqədən 2 mindən artıq daş məmulatı içərisindən 526 ədəd əmək alətləri tapılmışdır (273,s.43). Eyni zamanda çoxlu ovlanmış heyvan sümükləri də qeydə alınmışdır (273, s. 43). Məlum olmuşdur ki, əgər qədim Aşel dövründə 11 növ iri heyvan ovlanmışdırsa, orta Aşeldə isə 45 növ heyvan və quş ovlanmışdır. Düşərgənin daxili quruluşundan məlum olmuşdur ki, ibtidai insanlarda məhz ilk dini görüşlər orta Aşel dövründən, yəni 350-200 min il bundan əvvəl yaranmışdır.

"1981-ci il dekabrın 8-də Fransada Parisin "İnsan muzeyi"ndə "Avropanın ilk sakinləri" adlı sərgi açılmışdı. Sərgidə dünyanın ən qədim insan məskənlərində aşkar olunmuş maddi mədəniyyət nümunələri və antropoloji tapıntılar nümayiş etdirilmişdi. Sərgidə keçmiş SSRİ-dən ancaq Azıx paleolit düşərgəsində aşkar olunmuş Quruçay mədəniyyətinin, qədim, orta Aşel və Mustye mədəniyyətlərinin arxeoloji tapıntıları üçün ayrıca guşə ayrılmışdı. Arxeoloji materiallar içərisində Quruçay mədəniyyətinin, Aşel vı Mustye mədəniyyətinin əmək alətləri, azıxantropun alt çənəsi və başqa maddi mədəniyyət nümunələri xüsusi maraq doğurmuşdu" (273.s.53). Bütün bunlar bəşəri mədəniyyət sərvətləri olan ilk əmək alətlərinin hazırlanmasından xəbər verir və dünya muzeyləri üçün zəngin mənbələr sayılır.

Neolit dövrünə aid maddi mədəniyyət nümunələrinin Qobustan, Gillikdağ və 133 nömrəli Xanlar (indiki Göygöl) düşərgəsində, Damcılı mağarası, Yanıqtəpə və Həsənlinin alt təbəqələrində aşkar edilməsi qədim yaşayış məskənlərinin ölkəmizdə olmasını bir daha sübut edir (274, s.192).

Mustye mədəniyyətinə aid qalıqlar Azərbaycan ərazisində Azıx (III təbəqə), Tağlar, Daşsalahlı, Damcılı, Qazma və Buzeyir mağara düşərgələrində aşkar edilmişdir. Azıx düşərgəsinin III təbəqəsində qazıntılar nəticəsində 3 mindən çox daş məmulatı və 50 mindən çox fauna qalıqları (heyvan sümükləri) aşkar edilmişdir (273, s.58). Buradan tapılmış vəhşi at, ibtidai öküz, vəhşi qulan, Qafqaz maralı, qaban, mağara ayısı, kərgədan və sair heyvanların sümüklərinin qalıqlarını misal göstərmək olar. Həmin sümük qalıqlarının o dövrdə ocaqda yandırılması sübut edir ki, artıq Mustje mədəniyyəti dövründə odun əsas yer tutduğunu göstərir (273, s. 59).

Tağlar Mustye düşərgəsindən Eneolit Tunc dövrlərinə və orta əsrlərə aid gil qab qırıqları, daş alətlər aşkar edilmişdir. Ümumiyyətlə, bu düşərgədən 7 mindən artıq daş məmulatı və 100 mindən çox heyvan sümükləri qeydə alınmışdır (273, s.61). Beləliklə, düşərgənin M.Hüseynov, D.Hacıyev, Ə.Məmmədov. N.Şirinov, Ə.Cəfərov, A.Beliçko, S.Əliyev, M.Süleymanov və digər alim-tədqiqatçılar tərəfindən kompleks tədqiqi nəticəsində ulu sakinlərin nəinki həyat tərzi, əmək alətlərinin hazırlanma xüsusiyyətləri, həm də dövrün coğrafi mühiti, fauna və florası da araşdırılmışdır (273, s.64).

Naxçıvanda aparılmış qazıntılar nəticəsində orta əsrlər, Tunc və Eneolit dövrləri qalıqları, çox qiymətli abidələr (Kültəpə, Xaraba-Gilan və sair) aşkar edilmişdir. Çox maraqlı elmi nəticələr Ordubad, Culfa və Şərur rayonları ərazilərində əldə edilmişdir. Şərurun Tənənəm kəndi yaxınlığında aşkarlanan Qazma dərəsində tapılan Qazma mağarası problem əhəmiyyətlidir.

1987-1990-cı illərdə Qazma Mustye düşərgəsində tapılmış maddi mədəniyyət nümunələri arasında əsas yeri 1000-ə yaxın daş məmulatı və 12 mindən artıq heyvan sümükləri qalıqları tutur. Buradakı qazıntılar (Ə.Cəfərov, D.Hacıyev) Azərbaycanda neandertal tipli insanların daha geniş ərazilərdə yaşadıqlarını göstərir (273,s.70,71).

Lerik-Zuvand zonasındakı mağaralar içərisində Buzeyir mağarasında aşkarlanmış Paleolit dövrünə aid maddi mədəniyyət nümunələri sübut edir ki, bu Lənkəran zonasında ilk qədim insan düşərgəsidir (273.s.714).

Kəlbəcər rayonunun mağaraları içərisində Tərtər, Şordərə, Qamışlı, Qoşa Kaha, Dəhnə, İstisu və başqa düşərgələr maraq doğurur.

Azərbaycan ərazisində üst Paleolit dövrünə aid maddi mədəniyyət nümunələri Damcılı mağarası, Yataq yeri açıq yaşayış yeri, Masallı rayonunun Hişkədərə kəndi ərazisində, Kəlbəcərin Zar və Qobustan yaşayış düşərgələrindən aşkarlanmışdır (273, s. 77,78).

Respublikamızda Mezolit dövrünə aid maddi mədəniyyət nümunələri Damcılı mağarasında və Qobustanda (113, s. 416) aşkar edilmişdir. Damcılıda əsasən itiuclular, üçbucaq, seqment, trapes kimi həndəsi formalı alətlər, bıçaqlar, kəsici alətlər, bizlər və sair tipli əmək alətləri tapılmışdır.

Mezolit dövrünə aid Qobustan abidələri mühüm əhəmiyyətlidir. Ən mühüm abidələr Böyükdaş, Kiçikdaş və Cingirdağ sahələrində yerləşir. İlk dəfə burada arxeoloq, etnoqraf və tarixçi alim İ.Cəfərzadə 1939-cu ildə tədqiqat aparmış, sonrakı 1940-1965-ci illərdə onunla birgə onun həyat yoldaşı rəssam Sofiya xanım Cəfərzadə tədqiqatlar aparmış, qayaüstü rəsmləri tədqiq və təbliğ etməkdə böyük zəhməti olmuşdur.

İ.Cəfərzadə 750 daş üzərində 3500-dən artıq qayaüstü təsvirləri qeydə almış, tədqiq etmiş, dəyərli elmi yeniliklər əldə etmişdir (273, s.80).

Sonralar Qobustanda C.N.Rüstəmov və F.M.Muradova tərəfindən "Ana zağa", "Ovçular zağası", "Firuz", "Şonqar", "Ceyranlar", "Böyükdaş", "Dairə", "Çapmalı" yaşayış yerlərində və 30-dan artıq kurqanlarda aparılan tədqiqatlar zamanı 55 mindən artıq maddi mədəniyyət nümunələri – çaxmaqdaşı, çaydaşı və sümükdən hazırlanmış əmək alətləri, ox ucları, tunc silahlar, gil qab nümunələri, müxtəlif bəzək əşyaları, yığma

alət dişləri, bıçaqlar, qaşovçuqlar, bizlər, kəsərlər, isgənə tipli alətlər və sair aşkar edilmişdir. Qobustanda Mezolit dövrünə aid qəbir abidəsi aşkarlanmış və burada 12 insan skeleti tapılmışdır.

Neolit dövründə artıq gil qablardan istifadə olunmaqla daş və sümük alətlər də işlədilirdi. Eyni zamanda cilalı daş baltaların istehsalı və tətbiqi həyata keçirilməyə başlamış, əkinçilik, toxuculuq bu dövrdən yaranmışdır. Neolit dövrü mədəniyyətinə Qobustan, Damcılı mağarası, Naxçıvanın Kültəpə, Füzulinin Qarakönəktəpə, Xanlar (indiki Göygöl), Şomutəpə, Töyrətəpə və başqa yaşayış düşərgələrinin maddi mədəniyyət nümunələrinə rast gəlinmişdir.

Qobustandan toxayabənzər alətlər, sürtgəclərin oraq dişləri, ovçuluq və balıqçılıqla əlaqədar mikrolit alətlərin, silahların tapılması qobustanlıların yeni təsərrüfat sahəsi ilə məşğul olduqlarını söyləməyə əsas verir (273, s.83).

Mezolit-neolit mədəniyyətilə bağlı əldə olunan materiallardan aydın olmuşdur ki, həmin dövrün insanları yaşamış, yaratmış, bəzək-düzək əşyalarının hazırlanmasına, ümumiyyətlə incəsənətə də kifayət qədər vaxt sərf etmişlər (46, s.89). Qobustanın Firuz və Kənizə düşərgələrində aşkar edilmiş iki dəfn abidələri, bəzi incəsənət nümunələri, ayrı-ayrı qayaüstü təsvirlər Mezolit-Neolit dövrü insanlarının mənəvi aləmi haqqında müəyyən təsəvvürlər yaradır (46, s.89). Qəbir abidələri bir daha sübut edir ki, insanlar müəyyən dini etiqadlarla əlaqədar əcdadlara sitayiş etmiş, axirət dünyasına inanmış, yüksək estetik duyğulara malik olmaqla incəsənət abidələri yaratmış, bu abidələrdə qədim Azərbaycan əhalisinin həm təsərrüfat fəaliyyətini əks etdirən, həm də mənəvi aləm baxımından maraq yaradan təsvirlər əks etdirmişlər (46, s.90). Qobustandakı Böyükdaş, Kiçikdaş, Şıxqaya, Şonqar dağları əhatəsindəki, Cingirdağ və Yazılıtəpədəki abidələri misal göstərmək olar (46, s.90).

Ölkəmizdə Eneolit dövrünün tədqiqatları alim-tədqiqat-

çılar O.Həbibullayev və İ.Nərimanov tərəfindən aparılmışdır. Azərbaycan ərazisində Eneolit dövrü abidələri Naxçıvanda, Mil-Muğan, Gəncə-Qazax düzənliklərində, Cəlilabad rayonunda aşkarlanmışdır. Əsasən Kültəpə, Şomutəpə, Kamiltəpə, Əliköməktəpəsi və digər yaşayış məskənlərinin tədqiqindən məlum olmuşdur ki, Azərbaycan əhalisi bu dövrdə ilk dəfə məişət və təsərrüfatda çiy kərpicdən istifadə etmişdir, tikilən evlər dairəvi planlı olmuş, əkinçilik inkişaf etmişdir.

Eneolit dövrü sənətkarlığı da Azərbaycanda çoxcəhətliliyi ilə fərqlənir. Daşdan və sümükdən hazırlanmış əşyalar, alətlər, məmulatlar (Ağstafanın Aşağı Göyçəli kəndindəki Töyrətəpə eneolit yaşayış yeri), dəri istehsalı üçün alətlər (Əliköməktəpə), dulusçuluğun inkişafı (I Kültəpə, Şomutəpə, İlanlıtəpə, Əliköməktəpə, Dəlmətəpə, Çalağantəpə), müxtəlif formalı qabların istehsalı (Əliköməktəpə), boyalı qabların ən qədim nünunələri (Hacı Firuz yaşayış yeri) çox qiymətli mənbələr sırasındadır (46, s.98-99).

Bu dövrlərdə Azərbaycanda ev sənətkarlığının artması ibtidai insanların dərketmə qabiliyyətlərinin inkişafını sübut edir, yeni ayinlərin yaranması, dilin zənginləşməsi, təsəvvürlərin kifayət qədər mürəkkəbləşməsi müvafiq abidə nümunələri vasitəsilə tədqiq olunmuşdur (46, s.103). Yanıqtəpə, Çalağantəpədəki insan (qadın) təsvirləri, bəzək əşyalarının yaradılması və istifadəsini əks etdirən təsvirlər də dəyərli mənbələrdir (46, s.103).

Tunc dövrünə aid Azərbaycan maddi mədəniyyət nümunələri alim-tədqiqatçılar Q.İsmayılov, B.Əliyev, H.Kəsəmənli, F.Muradova, H.Cəfərov və digərlərinin araşdırmaları nəticəsində aşkar olunmuşdur ki, (273, s.116). Quruçay və Köndələnçay vadiləri abidələri muzeylərimiz üçün mənbələr sırasına aiddir. Qaraköpəktəpə, Günəşlitəpə, Xantəpə, Kültəpə, Meynətəpə, Şomutəpə, Uzuntəpə və başqa abidələrdə tunc dövrünə aid çox zəngin maddi mədəniyyət nümunələri qeydə alınmışdır. Qobustanda da tunc dövrünə aid "Ana zağa", "Çardağ zağa",

"Firuz", "Dairə", "Böyükdaş" və digər yaşayış yerləri aşkar edilmişdir.

İlk tunc dövrünə aid Kür-Araz mədəniyyəti Azərbaycanın demək olar ki, əksər ərazilərini əhatə etmişdir. Naxçıvanda I Kültənə, Ovçulartəpə, Qazax rayonunda Babadərviş, Cənubi Azərbaycanda Göytəpə və Yanıqtəpə, Qobustanda, Mingəçevirdə, Füzuli rayonunda Qaraköpəktənə, Günəştəpə, Beyləqan rayonunda Çardaxlıtəpə, Cəlilabad rayonunda Mişarçay, Xaçmaz rayonunda Qəflə təpələri, Şabranda Sərkərtəpə, Ağcabədi rayonunda Cüttəpə, Bərdə rayonunda Şortəpə, Ağdam rayonunda Qarahacı yaşayış yerlərindən aşkar edilən abidələr bunu bur daha təsdiq etmişdir (46, s.104-105).

Xankəndi yaxınlığında, Göygöldə, Mingəçevirdə, Mil düzündə, Daşkəsən rayonunda – Borsunluda, Astara rayonunda – Telmankənddə aşkar edilmiş İlk tunc dövrünün bir sıra dəfn abidələri Azərbaycanda məskunlaşan insanların məişət və mədəniyyətini, ideoloji görüşlərini əks etdirməyə imkan verir (46,s.105). Azərbaycanda (Gədəbəy, Dağlıq Qarabağ, Balakən) filiz yataqlarının geniş istifadəsi metaləritmə sənətkarlığının (Kültəpə, Qaraköpəktəpə, Şortəpə, Mişarçay, Göytəpə, Yanıqtəpə və digər yaşayış yerlərində) mövcudluğunu göstərir (46, s.110-111). Yastı tunc baltalar, dəstəkli nizə ucluqları (I Kültəpə və Xoşbulaq), ikiağızlı yarpaqvari bıçaq – xəncərlər (Xaçınçay sahili, Xankəndi kurqanları, Yanıqtəpə və Kültəpə yaşayış yerləri), biz, sancaq, barmaqcıqlar, tunc oraqlar və sair metal əşyaları (Qaraköpəktəpə, Kültəpə), müxtəlif məqsədlər üçün işlədilən məmulatlar dövrün metalişləmə sənətkarlığı haqqında geniş təsəvvür yaradır (46, s.111).

Qəbələ, Göygöl, Xankəndi və digər rayonlarda Mişarçay, Qarakönəktəpə, Yanıqtəpə yaşayış yerlərindən tapılmış qabqacaq nümunələrinin əsasən torbalardan istifadə üsulu və bəsit dulus çarxından istifadə yolu ilə hazırlandığı dəqiqləşdirilmişdir (46, s.111-112).

Bu dövrdə həmçinin dülgərlik, dabbaqlıq sənətlərinin

inkişafı, ağacişləmə sənəti və digər məişət və təsərrüfat avadanlıqlarının yaradılması müəyyən edilmişdir (46, s.113).

Arxeoloqlar tərəfindən tədqiq edilmiş ayrı-ayrı tarixi dövrlərdə insanların sığınacaq yeri olmuş təbii mağaralardan tapılmış əmək alətləri də həmin tarixi dövrlərin öyrənilməsində mənbə baxımından böyük maraq doğurur.

İnkişaf etmiş oturaq əkinçilik – heyvandarlıq icmalları dövrünün qədim məskənləri, o cümlədən Azərbaycanın bir sıra rayonları xüsusi maraq doğurduğuna görə alim-tədqiqatçılar tərəfindən memerlıq-planlaşma quruluşunda oxşarlığa görə istiqamətdə araşdırılmış və bu da maddi mədəniyyət abidələrimizin tarixi inkişaf dövrləri, mənbələri haqqında geniş elmi təsəvvürlər yaradır.

Müəyyən dərəcə düz küçələr əmələ gətirən evlərdən ibarət məskənlər (Göygöl rayonunda məskənlər, e.ə.III-II minillik), şəhərtipli məskənlər (Üzərliktəpə, e.ə. IV minillik, Qaraköpəktəpə, e.ə. III-II minillik), Abşeronun Qala şəhərləri (e.ə. II-I minillik) və Naxçıvan MR-da qala şəhərlər (e.ə. II minillik), Abşeron yarımadasında, Füzuli rayonunda və Dağıstanda aşkar edilmiş həmin məskənlərdəki yastı-qabarıq çiy kərpicdən tikilən yaşayış evləri və mərasim binaları eneolit və Qədim Tunc dövrlərinin meqalitik memarlıq nümunələridir .

Mənbələr sırasında mühüm əhəmiyyəti olan dəmir dövrü ibtidai icma quruluşunun dağılması və ilk sinifli cəmiyyətin yaranması dövrü kimi qiymətləndirilir, dəmir məmulatının – alət və silahlarının üstünlük qazanması ilə xarakterizə olmaqla, zəngin abidələri ilə qeydə alınmışdır. Həmçinin bu dövrdə sənətkarlıq əkinçilikdən tamamilə ayrılmış, təbəqələşmə güclənmiş, dövlətlər meydana çıxmışdır (441, s.8-9).

Azərbaycan ərazilərində antik dövrdə kənd və şəhər yaşayış yerlərində əldə hazırlanmış qırmızı və qara rəngli müxtəlif gil qablar, kirkirə daşları, həvənglər, müxtəlif daş alətlər və tikinti qalıqları tədqiq edilmiş, maddi mədəniyyət nümunələri kimi qiymətləndirilmişdir. Şamaxının Xınıslı şəhər

tipli yaşayış məskəni, Qazax, Yuxarı Qarabağ, Ağsu, Qəbələ, Mingəçevir, Göyçay və digər ərazilərdə belə nümunələr aşkarlanmışdır (273. s.122). Həmçinin, orta əsr şəhərlərində Qəbələ, Beyləqan, Naxçıvan, Bərdə, Dərbənd, Bakı, Şabran, Təbriz, Gəncə, Şəki şəhərləri mühüm iqtisadi, siyasi, elmi və mədəni mərkəzlər kimi məşhurlaşmışlar (273, s.123-124).

Muzeylərin ayrı-ayrı fərdi kolleksiyalarının yaranması mənbələrinə eyni zamanda dünya əhəmiyyətli, ölkə əhəmiyyətli və yerli əhəmiyyətli müxtəlif dövr memarlıq abidələrinin, bağ-park, monumental və xatirə abidələrinin, dekorativ-tətbiqi sənət nümunələrinin tədqiqi zamanı əldə edilən nümunələr də mühüm əhəmiyyət kəsb edir (134,s.4-202). Ümumiyyətlə, Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün sistem halında cədvəl şəklində vermək məqsədyönlüdür (bax: əlavələr, cədvəl 2.1).

Cədvəldən göründüyü kimi, dünya, ölkə və yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin təşəkkülü naleolit dövründən başlamışdır ki, bu da sübut edir ki, Azərbaycan ərazilərində uyğun coğrafi şərait qədim insanların, bəşərin ulu düşərgələrinin fəaliyyətləri Olduvay mədəniyyəti nümunələrindən tutmuş, ayrı-ayrı mədəniyyətlərin nümunələrinin yaradılması, inkişaf və tərəqqi etməsi üçün zəmin yaratmışdır. Bu da kolleksiyaçılıq, muzeyçilikdə çox zəngin mənbələrin mövcudluğuna əyani sübutdur.

Bizim eradan əvvəl III-II minilliklərdə Azərbaycanın cənubunda Lullubi tayfa ittifaqının yaranması, b.e.ə. XXIII əsrdə onun ittifaq dövlətə çevrilməsi, Urmiya gölündən qərbdə və cənub-qərbdə Kuti dövlət qurumunun yaranması və sonrakı inkişaf prosesi qədim və zəngin maddi, mənəvi mədəniyyətin mövcudluğunu təsdiq edir (50, s.8). Atropatenada yerli sənətkarlar – dulusçular tərəfindən müxtəlif keramika məmulatlarının – kuzə, güldan, nimçə, bardaq, möhtər və sairənin hazırlanması, müxtəlif boyalarla rənglənməsi, üzərlərində təsvirlərin,

işarələrin həkk edilməsi keramika istehsalının geniş inkişaf etdiyini sübut edir (46, s.309).

"Hazırda Atropatena keramikasının təkamülündə iki mərhələni ayırmaq olar: erkən (e.ə.III-II əsrlər) və son (e.ə. I əsr – eramızın II əsri) inkişaf mərhələləri" (46, s. 310). Boyalı keramikanın istehsalı erkən mərhələyə aiddir. Eramızdan əvvəl II əsrin ikinci yarısından isə Parfiya dövrünün əvvəlində meydana gəlmişdir (46, s.310). Zoomorf keramikanın yaradılması e.ə. I əsr – eramızın I əsrinə aiddir.

Heç bir məzarüstü qurğulara malik olmayan küp qəbirləri e.ə. VI-III əsrlərdə aiddir. Küplər iri gil qablardır və dəfn üçün nəzərdə tutulurdu (46, s.311). Manna, Atropatena və Albaniya dövlətlərində yaşayan soyların əvvəlcə hər birinin ayrılıqda, zaman keçəndən, soylar birləşəndən, qəbilə ittifaqı yaranandan sonra bütün əhaliyə məxsus xalq mərasimləri, dini təsəvvürləri olmuşdur. Üzərində günəş, ay, müxtəlif heyvanlar, çalıb-oynayan, rəqs edən, yallı gedən insanların təsviri olan qablar məhz bu izlərdir. Belə təsvirlər həm Abşeronda, həm Qobustanda, həm Gəmiqayada aşkar olunmuş qayaların üzərində həkk edilmişdir. Qobustanda və başqa qayaüstü təsvirlərdəki yallı səhnəsi, həmçinin Mannada üzərində sinəsinə bizim indiki aşıqların sazına bənzər musiqi alətini basıb oxuyan mannalıların təsviri həm musiqi alətlərimizin, xalq oyunlarımızın tarixini öyrənmək, həm də ən başlıcası, onların ulu babalarımızla bizim aramızda körpü olduğunu sübut edir.

Eramızdan əvvəl IX əsrdə yaranmış qüdrətli Manna dövlətinin qonşu Assuriya və Urartu kimi dövlətlərlə sıx siyasi və mədəni əlaqələri olmuşdur. Onların əldə etdikləri mədəni nailiyyətlər və incəsənət digər xalqlara, o cümlədən midiyalılara və skif tayfalarına da öz təsirini göstərmişdi (421, s.7).

Alim-təqiqatçılarımızın fikrincə muzeylərimizin fəaliyyəti üçün mənbələr sayılan milli incəsənətimizin inkişafı üç böyük dövrü əhatə edir.

1. Alban dövründən əvvəlki incəsənət (e.ə.IV əsrə qədər);
2.Alban dövrü incəsənətinin ilk, klassik mərhələsi (e.ə.IV –e. I

əsri); 3.Alban dövrü incəsənətinin ikinci mərhələsi (I-VII əsrlər).

Alban dövrünün incəsənəti daha qədim dövrlərin incəsənətindən doğduğuna baxmayaraq, yeni tarixi şəraitlə əlaqədar olaraq, mədəniyyətimizi yeni keyfiyyətlərlə zənginləşdirmişdir... Daha qədim mərhələlərin dini səciyyəli təsvir motivləri bu dövrdə dekorativ-ornamental motivlərə çevrilməyə başlamışdır. Alban dövrü incəsənəti özünün bir sıra mütərəqqi sənət ənənələri və yaradıcılıq prinsipləri ilə orta əsr incəsənətimizin inkişafı üçün möhkəm bünövrə yaratmışdır. Bütün bunlara görədir ki, bu dövr qədim Azərbaycan incəsənəti tarixində əsas və başlıca mərhələ kimi qəbul edilir (421, s.8).

Qədim dövr e.ə. XII minillikdən başlayaraq e.ə. IV əsrə qədər davam edir ki, bu dövrdə insanlar bir çox tarixi hadisələrin şahidi olmuşlar (421, s. 11). Sonralar mis-daş dövründə bir sıra kəşflər olmuş, tunc dövründə metaldan istehsal alətləri yaradılmış, dəmir dövründə alətlər təkmilləşdirilmiş, metaldan bəzək məqsədləri üçün istifadə edilmişdir (421, s.11). "Bu uzun dövr ərzində qədim qəbilələr yaşayış məskənləri və müdafiə tikintiləri yaratmışlar ki, bu da əcdadlarımızın memarlıq sahəsindəki ilk təcrübələri olmuşdur. Onlar eyni zamanda rəssamlıq sahəsində də bacarıqlarını sınayaraq, qayalar üzərində heyvan və insan təsvirləri cızmışlar, ürəyəyatan, gözəxoş, dulusçuluq məmulatı, bəzəkli metal alətləri və sair hazırlamışlar.

Onların yaratdığı tunc kəmərlər və nəfis zərgərlik şeyləri qiymətli sənət əsərləridir. Əcdadlarımızın minilliklər ərzində tərtib etdikləri piktoqrafik yazılar yazı mədəniyyətimizin tarixini mis dövründən (e.ə.IV minillikdən) başlamağa imkan verdiyi üçün cahanşümül əhəmiyyətə malik tarixi abidələrdir.

Azərbaycanın coğrafi mövqeyi və təbii zənginlikləri memarlığın təşəkkülünə və inkişafına müsbət təsir göstərmiş amillərdəndir" (421, s.11).

Ən qədim insan məskənləri sayılan mağaralar (Qazax

rayonunda Aveydağda, Füzulidəki Azıx mağarası, Qobustan, Gəncəçay ətrafı, Qubadlı, Zəngilan, Qonaqkənd, Zuvand, Mərəzə və başqa yerlərdə (421, s.12), meqalitik abidələr sayılan menhirlər (Xocalıda, Daşkəsəndə, Gədəbəy rayonunda, Naxçıvan MR-da, Şamaxıda) (421, s.12), kromlexlər (Qobustan ərazisində, Xankəndində, Abşeronda) (421, s.15), siklopik tikintilər (Naxçıvan MR-da, Gədəbəy, Dəstəfur, Şəmkir, Tovuz rayonlarında), daş qutu (421, s. 15-16) qəbirlər, (Dağlıq Qarabağda, Gədəbəy, Lənkəran və başqa rayonlarda) (421, s.16), kurqanlar (Dağlıq Qarabağda, Xanlar rayonunda) (29, s.16-17), yaşayış tikintiləri (Gəncəçay rayonunda, Mingəçevirdə, Ağdam rayonunda və digər ərazilərdə) (421, s.16-19) kimi abidələr qədim dövrlərdən Azərbaycanda əcdadlarımızın tarixən Vətənimizdə yaşadıqlarını sübut edir. Eyni zamanda ayrı-ayrı tarixi dövrlərdə incəsənətin müxtəlif növlərinin ta qədim zamanlardan yaranmasına dair tədqiqatlardan əldə edilən nümunələr, əşyalar muzeylərimizdə, həmçinin dünya muzeylərində, şəxsi kolleksiyalarda dəyərli xəzinələr, əsərlər kimi qorunub nümayiş etdirilir.

Ümumiyyətlə, qədim milli mədəniyyətimizin müxtəlif inkişaf mərhələləri mühit və şəraitdə baş verən hadisələrin xüsusiyyətləri ilə bilavasitə bağlı olmuşdur:

"Azərbaycan mədəniyyəti dörd inkişaf mərhələsi keçmişdir. Birinci mərhələ ümumtürk, ümumbəşəri, arxaik-totemistik inkişaf mərhələsidir. Burada mifologiyada bir sıra heyvanlar, xüsusilə öküz mifi başlıca yer tutur. İkinci mərhələni qurd görüşünün öküz mifizmi ilə çarpazlaşması mərhələsi adlandırmaq məqsədəuyğundur. Mədəniyyətin həmin inkişaf mərhələsi həqiqətlərlə yarımhəqiqətlər şəklində bizə gəlib çatan erkən xaqanlıq-anaxaqanlıq və ataxaqanlıq, eləcə də daş kitabələr və abidələrdə tarixi iz qoymuş xaqanlıq əxlaqi-fəlsəfi dünyagörüşü ilə bağlıdır. Mədəniyyətin üçüncü inkişaf mərhələsi zərdüştlük-maqların dini təlimi – xeyir və şərin əbədi mübarizəsi dövrü ilə əlaqələndirilir.

Dördüncü inkişaf mərhələsi islamın Azərbaycanda yayılmasından başlanır" (281, s.227).

Milli incəsənətimizin tarixi isə ərazilərimizdə dövlətin yaranmasından daha qədimlərə təsadüf edir (281,s.231).

Qədim Azərbaycan ərazilərinin cənub torpaqlarında məskunlaşanların sitayiş etdiyi atəşpərəstlik dininin əsasını bu torpaqda dünyaya göz açmış Zərdüşt qoymuşdur ki, bu dinin müqəddəs kitabı "Avesta"da iki qüvvə arasında daima mübarizədən bəhs edilmişdir.

Mingəçevirdən tapılmış daş və saxsı qablar üzərində həkk olunmuş alban yazıları e.ə. V əsrdə alban əlifbasının mövcudluğundan xəbər verir. Artıq VII yüzillikdə Musa Kalankaytuklu tərəfindən Albaniya tarixinin I hissəsi yazılmış, Albaniyada poeziya, memarlıq və incəsənətin digər sahələri inkişaf etmişdir ki, göründüyü kimi, bunlar promlemlə bağlı dəyərli mənbələr sayılır. İslamaqədərki və sonrakı dövrlərdə abidəçilik, ayrı-ayrı incəsənət sahələrinin yaranması təsir altında baş vermişdir. Ərəb istilası dövründə əsas memarlıq abidələri məscidlər olmuşdur. IX yüzillikdən isə Azərbaycan şəhərləri inkişaf edir, maarif, mədəniyyət, incəsənət, memarlıq formalaşırdı. Orta yüzillik müəlliflərinin əsərlərindən məlum olur ki, artıq X yüzillikdə Azərbaycanda Ərdəbil, Sərab, Miyanə, Xunə, Cəbrəvan, Təbriz, Marağa, Bərzənd, Muğan, Salmas, Xoy, Naxçıvan, Mərənd, Əhər, Bərdə, Beyləqan, Gəncə, Şəmkir, Xunan, Şəki, Mübarəki, Suc Əl-Cəbəl, Qəbələ, Şirvan, Şamaxı, Xursan, Layzon, Niyal, Girduman, Şabran, Dərbənd, Bakı və digər şəhərlər sürətlə inkişaf edirdilər.

IX-XII yüzilliklərdə Azərbaycan mədəniyyətində çox mühüm irəliləyişlər baş vermişdir ki, XII yüzillik tariximizin "qızıl yüzilliyi" adlandırılmışdır. Bu dövrdə Azərbaycanda böyük alimlər, filosoflar, şairlər nəsli yetişmiş, milli mədəniyyətin inkişafı bütün Şərq və dünya mədəniyyətinə öz təsirini göstərmişdir. Təbabət, astronomiya, coğrafiya, tarix, fəlsəfə və sair elmlərlə məşğul olan Bəhmənyar, Xətib Təbrizi, Memar

Əcəmi, Nizami Gəncəvi, Xaqani Şirvanı, Məhsəti xanım, Əbül – Üla Gəncəvi, Fələki Şirvani, Mücirəddin Beyləqani kimi mütəfəkkir-müdriklər, alim-yaradıcılar, şairlər, poeziya günəşləri dünya şöhrəti qazanmışlar. Musiqi, rəssamlıq, xüsusilə də ədəbiyyat güclü inkişaf etmiş, tətbiqi sənət ustaları, musiqiçilər, xanəndələr, aşıqlar-ozanlar bütün Şərq dünyasında məşhur idilər. Hələ bu dövrdən qabaq yazıya alınmış, xalqımızın idrakının məhsulu olan "Kitabi-Dədə Qorqud" artıq məşhurlaşmışdı. Nizaminin "Xəmsə"si dünya şöhrəti qazanmışdı.

XII yüzilliyin sonu XIII yüzillikdə monqol əsarətinə baxmayaraq Azərbaycanda elm və mədəniyyət xeyli inkişaf etmişdi. Şair İzzəddin Həsənoğlunun əsərləri, böyük alim-astronom Nəsirəddin Tusinin əsərləri, Marağada yaratdığı rəsədxana, kitabxana, elmi mərkəz, Azərbaycan dilinin ədəbi dilə çevrilməsi yüksək inkişafdan xəbər verirdi. Həmin dövrdə gözəl memarlıq abidələri, saraylar, qəsrlər, türbələr və sair tikilmişdir. Eyni zamanda müsiqinin inkişafı, şahmat oyununun yayılması, Təbrizdə yaradılan "Müalicə evi"nin tərkibinə təhsil, müalicə və elmi idarələrin, zəngin kitabxananın daxil olması, eyni zamanda həmin mərkəzin universitetinin təhsil ocağı kimi 6-7 min tələbəyə malik olması yeni elmi-mədəni dirçəlişdən xəbər verirdi. Bu dövrün məşhur filosof-alimlərindən Mahmud Şəbüstərini, tarixçilərdən Fərzullah Rəşidəddini, Məhəmməd Naxçıvanini və digərlərini göstərmək olar. Bu dövrdə həm də xət-tatlıq da güclü inkişaf etmişdi.

XV yüzillikdə də Azərbaycan xalqının özünə məxsus mədəniyyəti inkişaf etmişdir. Nəimi, Nəsimi, Həbibi, Kişvəri-Təbrizi, Xətib Təbrizi, Əşrəf Marağai, Məhəmməd ibn Musa, Cəlaləddin Məhəmməd Divani, İdris ibn Hüsaməddin, Fəzlullah ibn Rüzbahan, Əbdürrəşid Bakuvi, Seyid Yəhya İbn Bahəddin Şirvanı, Şeyx Məhəmməd İbn Ramazan Nəzmi, Yusif Ziyəddin Şirvani, Kəmaləddin Şirvani, Əbdül Məcid Şirvani, Məhəmməd Əbubəkr oğlu Şirvani, Xacə Əbdül Qafur Marağayi kimi yazıçı, şair, alim, təbib, musiqişünaslar yetiş-

miş, öz əsərləri ilə dünya elminə, mədəniyyətinə və incəsənətinə böyük töhfələr vermişlər. Şirvanşahlar saray kompleksi, Təbrizdə Göy məscid, "Həştbehişt" (səkkiz behişt) saray kompleksi, kitabxana, xəstəxana, meydan və parklar, dünyanın bir sıra şəhərlərində, digər möhtəşəm memarlıq komplekslərinin tikintisində bilavasitə Azərbaycan memarları iştirak etmişlər.

XVI yüzillikdə artıq dövlət dili olmuş Azərbaycan dilində Xətai, Həbibi, Füzuli kimi əvəzsiz incilər, aşıq Qurbani yaradıcılığı, böyük nəqqaş Kəmaləddin Behzad yaradıcılığı, klassik muğam sənətinin inkişafı, xanəndələrimizin bütün Şərq dünyasında məşhurlaşması, elmin inkişaf etməsinin sübutu olan və dünyada zəngin sayılan Təbriz Saray kitabxanası, Həsənbəy Rumlu və digər məşhur tarixçilərimizin çox dəyərli əsərləri böyük şöhrət tapmışdı.

XVII yüzillikdə təkcə Şamaxıda 40 ibtidai və 7 orta tipli məktəb, Təbrizdə 600 ibtidai təhsil verən, 47 orta təhsil verən məktəbin fəaliyyət göstərməsi həmin dövrdə Azərbaycanda elm və təhsilin surətli inkişafını göstərirdi. Artıq müxtəlif dövrlərdə istilalara, hücumlara məruz qalmış Azərbaycanda düşmənə nifrəti əks etdirən, mübarizlik, azadlıq və istiqlaliyyət ruhu bəsləyən əsərlər, qəhrəmanlıq dastanları, aşıq qoşmaları, bayatılar yaranırdı. Sarı aşıq, Abbas Tufarqanlı yaradıcılığı, "Koroğlu", "Şah İsmayıl", "Əsli və Kərəm", "Aşıq Qərib" dastanlarının yaranması, Məsihi, Qövsi Təbrizi, Tərzi Əfşar və sair kimi şairlərin yetişməsi inkişafdan xəbər verirdi.

XVIII yüzillikdə Azərbaycanda məktəb-mədrəsə sisteminin inkişafı, elmə marağı daha da artırırdı. Bu zaman Azərbaycanın məşhur coğrafiyaşünası Zeynalabdin Şirvani, şairlərdən Nişat Şirvani, Şakir Şirvani, Arif Şirvani, Arif Təbrizli, Ağa Məsih Şirvani, Xəstə Qasım, Şəkili Nəbi və digərlərinin əsərlərində xalq həyatının, təbiətin tərənnümü ilə yanaşı, dövrlərində baş vermiş hadisələr, xalqın qəhrəmanlıq mübarizəsindən bəhs edilirdi.

XVIII yüzilliyin ən böyük şairləri Molla Vəli Vidadi və Molla Pənah Vaqif öz əsərləri ilə şöhrət qazanmışlar. Eyni zamanda həmin dövrdə aşıq sənətinin xeyli inkişafı, musiqi üçlükləri (xanəndə, tar, kamança) vasitəsi ilə milli muğam sənətimizin daha da məşhurlaşması, memarlığın, rəssamlığın, xalçaçılığın inkişafı Azərbaycan mədəniyyətinin tərəqqisini göstərirdi.

XIX əsrdə Azərbaycanda maarif-məktəb işində yeni dövr başlandı. Ismayıl bəy Qutqaşınlı, A.A.Bakıxanov, Q.B.Zakir, Mirzə Şəfi Vazeh kimi maarifçilər xalqın maariflənməsi naminə çalışırdılar. M.F.Axundov, Mirzə Cəfər Topçubaşov, Mirzə Məhəmmədəli Kazımbəy, Hacı Zeynalabdin Şirvani, H.B.Zərdabi, S.Ə.Şirvani, K.Mehmandarov, A.Adıgözəlov, Gorani, H.B.Vəzirov, Mirzə Yusif Qarabaği, Mir Mehdi Xəzani, Rzaqulu bəy Mirzə Camal oğlu, Əhməd bəy Cavanşir, N.Nərimanov, S.M.Qənizadə, H.Mahmudbəyov, F.Köçərli, Ə.Haqverdiyev kimi elm, mədəniyyət xadimləri, Mizrə Adıgözəlbəy, Mirzə Camal, Kərim Ağa Fateh. Seyid Əbdül Həmid kimi tarixçilər, Mirzə Qədim İrəvani kimi rəssam-yaradıcılar Azərbaycan elm və mədəniyyətinin inkişafında böyük rol oynamışlar.

XIX yüzilliyin birinci yarısında Şimali Azərbaycanda musiqi, təsviri və tətbiqi sənət, memarlıq inkişaf etməkdə davam edir, müasir Azərbaycan teatrının yaradılması prosesində ilk addımlar atılırdı.

Bu dövrdə xalq aşıq musiqisi ilə üzvi şəkildə bağlı olan Azərbaycan musiqili folkloru daha da inkişaf edirdi. Bu janrdan olan əsərlərlə yanaşı, uşaqlar üçün müxtəlif mahnılar-laylalar, oyunlar, dilay və matəm mahnıları geniş yayılmışdı. Xalq yaradıcılığına məxsus müxtəlif mahnılarda və rəqslərdə vətənə məhəbbət və sədaqət ifadə olunur, xalq qəhrəmanları tərənnüm edilirdi" (47,s.155). Artıq həmin dövrdə muğamlar geniş yayılmış, üçlükdən (tarzən, kamançaçı və qavalçı) ibarət ustadlar Bakı, Gəncə, Şuşa, Şamaxı, Şəki və digər şəhərlərdə

məşhur idilər (47, s.155). Bu baxımdan Mirzə Səttar bəyi, şamaxılı Hacı Nəcəf bəyi və digər sənətkarları qeyd etmək olar. Artıq Azərbaycan xalq kukla teatrının tamaşaları, ilk teatr tamaşaları (1848-ci ildə Şuşada, 1850-ci ildə Lənkəranda və 1957-ci ildə Şamaxıda) geniş yayılmışdı (47, s.156).

Həmin dövrdə Şimali Azərbaycan sənətkarlığının tanınmış nümayəndələri – realist meylli məşhur rəssam Mirzə Qədim İrəvani, Mir Möhsün Nəvvab, şairə-rəssam Xurşud Banu Natəvan, Şamaxılı rəssam Nəcəfqulu Məşədi oğlu (47,s.367,368), miniatür rəssam Məhəmməd Rza İrəvani, rəssam-xəttat Muğanlı Əvəz Əli,1848-1851-ci illərdə Şəki Xan Sarayının divar rəsmlərini bərpa etmiş Qarabağlı usta Qəmbər (47,s.157), memar-həkkaklar Rəcəbəli, Tağı, Mehdi, Xalıq, Zeynal, Rəcəb və başqa ustalar öz sənətkarlıqları ilə məşhur idilər (47, s.160-161).

XIX əsrin sonlarında Azərbaycanda digər sənət sahələri ilə yanaşı, xalçaçılığın inkişafı da sürətli şəkil almışdır. "Xalça məmulatı istehsalı Quba, Bakı, Lənkəran, Şamaxı, Göyçay, Qazax, Şuşa, Zəngəzur, Cəbrayıl, Yelizabetpol qəzalarında və Zaqatala dairəsində daha çox tərəqqi etmişdi" (47, s.228; 529, s.284). Beləliklə, xalça məmulatına tələbat artmış, bu sahə əmtəə istehsalı səviyyəsinə yüksəlmişdir (47, s.228; 525, s.31).

Bir sıra dünya muzeylərində və şəxsi kolleksiyalarda məşhurlaşmış Azərbaycan xalça məmulatlarının bir hissəsi də həmin dövrlərdə Quba qəzasında hazırlanmışdır. "Bütün Qafqazda ən yaxşı xalça məmulatı Quba qəzasında istehsal olunurdu" (47, s.228). Artıq XIX əsrin sonunda Quba qəzasından 15 mindən artıq xalça məmulatı ixrac olunmuşdu (500, s.18). Qubanın özündə isə 200-dən artıq ailə xalçaçılıqla məşğul idi (507, s.4) və bu sahədə muzdlu qadın əməyindən də yetərincə istifadə olunurdu (507, s.34). Qubada eyni zamanda ağac işləmədə də sənətkarlıq digər bölgələrə nisbətən daha çox inkişaf etmişdi (529, s.335).

Həmin dövrdə digər qəzalarla yanaşı metalişləmə

Lahıcda da geniş şəkil almışdı (47, s.230). Lahıc misgərliyin mərkəzi olmaqda idi (47, s.230; 529, s.331). Azərbaycanda müxtəlif sənət sahələrinin surətli inkişafı, əmtəə istehsalının artması (47, s.230) şəhər əhalisinin sayının çoxalmasına səbəb olmuşdu. Beləliklə, XIX yüzillikdə baş vermiş dərin sosial-iqtisadi və mədəni proseslər milli şüurun sürətli inkişafı, milli hərəkatın artması nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti zirvəsinə səbəb olan zəmin dövrü olmuşdur.

XX əsrin elm, təhsil, mədəniyyətinə nəzər salsaq, həmçinin dünyaşöhrətli elm xadimləri, maarifçilər, mədəniyyət fədailərinin zəhmətlərini əks etdirən nümunələrin şahidi oluruq. Bakıda və ayrı-ayrı şəhərlərdə məktəblərin, təhsil müəssisələrinin inkişafı, Bakı milyonçuları H.Z.Tağıyevin, M.Nağıyevin, M.Muxtarovun və digərlərinin maarifçilik və təhsil, mədəniyyət sahəsində xeyriyyəçilik tədbirləri, Ə.Ağa-yev, Ə.Axundov, B.Axundov, M.H.Hacınski. H.A.Həsənov, M.Səlimbəyov, M.A.Şaxtaxtinski, H.B.Vəzirov, İ.Aşurbəyli, Ə.M.Mikayılov kimi mütəfəkkir-ziyalıların fəaliyyəti S.S.Axundov, C.Cabbarlı, M.Hadi, H.Cavid, A.Səhhət, A.Şaiq, A.Divanbəyoğlu, M.Ə.Sabir, C.Məmmədquluzadə və digərlərinin əsərləri sayəsində milli ədəbiyyat öz inkişafını daha da sürətləndirirdi.

Ü.Hacıbəyov, Zülfüqar Hacıbəyov və digər opera, musiqili komediya sənətimizin baniləri Şərqin mədəniyyət tarixində böyük səhifələr yaratdılar. "Əsrlərdən bəri yüksək maddi və mənəvi dəyərlərini yaratmış Azərbaycan xalqının Şərq xalqlarının və bütövlükdə dünya mədəniyyətinin inkişafında özünəməxsus rolu vardır. Azərbaycan mütəfəkkirlərinin, şairlərinin, el sənətkarlarının yaratdıqları elmi və bədii əsərlər zövqləri oxşayaraq dünya şöhrəti qazanmış və bu gün də qazanmaqdadır. Xalqın yaratdığı milli mədəniyyət xəzinəsinin inciləri arasında yaşı min illərlə ölçülən, zəngin sənət ənənəsi olan xalq dekorativ tətbiqi sənət nümunələri xüsusilə seçilir və şərəfli yer tutur. El sənətkarları böyük şərtiliyə əsaslanan, qeyri-adiliyi, poetik təxəyyülü və realizmi özündə birləşdirən, yüksək estetik

idealı və humanizmi ilə seçilən sənət əsərləri yaratmışlar" (439, s.8).

Beləliklə, Azərbaycan elmində, mədəniyyətində, incəsənətində, ədəbiyyatında, ayrı-ayrı sahələr üzrə sənətkarlığın təşəkkülü və inkişafında mənbələr rolunu oynayan vacib mərhələlərdən bəhs etməklə araşdırmamızla əlaqədar aşağıdakı nəticələr problem əhəmiyyətlidir:

1. Azərbaycanın ayrı-ayrı bölgələrində coğrafi şəraitin uyğunluğu ilk ulu insanların, ayrı-ayrı mədəniyyətlərin yaranmasına zəmin yaratmışdır.

2. Uyğun coğrafi şəraitin fəaliyyətə və inkişafa təkan verməsi, müxtəlif düşərgələrin insanlarının qarşılıqlı əlaqəsinə, beləliklə də mədəniyyətlərin yayılmasına səbəb olmuşdur.

3. Daş məmulatların, alətlərin fəaliyyətə təkan verməsi üçün uyğun idraki proseslər baş vermiş və getdikcə formalaşmağa başlamışdır, zehni əməyin fərqi özünü mərhələlərlə göstərmişdir.

4. Zehni fərqlər həm əyani-nəzəri, həm də əməli maddi-mənəvi mədəniyyət nümunələrinin yaranmasına səbəb olmuşdur.

5. Təbiət hadisələrinin minillik təsiri və idraki proseslərin inkişafı təcrübi fəaliyyətə gətirib çıxarmış, kortəbii vərdişlərə səbəb olmuşdur.

6. Müxtəlif məmulatlar və nümunələrin yaradılması, təkmilləşdirilməsi onların seçilməsinə, toplanmasına, lazımi hallarda istifadəsinə səbəb olmuşdur ki, bu da artıq müxtəlif dövr mədəniyyətləri nümunələridir.

7. Müxtəlif dövr mədəniyyətləri nümunələrinin qiymətləndirilməsi və qorunması, toplanması zəruriyyətə çevrilmiş və mühiti, şəraiti, baş vermiş hadisələri dərketmə prosesi getdikcə qiymətləndirilməyə başlamışdır.

8. Mühit və hadisələrin, insan fəaliyyətinin qiymətləndirilməsi zehni fəaliyyətin məhsuluna çevrilmiş, əşya, material, nümunələrin tədqiqi və qorunmasına ehtiyac yaranmışdır.

9. Seçmə və qiymətləndirmənin daha təkmil şəklə salınması zərurətə çevrilmiş, mənbələrin toplanması və qiymətləndirilməsi kortəbiilikdən çıxmış, elmi fəaliyyət nəticəsində sistemləşməyə səbəb olmuşdur.

10. Müxtəlif şəhərlərin, dövlətlərin yaranması, mədəniyyət nümunələrinin, abidələrin toplantılar şəklində nümayişinə gətirib çıxarmışdır. Toplanc mənbələri, toplantılar vasitəsilə qiymətləndirmələr mərkəzlərin yaranmasına, beləliklə də muzeylərin əmələ gəlməsinə zəmin yaratmışdır.

## 2.2. Milli muzey quruculuğu

XX əsrin əvvəllərindən başlayaraq Azərbaycanda muzeylərin təşəkkülü, inkişafı ayrı-ayrı illərdə baş verən ictimai-siyasi hadisələrin gedişi, mühit və şəraitlə bilavasitə bağlı olmuşdur.

Müxtəlif tarixi dövrlərdə insanlar tərəfindən yaradılmış daş, metal, dəri, ağac, saxsı və sair məmulatların toplantılıq vasitəsilə cəmləşdirilməsinə yaranan böyük ehtiyac fərdi saxlancların, şəxsi kolleksiyaların, nəhayət muzeylərin yaranmasına səbəb olmuşdur. Doğrudur, dünyanın mühüm sənətkarlıq və sənaye mərkəzlərindən olan Azərbaycanda bu proses gec baş versə də, artıq müxtəlif tarixi dövrün milli nümunələri ayrı-ayrı ölkələrdə, sərgilərdə, şəxsi kolleksiyalarda və muzeylərdə nümayiş etdirilirdi, təbliğ olunurdu (134).

"Azərbaycan bədii sənətkarlığının (xalça, parça, tikmə, zərgərlik, misgərlik nümunələri və s.) 1872-ci ildə Moskvada Ümumrusiya kustar sənaye sərgisində, 1873-cü ildə Vyanada, 1924-cü ildə isə Parisdə açılmış Ümumdünya sərgilərində müvəffəqiyyətlə iştirakı onu bütün dünyada tanıtdı...

İndi biz fəxrlə Londonun Viktoriya və Albert, Parisin Luvr, Vaşinqtonun Metropoliten, Vyananın, Pomanın, Berlinin, İstanbulun, Tehranın, Qahirənin zəngin muzey kolleksiyalarına (şəxsi kolleksiyalarına – S.Ə.) baxarkən orada Təbriz, Nax-

çıvan, Gəncə, Qazax, Quba, Bakı, Şəki, Şamaxı və Qarabağ ustalarının bacarıqlı əlləri ilə yaradılmış sənət nümunələrini görürük" (134, s.5).

"1958-ci ildə Berlin Muzeyinə tunc əşyalardan ibarət Qafqaz kolleksiyası qaytarılır... Valdemar Belkin kolleksiyası elmi cəhətdən yaxşı sənədləşdirildiyi üçün daha münasib sayılır. Kolleksiyanın əsas hissəsini Simensin Gədəbəydəki keçmiş misəritmə zavodunun ətrafındakı qəbiristanlıqdan, onun Qalakənd filialının ətrafından, həmçinin Göyçə gölündən təqribən 40 km. Şimalda yerləşən Daşkəsən kobalt mədəni ərazisindəki qazıntıdan əldə olunmuş arxeoloji materiallar təşkil edirdi" (468, s.9); Berlin tarixə qədərki və Erkən Tarix Mədəniyyəti Muzeyindəki inventar nömrələrinin siyahısı (səh. 199-216).

Həmin dövrdə kustar istehsal sahələrindən xalça toxuculuğu Bakı quberniyasının Quba qəzasında (497, s. 149), Bakı, Şamaxı, Lənkəran, Cavad, Yelizavetpol qəzalarında, Şuşada, Naxçıvanda (48, s.42,43) daha geniş yayılmışdı.

XIX əsrin sonlarında "Azərbaycanda xalçaçılıqla yanaşı, 40 növə qədər sənətkarlıq məşğuliyyəti ilə çalışanlar var idi. Onlar ağac və taxtadan düzəldilən məhsullar istehsal edir, xüsusən kənd təsərrüfatında işlədilən bel, yaba, kürək və araba kimi avadanlıqlar, həmçinin məişətdə işlədilən mebel, qaşıq, beşik, daraq, iynə, xalça toxuma üçün dəzgahxana və nəhayət, musiqi alətləri hazırlayırdılar. Bu əşyaların istehsal olunduğu sənət sahələri Qazax,Yelizavetpol və Şuşada daha geniş yayılmışdı" (497, s.43).

Şərabçılıqla bağlı çəllək istehsalı, metal əşyalar və bəzək şeyləri istehsalı, zərgərlik, daş-qaş, mis əşyaların hazırlanması getdikcə artırdı (497, s.43-44). Mis qabların istehsalında hətta Lahıc çox məşhurlaşmışdı (402, s.22). Bakıda isə əmək alətlərinin (239, s.9), sənətkar alətlərinin (239, s.10-14), təsərrüfat və məişət alətlərinin (239, s.14-18), hücum silahlarının (239, s.19-27), bəzək əşyalarının (239, s. 46-60), metalın bədii

işlənməsinin (239, s. 61-65) tarixi, hətta orta əsrlərə təsadüf edir (239). Bu və digər yaradıcılıq, sənətkarlıq amilləri Azərbaycanda muzey quruculuğunun başlanılması üçün zəmin idi.

Problemlə bağlı arardığımız tədqiqatlar göstərdi ki, Azərbaycanda muzeylərin yaranması və inkişafı məzmun, forma, təşkilatı-metodiki əlamətlərinə görə tarixən əsas dörd mərhələyə ayrılır.

Birinci mərhələ 1896-1950, ikinci mərhələ 1951-1968, üçüncü mərhələ 1969-1991, dördüncü mərhələ isə 1992-2010-cu illəri əhatə edir. Azərbaycan muzeyşünaslığının nəzəri və təcrübi məsələlərinin tədqiqi baxımından həmin mərhələlərin hər birinin özünəməxsus rolu və əhəmiyyəti vardır.

Birinci mərhələdə muzeylərin yaranması və inkişafının mahiyyətini, başlıca cəhətlərini araşdırarkən işin mərhələdaxili ayrı-ayrı etaplarda baş verdiyi məlum oldu. Müxtəlif sərgilərin, dərnəklərin, cəmiyyətlərin yaranmasının muzeylərin təşəkkülündə rolu, əhəmiyyəti, onların inkişafı, şəbəkələrinin genişləndirilməsi, təşkilatı-metodik cəhətdən zənginləşdirilməsi məsələləri ayrı-ayrı etaplarda baş vermişdir.

1913-cü ilin aprelində Bakıda açılan Qafqaz rəssamları əsərlərinin ilk sərgisi (48, s. 258), 1914-1916-cı illərdə Bəhruz Kəngərli tərəfindən ata evində (hazırda B.Kəngərlinin ev-muzeyi burada yerləşir) – vəkil Şirəlibəyin mülkündə təşkil edilən sərgilər (481, s.14-15), həmin illərdə Bakıda rus rəssamları – Y.S.Samorodovun, İ.İ.Brodskinin, İ.İ.Edelin və başqalarının satış məqsədilə təşkil etdikləri sərgilər (502, s.150) artıq Azərbaycanda muzey quruculuğu üçün mühitin yarandığını bir daha sübut edirdi. Şəxsi toplantılar (268, s.14) və ayrı-ayrı sərgilərin təşkili tarixi keçmişimizlə bağlı maddi-mənəvi abidə nümunələrini toplayan, qoruyan, bərpa edən, təbliğ və tədqiq edən mərkəzlərə-muzeylərə ehtiyac getdikcə artırdı. Artıq bunu zaman və mühitdə baş verən hadisələr tələb edirdi. Eyni zamanda belə "... muzeylərin yaradılması həm elmi biliklərin təbliği, həm də cəmiyyət üzvlərinin tarixi

biliklərə olan tələbatının ödənilməsi ilə bağlı idi" (268, s.14). Milli sənətkarlıq nümunələrimizin cüzi bir hissəsi də XIX əsrin əvvəllərindən – 1917-ci ilə qədərki dövrdə Tiflisdə - Qafqazdakı çar canişinin muzeyində (268, s.14) tamaşa üçün toplanmışdı və Türk-İran abidələri kimi təqdim edilmişdi (268).

Beləliklə, XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda, qədim tarixiliyin mövcudluğu, geniş mədəni-maarifçilik təcrübəsinin mövcudluğu, tarixi-mədəniyyət nümunələrinin zənginliyi, maddi və mənəvi mədəniyyət nümunələrinin əhali kütləsi arasında geniş maraq oyatması, onların xaricə daşınmasının qarşısının alınmasının vacibliyi kimi amillər nəticəsində ölkədə muzeylər yaradılmağa başladı. 1896-cı ildə Naxçıvanın Nehrəm kənd məktəbində maarifpərvər yazıçımız Cəlil Məmmədquluzadə tərəfindən yaradılan ilk muzeyin eksponatları az olsa da, o dövr üçün çox sevindirici bir hadisə idi (481, s.14; 268, s.14; 373, s.9; 218, s.9).

Artıq Azərbaycanda mədəni-maarifçilik hərəkatlarının surətli inkişafı məqsədyönlü şəkil alırdı ki, bu proses özünü Bakı, Şamaxı və Naxçıvan şəhərlərində tanınmış insanların topladıqları qədim və tarixi əhəmiyyətli əşya, material və eksponatların vaxtaşırı nümayişində göstərirdi (268, s.15).

Həmin dövrdə qapalı muzeylərin yaradılmasına cəhd edilirdi (481, s.15). 13 bölmədən ibarət olan və Rusiya Texniki Komitəsinin nəzdində olmaqla Bakıda ilk dəfə yaradılan belə muzey rəsmiləşdirilməmişdi və tədris məqsədli idi (268, s.15; 45, s.799-800).

Tədrisə yardım məqsədilə digər bir muzey – "Pedaqoji muzey"də Bakı şəhəri Xalq Məktəbi müdiriyyəti nəzdində yaradılmışdı (45, s.799-800). Bu muzeyin eksponatları dərslik, dərs vəsaiti, tədris-metodik vəsaitlərdən ibarət olmaqla əyani vəsait kimi nümayiş etdirilirdi. Muzey 1920-ci ildə Azərbaycan Dövlət Muzeyinin yara-dılması ilə əlaqədar bağlanmışdır (268, s.16).

1919-cu ildə Azərbaycan Cümhuriyyəti dövründə Türk

xalqlarının etnoqrafiyası və məişətinə həsr olunmuş "Türk ocağı", "Türkmən çadrası", "Atəşgah", "Şərq salonları" kimi sərgilər təşkil edilirdi (48, s.497; 33,27,28 fevral 1920). "Artıq Azərbaycan mədəniyyətinin və milli irsinin öyrənilməsinə maraq fövqəladə şəkildə artmışdı. Azərbaycan tarixi, ədəbiyyatı, iqtisadiyyatı, təbiətşünaslığı və coğrafiyası (mədəniyyəti və incəsənəti üzrə - S.Ə.) üzrə çoxlu əsərlər meydana çıxdı" (48, s.497). Bunların içərisində Adilxan Ziyadxanlının "Azərbaycan" kitabında Azərbaycan tarixi və mə-dəniyyəti haqqında qiymətli materiallar verilmişdir. (48, s.498). "Bunların içərisində Azərbaycan Cümhuriyyətinin yaradılması və möhkəmləndirilməsi üçün hökümətin iqtisadi və mədəni tədbirləri haqqında məlumatlar diqqəti cəlb edir (48, s.498).

Həmin dövrdə Azərbaycanın tarix və mədəniyyətinin kökləri haqqında nəsillərə tanıtdırılması zərurəti kəskin surətdə hiss olunurdu (48, s.498). Yusif Vəzir Çəmənzəminli bu barədə yazırdı: "Allaha şükür ki, bizim tariximiz, ədəbiyyatımız, musiqimiz, teatrımız və başqa mədəni nailiyyətlərimiz vardır. Əgər bütün bunlar haqqında yazılsa, onda biz özümüzü dərk edirik və əcnəbilərə bizi dərk etmək imkanı veririk. Bizim vətənimizdə çoxlu tarixi abidələr var. Bunların hər biri haqqında, hər nömrədə ətraflı məlumat vermək zəruridir" (48, s.498; 485, 33.29).

Azərbaycan Cümhuriyyəti dövründə ölkənin mədəni həyatında "Səfa", "Nicat", "Nəşri-maarif"cəmiyyətləri kimi mədəni-maarif qurumları aktiv fəaliyyət göstərirdilər (48, s.499). Onlar əhalinin maariflənməsinə, milli mədəniyyətin inkişafına xidmət göstərirdilər. Mədəni-maarif işinin daha da genişləndirilməsi məqsədilə cəmiyyətlərin konfransının çağırılması üçün təşkilat komissiyası seçildi və "Bakı şəhəri mədəni-maarif müəssisələri ittifaqının nizamnaməsi təsdiq olunmaq üçün hökumətə göndərildi (48, s.500). Həmin Nizamnamədə göstərilirdi ki, "... mədəni-maarif cəmiyyətləri ittifaqının məqsədi Bakı əhalisinin mədəni səviyyəsini yüksəltmək məqsədilə

şəhərin bütün mədəni qüvvələrini birləşdirməkdən ibarətdir" (69, v.1,3).

1919-cu ilin sentyabrında milli tarixi irsimizin qorunması məqsədilə Azərbaycanın şərqşünasları "Şərqin arxeologiyası və tarixinin həvəskarları dərnəyi"ni yaratmağı qərara aldılar (268, s.16; 53, 11 sentyabr 1918). Həmin ildə Gəncədə filialı təşkil edilən dərnəyin təşkilatçıları tarixçilər, ədəbiyyatçılar, arxeoloq və numizmatiklər idilər (53, 1919, 11 sentyabr). Muzey quruculuğuna maraq göstərən tədqiqatçılarımız qarşısında yaranan çətinliklərdən biri də həmin dövrdə əşya və materialların, bədii sənətkarlıq nümunələrinin qeydə alınması, mühafizəsi, tədqiqi, təbliği ilə əlaqədar hüquqi-normativ sənədin yoxluğu idi. Mənbələrdən məlum oldu ki, "1919-cu ildə Bakı Arxeologiya Cəmiyyətinin təşkil olunmasına baxmayaraq bu Cəmiyyət tarixi abidələrin mühafizəsi və qorunması üçün lazımı nəzarəti həyata keçirə bilmirdi. Avropa missionerləri və tacirləri Azərbaycanın şəhər və kəndlərini dolaşaraq, əhalidən yazıçı və şairlərin əlyazmalarını, çini qabları, qızıl əşyalarını, qədimi paltarları və digər əşyaları dəyər-dəyməzə alırdılar" (52, 24 aprel 1919-cu il). Artıq ölkədəki çox qədim tarixi-mədəni əhəmiyyətli abidə nümunələri, zinət əşyaları, geyimlər, xalça məmulatları, məişət əşyaları və digər dəyərli əşya və materialların xaricə axınının qarşısını almaq vacib idi. Bu məqsədlə həmin illərdə fəaliyyət göstərən "Yaşıl qələm" Ədəbi Cəmiyyətinin üzvləri Hüseyn bəy Mirzə Camalov və Məhəmməd Ağayev Azərbaycan parlamenti qarşısında çıxış edərək Bakıda milli muzeyin yaradılması məsələsini qaldırdılar və muzeyin həmin dövrdə milli tarixi-mədəni dəyərlər baxımından böyük əhəmiyyət kəsb edəcəyini qeyd etdilər (54, 20 noyabr, 1919-cu il). Onlar tərəfindən muzeyin yaradılması məqsədilə qiymətli əşyalar da toplanmışdı (268, s.16). Yaradılacaq muzeyin sadəcə milli muzey adlandırılması nəzərdə tutulsa da, istiqlal şüarı günün əsas şüarı olduğundan, muzeyə də İstiqlal adının verilməsi dəqiqləşdirilmişdi (268, s.16).

Beləliklə, Azərbaycan Parlamenti bu məsələyə müsbət münasibət göstərmiş, Parlamentin sədr müavini Həsən bəy Ağayev təsis olunan "... İnventar Komissiyasına muzey üçün bir otaq ayrılması haqqında sərəncam vermişdi" (268, s.17).

Muzey üçün toplanmış əşyaların təhvili və qəbulu aktı sayılan bu sənəd "Həmişəlik Azərbaycan Parlamenti ixtiyarında olaraq hələlik Parlament İmarətində təsis edilən "Muzey İstiqlal" adına müəssisələr tərəfindən toplanmış olan şeylərin Birinci Parlament Divani-Rəyasətinə təhvil verilməsi haqqında Şərait" adlanır (67, F.895, s.1,u.220,v.2; 92, s.9). Azərbaycan muzey quruculuğunda ilk hüquqi sənəd olan "Şərait"in əldə edilməsi həmin dövr üçün mühüm hadisə olmaqla muzey yaradıcılığı istiqamətində çox vacib addım idi. "Şərait" 7 maddədən ibarət olmaqla əşyaların təhvili, qəbulu, gələcəkdə muzeyin genişlənməsi üçün maliyyə məsələləri, zəngin muzey kitabxanasının yaradılması, idarəedici qurumun yaradılması, muzeyin maliyyə fondunun təşkili, hədiyyə edilmiş əşyaların gələcəkdə qəbulu üçün qiymətini təyin etmək üçün komissiyanın təşkili, sənədləşmənin dəqiq aparılmasına nəzarət mexanizmi, proqram və nizamnamənin tətbiqi məsələlərini əhatə etmişdir:

"Həmişəlik Azərbaycan Parlamenti ixtiyarında olaraq hələlik Parlamentin imarətində təsis edilən "Muzeyi İstiqlal" adına müəssisələr tərəfindən toplanmış şeylərin birinci parlament divan rəyasətinə təhvil verilməsi haqqında şərait:

1. Biz "Muzeyi İstiqlal" təşəbbüs və müəssisləri Məhəmməd Ağayev və Hüseyn Mirzə Camalov muzey adına toplanaraq iş bu maddəyə əlavə edilmiş şeyləri, milli mal olmaq üçün aşağıdakı şəraitlə birinci Azərbaycan Parlamenti divan rəyasətinə təhvil veririk:

Gələcəkdə ailə və xanevademizə nəsib olanların "Muzey İstiqlal" hədiyyə edilmiş olduğumuz şeylərə malik olmaq iddiasında bulunmağa ixtiyarları yoxdur.

2. Həmçinin muzeyə qeyri şəxslər tərəfindən hədiyyə

olunmuş şeylər və əsəri-ətiqə nə geri qaytarılır və nə də övlad və ətrafda mal ola bilir.

3. "Muzeyi İstiqlal" milli bir müəssisə olduğu üçün bütün muzeydə mövcud əşya millət malı hesab olunur. Heç kəs və heç bir müəssisə şeylərə sahib ola bilməz.

4. Muzeyin genişlənməsinə birinci Azərbaycan Parlamenti divan rəyasəti səy edəcək və təşkilatına lazım olan bütün məxarici kəndi öhdəsinə götürəcəkdir.

5. Muzeyin mədaxili fəqət muzeyin genişlənməsinə və muzey heyətində zəngin kitabxana vücuda gətirilməsinə sərf edəcəkdir.

Qeyd: Başqa müəssisələr muzeyə hədiyyə ediləndən, muzeyin mədaxilindən istifadə etməzlər.

6. Parlament divan rəyasəti tərəfindən muzeyin iradəsi ya xüsusi bir müdiriyyət intixab edərək ona tapşırılacaq parlament komisyonlarından birinə mühül ediləcəkdir.

Qeyd: Divan rəyasəti səlahiyyətilə muzey müdiriyyətinə kənardan və təcrübəli şəxslər də dəvət edilə bilərlər, fəqət bunlar müdiriyyətdə qəti rəyə malik olmazlar.

7. Gələcəkdə muzeyə məxsus bir imarət almaq və ya tikmək üçün muzey mədaxilinin bir hissəsi ilə xüsusi bir fond təşkil edilməlidir.

Qeyd: İşbu fonda başqa müəssisələr və şəxslər də ianə edə bilərlər.

8. Muzeyə hədiyyə edilmiş şeylərin qiymətini təyin etmək üçün müdiriyyət tərəfindən mütəxəssislər dəvət ediləcək və qiymətlər haqqında müdiriyyət arzularına və mütəxəssislərin imzaları ilə yazılacaqdır.

9. Hədiyyə edən şəxslərə hədiyyə edilmiş şeylərin adlarını və qiymətlərini müntəzəm müdiriyyət imzası, imzaları ilə qəbz verilməlidir.

10. Muzeyə hədiyyə edilən şəxslərin adları və hədiyyə etdikləri əşyaların siyahısı muzey odasının birində və həmişə göz qabağında olmaq üzrə xüsusi bir kitaba yazılmalıdır.

11. Muzey üçün proqram və nizamnamə tətbiqi birinci müdiriyyətə aiddir.

12. İşbu təhvilnamə üç nüsxədə olmaqla, biri Azərbaycan Parlamenti divan rəyasətində və iki qalan nüsxələr isə mütəxəssislərdə olacaqdır.

Birinci Azərbaycan Parlamenti divan rəyasəti: parlamentin rəisi naminə baş müavin: Həsən bəy Ağayev, müavin: S.M.Qənizadə (67, F 895, siy.1, u.220, v.2).

Azərbaycan Parlamentinə təhvil verilmiş 31 adda 89 ədəd ilkin əşyalar içərisində əski qılınc, qəmə, barıt qabı, müxtəlif formalı muncuqlar, əski Quran, dualar, tilsim mətnləri həkk olunmuş mis məmulatlar, gümüş üzük, rus pulları, yunan pulu, əlyazmalar və digər məmulatlar mövcud idi:

"Muzeyi İstiqlal" üçün toplanan əşya və təhvilnaməsinin birinci maddəsinə əlavə:

| N: | Əşyaların adı | Ədədi |
|---|---|---|
| 1 | Əski qılınc | 1 (bir) |
| 2 | Qəmə | 1 (bir) |
| 3 | Barıt qabı | 1 (bir) |
| 4 | Uşaq boynundan asmaq üçün dua, müxtəlif muncuqlar ilə | 1 (bir) |
| 5 | Əl ilə yazılma əski Quran | 1 (bir) |
| 6 | İlan dərisi üstə yazılmış ayə (dua) bir arşın uzunluğunda | 1 (bir) |
| 7 | İlan dərisi üstündə yazılmış fında dua qabı ilə | 1 (bir) |
| 8 | İlan qabığı üstə yazılmış dua (tilsim) təxminən bir xan arşı | 1 (bir) |
| 9 | Gümüş mühit dairə üstə yazılmış tilsim | 1 (bir) |
| 10 | Müxtəlif şəkillərdə miss üzərinə yazılmış tilsim | 5 (beş) |

| | | |
|---|---|---|
| 11 | Ayrı-ayrı kağız parçalarına yazılmış dualar | 8 (səkkiz) |
| 12 | Yenə dua təxminən dörd arşın | 1 (bir) |
| 13 | Gümüş üzük (tilsim) | 1 (bir) |
| 14 | Fil sümüyündən qayrılmış daraq, gülaü və diş artdıyan | 1 (bir) |
| 15 | At şəklində əski qıfıl | 1 (bir) |
| 16 | Gümüş qəbbələr rus çarçısı Yekaterina matdon | 1 (bir) |
| 17 | Mis şaha rus çariçası Yekaterina matdon | 1 (bir) |
| 18 | Mis siyək rus pulu 852 sənə tarixli | 1 (bir) |
| 19 | Mis siyək rus pulu 770 sənə tarixli | 1 (bir) |
| 20 | Mis siyək rus pulu 1916 sənə tarixli | 2 (iki) |
| 21 | Gümüş əski – Yunan pulu | 2 (iki) |
| 22 | Əl ilə yazılma kitabça | 1 (bir) |
| 23 | Əlyazma nümunələri | 7 (yeddi) |
| 24 | Əski mis pullar müxtəlif tarixli | 12 (on iki) |
| 25 | Əski gümüş pullar müxtəlif tarixli və müxtəlif məmləkətlərin zərbi | 21 (iyirmi bir) |
| 26 | Taxtadan qayrılmış daraqlar | 8 (səkkiz) |
| 27 | Daraq qabları | 2 (iki) |
| 28 | Çubuq (mundastuq) | 1 (bir) |
| 29 | Əski böyük xəncər | 1 (bir) |
| 30 | Yelpik | 1 (bir) |
| 31 | Əl ilə yazılmış Quran | 1 (bir) |

Qüvvətdə məşhur "İstiqlal" muzeyinə məxsus əşyaları həmişəlik Azərbaycan Parlamentinə təlid edilmək şərti ilə muzey baniləri Hüseyn bəy Mizrə Camalov və Həsən bəy oğlu Məhəmməd Ağayevdən 6 noyabr 1919 səməsi təhvil aldım.

Birinci Azərbaycan Parlamenti sədri Həsən bəy. 1919, III/6 (68, F.895, siy.1, i.777, vər.92).

1919-cu il dekabrın 7-də Parlament yaradılmasının ildö-

nümü münasibətilə açılmış və Azərbaycan Parlamentinin nəzdində fəaliyyət göstərməyə başladı (268, s.21).

Beləliklə, "Muzey işinin inkişaf etdirilməsi üçün bünövrə qoyulurdu. Ədəbi cəmiyyətin üzvləri H.M.Camalov və M.Ağayevin təşəbbüsü ilə Parlament milli İstiqlal Muzeyinin təşkil olunması barəsində qərar qəbul etmişdi" (48, s.500-501).

Azərbaycan Xalq Cümhuriyyəti dövründə "Müsəlman Şərqini öyrənən Cəmiyyət"in yaradılması (92, s.8), bu cəmiyyət vasitəsilə maddi mədəniyyət nümunələrinin toplanması, tədqiqi üzrə işin aparılması, bir sıra sərgilərin təşkili, Naxçıvanda B.Əlibəyov tərəfindən əsasən öz şəxsi materialları hesabına muzey (1919-cu il) təşkil etməsi (373, s.104), Etnoqrafiya Muzeyinin yaradılması (268, s.22), Pedaqoji Muzeyin işinin təkmilləşdirilməsi (41, F.51, s.4, i.184, v.28-31) məsələləri də həyata keçirilmişdi ki, bu işlər həmin dövr quruculuğu üçün mühüm milli əhəmiyyət kəsb edirdi.

Azərbaycanda Sovet Hakimiyyəti qurulduqdan 20 gün sonra, yəni 1920-ci il mayın 18-də inqilab komitəsinin sədri N.Nərimanov tərəfindən imzalanan "Bütün muzeylər milliləşdirilsin" adlı qərara görə yeni dövlət muzeyi yaradılmalı idi (62,i.75,v.7).

Həmin ilin mayın sonu, iyunun əvvəlində E.N.Staneviçin rəhbərliyi ilə diyarşünaslıq dərnəyi fəaliyyətə başladı (518, s.3; 268, s.27; 92,s.10). Dərnəyin məqsədi muzey yaratmaq, ekskursiyalar təşkil etmək, diyarşünaslıq sahəsində araşdırmaların aparılmasından ibarət idi. "Diyarşünaslıq dərnəyi həmin il iyunun 15-də Muzey-ekskursiya şöbəsi adı ilə Xalq Maarif Komissarlığının tərkibinə daxil edildi. Şöbənin ilk yığıncağında tədris xarakterli muzeyin təşkil olunması qərara alındı və bu muzey "Doğma Diyarın Tədris Muzeyi" adlandırıldı. 1920-ci ilin iyulunda "İstiqlal" Muzeyinin, habelə "Pedaqoji Muzey"in və bəzi məktəblərdə fəaliyyət göstərmiş diyarşünaslıq kabinetlərinin əşyaları bu muzeyə verildi. Təşkili dövründə məlum oldu ki, bu muzey yalnız tədris çərçivəsində

məhdudlaşa bilməz. 1920-ci ilin oktyabrında muzey "Azərbaycan Dövlət Muzeyi" adlandırıldı" (92, s.10).

Azərbaycanda digər muzeylərin yaranmasında həm elmi-nəzəri, həm də təcrübi nöqteyi-nəzərdən mənbə rolunu oynayan Azərbaycan Tarixi Muzeyinin inkişafını tədqiqatçı-alim Aytən Baxşıyeva 4 mərhələyə bölmüşdür. 1920-1927-ci illəri əhatə edən I mərhələ; bu mərhələnin 2 daxili etapı mövcuddur: 1-ci etap Azərbaycan Dövlət Muzeyinin təşəkkülü və fəaliyyətinin ilk addımlarını əhatə edən 1920-1923-cü illərə aiddir; 2-ci etap isə Azərbaycan Dövlət Muzeyinin formalaşdırılmasını əhatə edən 1924-1927-ci illərə aiddir; 1928-1936-cı illərdə təkmilləşdirmə prosesini əhatə edən II mərhələ; bu mərhələ də öz növbəsində 2 etapa bölünür: 1-ci etapa Azərbaycan Dövlət Muzeyinin yenidənqurma işlərinin başa çatmasını əhatə edən 1928-1931-ci illər aiddir; 2-ci etap Muzeyin yenidən təşkili, tarix profilli olması illərini əhatə edən 1932-1936-cı illərə aiddir; 1937-1945-ci illəri əhatə edən, Elmlər Akademiyası sistemində Tarix Muzeyinin fəaliyyətini əks etdirən III mərhələ; bu mərhələ 3 etapa bölünür: 1-ci etap tarix tipli formalaşmanın başa çatmasını əks etdirən 1937-1941-ci illəri əhatə edir; 2-ci etap muzeyin müstəqil fəaliyyətini bitirməsi və institut şöbəsinə keçirilməsini əks etdirən 1941-1943-cü illəri əhatə edir; 3-cü etap isə muzeyin yenidən müstəqil fəaliyyətə keçməsini əks etdirən 1943-1945-ci illəri əhatə edir; 1945-1952-ci illəri əhatə edən və Tarix Muzeyinin Azərbaycan SSR EA-nın tərkibində fəaliyyətini davam etdirən IV mərhələ (492, s.9). Tədqiqatçı-alim A.Baxşıyevanın araşdırmasının bu mərhələliliyi təqdirəlayiqdir. Bu mərhələ və etaplarda Muzeyin təşəkkülü, inkişaf xronologiyası öz əksini tapmışdır.

1920-ci ildə Bakı şəhərində və Azərbaycanın digər bölgələrində kiçik (qapalı) muzeylər, diyarşünaslıq muzeyləri fəaliyyət göstərirdi. Belə muzeylər sırasında Ümumrusiya Texniki Cəmiyyətinin Bakı şöbəsi nəzdində fəaliyyət göstərən və 13 şöbə, 1500 eksponata malik qapalı muzeyi (492, s.10; 506,

s.47), Bakıda Əmək Muzeyinin sanitariya-gigiyena şöbəsinin fəaliyyətə başlaması (92,s.11), Azərbaycan Xalq Səhiyyə Komissarlığı Sosial Gigiyena İnstitutunda eyni adlı muzeyin təşkili (92, s.11), 1919-cu ildə Naxçıvanda B.Əlibəyov tərəfindən şəxsi əşyalar hesabına yaradılmış muzeyin 1920-ci ildə "milliləşdirilərək" diyarşünaslıq muzeyi kimi yenidən təşkili (268, s.29; 373, s.104), 1920-ci ildə mövcud olan Lənkəran Tarix-Diyarşünaslıq muzeyini (268, s.33; 63, i.250, v.87) göstərmək olar.

Lənkəranda yaradılmış diyarşünaslıq muzeyinin elmi, mədəni və tarixi əhəmiyyəti həmin dövr üçün çox böyük idi, birincisi, yerli xalqların inkişaf tarixi əşya, material, eksponatların köməyi ilə aparılan sərgi və kütləvi tədbirlər vasitəsilə həm öyrənilir, həm də təbliğ edilirdi (62, siy.1, i.75, v.115). İkincisi, muzey həmin dövr üçün həm mədəni irsin qorunması və gələcək nəslə ötürülməsi üçün zəngin mədəniyyət müəssisəsi idi, həm də əşya, material, eksponatların elmi-tədqiqi, tədris prosesində istifadəsi və təbliği üçün zəngin və yeganə mərkəz idi (62, siy.1, i.75, vər.115). Bütün bu amillər nəzərə alınaraq 1924-cü ildə Azərbaycan Dövlət Muzeyi əməkdaşlarının köməyi sayəsində Muzeyin geniş ekspozisiyası yaradıldı (268, s.33). Beləliklə, Lənkəran Diyarşünaslıq Muzeyində muzeyşünaslıq əhəmiyyətli mühüm fəaliyyət prosesi həyata keçirilməyə başladı.

Muzeyin eksponatları getdikcə zənginləşdirilməkdə idi. Bu işdə Lənkəran Pedaqoji Texnikumunun müəllim və tələbələri böyük səy göstərmişlər (268, s.33). Az bir müddət ərzində Mirzə Ağəli Əliyevin bilavasitə səyi nəticəsində Talış Xanlığı, bölgənin etnoqrafiyası, məişət və təsərrüfat fəaliyyətinə aid əşyalar, eksponatlar toplanmışdır (62, siy.1, u.116v, v.10).

Lakin, təəssüflə qeyd olunmalıdır ki, muzeyin fəaliyyəti getdikcə zəiflədi və baxımsızlıqdan eksponatlar dağıldı:

"Lənkəran muzeyinin dağılmış eksponatlarının yenidən təşkili haqqında verilmiş sərəncam muzeydə heç bir eksponatın

qalmaması ucbatından bu problemi həll edə bilmir. Bu cür nöqsanların həddindən artıq artması rayonda muzey işini ləngidir və onun fəaliyyətinin dayandırılmasını sürətləndirir" (62, c.1, u.1166, v.10). Azərbaycan SSR Xalq Maarif Komissarlığının 1933-cü il protokolundan göründüyü kimi, artıq muzeyin tamamilə yenidən təşkilinə böyük ehtiyac duyulurdu, Fəaliyyətinin tənəzzülə uğramasının səbəbi məlum olmayan (70, c.2, u.2, v.13) Lənkəran Diyarşünaslıq Muzeyi bağlanmaq məcburiyyətində qalmışdır (70, c.2, u.2. v.13). 1921-ci ildə Bakıda İnqilab Muzeyi (92, s.11), Gəncədə isə Nizami adına Gəncə Diyarşünaslıq Muzeyi fəaliyyətə başlamışdır. 1924-cü ildə isə Kənd Təsərrüfatı Muzeyi ilə birləşmiş, ilk birgə ekspozisiyalarını nümayiş etdirmişlər (268, s.32). Əşyaların toplanması və təşkili Gəncə Pedaqoji seminariyasının bir qrup müəllim və tələbələri – D.Rəfibəyli, S.Seyidov, İ.Cəfərzadə, F.Məlikov, A.Quliyev və digərlərinin əməyi nəticəsində əmələ gəlmişdir (496,1968,N.7). "Gəncə Diyarşünaslıq Muzeyi iki bölmədə - diyarşünaslıq və kənd təsərrüfatı istiqamətlərində fəaliyyət göstərmişdir. 500 eksponatla fəaliyyətə başlayan muzey, şəhərin mərkəzində olan rus kilsəsində yerləşdirilmişdi" (268, s.32).

1921-ci ilin sonlarında Əmək Muzeyinin Tarixi-inqilab şöbəsinin arxivi və eksponatlarından hətta Azərbaycanda fəhlə hərəkatı tarixinin öyrənilməsi məqsədilə də istifadə edilmişdir (60. siy.1, iş 44, v.5).

20-ci illərin əvvəllərində nümayiş etdirilən kənd təsərrüfatına aid sərginin əsasında 1923-cü ildə Azərbaycan Dövlət Kənd Təsərrüfatı Muzeyi yaradıldı (92, s.11).

1924-cü ildən artıq Azərbaycanda muzeylərin şəbəkəsi və fəaliyyəti getdikcə genişlənməyə başlayır, nisbətən təkmilləşmə və sistemləşmə prosesi həyata keçirilir, muzeyşünaslığın inkişafı dövrü başlayır. Eyni zamanda artıq fəaliyyət göstərən muzeylər Tarix-Etnoqrafiya sahəsində aparılan tədqiqat və araşdırmalara ayrılan vəsaitlərin, etnoqrafiyaya həsr edilmiş gecələrin keçirilməsi mərkəzlərinə çevrilməyə başlayır (64,

siy.1, sax.N-10, v.7).

20-ci illərdə artıq bir sıra regionlarda, o cümlədən Qubada, Nuxada, Yelenendorf kəndində (indiki Göygöldə) diyarşünaslıq muzeyləri yaranırdı (268,s.34-37; 92, s.10-13). Respublika rayonlarında yaradılan ilk muzeylərdən sayılan Quba Tarix Diyarşünaslıq Muzeyi (268, s.34), rayon mərkəzindəki "Cümə məscidi"nin yanında olan mədrəsədə din xadimi, ziyalı Əhməd Əfəndi Çələbizadə tərəfindən toplanmış (66, siy.1, i.8,v.15) Azərbaycan tarixinə dair materiallar əsasında 1924-cü ildə fəaliyyətə başlamış, ictimai əsaslarda fəaliyyətini davam etmiş, lakin 1937-ci ildə muzey bağlanmışdır. Əlbəttə, muzeyin fəaliyyətinin dayanması səbəblərinə gəlincə qeyd olunmalıdır ki, birincisi, muzey 1924-cü ildən 1935-ci ilədək ictimai əsaslarda fəaliyyət göstərirdi ki, bu da həm elmi-tədqiqat, təbliğat fəaliyyətində həddindən artıq məhdudluq mövcud idi, həm də muzey eksponatlarının, bütövlükdə muzeyin qorunması və digər muzeyəhəmiyyətli tədbirlərin görülməsi də qeyri-mümkün idi. İkincisi, 1935-ci ildən Əhməd Çələbizadə Azərbaycan Xalq Maarif Komissarlığının 1935-ci il may sərəncamı ilə muzey müdiri təyin olunsa da, yenidən təşkil olunacaq muzey barəsində ona konkret tapşırıqlar verilsə də (6, 268, s.34-35), o dövrün bolşevik mənfi ideologiyası müstəvisində öz vətənpərvərlik mövqeyinin qurbanına çevrilmişdir və 1937-ci ildə Əhməd Çələbizadə repressiyaya məruz qaldığından muzey də fəaliyyətini dayandırır.

Göründüyü kimi, 20-30-cu illərdə regionlarda yaranan muzeylərin fəaliyyətlərinin dayandırılması səbəbləri təxminən o dövr üçün eynilik təşkil edir ki, bu da sovet sistemi üçün təbii hal sayılmalıdır. Lakin bütün belə təzyiqlərə və məhdudiyyətlərə baxmayaraq, Azərbaycanda bütövlükdə muzey quruculuğu təcrübəsi getdikcə artırdı, muzeyşünaslığın inkişafı prosesi baş verirdi. Həmin dövr üçün həm muzey quruculuğu, həm də elmi-tədqiqat, əşya və materialların toplanma prosesi, tədqiqi, saxlanması, eksponatın elmi-bədii-tarixi mahiyyəti, göstərəcəyi

bədii-mənəvi, estetik təsiri, bütövlükdə muzeyşünaslıq sahəsində fəaliyyətin elmi şəkil almasında Azərbaycan Dövlət Muzeyi əsas mənbə, baza rolunu oynayırdı,

Öz qədim tarixi-mədəniyyət abidələri ilə məşhur Azərbaycanın şimali-qərb regionlarından sayılan Nuxada da (indiki Şəki) maarifçilik inkişaf etmiş, mədəniyyətin ayrı-ayrı istiqamətləri üzrə güclü fəallıq nəzərə çarpırdı. Ayrı-ayrı şəxsi kolleksiyaların zəminində muzeylərin yaranması artıq tələbata çevrilmişdi. Bu tələbat nəzərə alınaraq 1926-cı ilin iyulunda Nuxa qəzasının Sovet İcraiyyə Komitəsi və Respublika Xalq Maarif Komissarlığı tərəfindən Nuxada diyarşünaslıq muzeyinin təşkili haqqında qərar qəbul edilir.

Həmin qərarda göstərilmişdir:

"a) Nuxa Qəza İcraiyyə Komitəsinin Rəyasət heyətinin qərarı ilə Nuxa şəhərində muzey təşkil edilsin;

b) Xalq Maarif Komissarlığından xahiş edilsin ki, Dövlət əhəmiyyətli muzeyin şəxsi heyətinin saxlanması xərclərini öz öhdəsinə götürsün;

v) Nuxa Xalq Maarif Şöbəsi D.Şərifovla (Azərbaycan Dövlət Muzeyinin direktoru) birlikdə Şərq sistemində tikilmiş və öz tarixi keçmişi olan Xan Sarayı binasının təmirinin texniki smetasının hazırlanması işini sürətləndirmək təklif edilsin;

q) Xalq Maarif Komissarlığından bədii tərtibat işlərini öz üzərinə götürməsi xahiş edilsin" (405).

Beləliklə, həmin qərara əsasən Xan Sarayının və rayon ərazisindən toplanmış zəngin əşya, materialların bazası hesabına 6 otaqdan ibarət Nuxa Tarix Diyarşünaslıq Muzeyinin açılışı oldu (58, siy.1, i.12, v.3). Muzeyin yaradılmasında maarifçi-yazıçı Rəşid bəy Əfəndiyevin mühüm rolu olmuşdur (268, s.36). Muzeyin təkmilləşdirilməsi, ekspozisiya quruluşunun yenidən təşkili məqsədilə 1933-cü ildə Nuxaya Azərbaycan Dövlət Muzeyindən mütəxəssislər göndərilir və həmin ildəcə bölgənin elmi, mədəniyyəti, tarixini əks etdirən, pambıq sənayesi texnologiyasına, müxtəlif təsərrüfat sahələrinə aid

maddi nümunələr toplanmış yeni ekspozisiya Karvansarayda tamaşaçıların üzünə açılır (62, i.116 v, v.10).

Azərbaycanda ilk teatr muzeyi 1927-ci ildə teatr işçilərinin Respublika müşavirəsində qəbul edilmiş qərara əsasən Azərbaycan Dövlət Dram Teatrının binasında açıldı (92, s.11). Lakin muzeyin fəaliyyəti uzun sürmədi və bağlandıqdan sonra əşyaların əsas hissəsi Azərbaycan Dövlət Muzeyinin "Ədəbiyyat və Teatr" şöbəsinə verildi (92, s. 11).

1928-ci ildə Göygöl rayonunda Tarix-Diyarşünaslıq Muzeyi yaradıldı (268, s.36; 92, s.11). Bu muzey Göygöldə (keçmiş Yelenendorf kəndi) orta məktəb müəllimi Yakov Hummelin və məktəblilərin köməkliyi sayəsində Gəncəçayı ərazisində aparılan qazıntılar nəticəsində əldə olunan əşya və materialların əsasında yaradılmışdır (268, s.36). Əşya və materiallar toplanaraq seçildikdən sonra nəhayət, 1929-cu ildə "... tarix, coğrafiya, təbiət, sənaye, kənd təsərrüfatı, etnoqrafiya və ədəbiyyat bölmələrindən ibarət muzeyin ilk ekspozisiyası açılmışdı" (58, i. 12, v.3). Bir sıra rayonlarda olduğu kimi, Göygöldə "Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti"nin Göygöl şöbəsi yarandıqdan sonra 1929-cu il aprelin 7-də muzey Diyarşünaslıq Cəmiyyətinin ixtiyarına keçdi (268, s.37). Lakin "Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti" Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutuna çevrildikdən sonra onun Göygöl şöbəsi bağlandı (268,s.37). Bundan sonra muzey müstəqil fəaliyyəti dövründə digər qonşu rayonlardan əldə etdiyi əşya və materiallar hesabına öz fondunu daha da zənginləşdirməyə müvafiq olmuş və fəaliyyətini daha da artırmışdır (57, s.3). "1935-1936-cı illərdə Muzey SSRİ Elmlər Akademiyasının Qafqazşünaslıq İnstitutu ilə əməkdaşlıq etməklə birlikdə bir sıra elmi-tədqiqat işləri aparmışdır. 1937-ci ildən başlayaraq muzey bu işi SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialı ilə birlikdə davam etdirmişdir. Bu məqsədlə Göygöl muzeyinin direktoru Y.Hummel SSRİ Elmlər Akademiyası Azərbaycan Filialının elmi işçisi təyin edilmiş və ona

Gəncəçayı ərazisində arxeoloji qazıntılar aparmağa icazə verilmişdir" (268, s. 37). Y.Hummelin Gəncəçayı ərazisində apardığı arxeoloji qazıntılar nəticəsində daş dövrünə aid elmi-tarixi əhəmiyyətli materiallar əldə edilmişdir (65, i.2,v.121) və muzeyin fondu daha da zənginləşdirilmişdir (268, s.37).

Artıq Göygöl Diyarşünaslıq Muzeyi bölgədə dövrünün ən zəngin Muzeyi sayılmaqla, rayonun tarixini dərindən öyrənmək məqsədini qarşısına qoymuş (498, s.4), xalqın minillik tarixini özündə əks etdirən nadir eksponatlarla ekspozisiyasını daha da zənginləşdirmişdir (268, s.37). Muzey "Təbii şərait", "Qədim insan", "Qədim xalqların dünyagörüşü və müasir dinləri", "Tarix və etnoqrafiya", "Müasir quruculuq", "Elmi arxiv və kitabxana" şöbələri vasitəsilə (57. s.5-6) həm elmi-tədqiqatçılıq, həm də təbliğ və nümayişetdirmə funksiyalarını yerinə yetirmişdir (498, s.15).

1927-ci ildə Arxeologiya Komitəsinin Tarix, İncəsənət və Təbiət Abidələrinin Mühafizəsi Komitəsinə çevrilməsindən sonra Azərbaycan Dövlət Muzeyi ilə birlikdə ayrı-ayrı regionlara birgə ekspedisiyalar vasitəsilə fəaliyyət göstərən muzeylərin fond və ekspozisiyaları zənginləşdirildi.

Artıq fəaliyyətlərini genişləndirən muzeylərin sayı 1930-cu ildə 8-ə çatdırılmışdı. Bu muzeylər sırasında Azərbaycan Dövlət Muzeyi (1920-ci il), Azərbaycan Dövlət Kənd Təsərrüfatı Muzeyi (1923-cü il), Naxçıvan Tarix-Diyarşünaslıq Muzeyi (1924-cü il), Nizami adına Gəncə Tarix-Diyarşünaslıq Muzeyi (1924-cü il), Lənkəran Tarix-Diyarşünaslıq Muzeyi (1924-cü il), Quba Tarix-Diyarşünaslıq muzeyi (1924-cü il), Şəki Tarix-Diyarşünaslıq Muzeyi (1926-ci il) və Göygöl Tarix-Diyarşünaslıq Muzeyini (1928-ci il) göstərmək olar. Təkcə Tarix-diyarşünaslıq muzeylərinin sayı O.B.İonovanın qeyd etdiyi kimi 2 yox (504, s. 85), 6 idi (268, s.39).

Artıq 20-ci illərin sonu və 30-cu illərin əvvəllərində SSRİ- də və o cümlədən Azərbaycanda fəaliyyət göstərən elm, mədəniyyət, incəsənətlə əlaqəli qurumlar yerli şəraitin

öyrənilməsi məqsədi ilə tədqiqatlar aparmış, sərgilərin təşkili istiqamətində tədbirlər həyata keçirmişlər. Azərbaycanı öyrənən Cəmiyyətin 1928-ci il 4 noyabr tarixli 1 nömrəli protokolunda "Tarix-etnoqrafiya bölməsi"nin iclasında (sədr – Eminbəyli, katib Cəfərzadə) (64, v.51), həmin Cəmiyyətin "Tarix-etnoqrafiya bölməsi"nin 20 noyabr 1928-ci il tarixli iclasının 23 nömrəli protokolunda (64, sv.52), (sədr – A.R.Zifeldt, katib – F.Şabanov) Xəzər dənizinin sahil bölgələrində tarixi-etnoqrafik araşdırmalarla bağlı məlumatlar göstərilmişdir (64). Cəmiyyətin "Tarix-etnoqrafiya bölməsi"-nin "Tarix komissiyası"nın Rəyasət Heyətinin 1928-ci il 17 dekabr tarixli iclasının 3 nömrəli protokolunda (sədr - A.Qubaydullin, katib-F.Şabanov) 1929-cu il üçün fəaliyyət smetasının təsdiqi, Moskva Tarix Arxivindən müvafiq materialların axtarışı, "Qarabağnamə"nin Azərbaycan dilindən rus dilinə tərcüməsi ilə bağlı məsələlər müzakirə edilmişdir (64, v.78).

Cəmiyyətin "Tarix-etnoqrafiya bölməsi"nin "Etnoqrafiya Arxeologiya dərnəyi"nin rəyasət heyətinin 1928-ci il 17 dekabr tarixli fövqəladə iclasının protokolunda (405, v.84) araşdırmaların səmərəli təşkili naminə qurum dəyişikliyinin edilməsi, dərnək üzvlərinin kurslara cəlb edilməsi, topoqrafik çəkilişlərin yerinə yetirilməsi məqsədilə rəhbərlərin təyini, dərnəyin 1929-cu il yanvar ayından sentyabr ayına qədərki, Azərbaycan ərazisinə ekskursiyalar və etnoqrafik proqramın yerinə yetirilməsi məqsədilə fəaliyyət planının təsdiqi, Bilgəh və Suraxanı məbədlərinin öyrənilməsi ilə bağlı məsələlərin həlli öz əksini tapmışdır (64, v.84,86).

Cəmiyyətin Sərgilərin Təşkili üzrə Komissiyasının Sovet Azərbaycanının yaradılmasının 9 illiyinin tamam olması gününə - 28 aprel 1929-cu il tarixinə həsr edilmiş 20.04.1929-cu il tarixli protokolunda (sədr – A.P.Zifeldt, katib – E.İ.Komisar) sərgi üçün binanın ayrılması, eksponatların seçilməsi, yerləşdirilməsi, ekspozisiyanın qurulması üçün lazımı materialların

təşkili, diaqramlar, xəritələr, ekspedisiyaların gördüyü işlər, smetanın tərtibi və təsdiqi məsələlərindən bəhs edilmişdir (64, siy. 1, saxl. N.26, vər.13).

Ümumiyyətlə, Cəmiyyətin Arxeologiya (64,v.18), Etnoqrafiya (64, v.27), Tarix (64, v.24), Təsviri incəsənət (64, v.24) komissiyalarının Quba, Naxçıvan, Tiflis, Gəncə, Ağdaş, Qazax, Şəki, Şamaxı, Göyçay qəzalarında tədqiqatların aparılması, maddi-mədəni nümunələrin, əşya və materialların toplanması işlərinin yerinə yetirilməsi müzakirə edilmiş, müvafiq qərarlar qəbul olunmuşdur.

Göründüyü kimi muzey əhəmiyyətli tədbirlərin mütəmadi davam etdirilməsi prosesi yerinə yetirilmişdir. Lakin bolşevizmin təsir gücü sayəsində milli tarixi-mədəni dəyərlər baxımından, bu dəyərlərin təbliğinin məhdud çərçivədə, müvafiq sovet tələbləri gözlənilməklə aparılması çox ciddi nəzarət altında olmuşdur. Lakin bütün bunlara baxmayaraq muzey quruculuğu işləri davam etdirilirdi (268, s.40) və diyarşünaslıq hərəkatı da kütləvi xarakter alırdı. "Hərəkatda iştirak edənlərin başlıca idealı təbliğ etmək, əhalinin rifahını yaxşılaşdırmağa, mədəni səviyyəsini yüksəltməyə çalışmaq olmuşdur" (268, s.41).

1931-ci ildə keçirilən Ümumrusiya muzey işçilərinin I qurultayı materiallarında muzey quruculuğunda dialektik materializm nöqteyi-nəzərindən yanaşılmasının vacibliyi göstərilirdi (537, s.69). Qurultayın məruzə və çıxışlarında tarix və mədəniyyətin obyektiv nümayişi sosializm rəsmi ideologiyası prinsiplərindən kənara çıxmamalı idi (537, s.69-70). Hətta Rusiya Xalq Maarif Komissarı A.S.Bubnovun qurultaya məktub-tövsiyəsində muzeyləri "mədəni-inqilabın alətlərinə" çevirməyin vacibliyi göstərilirdi (537, s.74-94).

Əslində bu, muzeylərin vulqar sosializmə xidmət edən siyasi maarifçilik funksiyalarından kənara çıxmaması demək idi (537, s.74). Xalqa muzey vasitəsilə marksizm klassiklərinin ideologiyasına əsasən mədəni inqilabın mütərəqqi qayəsi açıq-

lanmalı, bir sözlə, muzey "mədəni-maarif kombinatı" (268, s.42) kimi fəaliyyət göstərməli idi. Təcrübəsiz kadrların muzeylərə cəlb edilməsi sayəsində marksizm-leninizmin təbliğini gücləndirmək, sosializm ideyaları istiqamətində bölmələr yaratmaq məqsədi güdülürdü (537, s.74). Beləliklə, qurultaydan sonra muzeylər ideoloji təbliğat mərkəzlərinə çevrildilər.

Qurultayın fəaliyyəti nəticəsində 1931-ci ildə təsis edilən və ideoloji təbliğatın muzeylər tərəfindən həyata keçirilməsinin nəzəri əsaslarını tövsiyə edən "Sovetskiy muzey" jurnalı 1970-ci ilə qədər fəaliyyət göstərdi. Həmin ildə bağlanan jurnal yalnız 1983-cü ildən işıq üzü gördü (268, s.42).

Diyarşünaslığın elmi əsaslarının tədqiqi mərkəzlərindən sayılan tarix-diyarşünaslıq muzeylərinin fəaliyyətinə 20-ci illərin ortalarından tədricən "kölgə salınmağa" başlanılır, məscidlər, məbədlər, abidə yerləri dağıdılır, ekspozisiyalarda ancaq mədəni inqilab istiqamətli təbliğatı nümunələrə diqqət yetirilirdi (513, s. 45).

Getdikcə sırf muzey idarəçiliyində vahid mexanizmin yaradılmasına böyük ehtiyac duyulmağa başlamışdı. Kortəbii şəkildə həvəskarlar tərəfindən əşya və materialların toplanması, onların əsasında pərakəndə şəkildə muzey adı altında sərgilərin təşkili, yaranan muzeylərin qeydə alınması mexanizminin olmaması, tamaşaçıların qəbulunun, ekspozisiyanın elmi-bədii tərtibatının məqsədyönlü olmaması, muzey mühitinin, şəraitin yaradılmaması, fond satınalma, mühafizə, bərpa prosesinin olmaması, hava-rütubət rejiminin olmaması və sair bu kimi amillərin yoxluğu ucbatından 20-ci illərin sonlarından etibarən muzey şöbələri ləğv edildi, ştatlar ixtisara məruz qaldı, qeydəalma funksiyası mərkəzi dövlət bərpa emalatxanalarına verildi. Beləliklə, "1930-cu illərin ikinci yarısında muzeylərin idarə olunması sistemində bölünmə baş verir: təbiət tarixi, tarix, diyarşünaslıq, ədəbiyyat muzeyləri Xalq Maarif Komissarlığının muzey şöbəsinin tabeçiliyinə verilir" (268, s.44).

SSRİ İcraiyyə Komitəsinin sərdi M.İ.Kalinin tərəfindən

20 avqust 1928-ci il tarixində imzalanan "Muzey quruculuğu" xüsusi qərarına (516, s.30, oktyabr 1928) uyğun Azərbaycanda da fond və ekspozisiya işlərinin təkmilləşdirilməsi sahəsində işlər görülməyə başladı (288, s.46).

Lakin 1931-ci ildə keçirilən Ümumrusiya muzey işçilərinin I qurultayının muzey işinin təkmilləşdirilməsi ilə bağlı qərarı (528, s. 164), 1933-cü ilin avqustun 28-də SSRİ xalq Komissarları Soveti tərəfindən qəbul edilmiş "Muxtar SSR və muxtar vilayətlərdə muzey quruculuğu və onların vəzifələri" adlı qərarı (504, s.194), həmin ildəcə Xalq Maarif Komissarlığı nəzdində "Muzey bölməsi"nin yaradılması (268, s.46; 520, s.108), 1934-cü ildə Xalq Maarif Komissarlığı tərkibində "İncəsənət, teatr və diyarşünaslıq muzeyləri bürosu"nun yaradılması (58, i.16, v.1-17), 1934-cü ilin noyabrında Azərbaycanda ilk dəfə keçirilən muzey işçiləri müşavirəsinin qərarları (58, i.16, v.6-7) nəticəsində respublikamızda muzeylərin inkişafı və təkmilləşdirilməsində müəyyən dəyişikliklər baş verdi.

Yəni Azərbaycan Dövlət Teatr Muzeyi, 1936-cı ildə Azərbaycan Təbiət Tarixi Muzeyi, Azərbaycan Dövlət İncəsənət Muzeyi, 1938-ci ildə Xankəndində Duyarşünaslıq Muzeyi açıldı. 1936-cü ildə Din tarixi və Ateizm Muzeyinin yaradılması haqqında qərar qəbul edildi və 1939-cu ildə Gəncədə, həmin muzeyin filialı fəaliyyətə başladı (92, s.12-13).

1939-cu ildə xalq Komissarları Soveti tərəfindən Bakıda Dahi Azərbaycan şairi Nizami Gəncəvinin 800 illik yubileyi ərəfəsində Nizami Gəncəvi muzeyinin yaradılması haqqında qərar qəbul edildi (92, s.13). Muzeyin açılışı isə Böyük Vətən müharibəsində qələbə ərəfəsində 1945-ci ilin baharında oldu (92, s. 13).

30-cu illərdə xalqımızın öz tarixinə, mədəniyyətinə olan marağının "söndürülməsi" prosesi sosializmin həmin dövr üçün "təmizləmə prinsipi"nə əməl olunmasına təhlükəli başlanğıc idi. 1935-ci ildə guya ümumi inkişaf prosesinə diqqət artırıldığından elm və mədəniyyət sahələri isə diqqətdən yayınırdı ki,

bu da bir sıra mədəniyyət sahələrində uğursuzluğa gətirib çıxarırdı. Bu uğursuzluq "... özünü ən çox yenicə inkişaf dövrünə qədəm qoymuş diyarşünaslıq işində göstərdi. Formalaşmağa başlanmış inzibati sistem kütlələrin yaradıcı müstəqilliyinin və özfəaliyyətinin inkişaf etdirilməsini istəmirdi. "Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti" ləğv edilir və onun əsasında dövlət müəssisəsi – Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu təşkil olunur. Tarix, İncəsənət və Təbiət Abidələrinin mühafizəsinin Komitəsi də dövlət inzibati idarəsinə - Azərbaycan Qədim Abidələrin mühafizəsi Mərkəzi İdarəsinə çevrildi. Hər iki idarə artıq diyarşünaslıq məsələləri ilə məşğul olmurdu, işi peşə və diyarşünaslıq marağına görə deyil, yuxarıda təsdiq olunmuş direktivlər və planlar əsasında aparırdılar" (268, s.48). Elə bu prosesin nəticəsi olaraq bir sıra diyarşünaslıq muzeyləri bağlanmaya məruz qalır, muzey işçilərinin bir hissəsi, tədqiqatçı alimlərin əksəriyyəti repressiya qurbanı olduqlarından diyarşünaslıq hərəkatı sönür (268, s.48), muzeylərin bütövlükdə inkişafı "ətalət" dövrünü yaşamağa məcbur olur, çox cüzi artım prosesi baş verir.

Qəbul edilən müvafiq qərarlar əsasında 1938-ci ildə "Gizli "Nina" mətbəəsi muzeyi", 1940-cı ildə Azərbaycan SSR KP MK-nin qərarı ilə "Qudok" qəzeti redaksiyasının memorial ev muzeyi və 1950-ci ildə Azərbaycan SSR EA-nın Əlyazmalar Fondunun "Qədim Əlyazmalar və Miniatürlər Muzeyi" yaradıldı.

Həm 1937-ci ildə Azərbaycanda represiyaların geniş vüsət alması, həm də Böyük Vətən Müharibəsinin başlanması muzey işində ikitərəfli "zərbə" idi. Bu "zərbə" diyarşünaslıq muzeylərində özünü daha qabarıq göstərirdi. Əgər 1937-ci ildə Azərbaycanda 18 muzey – o cümlədən 1 inqilab tarixi, 2 tarix, 7 diyarşünaslıq, 2 incəsənət və 6 digər profilli muzeylər fəaliyyət göstərirdisə, 1940-cı ildə isə 22 muzey – o cümlədən 1 inqilab tarixi, 3 tarix, 4 diyarşünaslıq, 4 incəsənət, 10 digər profilli muzeylər var idi. Göründüyü kimi diyarşünaslıq mu-

zeylərinin sayı 7-dən 4-ə enmişdi (308, s.5).

Böyük Vətən Müharibəsinin gedişi dövründə hərbi-vətənpərvərlik hissi tərbiyəsinin daha da gücləndirilməsi baxımından fəaliyyəti dayandırılmış muzeylərin yenidən təşkili üçün ölkədə müvafiq göstərişlər, sərəncamlar verildi. 1943-cü ilin noyabrında Azərbaycan K (b) P MK və Xalq Komissarları Sovetinin müvafiq sərəncamlarına, qərarlara görə 1944-cü ildə Şamaxıda və Qubada diyarşünaslıq muzeyləri təşkil edildi. (59, i.232, v.3).

Müharibədən sonra, yəni 1946-cı ildə Respublika Nazirlər Soveti tərəfindən qəbul edilən "Azərbaycan SSR-də mədəni-maarif işinin genişləndirilməsi haqqında" (44, s.3,189-190), Azərbaycan K (b) P MK-nın XXII plenumunun (dekabr, 1948-ci il) qəbul etdiyi "Respublikada mədəni-maarif işinin vəziyyəti və yaxşılaşdırılması tədbirləri haqqında" (495, s.252) qərarları rəhbər tutularaq muzeylərin inkişafı və işlərinin yaxşılaşdırılması istiqamətində tədbirlər görülməyə başladı.

1896-cı ildən 1950-ci ilə qədərki dövr ərzində muzeylərin təşəkkülü, inkişafı və tənəzzülünə diqqət yetirsək "qısa ömürlü" və "uzun müddətli" muzeylər barəsində məlumata yiyələnirik (bax: əlavə 2, cədvəl 2.2).

Beləliklə, 1919-1950-ci illərdə muzeylərin təşəkkülü, fəaliyyəti, müəyyən inkişaf yolu keçməsi həmin illərdə baş vermiş tarixi-siyasi hadisələrə müvafiq olaraq baş vermişdir. Muzeylərin bir hissəsi (əsasən diyarşünaslıq muzeyləri) yaradılmış və müəyyən dövrdən sonra fəaliyyətləri dayandırılmışdır (cədvəl 1).

1930-cu ildən 1940-cı ilə qədər profillər üzrə muzeylərin artımı baş vermişdir. Yəni, 1930-cu ildə cəmi Azərbaycanda 11 muzey fəaliyyət göstərmişsə (inqilab tarixi muzeyi – 1 ədəd, tarixi muzeylər – 2 ədəd, diyarşünaslıq muzeyləri – 7 ədəd, digər profil üzrə - 1ədəd), 1940-cı ildə isə muzeylərin ümumi sayı 22 olmuşdur (inqilab tarixi muzeyi – 1ədəd, tarixi muzeylər – 3 ədəd, diyarşünaslıq muzeyləri – 4 ədəd, incəsənət muzeyləri –

4 ədəd, digər profillər üzrə isə 10 ədəd). 1940-cı ildən 1950-ci ilə qədərki, müddətdə isə muzeylərin ümumi sayında və muzeylərə gələnlərin sayında fərqli azalma prosesi baş vermişdir (bax: əlavə2, cədvəl 2.3; cədvəl 2.4).

Müxtəlif profillər üzrə belə fərqli azalmalar təbii ki, Böyük Vətən Müharibəsinin ölkədə törətdiyi iqtisadi, maddi və mənəvi çətinliklərin sayəsində baş vermişdir ki, bu da tədricən ölkədaxilində bərpaedici tədbirlərin kompleks şəkildə həyata keçirilməsi ilə bağlı idi.

Muzeylərin təşəkkülünü yarımmərhələlər və yaxud etaplar baxımından araşdırdıqda belə nəticə əldə olunmuşdur ki, 1896-cı ildə Naxçıvanda yaradılan Nehrəm diyarşünaslıq muzeyi bu sahədə ilk "qığılcım"dır və bundan sonrakı fəaliyyət 1919-cu ilə qədərki illərdə fərdi kolleksiyalar, xırda sərgilərin təşkili, muzey yaratmaq məsələləri "dərnəkçilik", fərdi təşəbbüslər səviyyəli müzakirələrdə öz əksini tapmışdır, yəni muzey quruculuğu sahəsində konkret addımlar atılmamışdır.

XX əsrin əvvəllərindən isə artıq muzey quruculuğuna tələbat artdığından, eyni zamanda1918-ci ildə ADR-in yaradılmasından sonra dövlətçilik fəaliyyəti daxilində milli addım və mənəvi mədəniyyət nümunələrinin toplanması, qorunması, tədqiqi, təbliği kimi meyllərin güclənməsi, rəsmi müstəvidə həlli yollarının qismən, mərhələ-mərhələ tapılması yerinə yetirilməyə başlamışdı. Artıq mövcud mühit, şərait, baş verən hadisələr bunu "tələb" edirdi. Bu tələbatın nəticəsi olaraq XX əsrin əvvəlində Bakıda Bakı şəhəri Xalq Məktəbi müdiriyyəti nəzdində "Pedaqoji muzey"in yaradılması (çox təəssüf ki, bu muzey öz fəaliyyətini 1920-ci ilə qədər davam etdirmişdir), rəsmi şəkildə "İstiqlal" muzeyinin yaradılması, 1919-cu ildə Naxçıvan diyarşünaslıq muzeyinin təşəkkülü (qapalı), 1920-ci ilin iyunun15-də əvvəlcə "Muzekskurs", ondan cəmi 4 gün sonra, yəni iyunun 19-da "Doğma Diyarın Tədris Muzeyi" adlandırılmış, həmin ilin iyulun 26-dan etibarən "Doğma diyarın Tədris Muzeyi" "İstiqlal" adlandırılan muzeyin bazasında

1920-ci il oktyabrın 25-də yaradılan Azərbaycan SSR Dövlət Muzeyinin fəaliyyətə başlaması, 1920-ci ildə Ümumrusiya Texniki Cəmiyyətinin Bakı Şöbəsinin Muzeyinin (qapalı), Əmək Muzeyinin sanitariya-gigiyena şöbəsinin, Lənkəran Tarix-Diyarşünaslıq Muzeyinin açılması məhz 1-ci etapa aiddir. Bu etapda, konkret desək, 2 il ərzində muzey quruculuğunda artıq addımlar atılırdı.

1921-1930-cu illəri əhatə edən 2-ci etapda isə (1922-ci il istisna olmaqla) İnqilab Muzeyinin (1921-ci il), Nizami adına Gəncə Diyarşünaslıq Muzeyinin (1921-ci il), Azərbaycan Dövlət Kənd Təsərrüfatı Muzeyinin (1923-cü il), Quba Diyarşünaslıq Muzeyinin (1924-cü il), Şəki Diyarşünaslıq Muzeyinin (1926-cı il), Göygöl Tarix-Diyarşünaslıq Muzeyinin (1928-ci il) yaradılması quruculuğunda inamlı addımların atılması, eyni zamanda elmi-metodiki fəaliyyətin formalaşmasını sübut edir.

1932-1950-ci illəri əhatə edən 3-zü etapda yaradılan Respublika Dövlət Xalq Təhsili Muzeyi (1932-ci il), Azərbaycan Dövlət Teatr Muzeyi (1934-cü il), Azərbaycan Dövlət İncəsənət Muzeyi (1936-cı il), Azərbaycan Təbiət Tarixi Muzeyi (1936-cı il), Din tarixi və Ateizm Muzeyi (1938-ci il), Din tarixi və Ateizm Muzeyinin Gəncə filialı (1939-cu il), M.F.Axundovun ev-xatirə muzeyi (Şəki, 1940-cı il), Xankəndi Diyarşünaslıq Muzeyi 1939-cu il), Gizli "Nina" Mətbəəsi Muzeyi (Bakı,1938-ci il), "Qudok" qəzeti redaksiyasının memorial ev muzeyi (Bakı, 1940-cı il) və Azərbaycan SSR EA-nın Əlyazmalar Fondunun "Qədim Əlyazmalar və Miniatürlər Muzeyi" (Bakı,1956-cı il) öz davamlı fəaliyyətləri ilə Azərbaycanda muzey quruculuğunun inamlı inkişafını əks etdirmişdir.

İkinci dünya müharibəsindən sonra Azərbaycanda "ideoloji güc" kimi muzey quruculuğunun inkişafında yeni mərhələ yarandı. 1946-cı ildə Nazirlər Sovetinin "Azərbaycan SSR-də mədəni-maarif işinin genişləndirilməsi haqqında" qərarı (44, c.3, s.189-190), Azərbaycan K (b) P MK-nın XXIII Plenumu-

nun 1948-ci il dekabrında qəbul etdiyi "Respublikada mədəni-maarif işinin vəziyyəti və yaxşılaşdırılması tədbirləri haqqında" qərarı (495, s.252), həmin qərarın bölmələr üzrə yerinə yetirilməsi məqsədilə 1949-cu ildə qəbul edilmiş "Diyarşünaslıq muzeyləri işinin əsas vəziyyəti" haqqında qərar (535, s.12), diyarşünaslıq muzeylərinin ekspozisiyalarına baxış keçirmək məqsədilə 1952-ci ildə yaradılan xüsusi komitə tərəfindən "Gəncə, indiki Göygöl, indiki Xankəndi, Quba, Şamaxı rayonlarında diyarşünaslıq muzeylərinin işinin yaxşılaşdırılması haqqında" qəbul etdiyi qərara (57, i.42, v.10) və digər sərəncam, göstərişlərə əsasən Cəbrayıl rayonunda Azərbaycan Bolşevik tarixi Muzeyinin Filialı (55) yaranır. 1958-ci ildə Azərbaycan Tarixi Muzeyinin köməyi ilə Naxçıvan Diyarşünaslıq Muzeyinin yeni zəngin ekspozisiyası açılır, muzey quruculuğu ilə əlaqəli digər tədbirlər həyata keçirilir (268, s.50-51).

Azərbaycanda fəaliyyət göstərən muzeylərin eksponatla zənginləşməsində Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutunun böyük rolu olmuşdur. Rayonlarda aparılan arxeoloji qazıntılar nəticəsində əldə olunan nümunələr tədqiq edildikdən sonra müvafiq rayonlardakı diyarşünaslıq muzeylərinə verilmişdi. Gəncə, Xankəndi, Naxçıvan, Nuxa, Quba, Şamaxı, Göygöl Diyarşünaslıq Muzeyləri buna nümunədir (268, s.51). Həm də bu diyarşünaslıq muzeyləri 1957-ci ilə qədər Azərbaycan Elmlər Akademiyasının bazası kimi fəaliyyət göstərirdi (70, i.7, v.808).

Lakin, Azərbaycan KP MK və Azərbaycan SSR Ali Soveti tərəfindən 1957-ci il aprelin 23-də qəbul edilən "Azərbaycan mədəniyyət abidələrinin qorunması, öyrənilməsi, bərpa işlərinin vəziyyəti və yaxşılaşdırılması tədbirləri haqqında" qərara (44, s.418-420) əsasən tarixi abidələr və muzeylər Azərbaycan Elmlər Akademiyasının nəzdindən Mədəniyyət Nazirliyinin tabeliyinə verildi və Mədəniyyət Nazirliyində "Mədəniyyət abidələri və Muzeylər İdarəsi" yaradıldı.

Muzey işinin yaxşılaşdırılması üçün 1959-cu ilin iyulun-

da Moskvada keçirilən seminarın qərara aldığı məsələlərin müzakirəsi məqsədilə həmin ilin dekabrında Gəncədə muzey işçilərinin 3-cü seminarında (231, 1961, N-4, s.204-206) muzey əhəmiyyətli tədbirlərlə yanaşı, "Diyarşünaslıq Cəmiyyəti"nin yaradılması da qərara alınmışdı. Lakin sonuncu qurumun yaradılması işi həyata keçirilmədi, yalnız 1990-cı ildəki müzakirələrdən sonra "Diyarşünaslıq Cəmiyyəti" təsis edildi.

Azərbaycan SSR Mədəniyyət Nazirliyi tərəfindən 1960-cı il noyabrın 11-də qəbul etdiyi "Muzey işinin yaxşılaşdırılması vəziyyətinə dair qərar"ı (56, v.5-6) və 1961-ci ilin dekabrın 31-də qəbul etdiyi zona muzeylərinin yaradılması ilə bağlı qərarına əsasən respublikamızdakı rayon muzeylərinin zonalar üzrə birləşdirilməsi məqsədi güdülürdü (351, v.11). Bu qərarlara müvafiq olaraq Göygöl Diyarşünaslıq Muzeyinin Gəncə Diyarşünaslıq Muzeyinə birləşdirilməsi, Lənkəran Diyarşünaslıq Muzeyinin yeni ekspozisiyasının yaradılması planlaşdırıldı və bu işlər 1961-ci ildə yerinə yetirildi.

1962-ci ildən Azərbaycanda Xalq muzeylərinin yaradılmasına başlanıldı (307). Azərbaycan SSR Mədəniyyət Nazirliyi tərəfindən 1962-ci ildə təsdiq edilən "Xalq muzeyləri haqqında Əsasnamə"də göstərilirdi ki, "... xalq muzeyləri partiya, komsomol təşkilatlarının, zəhmətkeşlərin köməyi ilə kolxozlarda, məktəblərdə və başqa yerlərdə yaradılır. Xalq muzeylərinin açılması, yerli mədəniyyət orqanlarının qərarı ilə rəsmiləşdirilir" (307). Məqsəd əsasən partiya təbliğatı obyektlərinin artırılması, həm də regionlarda xalq kütləsinin, eləcə də məktəblilərin gücündən istifadə yolu ilə muzeylərin yaradılmasına köməyin göstərilməsi idi. Bunun sayəsində bir neçə rayonda, o cümlədən Şamaxı rayonunun Çuxuryurd və Masallı rayonunun Hişkədərə kəndində həvəskarlar tərəfindən toplanmış kolleksiyalar sayəsində muzeylər yaradıldı (307).

1950-1960-cı illərdə Azərbaycanda muzey fəaliyyətinin "ətalət" dövrü adlandırıla bilər. Çünki, 1950-ci ildə Respub-

likada 19 muzey fəaliyyət göstərirdisə, 1956-cı ildə bu rəqəm 18-ə enmiş, 1961-ci ildə isə 17 olmuşdur. Yalnız, 1964-cü ildə muzeylərin sayı 18-ə, bir il sonra, yəni 1965-ci ildə bu say 24-ə çatmışdır. 2-ci yarım mərhələnin sonunda, yəni 1969-cu ildə Azərbaycanda muzeylərin ümumi sayı 38-ə çatmışdır. Göründüyü kimi, yalnız 1960-cı illərin ikinci yarısından etibarən muzeylərin artımı prosesi mövcud olmuşdur.

Beləliklə, Azərbaycanda 1950-1968-ci illərdə muzeylərin inkişaf dinamikasına diqqət yetirsək, görərik ki, inkişaf yalnız 1965-ci ildən davam etmişdir. Əgər 1951-ci ildən 1964-cü ilə qədər heç artım olmamışdırsa, bir il ərzində 6 muzey artmışdır, yəni 4 memorial, 1 təbiət tarixi və 1 digər profilli muzeylər yaradılmışdır. 1968-ci ildə isə 1965-ci ilə nisbətən 14 muzey yaradılmışdır. Belə ki, yeni yaradılan muzeylər profillərinə görə 3 ədəd tarixi, 4 ədəd memorial, 4 ədəd diyarşünaslıq, 4 ədəd isə incəsənət muzeyləri olmuşdur. Yarımmərhələlər üzrə, yəni 1951-1960-cı illəri əhatə edən ikinci yarımmərhələdə, 1961-1964-cü illəri əhatə edən ikinci yarımmərhələdə və 1965-1968-ci illəri əhatə edən üçüncü yarımmərhələdə kifayət qədər həm muzeylərin sayı baxımından, həm də təşkilatı-metodik, tarixi-bədii cəhətdən müvafiq atrım prosesi baş vermişdir (əlavə3, cədvəl 2.5; əlavə 4, cədvəl 2.6).

Beləliklə, 1965-ci ildən başlayaraq muzeylərin inkişafı tədricən artmış və bu artım 90-cı illərin sonunadək davam etmişdir.

İkinci Dünya Müharibəsindən sonra həyata keçirilən bərpa işləri bütün sahələrdə olduğu kimi, mədəniyyət quruculuğunda, o cümlədən muzey işində də özünü göstərdi. Muzey quruculuğunda baş verən canlanma müxtəlif profilli muzeylərin daha da artımında özünü göstərməyə başladı. Digər tərəfdən isə, 1965-ci ilə qəbul edilmiş "SSRİ muzey fondu haqqında" və 1976-cı ildə qəbul edilmiş "Tarix və mədəniyyət abidələrinin qorunması və istifadə olunması haqqında"kı qərarlar bu prosesin daha da sürətlənməsinə səbəb oldu.

"80-ci illər, həmçinin, diyarşünaslıq hərəkatının genişləndiyi dövrdür. Belə ki, diyarşünaslıq muzeyləri ilk dəfə olaraq ekspozisiya bölmələrindən əlavə fond bölmələri, kitabxana, arxiv, yardımçı kabinələr və emalatxanalarla təmin olundu. Onlara müstəqil ekspozisiya yaratmaq hüququ da verildi" (268, s.57).

1950-60-cı illərdə Şuşada dahi bəstəkar Üzeyir Hacıbəyovun, Şamaxıda M.Ə.Sabirin, Lənkəranda iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun, Xızıda Cəfər Cabbarlının, Qazaxda Molla Pənah Vaqifin, Ordubadda Məmməd Səid Ordubadinin, dünya şöhrətli alim Yusif Məmmədəliyevin, 1970-1980-ci illərdə Bakıda Xalq şairi Səməd Vurğunun, Nəriman Nərimanovun, Üzeyir Hacıbəyovun, Cəfər Cabbarlının, Bakıda və Şuşada Bülbülün, Naxçıvanda Hüseyn Cavidin xatirə muzeyləri yaradıldı (92, s.14,15). Muzeylərin artması ilə bərabər, muzey işi sahəsində elmi-metodiki, təşkilati fəaliyyət, fond işi, ekspozisiyanın bədii tərtibatı və sair muzeyşünaslıq əhəmiyyətli fəaliyyətə də geniş yer verilirdi.

Bu işlərin daha səmərəli, təkmil şəkildə aparılması məqsədilə həmin dövrdə Respublika Mədəniyyət Nazirliyində Muzeylər İdarəsi, Muzey İşi Üzrə Respublika Elmi-Metodiki Mərkəzi, Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi-Bərpa Mərkəzi, Muzeylərin bədii tərtibatı müəssisəsi yaradıldı. "1980-1981-ci illərdə Əli Bayramlıda, Qusar, Qəbələ, Astara, Ağcəbədi, Sabirabad, Neftçala, Salyan, Oğuz, Cəbrayıl, Culfa, Ordubad, Şərur, Tovuz, İsmayıllı, Qax, İmişli, Xaçmaz, Zəngilan, Yardımlı, Cəlilabadda tarix-diyarşünaslıq muzeylərinin ekspozisiyaları açıldı" (92,s.15). Şəki, Cəlilabad, Qazax, Salyan, Neftçala, Tovuz rayonlarında təşkil edilən rəsm qalereyalarında görkəmli sənətkarların, yerli rəssamların əl işləri nümayiş etdirilirdi (92, s. 15).

Azərbaycanda müxtəlif profilli muzeylər şəbəkəsi getdikcə genişlənirdi. 1990-cı illərdə Bakıda Abdulla Şaiqin ev-muzeyi, Gədəbəydə, Lahıcda tarix-diyarşünaslıq muzeyi, Ağdamın Mahrızlı kəndində Rahib Məmmədovun adına Döyüş

Şöhrəti Muzeyi, Qəbələdə İsmayıl bəy Qutqaşınlının ev-muzeyi, Laçının Güləbird kəndində Sarı Aşığın ev-muzeyi, Qaxda İsmayıl Dağıstanlının ev-muzeyi, Şamaxıda Döyüş Şöhrəti Muzeyi, Gəncədə İsrafil Məmmədovun ev-muzeyi, Cəbrayılda Sovet İttifaqı Qəhrəmanı Cəmil Əhmədovun ev-muzeyi, Şuşada Qarabağ Tarixi Dövlət Muzeyi, Mir Möhsün Həvvabın ev-muzeyi, Lerikdə Uzunömürlülər Muzeyi, Ağdaşda görkəmli şair Maqsud Şeyxzadənin ev-muzeyi açıldı. Tovuzun Bozalqanlı kəndində Aşıq Hüseyn Bozalqanlı adına Azərbaycan Aşıq Sənəti Muzeyi, Zəngilanda Daş Heykəllər və Xalqlar Dostluğu Muzeyi, Şəkidə Xalq Tətbiqi Sənəti Muzeyi və Rəşid bəy Əfəndiyevin ev-muzeyi, Bakıda Vaqif Mustafazadənin xatirə muzeyi rəsmiləşdirildi. Həmin illərdəcə Şəmkirin Çənlibel kəndində Xalq Tətbiqi Sənəti Muzeyi fəaliyyətə başlamışdır. Bakıda bir neçə muzeyin (S.M.Kirovun, M.Əzizbəyovun, S.Şaumyanın, P.Caparidzenin və İ.Fioletovun xatirə muzeylərinin) bazasında "Azərbaycanda inqilabi-demokratik hərəkat tarixi və döyüş şöhrəti" muzeyi təşkil edildi.

1991-ci ildə Azərbaycan yenidən müstəqilliyini əldə etdikdən və muzey binaları boşaldıqdan sonra, iki binaya – V.İ.Leninin Mərkəzi Muzeyinin Bakı Filialı binasına, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti, C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr, Azərbaycan İstiqlal və Din Tarixi muzeyləri və Bakı şəhər Partiya (Kommunist Partiyası) Komitəsinin binasına R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyinin yeni ekspozisiyası köçürüldü. Dörd muzeyin yerləşdiyi bina isə "Muzey mərkəzi" adlandırıldı. Artıq 1991-ci ilin oktyabrından sonra Azərbaycanda fəaliyyət göstərən muzeylərin məzmun fəaliyyətində də müvafiq dəyişikliklər edildi. Sosializm ideoloji mexanizminin daşıyıcılarından sayılan muzeylərdə artıq milli mədəniyyətə, maddi və mənəvi dəyərlərə milli nöqteyi-nəzərdən yanaşılması, real, obyektiv araşdırma nəticələrinin düzgün qiymətləndirilməsi prosesi artıq ön planda idi. 1991-ci ildə "Azərbaycanda inqilabi-demokratik

hərəkat tarixi və döyüş şöhrəti Muzeyi" "Azərbaycan İstiqlal Muzeyi" adlandırıldı və 1993-cü ildə ekspozisiyanın təntənəli açılış mərasimi oldu.

Beləliklə, Azərbaycanda muzeylərin inkişafının üçüncü – 1969-1991-ci illər mərhələsinin gedişatına diqqət yetirdikdə aydın olmuşdur ki, bu illər ərzində Azərbaycanda muzey fəaliyyətinin sıçrayışlı inkişafı baş vermişdir. Yəni, əgər Azərbaycanda 1968-ci ildə cəmi 38 muzey fəaliyyət göstərirdisə, 1983-cü ildə bu say 90-na çatmışdır. 1969-1991-ci illərin muzey fəaliyyətini, yəni üçüncü mərhələni üç yarımmərhələyə - 1969-1974-cü (I yarımmərhələ), 1975-1983-cü (II yarımmərhələ) və 1984-1991-ci (III yarımmərhələ) illərə bölməklə muzeylərin inkişaf dinamikasını aşağıdakı cədvəllər vasitəsilə konkret qiymətləndirə bilərik (bax: əlavə5, cədvəl 2.7; əlavə 6, cədvəl 2.8; əlavə 7, cədvəl 2.9).

1969-cu ildən 1991-ci ilə qədərki dövr ərzində Azərbaycanda muzeylərin sayı 38-dən 128-ə qalxmışdır. Yəni, 1969-cu ilə nisbətən 1991-ci ildə muzeylər 90-ədəd artmış, bu da 3,2 dəfə artım deməkdir. Birinci yarımmərhələdə yəni, 1969-1974cü illərdə cəmi 2 ədəd muzey artmışdır ki, bu da memarlıq və sənətşünaslıq profilli muzeylərin payına düşür. Məlum olduğu kimi, 1969-cu ildə Ulu Öndər Azərbaycan KP MK-nın Birinci Katibi seçildikdən sonra, hakimiyyətə ilk dəfə gəlişi dövrünün başlanğıc illəri və sürətli inkişaf strategiyasının təyini dövrü idi. Hamımıza çox gözəl məlumdur ki, Ulu Öndərimiz Hakimiyyətdə olduğu bütün illər ərzində respublikamız sürətli inkişafına görə hər il keçici Qızıl Bayrağa sahib olmuşdur. Bütün sahələrdəki dinamik inkişaf muzeyşünaslıqda özünü göstərmiş və artıq 1974-cü ildən başlayaraq muzeylərimiz sürətlə inkişafa başlamışdır. Bu danılmaz faktdır ki, əgər 1969-cu ildə Azərbaycanda 38 muzey fəaliyyətdə olmuşsa, 1988-ci ildə artıq onların sayı 120-yə çatmışdır. Respublikalarla müqayisədə Azərbaycan bu sahədə də irəlidə olmuşdur. İkinci yarımmərhələdə isə, yəni 1975-ci ildən 1983-cü ilə

qədərki dövr ərzində muzeylərin sayı 40-dan 90-a çatmışdır. Bu dövr Azərbaycan muzeyşünaslığının tərəqqi dövrüdür. 9 il ərzində 50 muzey yaradılmışdır ki, bu da ildə orta hesabla 5,5 muzeyin yaranması deməkdir. Onu da qeyd edim ki, faktlar sübut etmişdir ki, 1983-cü ildən 1988-ci ilə qədərki, dövrdə Ulu Öndərimiz SSRİ Nazirlər Soveti Sədrinin Birinci Müavini vəzifəsində Moskvada fəaliyyət göstərərkən digər sahələrlə yanaşı, muzeylərin, muzeyşünaslığın inkişaf tempini də həmişə nəzarətdə saxlamış, 5 il ərzində 30 muzey yaradılmış, yüksək şəkildə fəaliyyətlərini davam etdirmişlər, Təbiidir ki, Ulu Öndərimizin təyin etdiyi sürətli, dinamik inkişaf strategiyası nəticəsində muzeylərimiz öz fəaliyyətlərini davam etdirmiş, 1991-ci ilə qədər bu şəbəkə artmış, say 128-ə çatmışdır (bax: əlavə 5, cədvəl 2.7). Beləliklə, üçüncü yarımmərhələ, ikincinin davamı, yəni "tərəqqi dövrü"nün davamı hesab edilir. 1991-ci ildən 1993-cü ilə qədərki, dövrdə təbii ki, bu inkişaf ölkədəki məlum hadisələr və deyərdim ki, səriştəsiz idarəçilik, hakimiyyətin naşı insanların əlində olması, Azərbaycanımızın rəhbərsiz qalmasının nəticəsi idi (bax: əlavə 5, cədvəl 2.7).

1969-1988 və 1991-ci illərdə nəinki muzeylərin miqdarı artırılmış, eyni zamanda bütövlükdə muzey fəaliyyətində elmi-metodiki, təşkilati baxımdan da tərəqqi prosesi baş vermişdir. Belə ki, əgər 1969-cu ildə eksponatların ümumi sayı 240 min ədəd olmuşsa, 1988-ci ildə 821 min, 1991-ci ildə isə 910 min olmuşdur (bax: əlavə 7, cədvəl 2.9). Eksponatların sayı 1969-cu ildə 240 min, 1974-cü ildə 344 min, 1983-cü ildə isə 665 min olmuşdur (bax:əlavə 7, cədvəl 2.9).

Muzeylərə gələnlərin sayında da köklü fərqlər meydana çıxmışdır. Belə ki, 1969-cu ildə Respublika üzrə muzeylərə gələnlərin sayı 981 min nəfər idisə, 1983-cü ildə 3 milyon 955 min nəfər, 1987-ci ildə isə 4124 min nəfər olmuşdur. Yəni I yarımmərhələ dövründə, yəni 1969-1974-cü illər ərzində muzeyə gələnlər 6.704 min, 1975-1983-cü illər ərzində 23.007 min, 1984-1991-ci illər ərzində isə 27.536 min olmuşdur ki, bunun

əksər hissəsi 1988-ci ilə qədərki dövrə düşür (bax: cədvəl 9). Ümumiyyətlə, isə 1969-1991-ci illər ərzində muzeylərə gələnlərin ümumi sayı 57.247 min nəfər olmuşdur (bax: əlavə 7, cədvəl 2.9).

Muzeylərin profillərinə görə bu rəqəmlər fərqliliyi ilə diqqəti cəlb edir. Araşdırmalardan məlum olmuşdur ki, ən çox gəliş tarix profilli muzeylərə olmuşdur, Belə ki, 1969-cu ildən 1991-ci ilə qədər ki dövr ərzində cəmi bütün profillər üzrə muzeylərə gələn 57.247 min nəfərin 21.260 min nəfərinin həmin dövr ərzində tarix profilli muzeylərə gələnlər təşkil edir. 7.493 min nəfər memorial, 15.989 min nəfər diyarşünaslıq, 8.591 nəfər sənətşünaslıq, 2322 nəfər inqilab tarixi, 1592 nəfər isə digər profilli muzeylərə gedənlər təşkil etmişdir. Muzeylərə bütün profillər üzrə gedişlər II və III yarımmərhələlərdə, yəni 1975-1991-ci illər ərzində olmuşdur.

1991-ci ilin oktyabrından Azərbaycanda müstəqillik elan olunduqdan sonra digər sahələrdə olduğu kimi, muzey fəaliyyətində də yeni müstəqil mexanizm strategiyası işi həyata keçirilməyə başladı. 1993-cü ildə bu proses reallığa çevrilməsi və "Muzey Mərkəzi"nin açılışı, 1992-ci ildə Beynəlxalq Muzeylər Şurasının (İCOM) Azərbaycan Milli Komitəsinin təsis edilməsi (Milli Komitəyə sədr L.Kərimov adına Azərbaycan Xalçaçı və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin direktoru Röya Tağıyeva seçilmişdir), Respublika Mədəniyyət nazirliyi tərəfindən muzey işinin tənzimlənməsi məqsədilə bir sıra təlimat və əsasnamələrin hazırlanması (42, s.19-20), muzey əhəmiyyətli əşyaların satınalınması prosesinin təkmilləşdirilməsi kimi məsələlər öz həllini tapmışdır.

Azərbaycanın ümumiyyətlə inkişafı, perspektivinin planlaşdırılması, planlı inkişaf xəttini tutması, eləcə də muzey işinin dinamik, sürətli inkişafa başlaması davam etdirilməsi mexanizminin təyini muzeyşünaslıqda mövcud problemlərin tez bir zamanda aradan qaldırılması Ulu Öndərin adı ilə bağlıdır. 1993-cü ildə ikinci dəfə xalqımız tərəfindən hakimiyyətə

gətirilən Ümummilli Lider Heydər Əliyevin fəaliyyətində Azərbaycanda muzey işinin tarixi və inkişafı mühüm yer tutur. Yuxarıda qeyd edildiyi kimi, 1969-1982-1988-ci illər dövründə muzeylər şəbəkəsinin sürətlə artması, Azərbaycan muzeyşünaslığının inkişafı, 1993-cü ildən sonrakı illərdə, ikinci hakimiyyəti dövründəki muzey işinin ildırım sürətli tərəqqisi bunun bariz nümunəsidir. Hələ 1981-ci ildə Bakıda Hüseyn Cavidin ev-muzeyinin yaradılması haqqında qərarın qəbul edilməsi, 1993-cü ilin dekabrında Nazirlər Kabinetində muzey işçilərinin Respublika müşavirəsinin keçirilməsi, bu müşavirənin təklif və tövsiyələrinin həlli istiqamətində 1994-cü ildə Azərbaycan hökuməti tərəfindən "Respublikada muzey işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" qərarın qəbul edilməsi, 1994-cü ilin sentyabrın 18-də Üzeyir musiqi günündə Bakıda mayestro Niyazinin xatirə muzeyinin, Cəlil Məmmədquluzadənin ev-muzeyinin açılışlarının böyük təntənə ilə qeydi məhz Ulu Öndərin adı ilə bağlıdır.

"1995-ci ilin iyul ayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yanında xüsusi müşavirə keçirildi. Müşavirəyə Azərbaycan Respublikası Prezidenti Aparatının, Milli Məclisin, Nazirlər Kabinetinin məsul işçiləri, əlaqədar nazirliklərin yaradıcılıq təşkilatlarının rəhbərləri, elm və mədəniyyət xadimləri iştirak edirdilər. Burada qərara alındı ki, Hüseyn Cavidin ev-muzeyi məhz onun yaşadığı yerdə - M.Füzuli adına Əlyazmalar İnstitutunun binasının üçüncü mərtəbəsindəki otaqlarda yaradılsın.

Müşavirədən sonra (10 iyul 1995-ci il) Azərbaycan Respublikası Nazirlər Kabineti "Hüseyn Cavidin ev-muzeyi haqqında" Qərar qəbul etdi. Muzeyin ekspozisiyasının təşkili üçün müvafiq tədbirlər görüldü və qısa zaman ərzində bu iş başa çatdırıldı" (92, s.22).

Hazırda da Ulu Öndərin layiqli davamçısı, Möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının bütün sahələrdə olduğu kimi, muzeyşünaslığın da inkişafına xüsusi diqqət yetirməsi

bizim hər birimizi ürəkdən sevindirir.

Ulu Öndərimizin 1995 və 1997-ci illər sərəncamlar ilə Əmircan qəsəbəsində Xalq Rəssamı Səttar Bəhlulzadənin ev-muzeyinin təşkili ilə bağlı qərar qəbul edildi, 1997-ci ilin mayında isə Bakıda görkəmli musiqiçilər Leopold və Mstislav Rastropoviçlərin ev-muzeyi təşkil edildi. 1998-ci ildə Naxçıvan şəhərində Azərbaycan Xalçası Muzeyi və Cəlil Məmmədquluzadənin ev-muzeyi açıldı (92,s.22-23).

Yuxarıda qeyd etdiyimiz kimi Azərbaycanda muzeylərin inkişafının 1992-2010-cu illərini əhatə edən dördüncü mərhələdə də muzey işinin sürətli inkişafı prosesi getmişdir (bax: əlavə 8, cədvəl 2.10; əlavə 9, cədvəl 2.11; əlavə 10, cədvəl 2.12).

Əgər 1993-cü ildə Azərbaycanda muzeylərin sayı 115 ədəd olmuşdursa, təkcə bir il ərzində yəni 1994-cü ildə bu rəqəm 135-ə, 1995-ci ildə isə 145-ə çatmışdır. 2007-ci ildə isə bu say 192 olmuşdur (bax: əlavə 8, cədvəl 2.10). Profillərinə görə ən çox artan muzeylər sırasında əsasən tarix, diyarşünaslıq, memorial və sənətşünaslıq muzeyləri olmuşdur ki, bu da Ulu Öndərimizin və onun layiqli davamçısı möhtərəm İlham Əliyev cənablarının gərgin əməklərinin nəticəsidir. Muzeylərə gələnlərin sayında isə illər üzrə az fərqli olaraq artıb-azalmalar baş vermişdir (bax: əlavə 9, cədvəl 2.11).

Eksponatların ümumi miqdarı, oxunmuş muzey mühazirələrinin və muzey əməkdaşlarının sayında müvafiq olaraq artım prosesi baş vermişdir (bax: əlavə 10, cədvəl 2.12).

Lakin, çox təəssüflə qeyd olunmalıdır ki, hazırda Azərbaycan ərazilərinin 20 faizindən çoxu mənfur qonşularımız erməni işğalçılarının əsarəti altındadır. Bir milyondan artıq insan öz doğma torpaqlarından didərgin düşmüş, işğal edilmiş ərazilərimizdə 500-dək tarixi-memarlıq, 100-dən artıq arxeoloji abidə, 22 muzey, 4 rəsm qalereyası, bir çox məktəb, müəssisə, zavod, fabrik, ictimai iaşə obyektləri, idman kompleksləri, strateji obyektlər və sairə düşmən tərəfindən dağıdılmışdır.

Əsirlikdə qalan muzeylərimiz dağıdılmış, talan edilmiş, çox qiymətli eksponatlar, əşya və materiallar qarət edilmişdir. Hələ keçmiş SSRİ-də yeganə olan Ağdam Çörək Muzeyi yerlə yeksan edilmişdir. Dünyada qədim və zəngin eksponatları ilə tanınan Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyinin 13 minədək, Laçın Tarix-Diyarşünaslıq Muzeyinin 6 minədək, Ağdam Tarix-Diyarşünaslıq Muzeyinin 2 mindən artıq, Qubadlı Tarix-Diyarşünaslıq Muzeyinin 3 mindən çox eksponat fondları qarət edilmişdir.

Şuşa Şəhərinin Tarixi Muzeyi dağıdılmış 5 minədək əşya-materiallar ermənilərin qarətinə məruz qalmışdır. Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin Şuşa Filialının 1000-dən artıq, Dövlət Qarabağ Tarixi Muzeyinin 1000-dək, Üzeyir Hacıbəyovun Xatirə Muzeyinin 300-dən çox, Bülbülün Xatirə Muzeyinin 400-dək, Mir Möhsün Nəvvabın Xatirə Muzeyinin 100-dən artıq əşya və materialları düşmən tərəfindən qarət edilmişdir, muzeylərdən əsər-əlamət qalmamışdır. Eyni zamanda Şuşa, Laçın və Qubadlı rəsm qalereyaları dağıdılmış, Respublikamızın tanınmış rəssam-heykəltəraşlarının nadir əsərləri qarət edilmişdir.

Erməni işğalçıları tərəfindən toplanmış, qarət edilmiş bu qiymətli nadir zinətlər, əşyalar, materiallar, dekorativ tətbiqi sənət nümunələri, çox nadir xalça və xalça nümunələri, məişət əşyaları, rəsm və heykəltəraşlıq əsərləri, Azərbaycanın görkəmli sənətkarlarının nadir xatirə əşyaları və digər eksponatlar Ermənistana daşınaraq, oradan da xaricə aparılaraq auksionlarda satılır, yaxud müxtəlif muzeylərdə, şəxsi kolleksiyalarda, sərgilərdə erməni mədəniyyəti nümunələri kimi ictimaiyyətə təqdim edilir.

Qarət edilmiş və dağıdılmış həmin muzey və qalereyalar Bakıda, digər bölgələrdə eyni adla fəaliyyətlərini davam etdirsələr də, hələlik əşya, material toplamaq işi ilə məşğuldurlar. Respublikamızın həmin muzeylərinin tezliklə əvvəlki ünvanlarında öz fəaliyyətlərini davam etdirəcəklərinə inanırıq. Bütün

bunlara baxmayaraq ölkəmizdə muzeylər şəbəkəsi ildən-ilə artır.

2000-ci ildə "Muzeylər haqqında" Qanunun qəbul edilməsi, Azərbaycan Respublikası Prezidentinin 30 yanvar 2006-cı il tarixli Sərəncamı ilə Mədəniyyət Nazirliyinin ləğvi və onun əvəzində Mədəniyyət və Turizm Nazirliyinin yaradılması, eyni zamanda həmin Nazirlikdə "Muzey işi" sektorunun təşkili, Möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının müvafiq sərəncamlarına əsasən Bakı şəhərində İstiqlal və Müasir İncəsənət Muzeylərinin təşkili üzrə işin davam etdirilməsi, L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi üçün yeni binanın şəhərin ən görkəmli yerində inşa edilməsi, "Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 22 may 2009-cu il tarixli 292 nömrəli Sərəncamı (39) və nəhayət Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən "Muzey işinə dair məqsədli dövlət inkişaf Proqramı (2008-2011-ci illər)" hazırlanması muzey işinə çox böyük diqqət və qayğının göstərilməsi deməkdir.

Azərbaycanda muzeylərin inkişaf dinamikasının sürətliliyi bütün göstəricilərdə özünü göstərməkdədir. MDB ölkələri ilə müqayisə nəticəsində aydın olmuşdur ki, əhalinin sayı baxımından muzeylərin sayı və muzeylərə gələnlərin sayına görə Azərbaycan irəlidədir. Bunu aşağıdakı cədvəldən də görmək olar: (bax: əlavə 11, cədvəl 2.13).

Beləliklə, muzeylərin 1896-2010-cu illərdə fəaliyyəti ictimai-tarixi inkişaf mərhələlərini keçirmiş və müvafiq olaraq artım prosesini yaşamışdır. Bu proses öz növbəsində ölkədə baş verən bir sıra səbəblərlə bağlı olmuşdur. Araşdırmalar nəticəsində maddi və mənəvi mədəniyyət abidələrinin yaranması, tədricən bu abidə nümunələrinin fərdi mənbələrə. mərkəzlərə toplanması, muzeylərin yaranmasında mane olan səbəblər sıra-

sında aşağıdakılar qeyd edilməlidir:

1. Orta əsrlərə qədərki, orta əsrlər və sonrakı dövrlərdə Azərbaycan xalqı yaşayan ərazilərin ayrı-ayrı dövlətlər tərəfindən hücumlara və qarətlərə məruz qalması nəticəsində maddi və mənəvi mədəniyyət nümunələrinin, abidə yerlərinin, məskənlərin dağıdılması, viran qoyulması;

2. Təbii fəlakətlər, müharibələr, hücum və qarətlər nəticəsində bədii sənətkarlığın, kustar sənayesinin və digər sənət sahələrinin inkişafdan qalması, ləngiməsi, yaxud sənətkarların digər ölkələrə getməsi;

3. Sənətkarlıq mərkəzlərinin, məktəblərinin fəaliyyət göstərməməsi, kortəbii olaraq fərdi sənət sahələrinin ləng inkişafı, təcrübənin öyrənilməməsi;

4. Bədii sənətkarlıq nümunələrinin qarətlər, xarici ölkələrə daşınması, axını səbəbindən ölkədə toplanmaması;

5. XIX əsrin sonları və XX əsrin əvvəllərində ictimai şüurun sürətli inkişafı, sənaye mərkəzlərində, şəhərlərdə muzey quruculuğuna tələbatın öyrənilməməsi;

6. ADR dövründə rus bolşevizminin inkişafa mane olması, erməni daşnaklarının vasitəçiliyindən istifadə yolu ilə hüquqi, iqtisadi və mədəni inkişafın qəsdən ləngidilməsi;

7. 1920-30-cu illərdə milli mədəni dəyərlərə bolşevizm nöqteyi-nəzərindən təzyiqlərə məruz qalmalar və repressiyaların həyata keçirilməsi;

8. Böyük Vətən Müharibəsinin başlanması nəticəsində elm, mədəniyyət və incəsənətin "ikinci plana" keçməsi;

9. 1920-30-cu illərdə milli mədəniyyət əhəmiyyətli elmi-tədqiqatlara yol verilməməsi, sovet quruculuğu əhəmiyyətli araşdırmaların aparılması nəticəsində maddi mədəniyyət nümunələrinin toplanılması və yaxud bu prosesin ləng baş verməsi;

Araşdırma ilə bağlı aşağıdakı başlıca tələblər nəzərə alınmalıdır:

1.XX əsrin 60-cı illərinin sonlarında Azərbaycanda mədəni quruculuğun, o cümlədən muzey işinin inkişafının sürətli

xarakter alması və sonrakı illərdə tərəqqi dövrünü keçirməsi amilləri tədqiqatçı-muzeyşünaslar tərəfindən daha dərindən öyrənilməlidir;

2.Ulu Öndərin 1969-1982-ci illərdə Azərbaycan KP MK-nın Birinci Katibi olduğu müddət ərzində respublikamızda muzeyşünaslığın inkişafında ölçüyəgəlməz fəaliyyət xətti istiqamətində tədqiqatlar aparılmalıdır;

3.1982-1988-ci illər ərzində Ulu Öndərin SSRİ Nazirlər Soveti Sədrinin Birinci Müavini vəzifəsində çalışdığı dövrdə Azərbaycan elmi, mədəniyyəti, incəsənətinin inkişafındakı rolunun tədqiqinə və gələcək nəsillərə təbliğinə böyük ehtiyac vardır.

4.Ümummilli liderin 1993-2003-cü illərdə Azərbaycan Respublikasının Prezidenti vəzifəsində çalışarkən muzey quruculuğunda, muzeyşünaslığın məqsədyönlü inkişafı istiqamətindəki fəaliyyəti müzeyşünaslar tərəfindən tədqiq edilməlidir;

5.Muzey quruculuğunun hazırki tərəqqi dövründə muzeyşünaslıq sahəsində təcrübəyə malik inkişaf etmiş ölkələrlə qarşılıqlı əlaqələrin qurulması, əlbir elmi-tədqiqatların aparılması vacibdir.

6.Qədim abidə yerləri, yaşayış məskənlərində muzeylərin yaradılması və həmin yerlərə müasir nəqliyyatdan istifadə vasitəsilə ekskursiyaların təşkili vacibdir.

7. Müasir muzey texnologiyasından məqsədyönlü istifadəyə diqqət yetirilməlidir.

8. Yeni, muzeyşünaslıq əhəmiyyətli elmi-tədqiqatların nəticə və təkliflərinin təcrübi olaraq muzeylər tərəfindən həyata keçirilməsinə önəm verilməlidir.

## 2.3. Milli muzeyşünaslıq probleminin qoyuluşu və əsas inkişaf mərhələləri

Azərbaycanda muzey quruculuğu mühitinin yaranmasında, inkişafında və daha da genişlənməsində mühüm rol

oynayan müxtəlif tarixi dövrlərə aid mənbələr eyni zamanda muzeyşünaslığın nəzəri və təcrübi problemlərinin qoyuluşuna da əhəmiyyətli təsirini göstərmişdir. XIX əsrin sonu və XX əsrin əvvəlləri, ortaları bu cəhətdən xüsusilə əlamətdar olmuşdur.

Mirzə Qədim İrəvani, Bəhruz Kəngərli, C.Məmmədquluzadə, H.Zərdabi, Ə.Əzimzadə, M.Abdullayev, N.Həbibov, R.Əfəndiyev, L.Kərimov, M.Nəcəfov, İ.Cəfərzadə, M.Nemətzadə və başqaları muzey quruculuğu, müzeyşünaslığın təşəkkülü və inkişafında əsərləri, tövsiyələri, tədqiqatları vasitəsilə, eyni zamanda nəzəri-təcrübi bacarıqları ilə şərəfli addımlarını atmışlar.

Elmi-ixtisas ədəbiyyatını araşdırdıqda məlum olmuşdur ki, problemin qoyuluşu aşağıdakı mənbələrdə öz əksini tapmışdır;

- hüquqi-normativ aktlarda;
- namizədlik və doktorluq dissertasiyalarında;
- dərsliklər, dərs vasitələrində;
- monoqrafiyalar, tədris-metodik vəsaitlər, göstəricilərdə;
- kataloqlar, açıqcalarda (bukletlərdə);
- jurnal və qəzet məqalələrində;
- konfrans, simpozium materiallarında.

Azərbaycanda muzey quruculuğu, inkişafı və muzeyşünaslıqla bağlı hüquqi-normativ aktları tədqiq etdikdə məlum olmuşdur ki, 1920-ci ildən bugünə qədərki dövr ərzində problemin qoyuluşu zaman və mühit çərçivəsində mərhələli şəkildə əks olunmuşdur. 1920-ci ilin mayın 18-də Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanov tərəfindən imzalanan "Bütün muzeylər milliləşdirilsin" qərarı həmin dövr üçün Sovet Azərbaycanında muzey quruculuğu istiqamətində əsas təkanverici hadisə idi (268, s.26). Məhz həmin qərara əsasən yeni dövlət muzeyi "İstiqlal" muzeyinin bazasında yaradılmışdır (63, iş 75, vər.7). 1920-1928-ci illərdə Azərbaycanda Bakı, Naxçıvan, Gəncə, Lənkəran, Quba, Şəki və Xanlar şəhərlərində tarix-

diyarşünaslıq muzeyləri yaranaraq təkmilləşdirildi, eksponat nöqteyi-nəzərindən zənginləşdirilməyə başladı (268, s.30-45). Əlbəttə, həm təkmilləşdirmə və həm də zənginləşdirmə proseslərinin yerinə yetirilməsinə muzeyşünaslıq nöqteyi-nəzərindən yanaşılmalı idi. Yəni həmin illərdə azacıq təcrübəyə malik olan muzey işçiləri eksponat və ekspozisiyaya peşəkarcasına münasibətlərini bildirməyə çalışırdılar.

Eksponat haqqında əldə edilən məlumatın elmi cəhətdən zənginləşdirilməsi, ekspozisiyanın bədii-memarlıq həlli baxımından təkmil hala salınması kimi muzeyşünaslıq məsələləri artıq yavaş-yavaş öz həllini tapmağa başlayırdı. Doğrudur, 20-ci illərdə ətraflı elmi-metodik yanaşmalar az olsa da, artıq muzeyşünaslıq elementləri yaranırdı. 1928-ci il avqustun 20-də SSRİ İcraiyyə Komitəsinin sədri M.İ.Kalinin tərəfindən "Muzey quruculuğu"na həsr edilmiş imzalanan qərarda əsasən üç istiqamətə xüsusilə diqqət verilməsi göstərilirdi:

1. Əyalətlərdə yaranmaqda olan muzey işinin təşkilinin nöqsansız həyata keçirilməsi;

2. Azərbaycanda fəaliyyət göstərən diyarşünaslıq muzeylərinin fondlarının zənginləşdirilməsi;

3. Muzeylərdə yeni eksponatların təşkili;

Yuxarıda göstərilən üç istiqamətin hər birinin 1928-ci il muzey fəaliyyəti üçün böyük əhəmiyyəti var idi.

Birincisi, artıq əyalətlərdə muzeylərin işinin nizamlanma prosesi həyata keçirilməyə başlamışdı, lakin həmin fəaliyyətdə mövcud olan nöqsanların tamamilə ləğvi əsas məqsədə çevrilmişdi. Bu prosesdə nöqsanları yaradan səbəblərin öyrənilməsi, səbəbin yaranma amillərinin qarşısının alınması, nöqsanların mərhələ-mərhələ aradan qaldırılması məsələləri muzeyşünaslıq əhəmiyyəti daşımaqla, elmi xüsusiyyət kəsb edir. Burada muzeyşünaslığın həm elmi-nəzəri, həm də elmi-əməli elementlərinin yerinə yetirilməsi vacib prosesə çevrilir. Bundan ötrü isə elmi-metodik araşdırmaya müraciət edilirdi ki, bu da muzeyşünaslığın inkişafına şərait yaradırdı.

İkincisi, fəaliyyət göstərən muzey fondlarının zənginləşdirilməsi prosesində də muzeyşünaslığın nəzəri və təcrübi istiqamətlərinin elementlərində – fond işinin öyrənilməsi və təşkili, fonda daxil olan hər bir eksponatın təsir əhəmiyyətinin tədqiqi, eksponatların seçilməsində elmi-nəzəri biliklərdən istifadə etmək bacarığından istifadə edilirdi.

Üçüncüsü, yeni ekspozisiyaların təşkili muzeyşünaslığın elmi-nəzəri ünsürlərindən bilavasitə istifadə yolu ilə həyata keçirilir. Deməli, həmin ünsürlərin elmi-nəzəri və təcrübi mahiyyəti, məzmunu öyrənilmədən ekspozisiyanın təşkili prosesi həyata keçirilə bilməzdi. Yəni, burada da həm nəzəri, həm də tətbiqi muzeyşünaslığın elementlərindən istifadə edilmişdir.

Beləliklə, həmin dövrdə ekspozisiyalarda əsasən ölkə iqtisadiyyatı ilə əlaqədar eksponatlar nümayiş etdirilirdi, eyni zamanda ekspozisiya işləri mədəni inqilabın siyasi ab-havasına uyğun qurulurdu.

SSRİ Xalq Komissarları Soveti tərəfindən 1933-cü il avqustun 28-də imzalanan "Muxtar SSR və Muxtar vilayətlərdə muzey quruculuğu və onların vəzifələri" adlı qərarın məqsədi muzey quruculuğunu inkişaf etdirməkdən ibarət idi. Bu ümumi məqsəd daxilində fəaliyyətdə olan muzey işlərinə nəzarət etmək də ümdə vəzifə kimi qeyd edilmişdir (520, s.108). Yuxarıda göstərilən qərardakı muzey quruculuğunun məqsəd və vəzifələrinin yerinə yetirilməsi elmi-nəzəri biliklərə malik muzey işçiləri tərəfindən başa çatdırılmalı idi. Burada muzeyşünaslıq əhəmiyyətli bir neçə fəaliyyət vasitəsinin vacibliyi özünü göstərirdi:

- peşəkar muzey işçilərinin hazırlanması məqsədilə elm-təhsil müəssisələrinin yaradılması;
- muzeyşünaslıq əhəmiyyətli elmi-nəzəri ədəbiyyatın hazırlanması;
- digər ölkələrin muzey quruculuğu təcrübəsinin öyrənilməsi;
- eksponat toplanılmasında elmi-nəzəri amillərdən istifa-

də mexanizminin hazırlanması.

Beləliklə, muzey quruculuğu kortəbii şəkildə baş verə bilməzdi və yaxud qeyri-ixtisas sahibləri muzeyşünaslıq əhəmiyyətli metodların tətbiqini layiqincə həyata keçirə bilmirdilər ki, bu da son nəticədə fəaliyyətdə keyfiyyətsizliyə gətirib çıxarırdı.

Azərbaycan SSR Xalq Komissarları Sovetinin 1933-cü il 3 noyabr tarixli 1283 nömrəli "Muzey əhəmiyyətli əşyaların Azərbaycan Dövlət Muzeyinə verilməsi haqqında" Qərarında (1-ci bənddə) göstərilirdi ki, "Bütün dövlət və ictimai təşkilatlara tapşırılsın ki, onların öhdəsində olan bütün muzey əhəmiyyətli əşyaları Azərbaycan Dövlət Muzeyinə təhvil versinlər".

Qeyd: "Muzey əhəmiyyətli əşyalar"a aid edilir: əlyazmaları, Azərbaycan mütəfəkkirlərinin, şair və yazıçılarının foto-şəkilləri, qədim Şərq kitabları, qablar, silahlar, musiqi alətləri, geyimlər və s. (530, s.201).

Əlbəttə, bu Qərarda da muzey fəaliyyətinin bir sıra ünsürləri - əşyaların şeçilməsi, qəbulu, toplanması, qeydiyyatına əməl edilməsi proseslərində bəzi muzeyşünaslıq meyarlarının əhəmiyyəti özünü göstərmişdir.

Azərbaycan SSR Xalq Komissarları Sovetinin 1935-ci il 4 may tarixli 428 nömrəli "Arxeoloji abidələrin qorunması haqqında" Qərarında (530, s.229) da muzeyşünaslıq meyarlarının bəzilərinin əhəmiyyəti mühüm amil olmuşdur. Azərbaycan SSR Nazirlər Soveti tərəfindən 1946-cı ildə qəbul edilmiş "Azərbaycan SSR-də mədəni-maarif işinin genişləndirilməsi haqqında" Qərarının da respublikada muzey işinin mədəni-maarif işində əhəmiyyəti göstərilmişdir (44, s.176).

Azərbaycan SSR Nazirlər Soveti yanında Mədəni-maarif Müəssisələri Komitəsi tərəfindən 1947-ci ildə təsdiq edilmiş "Muzey fondlarının uçota alınması haqqında təlimat" (353, s.59) və "Rayon (şəhər) ölkəşünaslıq muzeyi haqqında Əsasnamə" (353.s.73) muzeyşünaslıq əhəmiyyətli ilk təşkilati-

sərəncamverici materilallar sırasındadırlar. "Rayon (şəhər) ölkəşünaslıq muzey haqqında Əsasnamə"də ölkəşünaslıq muzeyinin tərifi aşağıdakı şəkildə verilmişdir:

"Rayon (vilayət) ölkəşünaslıq muzeyi elmi-tədqiqat və mədəni-maarif müəssisəsi olub, zəhmətkeşləri kommunistcəsinə tərbiyə etmək, onları təsərrüfat-siyasi vəzifələri yerinə yetirmək işinə cəlb etmək, öz ölkəsini, Sovetlər Vətənini sevmək ruhunda tərbiyə etmək məqsədilə ölkəni hərtərəfli öyrənmək, muzey materiallarını toplamaq və nümayiş etdirmək vasitəsilə ölkə haqqında məlumatları geniş əhali kütləsi arasında yayır" (353, s.73).

Tərifdən göründüyü kimi, ölkəşünaslıq muzeyi özündə bir neçə funksiyanı cəmləşdirmişdir. Beləliklə, ölkəşünaslıq muzeyi:

1) elmi-tədqiqat müəssisəsidir;

2) mədəni-maarif müəssisəsidir;

3) zəhmətkeşləri kommunistcəsinə tərbiyə edir;

4) insanları təsərrüfat-siyasi vəzifələri yerinə yetirmək işinə cəlb edir;

5) öz ölkəsini, Sovetlər Vətənini sevmək ruhunda tərbiyə edir;

6) ölkəni hərtərəfli öyrənir;

7) muzey materiallarını toplamaq və nümayiş etdirmək vasitəsilə ölkə haqqında məlumatları geniş əhali kütləsi arasında yayır.

Mədəniyyət abidələrinin mühafizəsi barəsində SSR İttifaqı Nazirlər Sovetinin 1948-ci il 14 oktyabr tarixli 3898 nömrəli Qərarına əsasən təsdiq edilmiş "Mədəniyyət abidələrinin mühafizə edilməsi"nə dair Əsasnamədə ümumi əsaslar, arxitektura abidələrinin mühafizəsi, incəsənət abidələrinin mühafizəsi, arxeoloji abidələrin mühafizəsi, tarixi abidələrin mühafizəsi və muzey əmlakının mühafizəsi bölmələri 34 maddədə verilmişdir.

"Muzey əmlakının mühafizəsi" adlanan VI bölmədə 30-

cü maddədə dövlət muzeylərinin tərifi və qrupları verilmişdir:

"30. Dövlət muzeyləri-mədəniyyət abidələri kolleksiyalarının tapılıb saxlandığı əsas mədəniyyət ocaqlarıdır".

Dövlət muzeyləri 3 növ olur:

a) Ümumittifaq əhəmiyyətli muzeylər;

b) Respublika əhəmiyyətli muzeylər;

c) yerli əhəmiyyətli muzeylər.

31. Muzeylərin bilavasitə tabe olduqları təşkilatlar muzeylərdə toplanmış kolleksiyaların yaxşı saxlanması üçün məsuliyyət daşıyırlar.

32. Bədii, arxeoloji, tarixi və elmi kolleksiyaları, yaxud bu kolleksiyalardan ayrı-ayrı şeyləri muzeylərdən alıb aparmaq qadağan edilir; həmin kolleksiyalar və ya ayrı-ayrı şeylər yalnız bu muzeylərin tabe olduğu müvafiq mərkəzi orqanların hər ayrı-ayrı halda verdikləri xüsusi icazələrə əsasən digər idarələrə və ya təşkilatlara verilə bilər.

33. Muzeyləri, yerləşmiş olduqları binalardan başqa yerə köçürmək, habelə muzey binalarından (qismən və ya bütünlüklə) başqa məqsədlər üçün istifadə etmək qadağan edilir.

Yalnız, həmin muzeylərin tabe olduğu mərkəzi orqanların xüsusi icazəsi ilə bu qaydadan istisna ola bilər.

34. Ayrı-ayrı muzeylərin ləğv edilməsinə yalnız SSRİ Nazirlər Sovetinin və ya aidiyyatına görə müvafiq müttəfiq Respublikanın Nazirlər Sovetinin icazəsi ilə yol verilə bilər (353, s.6-13).

Göründüyü kimi Əsasnamənin VI bölməsi muzey fəaliyyətinə həsr edilmiş, muzeyşünaslıq əhəmiyyətli kifayət qədər fəaliyyət istiqamətləri öz əksini tapmışdır.

"Mədəniyyət abidələrinin mühafizə edilməsi işlərini yaxşılaşdırmaq tədbirləri haqqında" Azərbaycan SSR Nazirlər Sovetinin 2 dekabr 1948-ci il 1440 nömrəli Qərarında müvafiq hazırlıq, təşkilat, komitə və qurumlara bu istiqamətdə lazımı tədbirlərin görülməsi tapşırılmışdır (353, s.14-15).

Azərbaycan SSR Nazirlər Sovetinin 1950-ci il 27 mart

tarixli 376 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan SSR ərazisindəki arxeoloji və tarixi abidələrin uçota alınması, mühafizə edilməsi və saxlanılması qaydası haqqında Təlimat"da uçota alınma, mühafizə və saxlanılma qaydaları ayrı-ayrı bəndlərlə verilmiş, bu proseslərlə bağlı müvafiq qurumların vəzifələri göstərilmişdir (86, s.18-25). 17-ci bənddə isə tapılan bütün qədim tapıntıların Azərbaycan SSR Nazirlər Soveti yanında Mədəni-Maarif Müəssisələri Komitəsi tərəfindən müvafiq məlumatlarla birlikdə Azərbaycan SSR Elmlər Akademiyasının Tarix Muzeyinə verilməsi göstərilir (86, s.23). Təbii ki, burada göstərilən "müvafiq məlumatlar" muzeyşünaslıq araşdırmalarının elmi nəticələridir.

"Mədəniyyət abidələrinin mühafizəsi, bərpa edilməsi və öyrənilməsi haqqında" Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti İclasının 1950-ci il 22 aprel tarixli 21 nömrəli protokolundan çıxarışda 1-ci bənddə abidələrin mühafizəsi, bərpası və tədqiqinin pis vəziyyəti qeyd edilir və bu işin nizama salınması istiqamətləri göstərilir: "Çoxlu arxeoloji, tarixi və memarlıq abidəsi və 4 minə yaxın qiymətli muzey şeyləri, rəssamlıq, heykəltəraşlıq, qrafika və tətbiqi incəsənət əsərləri daima bağlı vəziyyətdədir, mədəni irsi öyrənmək, zəhmətkeş kütləsini tərbiyə etmək və ümumi bilik səviyyəsini genişləndirmək üçün həmin abidələrdən geniş istifadə olunmur" (353, s.27).

Yuxarıda göstərilən müvafiq qərarlara, əsasnamələrə, təlimatlara baxmayaraq Azərbaycanda mədəniyyət abidələrinin mühafizəsi, bərpası və öyrənilməsi işləri 50-ci illərin əvvəllərində də "ətalət" dövrünü yaşamışdır.

"Azərbaycan SSR-də Mədəniyyət abidələrinin mühafizəsi, bərpa edilməsi və öyrənilməsi haqqında" Azərbaycan SSR Nazirlər Sovetinin 1951-ci il 1 fevral tarixli 121 nömrəli qərarında 1-ci bənddə göstərilir ki, "Arxitektura İşləri İdarəsinə, İncəsənət İşləri İdarəsinə və Azərbaycan SSR Nazirlər Soveti yanında Siyasi Maarif İdarələri Komitəsinə bir vəzifə olaraq

tapşırılsın ki mədəniyyət abidələrinin mühafizə olunmasını, bərpa edilməsini və öyrənilməsini yaxşılaşdırsın və mədəniyyət abidələrinin mühafizə olunması haqqında" SSR İttifaqı Nazirlər Sovetinin 1948-ci il 14 oktyabr tarixli 3898 nömrəli Qərarı ilə təsdiq olunmuş Əsasnaməyə, arxeoloji və tarixi abidələrin uçota alınması, qeyd edilməsi və saxlanması qaydası haqqında Azərbaycan SSR Nazirlər Sovetinin 1950-ci il 27 mart tarixli 376 nömrəli Qərarı ilə təsdiq olunmuş təlimata ciddi əməl etsinlər" (43,s.535).

Qərarın 2-ci bəndində qeyd olunur:

"Azərbaycan SSR Elmlər Akademiyası Rəyasət Heyətinə icazə verilsin ki, mədəniyyət abidələrini mühafizə və bərpa etmək üçün Azərbaycan SSR Elmlər Akademiyasının, Arxitektura İşləri İdarəsinin, İncəsənət İşləri İdarəsinin, Azərbaycan SSR Nazirlər Soveti yanında Siyasi Maarif İdarələri Komitəsinin nümayəndələrindən və mədəniyyət abidələrini öyrənmək və bərpa etmək sahəsində ayrı-ayrı mütəxəssislərdən ibarət heyətdə elmi-metodiki şura yaratsın, mədəniyyət abidələrinin mühafizə olunması və öyrənilməsi işinə elmi-metodiki rəhbərliyi həyata keçirməyi, bərpa işlərinin elmi metodlarını təkmilləşdirməyi və mədəniyyət abidələrinin elmi təsnifatını müəyyən etməyi həmin şuraya həvalə etsin" (43, s.536).

Eyni zamanda "Naxçıvan Muxtar SSR Nazirlər Sovetinə, DQMV İcraiyyə Komitəsinə, mədəniyyət abidələrinin yerləşdiyi rayon və şəhər icraiyyə komitələrinə bir vəzifə olaraq tapşırılsın ki, özlərinin gözətçi limitləri hesabına mədəniyyət abidələrinin mühafizə olunmasını və bunların saxlanmasına nəzarət edilməsini təmin etsinlər" (43, s.536).

"Azərbaycan SSR-də memarlıq abidələrindən istifadə etmək üçün icarə haqqı barəsində" Azərbaycan SSR Nazirlər Sovetinin 1952-ci il 5 mart 320 nömrəli, "Azərbaycanda mədəniyyət abidələrinin qorunması, öyrənilməsi, bərpa işlərinin vəziyyəti və yaxşılaşdırılması tədbirləri haqqında" Azərbaycan KP MK və Azərbaycan SSR Ali Sovetinin imzaladığı 1957-ci

il 23 aprel qərarlarında həmin dövr üçün muzeyşünaslıq əhəmiyyətli tədbirlərə təkan verilmişdir (44).

"Bakı şəhərində Cəlil Məmmədquluzadənin memorial muzey-mənzilini təşkil etmək haqqında" Azərbaycan SSR Nazirlər Sovetinin 1960-cı il 5 mart tarixli 145 nömrəli Qərarında (1-ci bənddə) göstərilmişdir ki, "Bakı şəhərində Cəlil Məmmədquluzadənin mənzilində (Ostrovski küçəsi, ev № 56) 1960-cı ildə Cəlil Məmmədquluzadənin memorial muzey-mənzilini təşkil edərək onu Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin filialı etmək haqqında Azərbaycan Elmlər Akademiyasının təklifi qəbul edilsin" (44, s. 607).

"Təsviri və dekorativ-tətbiqi incəsənət əsərlərinin realizasiya edilməsini qaydaya salmaq tədbirləri haqqında" Azərbaycan SSR Nazirlər Sovetinin 1960-cı il 10 sentyabr tarixli 732 nömrəli Qərarında isə mədəni əhəmiyyətli və ideya-tərbiyəvi təsir gücünə malik əsərlərin muzeylər, sərgilər və mədəni-maarif ocaqlarında keyfiyyət dərəcəsinin yaxşılaşdırılmasını təmin etməyin vacibliyi qeyd edilmişdir. Qərarda göstərilmişdir:

"... İdeya-tərbiyəvi və mədəni-əhəmiyyətli olan bir sıra rəsm, heykəltəraşlıq, qrafika, dekorativ-tətbiqi incəsənət əsərləri yaranmışdır. SSRİ Nazirlər Sovetinin 1960-cı il 22 iyun tarixli 649 nömrəli qərarına uyğun olaraq təsviri və dekorativ-tətbiqi incəsənət əsərlərinin realizasiya edilməsini qaydaya salmaq məqsədilə qərara alır:

1.Azərbaycan SSR Mədəniyyət Nazirliyi və Azərbaycan SSR Rəssamlar Ittifaqının İdarə Heyəti təsviri incəsənət əsərlərinin satınalınmasının, habelə bunların yaradılması üçün sifarişlərin təşkilində elə bir qayda qoysunlar ki, muzeylərin, sərgilərin və mədəni-maarif ocaqlarının yüksək ideya-bədii keyfiyyətli əsərlərlə tamamlanmasını təmin etsinlər (44).

Bu Qərardan göründüyü kimi, artıq muzey fəaliyyətinin keyfiyyəti ön plana çəkilmişdir ki, bu da muzeyşünaslığın elmi-nəzəri və təcrübi inkişafının artması deməkdir.

"YUNESKO-nun 1960-cı il 14 dekabr tarixli "Muzeylərin kütləviliyini təmin etmək üçün daha təsirli tədbirlərə aid tövsiyə"sində muzeyin tərifi, muzeylərin cəmiyyətdə yeri və rolu, o cümlədən muzey-məktəb əlaqələrinin təkmilləşdirilməsi istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsinin vacibliyindən bəhs edilmişdir.

"Muzeylərin kütləviliyini təmin etmək üçün daha təsirli tədbirlərə aid tövsiyə"də göstərilmişdir:

"Muzey" dedikdə bədii dəyərə malik ünsürlərin məcmusunu, incəsənət, tarix, elm və texnika əşyaları kolleksiyalarını, botanika və zoologiya bağlarını, akvariumları - mühafizə etmək, öyrənmək və müxtəlif üsullarla, hər şeydən əvvəl, tamaşaçıların zövq alması və maariflənməsi üçün sərgiyə qoymaqla nümayiş etdirmək üçün ümumi mənafeyə xidmət edən hər hansı daimi idarə başa düşülür" (476, s.310).

Bu "Tövsiyə"nin "Muzeylərin cəmiyyətdə yeri və rolu" bölməsinin 15 və 16-cı bəndlərində göstərilir:

"15. Muzeylərdə saxlanan əşyalardan xalq və məktəb təhsili üçün istifadə etmək məqsədilə maksimal ehtiyat tədbirlərini təmin etməklə, muzeylərdə radio və televiziya xidmətləri və ya şirkətləri arasında əməkdaşlıq yaratmaq və inkişaf etdirmək lazımdır.

16. Muzeylərin məktəb təhsilinə və məktəbdən sonrakı təhsilə göstərə biləcəyi yardımı etiraf və təşviq etmək lazımdır. Bu yardım, həmçinin yerli maarif rəhbərləri ilə kolleksiyaların xarakterinə görə məktəblilərin xüsusilə tez-tez olduqları muzeylər arasında rəsmi və daimi əlaqə yaradılmasına məsul olan müvafiq orqanlar yaratmaqla qanuniləşdirilməlidir. Göstərilən əlaqənin aşağıdakı formaları ola bilər:

a) hər bir muzeydə mühafizin rəhbərliyi ilə muzeyin kolleksiyalarından tədris məqsədləri üçün istifadə olunmasını həyata keçirən mütəxəssis-müəllim vəzifələrinin yaradılması;

b) muzeylərdə müəllimlərlə əməkdaşlıq edən maarif və ya tədris hissəsi yaradılması;

c) muzeylərdən tədris məqsədləri üçün daha yaxşı istifadə edilməsi xeyrinə muzey əməkdaşlarını və müəllimləri birləşdirən yerli, regional və ya əyalət miqyasında orqanların yaradılması;

d) təhsilin ehtiyatları ilə muzeylərin imkanları arasında əlaqələndirmənin təmin edilməsinə yönəldilmiş hər hansı digər tədbirlərin görülməsi" (476, s.313).

Sov.İKP MK tərəfindən 1964-ci il mayın 12-də qəbul edilmiş "Zəhmətkeşlərin kommunist tərbiyəsində muzeylərin rolunun yüksəldilməsi haqqında" Qərarında insanların formalaşmasında, maddi və mənəvi mədəniyyət abidələrinin, xalqımızın inqilabi və əmək ənənələrinin təbliğində muzeylərin fəaliyyətinin daha da yaxşılaşdırılması ilə bağlı tədbirlərin görülməsi vacib sayılmışdır.

Bu qərar ancaq bir istiqamət baxımından – muzeylərdə kommunist tərbiyəsinin təbliği nöqteyi-nəzərindən əhəmiyyətli idi. Həmin dövr üçün kommunist ideoloji mexanizminin təşkili aktual idi və vacib siyasi xəttə təkan verirdi. Bunu muzeyşünaslıqda "müvəqqəti sinfi ideoloji xətt" adlandırmaq daha məqsədyönlüdür. Təbii ki, geniş zənginləşdirici, tərbiyələndirici, imkanlara malik muzeylərin fəaliyyətini ancaq vahid ideoloji xətlə məhdudlaşdırmaq qəbul edilməzdir.

Qərarda eyni zamanda "SSRİ Mədəniyyət Nazirliyi və SSRİ Elmlər Akademiyasının Rəyasət Heyətinə təklif edilmişdir ki, birlikdə "SSRİ-nin muzey fondu haqqında Əsasnamə"ni, muzeylərin vahid fəaliyyət sisteminin yaradılmasını, Xalq Təsərrüfatı Şurası və SSRİ Xalq Təsərrüfatı nailiyyətləri sərgisi tərəfindən maketlər, modellər və sənaye məhsulları nümunələrinin, həmçinin arxeoloji qazıntılar zamanı tapılmış əşyaların muzeylərə təmənnasız verilməsini nəzərdə tutan prinsiplər hazırlansın".

SSRİ Nazirlər Sovetinin "SSRİ-nin Muzey Fondu haqqında" 1965-ci il 2 iyun tarixli Qərarında SSRİ-nin muzey fondu haqqında Əsasnamənin təsdiqi qaydası, müxtəlif məmu-

latların muzeyə təmənnasız verilməsi, əşya seçiminin düzgün aparılmasının təmin edilməsi, abidələrin qeydiyyatı və elmi kataloqların hazırlanması, mühafizə şəraiti və digər məsələlər göstərilmişdir.

Qərarda muzey, panoram, sərgi və muzey tipli digər müəssisələrin rəhbər işçi və mütəxəssislərinin əmək haqqlarının ödənilməsi qrupuna daxil edilməsi qaydaları da öz əksini tapmışdır.

Qərarda bütün yuxarıda göstərilən məsələlərin yerinə yetirilməsi təbii ki, 60-cı illərdə muzey quruculuğu və muzeyşünaslığın inkişafı baxımından əhəmiyyətli idi. Baxmayaraq ki, kommunist ideyalılığının tərbiyə edilməsi digər qərarlarda olduğu kimi, ümdə məsələ idi, lakin bütövlükdə muzey fondlarının sistem halına salınmasında da bu qərar mühüm əhəmiyyət kəsb edirdi.

Muzeyşünaslıq əhəmiyyətli qərarlar sırasında 1967-ci il aprelin 18-də Respublika Mədəniyyət Nazirliyi tərəfindən qəbul edilən "Maddi mədəniyyət nümunələrinin və abidələrinin qorunması" haqqında Qərarı sayəsində 1968-ci ildə muzeylər şəbəkəsi artdı (57, iş 115, v.26). "Həmin dövrdə Sabirabad, Əli Bayramlı, Göyçay rayonlarında ictimai əsaslarla işləyən zona diyarşünaslıq muzeylərinin yaradılmasında, onların kadrlarla təmin olunmasında Azərbaycan Respublikası Elmlər Akademiyasının xüsusi rolu olmuşdur" (268, s.107). Qərarda həmçinin muzey işçilərinin həm nəzəri, həm təcrübi bilik və bacarıqlarının inkişafı, onların peşəkarlıq keyfiyyətlərinin artırılması məsələsi də, ciddi qoyulmuşdu (268, s.108). Beləliklə, muzey işçilərinin elmi-nəzəri və təcrübi bacarıqlarının artırılması artıq həlli vacib məsələyə çevrilmişdi.

Azərbaycan SSR Nazirlər Sovetinin ölkədə muzey işini təkmilləşdirmək məqsədilə 1970-ci il yanvarın 30-da qəbul etdiyi "Respublikada muzey işinin inkişafı haqqında" Qərarında mövcud nöqsanların aradan qaldırılması və ictimai əsaslarla fəaliyyət göstərən muzeylərin işinin yaxşılaşdırılması

istiqamətində bir sıra vəzifələrin yerinə yetirilməsi tövsiyə olunmuşdur (517, s.81-91):

- ictimai əsaslarla işləyən muzeylərin maddi-texniki bazalarının yaxşılaşdırılması;
- muzeylərdə toplanan əşya və materialların sistemləşdirilməsi;
- eksponatların estetik cəhətdən yerləşdirilməsi;
- eksponatların texniki cəhətdən təmin edilməsi;
- eksponat nümayişinin keyfiyyətinin artırılması;
- mühafizəçilərin fəaliyyətini yaxşılaşdırmaq tədbirlərinin həyata keçirilməsi.

Beləliklə, inkişaf həm də muzeyşünaslıq da daxil olmaqla, muzeydaxili fəaliyyətin müəyyən hissəsini əhatə etmişdir.

"Qərara uyğun olaraq Mədəniyyət Nazirliyi 1970-ci ildə "Şamaxı Mədəniyyət Muzeyinin Şamaxı Diyarşünaslıq Muzeyinə, Şuşa Mədəniyyət Muzeyinin Şuşa Tarix Muzeyinə, Lənkəran, Ağdam, Şəki kənd təsərrüfatı muzeylərinin rayonlarda olan diyarşünaslıq muzeylərinə birləşdirilməsi haqqında" göstəriş vermişdir.

Həmin Qərara əsasən Quba, Lənkəran, Şəki, Ağdam rayon-şəhər sovetlərinə rayonlarda muzey işinin yaxşılaşdırılması üçün muzey işi kadrlarının hazırlanmasını yaxşılaşdırmaq tədbirlərinin görülməsi tapşırılmışdır" (268, s.110).

Respublikada muzeylərin elmi-tədqiqat mərkəzi kimi digər muzeylərə elmi-metodoloji köməkliyin göstərilməsi məsələsi baxımından Azərbaycan SSR Ali Sovetinin "Respublika ərazisində mədəni abidələrin vəziyyəti və onları qorumaq tədbirləri haqqında" Qərarı mühüm əhəmiyyətə malikdir. Qərarda bərpa və maddi-texniki-istehsalat bazasının möhkəmləndirilməsi, ixtisaslı muzey kadrlarının hazırlanması tədbirlərinin görülməsi birmənalı olaraq qeyd edilmişdir. Göstərilirdi ki, "Respublika Nazirlər Sovetinə diyarşünaslıq muzeyləri şəbəkəsini genişləndirmək haqqında təklif verilsin, mədəniyyət abidələrinin qorunması və təbliği işində bu muzeylərdən geniş

istifadə edilsin" (131, 1973, 11 iyul).

Tədqiqatçı alim B.Kərimov bu Qərarın əhəmiyyətindən bəhs edərək bir sıra muzeyşünaslıq elementlərini göstərmişdir:

"Bu Qərarın Respublika rayonlarında olan muzey şəbəkəsinin genişlənməsində və inkişafında müstəsna əhəmiyyəti olmuşdur. Həmin dövrdə tarix-diyarşünaslıq işinin təşkilində Azərbaycan Tarixi Muzeyinin önəmli fəaliyyəti danılmazdır. Bu mühüm mədəniyyət ocağı respublikada ictimai elmlər sahəsində ilk elmi-tədqiqat müəssisəsi olmaqla yanaşı, həm də muzey işinin hərtərəfli perspektivli inkişafı üçün də baza idi. Məhz onun elmi-metodoloji köməkliyi sahəsində diyarşünaslıq muzey şəbəkəsi genişlənmiş və yeni-yeni kadrların cəlb edilməsilə muzeylər təşkil edilmişdir" (268, s. 113).

70-ci illərin əvvəllərindən bütün sahələrdə olduğu kimi, elm, mədəniyyət və incəsənətimizin, ədəbiyyatımızın da inkişafında yaranan, dönüş baş verən tərəqqi də özünü göstərirdi. SSRİ Mədəniyyət Nazirliyinin 1977-ci il oktyabrın 29-da qəbul etdiyi "Tarix və Mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında"kı Qanuna, SSRİ Elmlər Akademiyası Tarix Şöbəsinin ümumi iclasının "Tarix profilli muzeylərlə əməkdaşlıq haqqında" 1978-ci il 29 noyabr tarixli Qərarına uyğun olaraq həyata keçirilən işlər, "Respublika zəhmətkeşlərinin mənəvi tərbiyəsini təkmilləşdirmək tədbirləri barəsində" Azərbaycan KP MK-nın 1979-cu il iyul plenumunun Qərarının, Azərbaycan KP MK-nın 1980-ci il yanvarın 4-də qəbul etdiyi "Zəhmətkeşlərin kommunist tərbiyəsində respublika muzeylərinin işi haqqında" Qərarının əzmlə yerinə yetirilməsi bunun bariz nümunəsidir.

Elmi-tədqiqat müəssisələrilə muzeylərin əməkdaşlığının möhkəmləndirilməsindən ötrü SSRİ EA Tarix Şöbəsi 16 bənddən ibarət qərar qəbul etmişdi. Qərarın bəndlərində muzeylərin elmi-tədqiqat fəaliyyətlərinin hərtərəfli genişləndirilməsi, eksponat seçimində alim-tədqiqatçıların iştirakının vacibliyi, fondların tam komplektləşdirilməsində elmi əsaslandırılmış

seçmə meyarının işlənilməsi muzeylərin hazırladığı ekspozisiya- muzey materiallarının elmi təsvir kataloqları, publikasiya və digər elmi əsərlərə geniş yer verilməsi, muzey ekspozisiyalarının elmi konsepsiyası və mövzu-ekspozisiya planlarının hazırlanması, elmi-akademik müəssisələrlə tarix profilli muzeylər arasında elmi əməkdaşlığın yaranması və muzeyşünas kadrların hazırlanmasına mühüm əhəmiyyət verilirdi.

Həmin illərdə ölkəmizə başçılıq edən Ulu Öndərimiz Heydər Əliyevin gərgin əməyi sayəsində muzeylər şəbəkəsi artırılır, muzey fəaliyyətində sistem yaranır, muzeyşünaslığın da müvafiq olaraq sürətli inkişafına nəzarət edilirdi. Azərbaycan KP MK-nın 1979-cu il iyul Plenumunun Qərarında göstərilirdi: "Hər bir şəhər və rayonda tarix-diyarşünaslıq muzeylərinin yaradılması lazım bilinsin" (477, s.19-22). Elə bu Qərara əsasən Respublika Nazirlər Sovetinin 1979-cu il 25 may tarixli Sərəncamı ilə ölkədə mövcud olan bütün diyarşünaslıq muzeylərinin profili dəyişdirilərək tarix-diyarşünaslıq muzeyləri kimi təsdiqləndi. Bu da həm muzeylərin tarix əhəmiyyətli eksponatlarla zənginləşməsinə, həm də muzey kadrlarının peşəkarlıq dərəcələrinin daha da keyfiyyət baxımından canlanmasına səbəb oldu.

Azərbaycan KP MK tərəfindən 1980-ci il yanvarın 4-də verilmiş "Zəhmətkeşlərin kommunist tərbiyəsində respublika muzeylərinin işi haqqında" Qərarla respublikamızın muzey quruculuğunda keyfiyyətcə yeni, sürətli inkişaf mərhələsinə başlanıldı.

"Bu qərara uyğun olaraq muzeylərə rəhbərlik işini təkmilləşdirmək, metodiki və praktiki köməyin səmərəsini artırmaq, ekspozisiyanın estetik səviyyəsini yüksəltmək və muzey sərvətlərinin uzun ömürlüyünü təmin etmək məqsədilə Respublika Mədəniyyət Nazirliyi Muzeylər İdarəsi, habelə Muzey İşi üzrə Respublika Elmi-Metodiki Mərkəzi, muzeylərin bədii tərtibatı üzrə muzey sərvətləri və xatirə əşyalarının elmi bərpa mərkəzi yaradıldı" (91, s. 5). "Bu tədbirlərin sayəsində muzey

quruculuğunun inkişafına, müasir tipli muzey kadrları nəslinin yetişməsinə şərait və yeni muzey mühiti yarandı". Bununla əlaqədar Mədəniyyət Nazirliyi Kollegiyası "Mədəniyyət işçilərinin tədbirlər planını" hazırlayıb təsdiqləmişdir". Kollegiya tarix-diyarşünaslıq muzeylərində zəhmətkeşlərin ideya-siyasi tərbiyəsində mühüm rol oynayan ekspozisiyaların müasir tələblərə uyğun yenidən təşkili haqqında qərar qəbul etmişdir" (268, s.115). Kollegiya həmçinin "Azərbaycan SSR Dövlət Nəşriyyat Komitəsinə, Mədəniyyət Nazirliyinə, Azərbaycan Elmlər Akademiyasına 1980-1982-ci illər ərzində Azərbaycan və rus dillərində muzey işinə aid xüsusi ədəbiyyatın nəşr edilməsi, qəzetlərdə, jurnallarda, radio və televiziyalarda muzey işinin aktual məsələlərini işıqlandırmaq, istehsalat, sənaye və təchizat müəssisəsi, təsviri incəsənət və muzeylər idarəsinin sifarişinə əsasən keyfiyyətli ekspozisiya avadanlığı hazırlayıb tarix-diyarşünaslıq muzeylərini təchiz etmək haqqında tapşırıqlar vermişdir" (350, v. 66).

Artıq 1970-ci ildən başlayaraq Respublikamızda müxtəlif profilli muzeylərin yaradılması, həmin muzeylərin tərəqqiyə başlaması, ekspozisiya imkanlarının zənginləşdirilməsi Ulu Öndərin bilavasitə şəxsi təşəbbüsü ilə bağlı olmuşdur. 1980-ci ildə məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanda muzey işinə aid xüsusi Qərar qəbul edilmişdir. O, 1981-ci ildə Azərbaycan KP MK XXX qurultayındakı məruzəsində bütün rayonlarda tarix-diyarşünaslıq muzeylərinin yaradılmasını bir vəzifə kimi qarşıya qoymuşdu. Heydər Əliyev demişdir: "İki ildən az müddət ərzində 17 tarix-diyarşünaslıq muzeyi açılmışdır. Mədəniyyət Nazirliyi və onun yerli orqanları bütün rayonlarda diyarşünaslıq muzeylərinin fəaliyyəti üçün lazımı tədbirlər görməlidirlər. Biz xalqımızın tarixi və mədəniyyət abidələrinin mühafizəsinə daha çox diqqət və qayğı göstərməli, bərpa işlərini təkmilləşdirməliyik" (132, 1981, 1 avqust). Belə qərar və göstərişlər muzey şəbəkəsinin, həmçinin muzeyşünaslığın nəzəri və təcrübi tərəflərinin inki-

şafı işinə geniş imkanlar yaratmış, Azərbaycan xalqına məxsus milli dəyərləri daş dövründən bu günə qədərki əşya, materilların toplanması, qorunması, öyrənilməsi və gənc nəslin hərtərəfli formalaşmasında, mənən zənginləşməsində istifadə edilməsi üçün böyük əhəmiyyət kəsb etmişdir.

Ulu Öndər Heydər Əliyev 1982-ci ilin iyulunda muzey işçilərinin respublika müşavirəsində bu barədə belə demişdir: "Muzeylər mühüm mədəniyyət ocaqlarına, zəhmətkeşlərin, xüsusilə cavan nəslin ideya-siyasi və mədəni tərbiyəsinin mərkəzinə çevrilmişdir. Muzeylər söz yox ki, hər bir vətəndaşın öz diyarının, rayonunun, kəndinin tarixinə bələd olması üçün də vacibdir. Bir sözlə tarix-diyarşünaslıq muzeylərinin təşkil edilməsi zəruriliyi göz qabağındadır" (91, s. 37).

Həmin dövrdə Ulu Öndərimiz Heydər Əliyev Azərbaycanın hər bir vətəndaşına öz tarix və mədəniyyətini dərindən bilməsini vacib saymış, bununla da muzeylərin rolunu yüksək qiymətləndirmişdir. O, mütəmadi olaraq yenicə yaradılmış muzeylərlə maraqlanır, imkan olduqca onların ekspozisiyası ilə tanış olur, öz münasibətini bildirir, lazımı məsləhətlərini verirdi. O, 1981-ci ildə Cəlilabad və Xaçmaz tarix-diyarşünaslıq muzeylərinin açılışında iştirak etmiş və muzeylərə özünün dəyərli məsləhətlərini vermişdir (91, s. 40-41).

80-ci illərin əvvəllərində də Azərbaycanda müxtəlif profilli muzeylər şəbəkəsinin genişləndirilməsi, muzey fəaliyyəti, muzey işinin sistemləşdirilməsi, muzey işçilərinə fəxri adların verilməsinə Ulu Öndər tərəfindən ciddi diqqət yetirilmişdir və 1982-ci ildə Azərbaycanda ilk dəfə olaraq bir qrup muzey işçilərinə "Əməkdar Mədəniyyət İşçisi" fəxri adı verilmişdir (268, s. 120).

Sov.İKP MK tərəfindən 1983-cü il dekabrın 7-də qəbul edilmiş "Muzeylərdə ideya-tərbiyə işlərinin yaxşılaşdırılması haqqında" Qərarında muzey kadrlarının ixtisaslaşdırılması, ixtisaslı kadr seçiminə yerlərdə ciddi əməl edilməsi və ekspozisiyaların mövzu və bədii-tərtibat rəngarəngliyinin dövrün

tələblərinə uyğun seçilməsi, həyata keçirilməsi müvafiq nazirlik, komitə və təşkilatlara vəzifə kimi tapşırılmışdı. Bu qərardan irəli gələn vəzifələrin yerinə yetirilməsi prosesində fondların komplektləşdirilməsi, sərgi işinin təkmilləşdirilməsi, ekspozisiyaların bədii-memarlıq həllinin yüksək səviyyədə təşkili, elmi-maarif işinin sistemləşdirilməsi və xüsusən də kadr potensialının köklü şəkildə peşəkarlaşdırılması məsələlərinə muzey direktorları ciddi diqqət yetirirdilər.

SSRİ Mədəniyyət Nazirliyi tərəfindən 1984-cü il iyulun 10-da təsdiq edilmiş "SSRİ Mədəniyyət Nazirliyinin muzeylərində və kitabxanalarının fondlarında daimi mühafizə edilən Dövlət Arxiv Fondunun sənədlərindən istifadənin nümunəvi qaydaları"nda ümumi məsələlər, tədqiqatçıların sənədlərlə işləməsinin sənədləşdirilməsi, tədqiqatçılara sənəd verilməsi, sənədlərdən istifadə qaydaları ardıcıllıqla verilmişdir ki, bu da muzeylərin tədqiqatçılıqda əhəmiyyəti baxımından mühüm əhəmiyyət kəsb edirdi.

Azərbaycan SSR Mədəniyyət Nazirliyi Kollegiyası tərəfindən 1984-cü il iyunun 11-də qəbul edilmiş 60 nömrəli "Sov.İKP MK-nın "Muzeylərin ideya-tərbiyə işlərinin yaxşılaşdırılması haqqında" Qərarı ilə əlaqədar tarix və tarix-diyarşünaslıq muzeylərinin Sovet Cəmiyyətinin tarixi ekspozisiyalarının vəziyyəti və onların daha da təkmilləşdirilməsi tədbirləri barədə", 1985-ci il fevralın 6-da qəbul edilmiş 10 nömrəli "Muzey işçilərinin respubika seminar-müşavirəsinin keçirilməsi yekunları haqqında", 1985-ci il mayın 31-də qəbul edilmiş 44 nömrəli "Azərbaycan SSR Xalq Nəzarəti Komitəsinin "Respublika muzeylərində eskponatların alınması, uçotu, mühafizəsi və onlardan istifadə edilməsi vəziyyətinin yoxlanılması yekunları haqqında" qərarın (28 oktyabr 1983-cü il) yerinə yetirilməsi ilə əlaqədar", 1986-cı il noyabrın 26-da qəbul edilmiş 62 nömrəli "Sov.İKP XXVII qurultaylarının qərarları ilə əlaqədar respublika muzeylərinin ideya-tərbiyə və elmi-kütləvi işinin səmərəsinin yüksəldilməsi haqqında" Qərar

Azərbaycanda 1983-1986-cı illərdə muzeyşünaslığın inkişafı baxımından əhəmiyyətli tədbirlərin görülməsinin vacibliyini göstərmiş və eyni zamanda yerinə-yetirilmə göstəriciləri, keyfiyyəti ilə bağlı hesabat, məlumat, tövsiyə, təkliflər barədə nəticələr öz əksini tapmışdır.

Azərbaycanda 1988-1991-ci illərdə SSRİ-nin süqutu dövründə başımıza gətirilən faciələr, mənfur erməni faşistlərinin törətdikləri işğalçılıq müharibələri nəticəsində torpaqlarımızın 20 faizindən çoxunun viran qoyularaq işğalı və bir milyondan artıq Azərbaycanlının doğma yurd-yuvalarından qovulması, əsir alınması, işgəncələr, şəhər, qəsəbə, kəndlərin tamamilə dağıdılması nəticəsində tarixi mədəniyyət abidələrinin, mərkəzlərinin, muzeylərin, kitabxana və digər mədəniyyət, elm, təhsil ocaqlarının, qoruqların və sairənin viran qoyulması, həm də muzey quruculuğu, muzeyşünaslığın inkişafına çox böyük zərbə vurdu.

Azərbaycan Respublikasında 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyi əldə edildikdən sonra muzey işi sahəsində də müvafiq dəyişikliklərin həyata keçirilməsi, muzey şəbəkələrinin yeni tələblərə uyğunlaşdırılması, ekspozisiya mövzusu, quruluşu, elmi-bədii-memarlıq məzmununun yeni elmi-metodiki prinsiplər əsasında sistemləşdirilməsi zərurəti yarandı. Buna görə də müstəqil ölkəmizdə bu sahədə yeni qanunlar, əsasnamələr, təlimatlar, tövsiyələr və digər normativ-hüquqi sənədlərin hazırlanması, tətbiqi mexanizmlərinin işlənilməsinə başlanıldı. 1992-ci ildə Beynəlxalq Muzeylər Şurasının (İCOM) Azərbaycan Milli Komitəsinin təsis edilməsi, 1993-cü ildə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən "Tarix-Diyarşünaslıq Muzeyləri haqqında Əsasnamə"nin təsdiqi, Nazirlər Kabineti tərəfindən 1994-cü ildə qəbul etdiyi "Respublikada muzey işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" qərarı, 1995-ci ildə Ümumxalq Referendumu yolu ilə Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi, 1998-ci ildə "Mədəniyyət haqqında" Azərbaycan

Respublikası Qanununun qəbul edilməsi, həmin Qanunun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 16 aprel 1998-ci il tarixli Fərmanı, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının 10 aprel 1998-ci il tarixli Qanunu, həmin Qanunun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 13 iyun 1998-ci il tarixli Fərmanı, "Muzeylər haqqında" Azərbaycan Respublikasının 24 mart 2000-ci il tarixli Qanunu və digər Fərman, Qanun və sərəncamlar muzey fəaliyyətinin sistemləşdirilməsi işinə xidmət məqsədilə həyata keçirilirdi.

Ümumiyyətlə, araşdırdığımız problem baxımından normativ hüquqi aktlar dörd istiqamətlidir:

I. Beynəlxalq hüquqi aktlar;
II. MDB-nin normativ hüquqi aktları;
III. Azərbaycan Respublikasının normativ hüquqi aktları;
IV. Azərbaycan Respublikasının nazirlikləri və digər təşkilatları üzrə normativ hüquqi aktlar (96):

I.Beynəlxalq hüquqi aktlar:

1.1. Təhsil, elm və mədəniyyət məsələləri üzrə Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi. Londonda 16 noyabr 1945-ci il tarixində qəbul edilmişdir.

1.2. Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında Konvensiya. Haaqa, 14 may 1954-cü il (Azərbaycan Respublikası tərəfindən 21 aprel 1993-cü il tarixində qəbul edilmişdir).

1.3. Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin müdafiəsi haqqında Konvensiyanın İcra Reqlamenti. Haaqa, 14 may 1954-cü il.

1.4. Arxeoloji irsin mühafizəsi haqqında (yenidən nəzərdən keçirilmişdir) Avropa konvensiyası. 16 yanvar 1992-ci il (Azərbaycan Respublikasının 20 oktyabr 1999-cu il tarixli Qanunu ilə qüvvəyə minmişdir).

1.5. Mədəni dəyərlərin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz

olaraq başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında Konvensiya. Paris, 14 noyabr 1970-ci il (30 sentyabr 1997-ci il tarixində Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmişdir).

1.6. Oğurlanmış, yaxud qanunsuz, çıxarılmış mədəni dəyərlər haqqında Beynəlxalq Xüsusi Hüquqi Unifikasiya İnstitutunun (YUNİDRUA) Konvensiyası. Roma, iyun, 1995-ci il (Azərbaycan Respublikası Milli Məclisi tərəfindən 2 mart 2000-ci il tarixində qəbul edilmişdir).

1.7. Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında YUNESKO-nun Konvensiyası. Paris, 16 noyabr 1972-ci il (Azərbaycan Respublikası Milli Məclisi tərəfindən 16 dekabr 1993-cü il tarixində qəbul edilmişdir).

1.8. Silahlı münaqişələr olduğu təqdirdə mədəni dəyərlərin mühafizəsi haqqında 1954-cü il Haaqa Konvensiyası üzrə II protokol. Haaqa, 26 mart 1999-cu il (Azərbaycan Respublikası Milli Məclisi tərəfindən 12 dekabr 2000-ci il tarixində qəbul edilmişdir).

1.9. Muzey işinin Peşə Etikası Kodeksi. Beynəlxalq Muzeylər Şurası (İCOM). Buenos-Ayros, 4 noyabr 1986-cı il.

1.10. Beynəlxalq Muzeylər Şurası (İCOM) Azərbaycan Milli Komitəsinin Nizamnaməsi (12 avqust 1992-ci il tarixli Plenumunun qərarı ilə təsdiq edilmişdir).

1.11. Oğurlanmış mədəni dəyərlərə dair informasiya verilməsi. İNTERPOL-un baş Assambleyasının 4-10 oktyabr 1995-ci il tarixli, RES/964 nömrəli sessiyasının AGN/64/R saylı Qətnaməsi.

1.12. Mədəni dəyərlərin oğurlanması. İNTERPOL Baş Assambleyasının 4-10 oktyabr 1995-ci il tarixli RES/16 64-cü sessiyasının AGN/64/R nömrəli Qətnaməsi.

II. MDB-nin normativ hüquqi aktları:

2.1. Mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş. Daşkənd, 15 may 1992-ci il.

2.2. Qanunsuz aparılan və gətirilən mədəni dəyərlərin tutu-

lub saxlanması və qaytarılması məsələləri üzrə gömrük xidmətlərinin əməkdaşlığı haqqında Saziş. Moskva, 15 aprel 1994-cü il.

2.3. Müstəqil Dövlətlər Birliyi iştirakçısı-dövlətlərinin mədəni əməkdaşlıq Şurasının yaradılması haqqında Saziş. Minsk, 26 may 1995-ci il.

2.4. Müstəqil Dövlətlər Birliyi iştirakçı-dövlətlərinin mədəni əməkdaşlıq Şurası haqqında.

III. Azərbaycan Respublikasının normativ hüquqi aktları:

3.1. Azərbaycan Respublikası Konstitusiyası (1995-ci ildə ümumxalq referendumu yolu ilə qəbul edilmişdir).

3.2. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 6 fevral 1998-ci il tarixli Qanunu.

3.3. "Mədəniyyət haqqında" Azərbaycan Respublikası qanununun tətbiq edilməsi barədə (Azərbaycan Respublikası Prezidentinin 16 aprel 1998-ci il tarixli Fərmanı).

3.4. Tarix və mədəniyyət abidələrinin qorunması haqqında. Azərbaycan Respublikasının 10 aprel 1998-ci il tarixli Qanunu.

3.5. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə (Azərbaycan Respublikası Prezidentinin 13 iyun 1998-ci il tarixli Fərmanı).

3.6. "Muzeylər haqqında" Azərbaycan Respublikası Prezidentinin 24 mart 2000-ci il tarixli Qanunu.

3.7. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının 29 dekabr 1998-ci il tarixli Qanunu.

3.8. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə (Azərbaycan Respublikası Prezidentinin 12 mart 1999-cu il tarixli Fərmanı).

3.9. Memarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikası Prezidentinin 15 may 1998-ci il tarixli Qanunu.

3.10. "Memarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikası qanununun tətbiq edilməsi barədə (Azərбaycan Respublikası Prezidentinin 13 iyun 1998-ci il tarixli Fərmanı).

3.11. "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Prezidentinin 22 iyun 1999-cu il tarixli Qanunu.

3.12. "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə (Azərbaycan Respublikası Prezidentinin 27 iyul 1999-cu il tarixli Fərmanı).

3.13. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi. 25 iyul 1997-ci il.

3.14. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. 30 dekabr 1999-cu il (1 sentyabr 2000-ci il tarixindən qüvvəyə minmişdir).

3.15. Dini etiqad azadlığı haqqında Azərbaycan Respublikası Prezidentinin 20 avqust 1992-ci il tarixli Qanunu.

3.16. "Hərbi münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında Konvensiya"nın müddəalarının yerinə yetirilməsi üzrə komissiyanın yaradılması haqqında (Azərbaycan Respublikası Prezidentinin 13 noyabr 2000-ci il tarixli Sərəncamı).

3.17. "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydaları"nda dəyişiklik edilməsi barədə (Azərbaycan Respublikası Prezidentinin 30 mart 1998-ci il tarixli Fərmanı).

3.18. Fiziki şəxslər tərəfindən istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların Azərbaycan Respublikasının gömrük sərhədlərindən keçirilməsi Qaydalarının təsdiq edilməsi barədə (Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 105 nömrəli 31 may 2001-ci il tarixli Qərarı).

3.19. Fiziki şəxslər tərəfindən istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi qaydaları (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 105 nömrəli, 31 may 2000-ci il tarixli Qərarı).

3.20. Milli arxiv fondunun komplektləşdirilməsi, mühafizəsi və ondan istifadə Qaydaları haqqında Əsasnamənin, arxivlərin, arxiv fondlarının və sənəd kolleksiyalarının Milli arxiv

fondunun tərkibinə daxil edilməsi, bu tərkibdən çıxarılması və ya məhv edilməsi Qaydasının, Qeyri-dövlət arxiv fondlarının mühafizəsi üzrə Qaydaların, aşkar edilmiş və ya tapılmış arxiv sənədlərini aşkar edən və ya tapan şəxsləri mükafatlandırma Qaydasının, Dövlət arxiv fondunun sənədlərindən istifadə Qaydalarının və Beynəlxalq əməkdaşlıq məqsədi ilə sənədlərin və kolleksiyaların xaricə müvəqqəti aparılması Qaydasının təsdiq edilməsi haqqında (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 32 nömrəli 6 mart 2000-ci il tarixli Qərarı).

3.21. Milli arxiv fondunun komplektləşdirilməsi, mühafizəsi və ondan istifadə Qaydaları haqqında Əsasnamə (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 32 nömrəli 6 mart 2000-ci il tarixli Qərarı).

3.22. Arxeoloji qazıntıların aparılmasına xüsusi razılıq (lisenziya) verilməsi qaydaları (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 210 nömrəli 30 noyabr 2000-ci il tarixli Qərarı).

3.23. Azərbaycan Respublikasında qiymətli materiallardan hazırlanmış məmulatların əyarlanma və damğalanma Qaydalarının və Əyar damğalarının növləri və qurulusunun təsdiq edilməsi haqqında (Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 30 nömrəli 1 fevral 2001-ci il tarixli Qərarı).

3.24. Azərbaycan Respublikasında qiymətli materiallardan hazırlanmış məmulatların əyarlanma və damğalanma qaydaları (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 nömrəli 1 fevral 2001-ci il tarixli Qərarı).

3.25. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Əyar Palatası haqqında Əsasnamə (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 147 nömrəli 2000-ci il 22 avqust tarixli Qərarı).

IV. Nazirliklər və digər təşkilatlar üzrə normativ hüquqi aktlar:

4.1. "Mədəniyyət sərvətlərinin qanunsuz olaraq ölkəyə gətirilməsinin, ölkədən çıxarılmasının və onların üzərində mül-

kiyyət hüququnun başqasına verilməsinin qadağan edilməsi və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında" Konvensiyanın (Paris, 1970-ci il) icrasının təmin olunması üzrə Milli Məşvərət Komissiyası yaradılması barədə (Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 87 nömrəli 10 aprel 2001-ci il tarixli əmri).

4.2. "Mədəniyyət sərvətlərinin qanunsuz olaraq ölkəyə gətirilməsinin, ölkədən çıxarılmasının və onların üzərində mülkiyyət hüququnun başqasına verilməsinin qadağan edilməsinə və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında" Konvensiyanın (Paris, 1970-ci il) icrasının təmin olunması üzrə Azərbaycan Milli Məşvərət Komissiyası haqqında Əsasnamə (Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 137 nömrəli, 5 may 2001-ci il tarixli əmrinə əlavə).

4.3. Mədəniyyət sərvətlərinin tarixi, bədii və elmi dəyərinin müəyyənləşdirilməsi, xüsusi bədii ekspertiza keçirilməsi və mühafizə şəhadətnaməsi verilməsi üzrə ekspert komissiyası haqqında Əsasnamə (Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 202 nömrəli, 22 avqust 2001-ci il tarixli əmri).

4.4. Mədəniyyət sərvətlərinin tarixi, bədii və elmi dəyərinin müəyyənləşdirilməsi, xüsusi bədii ekspertiza keçirilməsi, mühafizə şəhadətnaməsi və pasport verilməsi üzrə ekspertiza komissiyası haqqında Əsasnamə (Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 69 nömrəli 22 mart 2001-ci il tarixli əmri).

4.5. Mədəniyyət sərvətlərinin, tarixi, bədii və elmi dəyərinin müəyyənləşdirilməsi, xüsusi bədii ekspertiza keçirilməsi və mühafizə şəhadətnaməsi verilməsi üzrə ekspert komissiyası haqqında Əsasnamə (Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 98 nömrəli 12 aprel 2001-ci il tarixli əmri).

4.6. Azərbaycan Respublikası dövlət muzeylərində saxlanılan muzey sərvətlərinin uçotu və mühafizəsinə dair təlimat (Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 217 nömrəli 14 oktyabr 1996-cı il tarixli əmri).

4.7. Müəlliflik hüquqi obyektlərinin qeydiyyatı qaydaları (Azərbaycan Respublikası Müəllif hüquqları Agentliyinin Sədri tərəfindən 3 may 2001-ci il tarixində təsdiq edilmişdir) (438, s.5-267).

Təbii ki, muzeyşünaslığın həm nəzəri, həm də təcrübi məsələləri ilə bağlı yuxarıda göstərilən bütün normativ hüquqi aktların mühüm əhəmiyyəti vardır. Xüsusilə də Azərbaycan Respublikasının Konstitusiyasının, "Mədəniyyət haqqında" və "Muzeylər haqqında" Azərbaycan Respublikası Qanunlarının əhəmiyyəti əvəzedilməzdir.

Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasının 40-cı maddəsi "Mədəniyyət hüququ"na, 77-ci maddəsi isə "Tarix və Mədəniyyət abidələrinin qorunması"na həsr edilmişdir. 40-cı maddədə göstərilmişdir:

"I. Hər kəsin mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək hüququ vardır.

II. Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır" (26, s.12).

Azərbaycan Respublikası Konstitusiyasının 77-ci maddəsində isə göstərilmişdir ki: "Tarix və mədəniyyət abidələrini qorumaq hər bir şəxsin borcudur" (26, s.20).

Göründüyü kimi hər iki maddədə göstərilir ki, mədəni irsə, təsisatlara, mədəni sərvətlərdən istifadəyə, onları qorumağa hörmətlə yanaşmaq, milli mədəniyyət nümunələrimizi qorumaq hər birimizin borcudur.

Doqquz fəsil və 51 maddədən ibarət "Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanununda ümumi müddəalar, mədəniyyət sahəsində vətəndaşların hüquqları azadlıqları və vəzifələri, dövlətin mədəniyyət sahəsində vəzifələri, mədəniyyət fəaliyyəti və onun növləri, mədəniyyət sahəsində təşkilatı və mülkiyyət münasibətləri, mədəniyyət sərvətləri və milli mədəniyyət əmlakı, mədəniyyət sahəsinin maliyyələş-

dirilməsi, mədəniyyət sahəsində beynəlxalq əməkdaşlığın hüquqi əsasları ayrı-ayrı maddələrdə öz məzmununu tapmışdır" (310, s.3).

Qanunun "Mədəniyyət fəaliyyəti və onun növləri" başlıqlı IV fəslinin 20-ci maddəsinin 3-cü və 4-cü yarımmaddələrində müxtəlif profilli muzey müəssisələri, rəsm qalereyaları və sərgi salonları mədəniyyət təsisatlarına aid edilmişdir:

"3. Muzey müəssisələri:

Bədii və incəsənət, tarix və tarix-diyarşünaslıq muzeyləri;

Ədəbiyyat, teatr və musiqi profilli, memorial, xatirə muzeyləri, muzey-qoruqlar;

4. Rəsm qalereyaları və sərgi salonları"; (310, s.3)

Qanunun IV fəslinin 22-ci maddəsində muzey fəaliyyətinin tərifi, muzeylərin kommersiya fəaliyyətlərindəki məhdudluq barədə aşağıdakı şəkildə göstərilmişdir;

"Maddə 22. Muzey fəaliyyəti;

Elmi mədəni, mənəvi və estetik tələbatın ödənilməsi məqsədilə insan, onun fəaliyyəti və yaşayış mühiti haqqında mədəniyyət sərvətlərinin və maddi nümunələrin əldə edilməsi, qorunması, uçotu, tədqiqi, təbliği və nümayişi muzey fəaliyyəti hesab olunur.

Muzeylərin yaradılma məqsədlərinə və muzeylərdəki mədəniyyət sərvətlərinin nüfuzuna xələl gətirən kommersiya fəaliyyəti ilə məşğul olmaları, digər muzeylərin kolleksiya toplama hüquqlarını pozma hüquqları qadağandır" (310, s.3).

Qanunun VI fəslində mədəniyyət sərvətlərinin tərifi və növləri ayrı-ayrılıqda verilmişdir (98, s.3). Bu fəsildə həmçinin mədəniyyət sərvətlərinin qeydə alınması, mühafizə dərəcələri, sərvətlərdən istifadə rejimi, sərvətlərin mühafizə siyahısı, ixrac rejimi barədə də göstərilmişdir (310).

Azərbaycanda muzey quruculuğu və muzeyşünaslığın inkişafında Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyev tərəfindən 24 mart 2000-ci il tarixində imzalanan "Muzeylər haqqında" Azərbaycan Respublikasının Qanunu

əsas əhəmiyyət kəsb edir. Muzey fəaliyyəti məhz bu Qanunla tənzimlənir. Qanun 5 fəsil və 28 maddədən ibarətdir:

I fəsil "Ümumi müddəalar"ı, II fəsil "Muzeylər və muzey fəaliyyəti"ni, III fəsil "Muzey fondları, onların uçotu və mühafizəsi"ni, IV fəsil "Dövlət muzeylərinin maliyyələşdirilməsi və dövlət muzeyləri işçilərinin sosial müdafiəsi"ni və sonuncu V fəsil isə yekun müddəaları əhatə edir (354, s.2).

I fəslin 1-ci maddəsində əsas anlayışlar – muzey, muzey fondu, dövlət muzey fondu, mədəniyyət sərvətləri, muzey əşyası, muzey kolleksiyası, muzey fəaliyyəti, muzey əşyalarının və kolleksiyalarının mühafizəsi, muzey saxlanclarından bəhs edilmişdir (99). I fəslin 2-ci maddəsində muzey fəaliyyəti sahəsində dövlət siyasətinin əsas prinsipləri və dövlətin vəzifələri, 3-cü maddəsində muzeylər haqqında Azərbaycan Respublikasının qanunvericiliyi verilmişdir.

II fəsildə 4-cü maddədə muzeylərin yaradılması qaydası və məqsədi, 5-ci maddədə muzeylərin yenidən təşkili və ləğv olunması, 6-cı maddədə muzey əşyalarının və kolleksiyalarının Azərbaycan Respublikasından müvəqqəti kənara çıxarılması, 7-ci maddədə muzeylərin köçürülməsi, 8-ci maddədə muzey fəaliyyəti və onun növləri, 9-cu maddədə milli statusa malik muzeylər, 10-cu maddədə respublika əhəmiyyətli muzeylər, 11-ci maddədə bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan muzeylər, 12,13,14-cü maddələrdə isə muzeylərin hüquqları, muzey əşyalarının və kolleksiyalarının nümayişi, publikasiyasının mahiyyəti, məzmunu qeyd edilmişdir.

III fəsildə 15-23-cü maddələrdə muzey fondlarının tərkibi, uçotu və mühafizəsi, əsas uçot sənədləri, muzey əşyalarının və kolleksiyalarının muzey fondlarına daxil olan əşya və kolleksiyaların dövriyyəsi, dövlət muzeyləri fondlarının tərkibi, muzey fəaliyyətinə dövlət nəzarəti və dövlət qayğısı, muzeylərin yerləşdiyi binaların, onların tutduğu sahələrin muzeylərin balansına verilməsi ardıcıllıqla verilmişdir.

IV fəsildə dövlət muzeylərinin maliyyələşmə mənbələri,

muzeylərin təsərrüfat fəaliyyəti, muzey işçilərinin sosial müdafiəsi, V fəsildə isə beynəlxalq əməkdaşlıq və bu Qanunun pozulmasına görə təqsirli olan hüquqi və fiziki şəxslərin Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşımaları göstərilmişdir (354).

Göründüyü kimi, hazırda muzeyşünaslığın inkişafında əsas əhəmiyyət kəsb edən bu Qanun, muzey quruculuğunun bütün istiqamətlərini əhatə etmiş, Qanunda edilən dəyişikliklər (277) muzey fəaliyyətinin müasir tələblərə uyğun təşkilinin təmin edilməsində mühüm əhəmiyyət kəsb edir.

Son onilliklərdə muzeyşünaslıq problemlərilə əlaqədar bir sıra alim-tədqiqatçılar S.A.Əmirxanovun (181), E.H.Qurbanovanın (403), A.T.Əhmədovanın (137), A.Q.Bayramovanın (488), F.F.Abdullayevin (484), A.T.Baxşıyevanın (489), B.B.Kərimovun (265), X.A.Zeynalovun (501), Ş.Ş.Vəliyevanın (460), N.İ.İsayevin (249), A.A.Məmmədovanın (511), E.İ.Alxasovanın (18), N.N.Tağıyevanın (527), T.A.Quliyevin (509), A.A.Haqverdiyevin (214), K.T.Əliyevanın (486), H.Ə.Sadıqzadənin (424), E.M.Lətifovanın (510), S.Qasımovanın (387), R.Vəliyevin (461), Z.Kərimovanın (264), M.Xəlilovun (472), M.Tərlanovun (454), R.Cəfərovun (116) namizədlik, V.C.Xəlilovun (473), İ.H.Hüseynovun (234), K.M.Əliyevanın (487), A.M.Rəcəblinin (407), R.S.Tağıyevanın (440), N.Həbibovun (221), O.Həsənlinin (224), L.Qasımovanın (386), M.Nəcəfovun (366) doktorluq dissertasiyalarında apardıqları elmi-tədqiqat işlərinin məzmununda muzeyşünaslığın nəzəri və təcrübi tərəflərinə, mövzularına uyğun şəkildə qismən aydınlıq gətirmişlər. Lakin, yuxarıda qeyd edildiyi kimi Azərbaycan muzeyşünaslığının nəzəriyyəsi və təcrübəsi elmi-tədqiqat işlərində sistem halında tədqiq edilməmişdir.

Alim-tədqiqatçı Sabir Əmirxanovun "Yuxarı sinif şagirdlərinin estetik tərbiyəsinin formalaşmasına incəsənət muzeylərindən istifadənin təsiri" mövzusunda pedaqoji elmlər namizədi alimlik dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiyası

apardığımız problem baxımından əhəmiyyətlidir. Tədqiqat işində yuxarı sinif şagirdlərinin estetik tərbiyəsində incəsənət muzeylərinin mövqeyi, imkanları, əsas istiqamətləri, prinsipləri, incəsənət muzeyləri fəaliyyətindən istifadə üzrə işin forma, vasitə və yollarından bəhs edilmiş, ilk dəfə olaraq respublika dövlət incəsənət muzeyləri ilə ümumtəhsil məktəblərinin qarşılıqlı fəaliyyəti prosesində şagirdlərin estetik tərbiyəsinin təşkili üzrə işin sistemi müəyyənləşdirilmişdir (181, s.6). Tədqiqatçı incəsənət muzeyləri vasitəsilə şagirdlərin estetik tərbiyəsi işinin mahiyyətinin çox genişliyini qeyd etmiş və bunun aşağıdakı istiqamətlərlə sıx bağlılığını göstərmişdir:

"1. İncəsənət muzeyləri profilindən asılı olaraq ayrı-ayrı incəsənət növlərinin, janrlarının həyati əhəmiyyətini məktəblilərə daha əyani, "canlı" şəkildə çatdırmaq baxımından əhəmiyyətlidir.

2. İncəsənət muzeylərinə təşkil edilən kollektiv baxışlar, ekskursiyalar yuxarı sinif şagirdlərinin bədii-estetik marağını, estetik tələbatını inkişaf etdirən iş formaları kimi mühüm əhəmiyyətə malikdir.

3. İncəsənət muzeylərində yuxarı sinif şagirdlərinə xalq yaradıcılığı nümunələri və ayrı-ayrı sənətkarların həyatı, onların məşhur əsərləri ilə bağlı verilən nəzəri məlumatlar öz mahiyyəti etibarı ilə onları bədii-estetik fəaliyyətə ruhlandırır, sərbəst mütaliəyə geniş imkan yaradır.

4. İncəsənət muzeylərinin ümumtərbiyə prosesinə, o cümlədən estetik mədəniyyətin inkişafına göstərdiyi təsir aspektləri çox genişdir. Müntəzəm sistemli ekskursiyalar zamanı ayrı-ayrı incəsənət janrlarının orijinal nüsxələri və onların surətləri ilə yaxından tanışlıq, bu prosesdə mütəxəssis şərhlərinin dinlənilməsi yuxarı sinif şagirdlərinin estetik zövq tərbiyəsi baxımından əhəmiyyətlidir.

5. Ayrı-ayrı incəsənət muzeylərinin ümumtəhsil məktəbləri ilə əlaqəli işləri zamanı keçirilən viktorinalar və idraki tapşırıqlar şagirdlərdə estetik fikir, mühakimə yürütmək bacarı-

ğını inkişaf etdirir, formalaşdırır.

İncəsənət muzeyləri və ümumtəhsil məktəbi şagirdlərinin estetik tərbiyəsi öz mahiyyətinə görə çox genişdir. Şübhəsiz, problemin bu cəhəti müxtəlif sahələrdə çalışan alimləri, tədqiqatçı mütəxəssisləri də maraqlandırmış və bir sıra başlıca məsələlər onların nəşr etdirdikləri əsərlərdə öz əksini tapmışdır" (181, s.32-33).

S.Əmirxanovun dissertasiya işinin "Elmi-pedaqoji ədəbiyyatda muzeylər vasitəsilə şagirdlərin estetik tərbiyəsi probleminin qoyuluşu" yarımfəslində belə bir qənaətə gəlmişdir ki, "... ayrı-ayrı mütəxəssislərimiz, xüsusilə tarix, fəlsəfə, sənətşünaslıq və pedaqogika elmləri sahəsində çalışanlar bu sahəyə diqqəti artırmalıdırlar. Xüsusilə, müstəqil Azərbaycan Respublikasında elm, təhsil, mədəniyyət sahəsində aparılan islahatlar prosesində, əslimizə - soy kökümüzə qayıtdığımız və milli, bəşəri dəyərlərin mahiyyətini diqqətlə öyrənib təhsil quruculuğu məsələlərinə tətbiq etməyə çalışdığımız indiki dövrdə bu problem daha çox diqqət mərkəzində olmalıdır. İncəsənət muzeyləri vasitəsilə müxtəlif yaş qrupuna aid olan məktəblilərin, xüsusilə yuxarı sinif şagirdlərinin estetik tərbiyəsi işinin mövcud vəziyyətini, habelə elmi-pedaqoji əsaslarını-prinsiplərini, səmərəli forma və yollarını araşdırmaq, müəllimlərə, tərbiyəçilərə, məktəb və sinif rəhbərlərinə, müxtəlif kateqoriyalardan olan muzey işçilərinə, muzeylərin məktəb bölmələrinin əməkdaşlarına lazımı elmi-metodik istiqamət vermək olduqca zəruridir" (181, s.48).

Tədqiqat işində incəsənət muzeyləri vasitəsilə şagirdlərin estetik tərbiyəsinin əsas iki istiqamətini S.Əmirxanov aşağıdakı kimi vermişdir:

"Birincisi, incəsənət muzeylərinin məktəblilərlə bağlı bədii-estetik fəaliyyətinin müxtəlif formaları nəzəri mahiyyət kəsb edir, sənət məsələləri ilə bağlı nəzəri məlumatlar, informasiyalar verir.

İkincisi, incəsənət muzeylərinin məktəblilərlə bağlı bədii-

estetik fəaliyyətinin mühüm bir istiqaməti praktik bacarıq və vərdişlərin formalaşdırılması ilə nəticələnir" (181, s.83).

Göründüyü kimi, burada muzeyşünaslıq əhəmiyyətli həm nəzəri, həm də təcrübi fəaliyyətin estetik formalaşmada mühüm əhəmiyyəti göstərilmişdir.

Dissertasiya işində muzeyşünaslıq baxımından böyük maraq doğuran, muzeyşünaslıqda ilk dəfə olaraq verilən vacib prinsiplər – başlıca tələblərə böyük üstünlük verilmişdir.

"... Əlbəttə incəsənət muzeyləri vasitəsilə aparılan tərbiyə işi, o cümlədən məktəblilərlə aparılan estetik tərbiyə işi də mədəni-maarif işinin, ümumtərbiyə prosesinin mühüm bir sahəsi olduğu üçün bu sahədə optimallığı, səmərəliliyi artıran prinsipləri müəyyənləşdirmək daha məqsədə müvafiq sayılmalıdır.

Məlum pedaqoji prinsiplərdən və mədəni-maarif işinin ümumi prinsiplərindən çıxış edərək, habelə sahənin spesifik xüsusiyyətlərini nəzərə alaraq incəsənət muzeyləri vasitəsilə məktəblilərin estetik tərbiyəsinin prinsiplərini – başlıca tələblərini aşağıdakı kimi müəyyənləşdirməyi zəruri sayırıq:

1. Məktəblilərin estetik tərbiyəsi naminə incəsənət muzeylərinin və ümumtəhsil məktəblərinin qarşılıqlı fəaliyyəti təmin olunmalıdır.

2. Məktəblilərin estetik tərbiyəsi üzrə incəsənət muzeyləri və ümumtəhsil məktəblərinin qarşılıqlı fəaliyyətində müntəzəmliyə, sistemliliyə, ayrı-ayrı tədbirlərin mənəvi-estetik təsirinə fikir verilməlidir.

3. İncəsənət muzeylərində müxtəlif sərgilərə kollektiv baxışlarla əlaqədar qabaqcadan lazımı hazırlıq işləri görülməli, şəxsiyyətin ümumestetik mədəniyyəti məsələsi ön plana çəkilməlidir.

4. Kollektiv baxış üçün müəyyənləşdirilən sərgilər, nəzərdə tutulan eksponatlar, lektoriya məşğələləri, aparılan söhbətlər məktəblilərin yaş səviyyəsinə uyğun olmalıdır.

5. Müxtəlif məzmunlu ekskursiyaların məktəblilərin es-

tetik tərbiyəsinə daha səmərəli təsir göstərməsi üçün yuxarı məktəb yaşlı şagirdlərin ayrıca qrupda kollektiv baxışı təşkil edilməlidir.

6. İncəsənət muzeylərinin daimi və metodik ekspozisiyalarına təşkil edilən kollektiv baxışlar, ekskursiyalar bədii-estetik silsilə fənlərinin tədrisi ilə əlaqələndirilməlidir.

7. İncəsənət muzeylərinə ekskursiyaların təşkili zamanı məktəblilərdə müxtəlif səpgili estetik hisslər oyadan sərgilərə, ekspozisiyalara geniş yer verilməlidir.

8. İncəsənət muzeylərinə kollektiv baxışlardan, ekskursiyalardan sonra məktəblilərin estetik təəssüratlarının səviyyəsi müvafiq müsahibələr, şərhlər, inşa yazıları və digər bədii fəaliyyət formaları ilə müəyyənləşdirilməlidir".

9. İncəsənət muzeylərinə müntəzəm, sistemli ekskursiyalar, sərgilər, orada aparılan söhbət və mühazirələr nəticəsində yaranan maraq, estetik tələbat məktəbliləri geniş bədii özfəaliyyətə, məktəb muzeylərinə və bədii dərnəklərə cəlb etməlidir. Problemlə əlaqədar göstərilən prinsiplərin – başlıca pedaqoji tələblərin incəsənət muzeylərinin həyata keçirdiyi müxtəlif formalı tədbirlərdə əsas götürülməsi məktəblilərin estetik tərbiyəsinin səmərəliliyini daha da artırır. Buna görə də incəsənət muzeyləri ilə ümumtəhsil məktəbləri əlaqəli, sistemli tədbirlər planlaşdırıb, həyata keçirərkən yuxarıda göstərdiyimiz prinsipləri – başlıca tələbləri də nəzərə almalıdırlar (181, s.95-96).

Muzeylərin müxtəlif formalı tədbirləri vasitəsilə məktəblilərin estetik tərbiyəsini daha ahəngdar inkişaf etdirmək məqsədilə yuxarıda göstərilən prinsiplərə qabaqcadan xüsusi diqqətin yetirilməsi, əməli fəaliyyət prosesində əsas götürülməsi tövsiyə edilmişdir (181, s.96), eyni zamanda həmin prinsiplərin muzey-məktəb əlaqələrində estetik-emosional təsirin artırılması baxımından əhəmiyyəti göstərilmişdir:

"İncəsənət muzeylərinin müxtəlif formalı işləri vasitəsilə şagirdlərin estetik tərbiyəsini daha ahəngdar şəkildə inkişaf etdirmək üçün həmin prinsiplərə qabaqcadan xüsusi diqqət

yetirilməli və əməli fəaliyyət prosesində əsas götürülməlidir. Bu prinsiplər eyni zamanda ayrı-ayrı incəsənət muzeylərinin yaradıcı kollektivləri ilə ümumtəhsil məktəblərinin pedaqoji kollektivləri arasında sıx əlaqə yaratmağın pedaqoji təminatını vermək, müxtəlif məzmunlu tədbirlərin estetik-emosional təsirini artırmaq baxımından da əhəmiyyətlidir" (181, s.96).

Dissertasiya işində müəyyən edilmişdir ki, "...dövlət incəsənət muzeylərində məktəblilərin estetik tərbiyəsi əsas iki yolla həyata keçirilir. Bunlardan birincisi, muzeydaxilində, ikincisi isə muzeydənkənar yerlərdə həyata keçirilən müxtəlif məzmunlu tədbirlərdir.

Muzey daxilində həyata keçirilən və məktəbli gənclərin estetik tərbiyəsinə fəal təsir göstərən mədəni-kütləvi tədbirlər, iş formaları aşağıdakılardır:

1. İncəsənət muzeylərində müxtəlif mövzularda təşkil olunan sərgilər, ekspozisiyalar.
2. Yaradıcı sənətkarlarla görüş gecələri.
3. Lektoriyalar, orada aparılan söhbətlər və mühazirələr.
4. Viktorinalar.
5. Müxtəlif xarakterli yaradıcı müsabiqələr.
6. Məktəb muzeyləri üçün eksponatların və ekskursiya təlimatçılarının hazırlanması üzrə görülən işlər.

Muzeydənkənar yerlərdə həyata keçirilən və mühüm estetik təsiri ilə diqqəti cəlb edən mədəni-kütləvi tədbirlər, iş formaları aşağıdakılardır:

1. İri yaşayış məntəqələrində - ayrı-ayrı şəhərlərin, qəsəbələrin, mədəniyyət evləri, saraylarında təşkil olunan səyyar sərgilər.
2. Ayrı-ayrı ümumtəhsil məktəblərində təşkil olunan səyyar sərgilər.
3. Ümumtəhsil məktəblərində təşkil olunan lektoriyalar, disputlar, viktorinalar.
4. Bədii dərnəklər.
5. İncəsənətin ayrı-ayrı sahələrindən, muzeylərin ekspo-

natlarından bəhs edən sənədli filmlərin, foto albomların izahlı şərhlə nümayişi.

6. İncəsənət muzeylərindən bəhs edən televiziya verilişlərinin video yazı vasitəsi ilə nümayişi.

7. Müsabiqələrin keçirilməsi" (181, s. 149, 150).

Göründüyü kimi muzeylər vasitəsilə keçirilən tədbirlər müxtəlif formalıdır. Azərbaycanda fəaliyyət göstərən incəsənət muzeylərinin müxtəlif illərdəki tədbirlərinin təhlili göstərmişdir ki, "... forma rəngarəngliyinə malik olan tədbirlərin hər biri yuxarı sinif şagirdlərinin estetik tərbiyəsində mühüm rol oynamışdır" (181, s.151).

Dissertasiya işinin nəticə və təkliflər hissəsində muzey-məktəb əlaqələri zəminində estetik tərbiyənin həyata keçirilməsi prosesinin sistemləşdirilməsi üçün yerinə yetirilməsi vacib təkliflər edilmişdir:

"1. Elmi-metodik ədəbiyyatın, problemlə əlaqədar mövcud iş təcrübəsinin təhlili göstərdi ki, dövlət incəsənət muzeyləri bədii mühit – bədii auditoriya rolunu oynamaqla ümumtəhsil məktəbi şagirdlərinin bədii-estetik tərbiyəsinə qüvvətli təsir göstərir.

1. Tədqiqat göstərdi ki, incəsənət muzeylərinə təşkil olunan ekskursiyalarda sənətkarların həyat və yaradıcılığını əks etdirən epizodlarla bağlı ekspozisiyalar, orijinal informasiyalar məktəbliləri emosiyalar aləminə aparır, estetik mühakimələrini inkişaf etdirir.

2. İncəsənət muzeylərinin ayrı-ayrı ümumtəhsil məktəbləri ilə əlaqəli iş sisteminin təhlili göstərdi ki, müxtəlif məzmunlu ekskursiyalar, söhbətlər və mühazirələr, müvafiq lektoriyaların məşğələləri aşağı siniflərdən başlayaraq şagirdləri müxtəlif janrlı ədəbiyyat və incəsənət əsərlərini düzgün qiymətləndirməyə hazırlayır.

3. İncəsənət muzeylərindəki eksponatların estetik təsir qüvvəsi ona görə get-gedə artır ki, orada haqqında söhbət gedən incəsənət əsərinin yarandığı dövr, bədii üslub, sənətkar-

ların yaradıcılıq qayəsi, cəmiyyətin mədəni tərəqqisinə göstərdiyi təsir istiqamətləri həyatı lövhələrlə izah edilir.

4. İncəsənət muzeylərində ayrı-ayrı əsərlərin estetik təsir xüsusiyyətlərini qavramaq qaydaları, habelə bədii dəyəri haqqında verilən nəzəri məlumatlar şagirdlərin bədii təhsilini, estetik mədəniyyətini yüksəldir.

5. İncəsənət muzeyləri vəsaitilə məktəblilərin estetik tərbiyəsinin nəzəri-metodik əsasları, təcrübi məsələlər son dərəcə mühüm əhəmiyyət kəsb etdiyindən problemin bir sıra başlıca məsələləri xüsusi diqqət mərkəzində olmalı, onların real həllinə pedaqoji təminat verilməlidir".

Tədqiqatda aşağıdakı təkliflər irəli sürülmüşdür:

1. İncəsənət muzeylərində şagirdlərin yaşına müvafiq məlumat verə bilən muzey bələdçilərinin hazırlığına xüsusi diqqət yetirilməlidir.

2. İncəsənət muzeylərinin fəaliyyətindən istifadə etməklə məktəblilərin estetik tərbiyəsi işinin mahiyyətini məzmununu imkanlarını və formalarını pedaqoji kollektivlərə valideynlərə daha anlaşıqlı şəkildə çatdırmaq üçün xüsusi lektoriyalar təşkil olunmalı, mühazirə və söhbətlərin bədii-metodik istiqamətinin əyani-illüstrativ əsaslarda aparılmasına əhəmiyyət verilməlidir.

3. İncəsənət muzeylərinin ümumtəhsil məktəbi şagirdlərinin tərbiyəsində mühüm rol oynamasını nəzərə alaraq "Muzey və məktəb", "İncəsənəti məktəblilərə", "Gözəlliyi uşaqlara", "Məktəblilər və sərgi salonları" adı ilə xüsusi məlumat kitablarının çap edilərək məktəblərə göndərilməsinə nail olmaq zəruridir.

4. İncəsənət muzeylərinin məktəblilərin estetik tərbiyəsindəki mövqeyini möhkəmləndirmək məqsədilə iri yaşayış məntəqələrində yerləşən ümumtəhsil məktəbləri şagirdləri üçün mövsümü-səyyar sərgilərin təşkilinə xüsusi fikir verilməlidir.

5. Respublika televiziya və radio şirkətinin müvafiq redaksiyaları tərəfindən məktəbli gənclər üçün incəsənət muzey-

lərinin fondlarından, sərgi salonlarından bəhs edən verilişlər hazırlanmalıdır.

6. İncəsənət muzeylərinin hazırda respublikamızın bir sıra ümumtəhsil məktəblərində fəaliyyət göstərən məktəb muzeyləri üçün eksponatlar dəsti və silsilə mövzularda albom-plakatlar hazırlamaları, bu yolla estetik təsir dairəsini genişləndirmələri, problemin müvəffəqiyyətli həllinə əsas verər.

7. Müxtəlif yaş qrupları üzrə məktəblilərin incəsənət muzeyləri ilə daha yaxından təmasda olmasında valideynlərin rolu çox böyükdür. Məhz buna görə də valideynlərin özlərinin incəsənət muzeylərinə olan marağını artırmaq münasibətini formalaşdırmaq məqsədi ilə sistemli iş aparılmasına, problemin əhəmiyyətini göstərən informasiyaların, tövsiyələrin kitabçalar və bülletenlər vasitəsilə onlara çatdırılmasına xüsusi diqqət yetirilməlidir" (181, s.154-156).

Təbii ki, bu tədqiqat işi eyni zamanda həm nəzəri, həm də təcrübi əhəmiyyətə malikdir. "Tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, dövlət incəsənət muzeylərinin fəaliyyətindən istifadə etməklə ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdlərinin estetik tərbiyəsi istiqamətində müəyyənləşdirilən prinsiplər, formalar və yollar estetik tərbiyə nəzəriyyəsini zənginləşdirir.

Tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, incəsənət muzeylərinin orta ümumtəhsil məktəbi yuxarı sinif şagirdlərinin estetik tərbiyəsinə təsiri üzrə işin sistemi aşkara çıxarılmış, təlim-tərbiyə prosesinə tətbiqi işlənmiş, müvafiq metodik tövsiyələr hazırlanmışdır" (404, s.7).

Alim tədqiqatçı S.Əmirxanovun bu tədqiqat işi Azərbaycan muzeyşünaslığının tədqiqində ilkin əsərlərdəndir. Muzey-məktəb əlaqələrinin səmərəli təşkili prosesində estetik zövqlərin formalaşması, tərbiyəvi mərhələlərin sistemləşdirilməsi nəzəri və təcrübi əsaslarda tədqiq edilmişdir və öz müsbət nəticələrini verməkdədir.

Tədqiqatçı alim-muzeyşünas Elfira Qurbanovanın "Azər-

baycanda bədii mədəniyyətin inkişafında incəsənət muzeylərinin rolu" mövzusunda namizədlik dissertasiya işi problem baxımından mühüm əhəmiyyətə malikdir. Dissertasiya işi iki fəsil və altı yarımfəsildən ibarətdir. I fəsildə milli tarixi mühitin formalaşmasında bədii mədəniyyətin rolundan, II fəsildə isə bədii təfəkkürün inkişafında incəsənət muzeylərinin rolundan bəhs edilərək müvafiq tədqiqat işi aparılmışdır. Maraqlıdır ki, həm S.Əmirxanov, həm də E.Qurbanova məhz Respublika incəsənət muzeylərinin fəaliyyəti zəminində ayrı-ayrı problemləri araşdırmışlar. Hər iki tədqiqat işi həm nəzəri, həm də təcrübi gücə malik olmaqla aktuallıq kəsb edir. E.Qurbanova I fəsildə bədii mədəniyyətin inkişafının sosial mahiyyəti, inkişafda tarixilik və incəsənət muzeylərinin bu inkişafdakı yeri, əhəmiyyəti tədqiqat mərkəzində durur. Tədqiqatçı tarixiliyin rolunu araşdırdıqda muzeylərə böyük əhəmiyyət verir.

"Beləliklə, bədii mədəniyyətin inkişafında tarixiliyin rolunu tədqiq etdikdə mahiyyət etibarı ilə muzeylərin yaranması və inkişafı mühüm əhəmiyyət kəsb edir:

1. Dünya mədəniyyəti və incəsənətinin inkişafı və təsirliliyinin müxtəlif tarixi dövrlərdə Şərq və eləcə də Azərbaycan sənətkarlığı və yaradıcılığından ayrı-ayrı sahələr üzrə bəhrələnməsi mühüm əhəmiyyətə malikdir.

2. Eramızın əvvəlləri və orta əsr Azərbaycan sənətkarlığının tədqiqatçılarımız tərəfindən tam araşdırılması və müasir muzeyşünaslıqdakı əhəmiyyətinin işıqlandırılması, milli və bəşəri incəsənətin vəhdətdə davamını sübut edir. Çünki, mədəniyyət və incəsənətdə millilik və bəşəriliyin dialektikası ifadə olunur. Ən qiymətli milli sərvət olan istedadla yaradılmış sənət əsəri yalnız bir millətə yox, bütün millətlərə məxsusdur.

3. Bədii mədəniyyət və tarixilik probleminə nəzər saldıqda aydın olur ki, bu mürəkkəb prosesdə başlıca yeri insan – yaradıcı sənətkar, yazıçı, şair, bəstəkar, filosof, rəssam və sair tutur, təbii ki, o əslində insanın özünə yaratdığı bədii abidədir. Bu baxımdan Azərbaycan alimi-yaradıcısının tarix boyu keç-

diyi məşəqqətli yola geniş nəzər salınmalı, dünya elmində mədəniyyət hazırkı şəraitdə çox vacib məsələdir" (403, s.46-47).

Dissertasiya işinin II fəslində incəsənət muzeyləri vasitəsilə bədii təfəkkürün inkişafı problemi muzeyşünaslıq əhəmiyyətlidir. Muzeyşünas E.Qurbanova həmin fəslin 2-ci yarımfəslində milli bədii təfəkkürün formalaşmasında incəsənət muzeylərinin rolunu araşdırmışdır. O belə qənaətə gəlmişdir ki:

"Beləliklə, araşdırdığımız problem baxımından incəsənət muzeyləri aşağıdakı fəaliyyət istiqamətləri üzrə əsaslı əhəmiyyət kəsb edir:

- müasir dövrdə tarixə qayıdışın milli bədii təfəkkürün inkişafındakı yüksək əhəmiyyətinin rəngarəng tədbirlər vasitəsilə kütlələrə çatdırılması, eyni zamanda muzeyin bu prosesdə aparıcı rol oynaması üçün digər mühüm vəzifələrin mütəmadi həyata keçirilməsi;

- yaradıcı sənətkarların əsərləri və müxtəlif tarixi dövrlərin məhsulu olan ayrı-ayrı nümunələr milli düşüncəyə, milli bədii təfəkkürə əvəzsiz tarixi əhəmiyyətli sərvətlərin bəxş edilməsinin muzeydaxili və muzeydənkənar tədbirlərlə tamaşaçıya çatdırılması;

- milli bədii təfəkkürün formalaşmasında incəsənət muzeylərinin göstərdiyi təsirin səmərəliliyini daha da artırmaq üçün sərgi, gecə, söhbət, mühazirə, viktorina, yaradıcı müsabiqə və sair tədbirlərin ekspozisiyada, bilavasitə yaradıcının iştiraklı ilə keçirilməsi;

- muzey fəaliyyəti vasitəsilə bədii prosesin nəzəriyyə və təcrübəsinin vəhdətinin vacibliyinin diqqət mərkəzində olması, təbliği və işıqlandırılması;

- ayrı-ayrı bədii sənətkarlıq nümunələrində milli təfəkkür, milli psixologiya, milli özünüdərk, milli irsin xüsusiyyətlərinin qorunub saxlanılmasının təsir gücünü tam izah edə bilən muzey işçilərinin (o cümlədən bələdçilərin) hərtərəfli hazırlığı;

- milli müəyyənliyin əhəmiyyətini daha da artırmaq məq-

sədilə qalereyaların şəbəkə quruluşunun inkişafı, eksponaların miqdarı, ekspozisiyaların keyfiyyətcə genişləndirilməsi, təbliğatçılıq yaradıcılığının elmi səviyyəsinin yüksəldilməsi, sənətşünaslığa aid elmi-kütləvi ədəbiyyatın nəşrinin nəfisləşdirilməsi, muzey elmi potensiallının səviyyəsinin yüksəldilməsinə maksimum diqqət verilməsi" (403, s.107-108).

Muzeyşünas E.Qurbanova araşdırmasında estetik tərbiyənin mahiyyətini aşağıdakı müddəalarla aydınlaşdığını qeyd etmişdir:

"1. Təbiət və cəmiyyətdəki gözəlliyi qavramaq və mənimsəmək qabiliyyətini formalaşdırmaq;

2. Sənət əsərlərini yalnız qavramaqla kifayətlənməyərək, həm də onları dərk etmək, qiymətləndirmək bacarığını yaratmaq;

3. Hər bir insanda öz yaradıcılıq qüvvələrindən səmərəli istifadə etməyə olan meyli inkişaf etdirmək, gözəllikdən həzz almaq bacarığını formalaşdırmaq;

4. Hər yerdə - təbiətdə, ictimai həyatda, əməkdə, sosial münasibətlərdə, məişətdə və rəftarda gözəlliyin təsdiqi uğrunda şüurlu mübarizə aparmaq" (403,s. 110).

Dissertasiya işində incəsənət muzeyləri vasitəsilə estetik zövqün formalaşmasına xüsusilə diqqət yetirilmişdir. Problem baxımından bir neçə əhəmiyyətli istiqamətin muzeyşünaslar tərəfindən nəzərə alınması məqsədyönlü sayılmışdır:

"1. Bədii mədəniyyətin gücləndirilməsinin şərti olan estetik savadlanmaya nail olmanın vacibliyi;

2. Estetik zövqün formalaşmasında muzey fəaliyyətinin əsas komponentləri olan nəzəri və əməli məşğələlərin yaş qruplarına uyğun şəkildə təşkili;

3. Estetik zövq tərbiyəsinin məqsədyönlü şəkildə aparılması üçün ekspozisiyanın bədii zənginliyinə nail olmaq;

4. Məktəbdənkənar tərbiyə, eləcə də mədəni-maarif müəssisələrinin bu sahədəki vəzifələrini istiqamətləndirən əlaqələndirmə mərkəzlərindən, o cümlədən Mədəniyyət Nazirli-

yinin Xalq Yaradıcılığı və mədəni-maarif işinin elmi-metodiki mərkəzinin köməyindən istifadə etmək. Belə əlaqələndirmə mərkəzlərinin köməyi ilə müasir dövrdə estetik tərbiyənin formalaşdırılmasında vəhdətin, varisliyin və bütün imkanların istiqamətli şəkildə istifadəsinin nizamlanması;

5. Tələbələrin muzeyə münasibətini fəallaşdırmaq, məqsədyönlü etmək üçün aspirantlar, dissertantlar, magistr dərəcəsi üzrə təhsillərini davam etdirən tədqiqatçılara muzeydaxili imkanlar vasitəsilə yaxından köməklik göstərilməsi" (403, s.125-126).

Tədqiqatın yekunu olaraq əldə edilən nəticələr əsasında tətbiqi üçün vacib təkliflər irəli sürülmüşdür:

"1. Bədii mədəniyyətin inkişafında İncəsənət muzeylərinin rolunu əks etdirən – "Müasir dövr və bədii mədəniyyət", "Bədii mədəniyyətin inkişafına İncəsənət muzeylərinin aparıcı rolu", "Gənclik və muzey", "Milli bədii təfəkkürün inkişafında İncəsənət muzeylərinin rolu" və s. mövzularda xüsusi məlumat kitabları çap edilərək Azərbaycanın müxtəlif bölgələrinə (təhsil müəssisələrinə, mədəniyyət müəssisələrinə, radio və televiziya şirkətlərinə və s.) göndərilməsi məqsədəuyğundur.

2. Bədii mədəniyyətin inkişafında sərgilərin əsas əhəmiyyətini nəzərə alaraq onların mütəmadi təşkilinə xüsusi fikir verilməlidir.

3. Muzeylər vasitəsilə həyata keçirilən tədbirlər zamanı yerli şərait və imkanlar nəzərə alınmalıdır.

4. Muzeylər vasitəsilə bədii mədəniyyət nümunələrinin əyani vəsait və texniki vasitələrlə (televiziya, radio, videofilmlər, diafilmlər, tədris filmləri və s.) kütlələrə çatdırılmasına xüsusi fikir verilməlidir.

5. İncəsənət muzeylərində fərdin bədii mədəniyyətinin inkişafına təkan verən müxtəlif istiqamətli dərnəklərin inkişafı üçün müvafiq tədbirlər həyata keçirilməlidir.

6. İncəsənət muzeylərinin kitabxanalarından istifadə edilməsi üçün ədəbiyyatın kütlənin ixtiyarına verilməsi nəzərə

alınmalıdır.

7. Muzeylərdə (təhsil müəssisələrində, digər mədəniyyət müəssisələrində) bədii mədəniyyətə dair kitabların sərgisinin keçirilməsinin təşkili.

8. Müasir milli mədəniyyəti inkişaf etdirən incəsənət xadimləri ilə (rəssamlar, heykəltəraşlar, ədəbiyyatşünaslar, musiqişünaslar) vaxtaşırı görüşlər keçirməli, yeni əsərlərin yaradılması tarixinə dair söhbətlər aparılmalıdır.

9. İncəsənət muzeylərinin ekspozisiyasında uşaq rəsmlərindən ibarət bölmələr, Tbilisidə olduğu kimi uşaq yaradıcılığını əks etdirən muzeylər yaratmaq vacibdir.

10. Öz fəaliyyət yaradıcılığının inkişafı, şəxsi kolleksiyalar, məktəblərdə, müəssisələrdə daimi sərgi zallarının yaradılması məqsədəuyğundur.

11. Azərbaycanın kiçik səhər və kəndlərində xalq qalereyalarının yaradılması zəruridir" (404, s.22-23).

Tədqiqat həm elmi yenilik, həm də nəzəri-təcrübi cəhətdən çox mühüm müzeyşünaslıq-sənətşünaslıq əhəmiyyəti kəsb edir:

"Hazırkı iş bu sahədə yazılan ilk dissertasiya olduğu üçün muzeyşünaslıq və sənətşünaslıqda aşağıdakı bir sıra yeni müddəaları ortaya çıxarmışdır:

Milli ənənələrə, düşüncə və təfəkkür tərzinə əsaslanan Azərbaycanın bədii mədəniyyətinin dünya mədəniyyəti kontekstində öyrənilib təhlil edilməsi ilk dəfə olaraq təqdim olunur.

Şəxsiyyətin bədii mədəniyyətinin inkişafında İncəsənət muzeylərinin fəal mövqeyi, iş sistemi, prinsip və formaları ilk dəfə olaraq müəyyənləşdirilmişdir.

İncəsənət muzeylərinin aktiv fəaliyyəti nəticəsində bədii mədəniyyətin inkişafını daha da fəallaşdırmaq üçün başlıca tələblərin əsas götürülməsi ilk dəfə olaraq şərh edilir.

İncəsənət muzeylərində keçirilən tədbirlərdə müxtəlif yaş qruplarına aid insanların bədii yaradıcılıq qabiliyyətinin, estetik dünyagörüşünün, etik normalarının formalaşması və tərbiyə

olunmasının ümum vəhdətdə, yəni vahid konsepsiya çərçivəsində götürülməsi ilk dəfə olaraq təqdim olunur.

İşin nəzəri-praktiki əhəmiyyəti irəli sürülən müddəalarda öz əksini tapmışdır. Dissertasiya ilə bağlı nəşrlərdə İncəsənət muzeylərində işin daha səmərəli təşkili, bədii mədəniyyətin inkişaf etdirilməsi yolları göstərilmişdir. Bununla əlaqədar nəşr edilmiş metodik tövsiyələr, dərs vəsaiti, arzu və təkliflər artıq incəsənət muzeylərinin iş prosesində tətbiq edilmişdir" (404, s.6-7).

Tədqiqatçı-alim Nazim İsayev özünün "Azərbaycan Demokratik Respublikasının sosial-mədəni siyasəti" (1918-1920-ci illər) mövzusunda namizədlik dissertasiyasında araşdırdığımız problem əhəmiyyətli məsələlərə toxunmuşdur. Tədqiqat işində xalq maarifi, ixtisaslı kadr hazırlığı, mədəni-maarif işi, ədəbiyyat və incəsənət məsələlərinə Azərbaycan Demokratik Respublikasının münasibətindən bəhs edilmişdir. Tədqiq olunan məsələlər sırasında 1914-1920-ci illərdə Azərbaycanda muzey quruculuğu məsələləri də öz əksini tapmışdır. Müəllif hətta 1914-cü ildən Bakıda bir neçə kiçik muzeyin fəaliyyət göstərdiyini, həmin muzeylərin kolleksiyalarının mədəni-maarifçilik fəaliyyətinin məhdudluğunu, Avropa missionerləri tərəfindən maddi mədəniyyət nümunələrinin dəyər-dəyməzinə alıb aparılmasını faktlarla göstərmişdir:

"1914-15-ci illərdə Bakıda bir neçə kiçik muzey var idi: Ticarət məktəbi nəzdində sənaye muzeyi, Rus texniki cəmiyyətinin Bakı şöbəsi nəzdində texniki muzey, xalq məktəblilərinin Bakı-Dağıstan müdirliyi nəzdində pedaqoji muzey. Bu muzeylərin kolleksiyası yoxsul, onların mədəni-maarifçilik fəaliyyəti isə məhdud idi.

Tarixi abidələrin və milli mədəniyyət nümunələrinin hesaba alınması və mühafizəsi üçün heç bir qayda yox idi. 1918-ci ildə Bakıda arxeologiya cəmiyyətinin təşkil olunmasına baxmayaraq, bu cəmiyyət tarixi abidələrin mühafizəsi və qorunması üçün lazımı nəzarət həyata keçirə bilmirdi. Avropa

missionerləri və tacirləri Azərbaycanın şəhər və kəndlərini dolaşaraq, əhalidən yazıçı və şairlərin əlyazmalarını, çini qabları, qızıl sikkələri, qədimi paltarları və digər əşyaları dəyər-dəyməzinə alırdılar" (249, s.143-144).

Müəllif həmin dövrdə müxtəlif profilli muzeylərin yaradılması haqqında məsələ qaldırıldığını ayrı-ayrı sənədlərin zəminində aydınlaşdırmışdır:

"Etnoqrafiya muzeyinin təsis edilməsi haqqında məsələ də qaldırılmışdır. Rus coğrafiya cəmiyyətinin Qafqaz şöbəsinin işlər müdiri Q.F.Çursin maarif nazirinə Bakıda etnoqrafiya muzeyinin təsis edilməsi haqqında izahat məktubu təqdim etmişdi. Layihəyə görə, şöbədə iki yardımçı şöbə təşkil edilməli idi: arxeologiya və tarix şöbələri.

Pedaqogika muzeyinin fəaliyyətində mühüm dəyişikliklər müşahidə olunurdu. Pedaqogika muzeyi haqqında məsələ xüsusi olaraq 1918-ci ilin dekabrında xalq məktəbləri direktorlarının qurultayında qoyulmuşdu. Burada məktəb, rayon və mərkəzi pedaqogika muzeyləri haqqında məruzə dinlənilmiş və qərara alınmışdı ki, onların inkişafına hər vasitə ilə kömək göstərilməlidir. Məktəb muzeyləri müəllim və şagirdlərdə müşahidəçilik və təhsil qabiliyyətinin formalaşmasına kömək etməli idi" (249, s.146-147).

Tədqiqat işində pedaqoji muzeylərin tərkibində kitabxanaların yaranması, nümunəvi məktəblərdə pedaqoji muzeylərin təşkili, eyni zamanda Bakıda və Gəncədə mərkəzi pedaqoji muzeylərin yaradılması və digər muzey-məktəb əhəmiyyətli digər tədbirlərin yerinə yetirilməsi həmin dövrdə pedaqoji muzeylərin inkişafının bitkin proqramı idi (249, s.147).

Tədqiqat işində "İstiqlal" muzeyinin yaradılması barədə məlumat verilsə də sırf muzeyşünaslıqla bağlı problemlərə qismən toxunulmuşdur.

Aida Məmmədovanın araşdırmalarında Azərbaycanın xaça sənətkarlığının mərhələləri, Lətif Kərimov, Kamil Əliyev, Cəfər Mücuri, Eldar Mikayılov, Arif İsmayılov, Zakir Həsə-

nov, Aydın Rəcəbov və digər xalq sənətkarlarının xalça sənətkarlığı tədqiq edilmişdir. Tədqiqat işində ornamentli xalçaların bədii xüsusiyyətləri, tematik süjetli xalçaların bədii-təsir gücü, 1950-1990-cı illərdə Azərbaycan xalça sənətkarlığında ənənə və novatorluq problemləri araşdırılmışdır (101). Azərbaycan peşəkar xalçaçılıq məktəbinin aparıcısı sayılan Azərbaycan SSR Xalq Rəssamı, əməkdar incəsənət xadimi, I dərəcəli Dövlət mükafatı laureatı, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin yaradıcısı Lətif Kərimov sənətkarlığının tədqiqinə kifayət qədər yer verilmişdir (101,s.16-31). Əlbəttə, Lətif Kərimov və digər xalça sənətkarlarımızın zəhməti nəticəsində yaradıcılıq nümunələri Azərbaycan və dünya muzeylərini, şəxsi kolleksiyaları bəzəyir ki, bunlar da öz növbəsində muzeyşünaslıq əhəmiyyətlidir. Çünki, hər bir sənət nümunəsinin tədqiqi, onun ictimai-siyasi, tərbiyəvi, zənginləşdirici, bədii-emosional təsiri barəsində yazı və araşdırmalar (511) muzeyşünaslığımıza böyük dəyər gətirmişdir.

Tədqiqatçı-alim Elmira Alxasovanın araşdırmalarında yeniyetmələrin asudə vaxtının səmərəli təşkilində mədəni-kütləvi tədbirlərin vasitə kimi əhəmiyyəti qiymətləndirilmişdir (18). O qeyd etmişdir ki, "Yeniyetmələrin asudə vaxtında təşkil olunan mədəni-kütləvi tədbirlər həm məktəb, həm də məktəbdənkənar müəssisələr (muzeylər – S.Ə.) tərəfindən hazırlanıb həyata keçirilir" (18, s.4). Tədqiqat işinin II fəslində "Mədəni-kütləvi tədbirlər vasitəsilə yeniyetmələrin asudə vaxtının təşkilində məktəbin və məktəbdənkənar tərbiyə və mədəni-maarif müəssisələrinin imkanları" araşdırılmışdır ki, burada muzey əhəmiyyətli məsələlər də tədqiq edilmişdir.

"Hər hansı bir mədəni-kütləvi tədbirin (muzey tədbirinin, sərginin – S.A.) hazırlanmasında və həyata keçirilməsində yaxından iştirak etmək oğlan və qızların öz fəaliyyətini, müstəqillik və təşəbbüskarlığını, təçkilatçılıq və icraçılıq qabiliyyətlərini inkişaf etdirməklə yanaşı, asudə vaxtını da maraqlı keçirməsinə imkan verir.

Bu və ya digər mədəni-kütləvi tədbirin (sərgi və ya digər muzey tədbirlərinin – S.A.) xüsusiyyəti onun təşkili metodikasını müəyyənləşdirir. Tədbirin iş metodikasına həm də onun təşkilinin konkret yeri, şəraiti və vaxtı, yeniyetmələrin yaşı, pedaqoji kollektiv (muzey kollektivi – S.A.) üzvlərinin təcrübəsi müəyyən təsir edir. Mədəni-kütləvi tədbirin (muzey tədbirinin – S.Ə.) təşkili onun məqsəd və vəzifəsini müəyyənləşdirməkdən başlanır" (18, s.12).

Göründüyü kimi burada müvafiq elmi-metodiki tövsiyələr verilmişdir ki, bu da eyni zamanda muzey əhəmiyyətlidir.

E.Alxasova yeniyetmələrin asudə vaxtının təşkilində məktəbdənkənar tərbiyə və mədəni-maarif müəssisələrinin imkanlarından bəhs edərkən digər mədəniyyət müəssisələri ilə bərabər muzeylərin, mərkəzi uşaq rəsm qalereyasının da adını xüsusi vurğulamışdır:

"Məktəbdənkənar tərbiyə və mədəni-maarif müəssisələri öz məzmununa və fəaliyyət formalarına görə aşağıdakı şəkildə qruplaşdırılır:

Respublika Mədəniyyət nazirliyi sistemində olan mədəni-maarif müəssisələri: uşaq kitabxanaları, uşaq musiqi məktəbləri, klubları, uşaq kino-teatrları (məsələn, "Vətən" kinoteatrı); mədəniyyət evlərinin uşaq bölmələri, muzeylərin uşaq və yeniyetmələrlə iş aparan bölmələri, mərkəzi uşaq rəsm qalereyası" (18, s.14).

Tədqiqatçı Xəzər Zeynalovun tədqiqatlarında "Azərbaycan – gürcü bədii əlaqələri" araşdırılmış, qədim və orta əsrlər dövründən tutmuş XX əsrə qədərki, əlaqəli yaradıcılıq tədqiq edilmişdir (501). Giriş, üç fəsil, nəticə, illüstrativ materiallardan ibarət dissertasiya işinin birinci fəslində "Azərbaycan – gürcü bədii əlaqələrinin qədim və orta əsrlər dövrü tədqiq edilir. Qafqaz Albaniyası ilə Qədim kartli arasındakı mədəni münasibətlər öyrənilir, qədim dövr incəsənətinin ümumi inkişaf problemləri işıqlandırılır. Birinci fəslin ikinci bölməsi orta əsrlər dövrü Azərbaycan-gürcü bədii münasibətlərinə həsr

olunmuşdur ki, burada müəllif əsas diqqəti monumental-dekorativ sənət və miniatür sənəti üzərində cəmləşdirir, onlarda dekorativ-tətbiqi sənətə və xalq yaradıcılığına xas olan keyfiyyətlər axtarır. Təbriz və Qəzvin miniatür məktəblərinin qədim tarixə malik olan gürcü miniatürlərinə aşıladıqları mütərəqqi dünyəvi məzmun nəzərdən keçirilir" (501, s.25).

İkinci fəsildə əsasən XVIII əsrin sonu XIX əsr Azərbaycan-gürcü bədii münasibətləri, XX əsrin əvvəllərində Azərbaycan incəsənətində yaranmış realist meyllər, satirik qrafika janrının inkişafında iki ölkə rəssamlarının mövqeyi tədqiq edilmişdir (501).

Üçüncü fəsildə isə XX əsr Azərbaycan-Gürcüstan bədii əlaqələri araşdırılmışdır. III fəslin birinci bölməsində:

"... bu əlaqələrin ictimai-siyasi və mədəni kökləri, ümumi cəhətləri tədqiq edilmiş, müxtəlif rəssamların yaradıcılıq metodları təhlil olunmuşdur. Əsrin 20-30-cu illərində istər Azərbaycan, istərsə də Gürcüstan təsviri sənətində özünü büruzə vermiş yeni sahələr, janrlar, yaradıcılıq meylləri hər iki respublika üçün səciyyəvi olan konteksdə nəzərdən keçirilmiş, müxtəlif rəssamlar arasındakı yaradıcılıq paralelləri öyrənilmişdir.

Fəslin ikinci bölməsində isə əsrin əvvəllərindən tutmuş son dövrlərədək olan bədii və mədəni-kütləvi tədbirlərdən söz açılır. Müəllif XX əsrin müxtəlif mərhələlərində Azərbaycanın və Gürcüstanın bədii həyatında əhəmiyyətli rol oynamış konfransları, görüşləri, müsamirələri, sərgiləri qeyd edir, qarşılıqlı münasibətlərin möhkəmlənməsində onların faydasını vurğulayır" (501, s. 25).

Beləliklə, tədqiqat işindəki araşdırmalar, iki xalq arasındakı incəsənət sahəsindəki yaradıcı əlaqələrin mövcudluğu həm Azərbaycan, həm də Gürcüstan muzeylərindəki eksponat, əşya, materiallar zəminində sərgilər vasitəsilə dərin köklərə malik olduğunu bir daha təsdiq etmişdir ki, bu da araşdırdığımız problem baxımından aktualdır, əhəmiyyətlidir. Çünki, qonşu xalqlar arasındakı qədim dövrlərdən bu günə qədər iqtisadi,

sosial və mədəni qarşılıqlı əlaqəlilik mərhələlərlə əhəmiyyətini göstərmişdir.

Tədqiqatçı-sənətşünas Aludə Əhmədova tərəfindən araşdırılmış "Azərbaycan muzeylərində ekspozisiyanın təşkil edilməsinin estetik prinsipləri" mövzusunda namizədlik dissertasiya işi problem baxımından əhəmiyyətlidir. Dissertasiya işinin hər üç fəsli muzeyşünaslıq əhəmiyyətlidir. I fəsildə Azərbaycanda muzey işinin təşəkkülü, kolleksiyaçılıq ənənələri, muzey işinin formalaşması, erkən muzeyçilik ənənələri tədqiq edilmişdir. Tədqiqatçı muzey anlayışına sırf muzeyşünas nöqteyi-nəzərindən yanaşaraq, onu xüsusiyyətlərə ayırır:

"Beləliklə, müasir mənada muzey anlayışı ənənəvi kolleksiyaçılıq fəaliyyətindən müxtəlif amillərlə yanaşı, həm də iki vacib amil baxımından da fərqlənir. Əvvəla muzeylər maddi-mədəniyyət nümunələrinə malik olmaqla deyil, onları həm də çoxsaylı kütlələrə nümayiş etdirməklə tanınır. Bu xüsusiyyət muzeylə kolleksiya arasındakı əsas prinsipial fərqlərdən biridir. Bundan başqa, muzeylər ictimai mahiyyət daşımaqla kütlələrin estetik şüur səviyyəsinin yüksəlməsinə xidmət etmiş olur. İkincisi, deyildiyi kimi, muzeylər elmi fəaliyyət göstərir. Adətən əsaslı muzeylərdə elmi mərkəz, şöbələr, kitabxana, nəşriyyat, laboratoriya, kinoqurğu və s. bu kimi bölmələr olur. Bu bölmələr muzeyin elmi fəaliyyət sistemini səciyyələndirir.

Qeyd edilən bu iki xüsusiyyətdən başqa, ənənəvi kolleksiyaçılıq fəaliyyəti ilə müasir muzeyşünaslıq anlayışı arasında bəzi digər prinsipial fərqlər də vardır ki, tədqiqatın müxtəlif bölmələrində onlardan söz açılır. Bununla yanaşı, muzeyçilik tarixinə nəzər salsaq, görərik ki, bir çox muzeylər məhz ənənəvi kolleksiyaçılıq zəminində inkişaf edərək müasir formaya qədəm qoymuşlar. Kolleksiyaçılıq ənənələri mövcud olmasa idi, ictimai məzmunun qüvvətləndiyi bir şəraitdə (misal üçün, Avropada maarifçilik dövründən başlayaraq) nümayiş etdirmək üçün obyekt də olmazdı. Buradan belə bir nəticə çıxır ki, müasir muzeyşünaslıqla tarixən mövcud olmuş kollek-

siyaçılıq ənənələrini eyniləşdirmək elmi cəhətdən düzgün olmasa da, onların arasındakı tarixi əlaqəni, ənələrin nəsildən-nəslə ötürülməsi prinsipini, sələfçilik anlayışını da yaddan çıxarmaq olmaz. Məhz bu baxımdan Azərbaycan muzeyşünaslığı problemlərini araşdırarkən, əhəmiyyətli mənbə və əsaslı tərkib hissə kimi, ölkəmizdə tarixən mövcud olmuş kolleksiyaçılıq ənənələrini hərtərəfli şəkildə tədqiq etmək lazımdır (137, s.13-14).

Qeyd etməliyəm ki, S.Əmirxanov, E.Qurbanova ilə yanaşı Aludə Əhmədova da "muzeyşünaslıq"la bağlı tədqiqat işində çox dəyərli tədqiqat işi aparmışdır. Ümumiyyətlə, Azərbaycan muzeyşünaslığının inkişafı üçün bu tədqiqat işi mövzu, forma və məzmun baxımından mühüm əhəmiyyət kəsb edir. Muzeyşünas I fəsildə çox haqlı olaraq araşdırmalar sahəsində belə bir nəticəyə gəlmişdir ki;

"Muzeyşünaslığın formalaşmasında kolleksiyaçılıq ənənələrinin rolundan bəhs edərkən belə bir fakta da nəzər yetirməmək olmaz ki, bir sıra muzeylər, o cümlədən nisbətən samballı və əsaslı muzeylər kolleksiyaçılıq zəminində əmələ gəlməyiblər" (137, s.19).

"... misal üçün Azərbaycan muzeyi hesab edilən "İstiqlal" muzeyi demək olar ki, heç bir əsaslı özəyə malik olmadan yaradılmışdır. Bu muzeyin eksponat özəyini uzun əsrlərdən bəri toplanmaqda olan hər hansı bir imtiyazlı sülaləyə məxsus olan kolleksiya deyil, ayrı-ayrı şəxslərin, sənət xadimlərinin təqdim etdikləri hədiyyələr təşkil etmişdir. Bununla belə "İstiqlal" muzeyi dövrünə və həcminə görə əsaslı muzeylər cərgəsinə daxildir" (137, s.20).

Azərbaycanda muzeyşünaslığın inkişafından bəhs edən tədqiqatçı bu formalaşmanın tarixi xüsusiyyətlərini göstərmişdir:

"Azərbaycan muzeyşünaslığının inkişafından, onun tarıxən formalaşma xüsusiyyətlərindən bəhs edərkən, Tbilisidə yerləşən Gürcüstan dövlət muzeyinin adını çəkməmək olmaz.,

Zəngin tarixi keçmişə malik olan bu muzey, vaxtı ilə Zaqafqaziyada yeganə dövlət muzeyi olmuşdur" (137, s.24).

"Gürcüstan Dövlət Muzeyinin Azərbaycan muzeyşünaslığı qarşısında əsas xidmətlərindən biri də budur ki, hələ çar Rusiyası dövründə, Azərbaycanda muzeylərin olmadığı bir vaxtda, Azərbaycan ərazisində aşkar edilən qiymətli maddi-mədəniyyət nümunələri nümayiş etdirmək üçün Tiflisə, burada yerləşən Muzeyə göndərildi" (137, s.24).

A.Əhmədova Azərbaycan muzeyçilik ənənələrinin formalaşmasına təsir göstərən bəzi amillərin mənfi, bəzilərinin isə müsbət təsirini araşdırmışdır (137, s.25). O, kolleksiyaçılıq ənənələri ilə bağlı belə qənaətə gəlmişdir:

"- Azərbaycan tarixən qiymətli maddi-mədəniyyət nümunələri ilə, incəsənət əsərləri ilə zəngin olan bir ölkə olmuşdur. Muzey işinin Azərbaycanda nisbətən gec inkişaf etməsinə baxmayaraq Azərbaycan ərazisində aşkar edilmiş maddi-mədəniyyət nümunələri bir çox ölkələrin muzeylərinin əsas eksponatları cərgəsindədir;

- Azərbaycan muzeylərinin ekspozisiya xəttinin tamamlanmasında müasir (XX əsr) Azərbaycan əsərləri həlledici rola malikdir. Tarixi və bədii baxımdan böyük qiymətə malik olan sənət nümunələrimizin müxtəlif dövrlərdə ölkəmizdən çıxarılıb aparıldığı bir şəraitdə müasir rəngkarlıq işlərinin ekspozisiya ardıcıllığı baxımından əhəmiyyəti göz qabağındadır;

- XX əsrdə, xüsusilə 50-70-ci illərdə Azərbaycanda arxeologiya və etnoqrafiya elmlərinin inkişafı, muzeylərimizin eksponat fondunun xeyli zənginləşməsinin əsas amili olmuşdur;

- Azərbaycan muzeylərinin eksponat xəttini əsasən spesifikası təsviri və tətbiqi sənət nümunələrindən, həmçinin arxeoloji materialdan ibarət olan əşyalar təşkil edir.

Gördüyümüz kimi, muzey yönümlü kolleksiyaçılıq ənənələrinin, milli muzeyçilik tarixinin XX əsrin əvvəllərinə qədərki dövrdə və ondan sonrakı mərhələdə müxtəlif bədii, sosial və

ictimai-siyasi amillərlə səciyyələnən spesifik inkişaf dəst-xətti olmuşdur. Muzey işinin yaranmasına, inkişaf etməsinə və istiqamətlənməsinə istər daxili, istərsə də xarici amillər təsir göstərmişdir. Bu amillər həm mənfi, həm də müsbət keyfiyyətlərə malik olmuşdur. Bu keyfiyyətlərə əsaslanaraq milli muzeyşünaslıq tarixinin, muzey eksponatlarının tarixi və bədii xüsusiyyətlərinin səciyyəvi cəhətlərini düzgün surətdə təhlil etmək mümkündür. Deməli Azərbaycan muzeyşünaslığının həyata vəsiqə almasında ilk növbədə ictimai-siyasi və sosial-mədəni amillərin rolunu obyektiv qiymətləndirmək lazım gəlir. Belə ki, hər şeydən əvvəl, Azərbaycan muzeyçilik fəaliyyəti milli bazaya əsaslanır. Ekspozisiya ardıcıllığının bədii və tarixi əsasını sırf Azərbaycan mənşəli materiallar təşkil edir. Eyni zamanda belə bir faktı da vurğulamaq lazım gəlir ki, Azərbaycan maddi-mədəniyyətinin bir çox milli səciyyə daşıyan nümunəsi qeyri – Azərbaycan muzeylərindədir (137, s.26,27). Üstəlik tarixi və bədii əhəmiyyət baxımından yanaşdıqda qeyri – Azərbaycan muzeylərimizdəki sənət incilərimizin daha qiymətli olduğu aşkara çıxır".

A.Əhmədova I fəsildə Azərbaycanda muzey işinin formalaşması istiqamətində apardığı tədqiqatdan bəhs edərək, muzeylərin yaranmasının mədəni və ictimai-siyasi kökləri (137, s.27), ayrı-ayrı tarixi dövrlər inkişafı (137, s.28-37), nəhayət "İstiqlal" və digər muzeylərin yaranması (137, s.37-44) və problemlə bağlı gəldiyi nəticələri aşağıdakı şəkildə vermişdir:

"Azərbaycanda muzeyşünaslığın inkişaf tarixinə qısaca nəzər salmaqla aşağıdakı ümumi nəticələrə gəlmək olar:

- əvvəla, ilk Azərbaycan milli muzeyi yalnız XX əsrdə, 1919-cu ilin dekabr ayında yaradılsa da, Azərbaycanda muzeyçiliyin ümumi təşəkkülü üçün artıq XIX əsrin 70-ci illərindən başlayaraq əlverişli mədəni zəmin olmuşdur. Görkəmli ədib və publisistimiz C.Məmmədquluzadənin hələ XIX əsrin sonlarında Naxçıvanda dərs deyərkən çalışdığı məktəbin nəzdində

fəaliyyət göstərəcək ölkəşünaslıq istiqamətli muzeyin yaradılmasına çalışması və bu məsələdə müəyyən müvəffəqiyyətlərə nail olması dediklərimizə əyani sübutdur. Əsrimizin əvvəllərində Bakı şəhərində mövcud olmuş pedaqoji-ölkəşünaslıq yönümlü tələbə-tədris muzeyinin də müəyyən əhəmiyyəti olmuşdur. Milli psixologiya baxımından bu muzey Azərbaycan xalqının mənəvi dəyərlərinə yad olub əsasən imperiya siyasətinin möhkəmlənməsinə xidmət edən bir dəst-xəttə malik olmasına baxmayaraq, tarixi həqiqət kimi Azərbaycanın muzeyçilik tarixində onun da öz yeri və mövqeyi vardır;

- ümumdünya tarixi prosesin demək olar ki, bütün mərhələlərində Azərbaycanda formalaşmış mədəni və bədii irs onu qiymətli sənət əsərləri ilə zəngin olan ölkələr sırasına çıxarmışdır;

- yeni dövrdə Azərbaycanda praktik olaraq muzeylərin yaradılmasının digər ölkələrə nisbətən xeyli ləngiməsi ölkənin siyasi, inzibati və hüquqi statusu ilə bağlı olmuşdur. Məlum obyektiv səbəblər üzün müddət Azərbaycanın mədəni tərəqqisinin sürətlə inkişafına mane olmuş, mədəni inkişaf prosesinin ən mühüm göstəricilərindən biri olan milli muzeylərin yaradılması işini XX əsrin əvvəllərinə qədər ləngitmişdir;

- Azərbaycanda ilk milli muzey yalnız müstəqillik dövründə, milli hökumət tərəfindən yaradılmışdır. Bu baxımdam həmin muzeyin "İstiqlal" adlandırılması milli-azadlıq əhval-ruhiyyəsini ifadə edirdi. "İstiqlal" muzeyinin bilavasitə parlament binasında yerləşməsi onun həm ictimai-siyasi, həm də mənəvi və bədii əhəmiyyətini daha bariz bir şəkildə ifadə edirdi;

- İstiqlal muzeyinin az ömür sürməsinə baxmayaraq (1919-cu ilin dekabrından 1920-ci ilin may ayınadək) onun Azərbaycanın milli muzeyşünaslıq tarixinin formalaşmasında həlledici rolu olmuşdur. Təsadüfi deyildir ki, milli Azərbaycan muzeyçilik tarixi öz başlanğıcını "İstiqlal" muzeyindən götürür;

- XX əsrin 20-30-cu illəri Azərbaycan muzey işinin intensiv inkişafı dövrüdür. Repressiyalara və milli süurun istiqamətlənməsi işindəki süni cəhdlərə baxmayaraq məhz bu dövrdə Azərbaycan muzeyşünaslığının hərtərəfli inkişafı üçün əsaslı bünövrə qoyulmuşdur" (137, s.44-45).

Dissertasiya işinin II fəslində muzey işinin estetik əsasları, estetik amil nəzəriyyəsi, estetik mahiyyət və muzey tərtibat işində bədii və texniki amil kimi muzeyşünaslıq məsələlərinin tədqiqi nəticələri göstərilmişdir (137, s.47-82).

III fəsildə "Azərbaycan müzeylərində bədii-estetik tərtibat və müasir muzeyşünaslığın aktual problemləri"ndən bəhs edən A.Əhmədova həmin məsələ ilə bağlı nəticəni aşağıdakı şəkildə vermişdir:

"Son illərdə baş vermiş olan ictimai-siyasi dəyişiklik Azərbaycan muzeyşünaslığının strukturuna ciddi təsir göstərmişdir. Onun əsasını muzey rekonstruksiyası, qloballaşma və əxlaqi-etik dəyərlər problemi təşkil edir;

- Azərbaycanda muzeyşünaslıq evakuasiyası mədəniyyəti hələ tam şəkildə formalaşmışdır. Bu isə müvəqqəti işğal edilmiş torpaqlarımızdakı maddi-mədəniyyət nümunələrinə ciddi zərər vurmuşdur;

Muzeyşünaslığın müasir dövr inkişaf problemləri təhsil sistemi ilə sıx əlaqədardır. Respublikanın bir neçə ali məktəbində tədris edilən müvafiq fənlər muzey işi, kulturologiya, dizayn kimi sahələrin mənimsənilməsi baxımından təqdirəlayiqdir" (137, s.122).

A.Əhmədova öz tədqiqat işində ekspozisiyanın estetik xüsusiyyəti. estetik əsasları, milli muzeyşünaslıqda rekonstruksiya və əxlaqi-etik dəyərlər münasibətləri, muzeylərin estetik quruluş səviyyələri məsələlərini ardıcıllıqla araşdıraraq aşağıdakı nəticələrə gəlmişdir:

"1. Muzey ekspozisiyalarının quruluşundakı estetik xüsusiyyətləri problemini işıqlandırarkən tarixi zəminə istinad edilmişdir. Bu isə problemin tarixi köklərini araşdırmaqla onun

əsaslandırılmış istiqamətlənməsini təmin edir.

2. Ekspozisiyaların təşkil edilməsinin estetik əsaslarının iki əsas bazası vardır ki, bunlar da bədii və texniki amillərdən ibarətdir. Bu iki amilin, daha doğrusu, amillər silsiləsinin qarşılıqlı münasibətlərini və ekspozisiyanın qurulmasında nə dərəcədə iştirak etməsini elmi əsaslarla müəyyənləşdirərək düzgün nəticəyə gəlmək mümkündür. Bu fikir müəyyən muzeylərdəki konkret nümunələrlə, tərtibat quruluşundakı xüsusiyyətlərə təsdiq edilir.

3. Dissertasiyada ilk dəfə olaraq Azərbaycan muzeyşünaslığında elmi şəkildə tədqiq olunmamış sahələrə - rekonstruksiya və əxlaqi-etik dəyərlər münasibətlərinə toxunulur. Bu problem özünün əsas ifadəsini Azərbaycan mühitində nisbətən yeni anlayışı olan "muzey evakuasiyası mədəniyyəti" ifadəsində tapmış olur.

4. Muzeylərin estetik, quruluş səviyyəsinin inkişafı istiqamətli təhsil sahələri ilə əlaqələnir ki, burada da baza ixtisasları olan "Muzey və abidələrin bərpası" və "Tətbiqi dizayn" fənləri üstünlüyə malikdir. Onların praktik fəaliyyəti və muzeylərlə canlı təmas qurması ekspozisiya təşkil edilməsinin estetik əsaslarını şərtləndirir və onun professional inkişafını təmin edir" (137, s. 126-128).

Doğrudur, A.Əhmədova araşdırdığı problemi tam əhatəsilə tədqiq etməsə də, əsər milli muzeyşünaslığımızın inkişafında mühüm mərhələdir, təqdirəlayiqdir. Ekspozisiya quruluşunun estetik əsasları sahəsində ilk və milli muzeyşünaslığımızda vacib olan bu tədqiqat işi öz aktuallığını elmi-nəzəri və təcrübi əsaslarda əyani şəkildə göstərməkdədir.

Son 10 ildə Azərbaycan muzeyşünaslığının inkişafını təsdiq edən tədqiqatlardan sayılan Bəhman Kərimov tərəfindən araşdırılan və hazırda aktuallığı ilə diqqəti cəlb edən "Azərbaycanda tarix-diyarşünaslıq muzeylərinin təşəkkülü və inkişafı tarixi" mövzusundakı dissertasiya işi mühüm əhəmiyyət kəsb edir. Problemin aktuallığını şərtləndirən cəhətlər tədqiqat-

çı tərəfindən aşağıdakı şəkildə əsaslandırılmışdır:

"Birincisi, tarix-diyarşünaslıq muzeyləri Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq müasir elmi-metodoloji baxımdan araşdırılır, ölkəmizdə fəaliyyət göstərən bu profilli muzeylərin təcrübəsi ümumiləşdirilir.

İkincisi, diyarşünaslıq muzeylərinin fəaliyyəti ölkəmizin konkret-tarixi təcrübəsi kontekstində nəzərdən keçirilir. Respublikada muzey işinin öyrənilməsi göstərir ki, tarix-diyarşünaslıq muzeyləri ümumi muzey hərəkatının ayrılmaz hissəsi olmuşdur.

Üçüncü, Azərbaycanda tarix-diyarşünaslıq muzeyləri milli maarifçilik hərəkatının mühüm qollarından biri kimi daha ətraflı tədqiq edilir. Həmin dövrdə muzey işinə diqqət məhz xalqımızın tarixinə, ədəbi-ictimai fikrinə, adət və ənənələrinə olan dərin maraqla izah olunur.

Dördüncüsü, Azərbaycanda tarix-diyarşünaslıq muzeylərini özünəməxsus fərqləndirən cəhətlərin tədqiq edilməsidir. İşin aktuallığını şərtləndirən mühüm amillərdən biri də tədqiqatın bu aspektini öyrənməkdir" (265, s.4-5).

Elmi yenilik və təcrübi əhəmiyyət baxımından elmi-tədqiqat işi çoxcəhətli olmaqla sırf muzeyşünaslığın tərkib hissələri kimi elmi mahiyyət kəsb edir.

B.Kərimov elmi yeniliyin sistem halında, praktik əhəmiyyətini konkret şəkildə aşağıdakı kimi göstərmişdir. Dissertasiya işində elmi yenilik:

"İlk dəfə olaraq ədəbiyyat və mənbələrin kompleks təhlili əsasında Azərbaycanda mədəni quruculuğun mühüm hissəsi olan tarix-diyarşünaslıq muzeylərinin təşəkkülü və inkişafı probleminin öyrənilməsinə cəhd göstərilmişdir.

- Tədqiqat işində ilk dəfə olaraq ayrı-ayrı tarix-diyarşünaslıq muzeylərinin iş təcrübəsinin elmi ümumiləşdirilməsi verilmişdir.

- Tarix-diyarşünaslıq profilli muzey hərəkatı Azərbaycan maarifçiliyinin milli-mədəni inkişaf konsepsiyaları ilə əlaqədə

verilmişdir.

- Tarix-diyarşünaslıq muzeylərinin təşəkkülü dövrün sosial-mədəni şəraiti baxımından işıqlandırılmış, milli xüsusiyyətləri açıqlamışdır.

Işin praktik əhəmiyyəti. Dissertasiyanın materaillarından vətən tarixinin tədqiqində və milli mədəniyyətimizin öyrənilməsində istifadə oluna bilər. Dissertasiya işi müxtəlif ali məktəblərdə, xüsusilə Mədəniyyət və İncəsənət Universitetində diyarşünaslıq, muzeyşünaslıq fənlərinin tədrisində, eləcə də muzey tarixi ilə əlaqədar tədqiqatlarda faydalı mənbə kimi yararlı ola bilər.

Tədqiqatın nəticə və tövsiyələri ölkədə ümumiyyətlə diyarşünaslıq işinin fəallaşmasında müəyyən stimul rolunu oynaya bilər" (265, s. 9).

Dissertasiya işinin "Azərbaycanda tarix-diyarşünaslıq muzeylərinin formalaşması tarixindən" adlı I fəslində diyarşünaslıq hərəkatının muzeylərin təşəkkülünə mühüm rolu, muzey-ekskursiya mərkəzi və "Azərbaycan Tədqiq və Tətöbbə cəmiyyəti"nin əvəzsiz yeri, Azərbaycan diyarşünaslarının, I qurultayının, fəal diyarşünasların böyük xidmətinin, respublikada muzey işinin inkişaf etdirilməsi ilə bağlı qərarların əhəmiyyəti tədqiq edilmişdir" (265, s.9-14).

Tarix-diyarşünaslıq muzeyləri şəbəkəsinin genişlənməsi və inkişafı tarixindən" adlı II fəsildə fond və ekspozisiyaların təkmilləşdirilməsi, kadr potensialının artırılması işinin yaxşılaşdırılması və muzey şəbəkəsinin genişləndirilməsi sahəsində görülən tədbirlərlə bağlı araşdırmalar aparılmışdır. Bu fəsildə rayon muzeylərinin fond və ekspozisiyalarının kəmiyyət və keyfiyyət fərqliliyi, ekspozisiyanın hər bölgənin etnoqrafik keçmişinə uyğun qurulması, zəngin fond bazasının olması barədə göstərilmişdir:

"Qeyd olunmalıdır ki, tarix-diyarşünaslıq muzeyləri başqa profilli muzeylərdən fərqli olaraq yerləşdiyi rayonun ərazisində toplanmış tarixi-mədəni eksponatlar əsasında təşkil

edilir. Elə ona görə də ayrı-ayrı rayonlarda yerləşən muzeylərin fond və ekspozisiyaları kəmiyyət və keyfiyyətcə bir-birindən fərqlənir. Tarix-diyarşünaslıq muzeylərində təşkil edilmiş ekspozisiyaların quruluşunda cüzi oxşarlıq olmasına baxmayaraq nümayiş etdirilən eksponatlar baxımından bunlar arasında eyniyyət işarəsi qoymaq düzgün olmazdı. Ekspozisiya hər bölgənin etnoqrafik keçmişinə uyğun qurulur. Burada nümayiş etdirilən materiallar Azərbaycan xalqının məişət və mədəniyyətinin özünəməxsus spesifik milli cəhətlərini, hər bir rayonun ənənəvi xüsusiyyətlərini şərh edərək seçib göstərir.

Tarix-diyarşünaslıq muzeylərində toplanmış eksponatlar çox zaman nadir və yeganə nüsxə olduğu üçün tarixi məxəz əhəmiyyəti daşıyır və elmi-tədqiqat işində etibarlı mənbə kimi istifadə olunur. Onların əsasında tərtib edilən ekspozisiyalar insanların tarixi irslə tərbiyə olunmasında mühüm vasitə rolunu oynayır. Deməli, fondları muzeylərin əsası, onun məxəzi və istinad etdiyi xəzinəsi kimi səciyyələndirmək mümkündür. Ona görə də hər bir muzeyin dolğun və ətraflı ekspozisiyası olması üçün, onun mütləq zəngin fond bazası olmalıdır" (265, s.15-16).

1970-1980-ci illərdə Ulu Öndərimizin muzey işinə hədsiz qayğısı və diqqətinin olması da çox doğru-düzgün olaraq tədqiqat nəticəsi kimi verilmişdir.

"Bu dövrdə Azərbaycanda muzey işinə qayğı və diqqət ölkəmizin başçısı Heydər Əliyevin fəaliyyətində xüsusi yer tutur. Onu mədəniyyətə xüsusi diqqət yetirən bani kimi səciyyələndirən cəhətlərdən biri muzey işinə ürəkdən qayğı göstərməsidir. O, xalqın əsrlər boyu yaratdığı mənəvi sərvətin – mədəniyyət dəyərlərinin toplanması, qorunması və daha da zənginləşdirilməsi üçün əməyini əsirgəməmişdir. 1980-ci ildə məhz Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə respublika muzey işinə aid xüsusi qərar qəbul edilmişdi. Nəticədə respublikanın bütün rayonlarında tarix-diyarşünaslıq muzeyləri yaradılmışdı" (265, s.18).

Dissertasiya işində Azərbaycan Respublikası torpaqlarının 20 faizindən çoxunun erməni separatçılarının əsarəti altında olması, xalqımızın tarixi keçmişinin və bu gününü əks etdirən maddi-mədəniyyət nümunələrinin məhv edilməsi, onları öz adlarına təbliğat aparmaları böyük təəssüf hissi, ürək yanğısı ilə qeyd edilmişdir (265, s.19).

III fəsildə isə "Tarix-diyarşünaslıq muzeylərində aparılan elmi-kütləvi işlərin xalqın tarixi yaddaşının möhkəmləndirilməsində və vətənpərvərlik hissinin formalaşmasında rolu"ndan bəhs edilir, ideya-siyasi mədəniyyətin formalaşması, dünyagörüşlərinin dərinləşdirilməsi, gənclərdə elmi-nəzəri araşdırma bacarığı və vərdişlərin formalaşdırılmasında vasitələr tədqiq edilmişdir; bu prosesdə bir sıra muzeylərin təcrübəyə malik olmaları təhlil olunmuşdur:

"Tarix-diyarşünaslıq muzeylərimizin əhalidə ideya-siyasi mədəniyyətin formalaşması prosesini, tarixi bilik və vətənpərvərlik hisslərini özündə ehtiva edən dünyagörüşünün dərinləşməsi ilə əlaqələndirməklə zəngin informasiya mənbəyi rolunu oynayır. Bu da zəhmətkeşlərin müəyyən hissəsində, xüsusilə gənclərdə "elmi-nəzəri araşdırma bacarığını və vərdişlərin formalaşmasında təsirli vasitədir". Bununla yanaşı bu profilli muzeylərimiz gənclərin peşələrə istiqamətlənməsində tarix, təbiət və başqa elm sahələri üzrə biliklərin praktik roluna inam oyadır.

Bu işdə Lənkəran, Şəki, Quba, Xaçmaz, Gəncə və sair tarix-diyarşünaslıq muzeyləri geniş fəaliyyət göstərir. Bu onların düzgün elmi metodologiya əsasında təşkil etdikləri sərgi və mühazirələrdə özünü daha bariz göstərir. Həmin muzeylər zəhmətkeşlərdə diyarın tarixinə marağın artmasında, onlara vətənpərvərlik hisslərinin aşılanmasında böyük iş görürlər. Muzey işçiləri eksponatların əyaniləşdirilməsi metodu ilə tamaşaçıların müşahidə və müqayisə etmə, analitik təhlil bacarığı, qabiliyyəti və vərdişlərinin inkişafı üçün böyük səy göstərirlər" (265, s.22).

Muzeyşünas Bəhmən Kərimov araşdırmaları nəticəsində tarix-diyarşünaslıq muzeyləri vasitəsilə əhalidə tarixi yaddaşın möhkəmləndirilməsi, vətənpərvərlik tərbiyəsinin formalaşdırılması, ümumiyyətlə tarix-diyarşünaslıq muzeylərinin işinin daha da təkmilləşdirilməsi istiqamətində başlıca tələbləri aşağıdakı ardıcıllıqla əlaqələndirmişdir:

"1. Tarix-diyarşünaslıq muzeyləri ilə ümumtəhsil məktəblərinin və gənclər təşkilatlarının qarşılıqlı fəaliyyəti təmin olunmalıdır.

2. Tarix-diyarşünaslıq muzeylərinin müxtəlif məzmunlu sərgilərinə, kollektiv baxışlarla əlaqədar qabaqcadan lazımı hazırlıq işləri görülməli, bu tədbirlərdə şəxsiyyətin vətənpərvərlik tərbiyəsi ön plana çəkilməlidir.

3. Kollektiv baxış üçün müəyyənləşdirilən sərgilər, nəzərdə tutulan eksponatlar, auditoriya məşğələləri, aparılan söhbətlər məktəbli gənclərin yaş səviyyəsinə uyğun olmalıdır.

4. Müxtəlif məzmunlu ekskursiyalar gənclərin yaş məsələsi nəzərə alınmaqla ayrıca qrupda təşkil edilməlidir.

5. Daimi və metodik ekspozisiyalara təşkil edilən kollektiv baxışlar zamanı peşəkar muzey işçiləri tərəfindən aparılan ekskursiyalar tarix fənninin tədrisi ilə üzvü əlaqələndirilməlidir.

6. Taix-diyaşünaslıq muzeylərinə ekskursiyalar təşkili zamanı əhaliyə vətənpərvərlik tərbiyəsini aşılayan sərgilərə, ekspozisiyalara geniş yer verilməlidir.

7. Diyarşünaslıq muzeylərində təşkil edilən müntəzəm, sistemli ekskursiyalar, qurulan sərgilər, orada aparılan söhbət və mühazirələr vasitəsilə tarixə oyanan maraq və gənclərin geniş elmi fəaliyyət (eləcə də diyarşünaslıq dərnəklərinə) cəlb edilməsinə zəmin yaratmalıdır.

Tarix-diyarşünaslıq muzeylərində aparılan elmi-kütləvi tədbirlərdə yuxarıda göstərilən prinsiplər – başlıca tələblər nəzərə alınmalıdır.

Diyarşünaslıq muzeylərində əlamətdar tarixi hadisələrlə

əlaqədar keçirilən "açıq qapı" günləri də zəhmətkeşlərin asudə vaxtının səmərəli təşkili baxımından mühüm əhəmiyyət kəsb edir. "Açıq qapı" günlərində yalnız ekskursiyalar deyil, kütləvi işin müxtəlif səmərəli formalarından istifadə olunur. Yaxşı olar ki, həmin gün fond eksponatlarından sərgi təşkil edilsin" (265, s.21).

B.Kərimovun tədqiqat işi tarix-diyarşünaslıq muzeylərinin təşəkkülü, fəaliyyəti, işinin sistemləşdirilməsi sahəsində ilk araşdırma olmaqla, elmi-nəzəri və təcrübi nöqteyi-nəzərindən milli muzeyşünaslığın zənginləşməsində mühüm addımdır.

Milli dekorativ tətbiqi sənətkarlığın inkişafında əhəmiyyətli yer tutan Nərminə Tağıyeva tərəfindən tədqiqat mənbəyi olan "Azərbaycan xalça sənəti Amerika sənətşünaslığında" mövzusundakı namizədlik dissertasiya işi giriş, üç fəsil, nəticə və biblioqrafiyadan ibarət olmaqla, "Azərbaycan xalçasının yaranması və tədqiqat obyekti kimi, Azərbaycan xalçaları Amerika sənətşünaslığında" məsələlərinin araşdırılmasına həsr edilmiş, eyni zamanda problemlə bağlı Azərbaycan və Amerika sənətşünaslarının elmi-nəzəri fikirlərinə istinad edilmişdir. (527, s.3-125). Azərbaycan xalçasının yüksək bədii keyfiyyətini xüsusi vurğulayan N.Tağıyeva, bu gün yüzlərlə unikal xalçalarımızın dünyanın ən zəngin və böyük muzeylərinin kollektivləri ilə bərabər nümayiş etdirilməsini, həm ABŞ, həm də dünyanın bir çox şəxsi kolleksiyalarında qorunması, təbliği və nümayişini göstərmişdir (527, s. 28).

Tədqiqatçı göstərmişdir ki, "Azərbaycan xalçaları ABŞ-ın 19-dan artıq muzeyinin, 10-dan çox qalereyasının çox dəyərli kolleksiyaları sayılmaqla, ABŞ-ın 58 şəxsi kolleksiyasının qiymətli nümunələri kimi qorunur, nümayiş və təbliğ edilir, eyni zamanda ABŞ-da 5-dən artıq xalça cəmiyyəti və fondu tərkibinə daxildir" (527, s.28).

Azərbaycan muzeyşünaslığının inkişafında aktuallığı ilə diqqət çəkən tədqiqatlardan sayılan muzeyşünas Alla Bayramo-

vanın "Azərbaycan musiqi mədəniyyəti materiallarının toplanması, qorunması, tədqiqi və təbliğində müzeylərin rolu" mövzusunda namizədlik dissertasiya işində araşdırdığımız problem əhəmiyyətli məsələlərin bir qismi tədqiq və təhlil edilmişdir. Tədqiqat işində əsasən Azərbaycan Dövlət Musiqi Mədəniyyəti Muzeyi və onun filialı olan Niyazinin Ev Muzeyinin materialları, eksponatları bazasında araşdırmalar təhlil edilmiş və onun nəticələri verilmişdir. Tədqiqat işində eyni zamanda Azərbaycanda muzey işinin tarixi, qeyri-musiqi profilli muzeylərin musiqi kolleksiyalarının tədqiqi həyata keçirilmişdir.

I fəsildə Azərbaycanda muzey işinin tarixini araşdıran A.Bayramova milli muzey işimizin 100 illik fəaliyyətini qeyd etmişdir (527, s.12). Azərbaycanda muzey işinin yaranmasının tarixi mənbələrini göstərən tədqiqatçı H.Zərdabi, C.Məmmədquluzadə, Balabəy Əlibəyov kimi ilk muzey təşəbbüskarlarının fəaliyyətlərini araşdırmışdır (527, s.10-17). Bakıda, Naxçıvanda, digər bölgələrdə yaradılan diyarşünaslıq muzeylərinin təsir gücü, orada nümayiş etdirilən material və eksponatların elmi-nəzəri, təcrübi əhəmiyyəti mərhələli şəkildə tədqiq edilmişdir (527, s.17-25).

1967-ci ildə Azərbaycan Dövlət Musiqi Mədəniyyəti Muzeyinin yaradılması, sonrakı inkişaf mərhələləri, digər muzeylərlə elmi-təcrübi qarşılıqlı əlaqəsindən bəhs edən elmi-dəyərə malik məlumat və materiallar muzeyşünaslığımızın inkişafında mühüm əhəmiyyətə malikdir (527, s.20-48). Bunlarla bərabər alim-muzeyşünas Azərbaycanda fəaliyyət göstərən müxtəlif profilli muzeylərin təsir xüsusiyyətlərini analiz etmişdir (527, s.17-26). Eyni zamanda tədqiqat işində 1970-ci ilə qədər İttifaq miqyasında müqayisədə Azərbaycanda müxtəlif profilli muzeylərin sayı azlıq təşkil edirdisə, 1970-ci illərin sonu və 1980-ci illərdə Respublika muzeylərinin sayı sürətlə artmağa başlamışdır ki, bu da bərabər şəkildə muzeyşünaslığın sürətli inkişafını gösrərir (527, s.18-19). Hamımıza çox gözəl bəllidir ki, bu da Ulu Öndərimizin Azərbaycanın bütün sahələri

üzrə tərəqqisinə, o cümlədən də muzey işinin, muzeyşünaslığının tərəqqisinə böyük diqqət və qayğısının bariz nümunəsi idi (527, s.19).

A.Bayramova 2004-cü ildəki ən böyük və zəngin Azərbaycan muzeylərinin təsnifatını aşağıdakı qaydada vermişdir:

- R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi (əsas fond eksponatlarının sayı – 14.525);
- L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi (əsas fond eksponatlarının sayı – 9823);
- Azərbaycan Tarixi Muzeyi (əsas fond eksponatlarının sayı – 255375);
- "Şirvanşahlar Sarayı" Dövlət Memarlıq Tarixi-Memorial Kompleksi (əsas fond eksponatlarının sayı – 21391);
- C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi (əsas fond eksponatlarının sayı – 116783);
- Azərbaycan Dövlət Musiqi Mədəniyyəti Muzeyi (əsas fond eksponatlarının sayı – 35853);
- Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyi ( əsas fond eskponatlarının sayı – 59275) (527, s.21).

Dissertasiya işinin III fəslində musiqi muzeylərinin xüsusiyyətləri və kolleksiyaların təbliği perspektivləri tədqiq edilmiş, muzeyin maarifçilik və tədris-tərbiyə əhəmiyyətli fəaliyəti araşdırılmışdır. Milli muzeyşünaslığımızın nəzəri-təcrübi inkişafında əhəmiyyəti olan həmin dissertasiya işi Azərbaycan musiqi mədəniyyətinin tarixi kökləri, musiqi sənətkarlığını əks etdirən ayrı-ayrı musiqi alətlərinin yaranması, toplanması, qorunması təbliği baxımından dəyərlidir.

Son onillikdə S.Əmirxanov, E.Qurbanova, B.Kərimov, A.Bayramova kimi muzeyşünaslıq əhəmiyyətli tədqiqatları sırasında muzeyşünas Aytən Baxşıyevanın da adı çəkilir. Muzeyşünas-alim A.Baxşıyeva öz tədqiqatını "Azərbaycanda 1920-1940-cı illərdə muzey işinin yaranması və inkişafı"na həsr etmişdir. Tədqiqat işi Azərbaycan Tarixi Muzeyinin materialları əsasında yerinə yetirilmişdir.

Giriş, üç fəsil, nəticə və ədəbiyyatdan ibarət olan dissertasiya işində (1920-1927-ci illərdə) Azərbaycan Tarixi Muzeyinin yaranması, (1928-1936-cı illərdə) muzeyin yenidən formalaşdırılması və SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialının tərkibinə (1937-1945-ci illər) keçirilməsi araşdırılmışdır.

I fəsildə Respublika muzeylərinin formalaşdırılmış sistemi və "Muzekskursun"un fəaliyyəti, 1920-23-cü illərdə Azərbaycan Dövlət Muzeyinin yaranması və fəaliyyətinin ilk addımları, 1924-1927-ci illərdə muzey işinin təşkilinin yeni əsaslarda inkişafı araşdırılmışdır (489, s. 21-75).

II fəsildə 1928-1936-cı illəri əhatə edən muzey quruculuğunda yeni forma və metodların yaranması, Azərbaycan Dövlət Muzeyinin fəaliyyətinə tətbiqi, 1932-1936-cı illər ərzində tarix muzeyi kimi Azərbaycan Dövlət Muzeyində yeni dönüş mərhələsi araşdırılmışdır. Tədqiqatda maraqlı material və faktlardan, arxiv materiallarından istifadə edilmiş, mərhələli tədqiqat prosesi həyata keçirilmişdir (489, s. 76 -124).

III fəsildə isə 1937-1945-ci illərdə Muzeyin yeni inkişaf mərhələsi tədqiq edilmişdir (489, s.125-153). Nəticə hissəsində A.Baxşıyeva problemlə bağlı, muzeyşünaslıq əhəmiyyətli bir neçə vacib amilləri göstərmişdir:

Birincisi, Azərbaycanda Xalqın maddi və mənəvi mədəniyyət nümunələrinin muzeylər vasitəsilə dövlət səviyyəsində toplanması, qorunması və eksponatlaşdırılması prosesi ancaq 1918-1920-ci illərdə Azərbaycan Respublikası dövründə həyata keçirilmişdir, onların inkişafı və əsaslı şəkildə həyata keçirilməsi Azərbaycan SSR şəraitində yerinə yetirilmişdir.

İkincisi, bir neçə dəfə adı dəyişdirilmiş Azərbaycan Tarixi Muzeyi yarandığı gündən materialların toplanması, fondun formalaşdırılması, əsas fəaliyyət xəttinin təyin edilməsi, istiqamətlənməsində böyük əmək sərf etmişdir. Fəaliyyətə başladığı ilk illərdə Muzey xalqın milli, tarixi varlığını əks etdirən əşya və materilların fondlara toplanması, qorunması, qiymətsiz

kolleksiyaların yığılması işinə başlamış, bu fəaliyyəti sonrakı illərdə uğurla davam etdirmişdir (489, s. 154).

Üçüncüsü, Muzeyin fəaliyyətə başladığı ilk illərdə Azərbaycan tarixini əks etdirən ekspozisiyaların qurulması prosesində həm elmi, həm də maddi baxımdam bir sıra çətinliklərlə üzləşsə də, öz işinin öhdəsindən gələ bilmişdir. Sovet dövründə sosializmin, kommunist ideoloji fikrinin yeridilməsi kimi əsas məqsədlə bərabər, doğma tariximizin öyrənilməsi və təbliği sahəsində də müvafiq addımlarını atmışdır.

Dördüncüsü, Tarix Muzeyi yarandığı vaxtdan bütün mərhələlər ərzində öz inkişaf yolunu tutmuş, tərəqqi etmiş və Azərbaycan muzeyşünaslığının mərkəzinə çevrilmişdir. Muzeyşünaslıq, muzey eksponatlarının nümayiş etdirilməsi, ekskursiyaların təşkili, məsləhətlər, mühazirələr, elmi-populyar ədəbiyyatın çap edilməsi vasitəsilə muzey işinin nəzəriyyəsi, tarixi və təcrübəsini muzey elmi biliklər yolu ilə təbliğ etməklə həyata keçirir. Muzeyşünaslığın mərkəzinə çevrilən birinci və başlıca muzey olan Azərbaycan Tarixi Muzeyi Respublikanın rayonlarında fəaliyyətə başlayan tarix-diyarşünaslıq muzeylərinə böyük metodoloji, tövsiyəverici və təcrübiköməklik göstərmişdir (489, s.155-156).

Beşincisi, tədqiq etdiyimiz dövr ərzində Azərbaycan Tarixi Muzeyi İttifaq respublikalarının aparıcı muzeyləri, ilk növbədə Moskva və Leninqrad (hazırkı Sankt-Peterburq) muzeyləri ilə elmi-nəzəri, təcrübi əlaqələr yaratmış, fəaliyyətini inkişaf etdirmişdir. Belə əlaqələr nəinki tövsiyə və elmi xarakter daşımış, eyni zamanda təcrübi xarakterə malik olmaqla Azərbaycan tarixilə bağlı eksponatların əldə edilməsində mühüm əhəmiyyət kəsb etmişdir.

Altıncı, elmi-tədqiqatçılıq fəaliyyətini davam etdirən və çoxəsrlilik Azərbaycan tarixini öyrənən Muzey Milli Elmlər Akademiyası tabeliyinə keçdikdən sonra həm də elmi-tədqiqat müəssisəsinə çevrilmişdir (489, s. 157).

Teymur Quliyevin "Azərbaycan numizmatikası E.A.Pa-

xomovun tədqiqatlarında" (509), Anar Haqverdiyevin "Müstəqil Azərbaycan mədəniyyətinin aktual problemləri" (214), Fərid Abdullayevin "İnformasiya cəmiyyəti şəraitində dizayn" (484), Kübraxanım Əliyevanın "Azərbaycan rəngkarlığında Abşeron mövzusu" (486), Şahnisə Vəliyevanın "Kiçikyaşlı məktəblilərin estetik tərbiyəsində təsviri incəsənət nümunələrindən istifadənin imkanları və yolları" (460) mövzularında namizədlik dissertasiyaları da qismən muzeyşünaslıq əhəmiyyətlidir.

Muzeyşünas alim Hicran Sadıqzadənin "Muzeylər vasitəsilə maddi mədəniyyət nümunələrinin toplanması, işlənməsi və təbliği problemləri" mövzusunda namizədlik dissertasiyası araşdırmamız baxımından daha böyük əhəmiyyət kəsb edir.

Belə ki, giriş, üç fəsil, nəticə və istifadə edilmiş, ədəbiyyatdan ibarət dissertasiya işində maddi mədəniyyət nümunələrinin toplanması, işlənməsi və təbliğində muzeylərin rolu, muzeylər vasitəsilə maddi mədəniyyət nümunələrinin toplanması, işlənməsi və təbliğinin əsas mərhələləri, prinsipləri, onların təbliği formaları tədqiq edilmişdir (424). Alim-muzeyşünas tədqiqat işinin aktuallığını əsaslandırılmış (424, s.3), onun predmeti, məqsəd və vəzifələrin nəzəri-metodoloji əsasını göstərmişdir (424, s.3-7). H.Sadıqzadə işin elmi yeniliyi və praktik əhəmiyyətini də aşağıdakı ardıcıllıqla əsaslandırmışdır:

"Tədqiqatın elmi yeniliyi. Araşdırmada ilk dəfə olaraq respublika muzeylərinin əlaqəli fəaliyyəti prosesində maddi mədəniyyət nümunələrinin toplanması, işlənməsi təbliği prosesinin təşkili üzrə işin sistemi müəyyənləşdirilmişdir. Elmi-ixtisas ədəbiyyatının kompleks təhlili aparılmış, işin mahiyyəti və əhəmiyyəti ardıcıllıqla aydınlaşdırılmış, iş təcrübəsi öyrənilmişdir.

İlk dəfə olaraq müxtəlif profilli muzeylər vasitəsilə maddi mədəniyyət nümunələrinin toplanması, işlənməsi, təbliği işinin istiqamətləri və prinsipləri əsaslandırılmış, bununla əlaqədar muzey tədbirlərinin əhəmiyyəti araşdırılmışdır.

İşin praktik əhəmiyyəti. Bu tədqiqat işinin nəticələrindən maddi mədəniyyət nümunələrinin toplanılması, işlənilməsi və təbliği işlərində istifadə oluna bilər. Araşdırmadan, eyni zamanda, muzey işi ilə bağlı tədqiqatların aparılmasında, ali məktəblərdə müvafiq fənlərin tədrisində faydalanmaq olar" (424, s.7).

Muzeyşünas H.Sadıqzadə tədqiqatçı S.Əmirxanovun muzeyşünaslıqda ünsürlərarası qarşılıqlı əlaqəliliyinin qanunauyğunluqlara çevrilməsi sistemini muzeyşünaslıqda ilk dəfə olaraq (182) öz araşdırmasına tətbiq etmiş və bu sistemin müasir muzeyşünaslığın inkişafında çox mühüm əhəmiyyət kəsb etdiyini qeyd etmişdir:

"Tədqiqatçı S.A.Əmirxanovun elmi – tədqiqi fikirlərində ünsürlərarası qarşılıqlı əlaqələrin biri-birini şərtləndirməsi qanunauyğunluq təşkil edir. Göründüyü kimi, əgər mühit, şərait mövcud deyilsə əlaqə və qanunauyğunluqlar mümkün olmazdı, mahiyyətin nəzəri əsasları işlənməsə, tədqiq olunmasa, məqsəd, məzmun, vəzifələr, fəaliyyət mərhələlərinin həm nəzəri, həm də təcrübi həlli mümkün olmazdı, yəni sonrakı qarşılıqlı əlaqələrin biri olmasa, digərlərinin nəzəri və təcrübi tədqiqi mümkün deyildir.

Araşdırma nəticəsində məlum olmuşdur ki, hər bir qarşılıqlı əlaqə mahiyyət etibarı ilə tədqiq etdiyimiz problemin məzmununun bir hissəsini əks etdirir və bilavasitə problem əhəmiyyətlidir. Yəni həmin qarşılıqlı əlaqələr maddi mədəniyyət nümunələrinin toplanması, işlənməsi və təbliğinin həm nəzəri, həm də təcrübi tərəflərini özündə cəmləşdirir. Məhz nümunələrin tarixini özündə əks etdirməsi, muzey fəaliyyətində əsas və mühüm yeri, tədqiqat mənbəyi olması, müvafiq muzey mühitində təsir gücü, tamaşaçıya yaratdığı təəssüratın keyfiyyəti, yəni mühitə təsiri, mühiti dəyişdirmə gücünə malik olması, muzey fəaliyyətinin məqsədini, vəzifələrini təyin etmək imkanlarına malik olması, muzey fəaliyyətindəki mərhələlik amilinin vacibliyini, nəhayət, fəaliyyətin nəticələrinin təyin

olunmasında, bilavasitə mühümlüyü yuxarıdakı qarşılıqlı əlaqələrdə özünü göstərir" (424, s.20).

H.Sadıqzadə S.Əmirxanovun bu "sisteminə" əsaslanaraq araşdırdığı problem baxımından mahiyyətcə, məzmunca, vəzifələri, nəticələri üzrə tövsiyələrini təkmil şəkildə vermişdir (424, s. 22-29). O eyni zamanda I fəsildə maddi mədəniyyət nümunələrinin toplanması, işlənməsi və təbliği işinin mahiyyəti və əhəmiyyətini tədqiq edərək həmin proseslərin biri-birini şərtləndirməsini əsaslandırmışdır, muzeyşünaslığın gələcək inkişafı, eləcə də muzeydənkənar elm, təhsil, tərbiyə, mədəni-maarif müəssisələri üçün əhəmiyyətini göstərmişdir:

"Muzeylər vasitəsilə maddi mədəniyyət nümunələrinin toplanması, işlənməsi, tədqiqi, öyrənilməsi, təbliği prosesləri mərhələli xarakterə malik olmaqla, ümumilikdə muzey fəaliyyətini elmi-nəzəri və əməli baxımdam əhatə edir. Bu vacib proseslər biri digəri üçün zəminə çevrilir, biri digərini şərtləndirir. Yəni əvvəlki proses olmadan, sonrakının yerinə yetirilməsi qeyri-mümkündür.

Azərbaycan televiziyası və radiosunun müvafiq redaksiyaları tərəfindən hazırlanan muzey fəaliyyəti ilə əlaqəli silsilə tədbirlərinin mütəmadiliyi muzey fəaliyyətinə, sərgi və tədbirlərə, müxtəlif tarixi dövr sənətkarlığı nümunələrinə, ayrı-ayrı yaradıcı-sənətkarların sərgilərinə olan marağı artırır, muzeylərin perspektiv inkişaf proqramı üçün zəminə çevrilir.

Muzeylərin digər mədəniyyət, təhsil və elmi-tədqiqat müəssisələri və elmi yaradıcı əlaqələri gələcək perspektiv inkişaf üçün zəminə çevrilir və muzey işçilərinin peşə sənətkarlığını artırır.

Muzeylərimiz tərəfindən toplanan, işlənən, tədqiq edilən mədəniyyət nümunələri muzeylərin əlaqələri nəticəsində öz tarixi, bədii dəyəri ilə fərqlənməklə yanaşı, Azərbaycan tarixinin qədimliyi, bədii sənətkarlığının zənginliyini bir daha sübut etməklə, bəşəri mədəniyyətdə layiqli yer tutur, dünya tədqiqatçılarının marağına səbəb olur" (424, s.29-30).

Dissertasiya işinin II fəslinin 2-ci yarımfəslində nümunələrin toplanması, işlənməsi və təbliğində muzey fəaliyyətinin prinsipləri sistem halında verilmiş (424), müxtəlif məzmunlu muzey tədbirlərinin elmi-bədii, emosional təsirini artırmaq baxımından da əhəmiyyətliliyi göstərilmişdir:

"Problemlə əlaqədar yuxarıda göstərilən prinsiplərin – başlıca tələblərin müxtəlif profilli muzeylərin həyata keçirdiyi tədbirlərdə əsas götürülməsi eksponatların toplanmasını, işlənməsini və təbliğinin səmərəliliyini daha da artırır. Buna görə də profillərindən asılı olmayaraq bütün muzeylər muzeydaxili və muzeydənkənar mühit prosesində qarşılıqlı əlaqəlilikdən maksimum istifadə etməli, toplanma, işlənmə və təbliği işini keyfiyyətlə yerinə yetirməlidirlər, yuxarıda göstərilən prinsipləri – başlıca tələbləri də nəzərə almalıdırlar. Bu prinsiplər eyni zamanda ayrı-ayrı profilli muzeylərin yaradıcı kollektivləri ilə elm, təhsil və mədəniyyət müəssisələri kollektivləri arasında sıx əlaqə yaratmağın elmi-metodiki təminatını vermək, müxtəlif məzmunlu muzey tədbirlərinin elmi-bədii, emosional təsirini artırmaq baxımından da əhəmiyyətlidir" (424, s. 94).

H.Sadıqzadə dissertasiya işində nümunələrin, informasiya və faktların sərgilər və digər muzey tədbirləri vasitəsilə təbliğini tədqiq edərək belə nəticəyə gəlmişdir ki;

"Tarixi dövrlərdə baş verən hadisələri əks etdirən nümunə və məlumatlar, faktlar, incəsənətin müxtəlif növləri, musiqi, ədəbiyyat, təsviri incəsənət, dekorativ-təbiqi sənət nümunələrinin əyani illüstrativ vasitələrlə təbliği çox güclü hisslərin yaranmasına, biliklərin təsdiqinə, bacarıqların inkişafına, formalaşmasına səbəb olur. Gənclər muzey mühitinin təsiri ilə sərbəst fikir, mühakimə yürütmək qabiliyyətinə yiyələnirlər, mədəniyyət və incəsənətimizin, bədii sənətkarlığımızın, beynəlxalq mədəni inkişafda təkanverici əhəmiyyətini faktların, eksponat və nümunələrin timsalında görürlər. Müxtəlif peşə sahibləri isə bir daha muzeylərimizin zənginləşmə prosesindəki çox güclü mövqeyini bir daha qəbul edir və tarixi-mədəniyyət

nümunələrimizi müşahidə etməkdən həzz alırlar" (424, s. 140).

Tədqiqatçı işin nəticə hissəsində bütövlükdə tədqiqatın məqsədi, mahiyyəti, məzmunu, elmi-nəzəri və təcrübi dəyəri nöqteyi-nəzərindən tövsiyələrini vermiş, eyni zamanda göstərmişdir ki;

"Araşdırdığımız problemlə bağlı işlərin daha da təkmilləşdirilməsi günün tələbidir. Təbiidir ki, bu işin keyfiyyəti, səmərəli nəticə verməsi bütövlükdə müzeyin fəaliyyəti ilə ölçülür. Eyni zamanda dövrün və mühitin nəbzinə uyğun, həm də təcrübəli mütəxəssislərin səmərəli, peşəkar fəaliyyətləri müasir tamaşaçı, seyrçi tələblərini ödəyə bilər. Əlbəttə, bundan ötrü əvvəlcə mühitin, tamaşaçı səviyyəsi və tələbatının muzeylər tərəfindən planlı şəkildə öyrənilməsi mexanizmləri həyata keçirilməsi, alınan nəticələrə görə fəaliyyət mexanizminin bu günü, həm də perspektivi üçün müvafiq tədbirlərin planlaşdırılmasıdır.

Muzeydaxili və muzeydənkənar tədbirlərin, muzeylərin təhsilləndiricilik, tərbiyələndiricilik, zənginləşdiricilik, formalaşdırıcılıq fəaliyyətində əsasən üç mühüm mərhələ ana xətt təşkil edir: hazırlıq, gedişat və nəticə. Nəhayət hər üç aparıcı və ana xətt sayılan mərhələlərin əvvəlcə ayrı-ayrılıqda, həm də tədbir tam başa çatdıqdan sonra ümumilikdə qiymətləndirilməsi mərhələləri son dərəcə dəqiqlik tələb edir. Hər hansı tədbirin keçirilməsində muzeyin özünün elmi-yaradıcı potensialı, işçi qrupundan əlavə, elm, təhsil, mədəniyyət və digər sahələrdən müvafiq elmi-yaradıcı, texniki qrupun dəvəti və onların ayrı-ayrı mərhələlərin müzakirələrində rəy və təkliflərinin nəzərə alınması, dinlənilməsi mühümdür" (424).

Bütün bunlarla yanaşı tədqiqatçının araşdırmaları və gəldiyi nəticələrə görə inkişafda olan hər hansı ölkənin maddi mədəniyyət nümunələri hazırkı inteqrasiya dövründə beynəlxalq standartlar səviyyəsinə uyğun işlənməli təbliğ edilməlidir. Muzeyşünaslıqdakı bütün fəaliyyət istiqamətləri texniki tərəqqinin ən çox nailiyyətlərinə əsaslanaraq həyata keçirilməlidir.

Müasir muzey texnologiyasının tətbiqi muzeyşünaslıq üçün vacib mərhələdir (424, s.145).

1960-1970-ci illərdə muzey işi ilə bağlı ixtisas ədəbiyyatlarını araşdırdıqda məlum olmuşdur ki, görkəmli sənətşünaslar içərisində tanınmış xalçaçı rəssam, məşhur tədqiqatçı Lətif Kərimovun çoxillik araşdırmaları həm Azərbaycan, həm də dünya dekorativ-tətbiqi sənətini öz əsərləri ilə zənginləşdirmişdir. L.Kərimov özünün "Azərbaycan xəlçəsı" dördcildlik monoqrafiyası ilə gərgin fəaliyyəti nəticəsində əldə etdiyi elmi nəticələr sayəsində sistemləşdirib ümumiləşdirdiyi yeni məlumatları elm aləminə təqdim etmişdir.

"Azərbaycan xəlçəsı"nın I cildində çoxçeşidli xovlu xalça məmulatlarının ornament bəzəyində işlədilən 1300-dən artıq Azərbaycan xalçasının ornament motivləri göstərilmişdir.

Əsər müqəddimə, giriş, Azərbaycan xalçalarının növ etibarı ilə təsnifi (Quba-Şirvan, Gəncə-Qazax, Qarabağ və Təbriz növləri), Azərbaycan xalça bəzəyinin elementləri (xovsuz və xovlu xalçaların bəzək elementləri), xovsuz və xovlu xalçaların bəzi rəng xüsusiyyətlərindən ibarətdir. Xovsuz xalçaların bəzək elementləri sırasında palaz zolaqları, kilim elementləri, şəddə və vərni elementləri, Zili və sumax elementləri ardıcıllıqla araşdırılmışdır (274, s.3-21). Əsərdə eyni zamanda xalça sənətimizin milli ənənələrindən, rayonlarımızda toxunan xalça növlərindən ilk dəfə çox zəngin məlumat verilmişdir. Çox böyük muzeyşünaslıq əhəmiyyətli bu əsər hazırda dünya sənətşünaslığını zənginləşdirən böyük və zəngin zinətdir.

1960-cı illərin dəyərli mənbəyi hesab olunan "Mədəni-maarif işi" dərs vəsaiti Adil Adilov tərəfindən ruscadan tərcümə edilmiş və 1964-cü ildə işıq üzü görmüşdür. Lakin, vəsaitdə mədəni- maarif müəssisəsi sayılan muzeylərdən çox qısaca olaraq bəhs edilmiş, cəmisi bir səhifə yarımlıq materialla məhdudlaşdırılmışdır. Burada 1960-cı illərdə SSRİ-də mövcud olan 986 muzey haqqında rəqəmlə qısa məlumat

göstərilmişdir (311. s.49). Muzeylərin məqsədi, profilləri qeyd edilmiş (311, s.56-57), xalq muzeylərinin əhəmiyyətindən bəhs olunmuşdur (311, s.57-58).

Azərbaycan Sovet Ensiklopediyasının VII cildində muzeylər, onların sələfləri, təşəkkülü, inkişafından qısa məlumat verilmiş, ayrı-ayrı sovet muzeylərinin adları qeyd edilmişdir;

"Muzey (lat.museum, yun.museion – muzalara həsr edilmiş yer, muzalar məbədi, musa – muza sözündən) – təbiyyat tarixi, maddi və mənəvi mədəniyyət abidələrini komplektləşdirən, saxlayan, öyrənən və nümayiş etdirən elmi-maarif müəssisəsi. Muzeylər əsasən, tədqiqi-elmi-maarifçi (əksəriyyət təşkil edir və ümumi kütləvi xarakter daşıyır), elmi-tədqiqat institutlarının nəzdində tədqiqat, həmçinin tədris tipli olur; profillərə görə (tarix, təbiyyat, incəsənət, ədəbiyyat, texnika muzeyləri bir-birindən fərqlənirlər. Memorial (xatirə) muzeyləri xüsusi qrup təşkil edir. Bunlardan başqa kompleks muzeylər də var.

Muzeylərin sələfləri e.ə. 16 əsrdə Kritdə, e.ə. 13-12 əsrlərdə Çində, e.ə. 7 əsrdə Hineviyada, əsasən, saraylarda sənədlər, şəhadətnamələr və estetik qiymətə malik əşyalar kompleksi şəklində, həmçinin e.ə.3 əsrdən Qədim Yunanıstanda və Romada (məbədlərin və bəzi şəxslərin kolleksiyaları) meydana gəlmişdir (51, s.86).

Həmin mənbədə ilk dəfə olaraq muzeyşünaslığın da tərifi verilmiş, onun Marksist-Leninçi metodologiyaya əsaslandığı göstərilmişdir ki, bunun da çox yanlış olduğu müstəqillik əldə etdikdən sonra hamımıza bəlli oldu:

"Muzeyşünaslıq, muzeologiya – muzeylərin yaranması, elmi-ictimai fəaliyyəti, muzey işinin, nəzəriyyə və metodikası, muzey memarlığının əsasları, muzeylərin müasir avadanlıq və eksponatlarla təchizi məsələləri ilə məşğul olan elm sahəsi. Muzeylərin başlıca vəzifələrinə, həmçinin muzey işi prinsiplərinin elmi əsaslar üzərində qurulması da daxildir. Marksist-leninçi metodologiyaya əsaslanan sovet muzeylərinin muzey

eksponatlarının nümayiş etdirilməsi, ekskursiyaların, səyyar sərgilərin, mühazirələrin təşkili, elmi və elmi-kütləvi ədəbiyyatların nəşri vasitəsilə siyasi və elmi biliklərin təbliği məsələlərinə böyük əhəmiyyət verir" (51, s. 86).

70-ci illər muzeyşünaslığının inkişafında sənətşünas alim, professor Mürsəl Nəcəfovun da tədqiqatları problem əhəmiyyətlidir. Onun "Gözəllik aliminə səyahət", "Rəssam və zaman" monoqrafiyalarında dünya rəssamları və yaradıcılarının əsərlərinin bədii-təsir gücü (365, s.3-130), təsviri incəsənət və müasirlik (364, s.60-74), M.F.Axundov ədəbi irsinin rəssamlıqda əksi (364, s.75-84), Səttar Bəhlulzadə haqqında etüdlər (364, s.85-89), Maral Rəhmanzadənin qravüraları (364, s.90-101), Tağı Tağıyevin yaradıcılığı (364, s.102-105), Mikayıl Abdullayev yaradıcılığı (364, s.106-113), Böyükağa Mirzəzadə haqqında (364, s. 113-120), Tahir Salahov yaradıcılığı (364, s.120-124), Tokay Məmmədovun yaradıcılıq yolu haqqında (364, s.124-135), Asəf Cəfərov yaradıcılığı haqqında (364, s.135-142), Mehdi Hüseynzadəni xatırlayarkən (364, s.142-148), Elmira Hüseynova barədə (364, s.148-158) və gənc nəslin estetik tərbiyəsi məsələlərinə həsr edilmiş tədqiqatlar ardıcıllıqla araşdırılmışdır (364, s.159-167).

AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinin ayrı-ayrı illərdə təşkil etdiyi elmi yığıncaqlarında müzakirə edilən məsələlər də muzeyşünaslıq əhəmiyyətlidir. Bu materiallar müxtəlif illərdə muzey tədqiqatçıları tərəfindən yerinə yetirilən elmi-tədqiqat işlərinin nəticələri kimi qiymətləndirilmişdir. Bu baxımdan Azərbaycan Tarixi Muzeyinin 1975, 1982, 1983, 1985, 1986, 1987, 2001, 2002, 2003-cü illərdəki elmi-tədqiqat işlərinin müzakirələrinin araşdırdığımız problem baxımından əhəmiyyəti mühümdür (512, 356, 357, 358, 34, 35, 36). Muzeyin 50 illik yubileyi ilə əlaqədar təntənəli yığıncağın və elmi sessiyanın materialları maraq doğurur. P.Əzizbəyovanın (34, s.46-55), İ.Zaqrişevin (34, s. 56-59), E.Strudeketskayanın (34, s. 65-66), Ə.Hüseynovun (34, s.75-82), B.Kvaçidzenin

(34, s.92-95), P.Məmmədovun (34, s.96-102), Ə.Rəcəblinin (34,s.102-105), M.Quliyevin (34, s.105-107), T.Qolubkinanın (34, s.112-116), F.Məmmədovun (34, s.123-127), S.Donetskayanın (34, s.128-131), Z.Məlikaslanovanın (34, s. 131-136) elmi sessiyadakı çıxışlarında müxtəlif tarixi dövrləri əhatə edən və muzeydə qorunan, nümayiş etdirilən eksponatların, materialların elmi-bədii təsir gücünün tədqiqi nəticələri haqqında muzeyşünaslığın inkişafında əhəmiyyətli müzakirələr etmişlər.

Muzeyin 1982-ci ilin elmi-tədqiqat işlərinin nəticələrinə həsr olunmuş elmi sessiyada P.Əzizbəyovanın "Muzeylərin ideya-tərbiyə işlərinin yaxşılaşdırılması haqqında Sov.İKP MK-nın qərarları" ilə əlaqədar olaraq muzeylərin vəzifələri (512, s.3-13), B.Kvaçidzenin "Bakı buxtasında sualtı tapıntılar" (512, s.14-15), P.Məmmədovun "Orta əsr səyyahları Arran və onun şəhərləri" (512, s. 16-19), T.Qolubkinanın "Mingəçevir kurqanından tapılmış süxurdan (512, s.19-23), M.Bağırovun "Şəki Xanlığının bayraqları haqqında (Azərbaycan Tarixi Muzeyinin kolleksiyalarından)" (512, s.38-42), Ə.Rəcəblinin XII-XIII əsrlərdə Azərbaycan pul dövriyyəsində "gümüş böhran"ı və Azərbaycan feodal hakimlərinin nadir sikkələri" (512, s.46-47), M.Quliyevin xalça istehsalı texnologiyasının öyrənilməsinə dair" (512, s.48-53), M.Atakişiyevanın "Şəkinin toy alətləri haqqında" (512, s.53-57) və digər mövzularda olan çıxışların elmi müzakirələri milli muzeyşünaslığımızın inkişafında mühüm mərhələ kimi qiymətləndirilmişdir.

Azərbaycan Tarixi Muzeyinin 1983-cü il üçün elmi-tədqiqat işlərinin yekunlarına həsr olunmuş elmi sessiyanın materiallarındakı R.Məmmədovun "Azərbaycanın orta əsr "Arran" Vilayəti və onun şəhərləri tarixi xatirələrdə" (356,s.3-5), Ə.Hüseynovun "Azərbaycanın orta əsrlər tarixinə aid qiymətli məxəzlər" (356,s.11-13), M.Cəbrayılovanın "Kişi üst geyimi "Qəba" XIX əsrin əvvəli (etnoqrafiya fondunun materiallarına əsasən)" (142, s.14-16), E.Nəcəfovun "Mis qablar üzərində kitabələr" (142, s.20-22), T.Qolubkinanın Mingə-

çevir küp qəbirlərindən tapılmış dini ayin qabları haqqında (356, s.29-34), T.İbrahimovanın "Azərbaycan Tarixi Muzeyinin arxeoloji fondunda saxlanılan dekorativ tapıntılar üzərindəki bəzəklərdə poetik və epik mövzu" (356, s. 37-39), B.İslamovanın "XIX əsrdə Azərbaycanda sənətkarlığın inkişafı məsələsinə dair (Abşeronun etnoqrafik materiallarına əsasən)" (356, s.47-51), Ə.Rəcəblinin "Talışda tapılmış mis sikkə dəfinəsi və Aceynqurilərin nazir pulları" (356, s.55-59), C.Cahangirovanın "Mir Möhsün Nəvvabın kolleksiyalarında Şərq silahları" (356, s.75-78). T.Nəsirovanın "Muzeyin neqativ fondunun tematikası haqqında" (356, s.78-81), U.Dadaşovanın "Muzeyə qəbul olunmuş əşyalar" (356, s.148-150) müzakirə obyekti olan elmi-tədqiqat nəticələri ayrı-ayrı sahələr üzrə xarakterik olmaqla, muzeyşünaslığın inkişafına təkan vermiş və yeni aparılacaq elmi-tədqiqatlar üçün zəminə çevrilmişdir.

Azərbaycan Tarixi Muzeyinin 1984-cü il üçün elmi-tədqiqat işlərinin yekunlarına həsr olunmuş elmi sessiyasının materiallarında Ə.Hüseynovun "Orta əsrlər dövründə beynəlxalq ticarət əlaqələrinin inkişafında şəhərlərin və karvan yollarının əhəmiyyəti" (357, s. 10-14), R.Məmmədovun "Azərbaycanın orta əsr şəhər və qalaları "Gülüstani-İrəm" əsərində" (357, s. 15-17), B.Kvaçidzenin "Azərbaycan Tarixi Muzeyinin 1984-cü il sualtı arxeoloji ekspedisiyasının yekunlarına dair" (357, s.26-27), A.Yaqubovanın "Naməlum məqsədli sümük əşyalar" (357, s.35-37), M.Bağırova XVIII əsrin II yarısı XIX əsrin əvvəllərində Azərbaycanda ipliyin bitki boyaları ilə rənglənməsi" (357, s.49-51) və digər mövzulu çıxışların muzakirələri sayəsində elmi-nəzəri nəticələri muzeyşünaslıq əhəmiyyəti olmuşdur.

Azərbaycan Tarixi Muzeyinin 1987-ci il üçün elmi-tədqiqat işlərinin yekunlarına həsr olunmuş elmi-sessiyanın materillarında P.Əzizbəyova və E.Həsənovun "Şərq problemlərinin Nəriman Nərimanov tərəfindən işıqlandırılması" (358, s.3-10), Ə.Hüseynovun "Azərbaycan orta əsr şəhərlərinin Şərq

və Qərb ölkələri ilə ticarət əlaqələri haqqında" (358, s.10-14), R.Məmmədovun XI-XII əsrlərdə Azərbaycan şəhərlərinin inzibati idarə quruluşu (Aran şəhərlər)" (358, s.15-19), Ə.Abdullayevin "Azərbaycan xalçaları və bədii tikmələri sərgisində" (358, s.20-24), S.Qurbanəliyevanın "Xalq musiqisi estetikası" (358, s.28-31), T.Qolubkinanın "Bəzi arxeoloji tapıntıların semantikasına dair (Azərbaycan SSR EA Azərbaycan Tarixi Muzeyinin materialları əsasında)" (358, s.34-41), Ə.Rəcəblinin "Sikkə xəzinəsi – xalqın tarixi mənbəyi və malıdır" (358, s.42-46), B.İslamovanın "Maddi-mədəniyyət abidələri – Azərbaycanın tarix və mədəniyyətinin öyrənilməsi mənbəyidir (Azərbaycan Tarixi Muzeyinin materialları əsasında)" (358, s.51-52), Y.Lazerevanın "Azərbaycan tarixinin öyrənilməsində maddi mədəniyyət abidələrinin rolu və yeri" (358, s.52-55), H.Mehdiyevanın "XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda bədii parçada naxış motivləri" çıxışları aparılan elmi-tədqiqat araşdırmalarının yekunu olaraq qəbul edilmişdir.

Alim-tədqiqatçılar Ramiz Ağayev, Sabir Əmirxanov və Abdin Əlizadənin ümumi redaktəsi ilə 2002-ci ildə işıq üzü görmüş "Muzeyşünaslıq" dərsliyi sahənin ilk dərsliyidir və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Muzeyşünaslıq" kafedrasının bir qrup professor-müəllim heyəti tərəfindən hazırlanmışdır. Dərsliyə ön sözü dosent R.Ağayev yazmış və burada muzey quruculuğu haqqında ümumi məlumatlar verilmişdir (352, s.3-5).

Dərsliyin "Muzeyşünaslıq bir elm kimi, muzey işinin tarixi, nəzəri əsasları, təşkili və metodikası" adlı I fəsli (352, s.6.-24), "Dünya muzeyləri" adlı II fəsli (128, s.24-122) və "Muzey pedaqogikası adlı VII fəsli (352,s.225-240), pedaqoji elmlər namizədi S.Əmirxanov tərəfindən hazırlanmışdır. S.Əmirxanov tərəfindən I fəsildə ilk dəfə olaraq muzeyşünaslığın predmeti, məqsədi və vəzifələri (352, s.6-9), muzeyşünaslığın quruluşu (352, s.9), muzey işinin tarixi (352,s.9-12), muzey işinin nəzəriyyəsi (352, s.12-14), muzey fəaliyyətinin

mərhələləri (352, s.-17), muzey fəaliyyətində qarşılıqlı əlaqələr (352,s.17-18), sənədləşmə nəzəriyyəsi (352, s.19), fond işi və fəaliyyətin elmi nəzəriyyəsi (352, s.19), muzey işinin təşkili və metodikasından (352, s.19-23) bəhs edilmişdir. S.Əmirxanov muzeyşünaslıqda ilk dəfə olaraq "Muzey fəaliyyətində qarşılıqlı əlaqələr"in elmi sistemini vermiş, ümumiyyətlə muzeyşünaslıqda yeni elmi-nəzəri sistemin əsasını qoymuşdur (352, s.17-18).

S.Əmirxanov muzeyşünaslığın tərifini muzeylərin yaranması, tədqiqi, ictimai mərhələləri, nəzəri-metodoloji əsasları, qanunları və prinsipləri zəminində aşağıdakı şəkildə vermişdir:

"Muzeyşünaslıq – muzeylərin yaranması, muzey fəaliyyətinin elmi-tədqiqi, ictimai mərhələləri, nəzəri əsasları, metodu, metodoloji əsasları, qanunauyğunluqları, qanunları və prinsiplərindən bəhs edən elmdir" (352, s.8).

S.Əmirxanov muzey işi nəzəriyyəsinin 4 elementindən - muzeyşünaslığın ümumi, sənədləşdirmə, elmi-fond işi və muzey kommunikasiya nəzəriyyəsindən ibarət olduğunu göstərmişdir (352, s.12). Muzeyşünaslığın ümumi nəzəriyyəsi araşdırdığımız problem baxımından mühüm əhəmiyyət kəsb etdiyindən S.Əmirxanovun bu problemlə bağlı fikrinə diqqət yetirdikdə görürük ki, burada muzeyşünaslığın obyekti, predmeti, metodu, quruluşu, elmlər sistemində yeri-xüsusi əhəmiyyət ilə qeyd edilmişdir:

"Muzeyşünaslığın ümumi nəzəriyyəsi, elmin obyektini, predmetini, metod və quruluşunu əhatə edir, elmlər sistemində onun yerini göstərir, muzey fəaliyyətinin istiqamətlərini təyin edir, ümumiyyətlə, nəzəri əsasların hərtərəfli həll olunmasında mühüm amil rolunu oynayır" (352, s.12).

Muzeyşünaslığın nəzəri əsasları elmi zamanda muzey mühitinin mahiyyəti, məzmunu və əhəmiyyətinin aydınlaşdırılmasını tələb edir, inkişafda bədii təsirin əhəmiyyəti ilə fərqlənən muzeylər özlərinə məxsus mühitə malik olmaqla, müvafiq istiqamətli fəaliyyət prosesində iştirak edirlər. Məqsədyönlü fəaliyyət ictimai-iqtisadi şəraitlə uyğunlaşdıqda

səmərəlilik artır, keyfiyyət özünü büruzə verir. Mənəvi zənginləşmə, hərtəfərli formalaşma üçün mühit daxilində yaradılmış şəraitdə müvafiq mənəvi, əxlaqi, bədii etik estetik və sair keyfiyyətlər müxtəlif yaş qrupuna mənsub insanlara mexaniki şəkildə açıqlanmır. Bu prosesdə məhz mühit amilləri zənginləşmə, formalaşma, "qidalanma" vasitələrinə aktiv şəkildə çevrilməlidir" (352, s.12).

Muzey mühitinin ayrı-ayrı vasitələrinin funksiyalarını ayrı-ayrılıqda verməklə o, ilk dəfə olaraq çox vacib, məqsədyönlü vəzifələrin yerinə yetirdiyini göstərmişdir.

"Muzey mühiti müvafiq əşyalara və güclü elmi-yaradıcı potensiala malik kollektiv tərkibinə malik olmaqla məqsədyönlü vəzifələri həyata keçirir. Muzey mühitinin hərəkətverici, istiqamətləndirici qüvvəsi – muzey işçiləri, canlandırıcı qüvvə olan tamaşaçılar, mənbə-əşyalar, eksponatlar, elmi-kütləvi fəaliyyətin əsası ilə elmi yaradıcı idrak sayılır" (182, s.5).

S.Əmirxanov dərslikdə fond işi və fəaliyyətin istiqamətlərini əsaslandırmış (352, s.19), muzey işinin təşkili və metodikasının bütün muzey fəaliyyətini əhatə etdiyini göstərmiş və ayrı-ayrı tərkib hissələri ardıcıllıqla verməklə özündə birləşdirdiyini qeyd etmişdir (352, s.19-20). O eyni zamanda muzeyin elmi-kütləvi işinin planlaşdırılmasının 13 prinsipinin vacibliyini göstərmişdir (352, s.20).

S.Əmirxanov dünya muzeylərindən İtaliya, Roma, Batikan, Fransa, Almaniya, İngiltərə, Belçika, Hollandiya, Polşa, Macarıstan, Amerika, Rusiya və Azərbaycanın tanınmış muzeylərinin təşəkkülü, inkişafı və müasir fəaliyyəti haqqında çox dəyərli, muzeyşünaslıq əhəmiyyətli materiallara istinad etmiş, elmi-nəzəri əhəmiyyətli məlumatlar göstərmişdir (352, s.24-142).

Dərslikdə S.Əmirxanov "Muzey pedaqogikası"nın məqsədi, təsir istiqamətləri, quruluşu, muzeyşünaslıqla pedaqogikanın sintezini vermişdir (352, s.225-240).

Yeri gəlmişkən göstərmək lazımdır ki, pedaqoji elmlər

doktoru, professor F.Sadıqov "Muzey pedaqogikası"nı pedaqoji elmlər sistemi hesab etdiyi "Mədəni-maarif" pedaqogikasının tərkib hissəsi kimi vermiş və onun S.Əmirxanov tərəfindən hazırlanaraq çap edildiyini əsaslandırmışdır:

"Müxtəlif tipli muzeylərdə (tarix-diyarşünaslıq, maarif muzeyləri; ayrı-ayrı ictimai-siyasi xadimlərə həsr olunmuş muzeylər və s.), mədəniyyət saraylarında, teatrlarda (kukla, gənclər, dram, musiqili-komediya, opera teatrları və s.), kitabxanalarda və digər mədəni-maarif müəssisələrində çalışanlara, habelə mədəni-maarif müəssisələri üçün mütəxəssislər hazırlayan orta ixtisas və ali məktəb tələbələrinə istiqamət verən təlim-tərbiyə işlərinin məzmununu tədqiq edib ümumiləşdirən pedaqogika "Mədəni-maarif pedaqogikası" adlanır. Ölkəmizdə bu sahədə aparılan tədqiqatların təşəkkül tapmasını təqdirəlayiq hal hesab etmək olar, Bu baxımdan pedaqoji elmlər namizədi, dosent Sabir Əmirxanovun, pedaqoji elmlər namizədi, dosent Zərifə Əliyevanın və rejissor, publisist, yazıçı Ağalar İdrisoğlunun tədqiqatlarını xüsusi qeyd etmək lazımdır. Dosent Sabir Əmirxanovun hazırlayıb çap etdirdiyi "Muzey pedaqogikası" monoqrafiyasında muzey pedaqogikasının mövzusu, predmeti, mahiyyəti, məzmunu açıqlanmaqla yanaşı muzeylərdə məktəblilərlə aparılan işlərin pedaqoji-psixoloji əsasları, muzeylərin təhsilvericilik fəaliyyəti, məktəb muzeyləri və tədris prosesi, muzeylərlə orta ümumtəhsil məktəblərinin muzeylərlə birgə fəaliyyətinin tərbiyə işlərinə təsiri məsələləri öz əksini təqdirəlayiq bir şəkildə tapmışdır" (420, s.44-45).

"Muzeyşünaslıq" dərsliyinin digər fəsillərində muzey fondu və fond işi (352, s.143-208), turizm və ekskursiya işi (352, s.209-216) – A.Allahverdiyeva tərəfindən, muzeydə ekskursiya işinin təlimatı (352, s.217-224) – H.Sadıqzadə tərəfindən, muzey işçisinin peşə etikası (352, s.241-248) – R.Şərifov tərəfindən, muzeydə elmi-maarif və mənəvi tərbiyə işi (352, s.249-255) – M.Verdiyeva tərəfindən, muzey və tədqiqat işi (352, s.256-266) – E.Qurbanova tərəfindən, muzey

və ekspozisiya (352, s.267-278), muzeydənkənar tarix və mədəniyyət abidələrinin mühafizəsi və istismarı (352, s.361-376) – Y.Eyvazova tərəfindən, xalq yaradıcılığı (352, s.279-340) R.Ağayev və İ.Əliyeva tərəfindən, muzey işinin idarə olunması və iqtisadiyyatı (352, s.377-381) M.Süleymanov tərəfindən işlənilmişdir.

"Muzeyşünaslıq" dərsliyi ilk dərslik olması ilə seçilir, işıq üzü görməsi təqdirəlayiqdir, lakin bu dərsliyin də çatışmamazlıqları mövcuddur. Yəni, bu gün muzeyşünaslığın bütün elmi-nəzəri və tətbiqi tərəflərinin inkişafı, müxtəlif muzeyşünaslıq problemləri, qanunauyğunluqlar, qanunlar, prinsiplər, metod və metodologiyalar, elmlər sistemində yeri, sosiomədəni institut kimi muzeyin əhəmiyyəti, muzey texnologiyalarının muzeyşünaslıqdakı mühüm əhəmiyyəti, muzey marketinqi, menecmenti və digər vacib əhəmiyyətli məsələlərin də əks edildiyi dərsliyə böyük ehtiyac duyulur. Bu muzeyşünas alimləri düşündürməlidir.

Muzeyşünaslığın həm nəzəri, həm də təcrübi (tətbiqi) inkişaf istiqamətləri mövcuddur ki, ayrı-ayrılıqda hər birinin özünə məxsus tədqiqi prosesi alimlərimiz tərəfindən həyata keçirilməkdədir. Qeyd etməliyəm ki, araşdırmalar nəticəsində bəlli olmuşdur ki, muzeyşünaslığın nəzəriyyəsi və təcrübəsi biri-biri ilə sıx qarşılıqlı əlaqədə inkişaf etməkdədir. Yəni, nəzəriyyəsiz tətbiq, təcrübə, təcrübəsiz isə yeni nəzəriyyənin işlənib yerinə yetirilməsi qeyri-mümkündür. Başqa sözlə desək, nəzəriyyə təcrübə üçün, təcrübə, tətbiq isə nəzəriyyə üçün zəmin rolunu oynayır. Hər nəzəri konsepsiya, layihə öz təsdiqini tətbiq vasitəsilə, daha doğrusu tətbiqdə təsdiqlənir. Məsələn, muzey işinin nəzəri əsaslarına aid olan muzeyşünaslıq – muzey işinin elmi əsası kimi muzey əşyasının funksiyaları, muzey cəmiyyətdə və mədəniyyətdə, muzey fəaliyyətinin nəzəri bazası və sair problemlər öz elmi, bədii təsirini muzeyin təcrübi fəaliyyətində göstərir.

Muzey fəaliyyətinin təcrübi əsaslarına daxil olan elmi-

tədqiqat fəaliyyəti, muzey fəaliyyətinin istiqamətlərindən olan elmi-fond işi, sərgi-ekspozisiya fəaliyyəti, tədris-tərbiyə fəaliyyəti, müasir muzey texnologiyalarının tətbiqi və digər problemlər əvvəlcədən öz nəzəri həllini tapdıqdan sonra tətbiqə çevrilir. Yəni, hər təcrübi fəaliyyətin tərkibində nəzəri fəaliyyət də mövcuddur.

Beləliklə, hər nəzəri fəaliyyəti daxilində təcrübi, təcrübi fəaliyyətdə isə nəzəriyyə vardır. Biz belə nəticəyə gəlsək ki, muzeyşünaslığın nəzəriyyəsinin daxilində təcrübə, təcrübənin daxili məzmununu isə eyni zamanda nəzəriyyə təşkil edir, onda müəyyən qədər səthiliyə yol verə bilərik.

Beləliklə, muzeyşünaslığın həm nəzəriyyəsi, həm də təcrübəsi "Muzeyşünaslıq" elmi daxilində vəhdətdə olmaqla biri-digərinin inkişafı üçün zəminə çevrilir ki, bu da muzeyşünaslıqda nəzəriyyə və təcrübənin (tətbiqin) qarşılıqlı əlaqəliliyi sistemini yaradır.

Azərbaycan muzeyşünaslığında ilk dəfə olaraq tətbiqi muzeyşünaslığa S.Əmirxanov tərəfindən müraciət edilmişdir (455, s.213-239). "Tətbiqi kulturologiya" dərsliyinin beşinci fəslinin 2-ci yarımfəslində "Tətbiqi muzeyşünaslıq və onun əsas istiqamətləri ilk dəfə olaraq S.Əmirxanov tərəfindən aydınlaşdırılmışdır. Burada tətbiqi muzeyşünaslıqda elmi metodikaların, muzey kollektivinin təcrübi fəaliyyətinin mərhələlərinin mühüm əhəmiyyəti ardıcıllıqla aydınlaşdırınmışdır. Ümumi və xüsusi metodikaların strukturu, ekspozisiya-sərgi işinin elmi-nəzəri və əməli tədqiqi mahiyyəti, fond işinin elmi təşkilində komplektləşdirmənin elmi-tədqiqat xarakteri (455, s.213-216), tətbiq nəticəsində bəlli olan aktual problemlər (455, s.217), ekspozisiyanın qurulması metodları (455, s.217), muzey kollektivinin inkişafının mürəkkəb proses olması (455, s.218-219) da əsaslandırılmışdır. S.Əmirxanov muzey kollektivinin inkişaf dialektikasının ziddiyyətlilik və mərhələliyə əsaslandığını göstərmişdir:

"Muzey kollektivinin inkişafı mürəkkəb prosesdir. Bu

kollektivin təşəkkülü, xüsusiyyətə uyğun fəaliyyət üçün tələblərin verilməsi, verilən tələblərin yerinə yetirilməsi üçün elmi-yaradıcı potensialın qarşılıqlı münasibəti, ünsiyyəti, əlaqələrin təyini, ümumi fəaliyyət proqramının perspektiv üçün planlaşdırılması və sair kifayət qədər vacib göstəricilərdir. Muzey kollektivinin inkişaf dialektikasının müəyyən bir hissəsini fəaliyyət müstəvisində onun bir mərhələdən digərinə keçməsi, bu prosesdə yeni törəmələrin təşəkkülü və inkişafını xarakterizə edən daxili dəyişikliklərin, ziddiyyətlərin mahiyyətinin əks etdirilməsi təşkil edir. Mərhələliyin özündə də mürəkkəblik mövcuddur, yaranan yeni törəmələr, formalaşan qurumlar, sistemləşmələr muzey kollektivinin elmi-nəzəri və əməli fəaliyyətində, özünüidarəetməsində, müvafiq münasibətlərində, ən başlıcası isə yaradıcı kollektivin mənəvi-estetik, bədii inkişaf səviyyəsində, kollektiv üzvlərinin etik davranışlarında öz təsirini göstərir. Bu təsirlər hər mərhələdə özünə müvafiq olaraq təzahür edir və sonrakı mərhələ üçün mənbəyə, zəminə çevrilməklə inkişafa səbəb olur" (455, s.218-219).

Eyni zamanda tətbiq prosesində zənginləşmənin həyata keçirildiyi mühit, şərait daxilində mövcud sərgi və digər muzey tədbirlərinin mühüm əhəmiyyəti göstərilmişdir:

"Muzey fəaliyyətində mahiyyət baxımından zənginləşmə prosesi özünəməxsus mürəkkəbliyə malik olmaqla, əsas hərəkətverici priyomlar kompleksindən ibarətdir. Fəaliyyət mexanizmində məqsədin zənginləşmə istiqamətinə yönəldilməsi, balavasitə ekspozisiya materialları, şərait və aparıcı, əsas amil sayılan muzey işçiləri vasitəsilə həyata keçirilir. Təbiidir ki, bu proses mərhələlik şəraitində olur. Zənginləşmənin mənbəyi isə muzey tədbirləridir. Sərgi və yaxud digər muzey tədbirləri özünəməxsus xüsusiyyət çərçivəsində zənginləşməni həyata keçirir. Tədbirlər kompleksinə nəzər salsaq, muzeydaxili və muzeydənkənar tədbirlərin mövcudluğu məlumdur" (455, s.234).

S.Əmirxanov tərəfindən 2004-cü ildə çap edilmiş və

muzeyşünaslığın inkişafında əhəmiyyətli rol oynayan “Muzey pedaqogikası” monoqrafiyası giriş və 8 fəsildən ibarət olmaqla, bu sahədə ilk araşdırma nəticəsi olaraq muzey pedaqogikası” problemlərini əhatə etmişdir (184, s.3-118). Artıq “Muzey pedaqogikası” pedaqoji elmlər sırasına salınmışdır (420, s.44-45).

S.Əmirxanovun 2001-ci ildə çapdan çıxmış “Muzey və məktəbli dünyagörüşü” monoqrafiyasında ilk dəfə olaraq predmet, mahiyyət, əhəmiyyət məsələləri, muzeyşünaslığın əsas istiqamətləri göstərilmiş (132, s.85-92), muzey-məktəb-ailə əlaqələrinin elmi mahiyyəti və əhəmiyyətindən bəhs edilmiş (183, s.98-139), prinsiplər, formalar, vasitələr və yollar sistemləşdirilmişdir (183,s.92-98). Eyni zamanda ziddiyyətçilik, muzeyşünaslığın gələcək perspektivlərinə təkan verən amillərin rolu aydınlaşdırılmışdır (183).

Tədqiqatçı alim Aludə Zeynalova tərəfindən hazırlanmış və 2007-ci ildə “Elm” nəşriyyatında çap olunmuş “Muzey ekspozisiyalarının estetik əsasları” monoqrafiyası giriş, 6 fəsil və nəticədən ibarət olmaqla, Azərbaycanda muzey işinin təşəkkülü (481, s.5-46), muzeyşünaslığın bədii və ictimai meyarları (481, s.47-96), bədii-estetik quruluş və muzey işinin aktual problemləri (481, s.97-136), regionlarda muzeylər (481, s.137-161), ev və müəssisə muzeyləri (481, s.162-200), muzeylər və elmi-pedaqoji iş (481, s.201-248) ardıcıllıqla təhlil edilmişdir.

Muzeyşünaslığın inkişafında son onilliyin tədqiqat əsərlərindən sayılan bu monoqrafiyada XX əsrin əvvəllərinə qədərki kolleksiyaçılıq ənənələri Azərbaycanda muzey işinin inkişafı (481,s.5-46), muzey işinin estetik əsasları (481, s.47-59), Gəncə, Naxçıvan muzeyləri, ev xatirə-memorial muzeylər, müəssisə və şəxsi muzeylər (491, s.137-200), muzeylərdə elmi işin təşkili (481, s.201-203) elmi-nəzəri əsaslarda işlənmiş, bu sahələrdə sistemləşmə prosesi aparılmış, tövsiyələr verilmişdir.

İlk dəfə olaraq muzey estetikasının ekspozisiya quruluşu, məzmununda mühüm əhəmiyyət elmi şəkildə əsaslandırılmış,

tətbiqi əsaslarının mexanizmi işlənilmişdir:

"Geniş mənada muzey estetikası metodologiyasının üç əsas səviyyəsini müəyyənləşdirmək mümkündür. Bu səviyyələr estetik dünyagörüşünün tarixən ümumi inkişafı kimi dəyərləndirilir. Onlar həm də ictimai mahiyyət daşıyır, çünki fəlsəfi-estetik dünyagörüşünün inkişafı cəmiyyətin inkişafı ilə sıx əlaqədardır. Zənnimizcə, muzey estetikası metodologiyasının fəlsəfi (ümumi başlanğıc), ümumelmi (muzeyşünaslığın sənətşünaslıq daxilində inkişaf etməsi və konkret-elmi (muzeyşünaslığın yaranması) səviyyələri ayırd edilə bilər. Bu səviyyələr ümumi başlanğıca malik olmaqla tədricən formalaşmamışlar; onlardan biri, digərinin inkişaf etmiş forması kimi təzahür edir.

Muzey işi inkişaf etdikcə, muzey estetikası da inkişaf edir. Zahiri formalarda muzey estetikası dizayn ilə birləşir" (481, s.50).

A.Zeynalova muzey estetikasının real əsasının çox haqlı olaraq tətbiqi və mənəvi cəhətlərin təşkil etdiyi nəticəyə gəlmişdir (481, s.51). Muzey fəaliyyətinin estetik gerçəkliklə əlaqələndirilməsinin daha yaxşı nəticələr verdiyini əsaslandıran müəllif, sosial aktivliyin yaranmasında mühüm amil olan estetiklik bütövlükdə ictimai bədii aktivlik mənbəyi olduğunu göstərmişdir (481, s.51-52). Nəhayət, A.Zeynalova əsaslandırmışdır ki, "Azərbaycan mühitində muzey estetikası əsas estetik təfəkkür tərzi və ümumi inkişaf qanunauyğunluqları saxlanılmaqla milli mədəniyyət, mentalitet və əxlaqi xüsusiyyətlər ilə açılanmış formada təzahür edir. Məhz bunun nəticəsidir ki, Azərbaycan muzeyşünaslığında estetik dünyagörüşü sosial-psixoloji mahiyyətdən daha çox mənəvi-əxlaqi xüsusiyyətləri ehtiva edir" (481, s.54-55).

Monoqrafiyada bədiilikdə texniki amilin geniş yer tutduğu elmi-nəzəri və təcrübi əsaslarda ayrı-ayrı muzeylərin fəaliyyətlərinin timsalında aydınlaşdırılmışdır (481, s.66-77) və muzeyşünaslıq əhəmiyyətli ümumiləşdirmə aparılmışdır (481, s.76-77).

Ekspozisiya quruluşunun elmi-nəzəri və təcrübi əsaslarını aparıcı muzeylərimizin fəaliyyəti zəminində aydınlaşdıran müəllif ayrı-ayrı tamaşaçı zövqlərinin zənginləşdirilməsi istiqamətində əhəmiyyətli tövsiyələrini göstərmişdir (481, s. 118-119).

Monoqrafiyanın muzeyşünaslığın tədris bazasına dair elm və təhsil bölməsində R.Ağayev, E.Salamzadə, S.Əmirxanov, A.Əlizadə, E.Qurbanova, İ.Hüseynov, A.Allahverdiyeva, A.Abdullayeva, Y.Eyvazova, İ.İsrafilov, A.Baxşıyeva və digər alim-tədqiqatçıların araşdırmaları təhlil edilmiş (481, s.221-253), müvafiq nəticələr verilmişdir.

Son dövr muzey tədqiqatçılığında öz araşdırmaları ilə milli muzeyşünaslığımıza elmi zənginlik gətirən alim-tədqiqatçı, professor Ə.Salamzadə sənətşünaslığın tədrisi, dizayn tarixi, dizayn və informasiya problemlərinin tədqiqat nəticələrini əsərləri vasitəsilə (522, 523, 521, 524) təqdim etmişdir. Belə əsərlərdən biri də "Dizayn və informasiya" dərsliyidir. Dərslikdə dizayn anlayışının son dövrlərdə daha da inkişafı, sahəvi dizayn anlayışlarının yaranması (427, s.219), dizayn tarixinin metodikası ilə əlaqələndirilməsi, Azərbaycan dizaynının inkişafı, dizaynda forma və digər muzeyşünaslıq əhəmiyyətli məsələlər aydınlaşdırılmışdır (427).

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Nailə xanım Vəlixanlının milli muzeyşünaslığımızın inkişafında çox mühüm əhəmiyyət kəsb edən araşdırmalarından biri də Azərbaycan Tarixi Muzeyinin 80 illik yubileyi ilə əlaqədar tədqiqat materiallarıdır (463). Bu araşdırmasında N.Vəlixanlı Muzeyin yarandığı vaxtdan bu günə qədərki elmi-nəzəri, təcrübi, təşkilatı fəaliyyətini çox maraqlı nümunələrin, faktların timsalında göstərmişdir. Keçmişin dərk edilməsi, xalqın maariflənməsinə köməyin göstərilməsi, mənəvi və siyasi inkişaf mərhələlərinin aşkarlanması, tarixi proseslərin qarşılıqlı əlaqə zəminində ənənələrinin nəsildən-nəslə ötürüldüyünün təbliği, cəmiyyətdə baş verən dəyişikliklərin müvafiq olaraq qiymət-

ləndirilməsində Muzeyin əhəmiyyətli rol oynadığını göstərən alim, onu Azərbaycan muzeylərinin "anası" kimi qiymətləndirmişdir (463, s.3). Azərbaycanın bütün tarix-diyarşünaslıq muzeylərinə, tematik və müəssisə muzeylərinə metodoloji və praktiki köməkliyin göstərilməsi (463, s.4), ümumiyyətlə "respublika muzeyşünaslığının mərkəzi" olması vurğulanmışdır.

Alim qeyd etmişdir ki, "Rəsmi olaraq qeyd edilməsə də, əslində, Azərbaycan Tarixi Muzeyi respublika muzeyşünaslığının mərkəzi olmuşdur. Ötən əsrin 30-cu illəri Tarix Muzeyinin təşəkkülü və inkişafı dövrü olmuş, 1924-cü ilin sentyabr ayında keçirilən ilk Azərbaycan diyarşünaslıq qurultayı respublikada muzey işinin inkişafında, o cümlədən Tarix Muzeyinin problemlərinin həllində müsbət rol oynamışdır. 1925-ci ildə respublikanın rayonlarına göndərilən ilk arxeoloji və tarixi-etnoqrafik ekspedisiyalar Tarix Muzeyində təşkil olunmuşdur. 1931-1935-ci illərdə Muzeyin kollektivinin hazırladığı ilk böyük ekspozisiya məhz həmin ekspedisiyaların materialları əsasında təşkil edilmişdi" (463, s.4).

Muzeyin fəaliyyəti dövründə onun fondunda saxlanılan qiymətli materialların aparılan geniş məzmunlu elmi-tədqiqatların mənbəyinə çevrildiyi qeyd edilmişdir (463, s.11). Muzeyin zəngin kolleksiyaları əsasında ayrı-ayrı illərdə çap edilən buklet, kataloq, albom, məqalə və kitabların alim-tədqiqatçılar, sənətşünaslar və muzeysevərlər tərəfindən rəğbətlə qarşılandığı vurğulanmışdır (463, s.11). "Muzey tərəfindən nəşr edilmiş "Milli geyimlər", "Zərgərlik bəzəkləri", "Şərq silahları", "Mis məmulatları", "Xalçalar və xalça məmulatları", "Azərbaycan tikmələri", "Arxeoloji material", "Numizmatına", "Sualtı arxelogiya" adlı kitabçalar seriyası yüksək rəğbətlə qarşılanmışdı" – fikrində N.Vəlixanlı Muzeyin hərtərəfli, yüksək elmi-tədqiqat fəaliyyətini təsdiq etməklə yanaşı, eyni zamanda gələcək tədqiqatçılıq işləri üçün də mənbə yarandığını qeyd etmişdir (463, s.11).

Ümumiyyətlə, akademik N.Vəlixanlı Azərbaycan Tarixi

Muzeyinin 80 illik fəaliyyəti dövrünü qısa şəkildə aşağıdakı istiqamətlər üzrə səciyyələndirmişdir. Beləliklə, muzey vasitəsilə:

- xalqın maariflənməsi;
- qədim milli tariximizin təbliği;
- mənəvi və siyasi inkişaf mənbələrinin aşkarlanması;
- müxtəlif mərhələli tarixi proseslərin qarşılıqlı əlaqəliliyi zəminində ənənələrin nəsildən-nəslə ötürüldüyünü aydınlaşdırmaq;
- hərtərəfli elmi-tədqiqat işlərinin həyata keçirilməsi;
- "muzeyşünaslıq mərkəzi" funksiyasını daşıması;
- arxeoloji ekspedisiyaların təşkili;
- Xəzərdə sualtı axtarışlar nəticəsində yeni, qiymətli faktların əldə edilməsi;
- məktəb bölməsinin əlaqəli fəaliyyətinin təşkili;
- milli tətbiqi sənət və onun inkişaf yolunun öyrənilməsi;
- müxtəlif muzey dərnəklərinin fəaliyyəti və digər işlər yerinə yetirilmişdir (463, s.3-15).

"Azərbaycan Tarixi Muzeyi - 80" toplusunda tədqiqatçı-alimlər Aytən Baxşıyevanın (493), Firdovsiyyə Əhmədovanın (138), Bəhmən Kərimovun (270), Svetlana Medvedevanın (515), Rəna Səfərovanın (430), Əli Rəcəblinin (406), Zümrüd Ələsgərovanın (149), Məşədixanım Nemətin (328), Səbuhi Əhmədovun (139), Nərminə Əmirbəyovanın (174), Mayya Bağırovanın (95) və digərlərinin elmi tədqiqatlarına aid muzakirələr Azərbaycan Tarixi Muzeyinin yüksək elmi-bədii, yaradıcı potensiala malik olmasını bir daha təsdiqləmişdir, eyni zamanda muzeyin daxili potensialı hesabına Azərbaycan tarixi, etnoqrafiyası, numizmatikası, dekorativ-tətbiqi sənəti haqqında fundamental tədqiqatların aparılmasını göstərmişdir.

Milli muzeyşünaslığın inkişafında Azərbaycan Tarixi Muzeyinin Elmi Şurasının qərarı ilə AMEA-nın müxbir üzvü Nailə Vəlixanlının "Elm" nəşriyyatı tərəfindən çap olunmuş "Azərbaycan Tarixi Muzeyi - 2002" toplumundakı elmi-

tədqiqat materiallarının mühüm əhəmiyyəti vardır (35). Bu toplumun əsasını Azərbaycan Tarixi Muzeyinin fondlarında qorunan kolleksiya, nümunə və sənədlərin elmi təhlili təşkil edir (35, s.7). Toplumdakı tariximizin müxtəlif dövrlərini əks etdirən eksponat və əşyalar zəminində aparılan araşdırmalara aid materialların artıq dəyərli tədqiqatları ilə tanınmış alimlərlə bərabər, gənc alim-tədqiqatçılar tərəfindən də yazılması perspektivdən xəbər verir. Tariximizin daha da dərindən öyrənilməsində kömək edən bu araşdırmalar eyni zamanda milli muzeyşünaslıq mənbəyi də hesab olunur. Toplumda Aytən Baxşıyevanın muzey quruculuğunun (490), Bəhmən Kərimovun Lənkəran bölgəsindəki tarix-diyarşünaslıq muzeylərinin (271), Fikrət Bağırovun Vəli Məmmədov şəxsiyyətinin yaddaşlarda çətin izlər buraxan vətənpərvərliyinin (96), Lyudmila Şalamovanın yeni daxilolmalara aid (531), Nailə Vəlixanlı və Şahin Fərzəliyevin XIX əsrin II yarısında Azərbaycanda kəndli məsələsinə dair sənəd haqqında (464), Gülarə Əliyevanın "Nobel qardaşları" birliyinin fəaliyyətilə bağlı (160), Sevinc Vahabovanın Hacı Zeynalabdin Tağıyevin yağlı boya ilə çəkilmiş portreti haqqında (457), Səbuhi Əhmədovun medalların tarixi mənbə kimi əhəmiyyətinin (140), Elmira Cəfərovanın Saleh Qazıyevin elmi-tədqiqat yaradıcılığının (112), Məşədixanım Nemətin silahlar üzərindəki kitabələrlə bağlı (329), Əli Rəcəblinin Bizans qızılının Azərbaycan pul dövriyyəsindəki əhəmiyyətinin (409), Həbibə Əliyevanın silah üzərində bədii işləmələr və kitabələrin (176) və digər muzeyşünaslıq dəyərə malik məsələlərin tədqiqinə dair materiallar üzün illərin elmi araşdırmalarının nəticəsidir.

AMEA-nın Azərbaycan Tarixi Muzeyi tərəfindən AMEA-nın müxbir üzvü Nailə Vəlixanlının redaktorluğu ilə çapdan çıxmış "Azərbaycan Tarixi Muzeyi - 2003" toplumu milli muzeyşünaslığımızın elmi-nəzəri və təcrübi inkişafında əhəmiyyət kəsb edir. Akademik Nailə Vəlixanlının araşdırmasında ərəb xilfəti dövründə (VII-IX əsrlərdə) Naxçıvanda baş

vermiş hadisələrdən bəhs edilmişdir (36). Tədqiqatda ərəblərin ayrı-ayrı dövrlərdə hücumları, ictimai-iqtisadi və siyasi sabitsizlik haqqında faktlarla yanaşı (36, s.4-8), Naxçıvan zərbxanalarının fəaliyyəti (36, s.12), Albaniya hökmdarı Cavanşirin apardığı çevik siyasətin ərəblərin işğalçı planlarının tam həyata keçməsinə mane olması (36, s.14-15), Xəzərlərin hücumları (36, s.16), Abbasilərin hakimiyyəti illərində baş verən hadisələr (36, s.23-25), nəhayət IX əsrin sonlarında Naxçıvan ərazilərinin Azərbaycan Sacilər dövlətinin tərkibinə daxil edilməsi və digər hadisələr elmi ardıcıllıqla mənbələrə istinadən təhlil edilmişdir (36, s.25-26).

Toplumda ayrı-ayrı tədqiqatçıların araşdırmaları ilə bağlı materiallar obyekt və məzmunca müxtəlif xüsusiyyətə malik olsalar da milli muzeyşünaslıq əhəmiyyəti daşıyırlar. Aytən Baxşıyevanın Azərbaycan Tarixi Muzeyinin 1937-1945-ci illər fəaliyyəti (491, s.82-105), Bəhmən Kərimovun müstəqillik dövründə tarixi-diyarşünaslıq muzeyləri işinin təşkili haqqında (269, s.106-111), Əli Rəcəblinin V-XIX yüzilliklərə aid Naxçıvan zərbxanaları barədə (408, s.201-206), Sənubər Qasımova və Zümrüd Əliyevanın birgə araşdırmaları olan Balakən gümüş sikkə dəfinəsi və Səfəvi sikkə zərbi ilə bağlı iki fərman haqqında (385, s.217-221), Səbuhi Əhmədovun Azərbaycan hərb sənətinin araşdırılmasında illüstrativ mənbələrin əhəmiyyəti (142, s.230-234), Qolçaqların təsnifatı ilə əlaqədar (Azərbaycan Tarixi Muzeyinin kolleksiyasında qorunan qolçaqlar əsasında) (141, s.270-275), Məşədixanım Nemətin mis qablar üzərindəki kitabələr barədə (330, s.247-253), Həbibə Əliyevanın metal əşyalar üzərində dini kitabələr (161, s.254-261), Sevinc Vahabovanın Azərbaycan Tarixi Muzeyinin silah kolleksiyasında mühafizə olunan bəzi toppuz nümunələri haqqındakı (458, s.286-290) tədqiqatları mühüm muzeyşünaslıq əhəmiyyəti daşıyır və muzeyşünaslığın ayrı-ayrı sahələrinin tədqiqat nəticəsində yeni materiallarını, faktlarını üzə çıxarmışdır. Alim-tədqiqatçılar öz araşdırmaları ilə Azərbaycan

Tarixi Muzeyinin əşya və kolleksiyalarından muzeydaxili mənbə kimi istifadə etmiş, yeni aşkar edilmiş yeniliklərlə elmi-nəzəri və təcrübi fəaliyyətin zənginliyini daha da artırmışlar ki, bu da Muzeyin elmi-tədqiqat mənbəyi kimi dəyərli fonda malik olduğunu bir daha təsdiq etmişdir.

2009-cu ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Muzeyşünaslıq" kafedrasının professor-müəllim heyəti – R.Ağayev, İ.Manafova, A.Əlizadə və E.Qurbanova tərəfindən tərtib edilmiş "Azərbaycanın memorial xatirə muzeyləri" kataloqunda müəyyən muzeyşünaslıq əhəmiyyətli materiallar toplanmışdır (33). "Ön söz"də muzeylərin təşəkkülü və inkişafı haqqında qısa məlumat verilmiş, kataloqun başlıca məqsədi göstərilmişdir:

"Memorial xatirə ev-muzeylərinin kataloqunu yaratmaqda başlıca məqsəd respublikanın şəhər, rayon və kənd yerlərində fəaliyyət göstərən bu profilli muzeylər, elm, təhsil, mədəniyyət, incəsənət xadimlərinin, yazıçı, şair, ozan-aşıq, bəstəkarların, məşhur səhnə ustalarının həyat və yaradıcılığı haqqında ətraflı məlumat verməkdən, habelə muzeydə cəmləşdirilən şəxsi kolleksiyalar, əşyalar, nadir tapıntı və sənədlər, muzeyin fondu, onun mühafizəsi, inkişaf mərhələlərinə, gənc nəslin doğma vətəninə, onun təbiətinə, tarixi şəxsiyyətlərinə, mədəni və ədəbi irsinə sevgi və məhəbbət ruhunda tərbiyə edilməsinə aydınlıq gətirməkdən ibarətdir" (33, s. 8).

İki fəsildən ibarət kataloqun I fəslində Azərbaycanda muzeylərin yaranması və fəaliyyəti, 24 ədəd memorial ev-xatirə muzeylərinin - M.F.Axundovun ev-muzeyinin (Şəki şəhəri), Mirzə Ələkbər Sabirin ev-muzeyinin (Şamaxı şəhəri), Qəzənfər Musabəyovun ev-muzeyinin (Dəvəçi rayonu, indiki Şabran), Ə.Əzimzadənin ev-muzeyinin (Bakı şəhəri), Həzi Aslanovun ev-muzeyinin (Lənkəran rayonu), Məmməd Səid Ordubadinin xatirə ev-muzeyinin (Ordubad rayonu və Bakı şəhəri), Abdulla Şaiqin mənzil-muzeyinin (Bakı şəhəri), Səməd Vurğunun ev-muzeyinin (Bakı şəhəri), Sergey Yeseninin

mənzil-muzeyinin (Bakı şəhəri), Yusif Məmmədəliyevin ev-muzeyinin (Ordubad rayonu), Üzeyir Hacıbəyovun ev-muzeyinin (Bakı şəhəri), Cəlil Məmmədquluzadənin ev-muzeyinin (Bakı şəhəri), Nəriman Nərimanovun ev-muzeyinin (Bakı şəhəri), Hüseyn Cavidın ev-muzeyinin (Naxçıvan və Bakı şəhəri), Bülbülün ev-muzeyinin (Bakı şəhəri), Cəfər Cabbarlının ev-muzeyinin (Bakı şəhəri),İsmayıl bəy Qutqaşınlının ev-muzeyinin (Qəbələ rayonu), Niyazının ev-muzeyinin (Bakı şəhəri), Niyazının mənzil-muzeyinin (Bakı şəhəri), İsmayıl Dağıstanlının xatirə ev-muzeyinin (Qax rayonu), Cəmil Əhmədovun ev-muzeyinin (Cəbrayıl rayonu), Maqsud Şeyxzadənin ev-muzeyinin (Ağdaş rayonu), Hüseyn Arifin ev-muzeyinin (Ağstafa rayonu), Leopold və Mstislav Rastropoviçlərin ev-muzeyinin (Bakı şəhəri), Vaqif Mustafazadənin ev-muzeyinin (Bakı şəhəri), N.Bozalqanlı adına Azərbaycan aşıq sənəti muzeyinin ayrı-ayrılıqda yaranmasının tarixi şəraiti (33, s.9-43) və bəzi fotoşəkillərlə ekspozisiyalardan görüntülər verilmişdir (33, s.44-229).

Tədqiqatçı alim Adilxan Bayramov tərəfindən aparılan araşdırmalar nəticəsində 2007-ci ildə işıq üzü görmüş "Tariximiz, yaddaşımız, sərvətimiz" monoqrafiyasında Azərbaycanda muzey işinin inkişafı mərhələrlərlə təqdim edilmiş, ayrı-ayrı illərdə yaradılmış muzeylərin müvafiq tarixi-ictimai, iqtisadi şəraitdəki fəaliyyətləri ardıcıllıqla sistemləşdirilmişdir (92). Monoqrafiyanın "Azərbaycanda muzey işinin tarixindən" bölməsində XIII əsrdə və XIX əsrin ortalarından Azərbaycandan xarici ölkələrə maddi-mədəniyyət nümunələrinin daşınması səbəbləri (92, s.5-10), XIX əsrin sonu və XX əsrin əvvəllərində ölkəmizdə muzey quruculuğunun təşəkkülü (92, s.10-13), XX əsrin 60-80-ci illərində muzeylər şəbəkəsinin surətli inkişafı (92, s.14-15), 1980-1990-cı illərdə muzeyşünaslığın inkişafına təkan verən amillər (92, s.15-16), nəhayət müstəqillik dövrü və 1993-cü ilin sonu, 1994-cü ilin əvvəllərindən bütün sahələrdə olduğu kimi, muzeyşünaslıqda da

surətli inkişaf prosesinin, tərəqqinin baş verməsi (92, s.20-28) ardıcıllıqla tədqiq edilmişdir.

Hazırda ölkəmizdə müxtəlif profilli muzey müəssisələrinin fəaliyyət göstərdiklərini və sürətli inkişaf xətti tutduqlarını A.Bayramov aşağıdakı şəkildə vermişdir:

"Azərbaycanda fəaliyyət göstərən muzeylərin profilləri də müxtəlifdir.

Ölkəmizdə tarix və tarix-diyarşünaslıq (Azərbaycan Tarixi Muzeyi, Naxçıvan Muxtar Respublikası Dövlət Tarix Muzeyi, Sumqayıt Şəhərinin Tarixi Muzeyi, Mingəçevir Şəhərinin Tarixi Muzeyi, Şuşa Şəhərinin Tarix Muzeyi, Gəncə Tarix-Diyarşünaslıq Muzeyi, Lənkəran Tarix-Diyarşünaslıq Muzeyi, Qazax Tarix-Diyarşünaslıq Muzeyi, Laçın Tarix-Diyarşünaslıq Muzeyi və s.), ədəbiyyat (Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyi, Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublikası Dövlət Ədəbiyyat Muzeyi, Nizami Gəncəvi Muzeyi – Gəncə şəhəri, Səməd Vurğun Poeziya evi – Qazax rayonu və s.) muzeyləri, bədii muzeylər və rəsm qalereyaları (Azərbaycan Dövlət İncəsənət Muzeyi, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi, Azərbaycan Dövlət Rəsm Qalereyası, Naxçıvan Muxtar Respublikası Azərbaycan Xalçası Muzeyi və s.), teatr-musiqi (Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi və s.),profilli muzeylər, xatirə muzeyləri (Üzeyir Hacıbəyovun ev-muzeyi, Səməd Vurğunun ev-muzeyi, Bülbülün xatirə muzeyi, Cəfər Cabbarlının ev-muzeyi, Cəlil Məmmədquluzadənin ev-muzeyi, Yusif Məmmədəliyevin ev-muzeyi – Ordubad rayonu, Mirzə Fətəli Axundovun ev muzeyi – Şəki şəhəri, Hüseyn Arifin ev muzeyi – Ağstafa rayonu və s.), muzey-qoruq ("Şirvanşahlar Sarayı-Kompleksi" Dövlət Tarix-Memarlıq Qoruq – Muzeyi) və digər muzeylər vardır" 992, s.23-24).

Erməni əsirliyində qalmış və tamamilə dağıdılmış, qarət edilmiş muzeylərimiz, sərgi salonlarımız, bağ-park incəsənəti

(92, s.25-26), mövcud ekspozisiyaların təkmilləşdirilməsi, muzeylərin beynəlxalq əlaqələrinin daha da genişləndirilməsi istiqamətində görülən tədbirlər (92, s.27), muzeylərdə yenidənqurma işləri, müasir standartlara uyğun təmir prosesləri, ekspozisiyaların Azərbaycanlılıq məfkurəsinə uyğunlaşdırılmasının təmin olunması və sair bu kimi kompleks tədbirlərin yerinə yetirilməsi göstərilmiş, bunlarla bağlı maraqlı materillar əks edilmişdir (92, s.28).

Sonrakı bölmələrdə incəsənət nümunələrinin muzeylərdə bədii-estetik təsir göstərməsi (92, s.55-68), Azərbaycan teatr salnaməsinin muzeylərimizdə eksponatlar zəminində təbliği (92, s.69-76), milli musiqi sənətkarlığımızın muzeylərimizdə nümayişi (92, s.77-88), Səməd Vurğunun ev-muzeyi haqqında (92, s.89-114), muzey sərvətlərinin ekspozisiya mühafizəsi mexanizmi (92, s.115-118), etnoqrafiq materialların muzeylərimizdə qorunması və digər muzeyşünaslıq əhəmiyyətli məsələlər tədqiq edilmişdir. Milli muzeyşünaslığımızın inkişafında mənbələrdən sayılan bu araşdırma elmi-nəzəri və tətbiqi nöqteyi-nəzərindən çox dəyərlidir.

Son dövr muzeyşünaslığında ayrı-ayrı problemlərin konkret obyektləri tədqiqatçılarımız tərəfindən müəyyənləşdirilir və muzeyşünaslığın həmin sahəsi istiqamətində araşdırmalar aparılır. Tədqiqatçı Sabir Əmirxanovun nəzəri muzeyşünaslığın tədqiqi baxımından son araşdırmaları sırf muzeyşünaslıq xarakterlidir. Onun "Nəzəri muzeyşünaslıq" monoqrafiyasında muzey fəaliyyətində qarşılıqlı əlaqələr, qanunauyğunluqlar və texnologiyaların sistemi yaradılmışdır. S.Əmirxanov muzeyşünaslıqdakı qarşılıqlı əlaqəlilik sisteminin strukturunu 2002-ci ildə nəşr edilmiş "Muzeyşünaslıq" dərsliyində vermişdir (352, s.5-75). S.Əmirxanov ünsürlərarası qarşılıqlı əlaqələrin ilk dəfə tədqiq edildiyini və muzeyşünaslığın inkişafına böyük təkan verəcəyini qeyd etmişdir və artıq bu sahədə sistem yaratdığını göstərmişdir (186, s.3-4).

Monoqrafiyada muzey fəaliyyətində mühit və şəraitin

yeri, əhəmiyyəti, muzey fəaliyyətinin mahiyyəti, məqsədi, məzmunu, imkanları, mərhələləri, nəticələri üzrə qarşılıqlı əlaqələrin qanunauyğunluqlara çevrilməsi ilk dəfə olaraq əsaslandırılmışdır (186, s.18-186). O, "Muzey texnologiyası" anlayışının müzeyşünaslıqda demək olar ki, işlədilmədiyini göstərmiş (186, s.190), onun tərifini aşağıdakı şəkildə vermişdir: "... muzey texnologiyası hazırda muzeyin qarşıya qoyduğu məqsədəmüvafiq vəzifələri həll etməyə yönəldilmiş məqsədyönlü, planauyğun, qarşılıqlı əlaqəli fəaliyyətdən ibarətdir" (186, s.189).

Monoqrafiyada ümumi muzey texnologiyaları (186, s.191) S.Əmirxanov tərəfindən aşağıdakı şəkildə fərqləndirilmişdir:

"Ümumi texnologiyalara aşağıdakılar aiddir:

Muzey fəaliyyətinin təşkili və idarəedilməsi texnologiyaları, onların arasında vəhdət.

Muzey fəaliyyətinin təşkili texnologiyalarının təsnifatını aşağıdakı qaydada verməyi məqsədyönlü hesab edirik:

1. Muzey elmi-tədqiqatlarının təşkili texnologiyası.
2. Fond işinin təşkili texnologiyası:

- fondların dövlət uçotu texnologiyası;
- muzey sərvətlərinin mühafizəsi texnologiyası;
- muzey sərvətlərinin qablaşdırılması və daşınması texnologiyası.

3. Sərgi-ekspozisiya işinin təşkili texnologiyası.
4. Muzey kütləvi tədbirlərinin təşkili texnologiyası.
5. Muzeydaxili dərnək və klubların idarə edilməsi texnologiyası.
6. Muzey bölmə və şöbələrinin idarə edilməsi texnologiyası.
7. Muzeyin ümumi idarə edilməsi texnologiyası" (186, s.191-192).

S.Əmirxanov muzey fəaliyyətinin təşkili texnologiyalarının bir-biri ilə sıx qarşılıqlı vəhdətdə olan üç çox mühüm

texnoloji prosesdən ibarət olduğunu göstərmişdir:

"1. Həyata keçiriləcək sərgi-ekspozisiya və yaxud tədbirin formasının (layihəsinin) yaradılması, planlaşdırılması prosesi.

2. Muzey tədbirinin məzmununun yaradılması, planlaşdırılması prosesi.

3. Metodların tətbiqi prosesi" (186, s.192).

Monoqrafiyada müəllif muzey elmi-tədqiqatlarının təşkili texnologiyasında xüsusi muzey texnolojisi müxtəlifliyinin mövcudluğunu qeyd etmiş, muzeyşünaslıq üzrə tədqiqatların tərifini vermişdir: Muzeyşünaslıq üzrə tədqiqatlar dedikdə, muzey fəaliyyətində qarşılıqlı əlaqələr, qanunauyğunluqlar, qanunlar prinsiplər, quruluş, məzmun, texnologiyalar və sair haqqında yeniliklər əldə etmək, yeni biliklər almaq üçün elmi fəaliyyət prosesi və onun nəticələri başa düşülür" (186, s. 193).

Muzeyşünaslıqda xüsusi texnologiyalardan bəhs edən müəllif (186, s.193-199), eyni zamanda müvafiq olaraq xüsusi texnoloji amilləri də ardıcıllıqla vermişdir (186, s.200). Həmçinin muzey işçisinə vacib bacarıqlar S.Əmirxanov tərəfindən fərqləndirilmiş (186, s.201), muzey işçisinin fəaliyyət texnologiyasının yerinə yetirilməsi əməliyyatları təsqid edilmişdir (186, s.201-202). Eyni zamanda müasir dövr muzeyşünaslığının sürətli inkişafı prosesində muzey texnologiyalarının yaradılması, inkişafı və tətbiqi üzrə müvafiq prinsiplərin fərqləndirilməsi və onların müzeyşünaslıq əhəmiyyətinin təhlilinin verilməsinin olduqca vacibliyi göstərilmişdir (186, s.203).

Azərbaycan muzeyşünaslığının ümumi nəzəriyyəsi və təcrübəsilə bağlı mətbuatda nəşr edilmiş məqalələrdə ayrı-ayrı problemlər müxtəlif dərəcədə qoyulmuş, müxtəlif yanaşmalar, dünyagörüşlərin zəminində araşdırma nəticələri, məlumatlar, xəbərlər öz əksini tapmışdır. Əsasən son 30 ildə, yəni 1979-2010-cu illər ərzində problem əhəmiyyətli belə materiallar və faktlar müxtəlif jurnal və qəzet səhifələrində ayrı-ayrı alim-tədqiqatçılar və mütəxəssislər tərəfindən verilmişdir. Azərbay-

canda 1970-1991-ci illərdə, yəni həm milli muzey quruculuğunun, həm də muzeyşünaslığın sürətli inkişafı, tərəqqisi dövründə daha çox problem əhəmiyyətli məsələlərin elmi-nəzəri və əməli qoyuluşu dəqiqləşdirilmişdir. Həmin dövrlərdə Azərbaycanın sürətli inkişafı bütün sahələrdə olduğu kimi, eləcə də muzeyşünaslıqda da özünü göstərmişdir. 1979-cu ildə nəşr edilmiş problem əhəmiyyətli materiallarda əsasən bütün mədəniyyət və incəsənət işçilərinə müraciət (309, s.8-9), muzeylərin fəaliyyəti – Dağlıq Qarabağ Muxtar Vilayəti Dövlət Tarix – Ölkəşünaslıq Muzeyinin iş təcrübəsi (94, s.22-23), Masallı rayonunun Hişkədərə kənd muzeyinin işi ilə (376, s.18-19) bağlı məqalələrdə müraciət, iş təcrübəsi, muzey quruculuğu və metodikalar araşdırma obyekti olmuşdur.

1981-ci ildə əsasən nəşr edilmiş "Eksponatlar axtarışında" (Azərbaycan Dövlət Musiqi Mədəniyyəti Muzeyinin fəaliyyəti haqqında) (253, s.41-42), "Tarix-diyarşünaslıq muzeylərində Sovet dövrü materillarının komplektləşdirilməsi" (93, s.11-13), "Gənclərin mənəvi zənginliyində estetik tərbiyənin rolu" (422, s.42.43), "Zəhmətkeşlərin hərbi-vətənpərvərlik tərbiyəsində muzeylərin rolu" (451, s.28-30), "İctimai əsaslarla işləyən muzeylərə elmi-metodiki rəhbərlik" (90, s.25-27), Cəlilabad Tarix-Diyarşünaslıq Muzeyi haqqında (447, s.26), "Tarixin canlı yadigarı" (394, s.35-37), "İncəsənət qüdrətli vasitədir" (5, s.40-41) mövzulardakı materiallarda, elmi-tədqiqat, fond komplektləşdirilməsi, mənəvi zənginləşmə, hərbi-vətənpərvərlik xarakterli mövzuların muzeyşünaslıq əhəmiyyəti açıqlanmışdır.

1982-ci ildə nəşr olunan problem əhəmiyyətli araşdırmalar içərisində İmişli Tarix-Diyarşünaslıq Muzeyinin fəaliyyəti (478, s.8-9), Azərbaycanda bədii metalişləmə sənətinin təşəkkülü, inkişafının müasir muzey fəaliyyətində əhəmiyyəti (467, s.38-41), muzeylərdə ekskursiya işinin təşkili qaydaları (327, s.24-25), SSRİ-nin təşkil edilməsinin 60 illiyi münasibətilə SSRİ Mədəniyyət Nazirliyi Kollegiyasının və Mədəniy-

yət işçiləri Həmkarlar İttifaqı Mərkəzi Komitəsi Rəyasət heyətinin birgə qərarına əsasən "Muzeylərin elmi-fond işlərinə, Ümumittifaq baxışı"nın keçirilməsinin mühüm rolu (88, s.9-12), 18-ci Ordunun Döyüş Şöhrəti Muzeyinin əldə etdiyi böyük nailiyyətlərdən bəhs edən (279, s.16-17) materiallar həm elmi-nəzəri, həm də tətbiqi nöqteyi-nəzərdən əhəmiyyət kəsb edir. Çünki, bu materiallar muzey quruculuğu, muzeyşünaslığın inkişafı (478, s.8-9), toplanmış dekorativ-tətbiqi sənətkarlıq nümunələrinin muzeyşünaslıq əhəmiyyəti (467, s.38-41), elmi metodika (327, s.24-25), muzey tədbirləri vasitəsilə normativ-hüquqi aktlara əməl edilməsi, mövcud Qanunlara əsasən fəaliyyətin qurulması (88, s.9-12) problemlərinə aiddir və muzeyşünaslar, mütəxəssislər üçün əhəmiyyətlidir.

1983-cü ilin "Mədəni-maarif " jurnalının səhifələrində nəşr edilmiş muzeyşünaslıq əhəmiyyətli materialları araşdırdıqda məlum olmuşdur ki, həmin mənbələrdə plenum materiallarının muzeylər vasitəsilə təbliği (326, s.10-12), S.Vurğunun ev-muzeyinin fəaliyyəti (87, s.16-19), Zəngilan və laçın tarix-diyarşünaslıq muzeylərinin fəaliyyəti (2, s.20-21; 123, s.19), fərdi yaradıcılıq sərgisi (163, s.22-23), Azərbaycan xalçalarının dünya şöhrəti qazanması (450,s.14-15), muzeylərin turist təşkilatları ilə əlaqəsinə (349, s.3) aid çox maraqlı faktlar əks edilmişdir. Təbii ki, dövrün ahəngini öz fəaliyyətində ana xətt hesab dən muzeylərimiz həmin illərin vahid və aparıcı, idarəedici Kommunist partiyası Plenumlarının materiallarının təbliğini planlı şəkildə həyata keçirmişdir.

Sov.İKP MK noyabr (1982) plenumunun materiallarının muzeylər vasitəsilə təbliğinə həsr edilən metodik-tövsiyə xarakterli materialda (326, s.10-12) bu məsələ ilə bağlı göstərilmişdir:

"Sov.İKP MK noyabr (1982-ci il) plenumu qərarlarının həyata keçirilməsində, materiallarının təbliğində muzeylərin üzərinə də müəyyən vəzifələr düşür. Məhz buna görə də muzeylərin ekspozisiya, fond və mədəni-kütləvi tədbirlərində

plenum materiallarının təbliği, izahı məsələləri ön plana keçirilməlidir. Bu mövzuda keçirilən hər hansı bir mədəni-kütləvi tədbir muzeyin fəaliyyətinin yaxşılaşdırılmasına, ekspozisiya və fondunun zənginləşməsinə, ən başlıcası isə zəhmətkeşlərin ideya-siyasi və mənəvi tərbiyəsinin yüksəldilməsinə xidmət etməlidir. Plenum materiallarının təbliği işində söhbətlərə və mühazirələrə üstünlük verilməlidir" (326, s.10).

Metodik-tövsiyədə plenum materiallarının təbliği ilə bağlı muzeylərdə mühazirə və söhbətlərin hətta aşağıdakı mövzular üzrə qruplaşdırılması da tövsiyə edilmişdir:

- on birinci beşilliyin növbəti ilini uğurla başa vuraq;
- keyfiyyət əsas şərtdir;
- ehtiyat mənbələri;
- ərzaq proqramı;
- xalq istehlak mallarının artırılması yolları;
- sənayenin baza sahələrinin inkişafı;
- Sov. İKP MK noyabr plenumu nəqliyyatın daha da inkişaf etdirilməsi haqqında;
- nəhəng tikintilər;
- partiya və xalq yekdildir (326, s.10-12).

S.Vurğunun ev-muzeyinin fəaliyyətinə həsr olunmuş "Muzeydə xalqlar dostluğu ideyalarının təbliği" (87), Zəngilan və laçın tarix-diyarşünaslıq muzeylərinin işi ilə əlaqədar "Zəngilan Tarix-Diyarşünaslıq Muzeyi" (2), "Dünənimizin və bu günümüzün inciləri" (123) mövzularında məqalələrdə həmin muzeylərin sərgi və ekspozisiyalarına həsr edilmiş çox maraqlı və günümüz üçün vacib, aktual faktlar, materiallar əks etdirilmişdir.

"Dünya şöhrətli xalçalarımız" mövzusundakı məqalədə Azərbaycan xalçalarının qədimliyi, tarixiliyi, bədii zənginliyi, ənənəviliyi, elmi mənbəliyi ilə dünyada məşhurlaşması haqqında, muzeyşünaslığın elmi-nəzəri və təcrübi tərəflərinin araşdırılması mənbəyi olması baxımından ardıcıllıqla verilmişdir:

"El sənəti örnəkləri, xüsusilə də Azərbaycan xalçaları

xalqımızın bədii dühasını, estetik zövqünü, istək və arzularını, eləcə də bizi əhatə edən aləmin bütün füsunkarlığını özündə cəmləşdirməklə neçə-neçə sənətkarın ustalığını, istedadını, gözəllik duyumunu hifz edib, sonrakı nəsillərə çatdırmışdır. Bu gün dünyanın və ölkəmizin ən adlı-sanlı muzeylərində nümayiş etdirilən xalçalarımız özünün orijinallığı, bənzərsiz naxışları, heyrətamiz rəng çalarları və kompozisiya zənginliyi ilə seçilir və sanki milli mədəniyyətimizin ululuğundan söhbət açır, öz tamaşaçılarını görmədiyi, eşitmədiyi nağıla bənzər bir aləmə qovuşdurur. Bu sənət incilərinin qüdrəti bir də orasındadır ki, uzun əsrlər ərzində Azərbaycan xalqının tarixi, onun düşüncə tərzi, adət-ənənəsi, məişəti barədə müasir adamlarda aydın təsəvvür oyadır. Qədim yurdumuz olan Azərbaycanda xalçaçılıq sənətinin tarixi də çox qədimdir. Hələ uzaq-uzaq keçmişlərdə sinəsi dürr, cəvahirat boğçalı nənələrimiz, həyalı, ismətli gəlinlərimiz, həssas qəlbli qızlarımız hana arxasında qım-qıma deyə-deyə, zümzümə edə-edə təkrarsız, nəfis sənət örnəkləri yaratmışlar. Bu sənət incilərini yaradanların adları tarixin dərin qatları altında itib-batsa da, onların dühasının ifadəsi kimi, köçüb getmiş nəslin yadigarı, uzaq illərin şahiditək bugünkü xalçaçılıq sənətimiz ölməzlik qazanmış, nəsillərin mənəvi sərvətinə çevrilmişdir" (450, s.14).

1984-cü ildə problem əhəmiyyətli məqalələr içərisində Şuşa ziyalısı Pərviz Axundovun Şuşa Tarix Muzeyinin eksponat fondunun daha da zənginləşdirilməsindəki misilsiz əməyindən bəhs edilən "Nəcib yolun carçısı" mövzusundakı Qardaşxan Əzizovun araşdırmasıdır (205, s.38-39).

Araşdırmada muzey fəaliyyətinin yaxşılaşdırılması, fondların zənginləşdirilməsi, ekspozisiyaların daha da baxarlı, məzmunlu edilməsi məqsədilə 1969-cu ildə Şuşa rəhbərliyi tərəfindən ziyalılara müraciətinə öz dəyərli əməyi ilə cavab verən Pərviz Axundovun Şuşa Tarix Muzeyinə, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinə, Azərbaycan Tarixi Muzeyinə, Azərbaycan Dövlət Xalq Maarifi Muzeyinə,

Ü.Hacıbəyovun, C.Məmmədquluzadənin, Bülbülün ev-muzeylərinə, eləcə də digər muzeylərə atası Mirzə Xosrov Axundovun kolleksiya nümunələrini bağışlaması böyük maraq doğurmuşdur (205, s.38-39). Bu məqalədə muzey quruculuğu, fond işi, eksponat zənginliyinin elmi-tərbiyəvi əhəmiyyəti, təbliğat-təşviqat işi, muzey kütləvi tədbirlərinin təşkili, elmi-tədqiqatçılıq fəaliyyəti kimi məsələlər öz şərhini tapmışdır (205).

"Mədəni-maarif" jurnalında 1984-cü ildə Xariqə Əliyeva tərəfindən çap olunmuş "Səyyar sərgi" mövzusunda məqalədə M.S.Ordubadinin xatirə ev-muzeyinin əməkdaşları tərəfindən ədibin həyat və yaradıcılığını özündə əks etdirən 9 lövhədən ibarət səyyar sərginin təşkilindən bəhs edilmişdir (158, s.14-15) ki, bu sərgi mədəni-maarif müəssisələri işçiləri tərəfindən, kənd əməkçiləri qarşısında oxunacaq mühazirələr və çıxışlar zamanı nümayiş etdirilmişdir (158, s.15).

1984-cü ildə "Təşviqatçı" jurnalının 21-ci nömrəsində Vaqif Əbilov tərəfindən çap edilmiş "Muzey təbliğat və təşviqat ocağıdır" mövzusundakı məqalədə Şuşa şəhər Tarix Muzeyinin təşəkkülü, eksponat fondunun zənginliyi, 1969-1984-cü illər ərzində geniş fəaliyyətindən bəhs edilmiş, tamaşaçıların, xüsusən də gənclərin ideya-siyasi, vətənpərvərlik və estetik tərbiyəsində muzeyin imkanlarından səy və bacarıqla istifadə edilməsi işıqlandırılmışdır (128, s.23-25).

Gülbəniz Babaxanovanın "Şərurda bir muzey var" məqaləsində 1981-ci ildən fəaliyyətə başlamış Şərur Tarix-Diyarşünaslıq Muzeyinin ekspozisiyasının ayrı-ayrı bölmələrində e.ə. IV-III minillikdən başlamış bugünə qədərki, dövrü əhatə edən nümunələrdən, muzeylərin müxtəlif mövzulu sərgiləri, tədbirlərindən bəhs edilmişdir (71, s.44-45). Məqalədə həm qədim, həm də müasir dövr nümunələrinin bədii-təsir gücü, tərbiyəvi əhəmiyyəti aydınlaşdırılmışdır .

1985-ci ilin milli muzeyşünaslıq əhəmiyyəti daşıyan jurnal məqalələri içərisində xalqın döyüş, əmək, beynəlmiləl,

vətənpərvərlik ruhunda tərbiyəsi (162, s.27-28; 301, s.35-38); 303, s.2-5; 97, s.29-30) və muzey ekspozisiyasında mətnlərdən istifadə qaydaları üzrə metodik tövsiyə xarakterli materiallar (316, s.13-14) mövcuddur.

1986-1987-ci illərin elmi məqalələri içərisində professor Əbülfəz Qasımovun Ağdam Çörək Muzeyi (388, s.4-6), Zümrüd Balaşovanın maddi-mədəniyyət abidələrinin, dekorativ-tətbiqi sənət əsərlərinin və eləcə də dünya mədəniyyətinin ən nadir nümunələrinin qorunub gələcək nəslə çatdırılmasında elmi-bərpa işlərinin rolu (101, s.26-33), Adilxan Bayramovun muzey sərvətlərinin ekspozisiyada mühafizəsinin tənzimlənməsi (86, s.31-33), Əjdər Yunusovun 1970-1980-ci illərdə Respublikamızda muzey şəbəkəsinin genişlənməsi (477, s.19-21), Şirxan Hüseynovun Ağcəbədi Tarix- Diyarşünaslıq Muzeyinin zəhmətkeşlərin estetik tərbiyəsində rolu (235, s.20-21) məsələləri problem əhəmiyyətlidir. Araşdırdığımız məqalələrdə aydınlaşdırılan maddi mədəniyyət abidələrinin aşkarlanması, gənc nəsildə mənəvi sərvətlərimizə məhəbbət hissinin aşılanmasında elmi-bərpa mərkəzinin əhəmiyyətli rolu (101,s.27), muzey sərvətlərinin ekspozisiyada normal mühafizə işinin həm də bədii tərtibat işindən asılılığı (86, s.33) və digər bu qism məsələlərin tədqiqi nəzəri və təcrübi muzeyşünaslığın inkişafında zəmindir.

1988-1989-cu illərin muzeyşünaslıq əhəmiyyətli məqalələri arasında fərdi yaradıcılıq sərgiləri (418, s.3; 100, s.3; 293, s.4; 505, s.3; 166, s.3; 508, s.3; 368, s.21-24; 72, s.25-28), muzey tərəfindən həyata keçirilən elmi-tədqiqat işləri (466, s.3; 219, s.3; 4, s.4-5), yaradıcı sənətkarların yubileyləri (453, s.7), milli bədii sənətkarlıq nümunələri (419, s.4; 494, s.3), beynəlxalq muzeyşünaslıq əlaqələri (165, s.31), sərgi-ekspozisiya işləri (296, s.71-73; 410, s.88-91) ilə bağlı araşdırma nəticələri əks etdirilmişdir. Bu məqalələrdə S.Ə.Şirvani adına Şamaxı Tarix və Diyarşünaslıq Muzeyinin fəaliyyəti, orada nümayiş etdirilən şəhər tarixi ilə bağlı eksponatlar Şamaxı

qalasının açarları, XVIII əsrə aid möhürlər, silahlar, top, xəncər, xış, bürünc, samovar və digər qiymətli əşyaların bədii-estetik təsdiqi (296), Ordubad Tarix-Diyarşünaslıq Muzeyinin yerləşdiyi qədim Came Məscidinin tarixi, muzeydə nümayiş etdirilən toxuculuq alətləri, gil məmulatlar, təsviri sənət nümunələri, zərgərlik və digər bədii-sənətkarlıq nümunələrinin yaranma tarixi , təsir gücü (410), Əməkdar İncəsənət Xadimi, professor Mürsəl Nəcəfovun yaradıcılıq yolu (219), SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvləri, dövlət və beynəlxalq mükafatları laureatları, professorlar, görkəmli sənətkarlar Mikayıl Abdullayev və Ömər Eldarovla bağlı dəyərli faktlar, məlumatlar (453) problem baxımından əhəmiyyət kəsb etməklə, muzeyşünaslığın bu və ya digər sahəsinin inkişafında mənbə olmuşdur.

1990-1994-cü illər ərzində milli muzeyşünaslıqla bağlı nəşr edilmiş məqalələrdə rəssam Cabbar Quliyevin həyat və yaradıcılığı (384, s.17-19), B.Səmədova adına sərgi salonunda açılmış rəssamların əsərləri sərgisində ayrı-ayrı əsərlər haqqında (240, s.21, 99, s.202), Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyinin fəaliyyəti zəngin eksponat fondu və 9 otaqdan ibarət ekspozisiyası (210,s.11-13), Ağdaş Tarix-Diyarşünaslıq Muzeyinin eksponat fondunun təşkili (415, s.29) Qax Rayon Tarix-Diyarşünaslıq Muzeyinin zəngin və qədim tarixə malik yurdumuzun maddi-mənəvi sərvətlərinin qorunması, xalqa nümayiş haqqında (3, s.11-13) maraqlı elmi faktlar əks etdirilmişdir. Eyni zamanda Maral Rəhmanzadə yaradıcılığı (7, s.141), SSRİ xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Respublikası Dövlət mükafatları laureatı akademik Tahir Salahov yaradıcılığı (8, s.150), Nizami Gəncəvi əsərlərinə həsr edilmiş, müxtəlif sənətkarlar tərəfindən yaradılmış bədii yaradıcılıq nümunələri (170,s.178), R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyinin sərgi-ekspozisiya fəaliyyəti ilə yanaşı musiqi və poeziya axşamlarını, yaradıcılıq görüşlərini yüksək keyfiyyətlə təşkil

etməsi (389, s.182; 282, s.8-9), "Təsvir" Xarici Ticarət Şirkətinin sərgi salonunda açılmış (H.Hacıyev küç. 11) həvəskar rəssam Tofiq Mövsümovun fərdi sərgisində ayrı-ayrı əsərlərin – təbiət təsvirlərinin, süjetli tabloların bədii-estetik təsirə malik olması verilmiş (169, s.133), fakt və məlumatlardan istifadə edilmişdir. Qismən muzey işinin strukturundan (215, s.12-16)Ş muzeylərdə toplama işi və onun problemlərindən (314, s.14), muzeylər vasitəsilə etnoqrafik materialların tamaşaçıya çatdırılması üsullarından (284,, s.13-15), muzey işinin səmərəli təşkilindən (124, s.15), muzey fəaliyyətində milli xüsusiyyətlərin əhəmiyyətindən (85, s.21-22) bəhs edilən materiallar muzeyşünaslığın nəzəriyyəsi və təcrübəsi, muzey işinin metodikasına həsr edilmişdir. Alim-tədqiqatçı T.Haqverdiyev muzeylərin meydana gəlməsi səbəbləri (215, s.14), muzey işi tarixinin bəşəriyyətin təkamül prosesinin, o cümlədən mədəniyyət tarixinin öyrənilməsinə imkan yaratdığını (215, s.12), muzey işinin nəzəri əsaslarının dörd tərkib hissədən ibarət olmasını (215, s.12) göstərmiş, muzeylərin profillərini aşağıdakı formada aydınlaşdırmışdır:

"1. Tarix muzeyləri. Bunlar tarix elmi əsasında fəaliyyət göstərir və arxeologiya, etnoqrafiya, numizimatika, inqilabi-tarixi, hərbi-tarixi, tarixi-iqtisadi, təhsil və maarif tarixi, idman tarixi və sair adlana bilərlər.

2. Bədii muzeylər incəsənət və sənətşünaslıq istiqamətində fəaliyyət göstərirlər. Təsviri incəsənət muzeyini, şəkil qalereyalarını, heykəltəraşlıq və tətbiqi sənət muzeylərini, qravüra kabinələri, teatr və musiqi, kino incəsənəti və başqa muzeyləri misal göstərmək olar.

3. Təbiət-tarixi muzeyləri təbiətşünaslıq elmləri əsasında yaradılır. Bunlar biologiya, botanika, zoologiya, geologiya, minerologiya, paleontologiya, antropologiya, ekologiya və sair aiddir.

4. Texnika muzeyləri politexnik, texnika, hava qüvvələri, avtonəqliyyat, rabitə, gəmiçilik, dəmiryolu nəqliyyatı və ayrı-

ayrı müəssisələrin nailiyyətlərini nümayiş etdirir.

5. Ədəbiyyat muzeyləri klassiklərimizin həyat və yaradıcılığına, müasir ədəbiyyatın inkişafına, yazıçıların fəaliyyətinə həsr olunur.

6. Kompleks muzeylər tarixi-bədii, tarixi-arxeoloji, kənd təsərrüfatı və sairəni özündə əks etdirir. Diyarşünaslıq muzeyləri də təbii-tarixi cəhətləri özündə birləşdirdiyinə görə kompleks muzeylər siyahısına daxildir" (215, s.15-16).

Samit Məsimov və Aida Əliyeva toplama işində əhəmiyyətli cəhətlərin metodiki əlaqəliliyini aşağıdakı şəkildə verməyi məqsədyönlü hesab etmişlər:

"... yaranmış olan yeni tarixi şəraitdən məharətlə istifadə etmək lazımdır. Toplama işində əsasən orijinallara, demokratik hərəkatın doğurduğu nəticələrə fikir verilməlidir.

Muzey işçisi toplama prosesində iki əsas problemi bir-birindən ayırmağı bacarmalıdır. Bunlardan birincisi orijinal eksponatı muzeyə gətirməli, ikincisi isə onu nümayiş etdirməlidir" (314, s.14).

Onlar eyni zamanda coğrafi-iqtisadi şəraitin eyni olmamasına baxmayaraq Kəlbəcər, Sabirabad, Qəbələ Tarix-Diyarşünaslıq muzeyləri əməkdaşlarının müsbət işi ilə Yevlax rayon Tarix-Diyarşünaslıq və Şəkidəki Rəşad bəy Əfəndiyevin ev-muzeyi əməkdaşlarının zəif iş bacarıqlarını biri-birindən fərqləndirmişlər (314, s.14).

Tədqiqatçılar Adilxan Bayramov və Solmaz Məhərrəmovanın müşahidələrinə görə:

"... respublikamızın muzeylərində toplanmış etnoqrafik materialların əksəriyyəti XIX-XX əsrlərə aiddir. Buna görə də ekspozisiyaların həmin dövrlərə aid bölmələri etnoqrafik materialların nümayişi baxımından daha zəngindir. Bu bölmələrin əsli materialları - əmək alətləri, bəzək şeyləri, xalça və xalça məmulatları, tikmələr, məişət əşyaları, zərgərlik nümunələri və sair mövzunun açılmasına səmərəli təsir göstərir. Bu əşyalar vasitəsilə xalqımızın özünəməxsus bir sıra xüsusiy-

yətləri əks etdirilir" (294, s.13).

Onların tədqiqatlarına görə bu mövzu:

"... Naxçıvan MR Dövlət Tarix Muzeyində, Cəbrayıl, Qəbələ, Kəlbəcər, Laçın tarix-diyarşünaslıq muzeylərində tamaşaçıya daha yaxşı çatdırılır" (294, s.13).

A.Bayramov və S.Məhərrəmova hər bir əşya haqqında aydın, dəqiq təsəvvürün yaradılmasında yüksək bədii tərtibatın mühüm əhəmiyyətini qeyd etmişlər (294,s.14). Eyni zamanda muzeydə insanların müxtəlif dövr fəaliyyətlərini əyani şəkildə canlandırmaq məqsədilə muzey eksponatlarının yerləşdirilməsininin də əhəmiyyətini qeyd edən tədqiqatçılar, musiqi alətləri ilə yanaşı ekspozisiyada folklorluğa aid geyimlərin nümayişi, musiqi alətlərinin səsləndirilməsinin də vacibliyini vurğulamışlar:

"Ekspozisiyada musiqi alətləri – dəf, nağara, qaval, tütək, balaban, qara zurna, saz və sajrlə yanaşı, ifaçıların geyimləri də göstərilməlidir. Bu zaman maket və fotoşəkildən, habelə əşyanın əslindən istifadə etmək olar. Muzeydə musiqi alətlərinin səsləndirilməsi maraq doğurur. Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin xalq çalğı alətləri şöbəsində bu imkandan səmərəli istifadə olunur. Yaşlı adamların müxtəlif mərasimlər barədə söhbətlərini maqnitafon lentlərinə yazmaqla xalqımızın etnoqrafiyasının (ayrı-ayrı bölgələr üzrə) öyrənilməsi və təbliğinə müəyyən xidmət göstərmiş olarıq" (294, s.14).

A.Bayramov və S.Məhərrəmovanın muzeylərin milli azlıqlarla bağlı məqsədyönlü fəaliyyətlərinin təşkili istiqamətində də tövsiyə xarakterli fikirləri muzeyşünaslıq əhəmiyyətlidir:

"Milli azlıq əsasən respublikamızın Lənkəran, Astara, Lerik, Masallı, Qax, Zaqatala, Balakən, Oğuz, Quba, Xaçmaz, Qusar, laçın və Kəlbəcər rayonlarında məskunlaşmışlar. Həmin rayonlardakı tarix-diyarşünaslıq muzeyləri bölgənin tarixi ilə birlikdə milli azlıqlara aid materialların nümayişinə də ciddi

diqqət yetirməlidirlər. Həm də bu iş elmi əsaslara, mövcud tədqiqatlara uyğun aparılmalıdır. Əvvəlcə milli azlıqların mənşəyi, Azərbaycanda məskunlaşma səbəbləri, adət-ənənələri, məhz özlərinə məxsus xüsusiyyətləri, Azərbaycanlılarla ümumi cəhətləri və tarixi əlaqələri öyrənilməli, ekspozisiyada göstərilərkən nəzərə alınmalıdır" (85, s. 21).

Yuxarıdakı fikrə görə muzey işçləri bir neçə mərhələdə iş aparmalıdır: birincisi, milli azlıqların məskunlaşdığı ərazilər dəqiqləşdirilməlidir; ikincisi, həmin bölgə muzeylərinin işçiləri öz tarixlərini dərindən bilməlidir; üçüncü, bölgənin tarixi ilə bərabər milli azlıqların tarixini bilməli və bu tarixi dövrə aid materialların dəqiq seçilməsi, nümayişinə ciddi diqqət yetirməlidirlər; dördüncüsü, görülən işlər elmi əsaslarda olmalıdır; beşincisi, həm Azərbaycanlıların, həm də milli azlıqların ümumi və fərqli xüsusiyyətləri öyrənilməlidir; altıncısı, ümumi və fərqli xüsusiyyətlər ekspozisiya quruluşlarında nəzərə alınmalıdır. Əlbəttə, yuxarıdakı bu xüsusiyyətlərə diqqətli yanaşma, elmi əsaslara istinad, mərhələli, ardıcıllıqla yerinə yetirilmə, fərqli cəhətlərin nəzərə alınması elmi-nəzəri, təcrübi və metodik əhəmiyyət kəsb edir ki, bu da muzeyşünaslığın inkişafında mühüm rola malikdir.

1996-1999-cu illərdə muzeyşünaslığın nəzəri və təcrübi problemləri üzrə artıq konkret problem istiqamətli tədqiqatlar yaranmışdır. Tədqiqatçı-alim Sabir Əmirxanovun tədqiqatlarının bir qismi bilavasitə incəsənət muzeylərinin ümumtəhsil məktəbi şagirdlərinin estetik tərbiyəsinin formalaşmasındakı roluna həsr edilmişdir. S.Əmirxanov uzun illər muzey-məktəb əlaqələrini tədqiqat obyekti hesab edərək ilk dəfə muzeyşünaslığın həmin sahəsini həm nəzəri, həm də təcrübi baxımdan zənginləşdirmişdir. Onun incəsənət muzeylərinin məktəblilərin vətənə məhəbbət hissinin tərbiyəsində rolu (193, s.7-8), incəsənət muzeyləri vasitəsilə məktəblilərin estetik tərbiyəsinin təşkili (191, s.20-25), müasir Azərbaycan muzeyşünaslığında muzey mühitinin mahiyyəti, məzmunu və əhəmiyyəti (188,

s.11), muzey pedaqogikasının inkişafı problemlərindən biri olan yaradıcı idrakla tərbiyə arasındakı əlaqənin aydınlaşdırılması (87, s.29-31), müasir muzey fəaliyyətinin pedaqoji proseslə sıx əlaqədə olması (185, s.32-36), muzeyşünaslığın inkişafı amili olan muzey fəaliyyətində ziddiyyətlərin inkişafa təkan verməsi (192, s.22-23), muzey fəaliyyətində mərhələliyin əhəmiyyəti (190, s.37-38) məsələləri sahələrində araşdırmaları milli muzeyşünaslığımızdakı növbəti inkişaf mərhələsidir.

Bu illər ərzində tədqiqatçı-alim Adilxan Bayramovun Ulu Öndərimiz möhtərəm Heydər Əliyevin ölkəmizdə son onilliklərdə mədəniyyət və ona daxil olan dəyərlərimizin geniş vüsət almasında, eləcə də muzey quruculuğunun, muzey işinin tərəqqisində bilavasitə ölçüyəgəlməz əməyi, zəhmətinin olması. ayrı-ayrı muzeylərin fəaliyyətə başlamasına aid (84, s.2-4), Səməd Vurğunun ev-muzeyinin fəaliyyətə başlaması və bu günə qədərki, uğurları barədəki araşdırmaları ilə əlaqədar materiallar (78, s.52-53) problem əhəmiyyətlidir. Tədqiqatçı araşdırmasında Ulu Öndərimizi "milli-mənəvi dəyərlərimizin təəssübkeşi" adlandırmış, hətta muzey işində əməyi olanların Ümummilli Liderimizin diqqətindən yayınmadığını qeyd etmişdir:

"Muzeylərimizin yaradılmasında, xalqımızın yaratdığı mənəvi dəyərlərin toplanılması, mühafizəsi öyrənilməsi və təbliğində, ekspozisiyaların zənginləşdirilməsində, kütləvi tədbirlərin təşkilində əməyi olanlar da Heydər Əliyevin diqqətindən yayınmamışlar. Bu diqqət ayrı-ayrı muzey işçilərinin əməyinin qiymətləndirilməsində özünü göstərir" (84, s.4).

A.Bayramov bu araşdırmasında apardığı müqayisələri belə nəticələndirmişdir:

"... Bu gün respublikamızda yeni muzeylərin yaradılması işi davam etdirilir. Mövcud muzeylərimiz Azərbaycan xalqının tarixi, mədəniyyəti, böyük şəxsiyyətləri ilə bağlı dəyərləri toplayır, qoruyub, öyrənir, təbliğ edirlər.

Bu muzeylərin Azərbaycan Respublikasının Prezidenti

Heydər Əliyevin şəxsində böyük hamisi və təəssübkeşi vardır..." (84, s.4).

A.Bayramov özünün "Yaşayan ömür" məqaləsində Səməd Vurğunun ev-muzeyinin geniş fəaliyyətindən bəhs etməklə, ayrı-ayrı illərdəki sərgi və digər muzey tədbirlərini – zəngin fonotekanın vasitə kimi bədii-estetik təsirini, S.Vurğunun xatirəsinə həsr olunmuş məclisləri, görüşləri nümunə göstərərək muzeyin uğurlu fəaliyyətini bir daha təsdiq etmişdir (78, s.52-53).

Tədqiqatçı digər araşdırmasında yenə S.Vurğunun və Cəfər Cabbarlının ev-muzeylərindəki fotoşəkillərin çox güclü emosional təsirindən bəhs edərək, hər iki klassikin yaradıcılığının qarşılıqlı bədii zənginliyindən söz açmışdır (81, s.11-12).

1996-1999-cu illərin muzeyşünaslıq əhəmiyyətli araşdırma materialları sırasında sənətşünas-alim Ramiz Ağayevin Azərbaycanda muzey quruculuğu, muzey işi və muzeyşünaslığın inkişafı, muzeyşünas-alimlərin muzeyşünaslıq istiqamətindəki tədqiqatları, muzeyşünas kadrların yetişdirilməsinin bu gün və gələcək üçün mühüm əhəmiyyəti, Bakı şəhərinin muzeylərindən, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Muzeyşünaslıq" kafedrası üçün tədris prosesində baza kimi istifadə edilməsindən faktlar göstərmiş, Azərbaycanda muzeyşünaslıq elminin möhkəm özülünün qoyulduğunu, bu özül üzərində milli-mənəvi, maddi-mədəniyyət dəyərlərimizin öz tarixi əhəmiyyətini qoruyub saxlayacağını və xalqın sərvətinə çevriləcəyini qeyd etmişdir (84, s.20-21).

Elmar Məmmədov (304), Səriyyə Əsədova (195) və Elmira Alxasova (19) muzey işinin inkişafını, muzeylərin mənəvi zənginləşmə və tərbiyəvi təsirinin gündən-günə artmasını araşdırmalarında göstərmişlər.

2000-ci ilin araşdırmaları sırasında problemlə bağlı elmi-metodiki və təcrübi əhəmiyyət kəsb edən məqalələr mövcuddur. Həmin məqalələrdə Azərbaycanda muzey işinin tarixindən (82), muzeylərin hərbi vətənpərvərlik tərbiyəsi istiqamətindəki

fəaliyyəti (315) və Üzeyir Hacıbəyovun ev-muzeyinin yaranmasının 25 illik yubileyindən bəhs edən materiallar (383, s.159) muzeyşünaslığın inkişafı üçün dəyərlidir.

2001-ci ilin tədqiqatlarında A.Bayramovun muzey quruculuğu ilə bağlı (83, s.41-45), S.Məsimovun muzey işini müasir tələblər səviyyəsində qurmağın forma və metodlarına (318, s.55), muzeylərə təşkil edilən ekskursiyaların xarici dildə aparılmasının əhəmiyyətinə (324, s.31-32) həsr etdiyi Şəbnəmin R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyinin yarandığı gündən bu vaxta qədərki, uğurlu fəaliyyətinə aid (436, s.61), T.Fətullayevanın iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ev-muzeyinin uğurlu fəaliyyətilə bağlı (208, s.46) araşdırmaları problem əhəmiyyətinə görə maraq doğurur.

Samit Məsimovun araşdırmaları elmi-metodiki məzmununa görə daha çox diqqəti cəlb edir.

Müəllif muzey işinin müasir tələblər səviyyəsində qurulmasında aşağıdakı başlıca tələblərin yerinə yetirilməsini vacib hesab etmişdir:

1. Muzeyin populyar, şöhrətli olması üçün fondun zənginləşdirilməsi vacibdir.
2. Fondda toplama işi üzrə ayrıca perspektiv və illik iş planı hazırlanmalı, təsdiq edilməlidir.
3. Toplanan əşyalar müasir dövrün tələblərinə cavab verməklə yanaşı, xalqımızın qədim tarixini, mədəniyyətini, sivilizasiyasını əks etdirməlidir.
4. Ekspozisiya öz ideya-siyasi məzmunu, estetik təsiri və bədii tərtibatına görə müasir tələblərə cavab verməlidir.
5. Ekspozisiya işlərinin planlı, keyfiyyətli və məqsədyönlü olması üçün mövzu-ekspozisiya planları tutulmalıdır.
6. Muzeydaxili və muzeydənkənar mədəni-kütləvi tədbirlər yüksək keyfiyyətlə təşkil edilməlidir.
7. Muzeylərdə "açıq qapı günləri" təşkil edilməli, tamaşaçı marağı, arzusu nəzərə alınmalıdır.

8. Hər bir muzey öz işinə müstəqil və məsuliyyətlə yanaşmalı, qarşılıqlı əlaqəli fəaliyyətdən bəhrələnməlidir (318, s.55).

Müəllifin muzeylərdə xarici dildə ekskursiyanın təşkilinin forma və metodları da araşdırmamız nöqteyi-nəzərindən əhəmiyyətlidir. S.Məsimov muzey işinin daha səmərəli fəaliyyəti üçün xarici dildə ekskursiyaların təşkilinin vacibliyini göstərmişdir. O, bu sahədə aşağıdakı prinsiplərə əməl olunmasını tövsiyə etmişdir:

1. Hər bir muzey rəhbəri, xarici dildə ekskursiyanın təşkilində hər-hansı mürəkkəb psixoloji problemin həllinə səy göstərməlidir.

2. Muzeydə beynəlxalq əhəmiyyət kəsb edən muzey işçilərinin ingilis dilində ekspozisiya fəaliyyətini təşkil etməyə nail olunmalıdır;

3. Muzeyə gələn hər bir tamaşaçıya muzey işçiləri tərəfindən alman, fransız, ispan, Avropa dillərində məlumat verilməsinə nail olunmalıdır.

4. Muzey bələdçilərinin bir neçə dil öyrənməsinə çalışılmalıdır və sair (324, s.31-32).

"Mədəni-maarif" jurnalındakı "ABŞ-dan qaytarılmış qrafika əsərlərinin incəsənət muzeyində sərgisi" materialında 2001-ci ildə Mədəniyyət naziri Polad Bülbüloğlunun Muzeydən oğurlanmış eksponatlarla bağlı maraqlı fikirləri dəyərlidir (9, s. 8-11).

2002-2003-cü illərin araşdırmalarında əsasən L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin uğurlu fəaliyyəti, ayrı-ayrı dekorativ-tətbiqi sənət nümunələri, zəngin fondu, muzeyin İngiltərə, Fransa, Almaniya, Avstriya, ABŞ, Yaponiya, Hindistan, Macarıstan və digər ölkə muzeyləri ilə qarşılıqlı sərgi əlaqələri, Vaşinqtondakı "Tekstil", Londondakı "Viktoriya və Albert", Parisdəki "Luvr", Nyu-Yorkdakı "Metropoliten", Tehrandakı "Xalça Muzeyi", "İstanbuldakı "Türk İslam Əsərləri Muzeyi",

Sankt-Peterburqdakı "Etnoqrafiya" muzeyi ilə yaradıcılıq əlaqələrinin mövcudluğu (480, s. 11-12), muzeylərimizin sərgi fəaliyyətinin müqayisəli təhlili (325, s.46-49), İ.Qutqaşınlının və Səməd Vurğunun ev-muzeylərinin sərgi və digər muzey tədbirlərinin bədii-estetik təsiri (302, s.20-21, 32-35; 290, s.31), Şuşa şəhərinin incəsənətinin dünya mədəniyyətinin inkişafına təkan verməsi (135, s.10-13), Şuşadakı Üzeyir Hacıbəyovun ev-muzeyinin eksponatları haqqında (150, s.16-17), A.Şaiqin ev-muzeyinin tarixi və nadir, qiymətli əşya-eksponatların bədii-estetik təsiri (393, s.24), Azərbaycan muzeylərində ştatlar, izahlı mətnlər və etiketlərin tərtibində elmi-estetik tələblərin nəzərdə saxlanılması (13. s.29-30), Zaqatala Tarix-Diyarşünaslıq Muzeyinin yeni tikilmiş binaya köçürülməsi və fəaliyyəti, eksponat zənginliyi (348, 339), muzey kadrlarının ixtisaslarının artırılmasının forma, metodları (313, s.24-25), Ordubad Tarix-Diyarşünaslıq Muzeyinin zəngin eksponat fondu, təşkil etdiyi sərgilərin müxtəlif peşə sahiblərində dərin bədii maraqlar yaratması (118, s.6), R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində fəaliyyət göstərən dərnəklərin məktəbli-gənclərin bədii yaradıcılıqlarının inkişafında əhəmiyyətli rolu (275), Naxçıvan MR Dövlət Tarix Muzeyinin fəaliyyəti, inkişafı, müxtəlif mövzularda təşkil etdiyi sərgi-tədbirləri (413, s.48-50), Sabirabad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yaranması, bugünə qədərki şərəfli fəaliyyəti, rəngarəng mövzularda sərgi-ekspozisiyaları (199, s. 52-53), Kürdəxanıda Vamiq Məmməd-əliyevin şəxsi kolleksiyasının zənginliyi və elmi, mədəni, tarixi əhəmiyyətindən (189) bəhs edilmişdir. Bu araşdırmalar içərisində eyni zamanda elmi-metodiki əhəmiyyət kəsb edən materiallar (325,13,313) muzeyşünaslığın nəzəriyyəsi və təcrübəsi ilə bilavasitə əlaqədardır. Samit Məsimov özünün muzeydaxili və muzeydənkənar sərgilərlə bağlı araşdırmasında sərginin tərifimi vermiş, sərginin mühazirə, yaxud söhbətlə müşayət edilməsinin məna və dəyərinin artmasına kömək

etdiyini göstərmişdir (325, s.46). O, eyni zamanda ayrı-ayrı muzeylərin fəaliyyəti zəminində sərginin üç əsas – stasionar, fərdi, və səyyar formalarından istifadə edildiyini göstərmişdir (325, s.48). Araşdırmada tədris, elmi və digər müəssisələrlə müştərək sərgilərin yaradılmasının əhəmiyyəti əsaslandırılmışdır (325, s.49).

Pakizə Ağayevanın araşdırmasına əsasən (13, s.29-30) bir sıra muzeylərin fəaliyyətləri zəminində muzey əşyalarının ekspozisiyalarda təbliğinin keyfiyyətinin artırılmasında izahlı mətnlər, sitatlar və etiketlərin tərtibində elmi-estetik tələblərin vacibliyini aşağıdakı kimi qruplaşdırmağı məqsədyönlü hesab etdik:

1. Sitatlar, izahlı mətnlər, etiketlər və bu qəbildən olan digər ekspozisiyada verilən yazılı informasiyalar muzey əşyasını tamaşaçıya əhatəli şəkildə çatdırmaq səviyyəsində olmalıdır;

2. Əşya haqqında informasiyaların tərtibi və yaxud verilməsində material, faktların əsaslandırılmış şəkildə seçilməsinə ciddi fikir verilməlidir;

3. Ekspozisiyada eksponat haqqında düzgün, inandırıcı, sübutedici, əsaslandırıcı sitatların təsdiq olunmuş mənbələrdən seçilməsi vacibdir.

4. Qarşıya qoyulan məqsədə uyğun ekspozisiyanın imkanından asılı olaraq sitatın məzmununda ixtisar edilməsi vacibdir, çünki artıq, lüzumsuz, uzun-uzadı sitat məzmununa ehtiyac yoxdur.

5. Ekspozisiyanın baxımlı, məzmunlu, elmi cəhətdən dolğun və əsaslandırılmış olması üçün tarixi-elmi qaynaqlara söykənmiş izahlı mətnlərdən istifadə olunmalıdır.

6. Etiketlərin elmi-bədii və estetik dolğunluğa ciddi fikir verilməlidir. S.Məsimov və Z.Qurbanovun muzey kadrlarının ixtisaslarının artırılması ilə bağlı metodik tövsiyələrində (313, s.24-25) ixtisasartırma prosesində ayrıca proqramların tərtibinin vacibliyi, Ulu Öndərimizin siyasi kursunun təbliği, daha

aktual mövzuların proqrama salınması, muzey işinin tərəqqisi naminə yeni elmi layihələrin müzakirəsinin vacibliyi göstərilmiş, muzey işçilərinin ixtisasartırma prosesinin üç mərhələdə aparılmasını məqsədyönlü hesab etmişlər (313, s.24-25).

2004-cü ilin araşdırmalarında həm muzey quruculuğu, muzey işinin inkişafı, sərgilərin təşkilinə aid məsələlər, həm də muzeyşünaslığın nəzəri və təcrübəsinə aid elmi-metodiki materiallar mövcuddur. Muzey quruculuğu, sərgi-ekspozisiya işlərinə həsr edilmiş məqalələrdə əsasən Qax Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yaranması, eksponat fondu, sərgi işinin təşkili (133, s.4), Hacıqabul Rayon Tarix- Diyarşünaslıq Muzeyinin bərpası və eksponat fondu (228, s.35), H.Zərdabi adına Təbiət Tarixi Muzeyinin təmiri ilə, eksponatlarının rəngarəngliyi (236), Üzeyir Hacıbəyovun ev-muzeyinin yeni eksponatları (21, s.7), Cəlil Məmmədquluzadə adına Naxçıvan MR Ədəbiyyat Muzeyinin sərgi-ekspozisiya işləri, elmi fəaliyyəti (260, s. 44-48), Naxçıvanda C.Məmmədquluzadənin Cəlilkənd, Nehrəm kənd xatirə muzeylərinin fəaliyyəti (261, s.5-7), Azərbaycanda 70-90-cı illərdə muzeylərin yaranması və inkişafında Ulu Öndərimiz Heydər Əliyevin əvəzsiz xidmətləri, AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyi, N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyinin elmi-bədii, yaradıcı, tərbiyəvi fəaliyyəti (475), Göyçay Tarix-Diyarşünaslıq Muzeyinin yaranması, eksponat toplama və elmi-kütləvi fəaliyyəti, oradakı eksponatların dəyərliliyi (146,s.30-31), C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin fəaliyyəti dövründə toplama, fond işi, sərgi-ekspozisiya işlərinin müasir tələblər səviyyəsində təşkili, müxtəlif muzey tədbirlərinin-görüşlər, gecələr, yubileylər və sairənin maraq dairəsi baxımından zənginliyi (232, s.21-23), C.Cabbarlının ev muzeyində yeni ekspozisiyasının açılışı (367,s.4) maraqlı fikirlərlə təqdim edilmiş, hər tədbirin elmi-bədii rəngarəngliyi muzeylərin imkanları zəminində aydınlaşdırılmışdır. Bu araşdırmalarda həmçinin

qismən metodiki yanaşmalara da yer verilmiş, elmi dəyər nöqteyi-nəzərindən sərgi, yaxud muzey tədbiri mütəxəssislər tərəfindən qiymətləndirilmişdir.

2004-cü ilin digər araşdırmalarında isə nəzəri və tətbiqi muzeyşünaslıq istiqamətli metodik tövsiyə, təklif və başlıca tələblər irəli sürülmüşdür. Artıq bu qisimdən olan tövsiyə, təklif, prinsiplərin konkret elmi-tədqiqat obyektinə istiqamətli şəkil almağa başlamışdır. Belə müəlliflər sırasında S.Əmirxanov (176, s.206-209), A.Bayramov (77, s.54-57), A.Bayramova (76, s.20-22), S.Məsimov, E.Kazımzadə, Z.Qurbanov, E.Qurbanova, S.Eyvazova, R.Ağayeva (319, s.49-52; 320, s.37-39; 321. s.36-40; 322, s.40-42; 323, s.45-47), S.Kəngərli (262, s.9-12), H.Sadıqzadənin (423,s.4-7) araşdırmaları muzeyşünaslıq əhəmiyyətli tövsiyə, təklif, prinsiplər nöqteyi-nəzərindən əhəmiyyətlidir. S.Əmirxanovun muzey fəaliyyətinin təkmilləşdirilməsi istiqamətindəki irəli sürdüyü başlıca tələblər milli muzeyşünaslığımızın həm nəzəri, həm də təcrübi istiqamətləri üçün çox dəyərlidir: O qeyd etmişdir ki, muzey fəaliyyətini təkmilləşdirmək üçün:

“... mütəxəssislərdən ibarət işçi qrupunun iştirakı ilə sistemləşdirilmiş kompleks fəaliyyət proqramının hazırlanması və bu proqrama əsasən perspektiv fəaliyyət xəttinin təyini bu günün tələbidir. Fəaliyyət proqramında aşağıdakı istiqamətlər üzrə başlıca tələblərin öz həllini tapması daha məqsədyönlü olardı:

1. Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının müvafiq nazirlikləri, komitələri, şirkətlərinin (Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyi, Dövlət Gömrük Komitəsi, Azərbaycan televiziya və radio verilişləri şirkətinin və s.) qarşılıqlı əlaqəli fəaliyyəti sisteminin yaradılması vacibdir.

Azərbaycan Respublikası Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası kadr hazırlığı prosesində əlaqəli

fəaliyyətə əsaslansalar daha məqsədəmüvafiq olardı, Azərbaycan Respublikası Təhsil Nazirliyi Ali və orta ixtisas məktəblərində muzeylər üçün kadr hazırlığında təkmilləşdirmə aparsalar səmərəli nəticələr əldə olunardı. Birincisi, respublikada fəaliyyət göstərən muzeylərdə çalışan işçilərin ən azı 50%-dən çoxu ali təhsilli olsalar, işin keyfiyyət göstəricisi yaxşılaşardı. Bu prosesdə bir tərəfdən, Respublika Təhsil nazirliyi, eləcə də Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Musiqi Akademiyası, Azərbaycan Milli Konservatoriyası vasitəsilə kadr hazırlığı beynəlxalq standartlar səviyyəsində yerinə yetirilməklə, muzeyşünas kadr qıtlığı aradan qaldırılardı. Digər tərəfdən isə, AMEA-nın ayrı-ayrı elmi-tədqiqat institutları, xüsusən Memarlıq və İncəsənət İnstitutu ali təhsil müəssisələri tərəfindən hazırlanan mütəxəssislərin diplomdan sonrakı elmi hazırlığını (aspirantura, dissertantura, doktorantura) ən müasir vasitə, forma və yollardan səmərəli istifadə ilə daha da təkmilləşdirməyə nail olmalıdır.

Muzeyşünaslığın inkişafı istiqamətində AMEA-nın Memarlıq və İncəsənət İnstitutu tərəfindən elmi-tədqiqat işlərinin səmərəli həyata keçirilməsindən ötrü əvvəlcə yerlərdə muzey fəaliyyətinin vəziyyəti tədqiq edilməli, öyrənilməli, sonra isə müvafiq tədbirlər görülməlidir, lazım gələrsə ixtisasartırma kurslarından istifadə edilməlidir. İxtisasartırma kurslarının Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Muzeyşünaslıq" kafedrası ilə AMEA və Bakının, eləcə də respublikamızın böyük, aparıcı muzeyləri ilə əlaqəli şəkildə təşkili məqsədəmüvafiqdir. Çünki, təkmilləşmə müddətində muzey işçisi, həm nəzəri, həm də təcrübi bilik və bacarıqlar əldə etməlidir. Respublika Mədəniyyət Nazirliyi nəzdindəki təkmilləşmə kursları öz formal xarakteri ilə müsbət nəticə vermir.

Ümumiyyətlə, muzeyşünaslığın inkişafı istiqamətində

həm namizədlik, həm də doktorluq dissertasiyası mövzularının seçilməsi və işlənilməsi prosesində mühit və şərait nəzərə alınmalı, mövzuların aktuallığı diqqət mərkəzində olmalıdır. Muzeylərin özlərində elmi dərəcəyə malik mütəxəssislərin fəaliyyətinə nail olunmalıdır. Muzeylər elmi-tədqiqat mərkəzlərinə çevrilməli, tədqiqat üçün mənbə rolunu oynamalı, elmi-tədqiqatın perspektivi təyin edilməlidir. Bu prosesdə Respublika muzeylərinin əlaqəli fəaliyyət prosesi də səmərəli şəkildə həyata keçirilməlidir.

2. Azərbaycanda fəaliyyət göstərən bütün muzeylərin əlaqələndirmə şurasının yaradılması vacibdir. Elmi-tədqiqat işlərinin planlaşdırılması, sərgi və tədbirlərin təşkili, muzey klubları, dərsləri, olimpiadaların keçirilməsində qarşılıqlı əlaqəlik prinsipinə əməl olunması müsbət nəticələrə çıxarar. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, muzeylərin (emalatxanalarında) nəzdində bədii sənətkarlığın ayrı-ayrı sahələri üzrə peşəyönümlü dekorativ-tətbiqi sənətkarlıq üzrə keramika, dulusçuluq, şəbəkəçilik və sair nadir sənətlər üzrə qrupların təşkili səmərəli nəticələr verərdi.

Əlaqələndirmə şurası tərəfindən muzey şəbəkələrinin yerli mühitə nə dərəcədə təsirinin tədqiqatlar vasitəsilə öyrənilməsi prosesi də müsbət nəticə verərdi. Eyni zamanda muzey mühiti dərindən öyrənilər, muzey işçisi fəaliyyətinin psixoloji xüsusiyyətlərinə nəzarət mexanizmi işlənilərdi.

Muzey fəaliyyəti prosesində qarşılıqlı əlaqəlilik məqsədyönlü və planlı şəkildə öz həllini mərhələ-mərhələ tapmalıdır. Bu prosesdə fəaliyyətdə mühit və şəraitin əhəmiyyəti, fəaliyyətin mahiyyəti, məqsədi, məzmunu, mərhələləri, nəticələri üzrə qarşılıqlı əlaqələrin qanunauyğun hala keçməsi mexanizmlərinin işlənilməsi də buğünki muzeyşünaslıq üçün vacibdir.

3. Müxtəlif profilli muzeylər üzrə kadr hazırlığının daha da təkmilləşdirilməsinə böyük ehtiyac duyulur. Xüsusən, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Muzey işi və abidələrin mühafizəsi" ixtisası üzrə kadr

hazırlığını daha da gücləndirmək, muzeyşünaslıq sahəsində tədqiqatçılığa imkan yaratmaq daha səmərəli nəticələr verərdi.

4. Xarici ölkələrdə muzey işi təcrübəsini öyrənmək üçün xüsusi mütəxəssis qrupunun yaradılması və fəaliyyət göstərməsi üçün artıq vaxt çatmışdır. Bu qrupun həm ölkə daxilində müxtəlif tarixi dövr maddi və mənəvi mədəniyyət nümunələri ilə müqayisədə təhlilin həyata keçirilməsinə və milli muzeyşünaslığımızda tətbiqinə böyük ehtiyac vardır. Eyni zamanda dünya muzeyləri və şəxsi kolleksiyalarda saxlanılan və indiyə qədər məlum olmayan Azərbaycan bədii sənətkarlığı nümunələrinin mövcud vəziyyəti haqqında da araşdırmalara böyük ehtiyac duyulur. Muzey mühitinin zənginliyi, yeni texnologiyaya malik olması, muzey fəaliyyətində ziddiyyətlilik, tərbiyəvilik, mərhələlilik, idraki proseslər, muzey fəaliyyətində qarşılıqlı əlaqələrdən qanunauyğunluğun meydana gəlməsi, muzey etikası, muzey estetikası, muzey psixologiyası, muzey pedaqogikası, milli muzeyşünaslığın nəzəri və təcrübi istiqamətləri və sair bu kimi problemlər üzərində araşdırmaların aparılmasının vaxtı çatmışdır. Müxtəlif ölkələrin muzeyşünaslığının tədqiqinin nəticəsi kimi müqayisəli muzeyşünaslığın təşəkkülünə nail olmaq müzeyşünas alim – tədqiqatçılarımızı düşündürməlidir. Bu sahədə indiyə qədərki Rasim Əfəndi, Lətif Kərimov, Nurəddin Həbibov, Cəmilə Novruzova, Mürsəl Nəcəfov, Mikayıl Abdullayev, Kazım Kazımzadə, Röya Tağıyeva və digər tanınmış sənətşünasların, alim- tədqiqatçılarımızın çox güclü dəyərə malik araşdırmalarından, tövsiyə və təkliflərindən istifadə olunmalıdır.

5. Azərbaycan muzeylərinin hər birində kataloqlaşdırma prosesi elmi əsaslarda həyata keçirilməlidir. Bu işin planlı, keyfiyyətli və mərhələli yerinə yetirilməsi üçün əlaqələndirmə şurasının fəaliyyətindən istifadə edilməlidir. Yaxşı olardı ki, AMEA tərəfindən ayrı-ayrı muzeylərdə kataloqların tərtibi və həmin kataloqların sistemləşdirilməsi, nəşri üzrə xüsusi redaksiya yaradılsın. Azərbaycan muzeylərində saxlanılan eksponat-

ların kataloqlaşdırılması mərhələlərlə yerinə yetirildikcə, həmin kataloqların xüsusi redaksiya tərəfindən bir neçə xarici dildə küll halında nəşrə hazırlanması və yayılması bu günümüz üçün məqsədyönlü olardı.

6. Respublikamızda muzey binalarının təmiri və müasir texniki avadanlıqla təchizində xüsusi qayğıya ehtiyac vardır. Çünki, ekspozisiyanın məzmun və forma etibarı ilə tamaşaçıya hərtərəfli çatdırılmasından ötrü zəngin texnologiyalı muzey mühitinin əhəmiyyəti əsasdır. Muzey mühiti müvafiq əşyalara, eksponat fonduna, güclü elmi-yaradıcı potensiala, müasir texniki vəsaitə malik kollektiv tərkibi ilə məqsədyönlü vəzifələri planlı şəkildə həyata keçirir. Fəaliyyət prosesində muzey mühitinin hərəkətverici, istiqamətverici qüvvəsi-muzey işçiləri, canlandırıcı qüvvə olan tamaşaçılar, mənbə-əşyalar, eksponatlar, elmi-kütləvi fəaliyyətin əsası isə elmi və yaradıcı idrak sayılır. Zənginləşmə prosesi müəyyən xüsusiyyətə, özünəməxsusluğa malik muzey mühitində baş verir və səmərəli nəticə əldə olunur. Səmərəliliyin keyfiyyət dərəcəsi isə muzey mühitinin xarakteri ilə ölçülür.

Müzey mühiti vasitəsilə yaradıcı idrakla tərbiyə prosesinin qarşılıqlı vəhdətinin mahiyyəti muzeyşünaslıq baxımından əhəmiyyət kəsb edir. Bu qarşılıqlı vəhdət ictimai inkişafın bütün mərhələlərində özünü qabarıq şəkildə göstərir. Maraqlıdır, bir tərəfdən, təbiətdə və cəmiyyətdə baş verən hadisələr yaradıcı təfəkkür süzgəcindən keçir, dərk olunur, tamlanır və sənət əsərinə bədii yaradıcılıq nümunəsinə çevrilir. Digər tərəfdən isə, müxtəlif yaş qrupuna mənsub insanlar əldə olunan yaradıcı idrak məhsulunu özünəmüvafiq şəkildə mənimsəyir, tərbiyəvi təsirə düçar olurlar. Biri-birilə qarşılıqlı əlaqədə olan bu iki prosesin birincisi yaradıcılıq müəssisələrində, emalatxanalarda, digəri isə muzey və sərgilərdə baş verir. Yaradıcı idrakın vəzifəsi mühitin, xarici aləmin təsirinin bəhrəsini müvafiq yaradıcılıq dünyagörüşü səviyyəsində canlandırmaqdan ibarətdir. Tərbiyə prosesində isə muzeylər hazır sənətkarlıq

nümunələrini müvafiq mühit və şəraitdə müxtəlif yaş qrupuna mənsub insanlara çatdırırlar, bununla da mənəvi zənginləşdirmə prosesi başlanır. Beləliklə, yaradıcı idrakın məhsulu yaranır, sənət nümunəsinə çevrilir, artıq, bununla da tərəqqi prosesi baş verir. Getdikcə yaradıcı idrakın nəticələri mənəvi zənginləşmədə əsas amilə çevrilir və tərbiyə prosesinin məzmununa müsbət təsir edir. Bu da nəticə etibarilə sonrakı tarixi dövrlərdə yeni yaradıcı idrakın təşəkkülü və zənginləşməsinə zəmin yaradır.

Yaradıcı idrakla tərbiyəvi proses arasındakı qarşılıqlı vəhdət cəmiyyətin sonrakı inkişaf mərhələsinə müəyyən dərəcədə nüfuz edir, bu prosesin sürətləndirilməsində amilə çevrilir. Muzey mühitində dərketmə prosesində idrak əməliyyatları, maraqlar, ünsiyyət, fəallıq və sair əsas əhəmiyyət kəsb edir. Bütövlükdə, idrak əməliyyatlarının sistemi olan dərketmə fəaliyyəti muzey mühitinin zənginliyi, texnologiyanın rəngarəngliyindən çox asılıdır. Ən müasir texniki avadanlıq, texnologiya dərketmənin məzmununun tez əldə olunması və dərinləşməsinə səbəb olur.

7. Respublikamızın ayrı-ayrı bölgələrində muzey işi ilə bağlı elmi konfranslar, simpoziumlar, yaradıcılarla, arxeoloq, etnoqraf, sənətşünaslarla görüşlər, dəyirmi masalar, yaradıcılıq gecələrinin keçirilməsi əhəmiyyətlidir. Bu cür tədbirlər nəticəsində müxtəlif tarixi dövr sənətkarlığımıza dərin maraq oyanır, eyni zamanda peşəyönümü istiqamətində məqsədyönlü işlər həyata keçirilir. Belə tədbirlər sırasında müxtəlif mövzulu səyyar sərgilərin təşkilinə də xüsusi fikir verilməlidir.

8. Bədii sənətkarlıq qabiliyyəti üzrə Bakı şəhərində və respublikamızın rayon mərkəzlərində, qəsəbə və şəhərlərində uşaq yaradıcılığı müsabiqələrinin təşkili də uşaq və yeniyetmələr arasında bədii sənətkarlığa olan marağın daha da artmasında, həm də muzey işinin təkmilləşməsində mühüm rol oynaya bilər.

9. Muzey fondlarının zənginləşdirilməsi istiqamətində

əhali arasında təbliğat işinin aparılmasından ötrü təcrübəli muzey işçilərinin, sənətşünasların, alim-təqdiqatçıların bir qrupunun bu işə cəlb edilməsi də vacibdir. Ayrı-ayrı əşya və eksponatların əldə olunması ilə bərabər, bu prosesdə yeni istedadlı yeniyetmə-gənclərin, uşaqların yaradıcılıq qabiliyyətləri aşkara çıxa bilər və geniş əhali kütləsi arasında dərin maraqlar yaradılar.

10. Muzeylərin məqsədyönlü fəaliyyəti üçün dövlət büdcəsindən ayrılan maliyyə vəsaiti muzeylərin fəaliyyət gücünə müvafiq olaraq hesablansa daha yaxşı olardı, muzeydə peşəkar muzey işçisinə müvafiq əmək haqqı nəzərdə tutulsa məqsədyönlü olardı. Muzeyin fəaliyyəti hesabına maliyyə fondu yaranarsa, onun müxtəlif iş sahələrinin təşəkkülü və fəaliyyətində bu fonddan istifadə etmək olar.

11. Dövlət Gömrük Komitəsi muzeylərlə əlaqəli fəaliyyətə istinadən respublikadan tarixi əhəmiyyətə malik nümunələrin, əşyaların, materialların, dekorativ-tətbiqi sənəd nümunələrinin çıxarılmasına nəzarəti daha da ciddiləşdirsə bir o qədər yaxşı olar. Çünki, milli mədəniyyətimizin nümunələrinin yerli-yersiz şəkildə xaricə aparılması halları baş verməz.

12. Respublika televiziya və radio şirkətinin müvafiq redaksiyaları vasitəsilə muzey işçilərinin, sənətşünasların, tədqiqatçılarımızın muzeyşünaslıq əhəmiyyətli silsilə verilişlərdə maraqlı çıxışları müxtəlif yaş qruplu tamaşaçılar tərəfindən dəyərləndirilə bilər.

13. Muzey işçilərinin attestasiyasının keyfiyyətlə aparılması indiki dövr üçün mühüm amildir. Hazırkı muzey işçisinin, muzeyşünasın, sənətşünasın, yaradıcının məqsədyönlü fəaliyyətinin milli mədəniyyətimizin nadir incilərinin gələcək nəsillərə ötürülməsində böyük rolu vardır. Eyni zamanda muzey fondlarımızın tədqiqi, daha da zənginləşdirilməsi, tarixi mədəniyyət abidələrimizin aşkara çıxarılması, bərpası, tədqiqi kimi mürəkkəb proseslərin keyfiyyətlə yerinə yetirilməsində peşəkarlara böyük ehtiyac duyulur. Ən başlıcası isə, muzey

mədəniyyətimizin daha da tərəqqisi üçün dövlət təminatının getdikcə artırılmasına olan ehtiyacın ödənilməsi mümkündür" (176, s.206-209).

A.Bayramovun "İncəsənətimiz muzeylərdə" mövzusunda araşdırmasında AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyi, N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi, Lətif Kərimov adına Azərbaycan Xalçası və xalq Tətbiqi Sənəti Dövlət Muzeyi, Naxçıvan Muxtar Respublikası Azərbaycan Xalçası Dövlət Muzeyində nümayiş etdirilən çox qiymətli incəsənət nümunələrimizin elmi-bədii, estetik təsirindən bəhs olunmuş, muzeyşünaslıq əhəmiyyətli müqayisələr aparılmışdır (77, s.54-57).

S.Məsimovun, E.Kazımzadənin, Z.Qurbanovun birgə nəşr etdirdikləri "Böyük Vətən Müharibəsi mövzusu və muzeylərimiz" adlı məqalə-töysiyələrində hərbi-vətənpərvərlik, qəhrəmanlıq, Vətənə məhəbbət hissinin tərbiyə edilməsi istiqamətində metodiki tövsiyələr göstərilmişdir. Müəlliflərin tövsiyə hazırlamaqda məqsədləri "... muzeylərimizdə xüsusilə də tarix-diyarşünaslıq muzeylərində hərbi-vətənpərvərlik mövzusuna yeni məna və dəyər verməkdir" (319, s.50).

S.Məsimov, E.Qurbanova, S.Eyvazovanın birgə hazırladıqları "Tarix və tarixlər..." mövzusunda tövsiyə xarakterli metodik məqalədə məqsəd 2004-cü ilin may ayında keçirilən "Muzeylər baharı" aksiyası çərçivəsində Müstəqil Azərbaycan tarixinin muzeylər vasitəsilə təbliğat işinin yüksək şəkildə təşkili idi (320, s.37). Qeyd etməliyəm ki, müəlliflər həmin araşdırmalarında Azərbaycan muzeylərinin ekspozisiyalarının elmi-nəzəri, bədii-estetik və texniki cəhətdən qüsurluluğunu bir sıra amillərlə izah etmişlər (320, s.38-39).

Bu amillər sırasında ekspozisiya quruluşlarında maliyyə problemlərinin mövcudluğu, ekspozisiyalarında maliyyə problemlərinin mövcudluğu, ekspozisiyaların qeyri-spesifik binalarda yerləşməsi, ekspozisiyanın elmi-nəzəri həllinin vacibliyi,

elmi-kütləvi mövzuların seçimində diqqətsizlik kimi qeyd edilmişdir (320, s.39). Əlbəttə, belə elmi-tədqiqat əhəmiyyətli məsələlərin müzakirələri, müqayisələri, bu istiqamətdə planlı olaraq müvafiq tədbirlərin qabaqcadan həyata keçirilməsi, mövcud vəziyyətin qiymətləndirilməsi və sair bu kimi fəaliyyətlər muzeyşünaslığın nəzəri və tətbiqi baxımından inkişafına köməkdir.

S.Məsimov və R.Ağayevanın birgə araşdırmasında Azərbaycanın qədim tarixə malik və zəngin abidələrinin bərpası və mühafizəsi problemlərinin təbliğində muzeylərin rolundan (321, s.36-40) bəhs edilmiş muzeyşünaslığın inkişafında mühüm əhəmiyyət kəsb edəcək metodik tövsiyələr və başlıca tələblər verilmişdir. Bu başlıca tələblərin bəzi aşağıda göstərdiklərimiz problem əhəmiyyətlidir:

"1. Tarix-diyarşünaslıq muzeylərinin birinci bölməsinin ikinci hissəsini, yəni ekspozisiyasının ən azı 20% sahəsini tarixi abidələrin təbliğinə həsr etməliyik.

2. Ekspozisiyada rayonlarda olan abidələrin rəngli fotoşəkilləri və həmin abidələr haqqında elmi araşdırmalara əsaslanan materiallar, yəni izahlı mətnlər, sitatlar və etiketlər verilməlidir. Yaxşı olar ki, tarixi abidələr bölməsi yalnız fotoşəkillər və mətnlərdən ibarət olmasın. Ekspozisiyanın daha zəngin və maraqlı olması üçün abidələrin maketlərini və visajlarını yaratmaq da zəruridir.

3. Hər bir muzey işçisi ekspozisiyada abidələri təkcə təbliğ etməklə kifayətlənməməlidir. Mövcud abidələrin mühafizə problemləri, bərpası və bərpa prosesindən fraqmentlər verilməlidir.

4. Tarixi abidələrin ekspozisiyada təsvir olunmasında millilik, yerin adət və ənənəsi ön plana çəkilməlidir.

5. Hansı bölgə olmasından asılı olmayaraq hər bir muzeydə Qərbi Azərbaycanda, Dağlıq Qarabağda, işğal olunmuş digər ərazilərdə və eləcə də Azərbaycanın Gürcüstan ərazisinə daxil olan abidələrin təbliğinə xüsusi fikir verilməlidir.

6. Sərginin texniki quruluşu olduqca sadə olmalı, bir yerdən başqa yerə daşımaq üçün yük maşınına ehtiyac olmamalıdır.

7. Mühazirə və söhbətlər tam elmi məzmuna, tarixin çalarlarının araşdırılmasına əsaslandırılmalıdır.

8. Mühazirə və söhbətlərin dadlı-duzlu olması üçün hər bir bölgənin spesifik xasiyyəti nəzərə alınmalıdır" (320, s.38-40).

S.Məsimov və R.Ağayeva öz metodik tövsiyələrində (322, s.40-42) Azərbaycanın xanlıqlar tarixini əks etdirən əşya və eksponatların ekspozisiya həllinə kömək məqsədilə sitatlardan, araşdırma materiallarından, orta əsr və yeni dövrün dini məzmunda olan abidələrinin dağıdılmasından, fotoşəkillər, lentlər, müxtəlif videomaterialların nümayişindən istifadə edilməsi məqsədyönlü sayılmışdır (322, s.40-41). Müəlliflər eyni zamanda ekspozisiyaların məzmununun mövzu quruluşunun təqribi planını da vermişlər (322, s.42).

S.Məsimov və E.Qurbanova muzeylərə rəhbərliyin forma və metodlarından bəhs edən elmi-metodik araşdırmada muzey kadrlarının təyin edilmələrinin 4 qrupunu müqayisəli zəmində vermişlər, rayon mədəniyyət şöbə müdirlərinin bu məsələ ilə bağlı tövsiyələrini də qeyd etmişlər (323, s.45-47) ki, bu da həmin dövr muzeyşünaslığı üçün mühüm addımdır.

Muzeyşünas Sübhi Kəngərli "Heydər Əliyev muzeylərimizin yaradıcısı və memarıdır" məqaləsində Ulu Öndərin Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə, eyni zamanda muzey quruculuğu və muzeyşünaslığın yaradıcısı, memarı olduğunu əsaslandıraraq yazmışdır:

"Naxçıvan Muxtar Respublikasında muzey işinin və muzeyşünaslığın daha da inkişaf etdirilməsi ənənələri bu gün də davam etdirilir. Cəsarətlə deyə bilərəm ki, hörmətli Heydər Əliyev Naxçıvan Muxtar Respublikasında muzey quruculuğunun, muzeylərin bilavasitə yaradıcısı və memarıdır. O bu tədbirlərin əksəriyyətinin iştirakçısı olmuşdur" (262, s.9).

Ulu Öndərimizin muzeyşünaslığın tərəqqisindəki gərgin əməyindən maraqlı nümunələr göstərərək, dərin maraq yaradan fakt və materiallara istinad etmişdir (262, s.9-12).

2005-ci ilin muzeyşünaslıq əhəmiyyətli araşdırma materialı Azərbaycan Milli Təhlükəsizlik nazirliyinin çağdaş tarıximizi özündə yaşayan, digər profilli muzeylərimizdən fərqli olaraq gediş-gəlişi nisbətən məhdud olan Xatirə Muzeyi barədə çox dəyərli eksponatlar haqqındadır (444). Müəllif Xatirə Tağıyeva Muzeyin fərqli və önəmli cəhətini qeyd etməklə, Muzeyi açmış Ümummilli liderimiz Heydər Əliyevin milli-mədəni dəyərlərimiz, muzeyşünaslığımız üçün çox qiymətli fikirlərini təqdim etmişdir:

"Bu xatirə muzęyinin digərlərindən fərqli daha bir önəmli cəhəti də var. 86 illik tarixi bir dövrünün, Azərbaycan xalq cümhuriyyətinin yarandığı vaxtdan günümüzədək olan zaman kəsiyinin materiallarını özündə hifz edib saxlayan, canlı çağdaş, tariximizin əlamətdar anlarını öz xüsusi tamaşaçılarına nümayiş etdirən muzeyi 1997-ci il iyulun 28-də Ümummilli Liderimiz Heydər Əliyev açmış, xatirə kitabına ürək sözlərini yazmışdır. "Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin tarıxini əks etdirən muzeyin yaranmasını təqdirəlayiq hesab edirəm. Muzeydə toplanmış eksponatlar bu tarix haqqında ümumi təəssürat verir. Güman edirəm ki, bu dəyərli təşəbbüs inkişaf edəcəkdir, muzeyə təhlükəsizlik orqanlarının tarixi haqqında daha da geniş materiallar toplayacaqlar. Muzeyin yaranması münasibətilə təbrik edirəm. Bu əhəmiyyətli işdə uğurlar arzulayıram" (444).

2006-cı ildə muzeyşünaslıq əhəmiyyətli hadisələrin başlıcaları – Möhtərəm Prezidentimiz İlham Əliyev cənabları tərəfindən "Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində İstiqlal Muzeyinin yaradılması və İstiqlal abidəsinin ucaldılması haqqında" 18 dekabr 2006-cı il tarixli, "Müasir İncəsənət Muzeyinin yaradılması haqqında" 19 dekabr 2006-cı il tarixli, Azərbaycan Rəssamlar İttifaqının üzvləri üçün yeni

emalatxanaların tikintisi haqqında" 19 dekabr 2006-cı il tarixli Sərəncamları milli müzeyşünaslığımızın inkişafına təkan vermişdir (27, 360, 30).

Tədqiqatçılar 2006-cı ildə muzeyşünaslıq sahəsində əsasən Qax, Şirvan, Ağcabədi, Şərur, Qəbələ rayonlarının tarixdiyarşünaslıq muzeylərinin son illərdəki uğurlu fəaliyyətləri, eksponat fondlarının zənginləşdirilməsi və elmi-tədqiqat fəaliyyətləri haqqında maraqlı məlumatlar təqdim etmişlər (222, 229. s.10; 10, s.36; 429, s.4-5; 223, s.16-17).

2006-cı ilə aid digər araşdırma qrupu materiallarında yubiley sərgilərinin təşkili (145, s.2; 151, s.2-3; 79, s.3-4; 206), Naxçıvan Dövlət Tarix Muzeyinin qurulmasında, zəngin və qədim eksponatların muzeyə toplanmasında böyük zəhməti olmuş, ölkəşünaslıq, muzeyşünaslıq işinin dərin bilicisi Mirbağır Mir-Heydərzadənin həyatı, eyni zamanda Azərbaycan muzeyşünaslığında yeri (115, s.46-48), tarix diyarşünaslıq muzeylərinin vətənpərvərlik tərbiyəsi istiqamətində fəaliyyəti (272, s.8-9) və Azərbaycan muzeylərinin beynəlxalq əlaqələrinə (441) həsr edilmiş maraqlı faktlar təqdim edilmişdir.

2006-cı ilin muzeyşünaslıq əhəmiyyətli çox dəyərli, qiymətli materialında -"Ulu Öndərin təşəbbüsü ilə yaradılan muzeylər" məqaləsində Ümummilli Liderimizin təşəbbüsü ilə muzey işinə aid xüsusi qərarın qəbul edilməsi, həmin qərara əsasən respublikamızın bütün rayonlarında tarix-diyarşünaslıq və ev-xatirə muzeyləru yaradılmasından bəhs edilmişdir (292). Müəllif Bakı şəhərində də Ulu Öndərimizin təşəbbüsü ilə xatirə muzeylərinin yaradılmasından bəhs edərək yazılmışdır:

"Sözə, sənətə, yaradıcı insanlara daim qayğı ilə yanaşan ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Ü.Hacıbəyovun, S.Vurğunun, H.Cavidin, C.Cabbarlının, Bülbülün, M.S.Ordubadinin, N.Nərimanovun, C.Məmmədquluzadənin, Niyazinin xatirə muzeyləri yaradılmış və həmin ünvanlar mədəni irsimizin toplandığı, qorunduğu müqəddəs yerlərə çevrilmişdir" (292).

Telman Mehdixanlı çox haqlı olaraq 1970-1982-ci illərin xalqımızın yaddaşında intibah dövrü kimi qaldığını qeyd etmiş və bu intibahın məhz Ulu Öndərimizin ölçüyə gəlməz zəhməti bahasına başa gəldiyini belə göstərmişdir:

"Tarixə qızıl hərflərlə yazılan 1970-1982-ci illər həm də xalqımızın intibah dövrü kimi yadda qalıb. Bölgələrimizin əksəriyyətində tarix-diyarşünaslıq muzeyləri fəaliyyətə başlayıb.

Eyni zamanda Sovet İttifaqı və Sosialist Əməyi qəhrəmanlarının da xatirə muzeyləri yaradılmışdır. Bunlar məhz ulu Öndər Heydər Əliyevin təşəbbüsü, qayğısı sayəsində mümkün olmuşdur. O müqəddəs ocaqların hər biri eyni zamanda dünya şöhrətli şəxsiyyətin uzaqgörən siyasətinin yadigarları kimi bu gün də yaşayır, fəaliyyət göstərir".

Azərbaycan Prezidenti Möhtərəm İlham Əliyev cənablarının Respublika Muzey Mərkəzində olması ilə bağlı material araşdırdığımız problem baxımından çox əhəmiyyətlidir (25). Məqalədə Dövlətimizin başçısının Muzey Mərkəzinin yerləşdiyi binanın xarici görünüşünə diqqət yetirdiyindən, Azərbaycan Xalçası və xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin fondunda saxlanılan xalçalara və buradakı şəraitə baxmasından, bu sənət növünün daha etibarlı qorunması üçün ən yüksək şərait yaradıcılığını bildirməsindən və bunun üçün lazımı təkliflərin hazırlanıb təqdim olunmasını tapşırmasından bəhs edilmişdir. Məqalənin davamında növbəti tanışlığın Azərbaycan Dövlət Muzeyi və Azərbaycan İstiqlal Muzeyi olmasından maraqlı faktlar verilmişdir (25).

Araşdırmamız baxımından əhəmiyyət kəsb edən materiallardan olan "2006-2016-cı illər üçün Mədəniyyət sahəsində Dövlət İnkişaf Konsepsiyası"nın layihəsinin 2-ci bəndinin 2-ci yarımbəndində muzey işinin müasirləşdirilməsi üçün aşağıdakılar əsas məqsədlər kimi müəyyən edilmişdir:

"Muzey işinin müasirləşdirilməsi üçün aşağıdakılar əsas məqsədlər kimi müəyyən edilir:

- muzey fondlarının, qiymətli incəsənət əsərləri və muzey əşyalarının mühafizəsi, pasportlaşdırılması, bərpa edilməsi, konservasiyası və muzey kolleksiyalarının komplektləşdirilməsi işinin təkmilləşdirilməsi; muzey fondlarının məlumatlarının rəqəmli daşıyıcılara köçürülməsi və elektron kataloqlaşdırılması vasitəsilə milli inteqral muzey informasiya sisteminin təşkil edilməsi;

- muzeylərin ekspozisiyalarının bədii-tərtibatlarının keyfiyyətinin yüksəldilməsi, beynəlxalq standartlara çatdırılması, konseptual ekspozisiyaların, müxtəlif səpkili sərgilərin təşkili;

- Azərbaycanda turizmin inkişafı üçün muzeylərin turist marşrutlarına salınması və geniş tamaşaçı kütləsi ilə işlərin təkmilləşdirilməsi çərçivəsində fərdi ekskursiyaların, ailəvi proqramların, uşaq tədris proqramlarının, tələbələr və gənclər üçün tədris proqramlarının, interaktiv proqramların hazırlanması;

- muzey marketinqinin inkişaf etdirilməsi, xarici və daxili investisiyaların cəlb edilməsi məqsədilə xüsusi kataloq, əlfəcin, təqvim, broşur, suvenir və s. hazırlanması, respublikada təşkil edilən sərgilər barədə sorğu-məlumat kitabçasının mütəmadi buraxılışı" (242, s.5-13).

Təəssüflə qeyd edim ki, muzey işinin müasirləşdirilməsi ilə bağlı layihənin bu bəndində bir sıra çatışmamazlıqlar mövcuddur:

1. Muzeyşünaslığın daha da inkişafı istiqamətində elmi-tədqiqatçılıq proqramının qəbulu;
2. Fond fəaliyyətinin elmi əsaslarda işlənməsinin mexanizminin qəbul edilməsi;
3. Muzey ekspozisiyalarının elmi-bədii tərtibatı, mövzu baxımından perspektiv fəaliyyətin nəzərə alınması mexanizminin işlənməsi;
4. Muzey marketinqi ilə bərabər, muzey menecmentinin hazırlanması mexanizminin təyini;
5. Muzeylərin digər elm, təhsil, tərbiyə, mədəniyyət müəssisələri, təşkilatları ilə, şirkətlərlə qarşılıqlı əlaqəli

fəaliyyətinin quruluşunun işlənməsi;

6. Muzeylərin cəmiyyət institutu kimi sistemləşdirilməsinin müvafiq nazirliklər və komitələr tərəfindən nəzər-diqqətdə olması və s.

Göründüyü kimi, milli muzey quruculuğunun müasirləşdirilməsi istiqamətində həyata keçiriləcək kompleks tədbirlər muzeyşünaslıq sahəsində aparılmış elmi-tədqiqatlarla müqayisəli şəkildə sistem halında olmalı, müasir texnoloji imkanlardan maksimum istifadə işi öz həllini tapmalıdır.

Muzeyşünaslıqla bağlı araşdırmaların əksəriyyətində Azərbaycan mədəniyyətinə, eləcə də muzey quruculuğuna Ulu Öndərin qayğısı və təəssübkeşliyindən bəhs edilmişdir. Ümumiyyətlə çağdaş muzey fəaliyyətində Ulu Öndərimizin hədsiz köməyi olmuş və bilavasitə o, bu işin keyfiyyətli şəkil olmasına həmişə diqqət yetirmişdir.

Belə araşdırmaların biri də Hüseyn Cavidin Naxçıvandakı ev-muzeyinin direktoru Bəhruz Axundovun "H.Cavid irsinə Heydər Əliyev qayğısı"dır. Araşdırmada B.Axundov 1969-cu ildən başlayaraq Ulu Öndərin dahi şair-dramaturqun bənzərsiz sənətini yüksək qiymətləndirməsi haqqında belə yazmışdır:

"Hüseyn Cavidin bəraət aldığı 1956-cı ildən bu yana şairin bənzərsiz sənətinin əsl qiymətini vermək, onun irsini həddən çox sevdiyi xalqına qaytarmaq üçün bir çox işlər görülüb.

Lakin, 1981-ci ilin iyun ayında dahi şair-dramaturq Hüseyn Cavidin anadan olmasının 100 illiyinin keçirilməsi haqqında Azərbaycan KP MK-nın Birinci Katibi Heydər Əliyevin başçılığı ilə hazırlanmış bu qərarda göstərilən bir çox vacib işlər nəzərdə tutulur. Şairin Bakı və Naxçıvan şəhərlərində ev-muzeyləri yaradılıb, Bakıda monumental heykəli ucaldılıb. Üzərində Cavidin şəkli olan xatirə medalı və döş nişanı, poçt markası və zərf buraxılıb, əsərləri Azərbaycan dilində 4 cilddə, rus dilində 2 cilddə çap olunub, müxtəlif

teatrlarda əsərləri tamaşaya qoyulub və onun haqqında sənədli film çəkilib.

Cavidin ruhuna münasibətdə ən dramatik, ən yaddaqalan hadisə 1982-ci ilin oktyabrında baş verdi. Kommunist rejiminin tüğyan etdiyi bir vaxtda məhz Heydər Əliyevin təşəbbüsü ilə böyük şairin cəsədinin qalıqları vətəni Naxçıvana gətirilərək ev-muzeyinin yaxınlığında əbədilik torpağa tapşırıldı" (22).

Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev cənabları tərəfindən 18 avqust 2006-cı il tarixində imzalanan "Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində tarixi-memarlıq abidələrinin bərpası və qorunması haqqında" Sərəncamı, çağdaş memarlığımızın, incəsənətimizin ayrı-ayrı sahələrinin tərəqqisi nöqteyi-nəzərindən mühüm əhəmiyyət kəsb edir (28, s.2). Sərəncamla bağlı, Bakı Şəhər İcra hakimiyyəti, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutu, Azərbaycan memarlıq və İnşaat Universiteti və Azərbaycan Memarlıq İttifaqına müvafiq tapşırıqlar verilmişdir (28, s.2).

Yeni elmi-yaradıcı əlaqələr, təcrübə mübadilələri ilə bağlı (258, s.32), Azərbaycan təsviri sənəti nümunələrinin muzeylərdə zəngin bədii-estetik gücünə aid (305, s.39-40), "Şirvanşahlar Saray Kompleksi" Dövlət tarixi-memarlıq qoruq-muzeyinin fəaliyyəti (73, s.38), Ağdaşda "Muzeylər gecəsi" aksiyasının əhəmiyyəti (173, s.56), Azərbaycan Dövlət Kənd Təsərrüfatı Muzeyinin son illərdəki əhəmiyyətli fəaliyyəti (244), Qazax Dövlət Rəsm Qalereyasının fəaliyyəti, fond işi, sərgiləri, keçirilən görüşlərlə əlaqədar (257, s.21) məqalələrdə də muzeyşünaslıq əhəmiyyətli material və faktlar verilmişdir. Elmi-tədqiqat xarakterli araşdırmalarda isə K.Kərimov tərəfindən Bəhruz Kəngərli yaradıcılığı nümunələrinin muzeylərimizdə qorunması və nümayişi (412, s.50-51), milli-mədəni irsimizin qorunması və təbliğində muzeylərimizin əhəmiyyətli

rolu (462, s.32-34), nəzəri muzeyşünaslıqda mühitlə bağlılıq, qarşılıqlı əlaqələr və qanunauyğunluqlar (177, s.49-56) ayrı-ayrı muzeyşünas alimlər tərəfindən tədqiq edilmişdir. S.Əmirxanovun nəzəri muzeyşünaslıqda mühitə bağlılıq, qarşılıqlı əlaqələr və qanunauyğunluqlarla bağlı araşdırmasında muzey mühiti amilinin qarşılıqlı əlaqələrdə əhəmiyyəti (177, s.49), idraki proseslərin muzey mühitində dərketmə rolu (177, s.50), müasir muzey fəaliyyətinin qarşılıqlı əlaqələrdə yeri (177, s.51), ünsürlərarası qarşılıqlı əlaqələrin təsnifatı (177, s.51-52) ardıcıllıqla təhlil edilmişdir. Araşdırmada eyni zamanda iki qarşılıqlı əlaqənin – "Muzey fəaliyyətinin əhatə olunduğu mühutdən, şəraitdən asılılığı" və "Muzey mühitində yaradıcı ilə tamaşaçı arasında qarşılıqlı əlaqələr"in müvafiq qanunauyğunluqlara çevrilməsi mexanizmi tədqiq edilmişdir və aşağıdakı şəkildə nəticələrini vermişdir (177, s.52-56). S.Əmirxanov "Muzey fəaliyyətinin əhatə olunduğu mühitdən, şəraitdən asılılığı" qarşılıqlı əlaqəsinin qanunauyğun şəkil almasını belə göstərmişdir:

"Beləliklə, muzeyin ümumi fəaliyyəti mühitin hərtərəfli inkişaf və zənginliyinə, keyfiyyətli təsir gücünə malik olmasından asılıdır. Bu qanunauyğunluğun mahiyyətini belə səciyyələndirmək olar; muzey fəaliyyəti muzey mühitinin hərtərəfli inkişafı, keyfiyyətli və məqsədyönlü təsir istiqamətindən asılıdır. Həmin qanunauyğunluğu qanun formasında aşağıdakı kimi ifadə etmək olar: muzey fəaliyyətinin muzey mühitindən asılılığı qanunu" (177, s.55).

Muzey mühitində yaradıcı ilə tamaşaçı arasında qarşılıqlı əlaqələrin qanunauyğun şəkil almasını isə tədqiqatçı aşağıdakı kimi vermişdir:

"Beləliklə, aydınlaşdırdığımız problemlə əlaqədar, yəni muzey mühitində yaradıcı ilə tamaşaçı arasındakı ünsiyyət və əlaqələrdə müəyyən qanunauyğunluqlar vardır. Yaradıcı ilə tamaşaçı arasındakı qarşılıqlı əlaqə prosesində imkan daxilində nə qədər maksimum təsir göstərilərsə, təsirlənən tamaşaçı bir o

qədər mənən zənginləşər, onun sonrakı fəaliyyətində kəskin dönüş əmələ gələr, bu dönüş digər idrakların da zənginləşməsində zəminə çevrilə bilər. Bu qanunauyğunluğun qanun formasında ifadəsi aşağıdakı şəkildə verilə bilər: muzey mühitində yaradıcının tamaşaçıya təsiri qanunu" (177, s.56).

Tam nəzəri muzeyşünaslıq əhəmiyyətli bu iki qarşılıqlı əlaqəliliyin qanunauyğunluğu muzeyşünaslığa ilk dəfə olaraq S.Əmirxanov tərəfindən tədqiq edilmişdir ki, bu da müasir muzeyşünaslığımızda yeni sistemin yaranmasının başlanğıcıdır.

2007-2008-ci ilin mətbuat səhifələrində müəlliflər əsasən muzey sərgiləri və digər muzey tədbirləri, qarşılıqlı əlaqəli inkişaf məsələlərindən bəhs etmişlər. 2007-ci il martın 6-da Azərbaycan Respublikasının Prezidenti, möhtərəm İlham Əliyev cənabları tərəfindən imzalanan "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" Sərəncam (32, s.3) muzey quruculuğu, eyni zamanda muzeyşünaslığın inkişafında təkan rolunu oynadı. Sərəncamda həm də Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin yeni binasının tikintisi üçün Bakı şəhərində müvafiq sahənin ayrılması, tikinti işinin planlaşdırılması, regionlarımızdakı muzeylərimizin müasir standartlara uyğun təmiri və zəruri eksponatlarla təchizi, Muzey Mərkəzinin təmiri, yenidən qurulması ilə bağlı tapşırıqlar, Azərbaycan Dövlət İncəsənət Muzeyinin yeni ekspozisiya quruluşu və digər məsələlərin həllinin vacibliyi göstərilmişdir (32). Digər materiallarda Göyçay Tarix-Diyarşünaslıq Muzeyinin tarixi-tərbiyəvi əhəmiyyəti (200, s.43), muzeylər vasitəsilə maddi mədəniyyət nümunələrinin toplanması, işlənməsi və təbliği işinin mahiyyəti və əhəmiyyəti (425, s.8-12), Bakı şəhərində yerləşən böyük muzeylərin son onillikdəki güclü inkişaf xətti tutması (475), Bakı şəhərindəki Cəlil Məmmədquluzadənin ev – muzeyinin açılışı və fəaliyyətilə əlaqədar (283, s.4-6), Ağsu rayon Tarix-Diyarşünaslıq Muzeyinin fəaliyyəti (120, s.27-28), Qax rayon

Tarix-Diyarşünaslıq Muzeyinin zəngin ekspozisiyası barədə (532), "İstiqlal" Muzeyində "Muzeylər Gecəsi"nin keçirilməsi (126), Ağstafada Dövlət Rəsm Qalereyasının yaradılması barədə (80, s.12) maraqlı faktlar, məlumatlardan bəhs edilmiş, muzeyşünaslığın ayrı-ayrı istiqamətlərinin inkişafından nümunələr verilmişdir.

2008-ci ilin araşdırma materialları içərisində Azərbaycan mədəniyyətinin 1969-2003-cü illər ərzindəki tərəqqisini qısa olaraq əks etdirən "Mədəniyyətimiz 1969-2003-cü illərdə" mövzusundakı məqalədir (225, s.19-22). Burada 1969-cu illə 2003-cü illər arasında qısa bir müqayisə aparılmışdır:

"O vaxt (1969-cu ildə) respublikada cəmi 12 teatr, 5 konsert təşkilatı, 2312 kitabxana, 1535 klub müəssisəsi, 17 park, 29 muzey, 75 musiqi məktəbi vardı. Bir şəkil qalereyası belə fəaliyyət göstərmirdi. Fərq göz qabağındadır. 34 ildə 15 professional, 50 xalq və özəl teatr, 8 konsert təşkilatı, 1740 klub müəssisəsi, 2001 kitabxana, 41 mədəniyyət və istirahət parkı, 111 muzey, 30 şəkil qalereyası, 2 bədii sərgi salonu, 225 uşaq musiqi və incəsənət məktəbi yaradılmışdır.

Heydər Əliyev Azərbaycan xalqının milli mədəniyyətinə, onun tarixi qaynaqlarına həmişə böyük diqqətlə yanaşmış, millətin qan yaddaşına hopmuş tarixi şəxsiyyətlərimizin zaman-zaman yaşaması üçün qayğısını əsirgəməmişdir. Bu cəhətdən milli mədəniyyətimizin tarixində xüsusi rol oynamış dahi söz ustalarımızın, musiqi xadimlərimizin, səhnə və kino korifeylərimizin yubiley tədbirlərinin keçirilməsi, bu sənətkarların yaradıcılığına lazımı qiymət verilməsi xüsusi qeyd edilməlidir" (225, s.19).

Göründüyü kimi, Ulu Öndərimizin Azərbaycanımızın hərtərəfli tərəqqisində ölçüyəgəlməz zəhməti olmuşdur. Müəllif çox haqlı olaraq göstərmişdir:

"Təbii ki, bu sadaladıqlarımız əvəzedilməz liderimiz Heydər Əliyevin qayğısından qaynaqlanmış tədbirlərin yalnız bir hissəsi və qısa icmalıdır. Onlar haqqında müfəssəl danış-

maq üçün cild-cild kitablar yazmaq, bu istiqamətdə hələ çox iş görmək gərəkdir" (225. s.22).

Ulu Öndərin mənəviyyat, mənəvi dəyərlər, mənəvi tərbiyə ilə bağlı çox ibrətəmiz fikirlərinin "Mənəviyyat, mənəvi dəyərlər, mənəvi tərbiyə" mövzusunda monoqrafiyada toplanması (1) elm, mədəniyyət, ədəbiyyat, incəsənət, tərbiyə sahəsindəki inkişafa təkan vermişdir. Ulu Öndər Azərbaycan Xalqının mədəniyyəti, incəsənəti, musiqisi ilə fəxr etdiyini qeyd etmişdir:

"Mən fəxr edirəm ki, Azərbaycan xalqının öz tarixi ənənələrinə söykənən, eyni zamanda müasir, professional səviyyədə olan mədəniyyəti, incəsənəti, musiqisi vardır.

Eyni zamanda bu illərdə xalqımız yüksək təhsil alıb, elmə, mədəniyyətə qovuşubdur. İndi Azərbaycan xalqı yüksək mədəniyyətə, elmə, biliyə malik olan xalqdır və milli-mənəvi dəyərlərimizin ümumbəşəri, ümumdünya dəyərləri ilə birləşməsi, sintezi xalqımızın simasını təşkil edir. Ona görə də indi Azərbaycan milli, eyni zamanda dünyəvi, sivilizasiyalı ölkədir" (1, s.246).

Ayrı-ayrı yaradıcı sənətkarlarımızın yubileyləri, ev-muzeylərinin açılışı, onların şərəfinə abidələrin qoyulması tədbirlrində iştirak edən Ulu Öndərimiz öz dərin mənalı, tarixi çıxışlarında həmin sənətkarların milli mədəniyyətimizin tərəqqisindəki rolunu yüksək qiymətləndirmişdir (1, s. 254, 255, 535, 538, 540, 541, 545,555, 558, 598, 599).

Azərbaycan musiqi mədəniyyətinin görkəmli xadimi, professional vokal sənətimizin banisi Bülbülün anadan olmasının 100 illiyi münasibətilə müğənninin Bakıdakı xatirə ev-muzeyində 1997-ci il dekabrın 3-də (1, s.254), 1998-ci il iyunun 29-da Azərbaycan Rəssamlar İttifaqının qurultayındakı (1, s.255) çıxışlarında, "Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri" mövzusunda Ümumittifaq elmi-praktik konfransında 1979-cu il aprelin 25-də məruzəsində (1, s.535), Azərbaycan Kommunist Partiyasının XXX qurultayında 1981-ci il yanvarın 29-da mə-

ruzəsində (1, s.539), SSRİ Rəssamlıq Akademiyası Rəyasət heyətinin və Rəssamlıq təhsili üzrə elmi-metodiki Şuranın geniş iclasında 1981-ci il aprelin 3-də çıxışında (1, s.549), Rüstəm Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində 17 dekabr 1994-cü il tarixdə Böyük Azərbaycan rəssamı Səttar Bəhlulzadənin anadan olmasının 85 illiyinə həsr olunmuş sərginin açılışındakı çıxışında (1,s. 543,544), 28 dekabr 1994-cü il tarixdə Böyük Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin ev-muzeyinin açılışı mərasimindəki çıxışında (1, s.545), 18 sentyabr 1995-ci ildə Respublika Sarayında dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun anadan olmasının 100 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsindəki nitqində (1, s.550), 27 fevral 1996-cı ildə Səttar Bəhlulzadə adına Sərgi Salonunda Birinci Respublika sərgi – yarmarkasının açılışındakı çıxışında (1,s.555), 3 avqust 1996-cı ildə R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət muzeyində Xalq rəssamı Maral Rəhmanzadənin əsərlərindən ibarət yubiley sərgisinin açılışı mərasimindəki çıxışında (1, s.558), 17 dekabr 1994-cü ildə Böyük Azərbaycan rəssamı Səttar Bəhlulzadənin anadan olmasının 85 illiyinə həsr olunmuş sərginin açılışındakı çıxışında (1, s.597), 17 dekabr 1994-cü il Respublika Sarayında Böyük Azərbaycan rəssamı Səttar Bəhlulzadənin anadan olmasının 85 illiyi münasibətilə təntənəli yubiley gecəsindəki çıxışında (1, s.598), 28 dekabr 1994-cü ildə Böyük Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin ev muzeyinin açılışı mərasimindəki çıxışında (1, s.599) qədim və zəngin Azərbaycan mədəniyyətinə, incəsənətinə yüksək qiymət vermiş, bu mədəniyyətimizi nəsildən-nəslə ötürən yaradıcı sənətkarlarımıza, elm və mədəniyyət xadimlərimizin yaratdıqlarını qoruyub saxlamaq üçün vasitələrdən səmərəli istifadə olunduğunu qeyd etmişdir (1) ki, bu da milli muzeyşünaslığımızın tərəqqisi üçün proqram xarakterli göstərişlər, fikirlər, tövsiyələrdir.

Məktəblərlə muzeylərin birgə fəaliyyətindən bəhs edən

metodik xarakterli araşdırmada təlim-tərbiyə işinin muzeydə xüsusi aktuallıq kəsb etdiyi göstərilmiş (17, s.67), dərnək və birliklərin yaradılmasının vacibliyi qeyd edilmişdir:

"Müasir dövrün məktəbli gəncləri ən çox kompüter texnikasından, mobil telefondan istifadəyə üstünlük verirlər. Doğrudur, müasir dövrlə ayaqlaşmaq, zamanın nəbzini tutmaq insanın məlumatlanmasında vacibdir. Lakin bunları ifrat dərəcəyə gətirib çıxarmaq lazım deyil. Müasir mərhələdə məktəbli gənclərin böyük bir qisminin diqqətini cəlb etmək üçün onların maraqlarına münasib dərnək və birliklərin yaradılması sahəsində muzeylər böyük ixtiraçılıq qabiliyyətinə malik olmalıdır. Yaxşı olar ki, dərnək üzvləri sərgilərin təşkilində eksponatların seçilməsində, tərtibatda, ekskursiyaların keçirilməsində iştirak etsinlər" (17, s.67-68).

Qədim yaşayış məskənlərindən olan, 4 min illik tarixə malik Xınalığın açıq səma altında muzey olması (178), həmin kənddə yaradılan Tarix-Etnoqrafiya Muzeyinin fəaliyyəti, C.Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyində "C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı fondu" (263, s.60-62), Milli Azərbaycan Tarixi Muzeyində, Qazax rayon tarix-Diyarşünaslıq Muzeyində, Gəncə Tarix-Diyarşünaslıq Muzeyində qorunan abidə nümunələri (471), Xaçmaz rayon Xalça Muzeyinin zəngin eksponat fondu (144,s.56), Şuşa Xalça Muzeyinin çətinliyə düşməsinə baxmayaraq fəaliyyətini davam etdirməsi (227, s.31-32), Gədəbəy Tarix-Diyarşünaslıq Muzeyinin fəaliyyətə başlaması və mövcud fəaliyyəti (16, s.65), Xaçmaz rayon Döyüş Şöhrəti Muzeyinin rayonda fəaliyyəti (143, s.32), Naxçıvan Dövlət Xalça Muzeyinin zəngin eksponatları və sərgi-ekspozisiyası (443, s.30-31) haqqında araşdırmamız baxımından əhəmiyyətli məqalələrdə çox maraqlı faktlar, məlumatlar verilmişdir.

Son illərdə Möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən Azərbaycan mədəniyyətinin, eləcə də muzeylərimizin

tərəqqisinə böyük qayğı və diqqət göstərilmiş, bunların sayəsində isə mədəniyyətimizin dünya mədəniyyətində mühüm yeri, əsaslı əhəmiyyəti özünü göstərməkdədir. Eyni zamanda muzeylərimizin tərəqqisini əks etdirən yazılar, məqalələr, materiallar muzeyşünaslıq baxımından xüsusi əhəmiyyətə malikdir (382; 251; 31; 37; 335; 107; 381; 401).

Ulu Öndərin muzey quruculuğu sahəsindəki müqəddəs əməlləri, sənətkarlara verdiyi yüksək qiymət barədəki məqalələr problem əhəmiyyətlidir (286; 373). Xalq rəssamı Rafiq Mehdiyev Ulu Öndərlə bağlı çox maraqlı faktları xatırlamışdır:

"Ulu Öndər söz, sənət ustalarının daha həvəslə işləmələrinə, yazıb-yaratmalarına qayğısını əsirgəmirdi, Öndərin dəfələrlə teatr tamaşalarına, sərgi salonlarına gəlməsini gormuşəm. Yadımdadır, o, görkəmli fırça ustası Mikayıl Abdullayevin fərdi sərgisində nümayiş olunan əsərlərə maraqla baxırdı. Sonra ustad sənətkarı təbrik edib dedi: "Mikayıl, tablolarına baxdım, çox sevindim. Sən rənglərin gücü, qüdrətiylə doğma təbiətimizi, torpağımızı, soydaşlarımızı olduqca gözəl təsvir etmisən". Həmin görüşdən az sonra keçmiş rəsmi məlumat yayıldı ki, Mikayıl Abdullayev o zamanın ən ali təltifinə - SSRİ Xalq Rəssamı fəxri adına layiq görülüb" (286).

İstedadlı rəssam, akademik Tahir Salahovun Ulu Öndərlə əlaqədar çox maraqlı və dəyərli fikirləri də mühüm elmi-yaradıcı əhəmiyyət kəsb edir:

"1984-cü ilin payız fəsli idi. Moskvada məşhur sərgi salonlarının birində istedadlı rəssam Tahir Salahovun fərdi sərgisi keçirilirdi. Sərgiyə sənət, sənətkar qədri bilən böyük şəxsiyyət Heydər Əliyev də gəlmişdir. Ulu Öndər Azərbaycandan olan nümayəndələrlə görüşdü. Tahir Salahov bu səmimiyyətdən, hörmətdən kövrəldi. O dedi: "Yoldaş Əliyev, mən sənət uğurlarımı 70-80-ci illərdə, Sizin respublikamıza rəhbərlik etdiyiniz illərdə qazanmışam, işinizin çoxluğuna baxmayaraq, bu gün də əsərlərimə baxmağa gəlmisiniz. Diqqə-

tiniz, qayğınız ömrümün son anına kimi yadımdan çıxmayacaq.

Tahir müəllimin tarixi şəxsiyyətə istəyi, hörməti, sevgisi böyük idi. Onun yaratdığı "Heydər Əliyev sabahı düşünərkən" portreti insanı valeh edir, düşündürür. Tabloda dahi şəxsiyyətin baxışları çox inandırıcı və mənalı tərənnüm olunub" (286).

Xalq rəssamı, akademik Ömər Eldarovun Ulu Öndər haqqında fikirləri də çox maraqlıdır: "Ulu Öndər həddən artıq diqqətcil, adamı bir sözdən duyan, hətta deyərdim ki, qarşısındakı şəxsin ürəyindən keçənləri gözlərindən oxuyan mahir psixoloq, pedaqoq idi" (456).

Bir qism materiallarda xarici ölkə nümayəndələrinin, ölkə və hökumət başçılarının muzeylərimizlə tanışlığı əks etdirilmişdir (332; 38; 127; 334; 333). Məlumat xarakterli həmin yazılarda qədim və zəngin Azərbaycan mədəniyyəti haqqında dəyərli təəssüratlar və fikirlər işıqlandırılmışdır.

Qəmiqaya-Qobustanda tibb elmi ilə bağlı təsvirlər (207, s.11), Üzeyir Hacıbəyovun və Cəfər Cabbarlının ev-muzeylərinin son illərdə keçirdikləri sərgi-tədbirlərin elmi-bədii təsiri (216;11), AMEA-nın Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin ictimaiyyət üçün açılış mərasimi ilə əlaqədar (374, 105), Azərbaycan təsviri və tətbiqi sənətinin gücü və gözəlliyi, müasir dövrdə əhəmiyyəti (400), 2008-ci il yanvarın 10-da YUNESKO-nun Baş Konfransının 34-cü sessiyasında 2008-2009-cu illərdə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd olunması proqramı çərçivəsində "Leyli və Məcnun" operasının ilk tamaşasının, yazıçı Mir Cəlal Paşayevin, akademik Musa Əliyevin və xalq rəssamı Səttar Bəhlulzadənin 100 illik yubileylərinin rəsmi qeyd olunması ilə bağlı qəbul edilən qərarlara uyğun Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il yanvarın 31-də imzaladığı xüsusi Sərəncamı (202, s.5) ilə əlaqədar problem əhəmiyyətli fikirlər muzey işində baş verən hadisələri aydınlaşdırmışdır.

Azərbaycan Mülki Aviasiya Muzeyinin yaranması və

inkişafı ilə bağlı məqalədə zəngin materiallar, faktlar verilmişdir (276, 355). Azərbaycanda ilk uçuşlarla bağlı müstəqillik illərində aviasiyamızın fəaliyyəti, aviasiya sahəsində milli kadrların hazırlanması, çağdaş aviasiyamız haqqında eksponatlar, əşya və materiallar muzeyi bəzəyir (276).

Görkəmli sənətşünas alim, əməkdar incəsənət xadimi Mürsəl Nəcəfovun həyat və yaradıcılığından bəhs edən məqalədə (287,s.7) milli muzeyşünaslığımız üçün əhəmiyyətli faktlara toxunulmuşdur. Beynəlxalq muzeylər günü, uşaqların beynəlxalq Müdafiə Günü ilə əlaqədar və ayrı-ayrı fotoqrafların yaradıcılığından bəhs edən sərgi-tədbirlər haqqında (362, 361) yazılara, eyni zamanda muzeyin hərtərəfli fəaliyyətindən Ağdam (Qaradağlı kəndi) Tarix-Diyarşünaslıq Muzeyində təşkil edilən tədbirdən (15) bəhs edən faktlar, məlumatlar verilmişdir.

Qarabağ xalçalarının 33 kompozisiyasının mövcudluğundan bəhs edilən (392), muzey əşyalarının, eksponatlarının mənbələrindən – Qax abidələrinin tarixi köklərindən maraqlı faktlar verilən (370) məqalələrdə, Xaraba Gilanda, Göytəpədə (Tovuz rayonu) aparılan axtarışlarda, Ağcəbədi rayonunda, Qəbələdə aparılan qazıntılar zamanı yeni tapıntılarla əlaqədar müsahibədə (20) muzeyşünaslıqla bağlı maraqlı faktlar verilmişdir.

Araşdırmalardan məlum olmuşdur ki, 1960-2000-ci illərdə mətbuatda işıqlandırılmış muzey quruculuğu və muzeyşünaslığın ayrı-ayrı problemlərinə həsr edilmiş bir qisim məqalələr problem əhəmiyyətlidir. Həmin materiallarda Ulu Öndər Heydər Əliyevin muzey quruculuğu və muzeyşünaslıqdakı əvəzedilməz xidmətlərinə (102, 104, 255), tarix-ölkəşünaslıq işlərinə (136, 347, 426, 428), muzeylərin tərbiyəvi əhəmiyyətinə (75, 203, 256, 299, 345, 359, 433), beynəlxalq muzeylər gününə (103, 194, 331, 474), ayrı-ayrı muzey problemlərinə (147, 285, 342, 343, 344, müxtəlif profilli muzeylərin rəngarəng iş təcrübəsinə, yaradıcılıq dərnəklərinin fəaliyyətinə

(108, 109, 110, 148, 152, 154, 156, 171, 172, 198, 201, 204, 247, 248, 295, 297, 298, 300, 336, 346, 377, 414, 417, 432, 434, 437, 442, 445, 446, 449,, 452, 459, 470, 482, 483), muzeylərdə həyata keçirilən təmir-bərpa işlərinə (254, 380) münasibət bildirilmiş, müvafiq tövsiyələr və təkliflər verilmişdir. Bir qisim məqalələrdə isə muzeylərin ümumtəhsil məktəbləri və məktəbdənkənar tərbiyə müəssisələri, orta ixtisas, ali təhsil ocaqları ilə qarşılıqlı əlaqələrinə (196, 341), müxtəlif mövzulu sərgilərə və digər muzey tədbirlərinə (211, 230,, 243, 245, 246, 250, 266, 267. 280, 284, 312, 337, 390, 391,395, 396, 397, 398, 399, 411), milli adət-ənənələrlə bağlı muzey fəaliyyətinə (317), muzey ekoloji problemlərinə (121), muzey fəaliyyətindəki nöqsanlar və çatışmamazlıqlara (74, 238, 338, 416), respublikada muzeyşünaslıq problemlərinə (155, 252) həsr edilmiş məsələlər öz əksini tapmış, qismən də olsa müqayisə xarakterli fikirlər verilmişdir. Lakin, araşdırmalardan məlum olmuşdur ki. həmin fikir və tövsiyələr elmi sistemləşdirmə xarakteri daşımamış, orada muzeyşünaslıq əhəmiyyətli elmi-nəzəri müqayisələr aparılmamış, müvafiq muzey fəaliyyəti mexanizminin sistemləşdirilməsi prosesi işlənməmişdir.

Son illərin araşdırmaları içərisində alim-tədqiqatçı Arif Mustafayev tərəfindən hazırlanmış "Azərbaycanın maddi mədəniyyət tarixi" monoqrafiyası etnoqrafik materiallar əsasında tipoloji tədqiqatların nəticəsidir (340). Monoqrafiyada xalqımızın müxtəlif tarixi dövr nəsilləri tərəfindən yaradılmış maddi-mədəni sərvətlərin tipoloji növləri tam, əhatəli şəkildə araşdırılmışdır. Azərbaycanın maddi mədəniyyət abidələrinin təkamül tarixi arxeoloji faktlar əsasında qədim daş dövründən tutmuş son orta əsrlərədək işlənilmişdir. Əsərdə Azərbaycanın maddi-mədəni irsinin inkişaf mərhələləri ( 340, s.5-16), başlıca mənbələr (340,,s.17-22), istehsal mədəniyyəti (340, s.s.23-51), bəzək mədəniyyəti-tətbiqi sənət məmulatı (340,s.52-97), inşaat mədəniyyəti; yaşayış məskənləri və evlər (340, s.98-126),

geyim mədəniyyəti (340, s.127-158), mətbəx mədəniyyəti, yeməklər və içkilər (340, s. 159-191), nəqliyyat mədəniyyəti (340, s.192-223) ardıcıllıqla tədqiq edilmişdir. Mənbələr nöqteyi-nəzərdən əsərdəki materiallar muzeyşünaslığın nəzəri və təcrübi inkişafı istiqamətində dəyərlidir.

İqtisad elmləri doktoru, professor Əli Əlirzayev mədəni sahələrin təşkilatı quruluşunu ayrı-ayrı bölmələr üzrə müəyyənləşdirmiş və həmin bölmələri funksional tələbatın ödənilməsi istiqamətində təsnifatlaşdırmışdır. Bu təsnifatda muzeylərin də mədəni tələbatlarının ödənilməsində xüsusi əhəmiyyəti qeyd olunmuşdur (175, s.170). Təbii ki, hazırda mədəni tələbatların həm də muzeylər vasitəsilə ödənilməsi vəziyyətinin daha yaxşılaşdırılması üçün muzeyşünaslığın inkişafı sisteminin müvafiq metodologiyalar vasitəsilə həyata keçirilməsi yerinə yetirilməkdədir. Bu prosesdə təbii ki, milli muzeyşünaslığın həm nəzəri, həm də təcrübi əsaslarda tədqiqi günün vacib məsələsidir. Bununla da bilik, bacarıq, vərdişlər, intellektual səviyyə, dünyagörüşlər vasitəsilə yeni bacarıqların, intellektlərin, dünyagörüşlərin muzey eksponatları, müxtəlif mövzulu sərgi-ekspozisiyalar zəminində formalaşdırılması baş verir. Bu kompleks prosesin həyata keçirilməsi üçün isə həm elmi-nəzəri, həm də elmi-təcrübi bazanın gücündən istifadə edilməklə, yeni elmi-nəzəri, təcrübi bazaların yaradılmasına nail olunmalıdır.

Beləliklə, tədqiqat nəticəsində məlum olmuşdur ki;

1) Ayrı-ayrı mərhələlərə müvafiq müxtəlif inkişaf prosesi olmuş və bu prosesə uyğun muzeyşünaslıq probleminin qoyuluşu mövcud xarakter almışdır. Müqayisələr nəticəsində birinci mərhələdə - 1899-1950-ci illər ərzində əsasən muzey quruculuğu normativ-hüquqi aktlarla tənzimlənmiş, muzeylərin yaranması, qismən fəaliyyəti, fəaliyyətlərinin dayandırılması, fasilələrin səbəbləri, yenidən fəaliyyətlərin bərpası ilə əlaqədar arxiv materialları və digər mənbələr vasitəsilə məlumatlar əldə edilmişdir;

2) 1950-ci ilə qədərki dövrdə mövcud 19 (filiallarla birlikdə) muzeyin fəaliyyəti ilə bağlı (tarix, diyarşünaslıq, incəsənət və digər profillər üzrə) fakt, məlumatlar əldə edilmişdir;

3) İkinci inkişaf mərhələsində, yəni 1950-1968-ci illərdə həm normativ-hüquqi aktlar, elmi-tədqiqat işləri vasitəsilə bu dövrdə fəaliyyət göstərən 19 muzeylə bağlı elmi-tədqiqat nəticələri əldə edilmişdir. Ümumiyyətlə, 38 muzeylə bağlı araşdırma materialları tədqiq olunmuş, problem əhəmiyyətli faktlar əldə edilmişdir.

4) 1969-1991-ci illər ərzində muzey fəaliyyətindən bəhs edən dərsliklər, elmi-tədqiqat əsərləri, monoqrafiyalar və tədris-metodik vasitələrdə muzeyşünaslıq əhəmiyyətli məsələlər araşdırılmışdır;

5) 1991-2010-cu illər ərzində isə muzeyşünaslığın ayrı-ayrı sahələrinə həsr edilmiş elmi-tədqiqat əsərləri, dərslik, dərs vəsaiti, monoqrafiya, buklet, kataloq, tədris-metodik vəsaitlər, jurnal, qəzet məqalələri analiz edilmiş, profillər üzrə müqayisələr aparılmışdır;

6) Tədqiqat nəticəsində aşağıdakı problemlərlə bağlı araşdırmalar aparılmış, müqayisələrin nəticələri əldə edilmişdir:

- normativ-hüquqi aktlarla bağlı;
- muzeylərə Ulu Öndər Heydər Əliyev diqqəti və qayğısı ilə bağlı;
- sərgi-ekspozisiya işi ilə bağlı;
- elmi-metodika və metodologiya ilə bağlı;
- nəzəri məsələlərlə bağlı;
- təcrübi məsələlərlə bağlı;
- beynəlxalq əlaqələrlə bağlı;
- tarixi günlər və yubileylərlə bağlı;
- görüşlərlə bağlı;
- gecələrlə bağlı;
- muzeydaxili qurumlarla bağlı;
- muzey mühazirələrilə bağlı;

- muzey disputları ilə bağlı;
- maarifçilik və tərbiyə işlərilə bağlı;
- təbliğat işi ilə bağlı;
- müzakirələrlə bağlı;
- yaradıcı sənətkarların yubileyləri ilə bağlı;
- bərpa işlərilə bağlı;
- elmi-tədqiqat işlərilə bağlı;
- muzeylərin açılışı ilə bağlı;
- muzeydaxili konfrans və tədbirlərlə bağlı;
- muzey quruculuğu layihələrilə bağlı;
- fond işi ilə bağlı;
- milli-bədii sənətkarlıq nümunələrilə bağlı;
- eksponatlarla bağlı;
- fərdi yaradıcılıq sərgilərilə bağlı;
- müraciətlərlə bağlı.

## III FƏSİL. MILLI MUZEYŞÜNASLIQDA ÜNSÜRLƏRARASI QARŞILIQLI ƏLAQƏLƏR VƏ QANUNAUYĞUNLUQLAR SİSTEMİ

Dünya xalqlarının elmi tarixi, mədəniyyəti, incəsənətinin təşəkkülü və inkişafı mərhələlərini özündə yaşadan müxtəlif tarixi dövrlər nümunələrinin toplanması, qorunması, tədqiqi, bərpası, nümayişi, təbliği mərkəzləri olan ayrı-ayrı ölkələrin muzeylərinin dünya mədəniyyətində məqsədləri eyni olsa da, yaranma və inkişaf xüsusiyyətlərində müxtəliflik mövcuddur. Təbii ki, bu da həmin xalqların müxtəlif tarixi dövrlər inkişafı ilə bilavasitə bağlıdır. Lakin bu müxtəliflik ziddiyyətliliklə bağlı olmaqla ayrı-ayrı xalqların elm və mədəniyyətlərində bütövlükdə dünya elmi və mədəniyyətinin inkişafında mühüm rol oynamışdır. Bu inkişaf həm də qarşılıqlı əlaqəliliyin səmərəsi nəticəsində baş vermişdir. Qarşılıqlı əlaqəlilikdə mühit amilinin də əhəmiyyəti az olmamışdır. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, muzeydaxili, ölkədaxili ziddiyyətlərdən, qarşılıqlı əlaqələrdən yaranan inkişafla, beynəlxalq qarşılıqlı əlaqələrdən yaranan inkişaf arasında da ziddiyyətlilik - zahiri ziddiyyətlər mövcuddur. Təbiidir ki, muzeydaxili və ölkədaxili inkişaf beynəlxalq inkişaf üçün mənbədir. Yəni daxili inkişafın zənginliyi, zahiri inkişaf zənginliyi deməkdir. Muzeyşünaslıqda daxili inkişafın əhatəli formalarda zahiri inkişafa keçməsinin sisteminin hazırlanması hərtərəfli araşdırmaların məhsulu ola bilər. Lakin hazırkı şəraitdə milli muzeyşünaslıqda mövcud olan inkişaf bu sahədəki qarşılıqlı əlaqələrin qanunauyğunluğa çevrilməsi, bunlardan da qanunların yaranması mexanizmini tədqiq edərək ümumiləşdirməklə sistemləşdirmə aparmaq zəruriyyətini tələb kimi qarşımıza qoymuşdur. Azərbaycan muzeylərinin inkişafı,

muzeyşünaslığın nəzəri və tətbiqi ilə bağlı uzun illərdəki tədqiqatların nəticəsi olaraq ünsürlərarası qarşılıqlı əlaqələrin qanunauyğunluğa, qanunauyğunluqların isə müvafiq olaraq qanunlara çevrilməsinin ilk dəfə olaraq aşağıdakı şəkildə sistemini verməyi məqsədyönlü hesab etdik. Bu sistemin yerlərdə tətbiqi muzeyşünaslığın həm nəzəri, həm də tətbiqi inkişafında mühüm əhəmiyyət kəsb edir.

Son dövr tədqiqatçılığında muzeyşünaslığın inkişafının nəzəri və təcrübi (tətbiqi) istiqamətləri aktuallıq kəsb edir, zamanın tələbindən doğur. Bu prosesdə nəzəriyyənin birinci, təcrübənin ikinci olmasını əsas hesab etsək, muzeyşünaslıqda bəzi məqamlara nəzər yetirmək məqsədyönlü olardı. Nəzəri muzeyşünaslıq muzey fəaliyyətinin nəzəri əsasları - ünsürlərarası qarşılıqlı əlaqələr, qanunauyğunluqlar, qanunlar və prinsiplər, fond işi, uçot, mühafizə və komplektləşdirmə nəzəriyyəsi, muzey elmi-tədqiqatlarının nəzəri əsasları, ekspozisiya və sərgi işinin təşkili nəzəriyyəsi, kataloqlaşdırma nəzəriyyəsi, kolleksiyaların nümayişinin təşkili və təbliğinin nəzəri əsasları, maliyyələşdirmə, əməkdaşların sosial müdafiəsi nəzəriyyəsi, beynəlxalq əməkdaşlığın nəzəri əsasları, sənədləşdirmə nəzəriyyəsindən və sairədən ibarətdir. Muzey fəaliyyətində eyni zamanda yuxarıda qeyd edilən iş növlərinin təcrübi tərəfləri də mövcuddur. Muzeylər fəaliyyət prosesində zənginləşdiricilik, təhsilləndiricilik, tərbiyəedicilik, yaradıcılıq, formalaşdırıcılıq, tədqiqatçılıq funksiyalarını yerinə yetirərkən müvafiq prinsiplərlə bərabər əlaqəlilik, mərhələlik və ziddiyyətliliyin təsirinə də məruz qalırlar.

### 3.1. Muzeyşünaslıqda mühit amili, fəaliyyətdə qarşılıqlı əlaqələr və qanunauyğunluqlar

Fəaliyyət zamanı ilk növbədə muzeydaxili mühitdə nəzəri mexanizm sistemli şəkildə həyata keçirilir, öz elmi-nəzəri həllini tapır, sonra isə buna müvafiq olaraq təcrübi (tətbiqi)

proseslər yerinə yetirilir. İstər muzeydaxili, istərsə də muzeydənkənar fəaliyyətdə yerinə yetirilən tətbiqi proseslər nəticə etibarilə yenidən nəzəri inkişaf üçün zəminə çevrilir. Yəni, nəzəri fəaliyyətlə təcrübi fəaliyyət biri-birini şərtləndirir və biri-biri üçün zəminə çevrilir. Mərhələli və ziddiyyətli şəkildə bütün bu proseslərin əlaqəli olaraq həyata keçirilməsi obyekti muzey mühitidir.

Müasir Azərbaycan muzeyşünaslığının tədqiqi digər sahələrlə yanaşı, muzey mühitinin mahiyyəti, məzmunu və əhəmiyyətinin elmi əsaslarda aydınlaşdırılmasını tələb edir. İnkişafda bədii təsirin əhəmiyyəti ilə fərqlənən muzeylər, özlərinə məxsus mühitə malik olmaqla, müvafiq istiqamətli fəaliyyət prosesində iştirak edirlər. Həyata keçirilən məqsədli, istiqamətli fəaliyyət mühitsiz baş verə bilməz, yalnız müvafiq mühit daxilində və mühit amillərinin bilavasitə iştirakı, səyləri, fəaliyyətləri sayəsində məqsədyönlü proses baş verir. Məqsədyönlü fəaliyyət ictimai-iqtisadi şəraitlə uyğunlaşdıqda səmərəlilik artır, keyfiyyət özünü büruzə verir. Mənəvi zənginləşmə zamanı hərtərəfli formalaşma üçün mühit daxilində yaradılmış şəraitdə müvafiq mənəvi, əxlaqi, bədii, etik, estetik və sair keyfiyyətlər müxtəlif yaş qrupuna mənsub insanlara mexaniki şəkildə aşılanmır. Bu prosesdə məhz mühit amilləri zənginləşmə, formalaşma zamanı «qidalanma» vasitələrinə aktiv şəkildə çevrilməlidir. Bu işin təkmil şəkildə həyata keçirilməsindən ötrü əlbəttə, yüksək elmi yaradıcılıq və təşkilatçılıq məharəti tələb olunur. Burada ictimai və təbii mühitin geniş imkanlarından nə qədər əhatəli, hərtərəfli istifadə edilərsə, müxtəlif yaş qrupuna mənsub insanların iştirakı ilə kütləvilik əldə olunar.

Muzey mühiti müvafiq elmi-bədii baza, əşya, materiallar və güclü elmi-yaradıcı potensiala malik kollektiv tərkibilə məqsədyönlü vəzifələri həyata keçirir. Rəngarəngliyə malik muzey mühitinin hərəkətverici, istiqamətləndirici qüvvəsi muzey işçiləri, canlandırıcı qüvvə olan tamaşaçılar, seyrçilər,

mənbə - əşyalar, eksponatlar, elmi-kütləvi fəaliyyətin əsası isə elmi və yaradıcı idrak sayılır.

Bədii zənginləşmə prosesi müəyyən xüsusiyyətə, özünəməxsusluğa malik muzey mühitində baş verir və səmərəli nəticə əldə olunur. Səmərəliliyin keyfiyyət dərəcəsi muzey mühitinin xarakteri ilə ölçülür.

Muzey mühitinin təsir gücündən bəhs edilərkən müxtəlif yaş qrupuna mənsub ayrı-ayrı peşə sahibləri, eyni zamanda məktəblilərlə aparılan elmi, bədii-tərbiyə prosesinin müvafiq şəraitdə məqsədyönlü təşkili diqqət mərkəzində olmalıdır. Məlumdur ki, tərbiyə prosesi müəyyən mühitdə, müəyyən həyat tərzinə uyğun aparılır. Buna görə də tərbiyənin məktəblilərə təsir gücü həmin mühitin münasibliyindən də çox asılı olur. Tərbiyə prosesinin həyata keçirilməsi ilə əlaqədar tədbirlərin təşkil olunduğu muzey mühiti, onun potensial imkanları tərbiyəvi təsirin kəsərini həm sürətləndirə, həm də ləngidə bilər. Müxtəlif profilli muzeylərdə bu proses müxtəlif nəticələr verir.

Muzey mühiti vasitəsilə yaradıcı idrakla tərbiyə prosesi arasındakı əlaqənin mahiyyətini dərindən başa düşmək mümkündür. Bu qarşılıqlı əlaqə ictimai inkişafın bütün mərhələlərində özünü qabarıq şəkildə göstərir. Təbiətdə və cəmiyyətdə baş verən hadisələr yaradıcı təfəkkür tərəfindən dərk olunur, tamlaşır və sənət əsərinə, bədii yaradıcılıq nümunəsinə çevrilir.Sonraki mərhələdə isə, müxtəlif yaş qrupuna mənsub insanlar əldə olunan yaradıcı idrak məhsulunu özünəmüvafiq şəkildə mənimsəyir, tərbiyəvi təsirə düçar olurlar. Biri-biri ilə sıx qarşılıqlı əlaqədə olan bu iki prosesin birincisi yaradıcılıq müəssisələrində, emalatxanalarda, digəri isə muzey və sərgilərdə baş verir. Yaradıcı idrakın vəzifələrindən biri də mühitin, xarici aləmin təsirinin bəhrəsini müvafiq yaradıcılıq dünyagörüşü səviyyəsində canlandırmaqdan ibarətdir. Tərbiyə prosesində isə muzeylər hazır müxtəlif tarixi dövrlər sənətkarlığı nümunələrini, məhsullarını müvafiq mühit və

şəraitdə müxtəlif yaş qrupuna mənsub insanlara çatdırırlar, bununla da mənəvi zənginləşmə prosesi başlanır. Beləliklə, yaradıcı idrakın məhsulu yaranır, sənət nümunəsinə çevrilir, artır və tərəqqi prosesi gedir. Getdikcə yaradıcı idrakın nəticələri mənəvi zənginləşmədə əsas amilə çevrilir və tərbiyə prosesinin məzmununa müsbət təsir edir. Bu cür müsbət təsirlər də öz növbəsində illərlə formalaşan yeni yaradıcı idrakın zənginləşməsinə zəmin yaradır.

Yaradıcı idrak və tərbiyə prosesi biri-birinə təsir göstərməklə bərabər, həm də birlikdə cəmiyyətin sonrakı inkişaf mərhələlərinə müəyyən dərəcədə nüfuz edirlər, bu prosesin sürətlənməsində amilə çevrilirlər. Yaradıcı idrakın məhsulu olan sənət əsərləri, nümunələr eyni zamanda məktəbli gənclər tərəfindən sevilə-sevilə öyrənilir, mənimsənilir, hərtərəfli formalaşmada mühüm əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, yaradıcı idrak elmi idrakın məhsulu olan nəzəri biliklərin qabiliyyət vasitəsilə hər hansı sahəyə həsr edilməsinin bədii nəticəsidir. Bu bədii nəticə ilə təsirlənən təfəkkür getdikcə zənginləşərək yeni - daha rəngarəng, maraqlı, həm də mürəkkəb həyati hadisələrin tərənnümünə nail olur.

Aydın olur ki, elmi idrakın nəticəsi olan bilik olmasa, yaradıcı idrakın nəticələri əyani şəkildə təsir göstərməzdi və beləliklə də, idraki proseslərin həyati inkişafdakı yeri bilinməzdi, yəni inkişaf, tərəqqi baş verməzdi. Bütün bu proseslər üçün obyektiv gerçəklik mənbə rolunu oynayır, təcrübədən isə meyar kimi istifadə olunur. Əgər idraki nəticənin reallığı təcrübədə sübut olunarsa, tətbiq edilmə prosesi geniş vüsət alır, eyni zamanda, bu idraki nəticə yeni şüur tərəfindən qiymətləndirilir. Bütün bunlar tərbiyə prosesi ilə sıx əlaqədə baş verdiyindən, milli və ümumbəşəri dəyərlər əsas götürülməklə, hərtərəfli formalaşmış insanlar yetişdirmək məqsədi yaradıcı təfəkkürü narahat edir. Tərbiyənin bu perspektiv, ideal məqsədi müasir bədii yaradıcılıq fəaliyyətində muzey mühiti şəraitində

fərdi qabiliyyət və ayrı-ayrı istedadlar əsasında həyata keçirilməlidir.

Muzey mühitində dərketmə prosesində idrak əməliyyatları, maraqlar, ünsiyyət, müstəqillik, fəallıq və sair əsas əhəmiyyət kəsb edir. Muzey mühitində dərketmə fəaliyyəti bütövlükdə idrak əməliyyatlarının sistemidir. Eksponatla tanış olan tamaşaçı istər-istəməz psixoloji fəaliyyətdə olur; bu zaman o, təkcə muzeyəqədərki nəzəri biliyini işə salmır, həm də psixi səy göstərir, düşünür, əvvəlki nəzəri biliyini tətbiq edir, tutuşdurur, müqayisə edir və beləliklə də, onda daha çox öyrənmək, qiymətləndirmək, daha dərindən dərk etmək bacarıqları formalaşır, nəticədə tamaşaçı bir neçə idrak əməliyyatlarında iştirak edir. İdrak əməliyyatları hafizə, təsəvvür, təxəyyül, iradə, diqqət və müşahidədən ayrılmazdır və onun uğurluluğu isə sonrakı nəticə ilə ölçülür.

Müxtəlif yaş qrupuna mənsub muzey seyrçilərində idrak əməliyyatlarının formalaşması üçün səciyyəvi cəhətlərdən biri də budur ki, onlar bu prosesi müxtəlif eksponat, yaradıcılıq nümunəsi önündə tətbiq edə bilsinlər. Məsələn, müqayisə, təhlil, təsdiq bacarığı ümumiləşmiş şəkildə formalaşsın.

Dərketmənin səmərəliliyinə güclü təsir göstərən maraqlar müxtəlif inkişaf mərhələsində mövcud ola bilər və müxtəlif formalarda təzahür edirlər. Maraqların yaranma inkişafı səviyyəsini dərketmənin məzmununa görə təyin etmək olar. Məzmununa görə maraqlar aşağı və yüksək səviyyədə özünü göstərə bilər. Maraqları aşağı olanlar dərketmə prosesində səbəb-nəticə əlaqələrini aydınlaşdırmağa can atır, güclü marağa malik olanlar isə tam müstəqil fəaliyyətə qüvvə sərf etmək bacarığına malikdirlər. Belələrinin bəzən heç muzey bələdçisinə ehtiyacı belə olmur. Maraqların güclü olması üçün isə elmi-nəzəri biliklərin əldə edilməsi vacibdir və bunun sayəsində də problemli yanaşma prosesi baş verir. Zahiri yaradıcı fəallığa malik tamaşaçının bəzisinin münasibəti güclü, marağı çox olur, digərində isə əksinə. Zahiri fəallıq kənar təsir eksponat, material, əşya,

bələdçi məlumatı və sairə ilə əmələ gəlir. Yaradıcı fəallıq isə yaradıcı münasibətə deyilir ki, bu da gələcək formalaşmada mühüm əhəmiyyətə malikdir.

Beləliklə, məqsədyönlü tərbiyəvi təsirə malik sərgi və digər əyani tədbirlər müxtəlif muzey mühitində fərqli səmərə verir. Odur ki, səmərəli nəticələrin əldə olunması üçün muzey mühitinə uyğun şərqi və digər tədbirin müvəffəqiyyətli təşkilinə imkan verən şərait yaradılmalıdır. Əgər məktəbli şəxsiyyətinin mənəvi, əxlaqi, etik, bədii keyfiyyətlərinin tarixi - milli maraqlarla daha da zənginləş-dirilməsinə nail olmaq istəyiriksə, onda məhz həmin keyfiyyətləri tələb edən muzey mühitinin yaradılmasını təmin etməliyik.

Muzey daxilində bədii təsir gücünə malik mühit amilləri planlı şəkildə zənginləşmə vasitələrinə çevrilməlidir. Şəxsiyyətə muzey mühitinin təsir dairəsi nə qədər geniş, hərtərəfli, əhatəli olarsa, bu zaman formalaşma prosesi lazımi nəticələr verər, əgər məhdudluq nəzərə çarparsa, əks proses baş verə bilər. Birincinin baş verməsi üçün muzey mühitində məqsədli şəraitin yaradılması vacibdir. Məqsədli şərait dedikdə, müvafiq fəaliyyət prosesinin nəticəsinin şüurlu surətdə əvvəlcədən planlaşdırılmış ideal obrazı nəzərdə tutulur. Yəni məqsədli şəraitə məxsus muzey mühitində baş verən fəaliyyətin sonunda əldə edilən müsbət nəticə əsasdır.

Bütün sahələrdə olduğu kimi, muzey mühitindəki fəaliyyətin məqsədini bilməyin əhəmiyyəti böyükdür. Mühit daxilində fəaliyyətin hər bir iştirakçısı (əsasən muzey işçiləri) hansı istiqamət, forma, metod və yolla təsir edəcəyini, ekspozisiyada daha güclü emosionallığa malik eksponatlardan, əşya və materiallardan, ekspozisiyanın mühüm vasitələrindən biri olan sözdən hansı məqamlarda və hansı natiqlik məharətlə istifadə olunacağını qabaqcadan peşəkarcasına ayırd etməli, müxtəlif yaşlarda hansı keyfiyyətlər yaradılacağını əvvəlcədən dürüst dərk etməlidir. Buna görə də hər bir muzey işçisi fəaliyyətin məqsədini aydın şəkildə sezməlidir və belə məq-

sədlər muzey fəaliyyətinin əsas ana xəttini təşkil etməlidir.

Əlbəttə, müvafiq mühit şəraitində fəaliyyətin məqsədi cəmiyyətin mövcud həyat şəraiti və tələbatından doğur. Muzey qarşısında qoyulan məqsəd və vəzifələr mövcud quruluşun şərait və ehtiyacı ilə, ümumi inkişafın obyektiv qanunauyğunluqları ilə şərtləşir. Qeyd etməliyəm ki, sonuncudan kənarda fəaliyyət xətti tutmaq qeyri-mümkündür. Həyat şəraiti, vəziyyət, tələblər dəyişdikdə, buna müvafiq olaraq muzey fəaliyyətinin məqsədi də dəyişilir. Lakin tarixilik, milli və ümumbəşəri dəyərlərin bədii təsir gücü heç bir maneə ilə qarşılaşa bilməz.

Muzey mühitinin fəaliyyəti sayəsində hazırda milli mənafe əsas götürülməklə, hərtərəfli və ahəngdar inkişaf etmiş insanlar yetişdirmək məqsədinin maksimum səviyyədə həyata keçirilməsi üçün artıq lazımi şəraitin yarandığını etiraf etməliyik. Bütün sahələrdəki sürətli inkişaf özünü muzey fəaliyyətində də qabarıq şəkildə göstərir, elmi-bədii yaradıcılığa ciddi diqqət yetirilir, muzey müəssisələrinin şəbəkəsi artır və fəaliyyət texnologiyası gündən-günə sürətlənir. Beləliklə, muzey mühiti çərçivəsində hələlik real məqsəd ayrı-ayrı şəxslərin fərdi qabiliyyətləri və istedadlarının gücündən istifadə yolu ilə həyata keçirilir, kütləviliyə nail olmaq prosesi də artıq inkişaf xarakteri alır. Hazırda ölkəmizdə məqsədyönlü muzey fəaliyyəti üçün əlverişli şərait yaranmışdır və artıq ideal məqsədə keçid tam gerçəkliyə çevrilməkdədir.

Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunundan (310) göründüyü kimi, muzey fəaliyyətinin əsasını təşkil edən mühit, onun hərəkətverici qüvvələri, amilləri arasındakı əlaqə və asılılıqlar, ziddiyyətlər, təsirlər və onların elmi araşdırılması, mühitin öyrənilməsi və nəticələrin əldə edilməsi prosesi də tədqiqatçı nəzərindən yayınmamalıdır.

Muzey mühitində məqsədyönlü fəaliyyətin əldə edilməsində optimal quruluşun, məzmunun, səmərəli üsul, vasitə və yolların müəyyən olunmasında başlıca tələblərin, prinsip-

lərin yerinə yetirilməsi də həlledici əhəmiyyət kəsb edir. Elmilik, fəaliyyətin mühitlə əlaqələndirilməsi, yaşauyğunluq, fərdi xüsusiyyətlərin nəzərə alınması, hərtərəfli təsir göstərmək, ardıcıllıq, sistemlilik, ideyalılıq və sair prinsiplərin qarşılıqlı, əlaqəli şəkildə həyata keçirilməsi müasir muzeyşünaslığımızın daha da inkişafı üçün məqsədəuyğundur.

Azərbaycanda müasir muzey fəaliyyəti qarşılıqlı əlaqələrsiz mövcud deyildir. Muzey fəaliyyəti prosesində ünsürlər arasındakı qarşılıqlı əlaqələrin mahiyyətinin dəqiq aydınlaşdırılması və hərtərəfli tədqiqi müvafiq qanunauyğunluqları doğurur. Qanunauyğunluğun əhatə etdiyi fəaliyyət prosesində hadisələr arasındakı əsas əlaqə və asılılıqların mahiyyəti aydın şəkildə əks edilməlidir.

Muzey fəaliyyətinin məqsədyönlü davamı və səmərəli nəticələr verməsi üçün fəaliyyət prosesində ünsürləri arasındakı qarşılıqlı əlaqə və asılılıqların öyrənilməsi, tədqiqi həm nəzəri, həm də təcrübi əhəmiyyət kəsb edir. Muzey fəaliyyətinin ünsürləri arasındakı qarşılıqlı əlaqələri müxtəlifdir. Hər ünsürün özünə müvafiq xüsusiyyəti çərçivəsində əlaqələri mövcuddur. Tədqiqatların nəticəsi olaraq muzey fəaliyyəti prosesində qarşılıqlı əlaqədə olan əsas ünsürləri aşağıdakı kimi verməyi məqsədyönlü hesab etdik: fəaliyyətdə mühit və şəraitin yeri, əhəmiyyəti; muzey fəaliyyətinin mahiyyəti; muzey fəaliyyətinin məqsədi; muzey fəaliyyətinin məzmunu; muzey fəaliyyətinin vəzifələri; muzey fəaliyyətinin mərhələləri və muzey fəaliyyətinin nəticələri.

Muzey fəaliyyətinin ünsürlərinin qarşılıqlı əlaqələrini aşağıdakı kimi qruplaşdırmaq olar:

I. Fəaliyyətdə mühit və şəraitin yeri, əhəmiyyəti üzrə qarşılıqlı əlaqələr və qanunauyğunluqlar.

1. Muzey fəaliyyətinin əhatə olunduğu mühitdən, şəraitdən asılılığı.
2. Muzey fəaliyyətinin muzey mühitindən asılılığı.
3. Muzey mühitində yaradıcı ilə tamaşaçı arasındakı

qarşılıqlı əlaqələr

II. Muzey fəaliyyətinin mahiyyəti üzrə qarşılıqlı əlaqələr və qanunauyğunluqlar:

1. Muzey işçisi, ekspozisiya və tamaşaçı fəaliyyətinin biri–birini şərtləndirməsi.

2. Muzey mühiti vasitəsilə dərketmənin ekspozisiya materiallarından asılılığı.

3. Zənginləşmənin muzey tədbirlərinin keyfiyyətindən asılılığı.

4. Muzey fəaliyyəti vasitəsilə elmi idrakla yaradıcı idrak arasındakı ziddiyyətlərin aradan qaldırılması.

III. Muzey fəaliyyətinin məqsədi üzrə qarşılıqlı əlaqələr və qanunauyğunluqlar.

1. Qarşıya qoyulan məqsədin həyata keçirilməsində muzeydaxili əlaqə və asılılıqların nizamlanması.

2. Əlaqələrdə vahid məqsədə xidmət edilməsi.

3. Qarşılıqlı əlaqələrdə müvafiq nəzarətin vacibliyi.

IV. Muzey fəaliyyətinin məzmunu üzrə qarşılıqlı əlaqələr və qanunauyğunluqlar.

1. Muzey fəaliyyətinin məzmununun elmi və bədii yaradıcılıqdan asılılığı

2. Muzey fəaliyyətində planlılıq, ardıcıllıq və mütəmadiliyin əlaqəsi və biri–birini şərtləndirməsi.

3. Muzey fəaliyyətinin məzmunu ilə vasitələrinin əlaqəsi.

4. Muzey fəaliyyətində mövcud tədqiqat metodlarının əlaqəsi.

V. Muzey fəaliyyətinin imkanları üzrə qarşılıqlı əlaqələr və qanunauyğunluqlar.

1. Muzey fəaliyyətinin tərbiyəedici imkanları arasındakı qarşılıqlı əlaqə və onlardan istifadə.

2. Muzey fəaliyyətinin təhsilləndirici imkan-ları arasındakı əlaqələr və onlardan istifadə.

3. Muzey fəaliyyətinin inkişafetdirici və formalaşdırıcı

imkanlarının qarşılıqlı əlaqəsi və onlardan istifadə.

VI. Muzey fəaliyyətinin mərhələləri üzrə qarşılıqlı əlaqələr və qanunauyğunluqlar.

1. Muzey fəaliyyəti mərhələlərinin muzey işçisindən asılılığı.

2. Muzey fəaliyyəti mərhələlərinin biri–birini şərtləndirməsi.

3. Muzey fəaliyyəti mərhələlərinin muzeydaxili bölmə və kollektivlərin qarşılıqlı əlaqəsindən asılılığı.

4. Mərhələlərin muzeyin elmi-yaradıcı potensialının qarşılıqlı əlaqə fəaliyyətindən asılılığı.

VII. Muzey fəaliyyətinin nəticələri üzrə qarşılıqlı əlaqələr və qanunauyğunluqlar.

1. Mənəvi zənginləşmənin nəticəsinin muzey fəaliyyətinin üsul və vasitələrindən asılılığı.

2. Nəticənin muzey fəaliyyəti ünsürlərinin əlaqə və vəhdətindən, biri-birini şərtləndirməsindən asılılığı.

3. Muzey fəaliyyəti nəticəsində mənəvi zənginləşmənin elmi-yaradıcı dönyagörüşü və hərtərəfli formalaşmanı inkişaf etdirməsi.

Beləliklə, qarşılıqlı əlaqə və asılılıqlar muzeyin sonrakı inkişafı və fəaliyyətinin daha da təkmil şəklə düşməsi üçün zəminə çevrilir. Fəaliyyətdə iştirak edən hər bir tərəfin, ünsürün aktiv şəkildə biri–birinə məqsədyönlü və planlı təsir göstərməsi real perspektivli inkişafın mexanizmi rolunu oynayır.

### 3.1.1. Muzey fəaliyyətinin əhatə olunduğu mühitdən, şəraitdən asılılığı

Fəaliyyətdə mühit və şəraitin yeri, əhəmiyyəti üzrə üç qarşılıqlı əlaqədən-muzey fəaliyyətinin əhatə olunduğu mühitdən, şəraitdən asılılığı, muzey fəaliyyətinin muzey mühitindən asılılığı və muzey mühitində yaradıcı ilə tamaşaçı arasında qarşılıqlı əlaqələrdən bəhs ediləcəkdir.

Muzey fəaliyyətinə təsir göstərən bir çox amillərlə yanaşı, onu əhatə edən ətraf mühitin, şəraitin təsir dairəsi əhatəlidir. Azərbaycanda, qədim tarixi dövrlərdən başlamış bugünə qədərki mühit və şərait, mənbələr daha zəngindir. Mühitin özünün inkişafı isə obyektiv gerçəklikdə baş verən hadisələrlə sıx bağlıdır. Real aləmdə baş verən iqtisadi, sosial-siyasi, ümumi, yaradıcı və sair dəyişikliklər təsir gücləri çərçivəsində obyekt və müəssisələrdə, o cümlədən mədəniyyət təsisatlarının inkişafında irəliləyişlər əmələ gətirir, eyni zamanda onların fəaliyyət istiqamətlərini nizamlayır.

Azərbaycanda baş verən sosial-iqtisadi dəyişikliklər, yeniliklər dövlət mədəniyyət sisteminin aparıcı qüvvəsi sayılan muzeylərin fəaliyyətində əsas amilə çevrilmişdir. Bütün iqtisadi problemlərin həllində, maliyyə xərclərinin tənzimlənməsində iqtisadi islahatlar əhəmiyyət kəsb edir. Muzey fəaliyyətini əhatə edən iqtisadi proseslərdə iştirak edən bütün tərəflər arasındakı əlaqə və münasibətlərdə ziddiyyətlərin, uyğunsuzluqların aradan qaldırılması əsas şərtdir.

Ümumiyyətlə, ölkədə baş verən iqtisadi yüksəliş, irəliləmə bütün sahələrə nüfuz edir, eyni zamanda həmin sahələrin inkişafının iqtisadi sıçrayışa zəmin olması aydındır. Məlumdur ki, iqtisadiyyat ictimai elmlər qrupunun tərkib hissəsidir. Müasir dövrdə ölkəmizdə həyata keçirilən iqtisadi fundamental tədqiqatların vəzifəsi, iqtisadi qanunların dərk edilməsi və onlardan səmərəli istifadə olunması yollarının əsaslandırılmasıdır ki, bu da idraki proses vasitəsilə yerinə yetirilir. Şüurun belə fəal prosesdə iştirak etməsi məhz bu cür yeniliyin əldə olunmasına gətirib çıxarır. Eyni zamanda muzey fəaliyyəti vasitəsilə həyata keçirilən tədbirlər, yaradıcılıq nümunələrinin elmi tədqiqatlar vasitəsilə tətbiqi, təbliği nəticəsində əldə olunan vəsaitin də iqtisadi inkişafa köməyi az deyildir.

Ətraf mühitdə mövcud olan sinif və sosial qrupların münasibətləri, əmək bölgüsü, sosial institutların xarakterindən irəli gələn sosial sistemin ünsürləri arasındakı sabit və

nizamlanmış əlaqələr müxtəlif məqamlarda muzey fəaliyyətində əhəmiyyətli rol oynayır. Eləcə də əhalinin sosial strukturunun (sosial tərkibinin) digər əlamətləri (peşə, milli, cinsi, mədəni və s.) baxımından da tədqiqi problem dairəsində müsbət təsirə malikdir.

Ətraf mühitdə baş verən elmi və yaradıcılıq nailiyyətlərinin bir hissəsi muzey fəaliyyətində əsas amil olan əşyaya, nümunəyə, materiala, eksponata çevrilir. Elmi və yaradıcı idrakın məhsulları olan yeniliklər, əsər və nümunələr yenidən elmi və yaradıcı idrak mənbəyinə çevrilməklə, muzey fəaliyyəti çərçivəsində təsir gücünü qat-qat artırır. Muzeyin mövcud və perspektiv fəaliyyətində aparıcı amil olan kadr potensialının hazırlanması da ətraf mühitdəki müvafiq təhsil müəssisələri tərəfindən baş verir. Bu proses nəzəri şəkildə ətraf mühitdə həyata keçirilirsə, təcrübi şəkildə isə bilavasitə muzeyin yaxından köməyi sayəsində başa çatır. Tədris və istehsalat təcrübələrinin, bəzi təcrübi məşğələlərin muzeylərdə təşkili, muzeyşünaslığın, muzey fəaliyyətinin səmərəsi üçün çox vacibdir. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin «Kulturologiya» fakültəsinin «Muzeyşünaslıq» kafedrası tərəfindən muzeylərlə birgə keçirilən tədris və təcrübə əhəmiyyətli tədbirlər məhz müasir muzey fəaliyyətinin təkmilləşməsi və gələcək perspektivi üçün inkişafetdirici vasitə rolunu oynayır. Digər bədii təmayüllü ali və orta ixtisas təhsili müəssisələrinin də muzeylərlə birgə fəaliyyəti əhəmiyyətlidir.

Ölkəmizdə muzey fəaliyyəti ümumi inkişafla sıx qarşılıqlı əlaqədə olduğundan, onun hərtərəfli şəkildə həyata keçirilməsi də iqtisadi, sosial, elmi, mədəni, siyasi həyatla təmasda reallaşır. Əlbəttə, bu proses müxtəlif istiqamətlərdə özünü göstərir: muzey işinin vəzifələrində, həyata keçirilməsi üsullarında, forma və yollarında, məqsədində, məzmununda və sair. Məsələn, muzey tərəfindən iş planlarının tərtibi zamanı qarşılıqlı əlaqələrin hərtərəfli əks etdirilməsi üçün muzey tədbirlərinin müvafiq şəkildə təşkili qabaqcadan planlaşdırılır. Mu-

zeylər kitabxana müəssisələri (milli kitabxana, kütləvi, gənclər, uşaq, korlar, şəhər, rayon, kənd, qəsəbə kitabxanaları və onların filialları, mərkəzləşdirilmiş kitabxana sistemləri, sahə kitabxanaları, elmi kitabxanalar), teatr-konsert müəssisələri, digər muzey müəssisələri (bədii və incəsənət, tarix və tarix - diyarşünaslıq muzeyləri, ədəbiyyat, teatr və musiqi profilli, memorial, tarix muzeyləri, muzey - qoruqlar), rəsm qalereyaları və sərgi salonları, mədəniyyət və tarix profilli arxivlər, klub və asudə vaxtın təşkili müəssisələri (şəhər, rayon, qəsəbə, kənd mədəniyyət evləri və sarayları, klublar və klub tipli müəssisələr, mədəniyyət və istirahət parkları, asudə vaxt mərkəzləri), təhsil və tədris müəssisələri (bədii təmayüllü profilli ali və orta ixtisas təhsili müəssisələri, ixtisasartırma kursları, uşaq musiqi, incəsənət, rəssamlıq, muğam və xoreoqrafiya məktəbləri), elmi–metodiki kabinetlər və mərkəzlər (mədəniyyət üzrə elmi–tədqiqat institutları və mərkəzləri, mədəniyyət, muzey işi üzrə elmi – metodik mərkəzlər, musiqi təhsili üzrə metodiki kabinet, muzey sərvətlərinin və xatirə əşyalarının elmi – bərpa mərkəzləri), mədəniyyət və incəsənətin təbliği, yayımı müəssisələri (mədəniyyət və incəsənət profilli nəşriyyatlar, qəzet, jurnal və bülleten redaksiyaları, informasiya mərkəzləri, informasiya-regional müəssisəsi, bədii-istehsalat müəssisələri, kinostudiya, televiziya və radio verilişləri şirkəti və s.) ilə qarşılıqlı əlaqədə inkişaf edir. Göründüyü kimi, muzey fəaliyyətinin ətraf mühitlə, həyatla qarşılıqlı əlaqəsi zamanı məqsədyönlü nəticələrin əldə edilməsi mümkündür. Belə ünsiyyət zamanı muzey tədbirlərinin mövzusunun həyatla əlaqələndirilməsinin vacibliyi aydınlaşır. Əgər ölkədə gedən proseslərə, ətraf mühitdə baş verən hadisələrə muzey öz fəaliyyəti ilə biganə qalırsa, milli inkişafa nüfuz etmirsə, iqtisadiyyata, sosial həyata, quruculuğa, elmə, mədəniyyətə, incəsənətə, yaradıcılığa fəallıq göstərmirsə, demək, heç bir qarşılıqlı əlaqədən söhbət gedə bilməz. Muzey öz müxtəlif mövzulu tədbirləri (həyati hadisələrə, mövcud vəziy-

yətə həsr edilmiş) ilə nəzər–diqqəti cəlb edir və müxtəlif yaş qrupuna mənsub insanları, ayrı-ayrı peşə sahiblərini mənən zənginləşdirir. Beləliklə, belə qarşılıqlı əlaqələrdən müvafiq qanunauyğunluqlar yaranır, ətraf mühitdə, həyatda baş verən dəyişikliklər istər - istəməz muzeyin fəaliyyətinə nüfuz edir, müxtəlif istiqamətli qarşılıqlı əlaqələrin mövcudluğu meydana çıxır, əlaqələrin sonrakı davamı isə getdikcə qanunauyğun şəkil alır. Beləliklə, muzeyşünaslıqda bu qanunauyğunluğun mahiyyəti belə səciyyələnə bilər: muzey fəaliyyəti əhatə olunduğu mühitlə, şəraitlə nə qədər ətraflı, geniş, hərtərəfli qarşılıqlı əlaqədə olarsa, ayrı-ayrı tədbirlərin təsiri də bir o qədər güclü olar və dərketmənin, zənginləşmənin səviyyəsi də həmçinin yüksələr. Muzeyşünaslıqdakı həmin qanunauyğunluğu qanun formasında - "Muzey fəaliyyətinin əhatə olunduğu mühitdən, şəraitdən asılılığı qanunu" kimi ifadə etmək olar.

### 3.1.2. Muzey fəaliyyətinin muzey mühitindən asılılığı

Fəaliyyətin əsas amili olan muzey mühiti fondsuz, əməkdaşlarsız, ayrı-ayrı qurumlarsız, mənbəsiz, yəni, əşyalarsız, eksponatlarsız, müvafiq materiallarsız mövcud deyildir. Digər mühit amillərinin fəaliyyəti ekspozisiya əsasında qurulur, planlaşdırılır. Buna görə də eksponat və materiallar əsasında yaradılan ekspozisiya müvafiq təsir gücünə malikdir. Eksponatların təsir gücü isə müvafiq profilli muzeylərdə ekspozisiyada nümayiş səviyyəsi, keyfiyyəti ilə, digər mühit amillərilə fasıləsiz qarşılıqlı əlaqəsilə ölçülür.

Doğrudur, ekspozisiyanın əsasını eksponatlar təşkil edir, məzmunu, tərkib hissələrini canlandırır, lakin ekspozisiyanın yaradılma prosesinin əsasında muzey mühitinin hərəkətverici, istiqamətləndirici, təşkiledici qüvvəsi – muzeyin elmi – yaradıcı potensialı durur. Məhz, sonuncuların elmi yaradıcılıqları sayəsində ekspozisiya tamaşaçının ixtiyarına verilir. Beləliklə, ayrı-ayrı eksponatlar qarşılıqlı şəkildə əlaqələndirilərək

ekspozisiyaya seçilir və sonra isə elmi-bədii şəkildə ekspozisiyanın özündə eksponat, əşya və materiallar arasında elmi əlaqəlilik yaradılır. Məhz bu əlaqələndirilmədə idrak, şüur yenidən iştirak edir. Yaradıcı idrakın fəallığı sayəsində ekspozisiyanın elmi-bədii təcəssümü müvafiq təsirə malik olur. Nəticədə üçüncü tərəf-yaradıcı insan özünün yeni fəaliyyət mərhələsi ilə əsas amil kimi yerini göstərir (əlbəttə, əvvəlki proseslərdə də insan şüuru iştirak edir). Buraya texniki vasitələrin də əlavə edilməsini insan fəaliyyətinin nəticəsi kimi nəzərə alsaq, bu ümumi təsirin ünvanlandığı tamaşaçı qüvvəsinin mühit çərçivəsində əlaqələndirilmədə iştirakının şahidi olarıq. Tamaşaçı özünəqədərki proseslərdə iştirak etmədiyindən, onda birdən-birə düşdüyü elmi-bədii şəraitə əsasən müxtəlif istiqamətli maraqlar yaranır. Yəni ekspozisiya ilə tamaşaçı arasında ziddiyyət yaranır. Əgər ekspozisiya materialları və təşkilatçılıq amilləri arasındakı qarşılıqlı əlaqələrin keyfiyyəti nə qədər elmilik, bədiilik, məqsədyönlük, ardıcıllıq, peşəkarlıq, kütləvilik, yaşauyğunluq baxımından yüksək səviyyədə nəzərə alınarsa, tamaşaçının özünəqədərki bədii hadisənin nəticəsinə-ekspozisiyaya münasibəti bir o qədər fəal olar, güclü qarşılıqlı əlaqələr təşəkkül tapar, inkişaf edər, nəticədə müxtəlif elmi-bədii yaradıcılıq nailiyyəti əldə olunar.

Aydındır ki, muzeyin daxili fəaliyyət mexanizmi onun təsir gücünü təyin edir. Milli Azərbaycan Tarixi Muzeyi, AMEA-nın N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi və digər böyük muzeylərin imkanları çox genişdir. Muzey mühitində müvafiq mənəvi, əxlaqi, bədii, etik, estetik və sair keyfiyyətlər müxtəlif yaş qrupuna mənsub tamaşaçıda müxtəlif təsir gücünə malik olur. Müxtəlif yaş dərəcələrinin mənsub olduqları ailə, təhsil müəssisələri, ayrı-ayrı müəssisələrin muzeylə əlaqəsinə-ətraf mühitlə əlaqəyə səbəb olur. Aparıcı muzeylər məktəblərdə də məktəb muzeylərinin yaranması və fəaliyyətinə köməklik göstərmişlər. Mək-

təblilərin muzeydə aldığı təəssüratlar, sinifdə nəzəri şəkildə yiyələndikləri bilik, bacarıq və vərdişlərin möhkəmlənməsinə, tələbələrin auditoriyalarda aldıqları nəzəri biliklərin təcrübə ilə qarşılıqlı əlaqəsinə, müxtəlif peşə sahiblərinin, sənətkarların ümumdünya görüşlərinin muzey eksponatları ilə qarşılıqlı əlaqəsinə, formalaşmasına və sair bu kimi proseslərdə muzeyin daxili mühiti vasitəsilə nail olunma təbiidir. Bu proseslərdə muzey mühitinə daxil olan bütün amillərin biri–biri ilə qarşılıqlı əlaqədə təsir göstərmələri ümumi muzey fəaliyyətini doğurur. Daxili qarşılıqlı əlaqələrin keyfiyyət dərəcəsi muzeyin ümumi fəaliyyətinin keyfiyyət dərəcəsini təyin edir. Beləliklə, keyfiyyət dərəcəsinin təyin olunması, qiymətləndirilməsi kimi vacib proses öz mövcudluğunu göstərir.

Mühitdə kollektiv üzvlərinin biri–biri ilə qarşılıqlı əlaqələrinin müvafiq prinsiplər əsasında, muzeyin ümumi fəaliyyətinə uyğun olaraq mövcudluğu diqqət mərkəzində olmalıdır. Muzey rəhbərliyi belə qarşılıqlı əlaqələri muzey mənafeyi baxımından qiymətləndirməyi bacarmalıdır. Elmi, bədii, yaradıcı əlaqələr həm də təşkilatçılıq baxımından əhəmiyyət kəsb etməlidir. Muzey işçiləri arasında müəyyən problem baxımından tələblərdə vahidlik prinsipi əhəmiyyət kəsb etməlidir. Sərgilər, tədbirlər zamanı mövzuya uyğun problemin, fikrin izahı, şərhin verilməsi müxtəlif kollektiv üzvləri tərəfindən eyni ideya, məqsəd, istiqamət baxımından bir nəticəni əhatə etməlidir. Məsələn, Səttar Bəhlulzadəyə aid ekspozisiya və yaxud tədbirdə hər bir kollektiv üzvü bu problemlə əlaqədar məlumatı dəqiq mənbəyə əsaslanmaq şərtilə yaradıcı haqqında maraqlı faktlarla təsdiqlər verməlidir. Əsərlər bədii təsir gücü nöqteyi-nəzərindən müxtəlif cür izah edilməlidir ki, verilən məlumat müxtəlif yaşlı tamaşaçıda çaşqınlıq yaratmasın. Yəni, tədbirə qədərki hazırlıq dövrü ərzində bu və digər məsələlərə ciddi əhəmiyyət verilməlidir.

Digər prinsiplər - elmilik, ardıcıllıq, məqsədyönlülük, fəaliyyətin həyatla əlaqələndirilməsi, yaşauyğunluq, fərdi xüsu-

siyyətlərin nəzərə alınması, ideyalılıq, sistemlilik və sair kollektiv üzvlərinin qarşılıqlı əlaqələrində maksimum nəzərə alınmalıdır. Kollektiv üzvünün elmiliyi ardıcıllıqla, həyatla əlaqəli təşkilinə, həyata tətbiqlə, yaşauyğunluqla, ideyalılıqla, sistemliliklə və digər prinsiplərlə əlaqəli şəkildə inkişaf edir. Məqsədyönlülüyün bütün sahələrə sirayət edilməsi, fəaliyyətin həyatın ayrı-ayrı inkişaf istiqamətləri ilə əlaqələndirilməsi, yaşauyğunluğun fərdi xüsusiyyətlərlə əlaqəsi və sair prinsiplərin vahid məqsəd istiqəmtində əlaqələri qanunauyğunluğa çevrilir. Belə əlaqəlilik sayəsində problem baxımından məqsədin həyata keçirilməsində qarşıya qoyulan vəzifələrin qarşılıqlı əlaqədə həyata keçirilməsi mövcudluğu ortaya çıxır. Bu vəzifələrin özlərinin ardıcıl olaraq sistem halında keyfiyyətlə həyata keçirilməsi ümumi fəaliyyətin keyfiyyət dərəcəsini təyin edir.

Beləliklə, yuxarıdakı prinsiplər əsasında kollektiv üzvlərinin fəaliyyəti vahid məqsəd sayəsində əldə olunan nəticəyə nail olmaq imkanı verir. Belə qarşılıqlı əlaqə, həm də kollektiv üzvlərini iş prosesində biri–birinə daha da yaxınlaşdırır ki, bu yaxınlaşma nəticəsində də yeni yaradıcılıq imkanları təşəkkül tapır və inkişaf edir. Bu yaradıcılıq imkanları arasında yenidən qarşılıqlı əlaqələr təşəkkül tapır ki, bu əlaqələr də inkişafın yeni mərhələsi üçün mənbəyə çevrilir.

Beləliklə, bir qarşılıqlı əlaqə digər qarşılıqlı əlaqə üçün şərtə çevrilir, eyni zamanda qarşılıqlı əlaqələrdə də mərhələlik prosesi yaranır, əlaqə zamanı bir mərhələ digər mərhələni doğurur.

Muzey mühitində qarşılıqlı əlaqələrin təsiri prosesində müasir texniki vəsaitlərdən istifadənin əhəmiyyəti də nəzərdiqqətdən yayınmamalıdır. Muzey fəaliyyətinin texniki vəsaitlə təchizi günün tələbləri səviyyəsində olmalıdır. Hər bir eksponatın bütün keyfiyyətləri vasitəsilə tamaşaçıya çatdırılması müasir texniki vəsaitin gücündən məqsədyönlü istifadə prosesində baş verir.

Müasir texniki sistemlər və kompüter kompleksləri vasi-

təsilə muzey fəaliyyətinin daha səmərəli təşkilinə nail olmaq mümkündür. Müasir kompüter texnologiyası vasitəsilə beynəlxalq muzey fəaliyyəti ilə əlaqə yaratmaq artıq reallığa çevrilmişdir. Bunun üçün bütün eksponat və materiallar muzeydə quraşdırılmış kompüter kompleksində ardıcıllıqla öz əksini tapmalı, hər bir eksponat barəsində əhatəli elmi məlumat müvafiq şəkildə proqramlaşdırılmalıdır. Proqramlaşma zamanı həm də sistemliliyə ciddi əməl olunmalıdır.

Beləliklə, muzeyin ümumi fəaliyyəti mühitin hərtərəfli inkişaf və zənginliyə, keyfiyyətli təsir gücünə malik olmasından asılıdır. Bu qanunauyğunluğun mahiyyətini belə səciyyələndirmək olar: muzey fəaliyyəti muzey mühitinin hərtərəfli inkişafı, keyfiyyətli və məqsədyönlü təsir istiqamətindən asılıdır. Həmin qanunauyğunluğu qanun formasında aşağıdakı kimi ifadə etmək olar: "Muzey fəaliyyətinin muzey mühitindən asılılığı qanunu".

### 3.1.3. Muzey mühitində yaradıcı ilə tamaşaçı arasında qarşılıqlı əlaqələr

Muzey mühiti şəraitində inkişafa təkan verən, onu istiqamətləndirən amillərdən sayılan yaradıcı ilə tamaşaçı arasında mövcud olan qarşılıqlı əlaqələr əhəmiyyətlidir. Yaradıcılıq nümunələri əsasında qarşılıqlı əlaqələrin iki istiqaməti mövcuddur: canlı və cansız (yaradıcılıq nümunəsi vasitəsilə əlaqələr).

Canlı əlaqələrdə yaradıcı bilavasitə iştirak edir və məqsədəmüvafiq məlumat, şərh verir, maraqlı çıxışlar edir, müsahibə, disput, viktorina, görüş, gecə və digər tədbirlərdə fəal iştirak edir. Burada əmələ gələn canlı əlaqə zamanı yaradıcı nümunəviliyə, etik davaranışa, səlis, aydın danışığa, gözəl nitq mədəniyyətinə, natiqlik məharətinə malik olmalı, bədiiyyatı özünəxas hərəkət və jestlərlə təsvir etməli, bu kimi bacarıq və yaradıcılıq keyfiyyətləri ilə tamaşaçı rəğbəti qazanmalıdır. Bir sözlə, tamaşaçı fəaliyyətinin xüsusiyyətləri muzey mühitində

nəzərə alınmalıdır.

Muzey mühitində ekspozisiya materialları və yaradıcılarla, bələdçi və digər muzey əməkdaşları ilə yaranan ünsiyyətdən maraq daha da artır, güclənir. Ünsiyyət həm sevinc, həm də kədər mənbəyinə çevrilə bilər. Mənəvi-psixoloji mühit sayılan muzeydə ünsiyyət, tamaşaçı üçün müvəffəqiyyət qazanmağın vacib şərtlərindən biridir.

Müstəqillik dərəcəsinin əhəmiyyəti mühit daxilində qeyd olunmalıdır. Zahiri və yaradıcı fəallığa malik bəzi tamaşaçının münasibəti güclü, marağı çox, digərində isə az olur. Zahiri fəallıq kənar təsir, bələdçi məlumatı ilə əmələ gəlir. Yaradıcı fəallıq isə yaradıcı münasibətə deyilir ki, bu da gələcək formalaşmada mühüm əhəmiyyətə malik təsirini göstərməlidir.

Beləliklə, canlı əlaqə muzey mühitində həm verbal prosesl ə - nitqlə, təfəkkürlə, həm də sensor-hərəki, təcrübi proseslərlə əlaqədardır. Verbal proseslər-idrakın, təfəkkürün, şüurun, mənəviyyatın, sensor-hərəki proseslər isə təcrübi hərəkətlərin əsasında durur.(259, s.214). Odur ki, canlı qarşılıqlı əlaqəni səmərəli təmin etmək üçün həm verbal, həm də sensor- hərəki proseslərdən məqsədyönlü istifadə edilməlidir. Əgər belə olarsa, onda canlı qarşılıqlı əlaqə zamanı inkişafın ümumi (mənəvi və fiziki) ahəngdarlığı bir o qədər səmərəli nəticələr verər.

Canlı qarşılıqlı əlaqə fəaliyyət və ünsiyyətlərlə ayrılmazdır. Belə əlaqələrdə iştirak edən hər iki tərəfin keyfiyyət göstəriciləri məhz aktiv fəaliyyət və ünsiyyət prosesində təşəkkül tapır, sonrakı mərhələlərdə inkişaf edir, formalaşır. Yəni, fəaliyyət və ünsiyyət insanın inkişaf edib formalaşması üçün qazanacağı keyfiyyətlərin mənbəyidir və eyni zamanda qarşılıqlı əlaqə prosesinin əsasını təşkil edir.

Fərdi xüsusiyyətləri ilə bir-birindən fərqli olan tamaşaçı ilə qarşılaşmaya hazır olmaq üçün yaradıcı öz üzərində müntəzəm, ardıcıl işləməli və yaradıcı təsiri ayrı-ayrı yaddaşlarda iz buraxan maraqlı təsəvvür mənbəyinə çevrilməlidir. Canlı əlaqə

prosesində yaradıcının zəngin elmi-bədii idraki tamaşaçı idrakına elmi ardıcıllıqla, həm də planlı şəkildə məqsədyönlü təsir göstərir, hər hansı tarixi dövr, bədii hadisə, nümunəyə qarşı maraqların təşəkkülü və inkişafına səbəb olur. Təşəkkül tapan maraqların istiqamətli inkişafı üçün həmin məqamlarla yaranan suallara canlı şəkildə birbaşa cavabların alınmasında mühüm əhəmiyyətə malikdir. Yəni tamaşaçı yaranan təəssüratın, biliyin sübut olunması, həm də hərtərəfli dəlillərlə aydınlaşdırılması prosesinin fəal iştirakçısına çevrilir. Bu prosesdə aktiv və passiv qavramaya malik tamaşaçılar özlərinə məxsus sürət və keyfiyyətlə bacarıq və vərdişlərə yiyələnirlər. Belə ki, aktiv qavramaya malik olanlar elə həmin məqamlardaca mühitin elmi-bədii yaradıcılıq imkanlarını lazımi şəkildə qiymətləndirir, yeri gəldikcə əvvəlcədən özlərində mövcud olan biliklərdən istifadə etməklə mühitdə zənginliyi (elmi bilik və təsəvvürləri vasitəsilə) artırmağa çalışır, çox maraq oyadan məlumatları və şərhləri ilə münasibətlərini bildirirlər. Belə çıxışlar onlarda məsuliyyətlilik vərdişlərini inkişaf etdirir, tədqiqatçılığa meyl və maraqlarını artırır.

Canlı əlaqələrdə iştirak edən tərəflərdən birincisi – yaradıcı aktiv, digəri isə - tamaşaçı passivdir. Birincinin (dəyərləndirənin) elmi-yaradıcı səviyyəsi genişdir, təsir göstərmək, dəyərləndirmək imkanları hərtərəflidir, əhatəlidir. İkinci tərəfin – tamaşaçının (dəyərlənənin) səviyyəsi (dəyərləndirən tərəfindən həmin anda verilən məlumat nöqteyi-nəzərindən) yaradıcı tərəfindən göstərilən təsiri qəbul etmək imkanı isə bir qədər məhduddur. Çünki, eksponat və yaxud bədii hadisə haqqında ilk dəfə alınan məlumata, şərhə təfəkkür tərəfindən həmin anda qiymət verilmir. Beləliklə, səviyyə və imkan arasında ziddiyyət meydana çıxır. Bu ziddiyyəti aradan qaldırmaq üçün yaradıcı elmi-bədii cəhətdən təsirli, tamaşaçının inkişaf səviyyəsinə və real imkanına uyğun fikir və şərhlərlə çıxış edir.

Muzey mühitində baş verən qarşılıqlı əlaqələr zamanı insanın daxili aləminə edilən təsirlər əhəmiyyət kəsb edir.

Dəruni aləmə aid olan mənəvi, intellektual, emosional və iradi fəaliyyət sahələrinə təsirlə nəticə arasında da mütənasiblik mövcuddur (259, s.214). Tamaşaçının dəruni aləminə yaradıcı tərəfindən edilən təsir nə qədər güclü olarsa, nəticə bir o qədər səmərəli olar və əksinə. Buna görə də yaradıcı çalışmalıdır ki, tamaşaçıya edilən, elmi-bədii yaradıcı təsirlər onun mənəvi, intellektual, emosional-iradi fəaliyyəti sahələrinə daxil olsun və müsbət keyfiyyətli dəyişiklik yaratsın. Bu dəyişiklik isə öz növbəsində onun yaradıcılıq qabiliyyətinin inkişafında, eləcə də dünyagörüşündə əhəmiyyətli rol oynasın.

Yaradıcı ilə tamaşaçı arasında psixoloji əlaqələr də mövcuddur. Canlı əlaqələrdə hər bir fərdin psixoloji aləminə xas təsir metodlarından istifadə edilməlidir. Belə metodların seçilməsi əlbəttə, yaradıcı tərəfindən həyata keçirilir. Hər bir psixoloji xüsusiyyət məhz münasibət, qarşılıqlı əlaqə prosesində bəlli olur. Yaradıcıya verilən sualla artıq, sual verənin (tamaşaçının) nəzəri biliyi və dünyagörüşü təyin edilir, buna müvafiq olaraq cavab priyomundan istifadə edilir. Tamaşaçı səyi çox şeyi aydınlaşdırır. Başqa sözlə desək, müxtəlif dünyagörüşlü tamaşaçının psixi xüsusiyyəti, onun səy və fəaliyyətinin məzmunu, tələb və imkanları ünsiyyətin, əlaqənin gedişini, xarakterini şərtləndirir. Bütün bu cəhətlərə yaradıcı tərəfindən nə qədər obyektiv qiymət verilərsə, fəalliyyətdə bir o qədər müvəffəqiyyət qazanmaq olar.

Cansız əlaqələrdə bir qədər məhdudluq özünü büruzə verir. Sərgi zamanı ekspozisiyada eksponatın təsiri mövzu və məzmun etibarilə maraqlı olsa da, müəllif fəaliyyətinin tarixiliyi, təsir istiqamətləri və sair haqqında ətraflı məlumat verməyə təbii ki, qadir deyil. Eksponatla «dilsiz ünsiyyət»də olan tamaşaçı, əksər hallarda tam şəkildə «təsirlənə» bilmir. Yaradıcılıq əsərinin, yaxud tarixi mədəniyyət nümunəsinin hərtərəfli dərki bələdçi və ya tədqiqatçının köməyi ilə bir növ asanlaşır. Kütləvi tədbir zamanı isə (görüş, gecə və s.) həm yaradıcı, həm də onun əsəri (musiqi, təsviri sənət, teatr, hey-

kəltəraşlıq nümunəsi və s.) şüura təsir edir. Bu zaman sözlə işin, nəzəriyyə ilə təcrübənin vəhdətinin nümunəsi, nəticə sayılan əsər ürəklərə yol tapır, maraqları birə min artırır.

Beləliklə, aydınlaşdırdığımız problemlə əlaqədar, yəni muzey mühitində yaradıcı ilə tamaşaçı arasındakı ünsiyyət və əlaqələrdə müəyyən qanunauyğunluq vardır: yaradıcı ilə tamaşaçı arasındakı qarşılıqlı əlaqə prosesində imkan daxilində nə qədər maksimum təsir göstərilərsə, təsirlənən tamaşaçı bir o qədər mənən zənginləşər, onun sonrakı fəaliyyətində kəskin dönüş əmələ gələr, bu dönüş digər idrakların da zənginləşməsində zəminə çevrilə bilər. Bu qanunauyğunluğun qanun formasında ifadəsi aşağıdakı şəkildə verilə bilər: "Muzey mühitində yaradıcının tamaşaçıya təsiri qanunu".

### 3.2. Muzey fəaliyyətinin mahiyyəti üzrə qarşılıqlı əlaqələr və qanunauyğunluqlar

Hazırda muzeyşünaslığın nəzəri və təcrübi tərəflərinin elmi-tədqiqinin alim-tədqiqatçılarımız tərəfindən diqqət mərkəzində olması təbiidir. Muzey fəaliyyətində qarşılıqlı əlaqələr və qanunauyğunluqların aşkarlanması bir tərəfdən, nəzəri muzeyşünaslığı daha da zənginləşdirir. İkincisi, bunu muzeyşünaslığın müasir sürətli inkişaf tempi tələb edir.

Qarşılıqlı əlaqələrdə əsas sahələrdən biri də muzey fəaliyyətinin mahiyyəti üzrə qarşılıqlı əlaqələr və qanunauyğunluqlardır ki, bunlar da aşağıdakı şəkildə təsnif olunur:

1. Muzey işçisi, ekspozisiya və tamaşaçı fəaliyyətinin bir-birini şərtləndirməsi.
2. Muzey mühiti vasitəsilə dərketmənin ekspozisiya materiallarından asılılığı.
3. Zənginləşmənin muzey tədbirlərinin keyfiyyətindən asılılığı.
4. Muzey fəaliyyəti vasitəsilə elmi idrakla yaradıcı idrak arasındakı ziddiyyətlərin aradan qaldırılması.

Bu qarşılıqlı əlaqələr muzeyin elmi-nəzəri və təcrübi fəaliyyətinin daha məqsədyönlü xarakter almasına səbəb olmaqla bərabər, muzeylərin zənginləşdiricilik, inkişafetdiricilik, təhsilləndiricilik, tərbiyələndiricilik, maarifləndiricilik, formalaşdırıcılıq və sair xüsusiyyətlərinin daha da effektivliliyinə səbəb olur.

### 3.2.1. Muzey işçisi, ekspozisiya və tamaşaçı fəaliyyətinin biri-birini şərtləndirməsi

Fəaliyyətinin mahiyyətinə görə muzey işçisi geniş və yaxud məhdud məzmunlu problemlərin həllində mühüm amilə çevrilir. Direktorun, müavinlərin, şöbə, bölmə müdirlərinin, fond müdiri və işçilərinin, bərpa bölmələri işçilərinin, ekspozisiya və digər sahələrdə fəaliyyət göstərən peşəkarların gördükləri işin keyfiyyət dərəcəsi təbii ki, onların həm nəzəri, həm də ki, təcrübi bacarıq və qabiliyyətlərindən asılı olmaqla bir sıra imkanların açılmasına, aşkarlanmasına şərait yaradır. Mövcud muzey şəraitində elmi nəticəyə çatmaq üçün işçilər tərəfindən müəyyən zaman daxilində imkandan istifadə edilirsə, onda daha tez nəticə əldə edilir. Keyfiyyət göstəricisinə gəldikdə isə, qeyd etmək lazımdır ki, burada nisbilik baş verə bilər. Yəni keyfiyyətli fəaliyyət, əhatəli zaman çərçivəsində baş verə bilər və əksinə.

Həm də fəaliyyətin məzmunu müəyyən zamanda tənzimlənir. Məsələn, muzey əşyasının bərpasına keyfiyyətli nəticə üçün nisbətən çox vaxt sərf olunur. Eyni zamanda bərpanın tam əhatə olunması mərhələ-mərhələ həyata keçirilsə də, çox diqqətlə, peşəkarcasına aparılır. Səriştəsiz işçilərə isə bu proses şamil edilə bilməz. Çünki nə qədər vaxt verilsə də, səriştəsizlik, təcrübəsizlik hökmən mənfi təsirini göstərir.

Muzey işçisi yaradıcıdır. Muzeydə fəaliyyət göstərən fəhlə əşyanı, eksponatı məqsədyönlü şəkildə müəyyən edilmiş yerə (otağa, fonda və s.) çatdırmalıdır. Yəni o, gördüyü işin

mahiyyətini yaradıcı kimi bilməlidir. Növbəti işçi isə onu müvafiq şərait üçün uyğun yerdə yerləşdirməlidir. Bu mərhələdə yaradıcılıq daha qabarıq şəkildə özünü göstərir. Bərpaçılıqda da, bələdçilərin fəaliyyətində də, ekspozisiyanın bədii tərtibatında da, ümumiyyətlə fəaliyyətin bütün mərhələlərində yaradıcılıq vacib sayılır. Məhz buna görə də muzey işçisi müvafiq başlıca tələbləri yerinə yetirməlidir:

1) öz nəzəri biliklərini durmadan artırmalıdır;

2) təcrübi qabiliyyət və bacarıqlarını mütəmadi inkişaf etdirməli, yaradıcı vərdişlərə yiyələnməlidir;

3) öz yaradıcılığını mütəmadi olaraq inkişaf etdirməlidir;

4) muzeyin fəaliyyətinə yaradıcı yanaşmalıdır.

Belə yaradıcılığın bir istiqaməti də məhz sərgi fəaliyyətində ekspozisiyaya yönəldilir. Ekspozisiya muzeyin kompleks fəaliyyətinin nəticəsi sayılır. Ekspozisiya muzey kollektivi tərəfindən təşkil edildiyindən, kollektiv üzvlərinə xas olan ayrı-ayrı dünyagörüşlərin yaradıcılıqlarının nəticəsidir. Rəssam, dizaynçı, bədii memarlıq tərtibatçısı, işıqçı-rəssam, bələdçi və digərlərin kompleks yaradıcılığı məhz elmi-bədii gücə malik ekspozisiyanın tamaşaçı ixtiyarına verilməsi ilə nəticələnir.

Ekspozisiya müvafiq prinsiplərə əsaslanmaqla, müəyyən tarixi dövr yaradıcılığını əks etdirir. Mərhələli şəkildə yaradılan ekspozisiya, həm də müəyyən tarixi və yaxud yaradıcılıq mərhələlərini nümayiş etdirir. Ekspozisiyanın keyfiyyət göstəriciləri onu təşkil edənlərin - yəni muzey işçilərinin peşəkarlıq keyfiyyəti göstəriciliyindən asılıdır. Ekspozisiyanın təşkilində aşağıdakı başlıca tələblər nəzərdə tutulmalıdır:

1) ekspozisiyanın mövzusu zahiri mühitə, şəraitə, muzey mühitinə uyğun seçilməlidir;

2) ekspozisiyada məzmun dolğunluğuna nail olunmalıdır;

3) ekspozisiyanın təşkilində elmilik, planlılıq, ardıcıllığa

xüsusi diqqət verilməlidir;

4) bütünlüklə ekspozisiya fəaliyyətinə yaradıcı yanaşılmalıdır.

Bir tərəfdən kollektivsiz ekspozisiyanın təşkili və fəaliyyəti mümkün deyil, digər tərəfdən isə, ekspozisiya təşkil edənlərin, yaradanların təcəssümçüsü kimi mühüm xarakter kəsb edir. Yəni həm muzey işçisi, həm də ekspozisiya bir-biri üçün zəminə çevrilir, bir-birini şərtləndirirlər.

Məlumdur ki, tamaşaçı müxtəlif yaş qrupuna mənsub ola bilər. Hər yaş qrupuna mənsub tamaşaçının isə özünəməxsus dünyagörüşü, qavrama qabiliyyəti, bilik, bacarıq və vərdişlərə yiyələnməsi dərəcəsi mövcuddur. Bütün bu keyfiyyətlər, amillər nəzərə alınmaqla ekspozisiyanın təşkili xüsusi diqqət mərkəzində olmalıdır.

Məktəbli tamaşaçı fəaliyyəti aktiv və passiv olmaqla iki qrupa bölünür. Aktiv fəaliyyətli tamaşaçı adətən əsas təhsil illəri yaş dövrünə (təxminən 12-16 yaşa) aid olanlardır. Aktiv qrupa aid tamaşaçılar - əsasən yeniyetmə gənclər öz nəzəri biliklərinin təsdiqini təcrübi şəkildə muzey ekspozisiyalarında axtarırlar və bununla yeni nəzəri bilik üçün zəmin yaradırlar. Eyni zamanda onlarda müxtəlif sahələr üzrə maraqlar yaranmağa başlayır. Məhz bu maraqlar nəticəsində gələcək fəaliyyətin təməli qoyulur, peşəyönümü formalaşır, ayrı-ayrı peşələrə yaradıcı yanaşmanın yolları axtarılmağa başlanılır. Get-gedə belə maraqlar inkişaf etməyə, formalaşmağa başlayır. Artan maraqlar yenidən ekspozisiyaya baş çəkmək, əsərlərlə təkrar-təkrar, həm də dərindən tanış olmaq üçün zəmin yaradır. Getdikcə bu proses planlı xarakter alır və məqsədəuyğun fəaliyyətə çevrilir. Tədris prosesi ilə ekspozisiya arasında, məktəblə muzey arasında, ailə ilə muzey arasında sıx qarşılıqlı əlaqələr yaranmağa başlayır. Eyni zamanda bu cür əlaqələr ayrı-ayrı elmlərin mənimsənilməsi, qavranılmasına səbəb olur, həm də digər muzeylərə, tarixi mədəniyyət abidələrinə, qoruq muzeylərə, abidə komplekslərinə münasibəti formalaşdırır. Komp-

leksliliyin yaranması insan şüurunun hərtərəfli fəaliyyətdə inkişafı üçün zəmin yaradır. Milli mədəni dəyərlərə artan maraqlar, bəşəri dəyərlərə olan marağı formalaşdırır. Bütün bunların nəticəsində təcrübi bacarıq və qabiliyyətlərin, vərdişlərin aktiv şəkildə inkişafı istiqamətlənir. Nəhayət, tərəflərarası qarşılıqlı münasibətlər öz müsbət nəticəsini verir, yəni təcrübi olaraq yaradıcılıq nümunələri mərhələ-mərhələ yaranmağa başlayır, bu prosesdə yaradıcılığın təməli və sonrakı nəticələri tətbiq şəklində aşkarlanır.

Passiv tamaşaçı ekspozisiyada həm passiv qavrama prosesi keçirir, sadə maraqlarla kifayətlənir, həmin məqama qədərki nəzəri biliklərlə hazırda ekspozisiyada gördüklərini müqayisə etmir, bir növ laqeydlik göstərir, buna görə də maraqların yaranması prosesi getmir, muzeyə, ekspozisiyaya təkrar gəlişlər üçün zəmin yaranmır. Əlbəttə bu qrup insanlarda yaradıcılığa münasibət özünü demək olar ki, göstərmir yaxud cüzi olaraq maraqlar yaranır.

Beləliklə, yaradıcı kollektivsiz ekspozisiya, ekspozisiyasız tamaşaçı münasibəti mümkün deyildir. Fəaliyyətdə bu proses getdikcə qanunauyğun şəkil alır. Bu qanunauyğunluğun mahiyyətini belə səciyyələndirmək olar: fəaliyyət prosesində muzey işçisi, ekspozisiya və tamaşaçı münasibəti bir-birini şərtləndirir. Həmin qanunauyğunluğu qanun formasında aşağıdakı kimi ifadə etmək olar: "Muzey işçisi, ekspozisiya və tamaşaçı münasibətinin bir-birini şərtləndirməsi qanunu".

### 3.2.2. Muzey mühiti vasitəsilə dərketmənin ekspozisiya materiallarından asılılığı

Dərketmə prosesində əsas və aparıcı amillərdən biri də muzey ekspozisiyasıdır. Təbiidir ki, ekspozisiya müvafiq muzey mühitində yaradılır. Elmi-nəzəri cəhətdən ekspozisiyanın canlandırılması, tamaşaçıya çatdırılması üçün sözün əhəmiyyəti əsasdır. Söz, bu prosesdə ekspozisiyanın mahiyyəti

və məzmununun açılmasında mühüm amilə çevrilir. Bələdçi tərəfindən eksponat haqqında verilən məlumat və faktlar onun biliyi, dünyagörüşü, elmi hazırlığı olsa da, söz vasitəsilə həyata keçirilir. Təbii ki, ekspozisiyada verilmiş yazılı materialların elmi əsaslarda təyini, rəngarəngliyi, tarixə, bədii sənətkarlığı əks etdirən elmi dəlil və sübutlara istinadı da vacibdir. Ekspozisiyada tam və hərtərəfli məzmun mənbəyi isə eksponatdır. Bütün bunlar birlikdə, ekspozisiya materialları adlanır.

Muzey mühiti isə müvafiq əşya və materiallardan, həm də güclü elmi-yaradıcı potensialı olan kollektivdən, eyni zamanda kompleks fəaliyyəti həyata keçirmək üçün şəraitdən ibarətdir. Bu mühitin hərəkətverici, istiqamətverici qüvvəsi olan muzey kollektivi, fəaliyyəti canlandıran tamaşaçılar birbiri ilə qarşılıqlı əlaqədədir. Həmin iki tərəf arasındakı əlaqəni yaradan isə ekspozisiyadır. Muzey mühitinin təsir gücü müxtəlif yaş qrupuna uyğun olur. Bu prosesdə yaşamüvafiqlik diqqət mərkəzində olmalıdır.

Sərginin yaxud digər muzey tədbirinin mövzusuna əsasən materiallar müəyyən prinsiplik əsasında komplektləşir və bu da öz növbəsində dərketməni həm asanlaşdırır, həm də istiqamətləndirir. Elmilik əsasında qurulan ekspozisiya material-larının dərketməyə təsiri güclü olur. Məsələn, N.Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyində milli ədəbiyyatımızın tarixinə həsr olunmuş eksponatın məqsədəmüvafiq yerdə yerləşdirilməsi, lazımi işıq seli ilə təqdimi, bələdçi tərəfindən elmi-nəzəri məlumatın şərhi və digər bu kimi məsələlər qavramaya tez imkan yaradır. Ə.Xəqani, Nizami Gəncəvi, Məhəmməd Füzuli, M.P.Vaqif, Mirzə Şəfi Vazeh, İsmayıl bəy Qutqaşınlı, A.Bakıxanov, Qasım bəy Zakir, M.F.Axundov, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Səməd Vurğun, Abdulla Şaiq, Mirzə İbrahimov və digər ədiblərimizin olduqca zəngin, rəngarəng yaradıcılıqlarının elmi əsaslara istinadən nümayişi uşaqlarda, yeniyetmə gənclərdə və yaşlılarda müxtəlif maraqlar yaradır, eyni zamanda mühüm tərbiyəvi əhəmiyyət kəsb edir. Azər-

baycan ədəbiyyatı mühitinin inkişaf tarixində mühüm yer tutan Mirzə Fətəli Axundovun dərin biliyi, hərtərəfli dünyagörüşü, dövrün mürəkkəb sosial hadisələrinə qarşı obyektiv münasibəti XIX əsr müsəlman Şərqində parlaq bir ulduza bənzəyir. Onun həm həyat və yaradıcılığının, həm də ayrı-ayrı personajlarının dövrünün ab-havasını öz çılpaqlığı ilə əks etdirməsinə həsr edilmiş ekspozisiya nümunələri məqsədli mənimsəməyə imkan yaradır. M.F.Axundov ədəbi dünyagörüşünün yenilik, işıq, sevinc, nikbinlik, azadlıq, mövhumata qarşı mübarizlik carçısı olması elmilik əsasında verildiyindən, öz dövrü üçün həm sonrakı ədəbi mühit üçün, həm də tərbiyəvi təsir üçün amil olmuşdur.

Digər yaradıcı sənətkarlara həsr olunmuş ekspozisiya materiallarını da nümunə göstərmək olar. Eyni zamanda, elmi-tədqiqat mənbəyi sayılan muzeylərdə geniş elmi araşdırmalar və sistemləşdirmələrin aparılmasına imkan yaradılır.

Ekspozisiya materiallarının ideyalılıq əsasında qurulması konkretlilik üçün zəmin yaradır. Məsələn, R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində klassik sənətkarlıq nümunələrinə nəzər salsaq görərik ki, burada Bəhruz Kəngərli, Mirzə Qədim İrəvani, Mir Möhsün Nəvvab və Əzim Əzimzadənin müxtəlif janrlarda işlənmiş əsərləri bədii xüsusiyyətlərinə görə həmin sənətkarların çoxcəhətli yaradıcılığa, zəngin istedada, məhsuldar fəaliyyətə malik olduqlarını bir daha sübut edir.

İlk baxışdan tamaşaçı sanki mürəkkəbliklə qarşılaşır. Lakin muzey işçiləri tərəfindən materialların ideyalılıq prinsipi baxımından qruplaşdırılması sadədən mürəkkəbə istiqamət yaradır və nəticədə ümumi ideyanın əldə olunmasına zəmin yaradır. Müəyyən tarixi dövr yaradıcılığının vahid ideya əsasında qruplaşdırılması və sistem halında seyrçiyə təqdim edilməsi dərketməni asanlaşdırmaqla bərabər, həmin dövr haqqında geniş təsəvvür yaradır, ayrı-ayrı ideyalar ana xətt ətrafında birləşir, vahid ideyaya gətirib çıxarır.

Muzey fəaliyyətində əyanilik əsas prinsip olmaqla, dərketmədə də mühüm əhəmiyyət kəsb edir. Böyük çex pedaqoqu Yan Amos Komenski (1592-1670) özünün «Böyük didaktika» əsərində əyaniliyi yüksək qiymətləndirmişdir. O, gənclik üçün indiki və gələcək zamanda lazımi bilikləri zövqlə, əsaslı surətdə öyrətməyi, təlimin əyani, asan və müvəffəqiyyətlə, şüurlu və ardıcıl həyata keçirilməsini tələb etmiş, təlimdə əyaniliyi «qızıl qayda» adlandırmışdır (448, s.21).

Qeyd etmək lazımdır ki, əyanilik vasitəsilə eksponat əsasən iki cəhətdən öz təsirini göstərir:

1. Fakt və tarixi situasiyalar məhz ekspozisiyada nümayiş etdirilən eksponat vasitəsilə əyani şəkildə təsdiq olunur. Nəzəri biliyin həm də əyani şəkildə sübutu uzunmüddətli yadda qalma üçün zəminə çevrilir. Eksponatın digər köməkçi vasitələrlə daha da «canlandırılması» dərketməni bilavasitə gücləndirir, əldə edilmiş biliyi daha da genişləndirir. Beləliklə, fakt mənbəyi-eksponat olmadan onunla bağlı olan məlumat və şərhin verilməsi təsirsiz sayılar. Digər tərəfdən isə, eksponat haqqında verilən məlumat və şərhin geniş və yaxud məhdud şəkildə, dar mənada, keyfiyyətli və ya nisbətən keyfiyyətli verilməsinin də dərketməyə təsiri böyükdür. Bu, ən çox kiçik yaş qrupuna mənsub tamaşaçıda əsasən öz təsirini tez büruzə verir.

2. Əyani şəkildə nümayiş zamanı tamaşaçı müəyyən tarixi dövrlə «görüşür», həmin dövrün hadisələri istər-istəməz onun şüurunda canlanır, keçmişlə müasir dövr arasında müqayisə prosesi gedir. Təbiidir ki, son doğru, dürüst nəticə, sübut «bu gün» eksponat qarşısında özünü göstərir. Bu zaman həm də tamaşaçıda mənəvi-estetik hisslər oyanır, dərin bədii zövq formalaşmağa başlayır. Məsələn, R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində Mirzə Qədim

İrəvaninin əsərlərində kişi və qadın obrazları canlı və real verilməklə, psixoloji ifadəliliyi ilə diqqəti cəlb edir. O, özünün «Naməlum qadın» əsərində yaratdığı qadının psixoloji duruşu, hərəkəti, geyimi, libası, ornament bəzəkləri ilə tarixi keçmisi-

mizə müvafiq münasibət yaradır, tamaşaçının bədii fəaliyyətini formalaşdırır, qüvvətləndirir. Azərbaycan Tarixi Muzeyi, N.Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyi, C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi, Azərbaycan Dövlət Musiqi Mədəniyyəti Muzeyi və digər muzeylərdə nümayiş etdirilən nümunələr əyanilik baxımından güclü təsir qüvvəsinə malikdirlər. Azərbaycan dekorativ-tətbiqi sənətkarlığının inkişafını əks etdirən L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyində müxtəlif tarixi dövr yaradıcılığı, kənd təsərrüfatı, sənaye, ictimai-siyasi vəziyyət ayrı-ayrı bölgə və şəhərlərə məxsus xalçaların, nümunələrin timsalında əyani təzahür edir. Tamaşaçı xalça önündə yaradıcılıq nəticəsi ilə birbaşa üzbəüz təmasda olur, istənilən məsafədən (toxunmamaq şərtilə) onu seyr etmək imkanı əldə edir. Digər tərəfdən, belə prosesdə həmin xalçanın digərləri ilə muzey işçisi tərəfindən və yaxud nümunənin məxsus olduğu dövr və məkanın digər dövr və məkanlarla müqayisəsinə imkan yaranır. Eyni zamanda tamaşaçının müşahidəçilik qabiliyyəti inkişaf edir, müqayisə etmək bacarığı daha da təkmilləşir. Beləliklə, əyanilik və elmilik biri-birini şərtləndirir.
Dərketmə prosesində əyaniliyin növ müxtəlifliyi - təbii əyanilik (eksponat, nümunə, əşya), şəkil əyaniliyi (rəsm, portret, rənggörmə nümunəsi), söz əyaniliyi (bələdçi vasitəsilə yaranan təəssürat), hərəkət əyaniliyi (texniki vəsaitlə yaranır) nəzərə alınmalıdır.

Dərketmənin keyfiyyətliliyində digər prinsiplərlə yanaşı ardıcıllıq prinsipinə əməl edilməsinin əhəmiyyəti böyükdür. Ayrı-ayrı sənətkarlıq nümunələrinin ardıcıllıqla nümayişi, dövr ardıcıllığı, incəsənət növlərinin ardıcıllığı əhəmiyyət kəsb edir. Bir dövrün özündən əvvəlki dövr yaradıcılığına söykənməsi, rəssamlığın memarlığa, memarlığın heykəltaraşlığa, ədəbiyyata, ədəbiyyatın teatra, musiqiyə nüfuzu və sair kimi qarşılıqlı əlaqə və təsirlər ardıcıl istiqamətə malik olmaqla, biri digərinin yaranması, inkişafı üçün zəminə çevrilir. Məsələn, C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində 1873-cü ildən bu günə qədərki milli teatr salnaməsi tamaşaçını heyrətə gətirir.

Burada ardıcıllıq əsas prinsiplərdən olmaqla, həm də bu ardıcıllığın daxilində ədəbiyyatın, teatrın, rejissorluğun, aktyorluğun, dramaturgiyanın, rəssamlığın, musiqinin və digər sənət növlərinin dərin qarşılıqlı əlaqəsi, sintezi özünü qabarıq şəkildə göstərir. Bütün bunların zəminində səmərəli dərketmə baş verir.

Dərketmədə fərdi yanaşma, bədii layihələşdirmə, fəaliyyətin həyatla əlaqələndirilməsi, sistemlilik və sair prinsiplərin də əhəmiyyəti vardır.

Beləliklə, dərketmə üçün mənbə hesab edilən ekspozisiya, sonuncu üçün isə mənbə muzey mühitidir. Əsas bu üç mənbə arasında yaranan sıx qarşılıqlı əlaqə tamaşaçının cəlb olunması ilə nəticələnir. Bu üç mənbədən ən əsası və çox əhəmiyyətlisi yaradıcılıq nümunələrindən cəmləndirilmiş və müvafiq prinsiplər əsasında təsir gücünə malik ekspozisiyadır. Ekspozisiyanın canı, gücü isə onun eksponatları, materiallarının yüksək elmiliklə tamaşaçıya təqdim edilməsindədir. Beləliklə, dərketmənin gücü ekspozisiya materiallarının gücü ilə sıx əlaqədardır. Bu problemlə bağlı, yəni müvafiq qarşılıqlı əlaqəliliyi belə səciyyələndirmək məqsədyönlüdür: muzey mühiti vasitəsilə dərketmə prosesinin keyfiyyət göstəricisi ekpozisiya materiallarının təsirliliyindən, təqdimindən asılıdır. Bu, qanunauyğunluğun mahiyyəti aşağıdakı kimidir: muzey mühiti vasitəsilə Dərketmə ekspozisiya materiallarından asılıdır. Bu "Dərketmənin ekspozisiya materiallarından asılılığı qanunu" adlanır.

### 3.2.3. Zənginləşmənin muzey tədbirlərinin keyfiyyətindən asılılığı

Muzey fəaliyyətində mahiyyət baxımından zənginləşmə prosesi özünəməxsus mürəkkəbliyə malik olmaqla, əsas hərəkətverici priyomlar kompleksindən ibarətdir. Fəaliyyət mexanizmində məqsədin zənginləşmə istiqamətinə yönəldilməsi bilavasitə ekspozisiya materialları, şərait və aparıcı, əsas amil

sayılan muzey işçiləri vasitəsilə həyata keçirilir. Təbiidir ki, bu proses mərhələlik şəraitində olur. Zənginləşmənin mənbələrindən biri də muzey tədbiridir. Sərgi və yaxud digər muzey tədbirləri özünəməxsus müvafiq xüsusiyyət çərçivəsində zənginləşməni həyata keçirir. Tədbirlər kompleksinə nəzər salsaq, muzeydaxili və muzeydənkənar tədbirlərin mövcudluğu məlumdur. Bu tədbirlər muzeyin profilinə uyğun olaraq sistemli şəkildə yerinə yetirilməklə planlı şəkildə vəzifələr üçün vasitələrə çevrilməlidir

Lakin yaddan çıxarmaq olmaz ki, zənginləşmə prosesində muzey fəaliyyətinin səmərəliliyini iki (nəzəri və təcrübi) istiqamətdə müəyyənləşdirməyi məqsədəmüvafiq saymaq lazımdır:

Birincisi, muzey fəaliyyəti prosesində nəzəri cəhətdən zənginləşmənin özünəməxsus yeri mövcuddur. Nəzəri zənginləşmənin son nəticəsi sayılan biliklərin əldə olunması sonrakı bacarıq və vərdişlərin formalaşmasında mənbəyə çevrilir. Eyni zamanda fəaliyyət prosesində nəzəri formalaşma sonrakı təcrübi zənginləşmənin başlanğıcı, idraki prosesdə hərəkətverici fəaliyyəti hesab olunur.

İkincisi, muzey fəaliyyətində təcrübi zənginləşmə üçün tədbirlərin bədii-estetik təsiri mühüm əhəmiyyətə malikdir.

Beləliklə, həm nəzəri, həm də təcrübi təsirlər istər muzeydaxili, istərsə də muzeydənkənar tədbirlər prosesində özünü göstərir. Lakin həm birinci, həm də ikinci fəaliyyət prosesində keyfiyyət göstəricisi mühüm əhəmiyyətə malikdir. Müasir muzey fəaliyyətinin təsirlilik dərəcəsi əsas etibarilə onun keyfiyyət göstəricilərindən asılıdır. Müxtəlif mövzulara həsr edilmiş sərgi və ekspozisiyalarda istər nəzəri, istərsə də təcrübi istiqamətlərdə edilən təsir prosesində eksponatın keyfiyyətli təqdimi, ekspozisiyada hər bir detalın, məlumatın səmərəli çatdırılması, bədii tərtibat işinin maraqlara uyğun şəkildə təşkili, texniki vəsaitdən məqsədyönlü və keyfiyyətlə istifadə, ətraf mühitin maraq dairəsinin nəzərə alınması və

digər amillər həmişə diqqət mərkəzində olmalıdır. Bütün hallarda ölkədəki tarixi-iqtisadi və siyasi durum, hadisələrin gedişi də tədbirin mövzusunun seçimində mühüm amil rolunu oynamalıdır. Lakin hər hansı halda milli mənafe, mövqe baxımından çıxış etmək lazımdır. Yeri gəldikcə tarixi köklərə, dəyərlərə müraciət olunmalıdır. Çünki, əsl incəsənəti müxtəlif tarixi dövrlərdə xalq yaradır. İncəsənət bədii yaradıcılığın nəticəsidir ki, onun tarixi də çox qədimdir. Təsadüfi deyildir ki, ibtidai incəsənətin ilk nümunələri eramızdan 40-20 min il əvvəllərlə sıx bağlıdır. İllər, qərinələr, əsrlər bir-birini əvəz etdikcə müxtəlif növ incəsənət nümunələri daha mükəmməl məzmun, forma kəsb etmiş, zaman keçdikcə bədii-özfəaliyyət, bədii yaradıcılıq əməyin özünəməxsus sahəsinə, sənət sahəsinə çevrilmişdir. Xalq içərisindən çıxan sənətkarlar hər şeydən əvvəl xalqın zövq və tələbatını müxtəlif növlü ədəbiyyat və incəsənət əsərlərində əks etdirməyə müvəffəq olmuşlar.

Yaradıcı sənətkarlarla təşkil edilən görüşlərdə də keyfiyyət göstəricisi əsas tutulmaqla sənətkarlıq nümunələrinə həm nəzəri, həm də təcrübi şəkildə istinadlar edilməklə, tamaşaçıda müxtəlif maraqlar yaradılır, zövqlər oyanılır, bilik, bacarıq, vərdişlər üçün zəmin öz təsirini göstərir. Əlbəttə, görüşün keyfiyyətsiz təşkili, tarixi dövrün nəzərə alınmaması, marağa uyğun mövzunun seçilməməsi, sənətkarın yaratdığı nümunələrin keyfiyyətsiz seçimi, bərpası və təqdimi, keyfiyyətsiz nəzəri və təcrübi təsirlər və sair zənginləşmənin inkişafına zəmin yarada bilməz.

Muzeylərdə müxtəlif mövzularda mühazirə və söhbətlərdə keyfiyyətli şəkildə, elmi mənbələrə istinadən verilən nəzəri məlumatların mənimsənilməsi prosesində müxtəlif yaş qrupuna məxsus tamaşaçılar incəsənət aləmini zinətləndirən ayrı-ayrı sənətkarların yaradıcılıq üslubu, bədii obrazlar qalereyası ilə yaxından tanış olurlar. Zənginləşmə prosesində tamaşaçı belə bir cəhəti şüurlu olaraq dərk edir ki, hər bir sənətkar fərdi bədii obrazlar vasitəsilə müxtəlif məzmunlu həyat hadisə-

lərini, insanların əmək, həyat şəraitini, cəmiyyətə, bir-birinə münasibətlərini, arzu və amallarını, hiss və həyəcanlarını, xarakterini, bütövlükdə isə dövrü tərənnüm edir. Heç şübhəsiz, bədii yaradıcılığın müxtəlif sahələri üzrə fəaliyyət göstərən sənətkarlar tarixi dövrü əsas götürməklə, həmin sahənin spesifik təsir və ifadə vasitələrini əsas götürürlər.

Viktorinalar və disputların muzey mühitində, eksponat qarşısında, tarixi dövrün nümunəsi önündə həyata keçirilməsi isə keyfiyyət amilini daha da artırır və bu səpgili tədbirlər əsas etibarilə məktəblidə, tələbədə, aspirantda bilik, bacarıq və vərdişlərinin artması, eyni zamanda inkişafında amilə çevrilir. Seçilən suallar və mövzuya müvafiq cavablar mühitə münasibətdə muzey işçisindən daha diqqətli olmağı tələb edir. Münasib zaman çərçivəsində tədbirin məzmununun daha zəngin olması tələb olunur. Cavab və məlumatların, şərhlərin, elmi fakt və maraqlı materialların tamaşaçıya hərtərəfli verilməsi muzey işçisindən yüksək bilik, bacarıq, səriştəlilik tələb edir. Məsələn, məktəblilər belə muzey işçiləri sayəsində sərgi salonlarında incəsənətin müxtəlif növləri üzrə çox böyük rol oynayan ifadə vasitələri haqqında da lazımi təsəvvürə yiyələnirlər. Zənginləşmə prosesinin keyfiyyətli davamında onlar öyrənirlər ki, müxtəlif həyat həqiqətlərini, insanların həyat və fəaliyyət tərzini, xüsusiyyətlərini təcəssüm etdirməkdə təsviri incəsənətdə rənglər, boyalar, daşların ahəngi, naxış və bəzəklər, musiqidə səslər və ritmlər, dinamik çalarlar, səslənmə tərzləri, bədii ədəbiyyatda sözlər, insanları həyəcanlandıran poetik ifadələr, deyimlər və sair əsas rol oynayır. Belə keyfiyyətli zənginləşmə nəticəsində məktəbli və yaxud tələbədə incəsənətə münasibətin bu və ya digər cəhətləri formalaşır. Bu da onların nəzəri məlumatlarını genişləndirir, onları bütövlükdə zəngin incəsənət aləminə, mədəni dəyərlərin dərkinə yaxınlaşdırır.

Zənginləşmə prosesində məktəbli, yaxud tələbənin elmi-mədəni dünyagörüşü artır, ayrı-ayrı bədii - silsilə fənlərinə, elmlərə dərin maraq yaranır, uzunmüddətli yadda saxlamaya

nail olunur, digər tərəfdən isə gələcək peşəyönümü istiqamətində inkişaf, formalaşma, ixtisası təyinetmə baş verir. Eyni zamanda həm milli-mədəni-mənəvi dəyərlərin dərindən və hərtərəfli dərki baş verir, Vətənə dərin məhəbbət hissi formalaşır, həm də milli mədəniyyətlərin bəşəri mədəniyyətlə müqayisəsi prosesi baş verir ki, bu da idraki proseslərin daha da inkişafı, formalaşmasına gətirib çıxarır.

Keyfiyyətli zənginləşmədə təsviri incəsənətin bədii-yaradıcı əhəmiyyəti mühümdür. İlk baxışdan belə bir təsəvvür yaranır ki, təsviri incəsənət yalnız zahiri oxşarlığı tərənnüm edir. Eyni zamanda təsviri incəsənət təsvir olunan obyekt, nümunə, əşya, hadisə və fəaliyyətin mənasını, onun təkrarolunmaz xüsusiyyətlərini və fərdiliyini, insanın xarakter və daxili mahiyyətini, təbiətin təkrarolunmaz gözəlliyini, həyatın mahiyyət və məzmununu rənglərlə açıb göstərir.

Təsviri incəsənət eyni zamanda görmə-sahə incəsənəti də adlanır, çünki təsviri incəsənət hər bir hadisəni uyğun səth üzərində və müvafiq müstəvidə əks etdirir ki, onun da əsasında əyanilik və hissedilmə qabiliyyəti durur. Lakin əgər rəngkarlıq, heykəltəraşlıq, qrafika həyatı əks və təcəssüm etdirirsə, təsvir olunanın görkəmini və simasını saxlayırsa, dekorativ-tətbiqi incəsənətin növlərinin əksəriyyəti isə varlığı bilavasitə əks etdirmir və onu təsvir etmir. Bunlar maddi mühiti yaradır ki, bu mühitdə insanlar yaşayır və işləyirlər, insanların praktik təcrübi ehtiyaclarını və tələblərini ödəyir, faydalılığı gözəlliklə, bacarıqla birləşdirir.

Azərbaycan muzeylərində təsviri incəsənətin elmi-bədii mahiyyəti haqqında verilən keyfiyyətli, səmərəli məlumatlar əyaniliklə, real mühitlə əlaqələndirildikdə, zənginləşmədə maraq, heyrət, təəccüb, fəal emosional qavrama özünü göstərir.

Məqsədli zənginləşmənin keyfiyyətli fəaliyyətə söykənməsində teatr incəsənətinin də əhəmiyyəti mühümdür. Tamaşa pyesdən başlanır. Pyes müəllifin, dramaturqun duyğu və düşüncələrini, təsvir etdiyi hadisələri hərəkətdə, dinamikada gös-

tərir. Məzmuna, dinamikaya uyğun səhnədə qurulan dekorlar, quruluş, bədii tərtibat işləri, musiqi müşayiəti, geyim, forma və sair tamaşanın qavrama təsirini, bədii gücünü qat-qat artırır. Bu hal Musiqi Mədəniyyəti, C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində daha çox müşahidə edilmişdir. Lakin muzeylərdə cəmləşdirilən ayrı-ayrı teatrların müxtəlif tarixi dövr yaşantıları müvafiq muzey mühiti vasitəsilə zənginləşməyə xidmət edir ki, bu da müxtəlif mövzulu sərgi və tədbirlərin zəminində baş verir.

Beləliklə, muzey mühitindən elmi-bədii istifadə vasitəsilə tədbirlərin gücü ilə zənginləşmə prosesi gedir. Burada keyfiyyət göstəricisi əsas sayılır. Yəni, elmi-yaradıcı muzey mühiti, mühitin həyata keçirdiyi tədbirlər, bu tədbirlərin keyfiyyəti nəticəsində idraki proseslər, nəticəsində zənginləşmə kimi mürəkkəb qarşılıqlı əlaqələr kompleksi yaranır və inkişaf edir. Bu inkişafda idraki proseslər fəaliyyət mexanizminin mənbəyi sayılır. Belə qarşılıqlı əlaqəliliyin qanunauyğunluğa çevrilməsində elmi idrak, yaradıcı idrakla qarşılıqlı şəkildə təsirlərdə iştirak edir. Muzey mühitinin kompleksliyindəki keyfiyyətlilik tədbirin (sərgi və yaxud digər tədbirlərin) keyfiyyətliliyinə, bu isə idraki prosesin, zənginləşmənin keyfiyyətli şəkildə davamına, əldə olunan nəticə isə digər mühitlərə müsbət təsirlə nəticələnəcək, özünü göstərəcəkdir. Əldə olunan müsbət nəticə, əvvəlki fəaliyyətin keyfiyyətli mərhələliyinin məqsədyönlü və yüksək pilləsi kimi özünü göstərməlidir. Beləliklə, yuxarıdakı amillər arasındakı qarşılıqlı əlaqələrdən müvafiq qanunauyğunluq yaranır. Tədbirlərin gedişində müvafiq təsirlər öz işini görür, zənginləşmə yaranır, lakin sonuncunun yüksək şəkildə olması, keyfiyyətliliklə ölçülür. Alınan qanunauyğunluğu belə şərh etmək olar: müvafiq muzey mühiti vasitəsilə həyata keçirilən tədbirlərdə keyfiyyətlilik dərəcəsi nə qədər yüksək olarsa, zənginləşmənin keyfiyyəti də buna müvafiq olaraq artar. Nəzəri muzeyşünaslıqdakı bu qanunauyğunluq muzey fəaliyyətinə (sərgilər və digər bütün tədbirlər daxil edilməklə) şamil

edilir. Hətta muzey daxilində fəaliyyət göstərən muzey klubları, dərnəkləri, muzey dərsləri, olimpia-daları və sair keyfiyyət dərəcəsi ilə ölçülür. Bu qanunauyğunluğu nəzəri muzeyşünaslığın qanunu formasında – "Zənginləşmənin muzey tədbirlərinin keyfiyyətindən asılılığı qanunu" kimi ifadə etmək olar.

### 3.2.4. Muzey fəaliyyəti vasitəsilə elmi idrakla yaradıcı idrak arasındakı ziddiyyətlərin aradan qaldırılması

Məlum olduğu kimi, muzey fəaliyyətində ziddiyyətlilik idraki proseslərin əlaqəli təsiri, ekspozisiyanın bədii memarlıq həllinin yaradıcı təşkili və sair qarşılıqlı əlaqəlilik kompleksliliyi təşkil edir. Bu proseslərin inkişaf xarakteri alması üçün isə ziddiyyətlilik mühüm amil hesab edilir. Ziddiyyətlər zahiri və daxili olmaqla iki yerə bölünür. Hazırda muzeylərin qarşısında duran məqsəd və vəzifələr, onların imkan və şəraitləri arasındakı uyğunsuzluqlar, bədii və sosioloji inkişaf arasındakı təzadlar, ətraf mühitdəki yaradıcılıq münasibətləri ilə muzeyin iş prinsipləri arasındakı fərqli münasibətlər, müəssisə-muzey, tamaşaçı-muzey münasibətləri və sair zahiri ziddiyyətlərə aiddir. Yəni muzeyi əhatə edən ətraf mühit, daha doğrusu mühitdə baş verən inkişaf muzeyə təsir edir. Bu təsiri tədqiq etmək, baş verən hadisələri öyrənmək vacib sayılır, çünki lazım gəldikdə tətbiqin yerinə yetirilməsi məqsədyönlüdür. Beləliklə, muzey işinə təsir edən zahiri ziddiyyətin mahiyyətini aşkar edən tərifi belə ifadə etmək olar: Muzey fəaliyyətinə mühit amilləri vasitəsilə nüfuz edən və bu prosesdə həlli mümkün olan uyğunsuzluqlara zahiri ziddiyyətlər deyilir. Muzey fəaliyyətinin təsiri ilə həm daxildə əmələ gələn münasibətlər, həm də bu prosesdə iştirak edən şəxsiyyət psixologiyasında yaranan və həlli mümkün olan uyğunsuzluqlar daxili ziddiyyətlərdir. Həm zahiri, həm də daxili ziddiyyətlər muzey fəaliyyətinin mənbəyi rolunu oynayır.

Qeyd etmək lazımdır ki, ziddiyyətliliyin mərkəzində du-

ran duyğular, qavrama, hafizə, təfəkkür, təxəyyülün müvafiq özünəməxsusluğu həm elmi idrakın məhsulunun hazırlanmasında, həm də yaradıcı idrakın məhsulunun hazırlanmasında öz təsirini göstərir. İnsanın bu idraki prosesləri arasında olan sıx qarşılıqlı əlaqə komplekslilik, daha doğrusu tamlıq təşkil edir. Həm də biri digərini şərtləndirir.

Elmi idrakın məhsulunun yaranmasında da müəyyən ziddiyyətlilik mərhələliklə özünü büruzə verir. Ümumiyyətlə, fəaliyyətdə ziddiyyətlilik nə qədər tez aşkarlanarsa, aradan qaldırılarsa, inkişaf da buna müvafiq olaraq yaranır və müəyyən mərhələlik ilə inkişaf edir. Son nəticədə yeni elmi idrak məhsulunun yaranmasında amilə çevrilən yaradıcı idrak məhsulunun təşəkkülündə bilavasitə muzeyin daxili elmi-bədii-yaradıcı gücü - həm eksponat fondu, ekspozisiyanın elmi təşkilinin zənginliyi, həm də hərəkətverici qüvvə sayılan muzey işçilərindən ibarət elmi-yaradıcı potensial qarşılıqlı əlaqəli fəaliyyətdədir. Məhz elmi idrakın məhsulu belə olan şəraitdə əsas etibarilə eksponat fondundan asılı olur. Eksponatı çox və zəngin olan muzeylərin tədqiqat dairəsi təbii ki, geniş olmalıdır, bu bir qanunauyğunluqdur. Digər tərəfdən isə, muzeyin daxili elmi-yaradıcı potensialının gücü ilə muzeydənkənar mənbələrdən istifadə etməklə elmi nəticələr əldə edilər. Bu halda həmin elmi-yaradıcı potensial muzeydənkənar öz təsirini göstərən mühitlə üzləşir və ziddiyyətlilik yaranır:

Birincisi, muzeyin elmi-yaradıcı potensialı muzeydənkənar fəaliyyət (tədqiqat) prosesində ayrıca (fərdi) araşdırma apara bilər və bu zaman həmin potensiala uyğun iş səviyyəsi əvvəlcədən planlaşdırılır və son nəticəyədək davam edir. İkinci halda isə, muzeyin mövcud elmi-yaradıcı potensialı muzeydənkənar tədqiqat prosesində digər tədqiqat qrupu ilə əlbir fəaliyyətdə ola bilər və bu zaman ümumi fəaliyyət sisteminə istinad edilə bilər. Hər iki halın özünəməxsus ziddiyyətliliyi yaranır. Belə ki, birinci halda bu ziddiyyətlilik tez aradan qalxır, ikinci halda isə ziddiyyətlər daha geniş xarakter ala bilər

və mürəkkəblik yarana bilər. Lakin bu zaman daha əhatəli, geniş tədqiqatların həyata keçirilməsi məqsədyönlü olardı. Yaddan çıxarmaq olmaz ki, bu zaman idraki proseslərdə müxtəliflik, fərqlilik özünü büruzə verir və fikirlərdəki ziddiyyətlilik konkretliyə mane olur, zaman baxımından mücərrədlik yaranır.

Yaradıcı idrakda maraqlar dairəsi geniş olduğundan müvafiq mühitdə nəticənin əldə edilməsi daha çox özünü fərdilikdə göstərir. Burada həm mənəvi, həm də maddi maraqlar nəzərdə tutulur. Yaradıcı idrakın yaranan məhsulu, digər idraki proseslərə təsirini göstərir, ya ətrafdakı idraki prosesləri sürətləndirir, ya da ləngidir, yəni idraki proseslərdə düşünmə, öyrənmə, mənimsəmə, qavrama, duyma və sair gecikməyə başlayır, çünki, özündən əvvəl yaranan yaradıcılıq məhsulunun təsiri özünü göstərir. Yaranan yaradıcılıq nəticəsi muzeyin daxili fəaliyyətində dəyişiklik yaratmağa xidmət edir. Özündən əvvəlki mühitdə dəyişiklik yaradır, mühiti zənginləşdirir və idraki proseslərdə də dəyişkənlik yaradır. Muzey daxilində baş verən bu dəyişkənlik, yəni inkişaf, muzeyi əhatə edən mühitə öz təsirini göstərməyə başlayır. Belə desək, ətraf mühitdə ziddiyyətliliyə səbəb olan proseslər yaradır. Çox maraqlıdır ki, daxili yaradıcılıq idrakının zahirə belə şəkildə təsiri bilavasitə yaradıcılığın təşəkkülünə, inkişafına sonra isə yaradıcılığın nəticəsinə gətirib çıxarır. Beləliklə, muzeydən kənara, muzey tərəfindən əhatə olunduğu şəraitə ətraf mühitə "təsir" yayıldığı zaman ziddiyyətlər törənir, yaradıcı ziddiyyətlər getdikcə genişlənir. Belə yayılma sayəsində təbii ki, tamaşaçının, yaradıcı potensialın aktivliyi, yaxud passivliyi dərəcəsinə müvafiq olaraq, ziddiyyətlilik tez və ya gec inkişaf edə bilər. Qeyd etmək lazımdır ki, bu proses sanki "qayıtma" zamanı əks-təsir mərhələsini keçirir. Yəni, muzeyin daxili potensialı, elmi-yaradıcı gücü vasitəsilə ətraf mühitdə yaradılan idraki zidiyyətlilik və bunun nəticəsində əldə edilən inkişaf, müəyyən mərhələdən sonra tərəqqi dövrünü keçirməklə bərabər, muzeyin daxili

mühitinə müsbət təsir göstərməyə başlayır. Muzey daxilindəki idraki proseslərdə ətraf mühitdəki inkişafa uyğun idraki dəyişiklik əmələ gəlməyə başlayır. Beləliklə də muzey öz elmi-yaradıcı potensialı ilə birlikdə əhatə olunduğu mühitin idraki "tələbləri"nə uyğunlaşmağa "məcbur" olur. Yəni, ətraf mühitdəki inkişaf etmiş idraki səviyyə ilə, muzeydaxili idraki səviyyə arasında ziddiyyətlilik öz dövrünü keçirməyə başlayır. Müəyyən bərabərləşmə yarandıqda, ziddiyyətlilik yox olma dərəcəsinə çatır. Beləliklə, təsir, əks təsirə məruz qalır və idraki inkişaf prosesi mərhələliklə baş verir. Təbiidir ki, belə proseslər bütün tarixi dövrlərdə mövcud olmuş və müvafiq olaraq qanunauyğun şəkil almaqla inkişafa səbəb olmuşdur. Lakin bu idraki qanunauyğunluq ayrı-ayrı dövrlərdə baş verən ictimai-iqtisadi, siyasi dəyişikliklərdən bir növ "asılı" vəziyyətə düşmüşdür. Bəzi hallarda isə idraki tərəqqi baş verən ümumi ictimai-iqtisadi, siyasi vəziyyətin mərhələlərlə dəyişməsinə təsir etmişdir. Beləliklə, daxili mühitlə ətraf mühit arasındakı qarşılıqlı əlaqələrdən müvafiq qanunauyğunluqlar yaranır. Daxili elmi idrakla yaradıcı idrak arasında yaranan qarşılıqlı əlaqələrin törətdiyi ziddiyyətlilik, ətraf mühitdəki elmi və yaradıcı idrak arasında yaranan qarşılıqlı əlaqələrin törətdiyi ziddiyyətliliklə üzləşir. Burada ümumi ziddiyyətlilik qanunauyğunluğu bu və ya digər tərəfə öz təsirini göstərir. Nəticədə ümumi ziddiyyətlilik ümumi inkişaf üçün mənbəyə çevrilir. Beləliklə, muzey fəaliyyəti vasitəsilə elmi idrakla yaradıcı idrak arasındakı ziddiyyətlər nə qədər tez aşkarlanıb aradan qaldırılarsa, bir o qədər tez inkişaf baş verər. Bu qanunauyğunluq muzeyşünaslıqda "Muzey fəaliyyəti vasitəsilə elmi idrakla yaradıcı idrak arasındakı ziddiyyətlərin aradan qaldırılması qanunu" kimi ifadə olunur.

## 3.3. Muzey fəaliyyətinin məqsədi üzrə qarşılıqlı əlaqələr və qanunauyğunluqlar

Hazırda muzey fəaliyyətinin nəzəri əsaslarının tədqiqi və tətbiqə hazırlanması aktuallıq kəsb etməklə yanaşı muzeyşünaslığın inkişafında mühüm mərhələdir. Muzeyşünaslıqda sistem halını almaqda olan qarşılıqlı əlaqələr sırasında muzey fəaliyyətinin məqsədi üzrə əlaqələr mühüm əhəmiyyət kəsb edir. Muzey fəaliyyətinin məqsədi üzrə üç qarşılıqlı əlaqə-«Qarşıya qoyulan məqsədin həyata keçirilməsində muzeydaxili əlaqə və asılılıqların nizamlanması», «Əlaqələrdə vahid məqsədə xidmət edilməsi» və «Qarşılıqlı əlaqələrdə müvafiq nəzarətin vacibliyi» arasında sıx vəhdət mövcuddur.

### 3.3.1. Qarşıya qoyulan məqsədin həyata keçirilməsində muzeydaxili əlaqə və asılılıqların nizamlanması

Məlum olduğu kimi məqsədli muzey fəaliyyəti prosesində hər bir ünsürün özünə müvafiq fəaliyyət dairəsi olduğundan, buna müvafiq qarşılıqlı əlaqə və asılılıqların təzahürü təbiidir. Bu əlaqə və asılılıqlar da öz növbəsində kortəbii surətdə, nizamsız baş verə bilməz. Nizamlılığın yaranması bilavasitə muzey mühiti, şərait, yaxud muzeyi əhatə edən muzeydənxaric mühit vasitəsilə yerinə yetirilir. Bir məqamı yaddan çıxarmaq olmaz: muzeydaxili, yaxud muzeydənkənar mühitin elmi-idraki fəaliyyəti nə qədər aktiv olarsa, nizamlılıq həm bir o qədər tez, eyni zamanda keyfiyyətlə baş verəcəkdir. Əksinə, mühit və şəraitlərdəki passivlik nizamlılıqda öz mənfi təsirini göstərəcəkdir.

Muzey fəaliyyətinin məqsədyönlü davamı və səmərəli nəticələr verməsi üçün mühitdəki fəaliyyət ünsürləri arasındakı qarşılıqlı əlaqə və asılılıqların öyrənilməsi tədqiqi əhəmiyyət kəsb edir. Müvafiq qanunauyğunluqlar məhz muzey fəaliyyə-

tinin ünsürləri arasındakı belə qarşılıqlı əlaqə və asılılıqlarda təzahür edir. Bu fikirdən göründüyü kimi, əvvəlcə əlaqə və asılılıqların öyrənilməsi, tədqiqi, onları törədən amillərin, səbəblərin üzə çıxarılması, muzeyin inkişafına göstərəcəyi məqsədyönlü təkanvericiliyin öyrənilməsi əhəmiyyətə malikdir. Məhz belə tədqiqatların nəticələrinə görə digər fəaliyyət növləri ilə bərabər, nizamlama prosesini də məqsədyönlü şəkildə həyata keçirmək mümkündür.

Bu məqsədlə aparılan araşdırmalar əvvəlcə muzeydaxili mühit və şəraitdə hərtərəfli elmi-yaradıcı şəkildə aparılmalı, sonra isə muzeydənkənar mühitdə tədqiq edilməlidir. Doğrudur, muzeydənkənar mühitdə baş verən fəaliyyət prosesinin də problem baxımından əhəmiyyəti var, lakin muzeydaxili hadisələrin ardıcıllıqla öyrənilməsinin hərtərəfli yerinə yetirilməsi daha məqsədəmüvafiqdir.

Tədqiqat zamanı ayrı-ayrı metodlardan istifadə etməklə həm nəzəri, həm də əməli-təcrübi məqamlara diqqət yetirilməlidir. Fəaliyyətdə mühitin, şəraitin yeri, əhəmiyyəti üzrə əlaqə və asılılıqların yaranma səbəbləri ətraflı tədqiq edilməlidir. Bu prosesdə muzeyin öz daxili elmi-yaradıcı potensialının gücündən istifadə edilə bilər. Burada muzeylə tamaşaçı arasında olan əlaqənin mahiyyətinə xüsusilə diqqət verilməlidir. Çünki, muzeyin ətraf mühitlə ilk əlaqəçisi tamaşaçıdır. Məhz muzey-tamaşaçı əlaqələrinin daha geniş mühiti fəth etməsi, yaxud buna hazırlanması üçün belə əlaqələrin səmərəli təşkilinə təkan verən amilləri öyrənmək və yeri gəldikcə tətbiq etmək vacibdir. Yəni əldə olunan ilk və sadə nəticəni tətbiq etməklə sonrakı, mürəkkəb prosesə ardıcıl şəkildə daxil olmaq üçün lazımı məlumatı əldə etmək və mərhələ-mərhələ, nizamlı tədqiq etməyə, müvafiq təhlillər aparmaqla öyrənməyə nail olmaq mexaniki hadisəyə çevrilir.

Muzey fəaliyyətinin mahiyyətinin öyrənilməsində də təbii ki, mürəkkəblik mövcuddur. Çünki, bu prosesdə muzey işçisi, ekspozisiya və tamaşaçı fəaliyyəti arasındakı sıx elmi-ya-

radıcı əlaqələrin, muzey mühitinin bilavasitə təsiri ilə dərketmə prosesinin tədqiqi, dərketmədə ekspozisiya materiallarının təsiri ilə elmi və yaradıcı idrak arasındakı ziddiyyətliliyin aradan qaldırılması yolları araşdırılmalı və nizamlanmaya yönəldilməlidir ki, bu da çox mürəkkəb elmi-tətbiqi, psixoloji prosesdir.

Muzey fəaliyyətinin məqsədi, vəzifələri, mərhələləri üzrə əlaqə və asılılıqların da tədqiqi ümumiləşdirilərək elmi nizamlama üçün zəminə çevrilməlidir.

Bütün bu proseslərdən sonra qarşıya qoyulan məqsədin həyata keçirilməsində muzeydaxili əlaqə və asılılıqların nizamlanması üçün yaranan müvafiq şəraitdən istifadə etmək məqsədyönlüdür. Əgər söhbət fəaliyyətdə mühit və şəraitin yeri, əhəmiyyətindən gedirsə, deməli, ilk növbədə muzey mühitinin, şəraitin olması, sonra fəaliyyətin mühitdən, şəraitdən asılılığı öyrənilməli, mühitdə yaradıcı ilə tamaşaçı arasındakı qarşılıqlı əlaqələr nizamlanmalı və fəaliyyətdə qarşıya qoyulan məqsəd baxımından təcrübi proses həyata keçirilməlidir. Burada kortəbiiliyə, yaxud qeyri-peşəkarlığa, təcrübəsizliyə qəti yol vermək olmaz. Yəni əvvəlcə yaranan qarşılıqlı əlaqə və asılılıqların nizamlılığı sonrakı yaranacaq qarşılıqlı əlaqələrə, asılılıqlara təkan verə bilər, onlar üçün zəminə çevrilə bilər, əks halda isə muzey işində məqsədyönlü fəaliyyət prosesi baş verməz.

Muzey fəaliyyətinin mahiyyəti üzrə əlaqə və asılılıqları problem baxımından nəzərdən keçirsək görərik ki, bu proseslərdə muzey işçisi, ekspozisiya və tamaşaçı fəaliyyətinin rolu mühümdür, bu amillərin biri olmasa, digəri üçün şərait yaradılmaz, yəni onlar biri-birini şərtləndirə bilməzlər. Sonra isə yuxarıdakı üç amil mövcud olmasa, muzey daxilində dərketmə prosesi, idraki proseslər baş verməz, nəhayət sonuncu olmasa zənginləşmə olmaz, eyni zamanda muzey tədbirləri həyata keçirilə bilməzdi. Nəhayət, məqsədli idraki proseslər olmasa, onların ziddiyyətliliyi meydana çıxmazdı və inkişaf üçün zəmin yaranmazdı. Bütün bu proseslər nizamlı, ardıcıl şəkildə

həyata keçirildiyindən məqsəd əldə edilir. Əldə edilən bu məqsəd isə öz növbəsində sonrakı məqsədlər üçün zəminə çevrilir ki, bu da qanunauyğun xarakter alır.

Məzmuna gəldikdə isə, qeyd etməliyəm ki, fəaliyyətdə elmilik, nizamlılıq, ardıcıllıq, məzmunla vasitələr arasındakı əlaqə, məzmun üçün mövcud metod, forma və yolların qarşılıqlı əlaqəsi, məzmunun elmi və bədii yaradıcılıqdan asılılığı nizamlı şəkil almalıdır. Yəni, elmilik vasitəsilə planlılıq, ardıcıllıq, mütəmadiliyə nail olmaq, sonuncular vasitəsilə məzmunu əldə etmək, məzmun daxilində isə metod, forma və yolların gücünü təyin etmək, sonra isə elmi və bədii yaradıcılığın son nəticəsini əldə etmək getdikcə qanunauyğunluğa çevrilir.

Muzey fəaliyyətinin mövcud vəzifələri üzrə nizamlanmaya gəldikdə göstərmək lazımdır ki, əvvəlcə muzeyin tərbiyəedici imkanları, sonra təhsilləndirici imkanları, sonuncunun ardınca isə inkişafetdirici və formalaşdırıcı imkanları arasındakı əlaqə və asılılıqların nizamlılığı mövcud olmalıdır. Çünki, məhz tərbiyəvi təsir təhsilləndiricilik üçün imkan yaradır, sonuncu vasitəsilə isə məhz daha aktual və vacib proses olan inkişafetdiricilik, formalaşdırıcılıq imkanları arasında qarşılıqlı əlaqə və asılılıqlar ardıcıllıq və mərhələliklə məqsədə nail olmağa imkan yaradır.

Məlum olduğu kimi fəaliyyətdə mərhəlilik əsas prosesdir. Muzey fəaliyyətində də mərhələliyin nizamlılığı məqsədə xidmət edir və qanunauyğun hal alır. Qeyd etmək lazımdır ki, bu nizamlanma tərkibinin önündə muzey mühiti və mühitdəki mühüm amil sayılan muzey işçisi fəaliyyəti durur. Məlumdur ki, mühit və muzey işçisi olmasa, təbiidir ki, mərhələlik mövcud olmazdı. Beləliklə, yalnız mühit daxilində, eyni zamanda muzey işçisi fəaliyyətindən mərhələlik yaranır və bundan sonra mərhələliyin digər sonrakı prosesləri baş verir.

Muzey mühitindəki mərhələlik getdikcə daha mürəkkəb xarakter alır və fəaliyyətləri biri-birini şərtləndirməyə gətirib çıxarır. Yəni, əvvəlki mərhələ prosesi baş verməsə, sonrakı

«pilləlik» mövcud ola bilməz.

Digər tərəfdən, muzeydaxili bölmə və kollektivlərin qarşılıqlı əlaqəsi mərhələliyin aktivliyinə, yaxud passivliyinə səbəb olur. Mərhələliyin məzmun baxımından zənginliyi muzeyin elmi-yaradıcı potensialının qarşılıqlı əlaqə fəaliyyətindən asılıdır. Sonuncu mərhələdə elmi-yaradıcı potensialın fəaliyyəti müsbət səmərə verir və məqsədin əldə olunması ilə nəticələnir.

Muzey fəaliyyətində üsul və vasitələrin gücü ilə zənginləşmənin nəticəsi özünü qabarıq şəkildə göstərir. Üsul və vasitələrdən lazımi səviyyədə istifadə edildikcə, müvafiq mövcud nəticələr öz keyfiyyətliliyini göstərir. Digər tərəfdən, nəticənin əldə olunması prosesində ünsürlər biri-birini şərtləndirir. Yəni, bir ünsür olmasa, digər ünsürün fəaliyyəti müəyyən istiqamətdə mövcud olmur və məqsədyönlülük pozulur, yalnız əvvəlki ünsür fəaliyyətə cəlb edildikdən sonra qarşıya qoyulmuş məqsədə vaxtında nail olmaq mümkün olur. Eyni zamanda bir ünsür, digəri üçün şərtə çevrilir, digərinin fəaliyyətinə təkan verir və s.

Məhz muzey fəaliyyəti nəticəsində mənəvi zənginləşmə məqsədli elmi-dünyagörüşünə yiyələnmə və hərtərəfli formalaşmanın mənbəyinə çevrilir. Əgər mənəvi zənginləşmə prosesi güclü, keyfiyyətli və yaxud zəif, keyfiyyətsiz olarsa, buna müvafiq olaraq elmi-dünyagörüşünə yiyələnmə və hərtərəfli formalaşma əldə edilir.

Beləliklə, qarşıya qoyulan məqsədin həyata keçirilməsində muzeydaxili əlaqə və asılılıqların nizamlanması müvafiq qanunauyğunluğa çevrilir. Bu qanunauyğunluğun mahiyyətini aşağıdakı kimi səciyyələndirmək olar:

Muzeydaxili əlaqə və asılılıqların nizamlanması prosesi məqsədyönlü şəkildə həyata keçirilərsə, qarşıya qoyulan məqsədin yerinə yetirilməsi buna müvafiq səviyyədə, keyfiyyətdə baş verər. Muzeyşünaslıqdakı həmin qanunauyğunluğu qanun formasında «Qarşıya qoyulan məqsədin həyata keçirilməsində muzeydaxili əlaqə və asılılıqların nizamlanması» qanunu kimi

ifadə etmək olar.

### 3.3.2. Əlaqələrdə vahid məqsədə xidmət edilməsi

Muzey fəaliyyəti prosesində əlaqələrdə vahidlik vacib sayılır, çünki vahid məqsəd hər bir muzeyin ümumi ideyasına uyğun gəlməli, həm də ayrı-ayrı tədbirlərin ümumi ideyaya xidmətinin nəticəsi olmalıdır. Sözsüz ki, dövrün, zamanın, mühit və şəraitin diktəsi də öz «sözünü» deyir. Yəni, dövrün, şəraitin tələblərinə uyğun səviyyədə fəaliyyəti qurmaq mümkündür. Məhz zaman və şərait fəaliyyətin məhdudluğu və yaxud geniş əhatəliliyini təyin edir. Buradan belə bir nəticəyə gəlmək olar ki, zaman və məkan, şərait muzeyin inkişafını sürətləndirir, yaxud əksinə. Zaman və məkan, şərait hər hansı yaradıcılıq nümunəsini daha geniş mənada təbliğ edər, tədqiqə imkan yaradar və yaxud əksinə, onun məhvinə səbəb ola bilər. Getdikcə inkişafa xidmət edən məkan, şərait eyni zamanda müəyyən zaman çərçivəsində artar, yaxud məhdud xarakter ala bilər. Əlbəttə, təkanvermə, inkişafetdirmə və yaxud ləngitmə, mane olma, məhv etmə təkcə mədəniyyət və incəsənətdə yox, bütün sahələrdə özünü göstərə bilər. Lakin nə qədər məhdudluq öz təsirini göstərir göstərsin, burada (muzeydə) bir məqsəd-əsəri, nümunəni nümayiş etdirməklə onun müvafiq təsir gücünə malik olmasını bir daha təsdiqləməkdir. Muzeyin bütün fəaliyyəti bu məqsədə xidmət etməlidir.

Vahidlik muzeyin bütün qurumlarında öz təsirini göstərməlidir. Mahiyyətcə, fəaliyyətin məzmununda, fəaliyyətin vəzifələrində, fəaliyyətin mərhələlərində, nəticələrində vahidliyə nail olunmalıdır. Məsələn, yubiley təntənələrinə həsr edilmiş tədbirlərdə fəaliyyət ancaq bu məqsədə xidmət etməlidir. Muzeyin bölmə və şöbələrində məhz bu məqsəd naminə elmi fikirlər, mülahizələr yürüdülə bilər, tədqiqat prosesləri həyata keçirilə bilər və sair. İzahlar verilərkən, aydınlaşmalar yerinə yetirilərkən vahidlik nəzərə alınmalıdır.

Əlaqələrdə vahid məqsədə xidmət edilməsini aşağıdakı istiqamətlər üzrə qruplaşdırmaq olar:

- elmi-yaradıcı əlaqələrdə;
- elmi-tərbiyəvi əlaqələrdə;
- inkişafetdirici, formalaşdırıcı əlaqələrdə;
- təşkilati əlaqələrdə;
- zənginləşməyə xidmət edən əlaqələrdə;
- idraki proseslərlə bağlı əlaqələrdə;
- qiymətləndirmə, dəyərləndirmə ilə bağlı əlaqələrdə.

Elmi-yaradıcı əlaqələr həm muzeyin özünün formalaşmasında, inkişaf etməsində, həm də muzeyin ətraf mühitə təsiri prosesində mühüm əhəmiyyət kəsb edir. Muzeyin əhatə olunduğu ətraf mühitin inkişaf mexanizmi də muzey mühitinə müvafiq təsir edir. Ətraf mühitin inkişaf sürətinə uyğun olaraq muzey fəaliyyəti tənzim olunur. Yəni ətraf mühitin inkişafı ilə muzeyin inkişafı düz mütənasib olur.

Muzey daxilində mövcud olan elmi-yaradıcılıq muzeyin fəaliyyətinin əsas amillərindən hesab olunur. Bu prosesə muzeyin bütün qurumları öz fəaliyyəti dövründə cəlb olunur. Elmi-yaradıcı proses muzeyin əsas fəaliyyəti sayılır. Yaradıcılıq bütün tarixi dövrlərə və xalqlara məxsus olduğu halda, elmilik müəyyən tarixi dövrlərdə ölkənin, xalqın özünəməxsus fəaliyyət sürətindən doğmuşdur.

Elmi-yaradıcı əlaqələrdə həm elmi tədqiqatların, sənətşünasların, yaradıcı sənətkarların, muzey işçilərinin, eyni zamanda muzey fəaliyyətində iştirak edən, bu fəaliyyətə təkan verən, kömək edən digər amillərin - tərbiyəçi müəllimlərin, valideynlərin, ayrı-ayrı komitə, nazirlik və ictimai təşkilat nümayəndələrinin və digərlərinin vahid məqsədi özünü göstərməlidir. Yaradıcılığın elmi şəkildə tamaşaçıya çatdırılması və bu prosesin müxtəlif yaş qrupuna uyğun aparılması əlaqələrdə vahidlik prinsipi əsasında olmalıdır. Beləliklə, muzeydaxili və muzeydənkənar fəaliyyətdə, elmi-yaradıcı əlaqələrdə vahid məqsədə xidmət edilməsi prosesində aşağıdakı başlıca tələblər nəzərə

alınmalıdır:

1. Müasir muzey fəaliyyətində yaradıcı əlaqələrdə elmiliyə istinad olunmalı, elmiliklə yaradıcılıq bir-birini şərtləndirməli və bütün bu proseslərdə vahid məqsədə xidmət edilməlidir.

2. Vahid məqsəd çərçivəsində elmi-yaradıcı əlaqələrdə muzey mühitinə uyğun əlaqəlilik seçilməlidir.

3. Elmi-yaradıcı əlaqələrdə mühit amillərinin gücündən istifadə mexanizminin mühüm əhəmiyyəti olduğundan, bu mexanizmi yaradan, həyata keçirən qüvvə və amillərin planauyğun, məqsədyönlü fəaliyyəti muzey rəhbərliyinin nəzər-diqqətində olmalıdır.

4. Vahid məqsəd çərçivəsində qavramanın həm elmi, həm də yaradıcı şəkildə baş verməsinə muzeyin elmi-yaradıcı potensialı nail olmalı, bu prosesdə müasir metod, metodologiya, vasitələr, yollar, formalar və texnologiyanın gücündən istifadə etməlidir.

Problemə yuxarıdakı başlıca tələblər çərçivəsində yanaşsaq görərik ki, doğrudan da yaradıcılığın elmi fəaliyyət nəticəsində əldə olunması aşkarlanır. Eyni zamanda o da aşkarlanır ki, həm elmin, həm də yaradıcılığın meydana çıxması fəaliyyətlə sıx əlaqədardır. Zehni fəaliyyət bu mexanizmin əsasıdır. Zehni əmək özünü hər iki halda elmi əmək və yaxud fəaliyyət, həm də yaradıcı əmək və fəaliyyət kimi göstərir. Elmiliklə yaradıcılığı birləşdirən və vahid məqsədə yönəldən fəaliyyətin xarakteri mühitin, zamanın tələbatı ilə ölçülür. Tələbatın «diktəsi» elmi-yaradıcı fəaliyyəti vahid məqsədə yönəldir. Tarixi dövrün hadisələri, ölkədə, regionda baş verən davamlı dəyişikliklər elmi-yaradıcı əlaqələrin məqsədini təyin edir. Yəni baş verən hadisələr insan psixikası vasitəsilə qavranılır, elmi şəkil alır, idraki fəaliyyət nəticəsində yaradıcılıq nümunəsinə çevrilir və sonrakı nəsillərə bədii sənətkarlıq nümunəsi kimi ötürülür və s.

Şəxsiyyətin ümumi inkişafı, formalaşması ətraf mühitin ailə, ictimai təşkilatlar, ayrı-ayrı tərbiyə müəssisələri, tədris

müəssisələri, elmi-tədqiqat, elmi-yaradıcılıq mərkəzləri, əmək kollektivləri, kütləvi informasiya müəssisələri, adət-ənənələr, incəsənətin və sairənin təsiri altında gedir. Bu proses eyni zamanda müxtəlif vasitələrlə həyata keçirildiyi zaman vahid məqsədə xidmət edilir.

Zehni inkişaf, kamillik, gözəllik məhdudluq və birtərəfliliklə bir araya sığmaz. Çünki, gözəllik həyatın mənalı, zəngin və dolğun olduğu elmi inkişafla yaradıcı inkişafın müstəvisində vahid məqsədə xidmət etməsində öz təsirini göstərir. Digər tərəfdən, bu vahid məqsəd elmi-yaradıcı qabılıyyətləri, bacarıqları, vərdişləri ardıcıllıqla aşkarlayır və yenidən elmi-yaradıcılığa yönəldir. Beləliklə, bu proses mərhələli şəkil alır. Muzeylər də müvafiq vasitələrdən istifadə edərək elmi-yaradıcı əlaqələrdə vahid məqsədə xidmət edir, lakin bu zaman muzey mühiti mühüm amil sayılır, çünki muzey mühitinin imkanları nə qədər genişdirsə, onun istifadə etdiyi metodlar, formalar, vasitələr də buna müvafiq olaraq əhatəli olacaq, həyata keçirilən sərgi və digər muzey tədbirlərinin əlaqəliliyi, eyni zamanda vahid məqsədliliyi özünü göstərəcək.

Muzey mühiti vasitəsilə həyata keçirilən elmi-tərbiyəvi əlaqələrdə vahid məqsədə xidmət edilməsi məsələsi fəaliyyət mexanizminin tərkib hissələrindən sayılır. Muzey vasitəsilə tərbiyə işinin elmi əsaslarda təşkili mühümdür, çünki, tərbiyədə digər prinsiplərlə yanaşı elmilik prinsipinə də əməl olunmalıdır.

Məqsədyönlük tərbiyənin həyatla əlaqəsi, yaşauyğunluq, yaş, irsi, fərdi və cinsi xüsusiyyətlərin nəzərə alınması, nikbinlik, hörmət və tələbkarlıq, tələblərdə vahidlik, sözlə əməlin birliyi, aşkarlıq, ardıcıllıq, sistemlilik prinsipləri elmiliyə istinad edilir.

Muzeylər vasitəsilə həyata keçirilən tərbiyə işinin əsas komponentlərindən biri onun üsullarıdır. Bu üsullar muzey vasitəsilə tərbiyənin mahiyyəti, məqsədi, məzmunu, prinsipləri və vəzifələrindən irəli gəlir. Məhz bu üsulların köməyi ilə muzey

işçisi tədbir zamanı ünsiyyət prosesində tamaşaçının hissi aləminə məqsədyönlü təsir göstərir, müsbət münasibətlər yaradır, beləliklə də, tərbiyəvi proses məqsədyönlü şəkildə gedir.

Muzey vasitəsilə tərbiyə prosesində istifadə edilən üsulların təsnifatını aşağıdakı şəkildə verməyi məqsədyönlü hesab etdik:

1. Əsasən formalaşdırmaya xidmət edən üsullar.
2. Əsasən fəaliyyətlə bağlı üsullar.

Formalaşdırmaya xidmət edən üsullardan bəhs edərkən nəzərdə saxlamaq lazımdır ki, muzeyin əsas və aparıcı vasitəsi sərgilərdir. Ekspozisiyada eksponatdan sonra təqdimatın əsas möcüzəsi sözdür. Məhz söz eksponat haqqında «qaranlıq» qalan «tərəflərin» açılmasında, izahında mühüm amildir. Buna görə də hansı «söz»ün, nə zaman, harada, nə səviyyədə, nə üçün, nə məqsədlə deyiləcəyi və nə ilə nəticələnəcəyini dərk etmək, bütün bu prosesləri əvvəlcədən qiymətləndirmək, sonra isə «söz»çüyə həvalə etmək lazımdır. Ekspozisiya əsasında qurulan görüşlər, dəyirmi masalar, söhbətlər, müzakirələr, məruzələr, mühazirələr, disputlar və sair söz əsasında yaranır. Bu üsulların hər birinin özünəməxsus fərqli cəhətləri mövcuddur. Məsələn, estetik tərbiyə prosesində yüksək ideyalılıq təmin olunur, yaş xüsusiyyətləri nəzərə alınır, ardıcıllıq və tədricilik gözlənilir və s. Bu zaman yuxanda göstərilən üsullardan özlərinə məxsus şəkildə istifadə olunsa da, burada formalaşma prosesində əlaqələrdə vahidlik yaranır, vahid məqsədə xidmət müsbət nəticənin əldə olunmasına gətirib çıxarır. İdeya-siyasi, vətənpərvərlik, bədii zövq tərbiyəsi və sair haqqında da eyni nəticəyə gəlmək olar.

Fəaliyyətlə bağlı üsullara gəldikdə, qeyd etmək lazımdır ki, muzey işçisinə verilən tələblər, rejim, muzey kollektivinin, eləcə də ictimai qrupların rəyi, ekspozisiyada tərbiyələndirici vəziyyətlərin mərhələlərlə yaradılması proseslərində sıx əlaqəlilik yaranır və bu əlaqələrdə vahid məqsədə xidmət lazımi nəticələr verir.

Təşkilati əlaqələrdə vahid məqsədə xidmət edilməsi muzey rəhbərinin nəzarətində olmalıdır. Yuxarıdan aşağıya (direktordan sıravi muzey işçisinə) qədər bütün pillələrdə muzeyin vahid məqsədi nəzərə alınmalıdır. Sərgi və digər muzeydaxili, muzeydənkənar tədbirlərin təşkili mərhələlərində planlaşdırma və həyata keçirmədə mövzuya müvafiq vahid məqsəd çərçivəsində fəaliyyət həyata keçirilməlidir.

Zənginləşməyə elmi, tərbiyəvi, yaradıcı və sair istiqamətlərdə ayrı-ayrı üsul və vasitələrlə nail olmaq olar. Muzeylər vasitəsilə, yəni muzey tədbirləri vasitəsilə zənginləşmə prosesinin həyata keçirilməsi mürəkkəb prosesdir. Bu prosesdə də muzeyin bütün strukturlar iştirak edir. Fond materialları, ekspozisiya, ayrı-ayrı əşya və materiallar muzey işçilərinin məqsədyönlü təbliği, təqdimi sayəsində zənginləşməyə xidmət edir. Muzeyin həm zahiri, həm də daxili gözəlliyi də tamaşaçı zövqünü oxşamalıdır, heyranedici və parlaq hisslər doğurmalı, əhval-ruhiyyəni qaldırmalıdır, yaş qrupundan asılı olmayaraq hamını xeyirxah əməllərə ruhlandırmalıdır. Zənginləşməyə xidmət edən muzeydaxili əlaqələr, həm də muzeyin zahiri əlaqələri vahid məqsədli olmalıdır.

Psixologiyadan məlumdur ki, idrak insandan kənarda mövcud obyektiv aləmin onun hiss üzvlərinə, beyninə təsirindən yaranan inikas prosesidir. Burada subyektlə obyekt arasında qarşılıqlı münasibət yarandığına görə idraki proses baş verir. İnsanın idrak fəaliyyəti eyni zamanda onun gələcəyi qabaqcadan görmək bacarığıdır, imkanıdır. İdrak fəaliyyətinin mexanizminə aid ehtiyac, tələbat, məqsəd və vəzifələrdən müvafiq hərəkətlərin əlaqələndirilməsinə keçid kimi hər bir sistemə duyğu, diqqət, qavrayış, hafizə, təfəkkür də daxildir. Muzey fəaliyyətində duyğu və qavrayış tamaşaçının hansı məkan və şəraitdə olduğunu, hafizə-keçmiş hadisələri əşya və kolleksiyalarının indiki vəziyyəti ilə müqayisə etmək, tutuşdurmaq üçün, təfəkkür isə muzey mühitində elmi və ya bədii-estetik məsələnin həlli yollarını təyin etmək üçündür. Məhz bu prosesdə, yəni

tamaşaçı arasındakı qarşılıqlı əlaqələri müşahidə etmək sonrakı perspektiv üçün dəyərlidir.

Muzey fəaliyyətinin mahiyyəti üzrə qarşılıqlı əlaqələrdə muzey işçisi ekspozisiya və tamaşaçı əlaqəsinə, muzey mühiti vasitəsilə dərketmənin ekspozisiya materiallarından asılılığı prosesinə, zənginləşmənin muzey tədbirlərinin keyfiyyətindən asılılığı məsələsinin ardıcıllığına, idraki proseslərdə ziddiyyətliliyə qabaqcadan düşünülmüş mütəmadi və planlı nəzarətin əhəmiyyəti mühümdür. Bu ünsürlərarası qarşılıqlı əlaqələrdə planlı və mütəmadi nəzarət muzey fəaliyyətinin mahiyyətinin daha da zənginliyini və rəngarəngliyini təmin edir, mahiyyət etibarilə muzey fəaliyyətinin daha keyfiyyətli xarakter almasına gətirib çıxarır.

Muzey fəaliyyətinin məqsədi üzrə qarşılıqlı əlaqələrdə qarşıya qoyulan məqsədin həyata keçirilməsində muzeydaxili əlaqə və asılılıqların nizamlanması, əlaqələrdə vahid məqsədə xidmət edilməsi prosesləri məhz nəzarət mexanizmi vasitəsilə həyata keçirilir. Məqsədyönlü nəzarət həm məqsədin həyata keçirilməsı, həm də əlaqələrdə vahid məqsədə xidmət edilməsinin keyfiyyətini, səmərəsini daha da artırır.

Muzey fəaliyyətinin məzmunu üzrə qarşılıqlı əlaqələrdə vacib sayılan müvafiq prinsiplərin yerinə yetirilməsində nəzarətin mühüm əhəmiyyəti vardır. Fəaliyyətdə elmilik, planlılıq, konkretlilik, ardıcıllıq, mütəmadiliyə nəzarət mexanizminin təyini, məzmunla vasitələrin, mövcud metod, forma, vasitə və yolların biri-biri ilə əlaqələrə nəzarətin yerinə yetirilməsi bütövlükdə muzey fəaliyyətinin məzmun nöqteyi-nəzərindən günün tələbləri səviyyəsində olması üçün zəmin yaradır, rəngarəng, maraqlı fəaliyyətin daha məqsədyönlü qurulmasına səbəb olur.

Muzey fəaliyyətinin vəzifələri üzrə qarşılıqlı əlaqələrdə muzeyin tərbiyəedici, təhsilləndirici, inkişafetdirici və formalaşdırıcı imkanlarına müvafiq nəzarət mexanizminin tətbiqi bu imkanlar arasındakı əlaqələrin keyfiyyətinin yüksəlməsinə sə-

bəb olur və bu proses muzeydə səmərəli fəaliyyət üçün zəminə çevrilir.

Muzey fəaliyyətinin mərhələləri üzrə qaşılıqlı əlaqələrdə mərhələliyin muzey işçisi fəaliyyətindən asılılığına, biri digəri üçün zəmin rolunu oynayan ayrı-ayrı mərhələlərin biri-birini şərtləndirməsinə, muzeydaxili bölmə və strukturların, elmi-yaradıcı potensialın fəaliyyətinin mərhələliyə təsirinə nəzarət həmin sahələrin fəaliyyətində səmərəliliyə səbəb olur, fəaliyyət prosesinin nizam-intizamına da ciddi təsir göstərir.

Təbiidir ki, muzey işinin keyfiyyəti nəticələrlə ölçülür, müsbət nəticə isə muzey fəaliyyətinin bütün sahələrinə tətbiq edilən ciddi nəzarət mexanizmi vasitəsilə əldə edilir.

Beləliklə, muzeyin bütün fəaliyyətinin keyfiyyəti ümumilikdə ona tətbiq edilən nəzarətin məqsədyönlüyü, planlılığı, ardıcıllığı, mütəmadiliyindən çox asılıdır. Bu qanunauyğunluğun mahiyyətini belə səciyyələndirmək olar: muzey fəaliyyəti ona tətbiq edilən nəzarət sisteminin gücündən asılıdır. Həmin qanunuyğunluğu qanun formasında aşağıdakı kimi ifadə etmək olar: «Muzey fəaliyyətinə müvafiq nəzarətin vacibliyi» qanunu.

## 3.4. Muzey fəaliyyətinin məzmunu üzrə qarşılıqlı əlaqələr və qanunauyğunluqlar

Muzey fəaliyyətinin məzmununun qarşılıqlı əlaqəliliklə bağlılığı muzeyşünaslıqda aktuallıq kəsb edir. Bu tərkib hissədə muzey fəaliyyətinin məzmununun elmi və bədii yaradıcılıqdan asılılığı, planlılığın, ardıcıllığın, mütəmadiliyin əlaqəli təsiri və mühüm əhəmiyyətindən bəhs edilir. Eyni zamanda burada muzey fəaliyyətinin məzmunu ilə vasitələrinin, mövcud metod və istiqamətlərinin əlaqəliliyinin mühüm əhəmiyyəti də öz əksini tapmışdır.

### 3.4.1. Muzey fəaliyyətinin məzmununun elmi və bədii yaradıcılıqdan asılılığı

Muzey fəaliyyətinin məzmununda elmi, bədii yaradıcı proseslər mühüm əhəmiyyətə malikdir. Muzeyin fond işinin, komplektləşdirmənin elmi əsaslarda aparılması, muzey elmi-tədqiqatlarının həyata keçirilməsi, ekspozisiya və sərgi işinin elmi təşkili, kolleksiyaların elmi kataloqlaşdırılması, inventarlaşmanın elmi əsaslarda təşkili və digər muzey fəaliyyətinin tərkib hissəsi sayılır. Digər tərəfdən, muzey mühiti vasitəsilə aparılan bədii yaradıcılıq prosesləri də məzmuna daxildir. Yəni, elmi və bədii yaradıcı proseslər muzey fəaliyyətinin məzmununun əsas komponentləridir. Əgər bu komponentlərdən biri olmasa, onda fəaliyyətdə çatışmamazlıq qabarıq şəkildə özünü göstərər və məqsədə nail olmaq mümkün olmaz. Fəaliyyət mexanizmində isə elmiliklə bədii yaradıcılığın qarşılıqlı əlaqələrdə biri-birini şərtləndirməsi də mütləqdir.

Muzey sərvətlərinin konservasiyası və bərpası işləri məlum olduğu kimi, əvvəlcədən planlaşdırılmış şəkildə ixtisaslaşdırılmış dövlət müəssisələri, böyük muzeylərin bərpa emalatxanaları şöbəsi və muzeylərdə ştatda olan ayrı-ayrı bərpaçılar tərəfindən yerinə yetirilir. Təbii ki, bu proses üçün özünün bərpa emalatxanası, yaxud bərpaçıları olan muzeylərdə direktorun elmi işlər üzrə müavini və ya baş mühafizin rəhbərliyi ilə xüsusi bərpa şuraları yaradılmalıdır və müvafiq əsasnaməyə uyğun fəaliyyət göstərməlidir. Bərpa şurası muzey abidələrinin, nömunələrinin konservasiyası, konservasiyaya və bərpaya dair metodların müzakirəsi, təkliflərin verilməsi, bərpanın keyfiyyətli aparılması, bərpaçıların attestāsiyadan keçirilməsi və sair vəzifələri yerinə yetirir. Əlbəttə bütün bu vəzifələr elmi və yaradıcı şəkildə həyata keçirilir.

Ən mürəkkəb bərpa məsələlərinin həlli üçün isə yaradılan

geniş bərpa şurasına elmi-tədqiqat institutlarından, böyük muzeylərdən nüfuzlu tarix və mədəniyyət mütəxəssisləri, arxeoloqlar, dekorativ-tətbiqi sənətşünaslar və digər cəlb edilir. Bərpa prosesində də yaradıcı yanaşma olmasa, abidəni əvvəlki vəziyyətinə qaytarmaq qeyri-mümkün olar.

Yeni bərpa üsullarına istinad edilməsi və materialların əşyalara tətbiqi də elmi cəhətdən əsaslandırılmalı, konservasiya və bərpa işi aparılmazdan əvvəl planlı şəkildə müvafiq nazirlik sistemindəki bərpa müəssisələrinin elmi şurasında müzakirə edilməli, qəbul edilməlidir. Konservasiya və bərpa işləri müvafiq nazirlik sistemindəki ixtisaslaşdırılmış bərpa müəssisəsində uzunmüddətli təcrübədən keçmiş materiallar və üsullar vasitəsilə həyata keçirilir. Bu üsulların və materialların tətbiqi əsasən elmi cəhətdən əsaslandırılmalı, tətbiqdən əvvəl isə müvafiq nazirlik sistemindəkı bərpa müəssisələrinin elmi şurasında müzakirələrdən sonra qəbul edilməlidir. Eyni zamanda bərpaya ehtiyacı olan abidələrin qabaqcadan hərtərəfli elmi-tədqiqi prosesi həyata keçirilməli və istifadə ediləcək materiallar seçildikdən sonra bərpaya başlanılmalıdır. Bərpa prosesinin mərhələləri bərpa şöbəsinin müdiri tərəfindən tərtib olunan təqvim (aylıq, rüblük, illik) planında öz əksini tapmalıdır. Bərpa prosesində aşkar edilmiş bütün qüsurların səbəbləri elmi şəkildə müəyyənləşdirilir, onların mərhələlərlə aradan qaldırılması yolları, metodları dəqiqləşdirilir, bərpanın xarakteri və müddəti təyin olunur. Bərpa emalatxanası olmayan muzeylərdəki nümunələr həmin muzeyin sifarişinə əsasən Muzey Sərvətlərinin və Xatirə Əşyalarının Elmi-Bərpa Mərkəzində bərpa olunurlar.

Muzey əşyalarının elmi inventarlaşmasının da muzey fəaliyyətinin məzmununda yeri mühümdür. «İnventarizasiya - muzeyin əsas fonduna daxil olan əşyaların öyrənilməsi, təsviri və elmi təyinatının əsas formasıdır» (42, s.32). İnventarlaşma zamanı muzey əşyaları əsas fondun təsnifatına uyğun ayrı-ayrı qruplar üzrə elmi şəkildə sistemləşdirilir. Bu sistem əşyaların öyrənilməsini, müvafiq sənədləşdirmənin aparılmasını və lazı-

mi şəraitin yaradılmasını asanlaşdırır. Bu proses zamanı elmi və yaradıcı işin planlı və mərhələli şəkildə yerinə yetirilməsi vacibdir. Çünki maddi, təsviri, yazılı məxəzlərin, kino-materiallar və səsyazma abidələrinin, xatirə komplekslərinin elmi sistemləşdirilməsi məhz müvafiq sahələrdə elmi və bədii-yaradıcı vərdişə, bacarığa, təcrübəyə malik mütəxəssis gücündən istifadə edilməsi nəticəsində əldə olunur.

Muzey sərvətlərinin mühafizəsi prosesi sistemləşdirilmiş şəkildə aparılır və muzey fəaliyyətinin məzmununda aparıcı, mühüm amildir. «Muzey mühafizəsinin məqsəd və vəzifəsi muzey sərvətlərinin qorunub saxlanılmasını (həm fondda, həm də ekspozisiyalarda) təmin etməkdən, abidələrin dağılıb məhv olunmasının və nasazlığa uğramasının («xəstələnməsinin»), oğurlanmasının və xarab olmasının qarşısını almaqdan, eləcə də onların öyrənilməsi, nümayiş etdirilməsi və tətbiqi üçün əlverişli şərait yaratmaqdan ibarətdir». Qeyd olunan bu proseslərin həyata keçirilməsində elmi-tədqiqat işləri mühüm əhəmiyyətə malikdir. Çünki, həm qorunmanın metod və formaları, məhv olmanın qarşısını almağın yolları, nümayiş-təbliğ üçün əlverişli şəraitin, mühitin yaradılması üsulları məhz ayrı-ayrı elmi-tədqiqat metodları, araşdırmalar, hər əşyanın, nümunənin ayrı-ayrılıqda hərtərəfli öyrənilməsi vasitəsilə yerinə yetirilməlidir. Əşya və nümunələrin öyrənilməsi işi planlı şəkildə həmin sahənin elmi-tədqiqatçısı, səriştəyə, böyük təcrübəyə malik mütəxəssisi tərəfindən həyata keçirilməlidir. Əlbəttə, həmin prosesin gedişində təkcə muzey elmi-tədqiqatçıları, mütəxəssislərinin gücündən istifadə etmək o qədər də səmərəli nəticələr verməzdi. Bundan ötrü müvafiq sahənin elmi-tədqiqatçılarının gücündən də istifadə olunmalı, həmin elmi-tədqiqat müəssisələri, mərkəzləri ilə muzeylər arasında qarşılıqlı əlaqələr yaradılmalıdır. Bu zaman təkcə muzey əşyaları, nümunələr, muzeyin daxili şəraiti yox, eyni zamanda muzeyi əhatə edən ətraf mühitin də elmi-tədqiqinə, öyrənilməsinə ciddi fikir verilməlidir.

Eksponatların mühafizəsi ilə əlaqədar ekspozisiya zallarının müvafiq avadanlıqla təchizi prosesində elmi-bədii-estetik imkanlardan yetərincə istifadə edilməli, insanların yaş qrupları, zövqlər nəzərə alınmalı, eksponatların maksimum qorunmasına təminat verilməlidir.

Əşya və eksponatların dağılıb xarab olmamasından ötrü muzeyin mühafizə rejimi, hərarət-rütubət rejimi, işıq rejimi, havada baş verən dəyişikliklər, çirklənmələr, bioloji rejim, bir sözlə mövcud şərait elmi şəkildə öyrənilməli, əldə edilmiş elmi nəticəyə uyğun fəaliyyətin təşkili həyata keçirilməlidir. Boyakarlıq nümunələrinin saxlanc mühitdə mühafizəsi müxtəlif üsullarla (divardan asma, lövhələrdən asma, qəfəslərdə saxlama, vərdənələrdə şaxlama) təşkil edilməzdən qabaq həmin saxlanc yeri, vasitəsi dəqiq öyrənilməli, müvafiq (yazılı) rəylərdən sonra əgər məqsədəmüvafiqdirsə, onda proses yerinə yetirilməlidir.

Qrafika əsərləri, arxiv sənədləri, nadir kitablar, xəritələr və sairənin, parça, dəri, sümükdən hazırlanmış nümunələrin, materialların, çini, keramika, şüşə, əhəngdaşı, mərmər, gips, metal (əlvan, qara) nümunələri, əşyalar, materialları, fotomateriallar, maqnit lentləri, disklər, geoloji-mineraloji materiallar, botaniki, zooloji materiallar, antropoloji kolleksiyaların vəziyyəti öyrənilməli, sonra tətbiqə icazə verilməlidir.

Muzey sərvətinin qablaşdırılması və daşınması prosesində də müvafiq elmi nəticə əsasında seçilmiş qablaşdırma materiallarından istifadə edilməlidir. Dəzgah boyakarlığı əsərlərinin, ağac üzərində temperatur boyakarlığı nümunələrinin qrafika, heykəltəraşlıq, nümunələrinin, dekorativ-tətbiqi sənət əsərlərinin qablaşdırılması və daşınmasında zərrə qədər də olsun səhvə yol verilməməlidir. Münasib qablaşdırma materiallarından istifadə və daşınma mexanizminin məqsədyönlü tətbiqi həyata keçirilməlidir.

Muzey elmi tədqiqatları yerinə yetirilməsi nəticəsində aydınlaşır ki, fəaliyyətin kompleks xarakteri onun səmərəli-

liyini göstərir. Muzeyin bütün strukturlarının fəaliyyəti elmilik və yaradıcılığa əsaslanır. Sərgi işinin təşkilində elmi-nəzəri, təcrübi metod, forma və vasitələrdən istifadə, mövzunun seçilməsi prosesində aktuallığın, yaş qrupunun, mənəvi tələbatın, yaradıcılığa olan maraqların, eksponat və ekspozisiya mühitinin və sairənin öyrənilməsi, həyata keçirilməsinin əhəmiyyəti mühümdür. Yerli əhali kütləsi arasında sərgilərə maraqların yaradılmasında, getdikcə artırılmasında, televiziya və radionun müvafiq redaksiyaları tərəfindən təşkil ediləcək elmi-bədii silsilə verilişlərində mütəxəssis, sənətşünas, tarixçi, arxeoloq, etnoqraf, psixoloq, pedaqoq fikrinə böyük ehtiyac duyulur. Mətbuat səhifələrində muzeyşünaslıqla bağlı, sərgi və digər muzey tədbirlərinin elmi-bədii təsirindən bəhs edən silsilə yazılar əhali ilə muzey arasındakı əlaqələri daha da artırır, birgə fəaliyyətin elmi-yaradıcı, tərbiyəvi əhəmiyyətini durmadan artırır. Bundan ötrü əvvəlcə muzeyin elmi-yaradıcı potensialından, sonra isə ətraf mühitin elmi-yaradıcı imkanlarından istifadə edilməlidir. Digər tərəfdən isə, muzeyin daxili heyəti və muzeydənkənar elmi-yaradıcı potensialları arasında sistemli qarşılıqlı əlaqəlilik müvafiq nazirlik və təşkilatlar tərəfindən həyata keçirilməlidir.

Digər vacib muzey tədbirlərinin - yaradıcılarla görüşlər, gecələr, mühazirələr, disputlar, seminarlar, viktorinalar və söhbətlərin muzey eksponatları, əşyaları, ekspozisiyaları ilə elmi şəkildə əlaqələndirilməsi də mühüm əhəmiyyətə malikdir. Məktəbyaşlılarda belə tədbirlər bədii silsilə fənlərinin daha dərindən qavranılması, bu elmlərə marağın daha da artmasına səbəb olur. Yaşlı nəsildə isə mədəniyyətimizə, qədim tariximizə, zəngin incəsənətimizə, etnoqrafiyamıza, arxeologiyamıza, toponimikamıza, ədəbiyyatımıza aid biliklərin artmasına, müqayisəli zəmində daha da dərinləşməsinə şərait yaranır.

Muzey fəaliyyətinin məzmunu bütövlükdə elmi-bədii yaradıcılıqla sıx bağlıdır və elmi-bədii yaradıcılıqsız muzey fəaliyyəti qeyri-mümkündür, desəm səhv etmərəm. Çünki,

muzey elmi-tarixi faktları özündə əks etdirən və müəyyən tarixi dövr yaradıcılığının nəticəsi, nümunəsi olan eksponatı yüksək zövqlə, müxtəlif dərəcəli tələbkarlıqla özündə saxlayan tamaşaçıya təqdim edən elmi-mədəni müəssisə olmaqla, müxtəlif elm sahələrinin inkişafına təkan verir, şərait yaradır.

Beləliklə, muzey fəaliyyətinin məzmununun elmi və bədii yaradıcılıqdan asılılığı qanunauyğun şəkil alır. Muzeyşünaslıqda bu qanunauyğunluğu aşağıdakı kimi səciyyələndirmək olar: muzey fəaliyyətində elmi və bədii yaradıcılığın gücü nə qədər çox olarsa və məqsədyönlü tətbiq prosesi həyata keçirilərsə, işin məzmunu da buna müvafiq olaraq bir o qədər səmərəli, keyfiyyətli nəticə verər. Muzeyşünaslıqdakı həmin qanunauyğunluğu qanun formasında «Muzey fəaliyyətinin məzmununun elmi və bədii yaradıcılıqdan asılılığı» qanunu kimi ifadə etmək olar.

Təbiidir ki, digər qanunauyğunluqlar kimi, bu qanunauyğunluq da, həm özündən əvvəlki, həm də sonra gələn qanunauyğunluqlarla sıx qarşılıqlı əlaqədədir.

### 3.4.2. Muzey fəaliyyətində planlılıq, ardıcıllıq və mütəmadiliyin əlaqəsi, biri-birini şərtləndirməsi

Muzey fəaliyyəti planlı, ardıcıl, mütəmadi şəkildə qurulur və bu ünsürlər arasındakı qarşılıqlı əlaqəlilik müvafiq məzmunu yaradır, eyni zamanda onlar biri digərini şərtləndirir. Əvvəlcə fəaliyyətdə planlılığa nəzər salaq.

Muzeyin ümumi fəaliyyəti planlılıq prinsipi əsasında qurulur, bütün qurumlar aylıq, rüblük, illik planlar əsasında fəaliyyət göstərirlər. Fond işi, muzey sərvətlərinin mühafizəsi, qablaşdırılması, daşınması, muzeydaxili və muzeydənkənar sərgi və digər tədbirlərin təşkili, səmərəli elmi-tədqiqat prosesi, muzey otaqları, klubları, dərnəklərinin fəaliyyəti, rəhbərliyin işinin təşkili, digər muzey və elm, tədris, mədəniyyət müəssisələri, təşkilatlarla qarşılıqlı əlaqəsi, idarəetmə prosesləri və sair planlı şəkildə həyata keçirilir.

Qeyd etmək lazımdır ki, muzeylər nəzarətində olduqları nazirlik, komitə, təşkilatlar tərəfindən təsdiq olunmuş təlimat və digər normativ-hüquqi sənədlər əsasında fəaliyyətlərini davam etdirməlidirlər. Muzeydə maddi mədəniyyət nümunələrinin toplanması, müvafiq tədqiqatların aparılması, muzey sərvətlərinin uçotu, mühafizəsi, bərpası, nümunə, əşya, materialların ehtiyat yerlərdə, daimi ekspozisiyalarda, sərgilərdə saxlanılması, daimi və müvəqqəti istifadə üçün qəbul edilməsi, lazımi məqamda müvafiq şəxsə, yaxud şöbəyə verilməsi, bərpa işlərinin aparılması üçün baxışın keçirilməsi, növbətçilik, binanın keşiyinin çəkilməsi, otaqların surğuclanması, möhürlənməsi, açarların saxlanılması, mühafizlərin, elmi işçilərin, bərpaçıların, zal baxıcılarının işlərinin planlaşdırılması, onların hüquq və vəzifələrinin planlı şəkildə yerinə yetirilməsinə nəzarət işinin həyata keçirilməsi və digər proseslər muzey fəaliyyətinin tərkib hissəsinə aiddir. Direktor, uçot və mühafizə üzrə direktor müavini (baş mühafiz), direktorun elmi işlər üzrə müavini, direktorun inzibati-təsərrüfat işləri üzrə müavini, şöbə müdirləri, digər əməkdaşlar öz fəaliyyətlərini planlı şəkildə qururlar və bu iş planları mütəmadi olaraq müzakirə və təsdiq edilir.

Muzeydə planlılıq eyni zamanda ardıcıllıqla həyata keçirilməlidir. Məsələn, baş mühafizin fəaliyyəti aşağıdakı plan ardıcıllığı ilə yerinə yetirilməlidir:

- muzeyin bütün fondlarının düzgün uçot işi planlaşdırılmalıdır;
- muzey sərvətlərinin sıradan çıxmaması və oğurlanmamasından ötrü lazımi mühafizə şəraitinin yaradılması üçün tədbirlər planı hazırlanmalı və bu plana uyğun fəaliyyət mexanizmi qurulmalıdır;
- uçot-mühafizə işinə dair bütün sənədlərin planlı şəkildə düzgün aparılmasına nail olunmalıdır;
- sərvətlərin aşkarlanması, muzeyə daxil olması, onların uçotu, saxlanması, bərpası, mühafizəsi planlı şəkildə yerinə

yetirilməlidir;

- uçot-mühafizə işləri üzrə məsuliyyəti müəyyənləşdirən muzeydaxili təlimatların planlı və vaxtında işlənib hazırlanmasına nəzarət edilməlidir;

- muzey mühafizlərinin müvafiq təlimat haqqında biliklərinin yoxlanılması planlı şəkildə təşkil edilməlidir:

- zədələnmiş sərvətlər haqqında müvafiq tədbirlər planlı şəkildə yerinə yetirilməlidir;

-muzey tərəfindən maddi və mənəvi mədəniyyət abidələri üçün planlı şəkildə fərdi işin açılması, müvafiq sənədlərin həmin işdə planlı olaraq toplanması, lazımi tədbirlərin görülməsi prosesi planlı şəkildə həyata keçirilməlidir və s.

Digər muzey işçilərinin də fəaliyyətlərinin planlı şəkildə yerinə yetirilməsini xarakterizə etməyə lüzum yoxdur. Lakin bütün muzey əməkdaşlarının muzeydaxilində və muzeydənkənar fəaliyyətləri əvvəlcədən tərtib və təsdiq edilmiş plan əsasında həyata keçirilməlidir.

Lakin yadda saxlamaq lazımdır ki, planda nəzərdə tutulan tədbirlər ardıcıllıqla yerinə yetirilməlidir və ardıcıllıq əlaqəli şəkildə olmalıdır. Birincisi, proseslər ardıcıllıqda biri digəri üçün zəminə çevrilməlidir. Yəni, fəaliyyət prosesinin əvvəli sonra gələn proses üçün zəmin rolunu oynamalıdır, növbəti proses üçün bir növ hazırlıq işi getməlidir. İkincisi, mürəkkəb fəaliyyətin ilkin mərhələsindən sonrakı mərhələyə keçid rolunu oynamalıdır. Beləliklə, bu cür ardıcıllıqla planlaşdırılan fəaliyyətin səmərəsi keyfiyyət baxımından qənaətbəxş nəticə verir. Fəaliyyətdə ardıcıllığın pozulması, pərakəndəliklə, nizamsızlıqla nəticələnə bilər ki, bu da sistemsizliyə gətirib çıxarar. Məsələn, muzeyin bir fəaliyyət istiqaməti üzrə maddi nümunələrin elmi inventarlaşdırılmasının ardıcıllığına nə qədər ciddi riayət olunsa, fəaliyyətdə effektivlik əldə olunacaqdır:

- əşyanın tədqiq üçün seçilməsi və tədqiqə təqdimi;
- öyrənildikdən sonra müvafiq fond üçün qruplaşdırma işi;

- fondun təsnifatının nəzərə alınması;
- kolleksiya tərkibinin nəzərə alınması;
- şöbələr üzrə sistemləşdirmə işi;
- şöbədaxili təsnifata uyğun sistemləşdirmə işi və s.

Sistemləşdirmədə:

- məxəz tiplərinin nəzərə alınması;
- kolleksiya tərkibinin nəzərə alınması;
- material tərkibinin nəzərə alınması;
- incəsənət növlərinin nəzərə alınması;
- işlənmə texnikasının nəzərə alınması;
- təyinat və sair nəzərə alınmalıdır.

Əşyaların sistemləşdirilməsinin məxəzlər üzrə ardıcıllığına ciddi əməl olunmalıdır. O cümlədən maddi məxəzlər üzrə ardıcıllıqda:

- təbiyyat tarixi nümunələri;
- arxeoloji nümunələr;
- numizmatik nümunələr;
- etnoqrafik nümunələr;
- metal nümunələri;
- ağac nümunələri;
- keramika nümunələri;
- parça, dəri nümunələri;
- silah nümunələri;
- mebel nümunələri və s.

Təsviri məxəzlər üzrə ardıcıllıq, yazılı məxəzlər, kinomateriallar, səsyazma nümunələri, xatirə kompleksləri üzrə ardıcıllığa riayət edilməsi muzey işçisinin diqqətində olmalıdır.

Ümumiyyətlə, muzey fəaliyyətində ardıcıllıq sistemli xarakter almalıdır və kompleks şəkildə yerinə yetirilərək, bütövlükdə muzeyi tam əhatə etməlidir. Muzey üzrə ümumi fəaliyyətin - mühafizə fəaliyyətinin, fond fəaliyyətinin, elmi fəaliyyətin, yaradıcı fəaliyyətin, inzibati-təsərrüfat fəaliyyətinin, ayrı-ayrı bölmə və şöbələrin fəaliyyətlərinin, ətraf mühitlə əlaqə fəaliyyətinin planlı və ardıcıl yerinə yetirilməsi gündəlik

diqqət mərkəzində olmalıdır. Fəaliyyət prosesində idarəçilik, təşkilatçılıq yuxarıdan aşağıya ardıcıl olaraq tətbiq edilməlidir. Yəni, muzeyin ali orqanı, rəhbərliyi tərəfindən planlaşdırılmış tədbir müvafiq ardıcıllıqla həyata keçirilir. Eyni zamanda hər sahə üzrə keyfiyyətli fəaliyyət, digər şöbə, bölmənin də keyfiyyətli fəaliyyətinə zəmin yaradır.

Muzey fəaliyyətində mütəmadilik planlılıq və ardıcıllıqla sıx bağlıdır. Planlı və ardıcıl muzey fəaliyyətində elmi mütəmadilik olarsa, aşağıdakı keyfiyyət dəyişiklikləri baş verər:

- muzey işçisinin hər hansı fəaliyyət növü üzrə təcrübəsi artar, getdikcə keyfiyyət dəyişiklikləri öz müsbət təsirini göstərər;
- muzey işçilərinin peşəkarlığı getdikcə inkişaf edər, təkliflər səmərəlilikdə zəminə çevrilər;
- ayrı-ayrı fəaliyyət növləri üzrə təkmilləşmə prosesi baş verər;
- ekspozisiyada eksponatla bağlı yeni tədqiqati məlumatların tamaşaçıya çatdırılması baş verər;
- muzey işçisi tərəfindən tamaşaçı ilə qarşılıqlı münasibətlərdə fərdi yanaşma prinsipinə yüksək səviyyədə, fərdin zənginləşmə tələbatına uyğun şəkildə əməl olunar;
- muzeydənkənar sərgi və digər tədbirlərdə yüksək təcrübə əldə olunar;
- yeni muzey texnologiyasının mütəmadi tətbiqinə nail olunar;
- sərgi və digər muzey tədbirlərinin forma və məzmununda getdikcə yeni metod və üsulların tətbiqi baş verər, təşkilati nöqteyi-nəzərindən yeni ideyalar meydana çıxar və s.

Getdikcə muzey fəaliyyətində planlılıq, ardıcıllıq və mütəmadiliyin qarşılıqlı əlaqəsi nəticəsində böyük təcrübə əldə edilir, planlılıq, ardıcıllıq və mütəmadilik biri-biri üçün şərtə çevrilir. Yəni, planlı fəaliyyət ardıcıllığa zəmin yaradır, eyni zamanda, planlı fəaliyyət yalnız ardıcıl şəkildə yerinə yetirilməlidir. Digər tərəfdən isə planlaşdırma hər il, ay, hər gün, hər

saat, hər an baş verməlidir, keçiriləcək tədbirlər mütəmadi xarakter almalıdır.

Beləliklə, muzey fəaliyyətində planlılıq, ardıcıllıq və mütəmadilik sistem şəklini alır, muzeyin gündən-günə inkişafına təkan verir və bu proses getdikcə qanunauyğun xarakter alır.

Muzeyşünaslıqda yuxarıdakı qarşılıqlı əlaqədən yaranan müvafiq qanunauyğunluğu aşağıdakı şəkildə səciyyələndirmək məqsədyönlüdür: muzey fəaliyyətində mövcud olan planlılıq, ardıcıllıq və mütəmadilik arasında qarşılıqlı əlaqəliliyin artması, onların ümumi fəaliyyətdə həm kəmiyyət, həm də keyfiyyət artımına səbəb olur və biri-birlərini şərtləndirməsi prosesi vacib amilə çevrilir. Muzeyşünaslıqda həmin qanunauyğunluğu qanun formasında «Muzey fəaliyyətində planlılıq, ardıcıllıq və mütəmadiliyin əlaqəsi və biri-birini şərtləndirməsi» qanunu kimi ifadə etmək olar.

### 3.4.3. Muzey fəaliyyətinin məzmunu ilə vasitələrinin əlaqəsi

Muzey fəaliyyətinin məzmunu və vasitələrinin mahiyyətinə nəzər salsaq görərik ki, məzmunla vasitələr bilavasitə qarşılıqlı əlaqədə davam edir, inkişafa, formalaşmaya təkan verir. Digər tərəfdən, həm məzmunun tərkibindəki elementlər, istiqamətlər, həm də vasitələr biri-biri ilə sıx əlaqədədirlər.

Məzmun anlayışı dörd əsas istiqaməti əhatə edir:

1. Muzey fəaliyyətinin ümumi məzmunu.
2. Ayrı-ayrı sərgi və digər muzey tədbirlərinin məzmunu.
3. Bölmə və şöbələrin işinin məzmunu.
4. Ayrı-ayrı muzey işçilərinin fəaliyyətinin məzmunu.

Muzey fəaliyyətinin ümumi məzmununu təşkil edən axtarış-toplama işi, material, əşya və kolleksiyaların kompektləşdirilməsi, fond işi, əşya və kolleksiyaların dövriyyəsi, fond-satınalma işi, uçot-mühafizə işi, dizayn və tərtibat, prosesi kataloqların hazırlanması, nəşr edilməsi, sərgi və ekspozisiya işi, digər muzey tədbirlərinin təşkili, elmi-bərpa işi, elmi-

tədqiqat işi, yaradıcılıq işi, təbliğat işi, kitabxana işi, arxiv işi, muzeyətrafı mühitlə əlaqə, beynəlxalq əməkdaşlıq, inzibati-təsərrüfat işi və digər fəaliyyət növləri qarşılıqlı əlaqəliliyə əsaslanırlar.

Ümumi məzmunu A, sərgi və digər muzey tədbirlərinin məzmununu B, bölmə və şöbələrin ümumi məzmununu C, muzey işçilərinin fəaliyyətinin məzmununu D ilə işarə etsək, onda ümumi məzmunu belə ifadə etmək olar:

$$A=B+C+D$$

Yəni, ümumi məzmun ayrı-ayrı fəaliyyət məzmunlarının cəminə bərabərdir. Başqa sözlə, ayrı-ayrı fəaliyyət məzmunları olmasa, muzey fəaliyyətinin ümumi məzmunu mövcud olmaz.

Ümumi məzmuna «xidmət edən» ayrı-ayrı məzmunlar da öz növbəsində daha az əhatəli fəaliyyət məzmunlarının cəmindən ibarətdir.

Sərgilərin və digər muzey tədbirlərinin məzmunu (B) əşya və kolleksiyaların komplektləşdirilməsi (E), fond işi (F), əşya və kolleksiyaların dövriyyəsi (X), dizayn və tərtibat (Q), fond-satınalma işi (H), elmi-bərpa işi (K), təbliğat-nümayiş işi (T) və yaradıcılıq işindən (N) bilavasitə asılıdır, onların cəmindən yaranır:

$$B=E+F+X+H+K+T+Q+N$$

Bölmə və şöbələrin işinin məzmunu (C), axtarış toplama işi (M), fond işi (F), fond satılma işi (F1), uçot-mühafizə işi (U), elmi-bərpa işi (K), elmi-tədqiqat işi (O), yaradıcılıq işi (N), kitabxana işi (P), arxiv işi (R) və inzibati-təsərrüfat işindən (V) bilavasitə asılıdır, yəni onların cəmindən ibarətdir.

$$C=M+F+F'+U+K+O+N+P+R+V$$

Ayrı-ayrı muzey işçilərinin fəaliyyətinin məzmunu (D) fərdi bilik, bacarıq, vərdiş və qabiliyyətlərdən (D'k) asılıdır, yəni həmin ünsürlərlə ölçülür. Bilik, bacarıq, vərdiş və qabiliyyətlərin keyfiyyəti nə qədər yüksəkdirsə məzmun da buna uyğun keyfiyyətli olacaq:

$$D=D'K$$

Beləliklə,

A=B+C+D=E+F+X+H+K+T+N+Q+F'+U+O+P+R+V+ D'K

Yuxarıda qeyd edildiyi kimi, məzmun bütövlükdə vasitələrdən asılıdır. Vasitələrin sərgilərin, ekspozisiyaların, mühazirələrin, yaradıcılıq gecələrinin, görüşlərin, seminarların, disputların, sual-cavab gecələrinin, dəyirmi masaların, viktorinaların, dərnəklərin, muzey klublarının, muzey otaqlarının, olimpiadaların həm muzeydaxili, həm də muzeydənxaric keyfiyyəti və gücü mühitlə, muzey işçisinin peşəkarlığı və texniki vəsaitlə ölçülür. Yəni həmin amillərin keyfiyyəti tədbirin keyfiyyətinin artmasına səbəb olacaqdır. Vasitələri əsasən üç yerə ayırmaq məqsədyönlüdür:

1. Muzey mühiti - əsas vasitədir.

2. Sərgi, yaxud digər muzey tədbiri-muzeydaxili və ya muzeydənkənar vasitədir.

3. Sərgidaxili, yaxud digər muzey tədbiri daxili vasitələr - eksponat, əşya, material, söz, yaradıcı-iştirakçı, texniki vəsait və sairdən ibarətdir.

Əsas vasitə sayılan muzey mühiti həm fəaliyyətin məzmunu baxımından, həm də həmin məzmunla uyğun vasitələrdən istifadə mexanizmi nöqteyi-nəzərindən vahid mərkəzi mənbədir. Məhz bu mənbə vasitəsilə fəaliyyətin məzmunu və vasitələri üçün müvafiq şərait yaradılır. Lakin burada üçüncü və əsas amil bu «mexanizm»in hərəkət-vericisi rolunu oynayır ki, bu da insan amilidir. İnsan muzey və bütövlükdə muzey fəaliyyətini yaradır, nizamlayır, istiqamətləndirir, inkişaf etdirir, tərəqqisinə nail olur.

Qeyd etdiyimiz kimi muzey mühiti insan amilinin köməyi ilə bütün fəaliyyəti öz daxilində cəmləşdirir, muzeydaxili yaxud fəaliyyətin bir hissəsinin kənarda muzeydənkənar həyata keçirilməsinə nail olur. Yəni, muzey işinin məzmunu və vasitələri dəyişir, inkişaf edir, zamanın və mühitin tələbatına uyğun

şəkil alır, həmin dövr tamaşaçısının tələbatını ödəyir. Çünki, bu prosesi həm dövrün, mühitin muzey mütəxəssisi yerinə yetirir və buna görə də muzey işçisinin də biliyi, bacarığı, vərdişi, qabiliyyəti, bütövlükdə dünyagörüşü dəyişilir, inkişaf edir. Yalnız bu «mexanizm» daxilində dəyişməyən ancaq əşyadır, materialdır, eksponatdır, nümunədir. Məhz eksponat, nümunə tarixiliyi özündə saxlamaqla, elmi, zənginləşdirici, formalaşdırıcı, təhsilləndirici, tərbiyələndirici və digər çox vacib xüsusiyyətləri özündə cəmləşdirir. Bu xüsusiyyətlər zaman-zaman ayrı-ayrı idraklara öz təsirini göstərməklə, şüurlarda, psixikalarda zənginlik yaradır, tarixi dövrlərə münasibəti formalaşdırır, milli mədəniyyətin qoruyucusu kimi bütün dövrlər üçün muzeydaxilində əsas vasitə rolunu oynayır.

Şüur bu vasitəni qiymətləndirməklə bərabər ondan istifadə mexanizmini ön plana çəkməyi bacarırsa, bu zaman o (şüur) digər şüurların sürətli şəkildə inkişafları üçün mənbəyə çevrilir və vasitədən məqsədyönlü istifadə etməklə zənginləşmə prosesi həyata keçirilir. Ölkə, xalq daxilində belə proses həmin xalqın, ölkənin bütovlükdə mədəniyyətinin, elminin sürətli inkişafına səbəb olur, əksinə belə vasitələrdən lazımınca istifadə edilməməsi, həmin xalqın, ölkənin mədəniyyətinin, elminin inkişafında ləngimələrə gətirib çıxarır.

Beləliklə, muzey fəaliyyətinin məzmunu ilə vasitələrinin məqsədli əlaqələrinin muzeyşünaslıqda sistem şəklini alması muzeylərin ümumi inkişafında tərəqqiyə təkan verir və bu proses getdikcə qanunauyğun şəkil alır. Muzeyşünaslıqda bu qarşılıqlı əlaqədən yaranan qanunauyğunluğu aşağıdakı şəkildə səciyyələndirmək məqsədəuyğundur: muzey fəaliyyətinin məzmunu ilə vasitələrinin qarşılıqlı əlaqəsi ümumilikdə muzey işini gücləndirir, inkişaf etdirir və bu prosesdə məzmunla vasitələrin biri-birindən asılılığı vacib amil kimi özünü göstərir. Muzeyşünaslıqda həmin qanunauyğunluğu qanun formasında «Muzey fəaliyyətinin məzmunu ilə vasitələrinin qarşılıqlı əlaqəsi və biri-birindən asılılığı» qanunu kimi ifadə etmək olar.

### 3.4.4. Muzey fəaliyyətində mövcud tədqiqat metodlarının əlaqəsi

Məsələnin mahiyyətini aşkarlamaqda əvvəl metodologiya, metod anlayışlarına diqqət yetirək. Metodologiyaya müxtəlif mənbələrdə fərqli təriflər verilir. Metodologiya (metod+... logiya) - fəaliyyətin quruluşu, təşkili, metod və vasitələri haqqında təlimdir (50, s.459). Əsl mənada metodologiyanın banisi hesab olunan F.Bekonun fikrincə, həqiqi biliyə həqiqi metod vasitəsilə nail olmaq mümkündür. R.Dekart metodologiyanı idrak prosesinin fəlsəfi əsaslandırılması hesab etmişdir. Hegel qeyd etmişdir ki, metod məzmunun hərəkətidir və buna görə də məzmunla əlaqədə nəzərdən keçirilməlidir. Müasir elmşünaslıqda metodologiya («metodəs»-latınca yol deməkdir) dedikdə elmi idrak fəaliyyətinin təşkilinin (qurulmasının) prinsip, forma və metodları haqqında təlim başa düşülür. Muzeyşünaslıqda metodologiyaya tarixi-mədəni gerçəkliyin, yəni tarixi-mədəni hadisə, fakt, proseslərin və münasibət haqqında nəzəri müddəaların məcmusu kimi baxılır. Tədqiqat metodları obyektiv reallığın dərki yolları və formalarından ibarətdir. Muzeyşünaslıqda aparılan tədqiqatların elmi nəticələrinin etibarlılığı, obyektivliyi həmin tədqiqatın mahiyyətini başa düşmək üçün tətbiq olunan yanaşma tərzindən asılıdır. Bu prosesdə idrak nəzəriyyəsinin əhəmiyyəti mühümdür və bu nəzəriyyə tədqiqatlar prosesində mühüm metodoloji əhəmiyyətə malikdir. Qeyd etmək lazımdır ki, bu proseslərdə elmi idrak istiqamətverici və həlledici funksiyanı yerinə yetirir. Yuxarıda qeyd edildiyi kimi tədqiqat nəticələrinin əldə edilməsində metodların mühüm əhəmiyyəti vardır. Hər bir elmdə olduğu kimi muzeyşünaslığın da metodlarından lazımınca istifadə edilməlidir və həmin metodlar öyrənilən hadisələrin mahiyyətini tam açmaqla həlledici rola malik olmalıdır.

Muzey fəaliyyətinin xarakterik əlaməti onun mərhələliyi, bir qaydada baş verməsi, ayrı-ayrı tarixi dövrlərin nümunələrinə elmi-yaradıcı münasibətin göstərilməsi, muzey tədbirlərində müxtəlif yaş qrupuna mənsub insanların aktiv iştirak etməsi ilə səciyyələnir. Əlbəttə, bütün bu proseslərdə müxtəlif tədqiqat metodlarından hadisənin xüsusiyyətinə uyğun olaraq istifadə edilir və alınan nəticələr yekunlaşdırılır.

Muzeyşünaslıqda son illərdə tədqiqat metodları xeyli inkişaf etmiş, müxtəlif metodların kompleks sistemindən istifadə reallığa çevrilmişdir. Həmin tədqiqat metodları sisteminə aşağıdakılar aiddir:

1. Müşahidə:
- açıq müşahidə;
- gizli müşahidə;
- əhatəli, geniş müşahidə;
- məhdud müşahidə;
- sistemli müşahidə;
- epizodik müşahidə.

Təbiidir ki, müşahidədən muzeyşunaslıqda bütün tədqiqatlarda istifadə edilir. Çünki bu müşahidələr nəzəri tətbiqi muzeyşünaslıq əhəmiyyətli hadisələrdən düzgün və dəqiq nəticə çıxarmağa imkan yaradır. Həmin nəticələr tədqiqatçıya aparılan tədqiqatla bağlı bu və ya digər dərəcədə nəzəri fikirlər irəli sürməyə əsas verir. Müşahidə metodu zamanı planlılıq prinsipinə əməl edilir və planda müşahidə obyekti konkret qeyd edilir, sonra isə onun təzahür xüsusiyyətləri diqqətlə araşdırılır. Tədqiqatçı aşağıdakı müşahidə mərhələlərinə diqqət yetirməlidir:

- müşahidə nə məqsədlə aparılır və onun vəziyyətlərinin əvvəlcədən dəqiqləşdirilməsi;
- tədqiqatın xarakterinə uyğun müşahidə qaydasının təyin edilməsi;
- müşahidə prosesində aparılacaq qeydiyyat qaydalarının qabaqcadan düzgün seçilməsi;

- müşahidə müddətinin, vaxtının əvvəlcədən təyini;

- müşahidə ediləcək obyektin əhatə dairəsinin dəqiqləşdirilməsi;

- müşahidə zamanı əldə olunan məlumatların təhlili və ümumiləşdirilməsi. Yuxarıda qeyd edilən mərhələlər biri-biri ilə sıx qarşılıqlı əlaqədə həyata keçirilir və biri digəri üçün zəminə çevrilir.

Müşahidə metodlarının müxtəlifliyinə diqqət yetirsək görərik ki, müşahidəçi, yəni tədqiqatçı bəzən həmin prosesin daxilində müşahidə edir, bəzən isə kənardan müşahidəçi rolunu oynayır.

Açıq müşahidə prosesində tədqiqatçı müşahidə olunan obyekt, qrup, hadisə və sairə ilə birbaşa münasibətdə ola bilər. Açıq müşahidə hər hansı muzey işçisi tərəfindən aparıla bilər və bu proses məqsədyönlü olmalıdır. Bir çox hallarda müşahidə ediləcək proseslə bağlı əvvəlcədən münasib nəzəri məlumatlar əldə edilə bilir. Bu da tədqiqatın daha səmərəli nəticə verməsinə səbəb olacaqdır.

Gizli müşahidə prosesində obyekt, hadisə, qrup, insan və sairə ilə gizli münasibət yaranır, yəni muzey tədqiqatçısı prosesi kənardan gizli şəkildə, xəbərsiz lakin planlı surətdə müşahidə edir və müəyyən mərhələlərdən sonra nəticələri ümumiləşdirir, belə müşahidə növünün əhəmiyyəti çox olur, çox lazımlı, dəyərli məlumatlar, faktlar əldə edilir.

Əhatəli, geniş müşahidələr nəticəsində də tədqiqat əhəmiyyətli, dəqiq məlumat və materiallar əldə edilir. Bu növ müşahidə prosesində tədqiqatçı üçün bir növ geniş imkanlar yaranır, tədqiqatın daha keyfiyyətli xarakter daşımasında əhatəli şərait daha çox «manevr»lər üçün mənbəyə çevrilir. Belə şəraitdə obyekt tam əhatə olunur, hətta bir neçə müşahidəçinin gücündən istifadə edilə bilər, əldə olunan məlumatlar nəticədə yekunlaşdırılır. Lakin bu zaman vahidlik prinsipinə mütləq əmək edilməlidir.

Məhdud müşahidə prosesində seçməyə üstünlük verilir.

Məsələn, sərgi zamanı tamaşaçı marağının müşahidəsi və s.

Sistemli müşahidə xeyli müddət davam edən uzunmüddətli müşahidədir. Bu zaman həm müddət baxımından, həm də mərhələlik və ardıcıllıq baxımından planlılığa rəayət edilməli, hər müddət ərzindəki müvafiq obyekt, hadisə, insan qrupuna və sairəyə edilən müvafiq müşahidələr ardıcıllığını itirməməli, elmi təsirini saxlamalı, sistemli xarakter daşımalıdır.

Epizodik müşahidə dövri xüsusiyyətə malikdir, ona nisbətən az vaxt sərf olunur.

Müsahibə vacib metoddur və bu metod vasitəsilə muzey əhəmiyyətli hadisəyə, fakta, əşyaya, materiala, eksponata, sərgiyə, ekspozisiyaya müxtəlif yaş qrupu və peşələrə malik insanların, tamaşaçıların, yaradıcıların, elm və sənət sahiblərinin münasibətləri müəyyən edilir. Fakt və hadisələr, nümunələr tədqiqatçı ilə digərlərinin canlı ünsiyyəti, söhbətləri vasitəsilə aşkarlanır. Əksər bu proses müşahidə nəticəsində əldə edilməyən məlumatın, faktların üzə çıxarılması məqsədilə həyata keçirilir və təbii səciyyəyə malikdir. Müsahibənin aşağıdakı növləri vardır:

- əvvəlcədən mövzusu dəqiqləşdirilməyən ümumi müsahibə;
- konkret istiqamət üzrə aparılan müsahibə;
- əvvəlcədən planlaşdırılmış suallar əsasında həyata keçirilən məlum müsahibə;
- əvvəlcədən planlaşdırılmış suallar əsasında cavabları yazılı şəkildə alınan intervyü.

Eksperiment tədqiqat metodundan muzeyşünaslıqda geniş istifadə olunur. Bu metodun mahiyyəti muzey işçisi ilə tamaşaçı fəaliyyətini müvafiq olaraq xüsusi şəkildə təşkil edərək irəli sürülən problem əhəmiyyətli fərziyyəni, ideyanı həmin şəraitdə öyrənməkdən ibarətdir. Məqsəd yaradıcı ilə tamaşaçı, tamaşaçı ilə nümunə, eksponat, muzey arasındakı qarşılıqlı əlaqələri, problem əhəmiyyətli məsələlərin, ideyaların dəyərlili-

yini əsaslandırmaqdan ibarətdir.

Eksperimentlər keçirilmə yerinə görə iki yerə - muzeydaxili və muzeydənkənar eksperimentlərə ayrılır.

Tədqiqatın məqsədindən asılı olaraq eksperimentlər aydınlaşdırıcı, yaradıcı və dəqiqləşdirici olmaqla üç yerə bolunürlər.

Muzeydənkənar eksperimentlər problemlə əlaqədar müxtəlif mövzulu səyyar sərgilərdə və digər muzey tədbirlərində, ayrı-ayrı şəxsi kolleksiyalarda, əşya və nümunələrin aşkarlandığı yerlərdə və sairədə həyata keçirilir.

Muzeydaxili eksperimentlər isə problemlə bağlı nəticənin əldə olunması məqsədilə muzey-daxili sərgi-ekspozisiyalarda, digər muzey tədbirlərində, muzey klublarında, muzey dərnəklərində və sairədə yerinə yetirilə bilər. Muzeydaxili eksperimentlər qabaqcadan planlaşdırılır, müvafiq mühit çərçivəsində həyata keçirilir. Bu növ eksperiment zamanı daha dəqiq məlumatlar, nəticələr əldə edilir.

Muzey eksperimenti müəyyənedici, yaradıcı və yoxlayıcı olmaqla üç yerə bölünür. Bu eksperimentlər məqsədindən asılı olaraq paralel, yaxud çarpaz şəkildə yerinə yetirilə bilər.

Muzey eksperimentləri ardıcıl olaraq 4 mərhələdə tamamlanır:

- planlaşdırılma prosesi;
- yerinə yetirilmə prosesi;
- yekunlaşdırılma prosesi;
- nəticələrin təhlili prosesi.

Muzeyşunaslıqda sosioloji tədqiqat metodları sayılan qiymətləndirmə və anketləşdirmə, riyazi statistik, test metodlarından da istifadə edilir.

Muzeyşunaslıqda mövcud olan bütün tədqiqat metodları arasında sıx qarşılıqlı əlaqəlilik vardır. Hər bir tədqiqat metodu tərkibində digər tədqiqat metodunun bir hissəsi mövcud olur. Məsələn, müşahidədə müəyyən nəticələrin əldə edilməsi üçün müəyyənləşdirmə, dəqiqləşdirmə, təyinetmə, hesablama, statistika mövcuddur. Yaxud eksperimentin tərkibində müəyyən qədər müşahidə, müsahibə elementləri mövcuddur. Sosioloji

tədqiqatlarda müəyyən qədər müşahidə, müsahibə, statistik elementlər vardır:

- qiymətləndirmə-müşahidə elementləri;
- anketləşdirmə-müşahidə və riyazi-statistik metod elementləri;
- riyazi-statistik metodların tərkibində müəyyən qədər qiymətləndirmə, müşahidə metodları elementləri;
- testlərdə müəyyən qədər müşahidələr, statistik metod elementləri və sairə mövcuddur.

Beləliklə, tədqiqat metodları nəinki biri-biri ilə qarşılıqlı əlaqədədir, həmçinin biri-digərinin yerinə yetirilməsinə kömək edir, müəyyən qədər tədqiqat metodları elementləri hər bir tədqiqat metodunda mövcudluq təşkil edir. Bu cür qarşılıqlı əlaqəlilik və tərkiblərdə digər metod elementlərinin mövcudluğu tədqiqatın gedişinə, səmərə və keyfiyyətinə təkan verir, onu effektli edir.

Muzeyşünaslıqda istiqamətlərinə görə nəzəri, tətbiqi, fundamental xarakterli tədqiqatlar mövcuddur. Adlarından məlum olduğu kimi məqsədlərinə görə tədqiqatlarda vacib istiqamətlər tətbiq edilir. Bu xarakterli tədqiqatlar da biri-biri ilə sıx qarşılıqlı əlaqədə olmaqla, müvafiq nəticələrin əldə edilməsinə köməklik göstərir. Nəzəri təhlillərin davamı tətbiqlə davam etdirilir, onunla tamamlanır. Tətbiqi tədqiqatlar zamanı da nəzəri təhlillərin elementləri mövcuddur. Digər tərəfdən isə, həm nəzəri, həm də tətbiqi xarakterli araşdırmaların ümumiləşdirilməsi fundamentallığa gətirib çıxarır.

Beləliklə, muzey fəaliyyətində mövcud tədqiqat metodları və istiqamətləri arasında sıx qarşılıqlı əlaqəlilik qanunauyğun şəkil alır. Muzeyşünaslıqda həmin qanunauyğunluğun mahiyyətini aşağıdakı kimi səciyyələndirmək olar: muzey fəaliyyətində mövcud tədqiqat metodları və istiqamətləri arasında əlaqəlilik nə qədər çox qiymətləndirilərsə, tədqiqatın məzmunu, nəticəsi bir o qədər dəqiq və səmərəli olar. Muzeyşünaslıqdakı həmin qanunauyğunluğu qanun formasında «Muzey fəaliyyətində mövcud tədqiqat metodları və istiqamətlərinin əlaqəsi» kimi ifadə etmək olar.

## 3.5. Muzey fəaliyyətinin imkanları üzrə qarşılıqlı əlaqələr və qanunauyğunluqlar

Muzey fəaliyyətində tərbiyəedici, təhsilləndirici, inkişafetdirici və formalaşdırıcı imkanlar mövcuddur. Həmin imkanlardan məqsədyönlü istifadə nəticəsində muzey tərəfindən qarşıya qoyulan məqsədə nail olunur. Bu imkanlar sayəsində müxtəlif istiqamətli elmi-bədii təsirlərin mövcudluğu, müxtəlif yaş qruplu insanlarda, müxtəlif peşə sahiblərində müvafiq zövqlərin, maraqların yaranması, ayrı-ayrı münasibətlərin formalaşması ilə nəticələnir.

### 3.5.1. Muzey fəaliyyətinin tərbiyəedici imkanları arasında qarşılıqlı əlaqə və onlardan istifadə

Muzeylər öz sosial funksiyaları vasitəsilə tərbiyə prosesinin yerinə yetirilməsinə nail olurlar. Elmi aşkarlama, sənədləşdirmə, mühafizə, bərpa, təbliğ, nümayiş digər funksiyaların tərbiyəedicilikdə mühüm rolu inkaredilməzdir. Elmin ayrı-ayrı sahələrinə marağın artırılması, aşkarlama prosesində mühitə və ayrı-ayrı tarixi dövrlərə məxsus əşyalara münasibətin formalaşdırılması, sənədləşdirmədə hüquqi-normativ aktlara və muzey fəaliyyəti prinsiplərinə əməl edilməsinin aşılanması, mühafizə, bərpa işlərinin müvafiq təlimatlar və əsasnaməyə əsasən aparılması, təbliğin, nümayişin yüksək səviyyədə həyata keçirilməsi vərdişi işçilərin peşəkarlıq nümunəsi kimi təcəssümünü tapır. Və həmin muzey işçiləri geniş tamaşaçı, seyrçi kütləsi qarşısında milli mövqedən çıxış edərək tarixi və zəngin dəyərlərimizə yüksək münasibət tərbiyə etməyə çalışmalıdırlar.

Muzeylər vasitəsilə məktəblilərlə tərbiyə işinin məqsədyönlü aparılmasına ciddi fikir verilir. Muzey-məktəb münasibətlərinin mühitə müvafiq, eyni zamanda tələbata uyğun qurulması üçün təbii ki, yüksək peşəkarlıq tələb olunur. Peşəkar

muzey işçiləri məktəblilərlə fəaliyyət prosesində yaş qrupunu və onların ailə-məişət şəraitlərini nəzərə almalı, müvafiq münasibət bəsləməlidirlər:

- muzey işçiləri öz peşəkarlıqlarının mütəmadi artırılmasına diqqət yetirməlidirlər;

- nəzəri və təcrübi fəaliyyət istiqamətləri baxımından ayrı-ayrı yaş qruplarına uyğun elmi-bədii yanaşmaya malik olmalıdırlar;

- regionun, rayonun, şəhərin, qəsəbənin, kəndin mühitinə uyğun tərbiyəvi təsir metodu, forması seçilməlidir;

- nümayişin həyata keçirilməsi təbliği mövzusuna uyğun, maraqlara müvafiq eksponatın seçilməsi diqqət mərkəzində olmalıdır;

- tərbiyə prosesinin istiqamətinə uyğun fəaliyyət forması seçilməlidir;

- tədbir boyu tərbiyəvi istiqamətdə maraqların yaradılmasına ciddi fikir verilməlidir;

- çalışmaq lazımdır ki, məktəblilərə bədii bacarıq və qabiliyyətlərin aşılanması onlarda tərbiyə prosesinin inkişafına fəal təsir göstərsin.

Muzeylər vasitəsilə uşaq və yeniyetmələrin əqli tərbiyəsi prosesi muzeyin gücü daxilində həyata keçirilməklə milli xüsusiyyətlərə uyğun mexanizm əsasında yerinə yetirilir. Uşaq və yeniyetmələrin əqli tərbiyəsi prosesində aşağıdakı başlıca tələblər nəzərə alınmalıdır:

- uşaq və yeniyetmələrin zehni inkişafına təkan verən metodlardan və formalardan istifadə edilməlidir:

- kiçik yaş qruplu uşaqlar üçün müvafiq əlaqə formaları seçilməlidir;

- kiçik yaş dövrü (6-10 yaş) nəzərə alınmalı, əyani-illüstrativ vasitələrə və söz ehtiyatının artması dövrünə uyğun tərbiyə prosesinin seçilməsinə diqqət artırılmalıdır;

- kiçikyaşlı məktəblilərin ətraf aləmin həvəslə qavramalarına müvafiq, emosionallıqlarına uyğun tərbiyə vasitələrindən

istifadə olunmalıdır;

- muzey işçiləri şagirdləri məqsədyönlü dinləməyə vadar etmək, onlarda müşahidəçilik qabiliyyətlərini inkişaf etdirmək istiqamətində informasiyadan yetərincə istifadə etməlidirlər;

- əqli tərbiyə istiqamətində muzeylər ən müasir texniki vəsaitdən istifadə etməlidirlər və s.

İdeya-mənəvi tərbiyə işinin muzeylər vasitəsilə həyata keçirilməsinin başlıca tələbləri aşağıdakılardır:

- elmi-dünyagörüşü, əqidə, xalqımızın adət və ənənələrinə sədaqət, vətənpərvərlik, humanizm, vətəndaşlıq borcunun dərki və sair kefiyyətlərin formalaşdırılmasında sərgi və digər muzey tədbirlərindən maksimum istifadə edilməlidir;

- bugünə qədərki ictimai-mənəvi hadisələrin mahiyyəti və məzmununun düzgün dərki, qiymətləndirilməsi istiqamətində eksponatların gücündən maksimum istifadə edilməlidir;

- ideya-mənəvi tərbiyə istiqamətində uşaq və yeniyetmələrin I muzey klubları, dərnəkləri və olimpiadalara cəlb edilməsinə diqqət yetirilməlidir;

- müasir texniki vəsaitlərin gücündən istifadə etməklə ideya-mənəvi tərbiyə əhəmiyyətli tarixi-mədəni faktların abidələr və eksponatların hərtərəfli izahı vasitəsilə uşaq və yeniyetmələrdə maraqların artırılmasına nail olunmalıdır və sair.

Yeniyetmə gənclərdə əmək tərbiyəsinin təbliği və bu sahəyə maraqların artırılması istiqamətində muzey fəaliyyətinin mühüm əhəmiyyəti danılmazdır. Bu istiqamətdə işin səmərəsi naminə muzeylərdə aşağıdakı başlıca tələblərə əməl edilməlidir:

- əməyə yaradıcı münasibət bəslənilməsinə diqqət yetirilməlidir;

- ayrı-ayrı peşələrə həvəsin, marağın yaradılması istiqamətində sərgi və digər muzey tədbirlərinin əhəmiyyətini qiymətləndirmək;

- gənc nəslə gələcək əmək hazırlığının məqsəd və vəzifələrini eksponatlar vasitəsilə aşılamaq;

- muzey mühiti vasitəsilə uşaq və yeniyetmələrdə elmi-yaradıcı, nəzəri və təcrübi vərdişlərin formalaşdırılmasının mütəmadiliyi;

- muzey daxilində uşaq və yeniyetmələrin müasir texnologiyanın gücü vasitəsilə qismən əməyə cəlb edilməsinin təkmilləşdirilməsi və s.

Əxlaq tərbiyəsinin muzey fəaliyyəti vasitəsilə məzmununun əhatəsi prosesində aşağıdakı mühüm amillər nəzərdə saxlanılmalıdır:

- uşaq və yeniyetmələrdə milli mənlik şüurunun və ləyaqətin tərbiyə edilməsi;

- Vətənə məhəbbət ruhunda gənclərin tərbiyəsi;

- insanlara hörmət və qayğı bəslənilməsinin aşılanması;

- düzlük və doğruçuluq, dostluq və yoldaşlıq, əməksevərlik, ailə həyatına dərin hörmətin tərbiyə edilməsi;

- əxlaq tərbiyəsi istiqamətində kompleks fəaliyyətin təmini;

- dünya şöhrətli müdriklərimizin, sənətkarlarımızın əsərlərindən istifadə etməklə əxlaq tərbiyəsi işini müvafiq şəkildə həyata keçirmək;

- muzeylərin ümumtəhsil məktəbləri və digər təhsil müəssisələri ilə əlaqəli fəaliyyətlərinin təşkili və s.

Müxtəlif profilli muzeylərin fəaliyyəti bir daha sübut edir ki, məhz muzeylər vasitəsilə aparılan işlərin təsiri sayəsində məktəbli gənclərin, müxtəlif yaş qrupuna mənsub insanların, müxtəlif peşə, sənət sahiblərinin estetik görüşlərinin formalaşması, bədii yaradıcılığa münasibətlərinin artması mühüm əhəmiyyət kəsb edir.

Muzeylər vasitəsilə həyata keçirilən estetik tərbiyə işi prosesində aşağıdakı vəzifələr əsasən yerinə yetirilməlidir:

- güclü estetik təsirə malik sərgilərin təşkili;

- estetik ruh yaratmağa qabil eksponatların sərgi, ekspozisiya üçün seçilməsi;

- bədii profilli muzeylərin gücündən estetik tərbiyə

istiqamətli tədbirlərin təşkilində istifadə;

- müntəzəm, sistemli ekskursiyalardan istifadə etməklə, bədii-estetik marağın yaradılmasına nail olmaq;
- ayrı-ayrı incəsənət əsərlərinin nüsxələri, surətlərindən istifadəni qiymətləndirmək;
- ayrı-ayrı tarixi dövrlər, sənətkarlar, yaradıcılıq nümunələri, əsərlər haqqında nəzəri məlumatların sistemli şəkildə tamaşaçıya çatdırılması;
- muzey bələdçilərinin bilik və bacarıqlarından istifadə;
- estetik tərbiyə istiqamətli xüsusi məlumat kitabçalarının, açıqcaların çapı və məktəblilərə ekskursiyadan qabaq paylanması;
- səyyar sərgilər və digər muzey tədbirlərinin təşkili;
- muzey-məktəb-ailə əlaqələrinin əhəmiyyətinin qiymətləndirilməsi və s.

Muzeylər vasitəsilə vətənpərvərlik tərbiyəsinin aşılanması imkanları da geniş yayılmaqdadır. Vətənimizə, tarixi dəyərlərimizə, çox qədim adət-ənənələrimizə, zəngin ədəbiyyat və incəsənətimizə, bu günə qədər müxtəlif tarixi dövrlərdə sənətkarlarımız tərəfindən yaradılmış çox zəngin bədii dəyərə malik nümunələrimizə, abidələrimizə, ümumiyyətlə ulu keçmişimizə hörmət və məhəbbətin tərbiyə edilməsi, həmin imkanların dərindən öyrənilməsi istiqamətində fundamental tədqiqatların aparılması baxımından muzeylər böyük, həm də zəngin və əvəzedilməz mənbədir.

Tərbiyəedici imkanlar sırasında ailə, məktəb, ayrı-ayrı muzeydənkənar tərbiyə ocaqları, ictimai təşkilatlarla muzeylərin qarşılıqlı əlaqə formalarının da əhəmiyyəti mühümdür ki, bu əlaqəlilik kompleks xarakter kəsb etməlidir.

Tərbiyəedici imkanlar arasındakı əlaqələrin sistemli, müvafiq prinsiplər əsasında, planlı şəkildə aparılması da mühüm əhəmiyyətə malikdir. Bütün bunlar muzeyin kollektivi tərəfindən cari və perspektiv fəaliyyətində qabaqcadan nəzərdə tutulmalıdır və planlaşdırılmalıdır.

Beləliklə, fəaliyyət prosesində muzeyin tərbiyəedici imkanlarının biri-biri ilə sıx qarşılıqlı əlaqəsi getdikcə qanunauyğun şəkil alır və muzeyin inkişafına müsbət təsir göstərir. Muzeyşünaslıqda bu qanunauyğunluğu aşağıdakı şəkildə səciyyələndirmək olar: muzey fəaliyyətində tərbiyəedici imkanlar arasındakı əlaqələrin sistemliliyi, prinsipliyi, planlılığı keyfiyyətli elmi-əməli xarakterə malik olarsa və kompleks fəaliyyətə təkan verərsə, inkişafa, tərəqqiyə bir o qədər tez nail olunar. Muzeyşünaslıqdakı həmin qanunauyğunluğu qanun formasında «Muzey fəaliyyətinin tərbiyəedici imkanlarının bir-birilə sıx əlaqəsi qanunu» kimi səciyyələndirmək olar.

### 3.5.2. Muzey fəaliyyətinin təhsilləndirici imkanları arasındakı əlaqələr və onlardan istifadə

Muzey fəaliyyəti tərkibində təhsilləndiricilik prosesinin əhəmiyyəti mühümdür. Məlumdur ki, təhsilləndiricilikdə mürəkkəblik mövcuddur. Muzey tənəzzöhləri, muzey dərsləri, muzey dərnəkləri, klubları, olimpiadaları, müsabiqələri, muzey mühazirələri, tematik gecələr, muzeydaxili elmi-köməkçi otaqların fəaliyyəti, muzeydaxili və muzeydənkənar kompleks elmi-maarif və ideya-tərbiyəvi tədbirlərin qarşılıqlı əlaqəliliyi təhsilləndiricilik üçün mənbədir. Muzey fəaliyyətində mühüm mexanizm hesab edilən ekspozisiyanın müxtəlif yaş qrupuna mənsub insanların qavrama qabiliyyətlərinin inkişafında əsas və aparıcı təsir gücünə malik olması danılmazdır. Bu prosesdə ekspozisiyanın quruluşunun, eksponatların düzülmə metodlarının, mövzu quruluşunun, materialların məktəblilərin, eləcə də digər yaş qruplu insanların maraq və dünyagörüşlərinə təsirinin də mühüm əhəmiyyəti özünü qabarıq göstərir. Məktəblilərin qavrama qabiliyyətlərinin inkişafında, ayrı-ayrı fənlərə maraqların artırılmasında, bilavasitə məktəbin daxili mühitində muzeyşünaslıq əhəmiyyətli tədbirlərin həyata keçirilməsində məktəb muzeylərinin də əhəmiyyəti uzun illərdir ki, özünü göstərir.

Məktəbdaxili mühitdə fəaliyyət göstərən məktəb muzeyləri tez bir zamanda özünə daha çox məktəbyaşlı tamaşaçı cəlb etmək imkanlarına malikdir:

- birincisi, muzeyə getmək üçün heç bir nəqliyyat vasitəsindən istifadə etməyə ehtiyac qalmır;
- İkincisi, məktəb öz kütləvi tədbirlərinin əksər hissəsini muzeylə əlaqəli şəkildə təşkil etməyə nail olur ki, bu da şagirdlərin bədii yaradıcılığa, tarix və etnoqrafiyaya, dekorativ-tətbiqi sənətkarlığa, arxeologiya və toponimikaya və sairəyə maraqlarını tez bir zamanda artırır;
- üçüncüsü, məktəb, valideyn, muzey əlaqələri yaranır;
- dördüncüsü, bədii silsilə fənlərinin bir hissəsinin məktəb muzeyində keçirilməsi prosesi həyata keçirilir ki, bu da tədrisə çox müsbət təsir göstərir;
- beşincisi, şagirdlərə dərsdən sonrakı asudə vaxtlarını muzey eksponatları arasında keçirməyə imkan yaradılır;
- altıncısı, muzey tərəfindən məktəbdə mütəmadi olaraq silsilə sərgi və tədbirlərin keçirilməsinə şərait yaradılır;
- yeddincisi, şagirdlərin məktəb muzeyləri vasitəsilə biliklərinin bacarıq və vərdişlərə təcrübi şəkildə keçilməsinə nail olunur və sair. Bir sözlə, məktəb muzeyinə tez-tez planlı şəkildə səyahət edərək eksponatları dərindən öyrənmək şagirdlərdə vərdiş halına keçir və şagird ayrı-ayrı fənlər üzrə sinifdə əldə etdiyi nəzəri bilikləri əyani illüstrativ şəkildə öz yaddaşına göçürərək möhkəmləndirir və belə hər hansı hadisənin, dövrün, faktın uzunmüddətli yaddaqalmasına səbəb olur.

Digər tərəfdən, hələ məktəb illərindən, ibtidai sinif yaş dövründən başlayaraq məktəb muzeyləri vasitəsilə muzey haqqında, eksponat haqqında təsəvvürlər genişlənir, tariximiz, arxeologiyamız, etnoqrafiyamız, incəsənətimiz, memarlığımız, bədii sənətkarlığımız, dekorativ-tətbiqi sənətkarlığımız haqqında fikirlər formalaşır, inkişaf edir. Məktəb muzeyləri vasitəsilə baş verən belə formalaşma, dövlət muzeylərinə olan maraqları getdikcə artırır. Uşaq yaşlarından baş verən bu pro-

seslər, hətta sonralar peşəyönümü üçün bazaya da çevrilə bilər. Buna görə də hər bir məktəb muzeyi əhatədə, yaxın rayonda, ərazidə olan dövlət muzeyləri ilə, abidə kompleksləri ilə sıx qarşılıqlı əlaqədə olmalı, əlbir fəaliyyət sistemi yaratmalıdırlar.

Muzeylər vasitəsilə təhsilləndiricilik vasitələrinin təsnifatını aşağıdakı kimi vermək olar;

- sərgilər;
- eksponatlar;
- muzey otaqları;
- muzey klubları;
- tənəzzöhlər;
- muzey olimpiadaları;
- muzey dərnəkləri;
- görüşlər (görüş-müsahibə, görüş-konsert, görüş-söhbət, görüş-viktorina, görüş-müsabiqə);
- muzey gecələri (elmi, yaradıcı, sual-cavab);
- muzey disputları;
- muzey dərsləri;
- muzey mühazirələri və tematik gecələri;
- konfranslar;
- dəyirmi masalar;
- söhbətlər;
- viktorinalar və s.

Muzeylərdə təhsilləndiricilik vasitələrindən biri və ən əsası sərgilərdir. Sərgilər muzeydaxili və səyyar, muzeydənkənar fəaliyyət prosesində bütün yaş qruplu insanlara maarifləndirici, öyrədici təsir göstərir ki, bu prosesdə əyanilik mühüm əhəmiyyətə malikdir, eyni zamanda uzunmüddətli yaddasaxlamağa böyük kömək edir. Əlbəttə, sərginin mövzusunun, təşkili metodikasının, daxili mühitinin, istifadə olunan texniki vasitələrin, işçi potensialının və sairənin də təhsilləndiricilikdə əhəmiyyəti böyükdür. Burada mövzu aktuallıq kəsb etməli, günün tələblərinə uyğun olmaqla bütün yaş qrupları üçün maraq doğurmalıdır. Xüsusən məktəblilər və tələbələr sərgi mühitin-

dən, eksponatlardan istifadə etməklə, ayrı-ayrı elmlər üzrə müvafiq bilikləri əldə edə bilirlər, öz biliklərinin əyani olaraq tarixi-bədii gücə malik eksponat vasitəsilə daha da «təsdiqinə» nail olmalıdırlar.

Profillərindən asılı olaraq muzeylər də təhsilləndiricilik istiqamətli xüsusiyyətə malikdir. Yəni tarix-etnoqrafiq muzeylərin sərgiləri vasitəsilə tarix, etnoqrafiya, arxeologiya və digər elmlərin, ədəbiyyat muzeylərinin sərgiləri vasitəsilə filologiyanın, incəsənət muzeyləri sərgiləri vasitəsilə incəsənətin ayrı-ayrı sahələrinin, diyarşünaslıq muzeyləri sərgiləri vasitəsilə müvafiq diyarın, rayonun, ərazinin tarixi-inkişaf fəaliyyətinin, ev-xatirə muzeyləri sərgilərinin vasitəsilə müvafiq olaraq insanın keçdiyi həyat yolu və fəaliyyətinin məqamlarını təfəkkür tərəfindən «qəbul etmək» prosesi baş verir ki, bu da həmin sahənin kompleks şəkildə öyrənilməsi ilə nəticələnir. Burada təhsilləndiriciliyə kömək edən hər bir elementin təsir səviyyəsi, keyfiyyəti muzey işçisi tərəfindən, rəhbərlik tərəfindən ölçülüb-biçilməli, götür-qoy edilməlidir.

Sərgi vasitəsilə elmin hər hansı sahəsi üzrə:

- nəzəri biliklər təcrübi olaraq əyani şəkildə faktla (eksponatla) müqayisə edilir və bu proses aktiv təfəkkür vasitəsilə tez, operativ, passiv təfəkkür vasitəsilə isə gec, ləng yerinə yetirilir;
- nəzəri biliklərin əhatəli müqayisəsi üçün hərtərəfli şərait yaradılır, inandırma tam şəkildə həyata keçirilir;
- problem haqqında kompleks şəkildə məlumat əldə edilir;
- elmi faktlar dəqiqləşdirilir, yekun nəticələr əldə edilir və s.

Eksponat muzeyin fəaliyyətinin əsas vasitəsidir və eyni zamanda təhsilləndiricilik bu və ya digər şəkildə məhz eksponat vasitəsilə baş verir. Eksponatın elmi təsir gücü nə qədər çox olarsa, təhsilləndiricilik prosesi də bir o qədər keyfiyyətli olar. Eksponat konkretliyə malik olduğuna görə də onun vasitəsilə müvafiq elmi konkretliyə nail olunur. Təsviri sənət əsərləri, kino, televiziya, radio, audio-video material nümunələri, foto-

materiallar, fotoəsərlər, dizayn işləmələri, memarlıq layihələri, əlyazmalar, xüsusi əhəmiyyətli kitab və kitabçalar, dövri mətbuat materialları, avtoqraflar, markalar, açıqcalar, arxiv sənədləri, not yazıları, elmi-tarixi yadigarlar, məktublar, nadir nəşrlər, tətbiqi sənət əsərləri, xalılar, xalça məmulatları, qızıl, platin, gümüşdən hazırlanan nümunələr, qiymətli daşlar, mis və gildən hazırlanmış əşyalar, keramika məmulatı, dekor nümunələri, butaforiya, rekvizitlər, musiqi əsərləri, qədim nadir kolleksiyalar, otuz ildən çox tarixə malik muzey əhəmiyyətli əşyalar, şifahi xalq yaradıcılığı nümunələri, arxeoloji və numizmatik xarakterli kolleksiyalar, əşyalar, memarlıq, tikinti nümunələri, minerologiya, anatomiya nümunələri və sair əşyalar özlərinə uyğun təsir xüsusiyyətinə malik olduğundan müvafiq təhsilləndiricilik imkanlarını cəmləşdirmişlər.

Eksponat:

- tamaşaçıda müxtəlif istiqamətli təsirə malikdir;
- müxtəlif yaş qruplu insanları müvafiq istiqamətdə düşündürür;
- müxtəlif biliklərin əldə olunmasında əsas mənbədir;
- nəzəriyyənin təcrübi təsdiqi mənbəyidir;
- birbaşa təsirə malikdir;
- təhsilləndiricilik maraqları yaradır və bu maraqları daha da dərinləşdirir;
- tədqiqat mənbəyidir;
- zənginləşdirici mənbədir;
- ilk təəssüratlar yaradır və s.

Eksponat sərgi, ekspozisiya ilə bilavasitə bağlı olduğundan, yəni onlarsız təsir gücünə əhəmiyyətli dərəcədə malik olmadığından onu ayrılıqda bir o qədər də təsəvvür etmək çətindir. O, öz gücünü məhz ekspozisiyada, sərgi zamanı göstərir, digər eksponatlarla əlaqəli şəkildə güclü elmi-bədii, estetik təsir qüvvəsinə malik olur.

Muzey otaqları vasitəsilə muzeyin fəaliyyəti, fondun, elmi-təcrübi təsir dərəcəsi, tərbiyəvi məzmunu, təhsilləndirici,

formalaşdırıcı, inkişafetdirici funksiyalarından səmərəli istifadə, eksponatların təkrarlarının əldə edilməsi və onlarla əməli davranma prosesinin təbliği, muzey əhəmiyyətli məsləhətləşmələr, məqsədyönlü muzey tədbirləri və sair istiqamətli işlər yerinə yetirilir ki, bunların da təhsilləndiricilik səviyyəsi əhəmiyyət kəsb edir. Muzeyin böyüklüyü, yaxud kiçikliyi nöqteyinəzərindən muzey otaqlarının çoxluğu, yaxud məhdudluğu münasiblik təşkil edir. Təbiidir ki, muzey otaqlarının çoxluğu fəaliyyət məzmunu baxımından həm kəmiyyət, həm də keyfiyyət üstünlüyünə malik olacaqdır. Digər tərəfdən isə, bu keyfiyyətlər eyni zamanda muzeyin təşkilatçılıq fəaliyyətilə münasiblik təşkil edəcəkdir, yəni həm elmi-nəzəri, həm də elmi-təcrübi, bədii nəticələrin də keyfiyyəti yuxarıdakı istiqamətlərlə müəyyən dərəcədə ölçülür.

Təhsilləndiricilik vasitəsi kimi muzey klub-larının mövzu və məzmun etibarilə müxtəlif qrupluluğu ümumilikdə muzey fəaliyyətinin rəngarəngliyi və səmərəliliyi üçün zəminə çevrilir. Profilindən asılı olaraq muzey klublarının fəaliyyət məzmunu müvafiqlik təşkil edir.

Muzey tənəzzöhlərinin təhcilləndiricilik təsiri mühüm əhəmiyyət kəsb edir. İlk təəssüratdan tutmuş, tənəzzöhün nəticəsinin müzakirələri də daxil olmaqla zənginləşmə prosesi ayrı-ayrı sahələr üzrə biliklərin əldə olunmasına şərait yaradır. Bu zaman yaş qrupu, ixtisas, qavramaya olan tələbatlar və sairə nəzərə alınmaqla tənəzzöhlər yüksək elmi-bədii səviyyədə təşkil edilməlidir.

Müxtəlif istiqamətli tənəzzöhlər keçirilmə yeri, məkana-sərgiyə, ekspozisiyaya görə müvafiq təsiretməyə, zənginləşməyə səbəb olur. Mövzu xüsusiyyəti, məqsədi, tərkibinə görə tənəzzöhlər zamanı da muzey işçisinin peşəkarlığı əhəmiyyətlidir. Tədris əhəmiyyətli tənəzzöhlər dərs prosesi və metodik əhəmiyyətləri baxımından əhatəli olmalıdır.

Təhsilləndiricilik prosesində muzey olimpiadalarının təsir gücü böyükdür. Məhz belə təsir gücü nəzərə alınmaqla

müxtəlif profilli muzeylər olimpiadalara əhəmiyyətli yer vermişlər. Bu prosesdə elmi-yaradıcılıq, elmi-bədii bacarıqların ön plana çəki-lməsinə, həvəslərin, maraqların məqsədyönlü olaraq istiqamətləndirilməsi, qiymətləndirilməsinə, qabiliyyətli insanların seçilməsinə təbii ki, xüsusi diqqət yetirilməlidir.

Təhsilləndiricilikdə əhəmiyyət kəsb edən muzey dərnəklərinə pedaqoqlar (muzeyə dəvət edilən) tərəfindən rəhbərlik edilir. Həm muzey işçiləri, həm də müxtəlif yaş qruplu tamaşaçı kütləsi üçün təşkil edilən bu dərnəklər profillərinə görə təsir istiqamətli olur. Təbii ki, dərnəklərin məqsədi müxtəlif yaş qruplu və ixtisaslı insanlarda maraqları artırmaq, dəyərləndirmək, cavablandırmaqdan ibarətdir. Bu dərnəklərdə tarix, təsviri sənət, ədəbiyyat, musiqi, dekorativ-tətbiqi sənətkarlıq, bədii texniki, muzeyşünaslıq və digər sahələr üzrə biliklər verilir. Qeyd olunmalıdır ki, bu dərnəklər muzey vasitəsilə fəaliyyət göstərdiyindən digər imkan və vasitələrlə sıx qarşılıqlı əlaqədə öz təsirini göstərir.

Muzey vasitəsilə keçirilən görüşlər (görüş-müsahibə, görüş-konsert, görüş-söhbət, görüş-viktorina, görüş-müsabiqə) zamanı müxtəlif elm və sənət xadimləri, maarifçilər, pedaqoqlar, ayrı-ayrı sahələr üzrə mütəxəssislər tədbir iştirakçılarını müxtəlif bilik sahələri ilə zənginləşdirir, bu proses bilik-bacarıqların daha da artmasına səbəb olur. Belə görüşlərin daha da maraqlı təşkili üçün digər muzey vasitələrindən, ünsürlərdən əlaqəli şəkildə istifadə olunmalı, kompleks istifadə öz müsbət təsirini göstərməlidir. Təbiidir ki, belə görüşlərdə eksponat, sərgi, ekspozisiya, fond fəaliyyəti, muzey təcrübəsi və sairə ilə qarşılıqlı əlaqəlilik tədbirin effektini qat-qat artırır.

Muzeylərdə elmi, yaradıcı, bədii əhəmiyyətli sual-cavab gecələrinin təşkili müasir tamaşaçı üçün vacibdir. Təbiidir ki, belə gecələrdə eksponatsız, sərgisiz keçinmək qeyri-mümkündür. Eksponat, muzey əşyası, ekspozisiyanın təsir gücündə daha çox emosiya yaradır. Belə gecələrdə müasir texnologiyanın gücündən yetərincə istifadə edilməklə eksponat, yaradıcı,

mühit və digər ünsürlər arasındakı sıx əlaqəlilik lazımi nəticənin əldə olunmasına gətirib çıxarır, gecənin iştirakçısı müvafiq bilik və bacarıqlarla zənginləşir.

Muzey disputlarının da təhsilləndiricilik təsiri kifayət qədərdir. Disputlarda istifadə edilən suallar, faktlar, materiallar bilavasitə muzey eksponatları ilə sıx bağlı olduğundan, qarşılıqlı əlaqəli fəaliyyətə xüsusi diqqət verilməlidir. Bu zaman yaş qrupu, auditoriyanın sosial, elmi dərəcəsi nəzərə alınmaqla eksponat, əşya, materiallardan istifadə dərəcəsi təyin edilməlidir.

Məktəblilər və digər yaş qrupuna mənsub insanlar üçün təşkil edilən muzey dərslərinin təhsilləndiricilik təsiri daha böyükdür.

Ekspozisiyada, muzey otaqlarında, fondun müvafiq yerində təhsilləndiricilik baxımından muzey dərslərinin məqsədyönlü təşkili vacibdir. Belə ki, məktəblilərlə təşkil edilən muzey dərslərində bədii silsilə fənlərinin yaddaşda daha da möhkəm-ləndirilməsi məqsədilə əyanilik prinsipi əsasında eksponat və yaxud materialdan, əşyadan istifadə etməklə, nəzəri məlumatların, faktların elmi ardıcıllıqla çatdırılması vacibdir. Yaxşı olardı ki, tədris proqramlarına müvafiq olaraq muzey dərslərində mövzular planlaşdırılsın, tədrisetmə ardıcıllığı nəzərə alınsın. Muzey dərslərinin təşkili prosesində müvafiq başlıca tələblərə əməl edilməsi vacibdir.

Dərsin səmərə və keyfiyyətli aparılması üçün digər muzey ünsürləri, tədbirləri, vasitələrinin qarşılıqlı əlaqəli şəkildə tənzimlənməsi mühümdür. Eyni zamanda muzey dərsi zamanı peşəkar muzey işçisi təcrübəli pedaqoq-maarifçi, elmi işçi, tədqiqatçıya böyük ehtiyac duyulur. Çünki, eksponat önündə, ekspozisiyada, muzey otağında dəqiq məlumat verilməli, maraq doğuran tarixi faktlara istinad olunmalıdır.

Muzey mühazirələri və tematik gecələrin də təhsilləndiricilik təsiri kifayət qədərdir. Bədii mahiyyətli və məzmunlu kütləvi mühazirələr muzey mühiti təcrübəsində təşkil edildiyindən, müvafiq vasitələrlə əlaqəli mahiyyət kəsb edir. Belə

mühazirələr muzey fondu materialları önündə, ekspozisiyada, təmir emalatxanasında material, əşya, eksponatla təmaslıq vəziyyətində keçirildikdə elmi-bədii, estetik təsir daha güclü olur.

Muzey fəaliyyəti ilə bağlı tematik gecələr digər muzeylərlə əlaqəli şəkildə, sənətşünasların, təhsil işçilərinin bilavasitə iştirakı ilə keçirildikdə daha səmərəli nəticələr əldə edilir.

Digər rəngarəng muzey tədbirlərinin-konfransların, dəyirmi masaların, söhbətlərin, viktorinaların və sairənin təhsilləndiricilik əhəmiyyəti çoxdur. Hər tədbirə müvafiq olaraq muzey eksponatı, materialı, əşyasından elmi-yaradıcı şəkildə istifadə edilməli, tamaşaçıya lazımi biliklərin verilməsi prosesində müxtəlif muzey işi formalarından səmərəli istifadə edilməlidir.

Təhsilləndiricilik imkanlarından istifadə prosesi müvafiq qanunlar çərçivəsində və müvafiq fərman, sərəncam, təlimatlar əsasında mövcud metodlar, formalar, vasitələr, yollarla yerinə yetirilir. Eyni zamanda onlar arasında da sıx qarşılıqlı əlaqəlilik mövcuddur.

Beləliklə, fəaliyyət prosesində muzeyin təhsilləndirici imkanlarından əlaqəli şəkildə istifadə getdikcə qanunauyğun şəkil alır və bu qanunauyğunluq muzeyin ümumi inkişafını daha da sürətləndirir. Muzeyşünaslıqda mövcud olan həmin qanunauyğunluğu belə səciyyələndirmək olar: muzeyin təhsilləndirici imkanlarından qarşılıqlı əlaqəli şəkildə müvafiq metod, forma, vasitə və yollardan istifadə edilməklə istifadə edilərsə, inkişaf prosesi də buna uyğun olaraq surətli xarakter alar. Muzeyşünaslıqdakı həmin qanunauyğunluğu qanun formasında «Muzey fəaliyyətinin təhsilləndirici imkanlarının biri-birilə sıx əlaqəsi qanunu» kimi qəbul etmək olar.

### 3.5.3. Muzey fəaliyyətinin inkişafetdirici, formalaşdırıcı imkanlarının qarşılıqlı əlaqəsi və onlardan istifadə

Muzeylər müxtəlif yaş qrupuna mənsub insanların inkişafetdirici və formalaşdırıcı imkanlarına malik mədəniyyət

müəssisələridir. Bu imkanlardan istifadə prosesi kompleks şəkildə həyata keçirilməlidir. Komplekslilik dedikdə həm muzeyətrafı mühitlə muzeyin qarşılıqlı əlaqəsi prosesində mövcud imkanlar, həm də muzeydaxili fəaliyyət zamanı mövcud imkanlardan səmərəli istifadə qanunauyğun şəkil alır. Muzey tərəfindən inkişafetdirici, formalaşdırıcı imkanlar da məhz muzeydənxaric və muzeydaxili fəaliyyətdə əlaqəlilik prosesində daha effektli nəticələrə səbəb olur.

Muzeydənkənar mühit mühit mürəkkəb, rəngarəng fəaliyyətdə olduğundan, muzeyin də həmin mühitin ayrı-ayrı sahələrinə müvafiq fəaliyyətdə iştirakı və inkişafetdirici, formalaşdırıcı imkanların muzey işçiləri tərəfindən lazımınca qiymətləndirilməsinin dərəcəsi yaradıcı aktivliyin səviyyəsini təyin etməyə şərait yaradır. Yəni muzeyin fəaliyyət aktivliyi ilə imkanlardan istifadə biri-biri ilə düz mütənasiblik təşkil edir.

Muzeydənkənar mühitə və oradakı fəaliyyətə aiddir:

- digər muzeylərin sərgi salonlarının, şəxsi kolleksiyaların fəaliyyəti;
- Azərbaycan Milli Elmlər Akademiyasının müvafiq elmi-tədqiqat instututlarının fəaliyyətləri;
- muzeydənkənar mədəniyyət müəssisələrinin fəaliyyəti;
- elm və təhsil müəssisələrinin fəaliyyəti;
- məktəbdənkənar tərbiyə müəssisələrinin fəaliyyəti və sair.

Muzeydaxili mühitin fəaliyyətinə aiddir:

- muzey fondunun fəaliyyəti;
- muzey ekspozisiyalarının fəaliyyəti;
- muzey kitabxanasının fəaliyyəti;
- ayrı-ayrı muzey otaqlarının fəaliyyəti;
- muzeyin bərpa komissiyasının və emalatxanasının fəaliyyəti;
- muzeyin elmi şurasının fəaliyyəti;
- muzeyin satınalma komissiyasının fəaliyyəti;
- muzey dərnəklərinin fəaliyyəti;
- muzeyin bölmə və şöbələrinin fəaliyyəti və sair.

Muzeydənkənar mürəkkəb mühit vasitəsilə inkişafet-

diricilik və formalaşdırıcılıq imkanları geniş əhatəlidir. Ayrı-ayrı muzeylər, sərgi salonları, şəxsi kolleksiyaları böyük təsir gücünə malikdir. Muzey bilavasitə həmin əməliyyatlar kompleksi ilə qarşılıqlı əlaqədə, fəaliyyətdə olduqda imkanlar daha böyük təsir gücünə malik olur. Kompleksliilik, birgə fəaliyyət sisteminin proqramlaşdırılması, imkanların nəzəri əsaslarının tədqiqi, təcrübi imkanlardan istifadə metodlarının təyini vacibdir. Digər muzeylərlə birgə, qarşılıqlı əlaqəli şəkildə sərgi və müxtəlif səpgili tədbirlərin təşkili, əşya və nümunələrin tədqiqi, eksponatlaşdırılması, elmi-bərpa işlərinin yerinə yetirilməsi, elmi simpozium, konfransların keçirilməsi və sairə fəaliyyət istiqamətləri zamanı mövcud imkanlardan birgə istifadə inkişafa, formalaşmaya böyük təsir göstərir.

Ayrı-ayrı sərgi salonlarına muzey tərəfindən köməklik göstərilməsi, sərgi salonunun elmi-bədii fəaliyyətinin daha da zənginləşdirilməsi, muzeyin maddi-texniki bazasından əhatəli istifadə və sair əlaqəli fəaliyyətin müsbət təsirli imkanlarındandır.

Şəxsi kolleksiyalardan muzey tərəfindən istifadə, eyni zamanda muzeyin şəxsi kolleksiya sahibinə köməklik göstərməsi və bu əlaqəli fəaliyyət nəticəsində mövcud imkanlardan səmərəli istifadə təbii ki, ətraf mühitdə fəaliyyət göstərən şəxsi kolleksiyalar üçün müsbət təsirə malik olmaqla bərabər, həm muzeyin, həm də şəxsi kolleksiya sahibinin daha böyük təcrübəyə yiyələnməsinə şərait yaradır.

Muzeylərin Azərbaycan Milli Elmlər Akademiyasının müvafiq elmi-tədqiqat institutları ilə qarşılıqlı əlaqədə fəaliyyəti təbiidir. Çünki muzey üçün elmi-tədqiqat bazası sayılan həmin institutlar muzeylə birgə daha böyük imkanlara malik olur. Muzey üçün vacib yeni elmi nailiyyətlərin tətbiqi prosesi həyata keçirilir. Muzey əməkdaşları elmi-tədqiqat institutlarının əməkdaşları ilə birgə yeni tapıntılar əldə edir, onların tarixi, mədəni, bədii təsir gücünü təyin edir. Beləliklə, həm muzeyin müvafiq əməkdaşları bilik, bacarıqlara yiyələnir, həm də elmi-tədqiqat institutu əməkdaşları əlbir fəaliyyətdə

təcrübələrini artırırlar. Yəni, inkişafetmə, bilik-bacarıqlara yiyələnmə, həm də formalaşma baş verir ki, bu da, həm muzey üçün, həm elmi-tədqiqat mərkəzi üçün, həm də ətraf mühit üçün əlverişli zəmin yaradır.

Muzeylərin digər mədəniyyət müəssisələri, mədəniyyət evləri və sarayları, teatr və konsert salonları, mədəniyyət və istirahət parkları və sairə ilə əlaqəli tədbirlərdə komplekslilik yaranır, bu zaman imkanlar həm muzey işçisi, həm digər mədəniyyət müəssisəsi işçisi, həm də ətraf mühitə zənginlik gətirir, formalaşdırıcılıq təsirləri göstərir. Mədəniyyət müəssisəsində, mədəniyyət və istirahət parkında təşkil edilən sərgi, yaradıcı sənətkarlarla görüş, muzeyin, yaxud tarixi abidənin, eksponatın tarixi ilə əlaqədar tədbir, disput, söhbət, dəyirmi masa və sair səpgili işlər sayəsində formalaşma, inkişaf, daha geniş biliklərə malik olma, muzeyə marağın artırılması kimi imkanlar yaradır.

Elm və təhsil müəssisələri sırasında orta ümumtəhsil məktəbi, orta ixtisas və ali təhsil müəssisələri ilə muzeyin birgə tədbirləri sayəsində də böyük imkanlar yaranır.

Ümumilikdə təhsil müəssisəsinin inkişafında, məktəbli və tələbələrin formalaşmasında, müəllim-tərbiyəçilərin elmi-bədii və yaradıcı baxımdan inkişafında, formalaşmasında, təlimin idrakı, psixoloji mahiyyətinin bədii-estetik təsirinin təyin edilməsi nöqteyi-nəzərindən, mənimsəmənin ayrı-ayrı prinsiplər əsasında (muzey eksponatları vasitəsilə) asanlaşmasında, dərsdənkənar elmi-tədqiqat təhsil-tərbiyə prosesinin məzmununun daha da zənginləşməsində, muzey şəraitində əqli, estetik, sosial, əxlaqi, əmək, fiziki tərbiyə işlərinin aparılması, məktəb muzeyləri vasitəsilə təhsil-tərbiyə işlərinin yerinə yetirilməsi inkişaf və formalaşma üçün zəmin rolunu oynayır.

Hazırda elə bir təhsil müəssisəsi yoxdur ki, orada bu və ya digər formada muzey yaradılmasın və fəaliyyət göstərməsin. Sadəcə şagird, yaxud tələbələrdə bu muzeylərə maraq yaratmaq vacibdir. Həmin muzeylərin eyni zamanda yaxın dövlət muzey-

ləri ilə sıx qarşılıqlı əlaqəsi vacibdir. Çünki, təcrübəli muzey həmin təhsil müəssisəsi üçün ən müasir muzey fəaliyyəti metodlarından, avadanlıq və eksponatlardan istifadə etməklə geniş işlər görərək, müxtəlif yaş qrupuna məxsus insanlarda dünyagörüşləri inkişaf etdirəcək, ayrı-ayrı fənlərə maraqları artıracaq, tarix və mədəniyyətimizin sirlərini dərindən bilməyə şərait yaradacaqdır. Muzeylərdə fəaliyyət göstərən «Məktəb bölmələri» vasitəsilə əlaqələrlə kifayətlənmək olmaz, bütövlükdə muzey-təhsil müəssisəsi əlaqələri geniş vüsət almalıdır.

Muzeylər məktəbdənkənar tədris-tərbiyə və yaradıcılıq müəssisələri, uşaq bağçaları, ayrı-ayrı bölmə və klublarla sıx əlaqədə təşkil etdiyi tədbirlərdə daha böyük imkanlara malikdir. Ayrı-ayrı təsviri sənət əsərlərinin, heykəltəraşlıq nümunələrinin səyyar sərgisi, rəssam, bəstəkar, müğənni, tarixçi, filoloqlar, aktyor, rejissor və digər sənət sahibləri ilə görüşlərdə, gecələrdə formalaşdırıcı, tərbiyələndirici imkanların təsiri böyükdür.

Muzeydaxili mühit amilləri içərisində muzey fondunun fəaliyyəti problem əhəmiyyətlidir. Muzey fondunun dövlət uçotu, sərvətlərin mühafizəsi, sərvətlərin qablaşdırılması və daşınması proseslərində muzey işçilərinin daha da formalaşması, böyük təcrübə əldə etmələri üçün imkanlar yaranır.

Muzey fondunun dövlət uçotu prosesində muzeyə daxil olan əşyaların qəbulu və təhvilində, yeni daxil olan əşyaların qeydiyyatında, elmi inventarlaşma prosesində, elmi-köməkçi və xammal fondlarının əşyalarının uçotu zamanı, təkrar uçota alınma, uçot sənədlərinin qeydi prosesində işçilərin formalaşması, muzey işi sayəsində daha da təkmilləşmələri baş verir.

Muzey sərvətlərinin mühafizəsi prosesində - muzey binalarının mühafizəsinin təşkilində, eksponatların müasir texniki vəsaitdən istifadə yolu ilə mühafizəsilə əlaqədar ekspozisiya zallarının müvafiq avadanlıqla təchizatında, kompleks mühafizədə, materiallar üzrə mühafizədə və sair fəaliyyətdə də ahəngdar şəkildə muzey əməkdaşlarının peşəkarlıqlarının daha da artması prosesi gedir.

Muzey sərvətlərinin qablaşdırılması və daşınmasında dəzgah boyakarlığı, qrafika, heykəltəraşlıq, dekorativ-tətbiqi sənətkarlıq əsərlərinin keyfiyyətlə qablaşdırılmasında əməkdaşların iş təcrübələri artır, onlar daha da formalaşırlar.

Muzey fondunun bütövlükdə fəaliyyəti ekspozisiyaların təşəkkülü və inkişafı üçün zəminə çevrilir. Yəni fondla muzeyin digər bölmə və şöbələri sıx qarşılıqlı əlaqədədir. Fondsuz heç bir muzey fəaliyyətindən söhbət gedə bilməz, fond muzeyin vacib tərkib hissəsidir.

Muzey ekspozisiyalarının fəaliyyəti muzey mexanizminin əsas tərkib hissəsidir. Ekspozisiyanın fəaliyyəti mexanizminə eyni zamanda eksponatların elmi-bədii, yaradıcı əlaqəli ansamblının qurulması, ekspozisiya məkanında işçi heyətinin fəaliyyəti, fond-ekspozisiya əlaqəliliyi, ekspozisiya-tamaşaçı əlaqəliliyinin yaradılması prosesi və sairə daxildir. Məhz ekspozisiya fəaliyyəti sayəsində inki-şafetdiricilik və formalaşdırıcılıq prosesləri məqsədyönlü şəkildə yerinə yetirilir. Muzeyin bütövlükdə fəaliyyəti məhz ekspozisiya fəaliyyəti ilə sanki nəticələnir, ekspozisiyanın təsir dərəcəsinə görə muzeyin işi qiymətləndirilir. Ekspozisiyadaxili qarşılıqlı əlaqəlilik nəzərdə tutulan məqsədə nail olmaqla nəticələnir. Ekspozisiyanın ətraf mühitlə, muzey mühiti ilə, muzeyətrafı mühitlə qarşılıqlı əlaqəliliyi bütövlükdə muzey fəaliyyətinin dəyərini təyin edir.

Muzey kitabxanasının muzey mühiti və muzeydənkənar fəaliyyəti muzeyin ümumi fəaliyyətinin tərkib hissəsi sayılmaqla inkişafa, formalaşmaya kömək edən amillər sırasındadır. Kitabxananın aktiv fəaliyyəti muzeyin elmi-bədii və yaradıcı inkişafına aktiv, passivliyi isə mənfi təsir göstərəcəkdir. Muzeydaxili tədqiqat mühiti üçün mənbələrdən sayılan kitabxananın getdikcə zənginləşməsi həm muzeydaxili, həm də muzeydənkənar mühit üçün vacibdir və təbii ki, kitabxana muzeyin digər qurumları ilə sıx qarşılıqlı əlaqədə öz müsbət təsirini göstərir. Təbii ki, kitabxana tərəfindən keçirilən muzey əhəmiyyətli elmi-kütləvi tədbirlərin də həm muzey işçiləri üçün,

həm də ətraf mühit üçün mühit əhəmiyyəti mövcuddur.

Ayrı-ayrı muzey otaqlarının muzeyin digər bölmələri ilə qarşılıqlı əlaqədə birgə tədbirləri əhəmiyyətlidir. Muzey otaqlarında nümunələrin təkrar nüsxələri ilə yaxından tanışlıq, muzeylə bağlı tədqiqatların aparılması, disput, söhbət, dəyirmi masa, görüşlərin və digər müvafiq tədbirlərin təşkili üçün istifadə edilir ki, bu da təbii ki, muzeydaxili birgə fəaliyyətə şərait yaradır.

Muzeyin bərpa emalatxanasının fəaliyyəti prosesi mühitə müvafiq şəkildə baş verir. Muzey əşyalarının, eksponatlarının, materialların, müvafiq kolleksiyaların planauyğun və məqsədyönlü şəkildə bərpaya təqdimi, bərpası da mühüm əhəmiyyət kəsb edir. Bərpa komissiyası tərəfindən bərpaya məqsədəuyğun sayılan nümunələrin kim tərəfindən, hansı materialla və hansı mühitə, hansı zaman çərçivəsində bərpası dəqiqləşdirilir və qərarlaşdırılır. Təbii ki, bu işə nəzarət müvafiq rəhbər işçilər tərəfindən çox dəqiq yerinə yetirilməlidir. Bu prosesdə keyfiyyət mühüm amil sayılmalıdır. Bərpa prosesində fond və digər şöbələr, bölmələr, yaradıcı qruplar, hətta muzeydənkənar dövlət və özəl müəssisələr iştirak edə bilərlər. Yəni birgə elmi-yaradıcı fəaliyyət, qarşılıqlı əlaqəlilik və bərpa prosesində çox vacibdir. Bərpa şurasının tərkibinə çox təcrübəli bərpaçı yaradıcılar daxil edilməlidir, bərpa komissiyalarının, yaxud bərpa bölmələrinin keyfiyyət fəaliyyəti mühümdür.

Muzeyin satınalma komissiyasının, digər komissiya bölmə, şöbə, dərnəklərin və sairənin fəaliyyətində qarşılıqlı əlaqəlilik əsasıdır və məhz belə hallarda inkişafetdirməyə, formalaşdırmaya nail olmaq mümkündür. Bu zaman komplekslilik, planlılıq, ardıcıllıq, mərhələlilik, elmilik, bədiilik və sair prinsiplər əsasında muzey ümumi məqsədinə nail olur

Beləliklə, fəaliyyətdə inkişafetdirici və formalaşdırıcı imkanlardan qarşılıqlı əlaqəli şəkildə istifadə edilməsi qanunauyğun şəkil alır və bu qanunauyğunluq muzeyin ümumi məqsədi üçün zəminə çevrilir. Muzeyşünaslıqda mövcud olan həmin

qanunauyğunluğu belə səciyyələndirmək olar: muzey fəaliyyətinin inkişafetdirici və hərtərəfli formalaşdırıcı imkanlarından muzey qurumlarının bilavasitə qarşılıqlı əlaqəliyi prosesində müvafiq prinsip, forma və metodlardan, vasitələrdən istifadə edilərsə, ümumi məqsədə nail olunar, bütövlükdə inkişaf əldə edilər. Muzeyşü-naslıqdakı həmin qanunauyğunluğu qanun formasında «Muzey fəaliyyətinin inkişafetdirici və formalaşdırıcı imkanlarının qarşılıqlı əlaqəsi qanunu» kimi səciyyələndirmək olar.

### 3.6. Muzey fəaliyyətinin mərhələləri üzrə qarşılıqlı əlaqələr və qanunauyğunluqlar

Muzey fəaliyyəti həm də mərhələlik prinsipi əsasında həyata keçirilir. Muzeyin bütün qurumları öz fəaliyyətlərini il ərzində mərhələli şəkildə planlaşdırır və bu plana əsasən də tədbirlər yerinə yetirilir. Eyni zamanda bu proses qarşılıqlı əlaqəli şəkildə baş verir. Çünki bir qurum digəri ilə sıx əlaqədədir, digər qurumun fəaliyyətinə zəmin yaradır və s. Məsələn, məlumdur ki, muzey fondunun fəaliyyəti ekspozisiya, sərgi fəaliyyəti üçün həlledicidir, muzeyin elmi-tədqiqat işinin səmərəsi üçün mühümdür və s. Fondun özünün daxili fəaliyyəti mərhələliyə əsaslanır. Uçot-mühafizə işinin, fondun dövlət uçotunun, muzey sərvətlərinin mühafizəsinin, qablaşdırılması və daşınmasının mərhələli şəkildə ardıcıllıqla yerinə yetirilməsi mütləqdir, eyni zamanda bu işlər sıx qarşılıqlı əlaqəliliyə əsaslanır. Müasir muzeyşünaslığın inkişafı üçün muzey fəaliyyətinin mərhələləri üzrə qarşılıqlı əlaqələr və qanunauyğunluqlar aktualdır və aşağıdakılardır:

1. Muzey fəaliyyəti mərhələlərinin muzey işçisindən asılılığı.
2. Muzey fəaliyyəti mərhələlərinin bir-birini şərtləndirməsi.
3. Muzey fəaliyyəti mərhələlərinin muzeydaxili bölmə

və kollektivlərin qarşılıqlı əlaqəsindən asılılığı.

4. Mərhələlərin muzeyin elmi-yaradıcı potensialının qarşılıqlı əlaqə fəaliyyətindən asılılığı.

Yuxarıda göstərilən qarşılıqlı əlaqələrin hər birinin mahiyyəti və əhəmiyyətini ardıcıllıqla verməyi məqsədyönlü hesab etdik.

### 3.6.1. Muzey fəaliyyəti mərhələlərinin muzey işçisindən asılılığı

Muzey fəaliyyəti silsilə xarakterinə malikdir və bu, fəaliyyətin inkişaf ardıcıllığı sayılır. Muzey fəaliyyəti prosesinin üç başlıca mərhələləri mövcuddur: hazırlıq, əsas və yekun.

Hazırlıq mərhələsi prosesində fəaliyyətin əvvəlcədən planlaşdırılmış istiqamətdə, həm də sürətlə baş verməsi üçün zəruri muzey mühiti, şərait yaradılır. Təbii ki, muzeyin bütün bölmə və şöbələrinə aid olan hazırlıq mərhələsində müvafiq mühüm vəzifələr yerinə yetirilir:

- qarşıya müvafiq məqsədin qoyulması;
- bölmə və yaxud şöbənin mühitinin araşdırılması;
- hər bölmə və yaxud şöbənin əldə etdiyi nailiyyətlərinin nəzərdən keçirilməsi;
- muzey fəaliyyəti prosesinin inkişafının planlaşdirilməsı və s.

Qarşıya qoyulacaq məqsədin müəyyənləşdirilməsi muzeyşünaslıq sisteminin qarşısında duran ümumi muzey fəaliyyəti məqsədini konkret vəzifələrə çevirməkdən ibarətdir. Bu da bütövlükdə muzey mühitində, eyni zamanda konkret bölmə və şöbələrin şəraitində əldə edilir. Bu mərhələdə ümumi muzey fəaliyyətinin tələbləri ilə muzeyin, işçi personalının ekspozisiya, seyrçi, tamaşaçı kütləsinin konkret imkanları arasındakı ziddiyyətlər aşkar edilir və əvvəlcədən planlaşdırılan prosesdə həmin ziddiyyətlərin həlli yolları, müvafiq vasitələrdən istifadə üsulları nəzərdə tutulur.

Bölmə, şöbənin mühit və şəraitinin araşdırılmasında məqsəd əvvəlcədən güman edilən nəticələrə nail olmağa kömək edəcək və yaxud bu prosesə maneçilik törədəcək səbəblər haqqında müəyyən təsəvvürlər əldə etməkdən ibarətdir.

Sonra isə bölmə və şöbələrin əldə etdiyi nailiyyətlərin nəzərdən keçirilməsi mərhələsində real imkanlar, əvvəlki hazırlıq səviyyələri, mühit və şərait, bir çox digər vacib məsələlər muzey tərəfindən əvvəlcədən təşkil edilən müvafiq komissiya tərəfindən öyrənilir, proqnozlaşdırma aparılır.

Proqnozlaşdırmadan sonra muzey fəaliyyətinin inkişafının planlaşdırılması prosesinə diqqət yetirilir. Bu prosesdə də təbii ki, muzey mühiti, şərait əsas etibarilə nəzərə alınır, yəni müvafiq mühitdə inkişafın planlaşdırılmasına baxılır.

Əsas mərhələ qarşılıqlı əlaqəli şəkildə həyata keçirilir və bu zaman aşağıdakı vacib elementlər kompleks halında birləşdirilir:

- muzey fəaliyyətinin məqsəd və vəzifələrinin müəyyənləşdirilməsi, aydınlaşdırılması;
- muzey işçiləri ilə seyrçi-tamaşaçıların ünsiyyət prosesində bir-birilərinə qarşılıqlı təsiri;
- muzey fəaliyyətinin əvvəlcədən planlaşdırılmış metodları, vasitələri, formaları, yolları, istiqamətləri;
- mərhələnin səmərəli həyata keçirilməsi üçün əlverişli mühit və şəraitin yaradılması;
- seyrçi-tamaşaçı fəaliyyətini daha da aktivləşdirmək üçün müxtəlif səpgili muzey tədbirlərinin həyata keçirilməsi;
- muzey fəaliyyəti prosesinin bu işə kömək edəcək, daha da səmərəli edəcək digər proseslərilə ətraf mühit, muzeydənkənar mühit prosesləri ilə əlaqəsinin təmin edilməsi və s.

Bu mərhələdə eyni zamanda idarəolunma ilə bağlı müvafiq operativ qərarların qəbul edilməsi həyata keçirilir, bunun üçün isə əks əlaqənin mühüm əhəmiyyəti vardır. Operativ əks əlaqə nəticəsində çatışmazlıqlar vaxtında aşkar olunur və bu istiqamətdə vaxtında lazımi tədbirlərin görülməsi, düzəlişlərin

aparılması prosesi həyata keçirilir.

Yekun mərhələsi əldə edilən nəticələrin təhlili ilə tamamlanır. Bu mərhələ prosesində muzey işçiləri həm buraxılan səhvlərdən nəticə çıxarır, həm də bilik, bacarıq və təcrübələrini artırırlar. Yəni, ciddi təhlil və özünütəhlil mühüm əhəmiyyət kəsb edir ki, bu da muzey əməkdaşlarının peşəkarlığının daha da yüksəldilməsinin mühüm şərtidir. Beləliklə, bütün mərhələlərin mərkəzində insan faktoru, muzey işçisi zəkası dayanır ki, peşəkarlığın əhəmiyyəti özünü bütün mərhələlərdə göstərir.

Muzey fəaliyyəti mərhələlərinin muzey işçilərinin fəaliyyətindən asılılığı bir-biri ilə sıx qarşılıqlı əlaqədə olan əsasən bir neçə istiqamətlə sıx bağlıdır. Mərhələlər muzey işçisinin:

- peşəkarlıq keyfiyyətlərindən (bilik, bacarıq, vərdişlərindən);
- elmi-tədqiqat fəaliyyətindən;
- elmi-bədii yaradıcılıq qabiliyyətinə bacarığından, dünyagörüşündən;
- bir-biriləri ilə sıx qarşılıqlı əlaqələrindən bilavasitə asılıdır.

Muzey fəaliyyəti mərhələləri prosesində muzey işçisinin peşəkarlıq keyfiyyətləri mühüm əhəmiyyət kəsb edir. Bu keyfiyyətlər sırasında onlar yüksək təcrübi bacarıqlara, sahə üzrə elmi biliklərə, təşkilatçılıq vərdişlərinə, müvafiq prinsip və başlıca tələbləri nəzər-diqqətdən qaçırmamağa, peşə etikası mexanizminə həmişə yüksək şəkildə əməl etməyə qadir olmalıdırlar.

Yüksək təcrübi bacarıqlara yiyələnmək hər bir muzey işçisi üçün vacib şərtdir. Bu şərt eyni zamanda digər şərtlərlə sıx qarşılıqlı əlaqədədir. Yəni, elmi biliklər, bacarıqlar, vərdişlər müvafiq prinsiplərə əməl edilməsilə, peşə etikasına malik olma nəticəsində yüksək təcrübi bacarıqlar formalaşır.

Peşəkar muzey işçisi aşağıda göstərilən müvafiq funksiyalara malik olmalıdır:

- müxtəlif mərhələlərin yerinə yetirilməsində qarşıya müvafiq məqsədin qoyulması;
- müvafiq mühiti proqnozlaşdırma, öyrənmə bacarığına malik olması;
- ayrı-ayrı muzey fəaliyyəti layihələrində fəal iştirak etmək bacarığına malik olması;
- təşkilatçılıq funksiyası;
- informasiya qəbul etmə və vaxtında vermə funksiyası;
- nəzarət etmə, qiymətləndirmə və korreksiya funksiyası və s.

Muzey işçisi təcrübəli, xüsusi hazırlığa malik, peşəkarlığı ilə seyrçi diqqətini cəlb edə bilən, fəaliyyət prosesində hər an baş verə biləcək psixoloji gərginliyi aradan qaldıra biləcək bilik və bacarığa, istedada, qabiliyyətə malik bir yaradıcı insandır.

Muzey işçisi peşəsi yaradıcı fəaliyyətin mürəkkəb növünə aiddir. Ayrı-ayrı yaradıcılıq şaxələrindən ibarət olan ümumi muzey fəaliyyətini idarə etmək funksiyası da mühüm hesab edilir. İdarəçilik qabiliyyəti, bacarığı hər bir muzey işçisinə xas olmalıdır və peşəkar üçün çox vacib funksiyadır. Hazırkı iqtisadiyyatımızın bütün sahələrində inkişafın sürətli xarakter aldığı bir vaxtda muzey menecmenti anlayışının meydana gəlməsi təsadüfi deyil (menecment - ingilis sözü olub, rəhbərlik etmək, idarə etmək deməkdir). Muzey fəaliyyəti prosesində hər bir kiçik yaradıcı fəaliyyətə yaradıcı rəhbərlik etmək peşəkarlığı xasdır. Muzey tədbiri prosesində səhvlərə nə qədər az yol verilsə, işin səmərəsi bir o qədər çox yüksək olacaqdır, yəni peşəkarlıq bir o qədər öz müsbət təsirini göstərəcəkdir.

Muzey işçisi funksiyaları sırasında müxtəlif muzey tədbirləri zamanı ayrı-ayrı mərhələlərin yerinə yetirilməsində qarşıya müvafiq məqsədin qoyulması mühümdür. Çünki, hər bir tədbirin ümumi məqsədi, hər bir tədbirdaxili hissələrin-mərhələlərin də özlərinə müvafiq olaraq məqsədlər sırası mövcuddur. Təbiidir ki, ümumi məqsədin yerinə yetirilməsinin səmərə və keyfiyyəti daxili mərhələlərin məqsədlərindən asılı-

dır. Yəni, tədbirdaxili mərhələlərin məqsədlərinin yerinə yetirilmə keyfiyyətləri ümumi məqsəd keyfiyyətini təyin edir. Bunu aşağıdakı bərabərlikdən görmək olar:

A - tədbirdaxili mərhələ məqsədi + B- tədbirdaxili mərhələ məqsədi = Ümumi tədbirin məqsədinə.

Eyni zamanda hər bir mərhələnin keyfiyyəti də sonda öz səmərəsini göstərəcəkdir. Qeyd olunmalıdır ki, səmərəli, sərfəli məqsəd peşəkar muzey işçisi tərəfindən qəbul edilir.

Məqsədi təyin etmək üçün isə əvvəlcədən muzey mühitini öyrənmək, proqnozlar aparmaq, şəraitə, mühitə qiymət vermək və sair mərhələlər həyata keçirilir. Bu zaman həm muzey mühiti, şərait həm tamaşaçı, seyrçi səviyyəsi (mühiti), ekspozisiya vəziyyəti, texnoloji proseslər, əlaqəlilik, bağlılıq, tədbirin verəcəyi nəticə, yaradıcı potensial, muzeydənkənar mühitin təsir dairəsi və sair çox ciddi şəkildə nəzərə alınır. Bütün bunların mərkəzində peşəkarlıq səviyyəsi durur. Yəni, muzey işçisi konkret şəraitdə öz işinin nəticələrini qabaqcadan görür. Elə buna əsaslanaraq muzey işçisi öz fəaliyyətinin strategiyasını müəyyən edir, müəyyən olunmuş kəmiyyət və keyfiyyət daxilində əldə edilmiş nəticələr qiymətləndirilir.

Muzey işçisi ayrı-ayrı muzey layihələrində fəal iştirak etməli, yaxud bu layihələrin müəllifinə çevrilməlidir. Əgər o, belə bacarığa malik deyilsə, onda layihələrin təqdimi, muzakirəsi, qəbulu, təkliflərin verilməsi, əlavələrin müzakirə edilməsi, çatışmazlıqların mərhələlərlə aradan qaldırılması və sair proseslərdə əsas, aparıcı rolunu oynaması, həmin layihələr əsasında həyata keçiriləcək muzey tədbirinin təşkilatçısı olması problemə çevrilə bilər.

Əsas etibarilə peşəkar muzey işçisi muzeyin perspektiv fəaliyyətinin elmi-yaradıcı modelini qurmağı bacarmalı, müəyyən edilmiş zaman çərçivəsində planlaşdırılmış məqsədə nail olmaq üçün fəaliyyət formalarını, metodları, vasitələri, yolları və sairəni seçməlidir.

Muzey işçisi peşəkar təşkilatçı olmalıdır. Təşkilatçılıq

muzeydaxili, bölmə, şöbələrin eləcə də bütövlükdə ümumi muzey fəaliyyətinin işinin qurulması, nizamlanması, yerinə yetirilməsi, hər hansı muzey fəaliyyəti prosesində ortaya çıxan gərginliyin, çatışmazlığın aradan qaldırılması bacarığına malik olması hər bir muzey işçisinə xas olmalıdır. Fond, bölmə və şöbələr, muzeydaxili komissiyalar, elmi şura yığıncaqları, daxili əlaqəlilik, muzeyin ətraf mühitlə qarşılıqlı əlaqəsi, muzey-əhəmiyyətli beynəlxalq əlaqələr, elmi-nəzəri, təcrübi fəaliyyətini və sairəni təşkil etmək, rəhbərlik etmək bilavasitə peşəkarlıq tələb edir. Bu da muzey işçisinin elmi-nəzəri və elmi-təcrübi biliyi, bacarığı, vərdişi, qabiliyyəti ilə sıx bağlıdır.

Muzey işçisi yaradıcı-rəssam, heykəltəraş, xalçaçı, zərgər, arxeoloq, etnoqraf, filoloq, memar, seyrçi-tamaşaçı, pedaqoq, tərbiyəçi və digər muzeyə gələnlərin, ekspozisiya ilə tanış olanların "vəziyyət"lərini dərk etməli, özünü həmin "vəziyyət"də hiss etməli və bu "vəziyyət"dən nəticə çıxarmaqla təşkilatçılığı yüksək səviyyədə yerinə yetirməlidir. Muzey fəaliyyəti çox mürəkkəb bir prosesdir. Bu mürəkkəbliyi ən sadədən başlamaqla, yəni mürəkkəblikdən sadəliyə qədər olan mərhələlərin peşəkarcasına düşünülmüş şəkildə yerinə yetirilməsinə nail olmaq vacibdir.

Muzey işçisinin başlıca funksiyalarından sayılan informasiyaları qəbul etmək və vermək də bu gün üçün peşəkarlıq tələb edir. Muzey elmi informasiya mənbəyidir. Muzeydaxili çoxşaxəli məlumatların, yeniliklərin, nümunə və əsərlərin, mənbələrin və sairənin sistemləşdirilməsi, elmi şəkildə tərtibi, ardıcıl, planlı məqsədəmüvafiq dərəcədə təqdimi, seyrçiyə çatdırılması üçün digər prinsiplərlə yanaşı, elmi-komplekslilik prinsipinə də ciddi əməl edilməlidir. Elmi-kompleksliliyə qədərki mərhələlər üçün isə muzey işçisinə verilən başlıca tələblər sırasında onun əxlaqına, simasına, şəxsiyyətinə ciddi diqqət yetirilməlidir.

Muzey işçisinin əxlaqi keyfiyyətləri sırasında mühüm və əsas növləri aşağıdakı şəkildə müəyyənləşdirməyi məqsəd-

yönlü hesab etdik:

- muzey işçisinin özünə xas keyfiyyətlər (nəzakətlilik, təvazökarlıq, sadəlik, ədəblilik və s.);
- əməyə fəal münasibət bildirən əxlaqi keyfiyyətlər (işgüzarlıq, tənbəllik, əməksevərlik və s.);
- Vətənə münasibətlə bağlı keyfiyyətlər (vətənpərvərlik, düşmənə qarşı, vətən xainlərinə qarşı barışmazlıq və s.);
- başqalarına qarşı olan münasibətlə bağlı keyfiyyətlər (dostluq, insanpərvərlik, yoldaşlıq, xeyirxahlıq, humanistlik və s.);
- digər mühitə, obyektə, kollektivə qarşı münasibət bildirən mənəvi keyfiyyətlər (düzlük, doğruçuluq, beynəlmiləlçilik, kollektivçilik, ictimai mənafeyi üstün tutmaq və s).

Muzey işçisi qabiliyyəti üçün bilik, bacarıq, istedad, talant, vərdişlər mühümdür. Muzey işçisi qabiliyyətlərini altı qrupa bölməyi məqsədyönlü hesab etdik:

1. Yaradıcılıq qabiliyyətləri:

- muzey fəaliyyəti sahəsində dövlət siyasətinin əsas prinsipləri və məqsəd-vəzifələrin yaradıcılıqla həyata keçirilməsi qabiliyyəti;
- muzeydə kolleksiya, əşya və materialların bərpası qabiliyyəti;
- muzey əşyalarının, nadir nümunələrin surətlərinin çıxarılması qabiliyyəti;
- muzey üçün əşya və nümunələrin satın alınması qabiliyyəti;
- əşya və nümunələrin elmi tədqiqi və işlənilməsi qabiliyyəti;
- nəşriyyat fəaliyyəti üçün zəruri yaradıcılıq qabiliyyəti;
- xarici ölkə muzeylərində saxlanılan Azərbaycan bədii sənətkarlığı nümunələrinin, xalqımızın milli sərvəti olan nadir muzey əşyalarımızın, nümunələrimizin, kolleksiyalarımızın tədqiqində, öyrənilməsində vacib qabiliyyətlər;
- təbii fəlakət, yanğın, silahlı münaqişə və müharibə zamanı fondun mühafizəsi istiqamətli vacib qabiliyyətlər;

- maddi-texniki bazanın yaradılması, yeni texnologiya ilə təmin edilmə üçün vacib qabiliyyət;
- uçot-mühafizə sahəsində vacib qabiliyyət;
- idarəetmədə vacib qabiliyyət;
- beynəlxalq əlaqələrdə vacib qabiliyyət və s.

2. Təşkilatçılıq qabiliyyətləri aşağıdakı hallarda özünü göstərir:
- muzeyin idarə olunmasında;
- muzeyin yenidən təşkilində;
- fond işində;
- əşya və nümunələrin muzeyə satın alınmasında;
- əşya və kolleksiyaların publikasiyasında;
- maliyyələşmə işində və muzey işçilərinin maliyyələşməsində;
- muzeyin təsərrüfat işində;
- beynəlxalq əməkdaşlıqda və s.

3. Tədqiqatçılıq qabiliyyətləri aşağıdakı proseslərdə özünü büruzə verir:
- əşya və materialların kolleksiyaların tədqiqi, araşdırılması, öyrənilməsi sahəsində;
- ayrı-ayrı tarixi dövr bədii sənətkarlığının planlı şəkildə tədqiq edilməsində;
- fond materialları, əşyaları, nümunələrinin öyrənilməsində;
- sərgi və kolleksiyaların təşkili prosesində;
- kataloqların hazırlanması prosesində;
- elmi-tədqiqat işlərinin yerinə yetirilməsi prosesində və s.

4. Elmi-idraki qabiliyyətlər muzeyin bölmə və şöbələri üzrə muzey işçilərinin elmi bilikləri mənimsəmə qabiliyyətidir:
- muzey fondunun işçilərinin ;
- sərgi-ekspozisiya işçilərinin;
- muzey dərnəkləri rəhbərlərinin;
- muzey klubları rəhbərlərinin;
- muzey bələdçilərinin;

- bölmə və şöbə müdirlərinin;
- bərpaçı-yaradıcıların;
- muzey tədbiri rəhbərlərinin;
- muzey mühaziraçilərinin və s.

5. Bələdçi qabiliyyətlərinə:

- sərgi-ekspozisiya materiallarını, eksponatlarını izah etmək, aydınlaşdırmaq, məlumat vermək;
- sərgi-ekspozisiya materiallarının seçilməsi, sərgi üçün hazırlanması prosesində onların öyrənilməsi;
- seyrçilərin tələbatlarını öyrənmək;
- özünü maarifləndirmə;
- əlavə ədəbiyyat və mənbələr vasitəsilə sərgi materialları, eksponatlar barədə daha geniş elmi məlumatların əldə edilməsi;
- perspektiv qabiliyyətlərə tamaşaçıların daxili aləmini görmək bacarığı, seyrçi-tamaşaçıların emosional vəziyyətlərini, mənəvi tələbatlarını qiymətləndirmək, onların fəallıqlarını daha da artırmaq bacarıqları və sair qabiliyyətlər aiddir.

6. Ünsiyyət (kommunikativ) qabiliyyətləri:

- muzey işçisinin seyrçi-tamaşaçılarla (məktəblilər, tələbələr, aspirantlar, müxtəlif peşə sahibləri, müxtəlif yaş qrupuna mənsub insanlar) ünsiyyət yarada bilməsində;
- valideynlər, tərbiyəçi-müəllimlər, yaradıcılar, digər muzey işçiləri, rəhbər işçilərlə məqsədyönlü münasibət qura bilməsində və sairədə özünü göstərir.

Bütün bunları yerinə yetirən muzey işçisi bölmə və şöbələr üzrə ayrı-ayrılıqda, informasiya mənbəyi sayılır. Bütövlükdə şifahi informasiyanın əldə edilməsində muzey texnologiyası ilə bərabər işçilər də informasiya qəbul etmə və ötürmə, vermə bacarığını səmərəli yerinə yetirməlidirlər. Eyni zamanda kompleks informasiyaya malik olan muzey işçisi həm də texniki vəsaitlərin köməyindən istifadə etməklə də fəaliyyətdə əsas amilə çevrilir.

Nəzarətetmə, qiymətləndirmə və korreksiya funksiyala-

rı hər bir muzey işçisinə xas olmalıdır. Çünki, muzeydaxili bütün proseslərə nəzarət, fəaliyyətdə düzəlişlərin edilməsi, fəaliyyətlərin (hər bir muzey işçisi fəaliyyətinin) qiymətləndirilməsi demək olar ki, gün ərzində mütəmadi xarakter daşıyır.

Beləliklə, peşəkar muzey işçisinə bu gün tələbat çox böyükdür. Çünki, Azərbaycanda muzeylər şəbəkəsinin sürətli artımı dövründə müasir muzey texnologiyasından istifadə ilə fəaliyyət prosesinin davamı üçün həm peşəkar, həm də müasir texnologiyaya dərindən bələd olan, elmi-nəzəri və təcrübi biliklərə dərindən bələd olan alim-tədqiqatçı, muzey işçilərinə böyük ehtiyac duyulur.

Muzey fəaliyyəti mərhələləri muzey işçisinin elmi-tədqiqat fəaliyyəti ilə də sıx bağlıdır.

Məlum olduğu kimi, muzey fəaliyyəti mərhələləri elmi-tədqiqatlarsız qeyri-mümkündür. Bir mərhələdən digərinə keçid prosesi əvvəlkinin tam öyrənilməsi, tətbiqi və yeni mərhələyə keçilməsi, yeninin tədqiqi, tətbiqi, digər mərhələyə keçid və sairə ilə davam edilir. Elmi tədqiqatlar təbii ki, muzey işçisinin elmi dünyagörüşü, muzey fəaliyyətinə münasibəti ilə qarşılıqlı əlaqədə yerinə yetirilir. Muzey tədqiqatları istiqamətinə görə fundamental, tətbiqi və işləmələr xarakterində olurlar. Fundamental tədqiqatlar elmi-nəzəri sahəni də əhatə etməklə ümumiləşdirilmiş konsepsiyaların işlənib hazırlanması ilə nəticələnir. Muzeyşünaslıq əhəmiyyətli bu konsepsiyalar nəzəri və təcrübi kəmiyyətləri ümumiləşdirir və yaxud yeni sistemlərin inkişaf modellərini işləyib hazırlayır. Bütün fəaliyyət mərhələləri üzrə hazırlanan elmi konsepsiyalar proqnostik əsasda olmaqla perspektiv üçün yeni metodologiya, forma, metod, vasitələr, yollarla əsas elmi mənbə rolunu oynayır. Tətbiqi tədqiqatlar muzey fəaliyyətinin ayrı-ayrı tərəflərini dərindən öyrənmək, çoxsahəli muzey təcrübəsinin, qarşılıqlı əlaqələrini və qanunauyğunluqlarını aydınlaşdırmaq məqsədilə həyata keçirilir. Tətbiqi tədqiqatlar praktiki baxımdan mühüm muzeyşünaslıq əhəmiyyəti kəsb edir. Yəni tətbiqi tədqiqatlar nəticə-

sində fundamental tədqiqatlar üçün zəmin yarana bilər.

İşləmələr dedikdə məlum elmi-nəzəri konsepsiyalar nəzərə alınmaqla, eyni zamanda həmin konsepsiyaların zəminində konkret elmi-təcrübi tövsiyələr əsaslandırılır və yenidən həmin tövsiyələr tətbiq edilir.

Beləliklə, hər bir mərhələdə muzey işçisinin elmi-tədqiqat fəaliyyəti vacib amildir və elmi-tədqiqat bazalı mərhələ elmi əsaslara söykənir.

Muzey işçisinin bədii yaradıcılıq bacarığı da mərhələlərdə mühüm əhəmiyyətə malikdir. Hər bir muzey işçisinin bədii yaradıcılıq bazası dərin, məzmunlu, dolğun, əhatəli olmalıdır. Onun həm muzeydaxili həm də muzeydənkənar fəaliyyətində bu zənginlik özünü qabarıq göstərməlidir. Sərgi-ekspozisiyaya hazırlıq mərhələsində, əşya, material, eksponat və nümunələrin seçimi prosesində, bərpaya hazırlıq mərhələsində, bərpa prosesində, sərginin gedişatı mərhələsində, seyrçi ilə ünsiyyət prosesində, fonddaxili iş mərhələlərində və sair proseslərdə bədii yaradıcılıq mühüm amildir. Tamaşaçı-seyrçi zövqünün öyrənilməsi, tamaşaçı münasibətinin öyrənilməsi, idraki ehtiyacların təyini, ekspozisiyanın estetik təsir gücü, mənəvi zənginlik dairəsinin əhatəsi və sair bu kimi məsələlərin mərkəzində bədii yaradıcılıq təcrübəsi əsas sayılır. Mərhələlərdə muzey işçisi dünyagörüşünün də əhəmiyyəti mühümdür. Dünyagörüşə məxsus münasibət, fəaliyyət prosesi həyata keçirilir. Hərtərəfli biliyə, elmi dünyagörüşə malik muzey işçisi geniş əhatəli zəngin davranışa, təcrübəyə malikdir.

Mərhələlərin muzey işçilərinin biri-biriləri ilə sıx qarşılıqlı əlaqələrindən asılılığı təbii haldır. Çünki muzeydaxili və muzeydənxaric fəaliyyət prosesində bütün bölmə və şöbələr, onların işçiləri arasında mexaniki olaraq, qeyri-ixtiyari müvafiq qaşılıqlı əlaqələr yaranır. Yəni ayrı-ayrılıqda heç bir bölmə kompleks muzey tədbirini hazırlaya bilməz. Belə olduğu halda ayrı-ayrılıqda bir işçi də muzey tədbirini təkbaşına hazırlaya bilməz. Muzey tədbiri kompleks xarakterə malik olduğundan,

bütün muzey bölmələri, şöbələri işçilərinin bilik, bacarıq, elmi-dünyagörüşləri, təcrübələri, vərdişlərindən maksimum istifadə edilir, ayrı-ayrı fəaliyyət texnologiyaları öz tətbiq mexanizmini tapır (təbii ki, muzey işçisinin bacarığı, qabiliyyəti sayəsində), nəticədə sərgi və yaxud digər muzey tədbiri hazırlanır.

Beləliklə, araşdırmalar nəticəsində məlum oldu ki, muzey fəaliyyəti mərhələləri muzey işçisinin fəaliyyətlərindən asılıdır. Yəni muzey işçisinin peşəkarlıq keyfiyyətləri, elmi-tədqiqat fəaliyyəti, bədii-yaradıcılıq bacarığı, dünyagörüşünün bir-biriləri ilə sıx qarşılıqlı əlaqələri mühüm əhəmiyyət kəsb etməklə mexanizm rolunu oynayır. Muzey fəaliyyəti mərhələlərinin muzey işçisindən asılılığı qanunauyğunluğunu qanun formasında aşağıdakı kimi ifadə etmək olar: "Muzey fəaliyyəti mərhələlərinin muzey işçisindən asılılığı qanunu".

### 3.6.2. Muzey fəaliyyəti mərhələlərinin biri-birini şərtləndirməsi

Muzey fəaliyyəti mərhələləri arasında sıx qarşılıqlı əlaqələr mövcuddur və bir mərhələ özündən əvvəlki mərhələsiz mövcud deyil, yaxud da özündən sonrakı mərhələ üçün zəminə, mənbəyə çevrilir. Başqa sözlə desək, muzey fəaliyyəti mərhələlərinin biri digərini şərtləndirir. Başlıca mərhələlərə (hazırlıq, əsas, yekun) diqqət yetirsək məlum olur ki, hazırlıq mərhələsiz əsas mərhələ, əsas mərhələsiz isə yekun mərhələsi qeyri-mümkündür. Təbiidir ki, hər əsas mərhələ şaxələrə bölünür və bölmə, şöbələrin hazırlıq mərhələlərini özündə cəmləşdirir. Bu proses həm də digər mərhələlərə şamil edilir. Eyni zamanda yuxarıda göstərilən mərhələlərin xüsusi-daxili mərhələləri də mövcuddur. Məsələn, hazırlıq mərhələsinin xüsusi-daxili mərhələlərini fondun sərvətlərinin konservasiyası və bərpası üzrə işin təşkili mərhələsi daxilində nəzərdən keçirək. Aşağıdakı başlıca tələblər əhəmiyyətlidir:

- xüsusi bərpa şuralarının yaradılması üçün müvafiq

yığıncağın təşkili;

- məqsədli yığıncaqda bərpa şurası üzvlüyü üçün mütəxəssislərin aşkarlanması;

- aşkarlanmış mütəxəssislərə müvafiq xəbərdarlığın edilməsi və onların hər birindən üzvlüyə namizədlikləri üçün razılıqların alınması;

- razılıq alındıqdan sonra onlarla müvafiq təlimati söhbətlərin aparılması və hər birinin yüksək təlimati biliklərə yiyələnmələri məqsədilə müvafiq təlimat, əsasnamə və ədəbiyyatlarla təchizi, hazırlıqları üçün vaxtın verilməsi;

- şura üzvlüyünə namizədlərin məqsədyönlü sayılmalarının təyin edilməsi;

- bərpa şurasının seçilməsi və təsdiqində tutarlı müzakirələrin aparılması;

- bərpa şurasının seçilməsi və təsdiqi;

- bərpa şurası haqqında əsasnamənin müzakirələri və təsdiqi;

- bərpa şurasının vəzifələrinin mərhələ-mərhələ elmi şəkildə yerinə yetirilməsinə (abidələrin konservasiyası, bərpa şöbələri və emalatxanaların illik iş planlarının tərtibi, müzakirəsi, təsdiqi, iş planlarına aid digər tədbirlərin müzakirəsi; abidələrin konservasiyası və bərpasına dair metod və vasitələrin nəzərdən keçirilməsi, müzakirələrin aparılması, təkliflərin verilməsi, bərpa işlərinə başlanması istiqamətində tədbirlərin görülməsi və s.) muzey direktoru tərəfindən ciddi nəzarətin həyata keçirilməsi və sair xüsusi-daxili mərhələlər də mühüm əhəmiyyət kəsb etməklə aparıcı rola malikdirlər. Bu qəbildən olan mərhələləri mərhələdaxili mexanizm kimi də qəbul etmək olar. Hazırlıq mərhələsində eyni zamanda hər bir muzey işçisinin üzərinə xüsusi fəaliyyət mexanizminin yerinə yetirilməsi də düşür ki, bu mərhələ üçün muzey işçiləri həm muzeydaxili, həm də muzeydənkənar fərdi fəaliyyətləri, əsasən də bilik, bacarıq, vərdişləri, yaradıcılıq qabiliyyətləri vasitəsilə aktivlik göstərməlidirlər.

Muzeyin bütün bölmə və şöbələrinin işinin əsas mərhələsinin yerinə yetirilməsi üçün mühüm amil olan muzey işçisinin qarşısında aşağıdakı başlıca tələblər qoyulmalı və onlara əməl edilməlidir:

- qarşıya qoyulmuş müvafiq məqsədin və həyata keçirilməli vəzifələrin keyfiyyətinə, səmərəliliyinə diqqət artırılmalıdır;
- müvafiq strukturun, bölmə və şöbələrin tədbir mühitinin qiymətləndirilməsi işi yerinə yetirilməli, çatışmazlıqların aradan qaldırılması üçün muzey işçisi qarşısında müvafiq tələblər qoyulmalıdır;
- sərgi və yaxud tədbirin mahiyyətinə, forma, məzmun dərinliyinə ciddi diqqət verilməli, maraqların artırılmasına nail olunmalıdır;
- tədbirin keyfiyyəti üçün bütün bölmə və şöbə əməkdaşlarının fəaliyyətlərini mütəmadi olaraq vahid idarəedici tərəfindən nizamlanması muzey, yaxud tədbir rəhbərlərinin nəzər-diqqətindən yayınmamalıdır;
- tədbir zamanı hər bir seyrçi-tamaşaçıya ciddi fikir verilməsi istiqamətində mütəmadi diqqət verilməlidir və s.

Əsas mərhələ prosesi eyni zamanda muzeyin bütün şöbə və bölmələrinə aid olduğundan onların da əsas mərhələləri mexanizmi mövcuddur. Hər bölmə və şöbə fəaliyyətinə müvafiq olaraq əsas mərhələlərin yerinə yetirilməsi vacibdir.

Məsələn, sərgi-ekspozisiya işinin əsas mərhələsini aşağıdakı kimi səciyyələndirmək məqsədyönlüdür:

- sərgi-ekspozisiya işinin kompleks hazırlıq mərhələsinin tam amilə başa çatdırılması prosesinin yoxlanılması;
- sərgi-ekspozisiya işinin keyfiyyət baxımından qiymətləndirilməsi və müvafiq komissiya tərəfindən qəbul edilməsi;
- sərgi-ekspozisiyanın açılışına (təqdimatına) dəvət ediləcək qonaqların əvvəlcədən müəyyən edilməsi;
- sərgi-ekspozisiya bələdçilərinin kompleks hazırlıqlarının yoxlanılması;

- sərginin açılışının plana uyğun həyata keçirilməsi prosesi;
- sərgiyə qonaqların qəbulu prosesi;
- sərgi-ekspozisiya ilə tanışlıqdan əvvəl onun açılışında məruzə edəcək və çıxış edənlərin dəvət edilməsi;
- sərgi-ekspozisiyanın açılışı;
- zallardakı eksponatlarla tanışlıq;
- sərgi-ekspozisiyanın (müxtəlif muzey tədbirlərinin) qiymətləndirilməsi və iş gününün sonunda gün ərzində (tədbirlər ərzində) ortaya çıxan çatışmazlıqların müzakirəsi və s.

Hər hansı muzey tədbirinin müvafiq əsas mərhələləri mövcuddur.

Muzey tədbirinin yekun mərhələsi müvafiq mərhələlər mexanizmindən ibarətdir:
- tədbir təşkilatçılarının (bölmə və şöbə rəhbərlərinin) yekun yığıncağında qısa hesabat-larının dinlənilməsi;
- tədbirin yekun qiymətləndirilməsi;
- bu tədbirdə buraxılan obyektiv və subyektiv səhvlərin, nöqsanların, çatışmazlıqların yaranma səbəblərinin aydınlaşdırılması prosesi və s.

Tədbir boyu ayrı-ayrı əməkdaşların məqsədyönlü şəkildə fəaliyyətləri də mərhələli şəkildə həyata keçirilir ki, bütün bu proseslər tədbir üçün məsul şəxs tərəfindən tədbir boyu izlənilir, nəzarətdə saxlanılır.

Beləliklə, istər ümumi başlıca mərhələlər, istərsə də mərhələdaxili xüsusi-daxili mərhələlər bir-birini şərtləndirir, yəni hər bir mərhələ aparıcı, əsas xarakter kəsb edir, böyük bir texnoloji kompleks prosesin vacib, əsas amili kimi müvafiq mərhələsində öz spesifik əlamətləri, təsir gücü ilə seçilməklə bərabər, fəaliyyəti canlandırır, ona təkan verir, inkişafa səbəb olur. Yəni, fəaliyyətin keyfiyyət səmərəsi onun daxili texnoloji mərhələlərinin bir-birini şərtləndirməsi ilə sıx surətdə bağlıdır. Mərhələlərarası vəhdət fəaliyyət üçün zəmin rolunu oynayır və bu da getdikcə qanunauyğun şəkil alır. Beləliklə, muzey-

şünaslıqdakı bu qanunauyğunluğu belə səciyyələndirmək olar: muzey fəaliyyəti mərhələləri biri-biri ilə nə qədər sıx vəhdətdə olarsa, ayrı-ayrı tədbirlərin təsiri bir o qədər bədii-estetik baxımından keyfiyyətli xarakter daşıyar ki, bu da dərketmənin, zənginləşmənin daha səmərəli getməsinə səbəb olar. Muzeyşünaslıqda həmin qanunauyğunluğu qanun formasında «Muzey fəaliyyəti mərhələlərinin bir-birini şərtləndirməsi» qanunu kimi ifadə etmək olar.

### 3.6.3. Muzey fəaliyyəti mərhələlərinin muzeydaxili bölmə və kollektivlərin qarşılıqlı əlaqəsindən asılılığı

Muzeydaxili bölmə və şöbə kollektivlərinin əlaqəli işi bütövlükdə muzey fəaliyyətini təşkil edir. Muzey fəaliyyətinin əsasında iki yaradıcı yanaşma mövcuddur:

- fərdi-yaradıcı yanaşma;
- kollektiv-yaradıcı yanaşma.

Fərdi yaradıcı yanaşma muzey işçilərinin ayrı-ayrılıqda fərdi şəkildə müxtəlif növ fəaliyyətlər üzrə ümumi işlərinin təşkilini tələb edir. Müxtəlif növlər üzrə məsələn, əqli tərbiyə, ideya-mənəvi tərbiyə, əmək tərbiyəsi, əxlaq tərbiyəsi, bədii-yaradıcı, estetik tərbiyə və s. istiqamətlərə diqqət yetirsək görürük ki, hər istiqamət üzrə muzey işçisi fərdi şəkildə öz bilik, bacarıq, vərdiş və təcrübələrini sərf etməklə maksimum yaradıcılığını "nümayiş etdirir". Fərdi-yaradıcı yanaşma fəaliyyətin istiqamətini göstərir, kollektiv-yaradıcı yanaşma isə onun məzmununun xüsusiyyətini müəyyən edir. Fəaliyyətlərin müxtəlifliyinə baxmayaraq hər bir işin özünə müvafiq mərhələləri və başlıca tələbləri mövcuddur. Əvvəlcə ümumi şəkildə mərhələlərin təsnifatına diqqət yetirək:

- işin məqsədinin müəyyənləşdirilməsi;
- işin planlaşdırılması;
- işin təşkili;
- işin həyata keçirilməsi;

- yekun nəticələrin təhlili, işin qiymətləndirilməsi və sair.

Mövcud başlıca tələblərə diqqət yetirək. Məsələn, əqli tərbiyə istiqaməti üzrə:

- ayrı-ayrı mövzularda sərgi və digər tədbirlərin təşkilində fərdlər (muzey işçiləri) və kollektivlər yaş xüsusiyyətini nəzərə almalıdır;
- sərgi və digər tədbirlərdən elmi-yaradıcı şəkildə istifadə edilməlidir;
- texnoloji proseslərdən istifadə edilməlidir;
- muzey-məktəb-ailə və digər muzeydənkənar müəssisələrlə, yaradıcılıq mərkəzləri ilə qarşılıqlı əlaqəlilik prinsipi əsasında fəaliyyət göstərilməlidir;
- radio və televiziyanın müvafiq redaksiyaları ilə təmasda fəaliyyət göstərilməlidir və s.

Əmək tərbiyəsi istiqaməti üzrə:

- eksponatlar, əşya və materiallar, elmi-yaradıcı məlumatlar vasitəsilə insanların elmi-yaradıcı dünyagörüşləri artırılmalıdır;
- muzey dərnəkləri, klubları, dərsləri, olimpiadaları, müxtəlif mövzulu sərgilər və digər tədbirlər prosesində əldə edilən müvafiq biliklərin əmək prosesində istifadə mexanizmini həyata keçirmək yollarını tapmaq;
- muzey fəaliyyəti vasitəsilə əməyə yaradıcı münasibətin elmi-nəzəri, bədii-yaradıcı əsaslarının hazırlanması vacibdir;
- muzey daxilində texnologiyadan istifadə edilməklə kiçik yaşlı məktəblilərin qismən əməyə cəlb edilməsinin təkmilləşdirilməsi metodlarını işləyib hazırlamaq və sair.

Estetik tərbiyə istiqaməti üzrə:

- profillərindən asılı olaraq muzeylər, onların əməkdaşları, bölmələri, şöbələri, incəsənətin növlərinin, janrlarının həyati əhəmiyyətini məktəblilərə daha əyani, "canlı" şəkildə çatdırmaq baxımından müvafiq istiqamətdə müxtəlif mövzulu sərgi və tədbirlərdə böyük maraq yaratmalıdırlar;

- müasir dövrün tələblərinə uyğun olaraq muzeylərdə yüksək hazırlıqlı, texnoloji proseslərdə bacarıq nümayiş etdirən formalaşmış bələdçilərin elmi-nəzəri bilik və bacarığına ciddi diqqət yetirilməlidir. Çünki ekspozisiya, eksponatdan sonra muzey haqqında, tarixi dövr, əşya, material və sair haqqında təəssüratı bələdçi yaradır;

- muzey bölmələri, şöbələri işçilərinin fəaliyyətindən istifadə edilməklə məktəbliləri estetik tərbiyə işinin mahiyyətini, məzmununu, imkanlarını və formalarını pedaqoji kollektivlərə, valideynlərə daha anlaşıqlı şəkildə çatdırmaq üçün xüsusi lektoriyalar təşkil olunmalı, mühazirə və söhbətlərin bədii-metodik istiqamətinin əyani illüstrativ əsaslarda aparılmasına əhəmiyyət verilməlidir;

- estetik tərbiyə prosesində muzeylərin mühüm rolunu nəzərə alaraq müxtəlif mövzularda xüsusi məlumat kitabçalarının çap edilərək məktəblilərə göndərilməsinə nail olmaq vacibdir;

- estetik tərbiyə sahəsində muzeylərin mövqeyini möhkəmləndirmək məqsədilə iri yaşayış məntəqələrində yerləşən məktəblilər üçün səyyar sərgilərin təşkilinə xüsusi diqqət verilməlidir;

- televiziya və radionun müvafiq redaksiyaları tərəfindən müxtəlif yaş qruplu insanlar üçün muzey fondları, bölmələri, şöbələri, təcrübəli işçiləri, sərgi salonlarından bəhs edən silsilə verilişlər hazırlanmalıdır;

- muzey bölmələri və şöbələri ilə məktəb muzeyləri arasında qarşılıqlı əlaqə yaradılmalı, məktəb muzeylərinə mütəmadi kömək göstərilməli, bu əlaqə məktəblilərin estetik dünyagörüşləri və bədii silsilə fənlərinin mənimsənilməsində mühüm rol oynamalıdır;

- müxtəlif yaş qrupuna mənsub məktəblilərin muzeylərlə yaxından təmasda olmasında valideynlərin rolu çox böyükdür. Məhz, buna görə valideynlərin muzeylərlə qarşılıqlı əlaqələri mütəmadi yaradılmalı, muzeyə münasibəti formalaş-

dırmaq məqsədilə sistemli iş aparılmalıdır və s.

Kollektiv daxilində yaradıcı fərdlərin elmi-nəzəri və təcrübi qabiliyyətləri birləşərək kollektiv qabiliyyətə çevrilir və muzey fəaliyyəti mərhələlərinin məqsədyönlü davamına, müvəffəqiyyətlə başa çatmasına, tədbir nəticəsində böyük uğurların əldə olunmasına səbəb olur. Buna görə də yüksək bacarıq, qabiliyyət və təcrübəyə malik muzey işçilərinə tələbat böyükdür. Belə yaradıcı qabiliyyətlər digər muzey işçilərinin də peşəkarlığının artırılmasında mühüm əhəmiyyətə malik olurlar. Buna görə də vaxtaşırı belə işçilərin stimullaşdırılması, əmək bacarıqlarının qiymətləndirilməsi, həvəsləndirmə metodlarından istifadə edilməsi və digər bu qəbildən olan tədbirlər əhəmiyyətlidir və sonrakı fəaliyyətdə keyfiyyət nöqteyi-nəzərindən yüksək qiymətləndirilir.

Bölmə, şöbə və işçi kollektivinin üzvü olan yaradıcı fərd təbii ki, bölmə və yaxud şöbənin fəaliyyətinə müvafiq (müsbət və ya mənfi) təsir göstərir. Yəni, belə işçilərin - bölmə üzvlərinin çoxluğu və yaxud azlığı müvafiq olaraq bölmənin, şöbənin irəliləməsinə, ya da əksinə fəaliyyətinə təsir göstərəcəkdir. Eyni zamanda bölmə daxilində yüksək bilik, bacarıq, qabiliyyət və təcrübəyə malik işçilərin səriştəsindən istifadə olunması bir sıra metodik tövsiyələrin formalaşmasına imkan yaradır. Aşağıda göstərilən tövsiyələrə əməl olunması yüksək nəticələr qazanmaqda zəminə çevrilir:

1. Hər bir muzey işçisi tərəfindən qarşıya qoyulan məqsədin yerinə yetirilməsində konkret vəzifələrin dərindən dərk olunması fəaliyyətin mühüm şərtidir. Seyrçi, tamaşaçı eksponat haqqında özləri düşünməyi bacarmalı, öz vəzifələrini özləri dərk etməlidirlər. Bütün buna qədər isə muzey işçisi (bələdçi) bu şəraiti yaratmalıdır. Hər hansı yaradıcılıq prosesində iştirak, müəyyən qərarın qəbulu, emosional dərk, sonradan bələdçiyə müraciət marağı haqqında qərarı tamaşaçı özü qəbul edir.

2. Hər hansı muzey sərgisi, tədbiri fərdi və kollektiv yaradıcı yanaşmalar əsasında planlaşdırılır, texnologiyalaş-

dınılır. Fərdi-yaradıcı yanaşma zamanı tamaşaçı qarşısında muzey işçisi öz fərdi yaradıcılıq qabiliyyəti, bacarığı, təcrübəsi ilə seçilir, nüfuzlu işçi hörmətinə malik olur. Digər tərəfdən işçi hər bir tamaşaçıya fərdi diqqət yetirməklə tamaşaçıda böyük maraqların yaranmasına səbəb olur. Kollektiv-yaradıcı yanaşma zamanı isə birincisi, bölmənin, şöbənin yaxud qrupun, kollektivin təqdim etdiyi sərgi və yaxud digər kütləvi tədbirdə həmin qrupun yaradıcı əməyinin nəticəsi təqdim edilir, İkincisi, tamaşaçı qrupunun rəyləri, təklifləri nəticəsində muzey tədbirinin qiymətləndirilməsi işi yerinə yetirilir.

3. Sərgi-ekspozisiya, yaxud digər muzey tədbirinin məqsədi, vəzifələri ilə əlaqədar mahiyyəti və məzmunu müəyyən etmək lazımdır. Əvvəlcədən muzey tamaşaçılarının tərkibini (xarakterini), onların maraq dairələrini, həvəs dərəcələrini təyin etmək lazımdır. Bütün bunların fövqündə tamaşaçıların düzgün maraq, həvəs, istiqamətlərini təyin edərək, səmərəlilik əldə etmək olar.

4. Hər bir muzey tədbiri üçün müvafiq, müasir metod, vasitə və yollar seçmək lazımdır ki, məhz bu metod, vasitə və yollarla onların maraqlarını daha da artırmaq olsun. Bu prosesdə hər bir fərd, eləcə də bölmə, şöbə təşəbbüskarlıq göstərərək əvvəlcədən öz təkliflərini təqdim etməlidirlər.

5. Hər bir muzey yaradıcısının fərdi qabiliyyətindən istifadə edilərək muzey sərgiləri rəngarəng formalarda, müxtəlif mövzularda, günün tələblərinə cavab verəcək tərzdə təşkil edilməlidir və s.

Muzey bölmə və kollektivlərinin qarşılıqlı əlaqəliliyi eyni zamanda mərhələlərin keyfiyyətlə getməsi, başa çatmasına səbəb olur. Buna görə də əməkdaşların qarşılıqlı fəallıqları prosesinin bir sıra xüsusiyyətləri mövcuddur:

1. Muzey sərgiləri-ekspozisiyalar, digər muzey tədbirləri çoxşaxəli tərbiyəedici, formalaşdırıcı prosesdir. Məsələn, sərgi-ekspozisiya vasitəsilə tamaşaçı:

- mənəvi zənginləşərək, müvafiq sahə üzrə müəyyən

biliklər əldə edə bilir;

- bədii-estetik baxımdan zənginləşir, incəsənətin ayrı-ayrı sahələrinə maraqları daha da artır, peşəyönümü üçün zəminə çevrilir;

- ayrı-ayrı tarixi dövrlərin milli yaradıcı sənətkarlığımız haqqında zəngin məlumatlar əldə edilir;

- məktəblilər ayrı-ayrı bədii silsilə fənlərinə daha böyük maraq göstərirlər, fənlər üzrə onların bilikləri əyanilik, əşyavilik nöqteyi-nəzərindən daha da möhkəmlənir, uzunmüddətli yadda saxlama üçün real şərait öz müsbət təsirini göstərir;

- ümumdünya görüşləri formalaşır, inkişaf edir;

- milli və dünya sənətkarlığı nümunələri ilə fərdi yaddaşlarda elmi-nəzəri müqayisələr aparılır və s.

2. Muzey işçiləri tərəfindən onun bölmə və şöbələrinin qarşılıqlı əlaqəliliyi sayəsində keçirilən sərgi və digər tədbirlər mürəkkəblik xüsusiyyətinə malikdir. Mürəkkəblilik daxilində sadə xüsusiyyətli hadisələr mövcuddur. Yəni tədbiri ayrı-ayrı bölmə və şöbələr hazırladığından hər kəsin üzərinə düşən vəzifələr müvəffəqiyyətlə yerinə yetirildiyindən, eyni zamanda qarşılıqlı əlaqədə bu iş tamlıq təşkil etdiyindən kollektiv tədbir hesab olunur. Lakin burada fərdi yaradıcılıq, fərdi yanaşma mühüm amildir. Mürəkkəblik o deməkdir ki, sərgi və yaxud digər muzey tədbirinin (istər muzeydə, istərsə də muzeydən kənarda) yaratdığı maraqlar, bədii-estetik emosiyalar, formalaşan hisslər, yaranmağa başlayan həyəcanlar və sairənin nəticələri tez nəzərə çarpmır. Muzeyə gələn tamaşaçı sərgi, yaxud digər tədbirdə müxtəlif xarakterli çoxlu təsirlərə məruz qalır və əsasən müsbət təcrübə toplayır ki, bu da onun gələcək fəaliyyətində mühüm amilə çevrilir.

3. Bütövlükdə muzey fəaliyyəti məqsədyönlü proses olduğundan onun bölmə və şöbələrinin əməkdaşlarının da işi məqsədyönlü xarakter daşıyır. Təbii ki, məqsədyönlülük prinsipi digər prinsipləri də bilavasitə özünə cəlb edir, yəni muzey fəaliyyəti eyni zamanda planlılıq, ardıcıllıq, elmilik və digər

prinsipləri də özündə birləşdirir. Çünki prinsiplik olmasa, tədbir keyfiyyət baxımından qiymətləndirilə bilməz. Yəni, sərgi yaxud digər muzey tədbirində elmi-nəzəri və təcrübi prinsip mövcuddur. Sərginin yaxud digər tədbirin elmi əsaslara istinadı vacibdir. Sərgi-tədbirin ardıcıllığı mühümdür. Sərgi-tədbir plana uyğun şəkildə hazırlanır və s.

Məqsədəuyğun hazırlanan sərgi yaxud tədbirin təsir gücü böyükdür. Muzey sərgisi yaxud tədbirinin hazırlanması əvvəlcədən muzey qarşısında qoyulmuş məqsədin bir hissəsinin yerinə yetirilməsidir. Planlı şəkildə yerinə yetiriləcəyi məqsədəuyğun hazırlanan muzey sərgisi, yaxud tədbir ayrı-ayrı bölmə və şöbələr qarşısında da müvafiq məqsədlər qoyur, bu məqsədlərə uyğun vəzifələr təyin olunur. Eyni zamanda hər bir muzey işçisi qarşısında da məqsəd təyin edilir və bu məqsədin yerinə yetirilməsi üçün vəzifələr müəyyənləşdirilir. Beləliklə, fərdi və qrup, kollektiv, bölmə, şöbələrin məqsədləri ümumi məqsədi yetirir və qarşıya qoyulan ümumi vəzifələr yerinə yetirilir.

4. Muzeydə təşkil edilən sərgilər müddətli xarakterə malikdir. Planlaşdırılan müddət ərzində fəaliyyət göstərən sərgilər həm də uzunmüddətli təsirə malik olur, yəni sərgi eksponatlarından təsirlənən tamaşaçı, bu təsir altında günlərlə, aylarla sərgi eksponatlarının emosionallığına düçar olurlar. Əksər hallarda isə əyani eksponatlar əsasən məktəblilərə ayrı-ayrı fənləri mənimsəməkdə əsaslı əhəmiyyətli mənbəyə çevrilir və sərgi-ekspozisiyada qazanılan biliklər uzunmüddətli yadda qalır ki, belə hal da tədris prosesi üçün mühüm vasitədir. Yaxşı olardı ki, belə vasitədən bütün məktəblilər istifadə etsin, dəyərləndirsin.

5. Sərgi və digər muzey tədbirləri hazırlanması kompleks xarakterə malikdir. Bu o deməkdir ki, tədbir prosesinin məqsədi, vəzifələri, metodları, formaları, vasitələri, yolları, məzmunu vəhdətdədir. Eyni zamanda həmin ünsürlər bir-birləri ilə qarşılıqlı vəhdətdə olmaqla komplekslilik təşkil edirlər. Eyni zamanda müxtəlif muzey tədbirlərinin hazırlanması prosesi də

muzey bölmələri, şöbələri, kollektivləri üzvlərinin vəhdətdə, qarşılıqlı əlaqədə olmaları hesabına başa gəlir.

Muzey tədbirlərinin effektliliyi də bölmə və kollektivlərin qarşılıqlı əlaqəsindən asılıdır. Sərgi və digər muzey tədbirlərinin effektliliyi bir sıra amillərdən asılıdır:

1. Sərgi-ekspozisiya və digər muzey tədbirlərinin effektliliyi həm ayrı-ayrı işçilərin fəaliyyət dövründə bir-birinə münasibətdən, həm də muzey işçisi ilə tamaşaçı-seyrçi arasındakı münasibətlərdən asılıdır. Ayrı-ayrı işçilər bir-birləri ilə aşağıdakı mərhələlərdə münasibətlər zəminində əlaqədə olurlar. Məsələn, planlı şəkildə sərgilərin təşkili və keçirilməsində:

- sərgiyə hazırlıq zamanı məqsəd və vəzifələrin təyini prosesində;
- sərgi mövzusunun seçilməsi, müzakirəsi və təsdiqi proseslərində;
- sərgi üçün eksponatların seçilməsinin planlaşdırılması prosesində;
- sərgi üçün seçilən eksponatlar içərisində bərpaya ehtiyacı olanların bərpa emalatxanasına göndərilməsi prosesində;
- sərgi üçün bərpa olunan eksponatların bərpa emalatxanasından qəbul edilməsi və bərpa keyfiyyətinin qiymətləndirilməsində;
- sərgi üçün sənədləşdirmə texnologiyasının hazırlanması prosesində;
- sərginin ümumi texnologiyasının kompleks hazırlanması prosesində (layihə şəklində);
- ekspozisiya otaqlarının eksponatların yerləşdirilməsi üçün hazırlığı prosesində;
- ekspozisiya otaqlarının əşya və materiallarının sistemli şəkildə quraşdırılmasına hazırlığı prosesində;
- sərgidə işıqlandırma, istilik, günəş şüasından qorunma, havadəyişdirici və sair digər vacib sistemlərin quraşdırılması prosesində və s.

Muzey işçiləri aşağıdakı mərhələlərdə münasibətlər zəminində tamaşaçı-seyrçi ilə qarşılıqlı əlaqədə olurlar. Məsələn,

sərgilərin təşkili və keçirilməsində:

- sərgi-ekspozisiyada ayrı-ayrı tamaşaçı-seyrçilərin rəy və təkliflərinin öyrənilməsi prosesində;
- ekspozisiyada yaradıcı-sənətkarların təkliflərinin öyrənilməsi prosesində;
- sərgi-ekspozisiyadan sonra muzeyə daxil olan rəy və təkliflərin tamaşaçı ilə birgə müzakirəsi prosesində və sair proseslərdə.

2. Muzey tədbirinin effektliliyi muzeydaxili və zahiri ziddiyyətlərdən asılıdır. Ziddiyyətləri törədən səbəblərin öyrənilib aradan qaldırılması, yəni ziddiyyətliliyin yox olması inkişafa səbəb olur. Daxili inkişaf zahiri inkişaf üçün, zahiri inkişaf da daxili inkişaf üçün zəminə çevrilir.

3. Muzey tədbirlərinin effektliliyi tədbirlərin səmərə və keyfiyyətindən asılıdır. Keyfiyyət və səmərəlilik nə qədər yüksək səviyyədədirsə, effektlilik bir o qədər güclü, çox olur və sair.

Beləliklə, muzey fəaliyyəti mərhələlərinin muzeydaxili bölmə və kollektivlərinin qarşılıqlı əlaqəsindən asılılığı getdikcə qanunauyğun şəkil alır və muzeyin inkişafına müsbət təsir göstərir. Muzeyşünaslıqda həmin qanunauyğunluğu aşağıdakı kimi səciyyələndirmək olar: muzeydaxili bölmə və kollektivlərinin qarşılıqlı əlaqələri nə qədər məqsədyönlü şəkildə və müvafiq prinsiplər əsasında tənzimlənərsə, muzey fəaliyyəti mərhələlərinin effektliliyi, səmərəliliyi, keyfiyyətliliyi də bir o qədər yüksək olar. Muzeyşünaslıqda həmin qanunauyğunluğu qanun formasında "Muzey fəaliyyəti mərhələlərinin muzeydaxili bölmə və kollektivlərinin qarşılıqlı əlaqəsindən asılılığı" qanunu kimi səciyyələndirmək olar.

### 3.6.4. Mərhələlərin muzeyin elmi-yaradıcı potensialının qarşılıqlı əlaqə fəaliyyətindən asılılığı

Muzey elmi-tədqiqatçılığı, elmi-yaradıcılığı, nəzəri və tərkibi araşdırmalar əsas fəaliyyət sahələrindən olmaqla aparıcı

mövqeyə malikdir. Muzey fəaliyyətinin ana xətti sayılan elmilik onun əsas strategiyasını təyin edir. Yəni, fəaliyyət bütövlükdə elmi-yaradıcılığa əsaslanır. Buna görə də muzey işçilərinin demək olar ki, hamısı elmi-yaradıcı qabiliyyətə, bacarığa malik olmalıdırlar. İşçilər ayrı-ayrı fəaliyyət sahələri üzrə, başqa sözlə işlədikləri bölmə, yaxud şöbənin fəaliyyətinin spesifikliyinə uyğun elmi biliklərə yiyələnməli, ixtisas yönümlü ədəbiyyatlar, mənbələrdən istifadə etməyi bacarmalı, müasir texnoloji proseslərin yerinə yetirilməsində elmi nöqteyi-nəzərindən həmişə hazır olmalı, sərgi-ekspozisiya, yaxud digər muzey tədbirlərinin elmi məzmununun layihəsini qabaqcadan tərtib etməli, əldə olunacaq nəticələrin elmilik baxımından səmərə və keyfiyyətini təyin etməyi bacarmalıdırlar. Buna görə də muzey fəaliyyətinin mərhələlərinin gedişində muzeyin müvafiq bölmə, yaxud şöbəsinin işçisi vacib spesifik funksiyalara malik olmalıdır. Funksiyalar müvafiq muzey mərhələləri ilə sıx surətdə bağlıdır. Yəni, hər mərhələdə ona uyğun funksiyalara əməl edilməsi vacibdir. Həm elmi, həm də bədii-yaradıcılıq nöqteyi-nəzərindən həmin funksiyaları aşağıdakı kimi verməyi məqsədyönlü hesab etdik:

1. Muzey işçisinin ilkin funksiyaları sərgiyə, yaxud digər muzey tədbirinə hazırlıq mərhələsi ilə bağlıdır. Bu mərhələdə muzey işçisinin vəzifəsi sərgi-ekspozisiya yaxud digər muzey tədbirinin təşkili layihəsinin məqsədini təyin etməkdən ibarətdir. Bu mərhələdə qarşıya məqsəd qoyulur. Məlumdur ki, məqsəd fəaliyyətin mühüm amili hesab olunur. Məqsəd elmi-yaradıcı işçilərin əməyini məqsədyönlü nəticəyə nail olmağa istiqamətləndirir. Bu prosesdə dəqiq məlumatların tədqiqat metodları vasitəsilə əldə olunması vacibdir, məkan, zaman, tamaşaçının xarakteri, tələb olunan mühit, amillər, istifadə ediləcək əşya, material, eksponatların seçilməsinə hazırlıq, həmin anlarda iştirak edəcək işçi personalı, hər bir işçinin elmi-yaradıcı məqsəd və vəzifələrinin təyin edilməsinin planlaşdırılması, ümumi texnoloji proseslərdən istifadə edilməsinin layihələş-

dirilməsinə hazırlıq, müvafiq elmi-yaradıcı təlimatların vaxtında verilməsi, müvafiq muzeydən kənar elmi-tədqiqat müəssisələrindən elmi-yaradıcı mütəxəssislərin dəvətinin planlaşdırılması, baş verəcək hər hansı psixoloji gərginliyin aradan qaldırılması yollarının təyin edilməsi layihələri və sair hazırlıq işləri yerinə yetirilməsi mərhələləri nəzərdən keçirilməlidir.

2. Muzey elmi işçisinin görüləcək işlərin elmi layihələndirilməsi, planlaşdırılması funksiyası da ayrı-ayrı mərhələlərlə sıx bağlıdır, daha doğrusu hər mərhələyə uyğun təyin edilir. Bu funksiya gələcək muzey fəaliyyətinin elmi modelini hazırlamaqdan, dəqiqləşdirilmiş zamanda məqsədə çatmaq üçün elmi vasitə və yollar seçməkdən ibarətdir. Planlaşdırma ilə bu mərhələ başa çatır. Bu mərhələdə bütün detallarına qədər işçilər öz elmi fəaliyyətlərini yerinə yetirir, bu zaman bir-birləri ilə sıx qarşılıqlı əlaqədə olur, biri digərinə öz tövsiyəsi, məsləhəti, eskizi, texnolojisi vasitəsilə köməklik göstərir. Bir sözlə təcrübəli və dərin elmi biliklərə malik peşəkar muzey işçiləri qarşılıqlı olaraq əlbir fəaliyyət sistemində qarşıya qoyulmuş ümumi məqsədin yerinə yetirilməsi üçün zəminə çevrilir. Yaddan çıxarmaq olmaz ki, hazırlıq mərhələsində elmi işçilər qarşılıqlı əlaqədə elmi informasiyaları bir-birlərinə verməyi də planlaşdırırlar. Ona görə də çalışmaq lazımdır ki, bir bölmə digər bölmə və şöbənin informasiyasını təkrarlamasın, eyni zamanda dəqiqləşdirmə aparılsın, məlumatlar qeyri-dəqiq olmasın.

3. Növbəti 3-cü mərhələdə elmi işçilər artıq bir-birlərinə elmi məlumatları faktiki olaraq ötürürlər və buna görə də bu, proses informasiya ötürmə funksiyası adlanır. İnformasiya ötürmə prosesi planlı şəkildə həyata keçirilməli, tələsikliyə, qarışıqlığa, qeyri-dəqiqliyə yol verilməməlidir. Hər hansı eksponatın yaranma tarixi, dövrü, müəllifi, yaranma materialı, qorunduğu şərait, indiyə qədər nümayiş etdirildiyi ölkələr, muzeylər, yaxud şəxsi kolleksiyalar, indiyə qədər bu eksponat haqqında aparılan elmi tədqiqat işi, nümayiş etdirilməsi vacib olan muzey mühiti, şərait, nümayiş etdiriləcəyi zaman və digər

bu kimi elmi məlumatlar ardıcıllıqla müvafiq instansiyaya ötürülür. Bu baxımdan muzeyin elmi-yaradıcı potensialı informasiya mənbəyi hesab olunur.

4. Növbəti 4-cü mərhələdə elmi işçinin düzəliş etmə (korreksiya) funksiyası vasitəsilə proseslər yerinə yetirilir. Nəzarəti həyata keçirmək və ortaya çıxan çatışmazlıqların elmi-yaradıcı tərəflərin düzəlişlərinin edilməsi yerinə yetirilir, çatışmazlıqları törədən səbəblər aydınlaşdırılır, müvafiq yollarla onlar aradan qaldırılır.

5. Növbəti 5-ci mərhələdə əməkdaş tərəfindən elmi qiymətləndirmə funksiyası yerinə yetirilir. Hər bir elmi işçi başa çatan işi təhlil edir, onun keyfiyyət dərəcəsini qiymətləndirir, tədqiqat apararaq buraxılan səhvləri araşdırır, gələcək fəaliyyətdə belə səhvlərin baş verməməsi üçün əvvəlcədən görüləcək elmi-yaradıcı fəaliyyət layihəsini müəyyənləşdirir.

Muzey elmi-yaradıcılarının qarşılıqlı əlaqəliliyi prosesində müvafiq prinsiplər yerinə yetirilməlidir. Əks halda lazımi nəticə əldə edilməz. Qarşılıqlı əlaqəlilik prosesində muzeyinin elmi-yaradıcı potensialı:

1) elmilik prinsipi əsasında fəaliyyətlərini qurmalıdır. Bütün lazımi material, fakt, məlumatlar, layihə, eskiz, diaqram, xəritə, rəqəmlər elmi araşdırmanın nəticəsi olaraq verilməlidir;

2) planlılıq prinsipinə ardıcıllıqla əməl edilməli, informasiyalar planlılıq əsasında ötürülməlidir;

3) ardıcıllıq prinsipi əsasında informasiyalar verilməli, müvafiq olaraq elmi ardıcıllıq gözlənilməlidir;

4) kompleksilik prinsipi gözlənilməklə tədbir üçün bütün informasiya kompleks şəkildə əldə edildikdən sonra ötürülə bilər ki, çatışmazlıq baş verməsin;

5) mütəmadilik prinsipinə əməl edilməklə informasiyaların ardı kəsilməməlidir, ona görə də hər an yeniləşmə, yeni informasiyaya tələbat olduğundan, həmin məlumatları mütəmadi vermək vacibdir və sair prinsiplərə əməl edilməlidir. Hər mərhələnin yerinə yetirilməsində müvafiq prinsiplərə əməl

edilməsi vacibdir. Bu halda muzey tədbirinin keyfiyyət göstəriciləri yüksək olur.

Beləliklə, mərhələlərin muzeyin elmi-yaradıcı potensialının qarşılıqlı əlaqə fəaliyyətindən asılılığı getdikcə qanunauyğun şəkil alır və muzeyin inkişafına müsbət təsir göstərir. Muzeyşünaslıqda bu qanunauyğunluğu belə səciyyələndirmək olar: muzey fəaliyyəti mərhələlərində elmi-yaradıcı potensialın qarşılıqlı əlaqə fəaliyyəti nə qədər səmərəli olarsa, inkişafın keyfiyyətli sürətlənməsinə bir o qədər tez nail olmaq olar. Muzeyşünaslıqdakı həmin qanunauyğunluğu qanun formasında "Mərhələlərin muzeyin elmi-yaradıcı potensialının qarşılıqlı əlaqə fəaliyyətindən asılılığı qanunu" kimi səciyyələndirmək olar.

## 3.7. Muzey fəaliyyətinin nəticələri üzrə qarşılıqlı əlaqələr və qanunauyğunluqlar

Muzey fəaliyyətinin nəticələri öz keyfiyyət göstəriciləri ilə ölçülür. Fəaliyyət prosesində nəzəri, təcrübi, texnoloji, təşkil və idarəetmə sistemlərinin formasına, məzmununa məqsədyönlü nəzarət və qiymətləndirmənin həyata keçirilməsi, ünsürlər arasındakı sıx qarşılıqlı əlaqəlilik məhz keyfiyyət göstəricilərinin yüksəlməsilə nəticələnir. Muzey fəaliyyətinin nəticələri üzrə qarşılıqlı əlaqələr də muzeyşünaslığın daxili texnologiyası olduğundan onları aşağıdakı şəkildə təsnif etməyi məqsədyönlü hesab etdik:

1. Mənəvi zənginləşmənin nəticəsinin muzey fəaliyyətinin üsul və vasitələrindən asılılığı.
2. Nəticənin muzey fəaliyyəti ünsürlərinin əlaqə və vəhdətindən asılılığı.
3. Muzey fəaliyyəti nəticəsində mənəvi zənginləşmənin elmi-yaradıcı dünyagörüşünü və hərtərəfli formalaşmanı inkişaf etdirməsi.

Yuxarıda göstərilən qarşılıqlı əlaqələrin mahiyyət və

əhəmiyyətini aşağıdakı yarımfəsillərdə ardıcıllıqla izah etməyi məqsədyönlü saydıq.

### 3.7.1. Mənəvi zənginləşmənin nəticəsinin muzey fəaliyyətinin üsul və vasitələrindən asılılığı

Mənəvi zənginləşmə prosesi muzeyin nəzəri və təcrübi mahiyyət kəsb edən fəaliyyət istiqamətləri ilə sıx bağlıdır. Muzey sərgiləri və digər tədbirlər vasitəsilə müxtəlif yaş qruplu, insanlara ayrı-ayrı peşə sahiblərinə elmi-bədii mahiyyət kəsb edən, eyni zamanda təcrübi bacarıq-vərdişlərin, maraqların inkişafına təkan verən informasiyalar verilir. Onların qarşısında əyani-əşyavi illüstrativ, bədii, dekorativ-tətbiqi sənətkarlıq, memarlıq və sair növlü nümunələr nümayiş etdirilir.

Ümumiyyətlə, mənəvi zənginləşmə üçün ümumi vasitə olan muzey fəaliyyəti aşağıdakı növləri əhatə edir:

- əşya material və kolleksiyaların komplektləşdirilməsi;
- əşya və kolleksiyaların uçot və mühafizələrinin təşkili;
- muzey əşyaları və kolleksiyalarının elmi tədqiqi;
- sərgilər və ekspozisiyaların, digər muzey tədbirlərinin müasir texnologiyalar əsasında təşkili;
- müasir texnologiyalar sayəsində muzey sahəsində dizayn və tərtibat işlərinin yerinə yetirilməsi;
- konservasiya və bərpanın bütün növlərinin texnologiyalar sayəsində həyata keçirilməsi;
- kolleksiya kataloqlarının hazırlanması və nəşri,;
- kolleksiyaların təbliği və sair.

Mənəvi zənginləşmədə aşağıdakı xüsusi vasitələrin mühüm əhəmiyyəti olduğundan onların təsnifatını verməyi məqsədyönlü hesab etdik:

- təsviri sənət əsərləri, o cümlədən lövhələr, şəkillər, rəsmlər, qravürlər, naxışlar, heykəltəraşlıq nümunələri, bədii toplular, montajlar və s.
- xüsusi əhəmiyyətli televiziya, kino, radio, video mate-

riallar, foto əsərlər və foto materiallar, dizayn işləmələri və memarlıq layihələri;

- əlyazmalar, xüsusi əhəmiyyətli kitab və kitabçalar, dövri mətbuat materialları, açıqcalar, not yazıları, qeyd dəftərçələri, məktublar, yadigarlar, nadir nəşrlər və sair;
- dekorativ-tətbiqi sənət əsərləri;
- səhnə və ekran əsərləri, dekorları, butaforiya və rekvizitləri;
- qədim nadir kolleksiyalar;
- şifahi xalq yaradıcılığı nümunələri;
- arxeoloji və numizmatik xarakterli əşya və nümunələr;
- flora və fauna nümunələri, paleontoloji əhəmiyyətli muzey əşyaları və s.

Muzey fəaliyyəti prosesində istifadə edilən üsulları aşağıdakı kimi vermək olar:

1. Əyanilik üsulları:
- illüstrasiya;
- demonstrasiya və s.

2. Söz üsulları:
- şərh etmək, söyləmək, danışmaq;
- izah etmək;
- aydınlaşdırmaq;
- diskussiya
- disput;
- təlimatlandırma və s.

3.Videoüsullar:
- ümumi baxış;
- izahedici baxış;
- təlimatlandırıcı baxış;
- sözlü-məntiqi baxış və s.

4.Səsləndirmə üsulu:
- maqnitofon lentinin səsləndirilməsi;
- qrammafon vallarının səsləndirilməsi;
- disk və disketlərlə səsləndirmə və s.

İllüstrasiya sərgi-ekspozisiyada nümayiş etdirilən eksponatların köməyi ilə həyata keçirilir. Bu prosesdə əyani-əşyavi fakt-eksponat hərəkətsiz vəziyyətdə olur. Ekspozisiyada eksponat ayrı-ayrı yaş qruplu insanlar üçün müxtəlif mənalar kəsb edir. Bəzi hallarda sadəcə nümayiş əhəmiyyəti daşıyır, bəzən isə mücərrədliyə malik olur. İllüstrasiya eksponatın orijinalı yaxud təkrarı, cədvəl, diaqram, sxem, xəritə, qlobus və sair vasitəsilə həyata keçirilir.

Demonstrasiya üsulu eksponatların inkişaf dəyişkənliyində nümayişi deməkdir. Yəni, fotoşəklin, sxemin, cədvəlin, xəritənin və sairənin mövcud vəziyyətilə əvvəlki vəziyyətləri müqayisədə verilir. Tamaşaçıya, seyrçiyə hər bir variant nümayiş etdirilir və dəyişkənliklər haqqında bələdçi tərəfindən və yaxud texniki vəsaitlərin köməyi ilə əlavə elmi məlumatlar verilir. Demonstrasiya zamanı mühitin və təqdim etmənin, nümayiş şəraitinin, texnologiyanın mühüm əhəmiyyəti inkaredilməzdir. Bu proses elə təşkil edilməlidir ki, birincisi, eksponat müvafiq şəraitdə qoyulmalıdır və müvafiq texniki vasitələrin köməyi ilə seyrçidə maraq oyatmalıdır; ikincisi, seyrçi elmi müqayisələr aparmaq imkanına malik olmalı, lazımi fakt və materialı əldə etməlidir; üçüncüsü, güclü bədii-estetik zövqlərin inkişafı, formalaşmasına nail olmalıdır.

Həm illüstrasiya, həm də demonstrasiya bir-biri sıx qarşılıqlı əlaqədə olmaqla, ümumi məqsədə nail olmaqda mühüm əhəmiyyət kəsb edirlər.

Sərgi-ekspozisiyada çox güclü elmi, bədii-estetik gücə malik eksponat qarşısında qısa məlumatı bələdçi şərh, danışıq, söyləniş vasitəsilə həyata keçirir. Nümunənin məzmun, mahiyyət əhatəsini izah vasitəsilə, yeri gələrsə aydınlaşdırma ilə yerinə yetirən bələdçi dərin elmi biliyə, aydın diksiyaya, müvafiq mimika və hərəkətlərə malik olmalı, hər bir seyrçidə çox dərin mənəvi, estetik hisslər oyatmalı, elmi müqayisələr üçün mənbələri təqdim etməyi bacarmalıdır.

Müasir texnoloji proseslərin hazırkı muzey fəaliyyətin-

də əhəmiyyəti böyükdür. Kompüter texnikası, audio-video vəsaitlər, foto texnologiyası vasitəsilə müxtəlif məzmunlu video-üsullar yerinə yetirilir.

Ayrı-ayrı maqnitofon lentləri, qrammofon valları, müxtəlif alətlər vasitəsilə təşəkkül tapan səsləndirmə zamanı da həmçinin elmi-bədii təsir gücünə malik fəaliyyət özünü göstərir. Bütün belə texnoloji proseslərdə dərin idraki proseslər sistem halını alır: birincisi, bütün texnoloji proseslərin yaradıcısı, həyata keçirəni, təşkil edəni muzey işçisidir ki, bu proseslərdə o, həm təqdim edir, tədqiqat üçün şərait yaradır, düşündürür, yeni-yeni zövqlər yaradır, formalaşdırır, maraqlar oyadır, eyni zamanda özü də get-gedə formalaşır, təkmilləşir, özü-özünü təhsilləndirir, maarifləndirir, axtarır, tədqiq edir, çalışır ki, eksponat, əşya, material barədə tam elmi-bədii məlumatı çatdırmağa cəhd etsin; ikincisi, seyrçi, tamaşası bütün bu proseslərdən təsirlənir, elmi-bədii, estetik dəyərlərdən zənginləşir, nəzəri biliklər əldə edir, müxtəlif tarixi dövrlər yaradıcılığı nümunələrini "qiymətləndirir", beləliklə də elmi-bədii dünyagörüşünü daha da artırır. Eyni zamanda muzey fəaliyyətinə olan maraqlar daha təkmil muzey fəaliyyətinə tələbatlar yaradır, daha vacib və müasir texnologiyalar vasitəsilə günün tələbləri səviyyəsində muzey fəaliyyətinə ehtiyac gündən-günə artır.

Muzeylər işçiləri tərəfindən zənginləşmə sərgi, eksponat, müxtəlif mövzularda gecələr, görüşlər, olimpiadalar, tənəzzöhlər, disputlar, muzey mühazirələri, konfranslar, söhbətlər, dəyirmi masalar, viktorina və sair tədbirlər vasitəsilə yerinə yetirilir. Təbiidir ki, zənginləşmə prosesində (sərgi-ekspozisiyada) üç tərəfin mövcudluğu məlumdur: muzey işçisi (bələdçi), tamaşaçı, seyrçi və eksponat. Lakin bu prosesdə ekspozisiya mühitini də yaddan çıxarmaq olmaz, yəni əgər ekspozisiya mühiti əlverişli, eyni zamanda məqsədyönlü olmazsa, zənginləşmənin keyfiyyəti də buna münasib olaraq son nəticədə özünü göstərəcəkdir. Ekspozisiya mühitində məqsədyönlü

şəkildə həyata keçirilən texnoloji proseslər zənginləşmənin müsbət nəticəsi deməkdir.

Eksponat bütün proseslərdə əsas vasitədir. O həm ekspozisiya mühitini yaradır, genişləndirir, həm də güclü təsir qüvvəsinə malik olur. Eksponat həm tamaşaçıya təsir edir, həm də bələdçini, muzey işçisini müvafiq fəaliyyətə təhrik edir. Eyni zamanda eksponatın hər iki tərəfi - bələdçini, tamaşaçını zənginləşdirir, hər iki tərəfi düşünməyə məcbur edir. Zənginləşdirmə zamanı eksponatın gücü vasitəsilə bələdçinin həmin eksponat haqqında elmi-bədii biliyindən istifadə edilməklə tamaşaçıya məqsədyönlü təsir göstərilir, məhz belə "ikitərəfli" təsir nəticəsində zənginləşmədə uğurlu nəticələrə nail olunur ki, bu da muzeyin perspektiv fəaliyyəti üçün mühüm əhəmiyyətə malikdir. Lakin belə müsbət nəticənin əldə olunmasından ötrü eksponat müvafiq material və əşyalarla təchiz edilməli, onun təsir gücünün artırılması üçün müvafiq şərait yaradılmalıdır.

Bələdçi vasitəsilə eksponatın təqdimi onun bilik, bacarıq və vərdişlərindən, təcrübəsindən asılıdır. Beləliklə, ekspozisiya mühitini Ek.m-lə, eksponatı E-lə, bələdçi təsirini Bt-lə və əldə edilən zənginləşmə nəticəsini Zn-lə işarə etsək, onda

$$Ek.m + E + Bt = Zn$$

alınar. Əgər bütövlükdə bu proses məqsədyönlü şəkildə təşkil edilərsə, onda səmərəli zənginləşmə nəticəsinə nail olunar.

Beləliklə, fəaliyyət prosesində üsul və vasitələrin gücündən istifadə edilməsi səmərəliliyi, zənginləşmə nəticəsinin keyfiyyətini təyin edir. Muzeyşünaslıqda bu qanunauyğunluğu belə səciyyələndirmək olar: muzey fəaliyyətinin üsul və vasitələrinin gücündən maksimum səmərəli istifadə edilərsə, zənginləşmə nəticəsinin keyfiyyət göstəricisi bir o qədər yüksək olar. Muzeyşünaslıqdakı həmin qanunauyğunluğu qanun formasında "Mənəvi zənginləşmənin nəticəsinin muzey fəaliyyətinin üsul və vasitələrindən asılılığı qanunu" kimi səciyyələndirmək olar.

### 3.7.2. Nəticənin muzey fəaliyyəti ünsürlərinin əlaqə və vəhdətindən, biri-birini şərtləndirməsindən asılılığı

Muzey fəaliyyətində nəticələr həm ünsürdaxili əlaqələrin bir-biri ilə, həm də ünsürlərin qrup halında ümumi əlaqələrindən bilavasitə asılıdır. Əvvəlcə ünsürdaxili əlaqələrə diqqət yetirək. Fəaliyyətdə mühit və şəraitin yeri, əhəmiyyəti üzrə qarşılıqlı əlaqələrdə mühit amili əsas əhəmiyyətə malikdir. Çünki, birincisi, mühit baş verəcək fəaliyyətin mənbəyidir, obyektidir və məhz obyektdə fəaliyyəti məqsədyönlü şəkildə qurmaq mümkündür. İkincisi, mühit amillərinin olması vacibdir. Yaddan çıxarmaq olmaz ki, mühitə, mühitdə baş verəcək hadisələrə, təşkil ediləcək fəaliyyətə uyğun amillərin olmasından söhbət gedir. Üçüncüsü, mühitə müvafiq amillərin planauyğun, elmi-yaradıcı formada fəaliyyətə cəlb etmək, başqa sözlə mühitdə muzey fəaliyyətini əvvəlcədən planlaşdırmaq, lazımi mövzularda sərgi-ekspozisiya, yaxud digər muzey tədbirinin nəzəri əsaslarını işləyib hazırlayan idrakın olması vacibdir. Dördüncüsü, fəaliyyət üçün müvafiq texnologiyaların mövcudluğudur. Göründüyü kimi, mühit amillərsiz qeyri-mümkündür. Yuxarıda göstərilən amillərin birisi olmasa mühitin mövcudluğundan danışmaq olmaz. Ümumiyyətlə, fəaliyyətin səmərəsi və keyfiyyəti mühit amillərindən asılıdır.

Muzey mühitində yaradıcı, yaradıcılıq nümunəsi (eksponat) ilə seyrçi, tamaşaçı arasındakı qarşılıqlı əlaqədə də yaradıcı idrakın məhsulunun tamaşaçıya göstərdiyi təsirin keyfiyyəti ilə məhz nəticələr əldə edilir. Beləliklə, ünsürlərarası fəaliyyətdə əlaqəlilik çox mürəkkəb prosesdir, eyni zamanda kompleksliyi əmələ gətirir. Bu bütöv bir kompleksin fəaliyyət mexanizmi onun daxili strukturunun vəhdəti deməkdir.

Muzey fəaliyyətinin mahiyyəti üzrə qarşılıqlı əlaqələr mexanizmində muzey işçisi, fond fəaliyyəti, ekspozisiya, tamaşaçı fəaliyyəti, bərpa fəaliyyəti, dərketmə prosesi, zənginləşmə,

ziddiyyətlər kimi maraqlı əlaqəlilik bütöv bir məzmunu yaradır. Bu məzmunda muzey işçisi, ekspozisiya və tamaşaçı fəaliyyəti sıx vəhdətdə olmaqla, bir-birini şərtləndirirlər. Eyni zamanda digər qarşılıqlı əlaqə üçün mənbə rolunu oynayırlar. Yəni, muzey işçisi, ekspozisiya və tamaşaçı arasındakı əlaqəlilik dərketməyə səbəb olur, həm də məqsədyönlü dərketməyə. Eyni zamanda belə dərketmə ekspozisiya materiallarından bilavasitə asılıdır. Yəni, birincisi, bu materiallar planlı şəkildə seçilərək lazımi yerdə qoyulmaqla əvvəlcədən planlaşdırılmış ekspozisiya şəraitini yaradırsa, onda səmərəli nəticələr əldə edilir. İkincisi, bu materiallar müvafiq texnologiyaya əsaslanırsa muzey öz məqsədinə nail olur. Üçüncüsü, belə səmərəli nəticənin əldə olunması həm də sıx vəhdət sayəsində baş verir.

Muzey tədbirləri vasitəsilə zənginləşmə prosesi tədbirin planlaşdırılması, mövzusunun seçilməsi, təşkili texnologiyası, yeri, şəraiti, məzmun rəngarəngliyi, təsir gücü və sairə ilə ölçülür. Şübhəsiz bu proseslərdə mühit amilləri, fəaliyyət rəngarəngliyi mühüm rol oynayır.

Fəaliyyət prosesində müxtəlif ziddiyyətlərin yaranması və onların aradan qaldırılması yollarının təyini, həyata keçirilməsi də mühit amilləri vasitəsilə yerinə yetirildiyindən qarşılıqlı əlaqəliliyin qanunauyğun şəkil alması təbii hala çevrilir.

Muzey fəaliyyətinin məqsədi üzrə qarşılıqlı əlaqələrdə qarşıya qoyulan məqsədə nail olunmasında muzeydaxili əlaqə və asılılıqların nizamlanması, əlaqələrdə vahid məqsədə xidmət edilməsi, müvafiq nəzarət sisteminin vacibliyi vəhdət təşkil edir. Bu üç qarşılıqlı əlaqə biri digəri üçün zəminə çevrilir. Nizamlılıq, əlaqələrdə vahidlik və müvafiq nəzarət işlərinin ardıcıllıqla həyata keçirilməsinin keyfiyyətliliyi nəticənin səmərəliliyinə səbəb olur.

Muzey fəaliyyətinin məzmunu üzrə qarşılıqlı əlaqələrdə planlılıq, elmilik, ardıcıllıq, mütəmadiliyin bir-birini şərtləndirməsi, məzmunlu vasitələrin əlaqəliliyi, mövcud metod və formaların vəhdətindən məhz nəticələr əldə edilir. Məzmun

bütövlükdə muzeyin fəaliyyət mexanizmidir ki, burada bütün sahələr, istiqamətlər üzrə nəticələr onunla ölçülür. Məzmunu strukturunda əsas mənbələr, fəaliyyətdə aparıcı xarakterə malikdir. Bunlar əsas etibarilə elmi-tədqiqi, yaradıcı, təşkilati-tətbiqi mənbələrdir. Elmi-tədqiqi mənbələr vasitəsilə bütövlükdə muzeydaxili və muzeydənxaric elmi-tədqiqat işləri (eksponatlar, materiallar, əşyalar, bərpa fəaliyyəti, planlaşdırma işləri, muzeydənkənar, beynəlxalq əlaqələrin elmi-nəzəri tərəfləri, muzey əməkdaşlarının fərdi elmi fəaliyyəti və sair) həyata keçirilir.

Yaradıcı mənbələr vasitəsilə muzeyin yaradıcılıq işləri (fondda, arxivdə, kitabxanada, bərpa emalatxanasında, ekspozisiyada, digər muzey tədbirlərində həyata keçirilən fəaliyyət) mərhələ-mərhələ yerinə yetirilir. Yaradıcı sənətkarların məhz muzeydənkənar və muzeydaxili sərgilər, tədbirlər zəminində qabiliyyət - bacarıqları nümayiş etdirilir, geniş tamaşaçı kütləsi tərəfindən qiymətləndirilir. Yaradıcı mənbə sırasında eyni zamanda muzey işçilərinin - elmi-yaradıcı və təşkilati heyətinin də yeri özünü qabarıq şəkildə göstərir. Məsələn, birincisi, əgər bələdçinin ekspozisiyaya yaradıcı münasibəti olmasa o, seyrçi-tamaşaçıda maraqlar yarada bilməz, zənginləşmə baş verməz. İkincisi, bələdçinin məktəb yaşlı uşaqlarla ekspozisiyadakı fəaliyyəti prosesində özünün pedaqoji, psixoloji yaradıcılığından müvafiq şəkildə istifadə etməsi səmərəli nəticələr verir. Üçüncüsü, bələdçinin nümayiş etdirilən eksponatı elmi-yaradıcı şəkildə təqdimi də mühüm əhəmiyyətə malikdir və sair.

Təşkilati-tətbiqi mənbələr sayəsində (muzey işinin bütün sahələri üzrə) fəaliyyət prosesi həyata keçirilir. Hər bir muzey işçisi eyni zamanda yüksək təşkilatçı olmalıdır. Fond, bərpa, sərgi-ekspozisiya işlərində, digər tədbirlərdə peşəkar-təşkilatçılıq vacibdir. Təşkilatçı həm də yaradıcı olmalıdır ki, tətbiq prosesində çətinlik çəkməsin. Tətbiq zamanı sahənin müvafiq başlıca tələblərinə əməl olunmalı, səmərəli nəticə əldə edilməlidir. Məhz muzeyin başlıca məqsədi də elə bundan iba-

rətdir.

Bu mənbələr arasında sıx qarşılıqlı əlaqə mövcuddur və bir mənbə digəri üçün şərtə çevrilir. Məzmunun dolğunluğu, rəngarəngliyi, effektliliyi üçün yuxarıdakı mənbələrin vahidliyi mühüm şərtə çevrilir. Digər tərəfdən məzmunla məqsəd arasındakı əlaqəlilik də özünü göstərir.

Muzey fəaliyyətinin imkanları üzrə qarşılıqlı əlaqələrdə zənginləşdirici, tərbiyəedici, təhsilləndirici, inkişafetdirici, formalaşdırıcı imkanlardan səmərəli istifadə də nəticəyə müsbət təsir göstərir. Muzey fəaliyyətinin tərbiyəedici imkanları onların funksiyalarından - elmi aşkarlamadan, sənədləşdirmədən, mühafizədən, bərpadan, təbliğdən, nümayişdən bilavasitə asılıdır. Bu imkanlar muzeyin muzeydənkənar mühitlə mütəmadi əlaqəliliyinə, ətraf mühitdə baş verən hadisələrlə, inkişafla, tərəqqi ilə də sıx əlaqədardır. Əqli tərbiyə, ideya-mənəvi tərbiyə, əmək tərbiyəsi, vətənpərvərlik tərbiyəsi, əxlaq tərbiyəsi, estetik tərbiyənin formalaşdırılması da imkanlarla sıx bağlıdır.

Təhsilləndiricilik imkanları ayrı-ayrı muzey-daxili və muzeydənkənar vasitələrlə bağlıdır. Həmin vasitələr də öz növbələrində bir-biriləri ilə sıx qarşılıqlı əlaqədədirlər. Bu vasitələr də bilavasitə müvafiq olaraq muzeydaxili və muzeydən-kənar mühitlə əlaqədardır.

İnkişafetdirici, formalaşdırıcı imkanların əhatəliliyi, müasir texnologiyaların mövcudluğu nəticələrin də müvafiq olaraq səmərəliliyinə təkan verəcəkdir.

Muzey fəaliyyətində mərhələlərin də əhəmiyyəti muzey işçilərindən, mərhələlərarası əlaqəlilikdən, muzeydaxili bölmə və kollektivlərin, elmi-yaradıcı potensialın qarşılıqlı əlaqəliliyindən çox asılıdır. Mərhələlərin ardıcıllığı, planlılığı, konkretliliyi, funksionallığı muzey fəaliyyətinin səmərəliliyi üçün əhəmiyyətlidir.

Beləliklə, ünsürdaxili əlaqələrin hərtərəfliliyi, səmərəliliyi ünsürlərarası ümumi qarşılıqlı əlaqələr üçün mənbəyə çevrilir. Başqa sözlə, ünsürlərarası ümumi əlaqələrin keyfiyyət

nəticəsi ünsürdaxili əlaqələrin nəticələrindən asılıdır. Ünsürlərarası ümumi qarşılıqlı əlaqələrin biri digəri üçün şərtə çevrilir. Yəni, digər qarşılıqlı əlaqələr fəaliyyətdə mühit və şəraitin yeri, əhəmiyyəti üzrə əlaqəlilikdə sıx bağlıdır:

Birincisi, mühit, şərait olmasa heç bir fəaliyyət, qarşılıqlı əlaqəlilik mövcud olmazdı.

İkincisi, mahiyyət, məqsəd, məzmun, imkanlar, mərhələlər, nəticələr mühitsiz mümkün deyildir.

Üçüncüsü, mühitsiz ünsürlərarası əlaqəliliyin ardıcıllığı, elmiliyi, konkretliliyi, kompleksliliyi qeyri-mümkün olardı. Digər qarşılıqlı əlaqələr də həmçinin biri digəri ilə sıx təsirə malikdir.

Beləliklə, fəaliyyət prosesində ünsürlərarası əlaqə və vəhdət, onların biri-birini şərtləndirməsi nəticənin səmərəliliyini təyin edir. Muzeyşünaslıqda həmin qanunauyğunluğu qanun formasında " Nəticənin muzey fəaliyyəti ünsürlərinin əlaqə və vəhdətindən, biri-birini şərtləndirməsindən asılılığı qanunu" kimi səciyyələndirmək olar. Muzeyşünaslıqda bu qanunauyğunluğu aşağıdakı şəkildə səciyyələndirmək olar: muzey fəaliyyətində ünsürlərarası əlaqə və vəhdətə nə qədər ciddi diqqət yetirilərsə, bir o qədər də nəticələrin səmərəliliyi artar.

### 3.7.3. Muzey fəaliyyəti nəticəsində mənəvi zənginləşmənin elmi-yaradıcı dünyagörüşünü və hərtərəfli formalaşmanı inkişaf etdirməsi

Muzey fəaliyyəti nəticəsində mənəvi zənginləşmə həm elmi-yaradıcı dünyagörüşü, həm də hərtərəfli formalaşma üçün zəminə çevrilir. Mənəvi zənginləşmə təbii ki, mərhələli prosesdir və hər mərhələnin özünün müxtəlif (yaş dövrləri nəzərə alınmaqla) təsir gücü mövcuddur. Hər yaş dövrünün özünə müvafiq qavrama dərəcəsi olduğundan, mənəvi zənginləşmədə də yaş qrupunun əhəmiyyəti vardır. Zənginləşmə prosesi əsa-

sən kiçik yaş dövründən (6-10 yaş) başlanır. Çünki, "Məktəb yaş dövrünə qədəm qoyan uşağın fəaliyyətində, ünsiyyətində və başqa adamlarla münasibətində kəskin dönüş yaranır. Təlim onun aparıcı fəaliyyət növü olur, həyat tərzi dəyişir, yeni vəzifələr meydana gəlir, ətrafında olan adamlarla yeni münasibətlər yaranır... Uşağın psixikası sürətlə inkişaf edir. Hiss orqanlarının dəqiqliyi yüksəlir. Məktəbəqədər dövrlə müqayisədə rəngə olan həssaslıq 45%, oynaq-əzələ hissiyyatı 50%, görmə hissiyyatı 80% yaxşılaşır... Bu yaşda uşaqlar izah edilən təlim materiallarını faktlara, misallara, əyani vəsaitlərlə daha tez başa düşürlər. III, IV sinif şagirdləri isə söz ehtiyatının artması ilə əlaqədar olaraq tədricən mücərrəd məfhumları da qavramağa başlayırlar...

Kiçikyaşlı məktəblilərin qavrayışı sabit və mütəşəkkil olmasa da, onlar ətraf aləmi həvəslə, emosional qavrayırlar... Kiçik məktəbyaşlı şagirdlərdə hafizə daha çox əyani-obrazlı xarakterdə olur" (378, s.88-89). Beləliklə, kiçik məktəbyaşlı uşaqlarda zənginləşməyə kömək edən ayrı-ayrı təsəvvürlərin formalaşması üçün böyük imkanlar yaranır. Həm ailədə, məktəbdə, həm də məktəbdənkənar mühitdə, muzeylərdə bu imkanlardan bacarıqla istifadə olunmalı, zənginləşmə üçün şərait yaradılmalı, hərtərəfli fəallıq inkişaf etdirilməlidir.

Orta yaş dövründə (11-15 yaş) uşaqlarda çox kəskin dəyişikliklər baş verir. "Yeniyetmə həm uşaqlıq, həm də ilk gənclik əlamətlərini özündə əks etdirir. Bu yaş dövründə yeniyetmənin qavrayışı daha məqsədyönlü, planauyğun, mütəşəkkil olur, dəqiqliyi ilə fərqlənir... Onlar özləri üçün maraqlı olan hadisə və materiala diqqətlərini xeyli vaxt cəm edə bilirlər. Yeniyetmənin təfəkküründə tənqidilik əlaməti meydana gəlir. O öz fikrini söyləməyə çalışır, mübahisəyə girişir, etiraz edir, hər şeyə tənqidi münasibət bəsləyir. Yaradıcı təfəkkürün inkişafı üçün bu yaş dövrü olduqca əlverişlidir" (378, s.89-90).

Zənginləşmənin səmərəli həyata keçirilməsi üçün

yeniyetmə yaş dövrünün bir sıra ziddiyyətləri də nəzərdən qaçırılmamalıdır. Yeniyetmələr yalana qarşı barışmaz olmağa çalışsa da, hələlik həyatın mürəkkəbliklərindən baş çıxara bilmir; qəyyumluğa qəti razılaşmır; özünü təsdiq etməyə çalışsa da bunun bacarmır; böyüklərlə ünsiyyətə cürət etmir, onlardan məsləhət almaq, tövsiyə almaq, köməkdən çəkinir; onlarda arzu zənginliyi olsa da, imkan məhdudluğu müəyyən çətinlik yaradır; çox bilməyi, öyrənməyi arzulasa da gündəlik qarşısında qoyulan vəzifələrin yerinə yetirilməsinə laqeyd yanaşır və sair.

Bu ziddiyyətlərin qabaqcadan baş verməməsindən ötrü muzey tədbirləri ilə zənginləşmə prosesinə diqqətin artırılmasına, maraqların yaradılmasına nail olmaq vacibdir. Hazırda yeniyetmə oğlan və qızların həyata baxışlarında ciddi nöqsanlar özünü büruzə verir. Onlar çox zaman mənəvi-əxlaqi dəyərləri cəmiyyətə, inkişafa zidd olan mənfi hallarla qarışdırırlar. Bunun baş verməməsindən ötrü məktəbdənkənar tərbiyə müəssisələri, o cümlədən muzeylər vasitəsilə mənəvi zənginləşməyə cəlb edilməli, müsbət, dəyərli, gələcək fəaliyyətləri üçün vacib fəaliyyətə istiqamətlənməlidirlər.

Eyni zamanda elmi-yaradıcılığın fəaliyyətdə mühüm roluna aid maraqlı sərgi və digər tədbirlərin əhəmiyyətliliyi izah edilməli, onları sadə yaradıcı fəaliyyətə cəlb edilməsinə nail olunmalıdır.

Bu yaş dövründə peşələrə meyl, maraq yaranır, sevdikləri sənətə yiyələnməyə çalışırlar. Onların əksəriyyəti təmiz və vicdanlı əməyə, səmərəli fəaliyyətə meyl etməyi başa düşürlər. Bu baxımdan yaradıcılıq nümunələrinə, bədii sənətkarlığa, incəsənətin ayrı-ayrı növlərinə onlarda maraq yaratmağın əhəmiyyəti çox zaman müsbət nəticələr verir.

Böyük yaş dövrü (16-18) araşdırdığımız problem baxımından daha da əhəmiyyətlidir. Bu yaş dövrü dünyagörüşün, əqidənin, xarakterin, həyat yolunun müəyyənləşdirilməsi dövrüdür. Bu yaş dövründə məktəblilər intellektual keyfiyyətləri

yüksək qiymətləndirir, hərtərəfli inkişafa diqqət getdikcə artır, formalaşmaya əsaslı münasibət özünü qabarıq göstərir. Etik problemlərə güclü maraq yaranır, ilk məhəbbətin həyəcanları təsirli olur, mənalı həyata, xoşbəxtlik, borc, vicdan, namus, şərəf, şəxsiyyət mənafeyi və sair problemlər gənclərin diqqətində olur.

Əlbəttə, qeyd olunan yaş dövrlərində əsasən orta ümumtəhsil məktəblərində elmi biliklərə yiyələnmə prosesi müxtəlif siniflərdə planlaşdırılmış şəkildə həyata keçirilir. Lakin məktəbdənkənar tərbiyə, formalaşma, zənginləşmə mənbəyi sayılan muzeylər ayrı-ayrı elmlərə marağın artırılması, əldə edilən biliklərin yaddaşlarda möhkəmləndirilməsi və sair istiqamətlərdə müxtəlif mövzulu sərgi və tədbirlərin təşkilində yaş qruplarını və fərdi xüsusiyyətləri nəzərə almaqla mənəvi zənginləşmə prosesinin səmərəliliyinə diqqət yetirilməlidir. Digər yaş qruplu müxtəlif peşə sahiblərinin elmi-yaradıcı dönyagörüşlərini və hərtərəfli formalaşmalarını mənən zənginləşmənin təsiri ilə ən müasir texnologiya və elmi-bədii, estetik təsir gücünə malik eksponat, ekspozisiya, tədbirlərlə həyata keçirmək məqsədyönlü xarakter almalıdır. Məhz belə olduqda inkişafda mənəvi zənginləşmənin yeri özünü göstərəcəkdir. Eyni zamanda muzeylərin muzeyətrafı elmi-yaradıcı, tədris-tərbiyəvi müəssisələrlə əlaqəli fəaliyyəti, ən müasir vasitə və metodlar, forma və yollardan istifadə nəticəsində problemin həllinə nail olunacaqdır.

Beləliklə, muzey fəaliyyəti nəticəsində mənəvi zənginləşmənin elmi-yaradıcı dünyagörüşü və hərtərəfli formalaşmanı inkişaf etdirməsi getdikcə qanunauyğun şəkil alır və muzeyin inkişafına, həm də müxtəlif yaş qrupuna mənsub insanların zənginləşməsinə, formalaşmasına müsbət təsir göstərir. Muzeyşünaslıqda bu qanunauyğunluğu belə səciyyələndirmək olar: məqsədyönlü fəaliyyət nəticəsində mənəvi zənginləşmə prosesi nə qədər səmərəli təşkil edilərsə, həm muzey əməkdaşlarının, həm də tamaşaçı, seyrçilərin elmi-yaradıcı dünyagörüşləri və

hərtərəfli formalaşmaları bir o qədər məqsədəmüvafiq inkişaf edəcəkdir. Muzeyşünaslıqda həmin qanunauyğunluğu qanun formasında "Muzey fəaliyyəti nəticəsində mənəvi zənginləşmənin elmi-yaradıcı dünyagörüşü və hərtərəfli formalaşmanı inkişaf etdirməsi" qanunu kimi səciyyələndirmək olar.

Əlbəttə, yuxarıda aydınlaşdırılan qarşılıqlı əlaqələr və qanunauyğunluqlar tam bir sistem kimi yaranan muzey fəaliyyətinin tərkib hissəsidir. Bu tərkib hissənin ayrı-ayrı komponentləri vardır ki, onlar fəaliyyətdə mühüm əhəmiyyət kəsb edirlər. Bu komponentlər aşağıdakılardır:

1. Mühit, şərait komponenti muzey fəaliyyətinin əhatə olunduğu mühitdən, şəraitdən, muzey mühitindən, yaradıcı və tamaşaçı arasındakı qarşılıqlı əlaqədən asılılığı və sair kimi məzmunu ümumiləşdirir.

2. İdraki komponent vasitəsilə məqsədyönlü fəaliyyət prosesində yaradıcı sənətkar, muzey işçisi və tamaşaçı-seyrçi tərəfindən əşya, material, hadisələri öyrənilməsi təqdimi prosesləri dəyərləndirilir.

3. Psixoloji komponent ən çox muzey fəaliyyətində həm muzey əməkdaşlarının, həm də tamaşaçı-seyrçilərin psixi vəziyyətlərinin həllinə aiddir.

4. Elmi-yaradıcı komponent muzey fəaliyyəti prosesində bələdçi, əməkdaşla tamaşaçı arasında müvafiq münasibətlər yaradır, elmi-yaradıcı əlaqələrə səbəb olur.

5. Əşya, material, eksponat komponenti fəaliyyət prosesində birincisi, muzeylə tamaşaçı əlaqəliliyini yaradır; ikincisi muzey işçisi ilə tamaşaçı arasında maraq doğuran qarşılıqlı əlaqə yaradır; üçüncüsü, bədii sənətkarlıq nümunəsi, eksponatla tamaşaçı arasında düşündürücü, maraq oyadan əlaqəyə səbəb olur; dördüncüsü, tamaşaçı, seyrçini (əgər yeniyetmədirsə) peşəyönümünə istiqamətləndirir; beşincisi, tamaşaçını mənən zənginləşdirir; altıncısı, tamaşaçıda yaradıcılıq meyllərini yaradır, yaxud gücləndirir və sair.

6. Texnologiya komponenti muzey fəaliyyətinin tərəqqisi

naminə texnologiyaların tətbiqinin nizamlanmasında mühüm əhəmiyyətə malikdir.

7. Təşkilati komponent muzey fəaliyyətinin məqsədyönlü təşkilində əsas əhəmiyyət kəsb edir. Bu zaman muzeyin elmi-yaradıcı, idarəedici potensialının yüksək peşəkarlığı mühüm şərtdir.

Beləliklə, muzeyşünaslığın nəzəri əsaslarının mühüm hissəsini özündə cəmləşdirən qarşılıqlı əlaqələrdən yaranan qanunauyğunluqlar əsaslı əhəmiyyət kəsb etməklə tədqiqatçılarımız tərəfindən davamlı tədqiq edilməli və tətbiq vasitəsilə mütəmadi təsdiqini getdikcə təkmil şəklə salınmalıdır. Onu da qeyd edim ki, ünsürlərarası həmin qarşılıqlı əlaqələrin və qanunauyğunluqların təqdimi cəsarətli addımdır və ümidvarıq ki, muzeylərdə onların tətbiqi müsbət nəticələr verəcəkdir. Bu sahənin daha da tədqiqinə böyük ehtiyac duyulur, çünki, muzeyşünaslığın inkişafı bütün tarixi dövrlər üçün aktual olduğundan belə qarşılıqlı əlaqələrin öyrənilməsi və tətbiqi muzeyşünaslıqda mühüm mərhələdir.

# IV FƏSIL. AZƏRBAYCANDA MUZEY FƏALİYYƏTİNİN FORMALARI VƏ İMKANLARININ MİLLI MUZEYŞÜNASLIQDA ƏHƏMİYYƏTİ

## 4.1. Sərgi-ekspozisiyaların milli muzeyşünaslıqda mühüm əhəmiyyəti

Muzey fəaliyyətinin əsas tərkib hissələrindən olan sərgi-ekspozisiyalarının öz imkanları digər muzey tədbirləri imkanlarından fərqlidir. Bir tərəfdən sərgi-ekspozisiya: birincisi, fəaliyyətin əsas tərkib hissəsi hesab edilir və kompleksliliyə malikdir. Ikincisi, eksponatdan tam istifadə prosesi həyata keçirilir. Üçüncüsü, hər bir eksponat digərləri ilə qarşılıqlı əlaqəli şəkildə seyrçiyə öz təsirini göstərir ki, bunun da nəticəsində hərtərəfli formalaşma əldə edilir. Dördüncüsü, eksponat həm öz gücü ilə, həm də bələdçinin bilik, bacarıq, vərdişi və peşəkarlığı sayəsində öz təsir gücünü göstərir. Beşincisi, elmi-tədqiqatçılıq üçün əhatəli şərait yaradılır. Altıncısı, ekspozisiyada işıq tərtibatı və musiqi müşaiyəti ilə ətraflı informasiya verilir ki, bu proseslər eksponatın gücü və mühitlə əlaqədardır.

Digər tərəfdən isə, eksponatın nümayiş etdirildiyi mühitin coğrafi şəraiti, muzeyin yerləşdiyi ərazi, şəhər, rayon, kənddən asılı olaraq keyfiyyət dərəcəsi özünü göstərir. Yəni, məhdud mühit, şəraitdə eksponatın təsir gücü müvafiq olacaqdır, əhatəli olmayacaqdır.

Məlum olduğu kimi, ölkəmizin paytaxtı Bakıda və regionlarımızda, digər şəhər, rayon, qəsəbə və kəndlərdə, muzey-qoruqlarımız, abidə komplekslərimiz eyni bərabər səviyyədə nümayiş etdirmə, toplama, tədqiqetmə gücünə malik deyildir. Bu, birinci növbədə əhali sıxlığı ilə bağlıdır.

Milli muzeyşünaslığımızın inkişafı son illərdə daha çox diqqət mərkəzində olmuşdur. Xüsusən son illərdə muzey quruculuğuna muzeyşünaslığın tərəqqisi istiqamətində ölkə rəhbər-

liyi tərəfindən çox ciddi tədbirlərin görülməsi, bu sahədə birgə fəaliyyət mexanizminin həyata keçirilməsi işlərinin sistemləşdirilməsi öz müsbət təsirini göstərməkdədir. Bütün bunlarla yanaşı, muzeylərin öz məqsədyönlü fəaliyyətləri sayəsində son onilliklərdə sərgi-ekspozisiya fəaliyyətində sürətli inkişaf özünü göstərmişdir. Azərbaycanda muzeylər normativ-hüquqi aktlar əsasında fəaliyyətlərini mühit daxili qarışlıqlı əlaqələrin prinsipinə uyğun quraraq bütün yaş qruplarına müvafiq günün tələblərinə uyğun mövzularda sərgi-ekspozisiyalar təşkil etməklə, muzeyşünaslığın inkişafına təkan verirlər.

Azərbaycan muzeyşünaslığın bazası sayılan tarix memorial, diyarşünaslıq, sənətşünaslıq və digər profilli muzeylərimiz sərgi-ekspozisiya quruluşu, məzmunu bədii-memarlıq həlli nöqteyi-nəzərindən biri birindən fərqlənsələr də çox zəngin məzmuna malik ekspozisiyalara malikdirlər. Bu da hər bölgənin tarixi, iqtisadi mədəni zənginliyini özündə əks etdirən dəyərli, bəşər əhəmiyyətli eksponatların ekspozisiyalardakı təsir gücü ilə təsdiqini tapır. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, hər bölgənin tarix və mədəniyyətinə, tarixi inkişaf mərhələlərinə respublikamızda yaşından asılı olmayaraq bütün insanlarda böyük maraq mövcuddur və bu səbəbdən də sərgi-ekspozisiyaların təsir gücü durmadan artır.

Azərbaycanın qədim tarixini özünün fond və ekspozisiyalarında qoruyan və nümayiş etdirən, tədqiq edən 300 mindən artıq eksponata malik AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyi xalqımızın nadir xəzinəsidir. Azərbaycanın tarixi, zəngin mədəniyyəti, qədim dövr abidələrini salonlarında təşkil olunmuş elmi ekspozisiyanın qiymətli və nadir eksponatları vasitəsilə təbliğ və nümayiş etdirən, nəsillərə ötürən muzey milli muzeyşünaslığımızın inkişafına təkan verməkdədir. Ekspozisiyada ibtidai icma quruluşu dövrü, tunc dövrü, ilk orta əsrlər, orta əsrlər, XV-XVII əsrlər dövrləri, XVIII, XIX, XX əsrlər dövrü tariximizi, mədəniyyətimizi əks etdirən zəngin eksponatlar nümayiş etdirilir.

Numizmatika kabinetinin kolleksiyasında 90 minə yaxın eksponat saxlanılır ki, həmin eksponatlar b.e.ə. VI əsrdən müasir dövrə qədərki tarixi özündə əks etdirir.

Ayrı-ayrı fondlarda saxlanılan qiymətli əşya və materiallar tədqiqat işləri üçün mənbə rolunu oynamaqla, müxtəlif illərdə nəşr edilmiş buklet, kataloq, monoqrafiya, albom və məqalələrin mənbəyi olmuşdur. "Muzey tərəfindən müxtəlif illərdə nəşr edilmiş "Milli geyimlər", "Zərgərlik bəzəkləri", "Şərq silahlari", "Mis məmulat", "Xalçalar və xalça məmulatları", "Azərbycan tikmələri", "Arxeoloji material", "Numizmatika", "Sualtı arxeologiya" adlı kitablar seriyası yüksək rəğbətlə qarşılanmışdır" (34, s. 11).

1970-90-cı illərdə nəşr edilən "Muzeyin əsərləri" və "Muzeydə elmi-tədqiqat işlərinin nəticələrinə həsr edilmiş elmi sessiyaların materialları", "Azərbaycan Tarixi Muzeyi-80", "Azərbaycan Tarixi Muzeyi-2002", "Azərbaycan Tarixi Muzeyi-2003", topluları da muzey materiallarına əsaslanır, ayrı-ayrı eksponatların tarixi-bədii xüsusiyyətləri, ekspozisiyaların elmi baxımdan təşkili, muzeyşünaslığın vəzifələri, əməkdaşların elmi yaradıcılıq fəaliyyətləri əks etdirilir. Azıx mağarasından tapılmış azıxantropun çənə sümüyünün fraqmenti, çox zəngin Qəbələ və Mingəçevir materialları, Xəzərdə aparılan arxeoloji axtarışlar nəticəsində əldə edilmiş nümunələr hazırkı muzeyşünaslığımız üçün çox dəyərlidir.

Azərbaycanın qədim və orta əsrlər tarixinə həsr edilmiş ekspozisiyanın eksponatları tədqiq edilir, yeniləri ilə əvəz edilir, yeni eksponatların ayrılması və eyni mövzu planlarının hazırlanması fəal yerinə yetirilir, "Etnoqrafiya", "Yeni tarix", "Ən yeni tarix" şöbələri əlaqəli olaraq elmi-tədqiqat işlərini həyata keçirirlər. 90 illik bir tarixi dövr keçən Muzey haqqında ən müasir texniki avadanlıqla təchiz edilmiş tərəqqi dövrünü yaşamaqdadır.

Azərbaycan muzeyşünaslığında mühüm yeri alan muzeylərdən olan AMEA-nın Nizami Gəncəvi adına Milli Azər-

baycan Ədəbiyyatı Muzeyi 2009-cu ildə əsaslı təmirdən sonra 30 əsas və 10 köməkçi zalda yerləşdirilən ekspozisiya ədəbiyyat salnaməmizi əhatə edir. Ekspozisiya tamam yenidən qurulmuş bütün zədələnmiş heykəl və rəsmilər bərpa edilmişdir. Rəsmi əsərləri ən nəfis çərçivələrə alınmışdır. Hazırda ekspozisiyada 25000 eksponat nümayiş etdirilir. Muzeyin bütün zalları kompyuterləşdirilmiş tamaşaçıların müstəqil izləmələri üçün zallarda monitorlar quraşdırılmış, 3 dildə informasiya bazası yaradılmış, audio-video materialları seyr etmək üçün 14 monitor və dinləmə qurğuları ilə təchiz edilmiş xüsusi böyük zal təşkil edilmişdir.

Muzeyin salonlarında zəngin folklorumuzun janr xüsusiyyətlərini, ədəbiyyat tariximizi, Xəqani, Nizami, Fizuli, Vaqif, M.F.Axundov, C.Məmmədquluzadə, M.Sabir, C.Cabbarlı, S.Vurğun və digər görkəmli sənətkarların həyat və yaradıcılığını, bədii irsini əks etdirən eksponatlar ekspozisiyada nümayiş etdirilir.

"Muzeyin zallarında müxtəlif çeşidli rəngarəng və qiymətli eksponatlar nümayiş etdirilir. Azərbaycan və başqa Şərq ölkələri sənətkarlarının" şair və alimlərinin nadir əlyazmaları, məşhur xəttatların işləri, klassiklərin əsərlərinə çəkilmiş nəfis miniatürlər, nadir çap kitabları, qəzet və jurnallar, müasir Azərbaycan yazıçılarının əsərləri, Şərqin və Avropanın bir çox dillərində elmi əsərlər, təsviri sənət əsərləri və sənədli fotoşəkillər yazıçıların şəxsi xatirə şeyləri, xalq yaradıcılıq nümunələri, Azərbaycan ərazisində tapılmış müxtəlif dövrlərə aid sikkələrin kolleksiyası, qədim bədii məndəricəli xalçalar, saxsı və bürünc qablar, xalqın çoxəsrlik inkişafı ilə bağlı digər maddi mədəniyyət abidələri muzeyimizdəki zalları bəzəyir. Ekspozisiyanı zənginləşdirən və onun məzmunun haqqında tam təsəvvür yaranmasına kömək edən eksponatlar isə əsasən bizim günlərdə yaranmışdır (375, s.6).

Ekspozisiyada öz mütərəqqi fikirləri ilə xalqın tərəqqisini tərənnüm edən N.B.Vəzirovun, C.Məmmədquluzadənin, Ə.Haq-

verdiyevin, S.S.Axundovun, M.S.Ordubadinin, A.Şaiqin, S.Hüseynin, T.Ş.Simurqun, Y.V.Çəmənzəminlinin, B.Talıbzadənin, Ə.Cavadın yaradıcılığına aid faktlar illüstrasiyalar seyrçidə böyük maraq yaratmaqla, milli ədəbiyyatımızı dərindən öyrənməyə sövq edir.

XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri S.Vurğun, S.Rüstəm, M.Müşfiq, R.Rza, M.Cəlal, M.Rahim, Ə.Cəmil və digər məşhur söz sənət ustalarımızın siması, yaradıcılıq yolları muzeydə tutarlı faktlarla işıqlandırılır.

Görkəmli fırça ustaları Mikayıl Abdullayevin "Kitabi Dədə Qorqud" dastanına illüstrasiya, Yusif Hüseynovun "Fatmanın inəyi", Güllü Mustafayevanın "Məhsəti xanım Gəncəvinin portreti", Nizaminin "Xəmsə"si əsasında toxunan "İki bayquşun söhbəti" (rəssamlar Lətif Kərimov və Kazım Kazımzadə), "Fərhad dağı yarır" (rəssamlar Lətif Kərimov və Qəzənfər Xalıqov), "Məcnun vəhşi heyvanlar arasında" (rəssam Lətif Kərimov), "Bəhram Fitnə ilə ovda" (rəssam Əmir Hacıyev), "İsgəndər və Nüşabə gəzintidə" (rəssamlar Lətif Kərimov və Məmmədəli Şirinov) tematik xalçaları, habelə "Fitnə vədrişin gücünü isbat edir" (Behzat məktəbinə yaxın, 1479-cu il), "Fərhad Xosrovun sarayında" (rəssam Kazım Kazımzadə), "Bəhram və Çoban" (rəssam Elbəy Rzaquliyev) və digər çoxsaylı süjetli əsərlər, nəfis şəkildə yaradılan tablolar seyrçidə zəngin estetik təsir yaradır.

Muzey hazırda bir çox imkanlara malikdir. Müxtəlif və rəngarəng tədbirlərin keçiriləcəyi, ailəvi gəliş günlərinin planlaşdırılması, ölkəmizdəki azsaylı xalqların təmsilçilərinin dəvəti, ədəbiyyat, mədəniyyət və mətbuat nümayəndələri ilə görüşlər, Bakıdakı diplomatik korpus nümayəndələrinin qonaq dəvət edilməsi həyata keçirilir. Muzeydə həmçinin "Azərbaycanşünaslıq" lektoriyalarının təşkili, ümummilli dəyər əhəmiyyətli mövzularda görkəmli ədib, yazıçı və xadimlərin, mütəxəssislərin mühazirələri planlaşdırılır. "Ziyalılar klubu"-nun fəaliyyətə başlaması da inkişafa təkan vermişdir. Artıq

muzey Azərbaycanın mühüm ədəbi-mədəni və ictimai düçüncə mərkəzindən birinə çevrilməkdədir ki, bu da milli muzeyşünaslığımızın inkişafında yeni mərhələdir.

Azərbaycan muzeyşünalığında əhəmiyyətli yeri olan R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyinin ekspozisiyasında görkəmli sənətkarlarımız Mirzə Qədim İrəvani, Mir Möhsün Nəvvab Qarabazi, Behruz Kəngərli, Əzim Əzimzadə və digərlərinin yüksək bədii hiss-həyəcan oyadan əsərləri nadir incilər sırasında olmaqla nümayiş etdirilir:

- Qərbi Avropa incəsənəti;
- Qədim Azərbaycan incəsənəti;
- Antik və İtaliya incəsənəti;
- Flamand incəsənəti;
- Holland incəsənəti;
- Alman incəsənəti;
- Fransiya incəsənəti;
- Qədim dövrlərdə XX əsrin əvvəllərinə qədər Azərbaycan incəsənəti;
- Rusiya və şərq ölkələri incəsənəti;
- XVIII-XX əsrin əvvəllərində rus incəsənəti;
- Yapon və Çin incəsənəti;
- Türkiyə incəsənəti;
- İran incəsənəti;
- Müasir Azərbaycan incəsənəti;
- 30-40-cı illərdə Azərbaycan incəsənəti;
- Azərbaycan mədəniyyət xadimlərinin portretləri;
- Azərbaycan boyakarlığı,qrafikası və heykəltəraşlığı;
- Azərbaycan dekorativ-tətbiqi incəsənəti.

İlk peşəkar rəssamlıq təhsili olan və cəmi 30il ömür sürən Bəhruz Kəngərlinin “Payız peyzajı”, ”Yol”, ”Yatmış uşağ”, ”Afşar kəndindən olan oğlan”, ”Aftoritet”, ”Naxçıvan”, ”Şələlə”, ”İlanlı dağ”, ”Ədil ağa körpüsü” və s. əsərləri muzeyin ekspozisiyasında daimi nümayiş etdirilir. Onun bir qism əsərlərində həyatı çətinliklərə məruz qalan uşaqların, insanların

taleyi çox dəqiq cizgilərlə təsvir edildiyindən tamaşaçıda böyük həyəcan yaradır. Tanınmış sənətşünas-alim, sənətşünaslıq doktoru, professor N.Həbibov yazırdı ki, "Gənclərimizin bu portretlərində yurdsuz uşaqların, qaçqınların öz həmyerlilərinin surətləri verilmişdir. "Budur, oğlan uşağı boynunu əyərək ifadəli qara gözlərini tamaşaçıya zilləmişdir. Canfəda kəndindən qaçqın düşmüş bu oğlanın kədərli nəzərlərində bir növ yalqızlıq və şikayət hissi oxunur. Başına araxçın qoymuş gənc bir oğlan surətində milli cizgilər olduqca inandırıcıdır. Qaçqın bir qızın saçları dağınığ, gözləri qüssəlidir. Həmin portretdə o dövrün ictimai hadisələri "oxumaq" mümkündür...

"Naxçıvanda xarabə qalmış evlər", "Baxımsız ev" mənzərələri ilə yurdsuz uşaqların portretləri arasında fikir uyğunluğu vardır (220, s. 86).

Ə.Əzimzadənin "Molla Nəsrəddin" jurnalındakı satirik əsərləri, "Zəmbur", "Kəlniyyət", "Baraban", "Məzə", "Tuti", "Bayi-Əmir" jurnalları üçün karikaturaları, Ü.Hacıbəyovun əsərlərinə verdiyi bədii tərtibat haqqında, M.Ə.Sabirin, Ə.B.Haqverdiyevin, N.Nərimanovun, C.Məmmədquluzadənin, A.Şaiqin, Y.V.Çəmənzəminlinin və digər sənətkarların əsərlərində bədii tərtibat verməsi ilə əlaqədar materiallar tamaşaçıda zənginlik yaradır. Onun məşhur "Yüz tip"i seyrçidə dövrün hadisələrinə qarşı hisslər aşılayır. Ə.Əzimzadənin böyük vətən müharibəsi mövzusunda və digər mövzulardakı əsərləri muzeyin ekspozisiyasını bəzəyir.

Muzeyin daimi eksponatları arasında M.Abdullayev, K. Kazımzadə, T.Salahov, B.Mirzəzadə, S.Salamzadə, Ə.Məmmədov, T.Tacıyev, S.Bəhlulzadə, N.Əbdülrəhmanov, V.Səmədova, M.Rəhmanzadə, O.Sadıqzadə, İ.Seyidova, Ə.Fətəliyev və başqalarının müxtəlif janrlı əsərləri də xüsusi yer tutur.

Muzeyin rus təsviri incəsənəti bölməsində isə məşhur rus rəssamları V.Tropinina, A.Venetsiyanov, İ.Ayvazovski, İ.Şişukin, V.Makovski, V.Pukirev, V.Sirov, K.Korovin, İ.Levitan, M.Antakolski və digərlərinin orijinal əl işləri böyük tamaşaçı

marağına səbəb olmuşdur.

Muzeyin fonduna daxil olan incilərin böyük bir qismini xalq yaradıcılığı nümunələri təşkil edir. Milli sənətkarlarımızın dekorativ-tətbiqi sənət növündən yaratdıqları saysız-hesabsız sənət nümunələri xalqın həyat və məişəti ilə sıx bağlı olduğundan, seyricidə yüksək bədii-estetik hisslər yaradır.

Azərbaycanın ayrı-ayrı regionlarında yaşamış xalq sənətkarlarının dekorativ-tətbiqi sənət növündən yaratdıqları saysız-hesabsız sənət inciləriləri xalqın həyat və məişəti ilə sıx bağlı olmaqla yüksək estetik hiss-həyəcan oyadan bədii təsvir vasitələrinə malikdir. Xalqın həyatında, məişətində daha geniş istinad olunan zərgərlik, xalçaçılıq, keramika məmulatları, xalq tikmələri, milli geyimlər, musiqi alətləri, silahlar və digər əşyalar da əks etdirilən qədim və müasir dekorativ-tətbiqi sənət nümunələri, rəngarəng naxışlar, ornament şəbəkələri, bədii təfəkkür, bədii mədəniyyət səviyyəsini nəzərə çatdırmış, nəsillərdən-nəsillərə ötürmüşdür.

Əsasən yun iplərdən toxunan və muzeyin Azərbaycan xalq incəsənəti salonunda nümayiş etdirilən xalçalara və xalça məmulatlarına həyəcansız baxmaq olmur. Bakı, Naxçıvan, Gəncə, Qazax, Qarabağ, Quba, Şamaxı, Şəki xalçalarında və xalça məmulatlarındakı dekorativlik bölgü, bəzək, naxış şəbəkələri göz oxşayır. Müxtəlif çeşidli kilimlər, geyimlər, xurcunlar, corablar və s. Məmulatlarda xalq sənətkarlarımızın bədii təfəkkürü çox aydın şəkildə nəzərə çarpır.

Muzeydə nümayiş etdirilən xalq dekorativ-tətbiqi sənəti nümunələrinin bir çoxu bədii toxuma sənətinə aiddir. Əlbəttə, bu təsadüfi deyil. Çünki, bədii toxuma, bədii tikiş Azərbaycanda müxtəlif çeşidli parça istehsalı ilə sıx bağlıdır.

Şübhəsiz problemin reallığından danışarkən Bakıdakı digər incəsənət muzeylərinin, o cümlədən L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin məktəblilərinin estetik tərbiyəsindəki rolunu və imkanlarını da unutmaq olmaz. Bütün dünyada məşhur olan bu muzeyin nadir

kollegiyası Azərbaycan milli mədəniyyətinin zəngin xəzinəsidir.

Xalçaların öyrənilməsi, mühafizəsi və göstərilməsi məqsədi ilə ilk dəfə təşkil olunan ixtisaslaşdırılmış muzey müəssisəsi kimi, o, dünyada Azərbaycan xalçaçılığının bütün növlərini, texnikasını, materialını nümayiş etdirən ən iri və əhəmiyyətli xalça kolleksiyasıdır.

Çoxsaylı xovlu və xovsuz xalçalar, xalça məmulatı, zərgərlik, bədii tikmə, bədii metal, saxsı və şüşə məmulatlarından ibarət 12 minə yaxın muzey eksponatları böyük bədii əhəmiyyət kəsb edir.

Muzeyin ekspozisiyasında Azərbaycanın Quba, Bakı, Şirvan, Gəncə, Qazax, Qarabağ, Təbriz kimi klassik xalça məktəblərinə məxsus olan xalçalar öz kompozisiya və ornament quruluşlarına, eləcə də rəng həllinə görə diqqəti cəlb edir. Qubada toxunan xalçalardan- "Pirəbədil", "Qımıl", "Sırt-Çiçi" zərifliyi, rəsm və naxış elementləri ayrıntılarının nəcibliyi, səthə taxılmış kimi görünən toxunması belə, hiss olunmayan elementləri, xırdalanmış cizgi rəsmi, yığcam rəng qammaları ilə insanı heyran edir. Şirvan xalçalarından "Muğan", "Şilyan" bir növ, ilk qədim xalçalarımıza oxşayır. Bu xalçalarda qədim xalça kompozisiyaları ciddi ritmlə realizə edilir, sakit kolorit üstündür. Qarabağ xalçaları - "Xanlıq ","Malıbəyi", "Lәmpə"də yüksək kompozisiya ustalığı, ağlasığmaz fantaziya, kolorit əlvanlığı ön planda dayanır. Bakıda hazırlanan xalçalardan – "Xilə"- "Buta"nın, "Novxanı"nın, "Fatmayi"nin zərif cizgi rəsmi, mürəkkəb ornamentləri vardır. Olduqca böyük şərtliliyə əsaslanan "Faxralı", "Şıxlı", "Borçalı", "Qaçağan", "Qədim Göyçə", "Dəmirçilər" kimi Gəncə və Qazax məktəblərinə aid xalçalarda əsasən naxışların həndəsi üslubuna daha çox üstünlük verilir. Təbriz xalçalarından "Sərabi", "Əfşan", "Ləçək-Turunc"da dairəvi və ya spiralvari plastik formaların dekoru, dünyanın əbədiliyi, gözəlliyi və həyat ritmi haqqında təsəvvür yaradır.

Ekspozisiyada Azərbaycan xalçaçılıq sənətinin əsas

istiqamətləri daha aydın nəzərə çarpır. Bu incilər sistemli səpgidə ənənəni xalçaçılıq zonaları üzrə sıralanmış formada nümayiş etdirilir. Muzeyin sərgi fəaliyyəti öz həcminə görə bütün dekorativ-tətbiqi sənət növlərini əhatə edir. Ekspozisiya ilə yanaşı, Azərbaycanda, Avropa və Asiya şəhərlərində açılan sərgilər ABŞ, İngiltərə, Fransa, İtaliya və başqa ölkə tamaşaçılarını Azərbaycan dekorativ-tətbiqi sənəti ilə tanış edir.

Azərbaycan xalçaçılıq sənətinin nəzəri əsaslarını diqqətlə öyrənilmiş L.Kərimov görkəmli xalçaşünas alim kimi milli xalçaçılıq sənətimizin digər xalqların sənətindən əsaslı şəkildə fərqlənən spesifik cəhətlərini öz əsərlərində inandırıcı dəlillərlə sübut etmişdir. Rəssamın dörd cildlik "Azərbaycan xalçası" monoqrafiyası Azərbaycan, rus və ingilis dillərində nəşr edilərək geniş yayılmış, çox zəngin ixtisas ensiklopediyasına çevrilmişdir.

L.Kərimovun elmi əsərləri, habelə muzeydə nümayiş etdirilən dəyərli sənət nümunələri göstərir ki, Azərbaycan bütün dünyanı heyran qoyan zəngin xalça sənəti diyarıdır. Həmin nəzəri məlumatların verilməsi prosesində məktəblilər öyrənirlər ki, dünyada dövlət xalça və xalq tətbiqi sənəti muzeyi də ilk dəfə Azərbaycanda yaradılmışdır. YUNESKO-nun köməyi ilə "Şərq xalçaları sənətinə dair beynəlxalq simpozium"da ilk dəfə Azərbaycanda - 1983-cü ilin sentyabrında Bakı şəhərində keçirilmiş, bu sahədə xalqımızın zəngin yaradıcılıq ənənələri yüksək qiymətləndirilmişdir.

Respublika Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunda Azərbaycan xalça sənətinin nəzəri-təcrübəsi əsaslarının tədqiq olunması, habelə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində və Ə.Əzimzadə adına Bakı Rəssamlıq məktəbində istedadlı gənclərin milli xalçaçılıq sənətinin əsaslarını öyrənmələri haqqında muzeydə verilən məlumatlar da orta məktəb şagirdlərinin bu sahədəki biliklərini genişləndirir, bu sahəyə lazımi maraq oyadır.

Göründüyü kimi, bu muzeylər eyni coğrafi mühitdə

fəaliyyət göstərsələr də, sərgi-ekspozisiya fəaliyyətində mövzu müxtəlifliyi profillərinə görə də fərqlidirlər. Yəni, muzey eyni mühitdə profilinə uyğun zəngin maraq yaratdığından müvafiq zövqlü insanları cəlb etmək gücünə malikdir ki, bu da muzeylərimizdə özünü göstərməkdədir. Azərbaycan Musiqi Mədəniyyət Dövlət Muzeyinin fəaliyyətində də bu xüsusiyyət təsdiq edilmişdir. Muzeyin son onillikdəki sərgi-ekspozisiya fəaliyyəti tədqiq etdikdə məlum olmuşdur ki, muzey öz işini əsasən üç istiqamətdə həyata keçirir. Bunlara fond, ekspozisiya-sərgi və kütləvi işlər aiddir. Təbii ki, fond materiallarından ibarət sərgilər musiqinin müşayiəti ilə təşkil edildiyində burada "əyani səsli" seyretmə, sistemlərimizin yüksək qavramaya, böyük marağa səbəb olması bütün hallarda seyrçidə müsbət emosiyaları artırır. Bu baxımdan muzey tərəfindən təşkil edilən daimi və səyyar sərgilərin forma zənginliyi, məzmun dərinliyi, bədii-memarlıq rəngarəngliyi, mövzu dəyərliliyi özünü qabarıq şəkildə göstərir.

"Heydər Əliyev və Azərbaycan musiqi mədəniyyəti" mövzusunda, "Muzeylər baharı" silsiləsi, "Tarix və tarixlər", "S.Ələsgərov-85", "Ü.Hacıbəyov-125", "H.Sarabski-130" mövzularında stasionar sərgilər bir-birindən fərqli formada, məzmunda təşkil edildiyindən tamaşaçıda milli musiqimizin müxtəlif janrlarına daha da maraqları artırmışdır. Bu tədbirlərdə iştirak edən 650 nəfər müxtəlif peşə sahibləri ilə aparılan sərgi-ekspozisiyalarda milli musiqiyə maraqların daha da artdığını bildirmişlər. Səyyar sərgilərin də belə təsir gücünə malik olması təsdiqlənmişdir. Muzey tərəfindən Mirzə Babayevin, Aşıq Şəmşirin, Fikrət Əmirovun yaradıcılıqlarına həsr edilmiş səyyar sərgilər zamanı 540 nəfər müxtəlif peşə sahibinin hər biri ilə aparılan şifahi sorğu zamanı milli musiqimiz hər bir tamaşaçıda dərin maraq yaratması təsdiqlənmişdir. Muzeyin sərgi-ekpozisiya fəaliyyəti muzeyin filiallarında da dərin məzmun kəsb etməklə kompleks xarakterə malik olmuş və bu sahədə böyük təcrübə əldə etmişdir (423, s. 4-7).

Profillərinə görə fərqlənən muzeylərin sərgilərində müvafiq olaraq mövzu müxtəlifliyi mövcuddur. Bir neçə muzeyin fəaliyyətlərinin nümunəsində apardığımız araşdırmalar bunu təsdiq etmişdir. Respublikamızda muzey quruculuğunu və muzeyşünaslığı inkişaf etdirən Ümummilli liderimiz Heydər Əliyevin bu sahədə böyük diqqət və qayğısı olmuşdur. Bu gün Ulu Öndərin arzularının şərəflə həyata keçir ilməsinin nəticəsi olan ayrı-ayrı muzeylərin, eləcə də Azərbaycan Milli Aviasiya Akademiyası nəzdində fəaliyyət göstərən Milli Aviasiya Muzeyinin əsas və köməkçi fondlarında 6000-dən çox nadir eksponatlar qorunur. Milli aviasiyamızın keçdiyi yola əsasən tərtib edilən ekspozisiyada 10 bölmə üzrə 1174 eksponat nümayiş etdirilir. Muzeyin fəaliyyətini araşdırdıqda məlum olmuşdur ki, 3000-dən artıq tamaşaçı qəbul edən muzey, əsasən yeniyetmə gənclərin daha böyük marağına səbəb olmuşdur. Seyrçilərin 40 faizini isə yuxarı sinif şagirdləri təşkil etmişdir. Belə bir nəticə də əldə edilmişdir ki, birincisi, milli aviasiyamızın sürətli inkişafı geniş tamaşaçı diqqətinə səbəb olmuş, maraqlar yaratmışdır; ikincisi, yeniyetmə gənclərin peşəyönümü istiqamətində muzey sərgi-ekspozisiyası mühüm əhəmiyyət kəsb edir; üçüncüsü, milli aviasiya ilə dünya aviasiyasının bugünkü inkişaf dinamikaları seyrçi tərəfindən müqayisəyə çevrilir; dördüncüsü, sərgi-ekspozisiya, bütövlükdə muzey gənc nəslin təlim-tərbiyə ocağına çevrilmişdir. Beşincisi, muzey yeniyetmələrin vətənpərvərlik ruhunu yüksəldən unikal bir mədəniyyət ocağıdır və s. Muzeyin səyyar xidmətə başlaması onun əhatəli fəaliyyət xəttində olduğunu bir daha sübut edir (355, s 8).

Milli muzeyşünaslığımızda, onun tərəqqisində muzey quruculuğunun ilbəil artımında aşağıda göstərilən bir neçə əsas amilin mühüm əhəmiyyəti vardır:

Birincisi, insan amili əsas əhəmiyyət kəsb edir. Muzey quruculuğu və muzeyşünaslığın inkişafında insan:

- yaradıcıdır, müxtəlif tarixi dövrlərdə ayrı-ayrı sənət

sahələrini özündə əks etdirən məmulatlarından, nümunələrindən sosial mühitdə istifadə etməklə onları get-gedə təkmilləşdirmiş, nəsildən-nəslə ötürmüş və qoruyub saxlamışdır, illər, əsrlər keçdikcə yenilərini yaratmışdır;

- inkişafda olan zəkaya malikdir. Maddi əşyalar, məmulatlar, alətlər, nümunələr, həm də insan zəkası vasitəsilə bədii yaradıcılıq mexanizminin təşəkkülünə səbəb olmuşdur. Yəni maddiyyat, əşyavilik mənəviyyatda öz yerini tutmağa başlamış, zəka tədricən maddiyyatın, bütövlükdə maddi fəaliyyətin idarə edilməsi obyektinə çevrilmişdir. Eyni zamanda insan zəkası digər canlılardan fərqli şəkildə insanamüvafiqləşdirmə prosesini reallaşdırmağa müvəffəq olmuşdur. Məhz bu prosesin davamı sayılan bədiiləşdirmə, fəaliyyətin mənəvi təcəssümü, bunların da ancaq insana məxsusluğunun təsdiqi zəka vasitəsilə əldə edilənlərin məzmunu, mahiyyətində cəmləşdirilmişdir. Zəkanın yaradıcılıq səviyyəsi tarixi inkişafın mərhələlərində öz yerini hazırda da göstərməkdədir;

- əsrlərlə yaradılanı toplayandır, əldə edilənləri öyrənəndir, tədqiq edəndir, daha da zənginləşdirəndir və gələcək nəsillərə ötürəndir və s.

İkincisi, coğrafi mühit, şəraitin təsiredici gücü böyükdür. Böyük şəhərlərdə, əhalinin sıx olduğu yaşayış mərkəzlərində inkişaf sürətli olduğundan "zehni inkişaf mərkəzi" kimi də əhəmiyyəti böyükdür. Çünki muzeyşünaslıq əhəmiyyətli fəaliyyətə əsasən belə mərkəzlərdə zehni inkişaf daha böyük gücə, təsirə malik olur.

Üçüncüsü, adət-ənənələrin qorunub saxlandığı mərkəzlər, zonalar, rayonlar, qəsəbələr, böyük kəndlər vasitəsilə problem əhəmiyyətli fəaliyyətin keyfiyyəti özünü göstərməkdədir.

Təbii ki, insan amili olmadan sonrakı digər amillər öz təsiri göstərməzdi və yaradılma, qorunma, toplanma, bədii yaradıcılıq fəaliyyətinin təşəkkülü və digər proseslər baş verməzdi. Ölkəmizdə də qədim və zəngin tarixi, mədəni fəaliyyət mövcud olduğundan hər bir şəhər və məskən muzeyşünaslıq

baxımından çox mühüm əhəmiyyətə malikdir. Abşeronda, Bakıda aparıcı muzeylər geniş fəaliyyət göstərdiyindən muzeyşünaslıqla əlaqədar mühit də burada daha zəngindir. Bakıda digər muzeylərlə yanaşı 2002-ci ildə açılmış miniatür kitab muzeyində dünyanın 60-dan çox ölkəsində nəşr edilən 6 mindən artıq kitab içərisində bədii və siyasi ədəbiyyatla yanaşı, Quranın, Bibliyanın nüsxələri, Azərbaycan və xarici ölkə yazıçılarının yubiley nəşrləri də diqqəti cəlb edir. Ekspozisiyanın "Azərbaycanda nəşr olunmuş miniatür kitablar", "Nadir miniatür kitablar", "Dini ədəbiyyat miniatür kitablarda", "Puşkiniana" kimi bölmələri muzeyşünaslarda daha böyük maraq oyatmışdır.

"Şirvanşahlar Sarayı Kompleksi" Dövlət Tarixi-Memarlıq Muzey-Qoruğu muzeyşünaslığımızda mühüm mərhələdir. XV əsrin əvvəllərində inşa olunmuş Şirvanşahlar sarayı kompleksi Azərbaycan memarlığının nadir incilərindən biridir. Onun tikililəri İçərişəhərin təpələrindən birinin ən hündür nöqtəsindədir. Saray Kompleksi Xəzərdən və şəhərin ətrafındakı yüksəkliklərdən görünür. Şirvanşahlar Muzeyinin zəngin fondlarından Bakının tarixini əyani olaraq işıqlandıran və əsasən keçən əsrdə muzeyin ərazisində aparılan arxeoloji tədqiqatlar zamanı mütəxəssislər tərəfindən aşkar edilmiş unikal saxsı nümunələri, numizmatik materiallar, yüzilliklərlə xalqımızın məişətində mühüm yer tutan misdən hazırlanan qablar, qadın və kişi geyim nümunələri, həmçinin ölkəmizin rəssamlıq sənəti tarixində özünəməxsus yeri olan Hüseyn Ələkbərovun qrafika əsərləri, xalçalar, zərgərlik nümunələri sərgidə nümayiş etdirilməkdədir.

Ekspozisiya Şirvanşahların yaşayış binasında nümayiş etdirilir. Bizim eradan əvvəl IV-III əsrlərə aid, elmdə Yaloylutəpə mədəniyyətinə aid edilən müxtəlif funksiyalar daşıyan saxsı məmulatları, tamaşaçılar üçün maraqlı qab nümunələri birinci bölmədə nümayiş etdirilir.

İkinci zalda nümayiş etdirilən numizmatik materiallar

Bakının ən qədim dövrlərdən əmtəə-pul münasibətlərini təqdim edir. Burada ticarət yolları ilə gətirilmiş müxtəlif dövlətlərin sikkə nümunələrini görmək olur. Eyni zalda misdən hazırlanmış, dini ayinlərdə, işlədilən qab nümunələri və məişətdə hər bir ailənin son onilliklərə qədər istifadə etdiyi qablar çox böyük məharətlə evlərin daxili interyerinə uyğun olaraq nümayiş etdirilir.

«Ekspozisiyada sərgilənən, tarixi 100 ilə yaxın dövrü əhatə edən kiçik açıqcalar dəyərli məlumat mənbəyi olmaqla, həm də qeyri-standart formalara malikdirlər. Bu açıqcalarda şəhərimiz çox qeyri-adi görünüşləri ilə diqqəti cəlb edir» (379).

Şəhərimizin XIX-cu əsrin sonları – XX əsrin əvvəllərində mövcud olmuş bəzi memarlıq abidələri növbəti zalda nümayiş etdirilən rəsm əsərlərində öz əksini tapmışdır.

Məlumdur ki, sərgi-eksponatların daimi, fərdi, səyyar yolla nümayiş etdirilməsidir. Sərgidə ekspozisiyadan fərqli olaraq konkret mövzu və məqsəd olmalıdır. Sərginin mühazirə və söhbətlə, musiqi ilə müşayiət olunması onun məna və dəyərini, bədii-estetik təsir gücünü qat-qat artırır. Əlbəttə sərgi-ekspozisiya işinin səmərəli təşkilində Bakı şəhərindəki əsas, aparıcı muzeylərimizin təcrübəsi böyük olduğundan, həmin muzeylər digər tarix-diyarşünaslıq, ev-xatirə və digər profilli muzeylərə də öz elmi-nəzəri və təcrübi köməkliklərini əsirgəmirlər. Apardığımız araşdırmalar göstərmişdir ki, bu sahədə S.Vurğunun, C.Məmmədquluzadənin, A.Şaiqin, Ü.Hacıbəyovun, Niyazinin ev muzeylərinin də böyük təcrübəsi vardır. Bakıdakı S.Vurğunun ev muzeyində "S.Vurğunun həyat yaradıcılığı", "Şair vətəndaş", "Vurğun ocağı" müxtəlif sərlövhəli sərgilər texniki cəhətdən olduqca müvafiq quruluşdadır. Bir neçə nəfər elmi işçi həmin sərgini içtimai nəqliyyatdan istifadə edərək Bakının istənilən müəssisəsinə və hətta Azərbaycanın müxtəlif rayonlarına apara bilir.

C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində daimi sərgilərlə yanaşı səyyar sərgilərin təcrübəsi də diqqəti

cəlb edir. Maraq doğuran səbəblərdən biri də odur ki, əvvəllər ağır planşetlər, dəmir dayaqlar, geniş çərçivələrdən ibarət olan sərgiləri muzey əməkdaşları sadələşdirmiş, bugünkü şəraitə uyğunlaşdırmışlar. Həmin muzeyin sərgiləri məzmun və mövzu aktuallığı ilə diqqəti çəkir. 135 illik şanlı tarixə malik olan Azərbaycan Teatrı muzey sərgiləri vasitəsilə təbliğ olunur. "C.Cabbarlı-100", "İ.Həmzəyev-90", "Vəlixanlı-100", "H.Abbasov-110", "A.İsgəndərov-90", "R.Əfqanlı-90", "Fizuli – diyarım mənim", " Ü.Hacıbəyov və M.Maqomayev", "İrəvan Dövlət Dram Teatrı" adlı sərgilərə bugünə qədər bir milyondan artıq tamaşaçı baxmışdır. Hazırda muzeydə 600-dən artıq şəxsi arxiv qorunub saxlanılır. Onların sırasında S.Ruhullanın, C.Cabbarlının, İ.Hidayətzadənin, Ə.Əzimzadənin, R.Mustafayevin, H.Qurbanovun və başqalarının adını çəkmək olar. Arxivlərin muzeyə daxil olması bu gün də davam etdirilir. Ötən il muzeyin fonduna aktyor, rejissor, pedaqoq Bayramov Fazil Abbas oğlunun, xalq artisti Ə.Zeynalovun, əməkdar artist M.Novruzovanın, fotoqraf T.Xanməmmədovun şəxsi arxivləri, R.Rəhimli tərəfindən Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrına aid təqdim etdiyi materiallar və İ.Hidayətzadənin bir ədəd portreti daxil olmuşdur. Ümumilikdə 2003-cü il ərzində 4342 ədəd eksponat muzeyin fonduna daxil edilmişdir.

Arxivlərin alınması bu il də davam etdirilmişdir. Muzeyimiz müntəzəm olaraq teatr tariximizlə, korifey sənətkarlarımızın həyat və yaradıcılıqları ilə bağlı yubiley sərgilərini hazırlamaqda davam edir. Burada fondlarda saxlanılan nadir eksponatlar – fotoşəkillər, proqramlar, dekorasiya eskizləri və s. Nümayiş etdirilir. Bununla yanaşı yubilyar sənətkarlara həsr olunmuş xatirə gecələri, tədbirlər keçirilir, onların sənət yolundan bəhs edən mühazirələr oxunur. Təkcə bu ilin birinci yarımilində xalq artistləri L.Məmmədbəyovun, R.Məlikin, L.Abdullayevin, şair-dramaturq H.Cavidin, dahi bəstəkar Ü.Hacıbəyovun həyat və yaradıcılığına, Azərbaycan Teatr Xadimləri İttifaqının fəaliyyətinə həsr olunmuş səyyar sərgilər

hazırlanmış və nümayiş etdirilmişdir.

Keçirilən tədbirlərə gəldikdə isə deyə bilərik ki, 20 yanvar və Xocalı soyqırımına, 31 Mart- Azərbaycanlıların Soyqırımı gününə, 10 Mart- Milli Teatr gününə, 27 Mart – Beynəlxalq Teatr gününə, 2 May – Muzeylər Baharına, 9 May – Qələbə gününə, 18 Sentyabr –Milli Musiqi gününə həsr edilmiş tədbirlər müxtəlif səpgilərdə hazırlanmış və müxtəlif məkanlarda keçirilmişdir.

Xalq artisti İ.Dağıstanlının Qax rayonunda fəaliyyət göstərən ev-muzeyinə 85 ədəd, Norveç dramaturqu H.İbsenin Norveçdə fəaliyyət göstərən ev-muzeyinə 18 ədəd materialla – neqativ, proqram, foto, buklet və eskizlə köməklik göstərilmişdir.

Göründüyü kimi, muzeyin fəaliyyət dairəsi həm elmi-nəzəri və təcrübi, həm də texniki baxımdan çox genişdir. Bu da muzey kollektivinin elmi-tədqiqat bacarığı və təcrübəsi ilə ölçülür.

Üzeyir Hacıbəyovun Dövlət ev-muzeyi akademik Şamil Əzizbəyov (keçmiş Verxni Priyutski- Ketsxoveli) küçəsi 67 saylı binada yerləşir. Üzeyir bəy bu evdə 27 il (1915-1942) yaşamış, ömrünün son 6 ilini isə "Monolit" adlanan binada keçirmişdir.

Öz rəngarəng fəaliyyəti ilə fərqlənən muzey beş otaq, bir şüşəbənd, yaradıcılıq otağı və kino salonundan ibarətdir. Burada Ü.Hacıbəyov haqqında sənədli filmlər, eləcə də "O olmasın, bu olsun" və "Arşın mal alan" kino-filmləri göstərilir. Muzeydə bütün mühazirələr Üzeyir bəy Hacıbəyovun gözəl musiqisi ilə müşayiət olunur.

Muzey açılan zaman 847 əşya olduğu halda bu gün muzeyin ümumi fondu xeyli zənginləşmiş, eksponatların sayı 10 minə çatmışdır. Muzeydə Ü.Hacıbəyovun həyat və fəaliyyətinin bütün dövrlərini əks etdirən sənədlər, fotoşəkillər, bəstəkarların şəxsi əşyaları, kitabxanası, musiqi alətləri və s. mühafizə olunur. Muzeydə Ü.Hacıbəyovun bəstəkar, drama-

turq, publisist, pedaqoq və ictimai xadim kimi zəngin yaradıcılıq irsi təbliğ edilir. Elmi-tədqiqat işi aparılır, tematik sərgilər (muzey daxilində və muzeydən xaricdə) nümayiş etdirilir.

Bu muzey Bakı şəhərində milli musiqi tariximiz və inkişaf mərhələləri haqqında əvəzedilməz tədqiqat ocağı kimi də tədqiqatçıların diqqətindədir.

Azərbaycan muzeyşünaslığında A.Şaiqin en-muzeyinin elmi fəaliyyəti də əhəmiyyət kəsb edir. Muzeyin çox maraqlı dörd ekspozisiya zalı var. Birinci otaq ədibin dünya şöhrətini əks etdirir, ikinci otaqda A.Şaiq və onun ailəsi ilə bağlı fotolar, sənədlər, tablolar və digər eksponatlar nümayiş olunur. Üçüncü otaqda isə ədibin pedaqoji fəaliyyəti əks etdirilmişdir. Bura həm onun pedaqoji, həm uşaq ədəbiyyatı, həm də dramaturgiya sahəsindəki fəaliyyəti daxildir. Dördüncü otaqda A.Şaiqin ümumi bədii yaradıcılığı və ədəbi-tənqidi fəaliyyətinə dair materiallar toplanmışdır.

Muzey zəngin fonda malikdir. əsas fonddakı eksponatların sayı 3000-dən artıqdır.

Muzeydəki əşyaların 800-dən çoxu A.Şaiqin kitabxanasına məxsus olan kitab və dövri mətbuat nümunələridir. Onların arasında çox nadir biblioqrafik nəşrlər də var. Bundan başqa muzeyin fonunda 100-dən çox qiymətli əlyazma da var, onlardan bəziləri ədibin çap olunmamış ədəbi-tənqidi əsərləridir.

Muzeydə çox maraqlı, nadir və qiymətli eksponatlardan biri A.Şaiqin həyat və yaradıcılığı ilə bağlı fotolardır. Bu fotoşəkillərin sayı 400-dən artıqdır. Bundan başqa əsas fondda ədibin xatirə əşyaları, incəsənət əsərləri, tablolar, teatr sənədləri-afişalar, proqramlar da vardır. Muzeyin 2000-ə qədər eksponatı olan zəngin "neqatif fondu" vardır. Bu fotolar A.Şaiqin həyat və yaradıcılığının ayrı-ayrı mərhələlərinə aiddir.

Muzey kolleksiyasının "İncəsənət əsərləri fond"unda A.Şaiqin yağlı boya ilə işlənmiş bir neçə tablosu vardır. Bundan başqa ədibin dramaturgiyasını işıqlandıran materiallar

– "Teatr sənədləri fondu"nda toplanmışdır. "Fəxri fərmanlar və ünvanlar" bölməsində isə ədibə təqdim edilmiş Fəxri Fərman və ünvanlar yığılmışdır.

Bakı şəhərində fəaliyyət göstərən Cəlil Məmmədquluzadənin xatirə muzeyinin ekspozisiyası rəngarəng və olduqca məzmunludur. Beş otaqdan ibarət ekspozisiyada ədibin həyat və fəaliyyətinin mərhələləri ilə əlaqədar eksponatlar yerləşdirilmişdir.

I otağın nisbətən daha geniş olması və ekspozisiya yaratmaq imkanları baxımından üstünlükləri nəzərə alınaraq burada ədibin həyat və yaradıcılığının bir mərhələsi uşaqlığı, gənclik və təhsil illəri müəllimlik fəaliyyəti ədəbi yaradıcılığının ilk dövrü və jurnalistika fəaliyyətinə dair müxtəlif tarixi sənəd və fotolar nümayiş olunur.

II otaq memarlıq baxımından qonaq otağıdır. Burada qonaq otağına məxsus ev əşyaları yerləşdirilmiş, divarlarda ədibin hekayə yaradıcılığını əks etdirən materiallar, Mirzə Xəlil ocağının fəxri qonaqları olmuş görkəmli şəxsiyyətlər, ədibin ömür-gün yoldaşı, Azərbaycan xalqının görkəmli ziyalı qadınlarından biri, Qarabağ hakimi İbrahim xanın nəslindən olan Həmidə xanım və onun atası Əhməd bəy Cavanşir haqqında materiallar yerləşdirilmişdir.

III otaqda ədibin ailəsinə məxsus paltar şkafı, tumba, torşer, bəzək stolu və s. yerləşdirilmişdir. Tarixi sənəd və fotoların dili ilə ədibin ailəsi haqqında məlumatları bu otaqda olmaq olar.

Cəlil Məmmədquluzadənin ailəsi çox geniş anlayışdır. Ədibin ailəsində təkcə onun öz uşaqları böyüyüb tərbiyə almamışdır. Həmidə və Cəlil Məmmədquluzadələrin ailəsində ədibin qızı Minəvvərdən başqa Faiq əfəndinin (Ö.F.Nemanzadə) bacısı oğlu Əziz Şərif, Məmməd Tağı Sidqinin övladları Məmmədli və Məmmədhəsən Səfərovlar himayəyə alınmış və qayğı göstərilmişdir.

Cəlil Məmmədquluzadənin nəsr və dramaturgiya yaradı-

cılığına, "Molla Nəsrəddin"jurnalının nəşri Tiflis və Təbriz dövrünə aid eksponatlar dördüncü otaqda nümayiş olunur. Bu otaq ədibə hələ sağlığında şöhrət gətirmiş dram əsərləri "Ölülər", "Dəli yığıncağı", "Anamın kitabı"nın səhnə tarixi, Cəlil Məmmədquluzadənin təşəbbüsü və redaktorluğu ilə 25 il müddətində fasilələrlə çap olunmuş (7 aprel, 1906-1931) "Molla Nəsrəddin" jurnalının müxtəlif illərdəki nəşrlərindən nümunələr ədibin "əməl dostları" - molla nəsrəddinçilər haqqında materiallarla zəngindir.

Beşinci - sonuncu otaqda tarixən Şərqdə ilk satirik "Molla Nəsrəddin" jurnalının redaksiyası olmuşdur. Memorial səciyyəli bu otaqda 1922-ci ildə, Cəlil Məmmədquluzadə ailəsi ilə birlikdə Cənubi Azərbaycandan Bakıya döndükdən sonrakı illərdə "Molla Nəsrəddin" jurnalının nəşri tarixi digər şəxsi əşyalar "Molla Nəsrəddin" jurnalının orijinalları, tarixi sənədlərin dili ilə jurnalın 1922-1932-ci illərdəki nəşri, Cəlil Məmmədquluzadənin sovet dönəmindəki həyatı əks olunur. Divarda iri planda verilmiş "Ədibin dünya şöhrəti" adlanan xəritədə ədibin əsərlərinin yayılma şəbəkəsi göstərilir. Göründüyü kimi muzey Mirzə Cəlilin həyat və yaradıcılığını kompleks şəkildə tamaşaçıya təqdim edir.

Həsənbəy Zərdabi adına Təbiət Tarixi Muzeyi (TTM) 19300cu ildə yaradılan MEA-nın Geologiya İnstitutunun nəzdində fəaliyyət göstərən bu təbiət evinin ekspozisiyasında müxtəlif eksponatlar – 41 növ məməli, 110 quş, 2 sürünən, 1 suda və quruda yaşayan, 107 həşərat, 22 bitki qalıqları nümayiş etdirilir. Muzeyin fondunda "Qırmızı kitab"a düşmüş faunanın 20 növünün müqəvvası və skeleti mövcuddur. Bundan əlavə, muzey Sakit və Atlantik okeanlardan toplanmış müasir yumşaqbədənlilər tipinin nümunələri və mərcan kolleksiyası ilə də zəngindir. Daha konkret desək, burada Azərbaycanın 4 mindən artıq flora və 12 mindən artıq fauna növündən eksponatlar mövcuddur. Filiz və qeyri-filiz yataqlarından əldə olunmuş süxur və mineral nümunələri isə muzeyin zənginliyində özünə-

məxsus yer tutur.

Təbiidir ki, Bakı səhərində fəaliyyət göstərən bütün muzeylərin sərgi-ekspozisiya fəaliyyətindən bəhs etmək qeyri-mümkündür. Buna görə də bəzi yuxarıdakı muzeylərin nümunəsində biz problemlə bağlı elmi nəticələri göstərəcəyik.

Bakı şəhəri muzeyləri və sərgi salonlarında olan tamaşaçıların bir qismi -3600 nəfəri ilə apardığımız sorğular nəticəsində məlum olmuşdur ki, Bakı həm tarixi-mədəniyyət abidələrinin qədimliyi, zənginliyi, həm də onların yüksək şəkildə qorunması baxımından çox əlverişlidir. Sorğuda iştirak edənlərin 23 faizi bunu Bakının mərkəz olduğu ilə əlaqələndirir, 12 faizi isə turistlərin tez-tez Bakıda olması və bu baxımdan daha çox diqqət və qayğının yetirilməsi ilə əlaqələndirmişlər. Ümumiyyətlə sorğuda iştirak edən 3600 müxtəlif peşə sahibinin 98 faizi müasir muzey fəaliyyətini müsbət qiymətləndirmiş və elmi-tədqiqat, tərbiyə, zənginləşmə mərkəzi kimi fərqləndirmişlər. Xüsusilə də son onilliklərdə bu işlərin daha da çox sürətli vüsət aldıqları qeyd edilmişdir. Beləliklə, apardığımız araşdırmalardan məlum olmuşdur ki, birincisi, Bakı şəhəri mühitində yerləşən muzeylərin sərgi-ekspozisiyaları geniş əhali kütləsi tərəfindən seyr edilir və paytaxtda baş verən dövlət əhəmiyyətli tədbirlər, yubileylər, bayramlar və şənliklərlə sıx qarşılıqlı əlaqəli şəkildə təşkil edilir.

İkincisi, elmi-tədqiqatçılıq fəaliyyəti üçün müvafiq şərait mövcuddur. Yəni, həm kitabxanalar, mədəniyyət müəssisələri, sərgi salonları, arxivlər ilə qarşılıqlı əlaqədə elmi-tədqiqatla məşğul olan hər kəs heç bir çətinlik çəkmədən, uzaq məsafədə qət etmədən müvafiq fəaliyyətini qura bilir.

Üçüncüsü, paytaxtda yerləşən muzeylər və digər mədəniyyət müəssisələri müasir texnologiyaya malikdirlər.

Dördüncüsü, muzey mütəxəssisləri hazırlayan ali və orta ixtisas təhsili müəssisələri əsasən Bakıda yerləşdiyindən həmin kadrlar təcrübələrini paytaxt muzeylərində keçirdiklərindən, artıq tələbəlik illərindən həmin muzeylərə can atırlar və mütə-

xəssis kimi orada çalışmağa üstünlük verirlər və s.

Problemin daha dolğun, məzmunlu, konkret həllinə nail olmaq üçün Azərbaycanın zonalar üzrə bəzi aparıcı muzeylərin muzeyşünaslıq əhəmiyyətindən bəhs etməyi məqsədyönlü sayılır. Çünki bu zaman həm hər zonanın coğrafi təbii şəraiti, adət-ənənəsi, tarixi-inkişaf yolu, sosial-mədəni vəziyyəti nəzərə alınmalı, həm də zona daxilində muzeylərarası qarşılıqlı əlaqəli inkişafların səmərə dərəcəsi təsdiq edilir.

Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi Naxçıvan qədim və zəngin diyar, elm, mədəniyyət mərkəzi olmaqla, həm də görkəmli şəxsiyyətlər yetirən torpaqdır.

Naxçıvan Muxtar Respublikasında görkəmli şəxsiyyətlərin - elm, ədəbiyyat, mədəniyyət və incəsənət xadimlərinin, yazıçı və şairlərin, siyasi və dövlət xadimlərinin, müstəqil Azərbaycan Respublikasının azadlığı, qorunub mühafizə edilməsi uğrunda qəhrəmanlıqlar göstərən vətəndaşlarımızın xatirələrinin əbədiləşdirilməsi məqsədilə muzeylər, abidələr, heykəllər, xiyabanlar, parklar və s. təşkil edilməsi, yaradılması ənənəyə çevrilmişdir.

Böyük Mirzə Cəlilin irsinin toplanması, öyrənilməsi, təbliği məqsədilə Naxçıvan şəhərində Ç.Məmmədquluzadənin adına Naxçıvan MR Ədəbiyyat Muzeyi, C.Məmmədquluzadənin ev-muzeyi, Cəlilkənddə C.Məmmədquluzadə xatirə muzeyi, Nevrəm kəndində C.Məmmədquluzadə xatirə muzeyi yaradılmışdır. C.Məmmədquluzadə adına Azərbaycan ədəbiyyatı muzeyinin ekspozisiyasında dahi sənətkarlar Nizaminin, Fizulinin, Firdovsinin, Təbrizinin, Məhsətinin, Xətainin, Nəsiminin, Vaqifin külliyyatları, əsərləri, bədii sənət nümunələri geniş surətdə əks olunmuşdur. M.S.Ordubadi, Ü.Hacıbəyov, N.Nərimanov, C.Cabbarlı, S.Vurğun, M.Araz, S.Rüstəm, M.Araz, R.Rza, N.Rəfibəyli, M.İbrahimov, Xəlil Rza Ulutürk və başqa klassik şair və yazıçılarımızın, A.Zamanov, Ə.Şərif, Ə.Sultanlı, R.Təhmasib, Y.Axundlu, Y.Seyidov və başqa görkəmli ədəbiyyatşünas alimlərimizin, tədqiqatçılarımızın yara-

dıcılığı haqqında məlumatlar verilir. Ekspozisiyanın görkəmli yerində xalqımızın Ümummilli lideri, müstəqil Azərbaycan Respublikasının yaradıcısı və memarı Heydər Əliyevə həsr edilmiş geniş ekspozisiya yaradılmışdır. "Heydər Əliyev və muzeylərimiz" sərgi-ekspozisiya maraqlı, yaddaqalan və zəngin materiallarla tərtib edilmişdir.

Muzeyin fondunda və ekspozisiyada Azərbaycanın qüdrətli və görkəmli sənətkarlarının-rəssamlarının əsərləri də qorunub saxlanılır və nümayiş etdirilir. İsmayıl Axundov, Nəcəfqulu İsmayılov, Mikayıl Abdullayev, Oqtay Sadıqzadə, Mürsəl Nəcəfov, Fuad Salayev, Maral Rəhmanzadə, Elmira Şahtaxtılı, Tahir Salahov, Toğrul Nərimanbəyovu göstərmək olar. Ekspozisiyanın maraqla baxılan və diqqəti cəlb edən guşələrindən biri də "Torpaq uğrunda ölən varsa vətəndir" başlıqlı sərgiguşədir. Bu guşədə Azərbaycanın azadlığı və torpaqlarının müdafiəsi uğrunda şəhid olmuş qəhrəman övladlarımız haqqında materiallar - fotolar nümayiş etdirilir. Mirzə Cəlilin yaradıcılığının dərindən öyrənilməsi və təbliği məqsədilə muzeydə "Cəlil Məmmədquluzadə fondu" yaradılmışdır.

Ekspozisiyada guşələr, sərgilər təşkil edilmiş, mühazirələr, məruzələr, söhbətlər, ədəbi-bədii yığıncaqlar, xatirə saatları, görüşlər, elmi-konfranslar keçirilmişdir. Xüsusilə böyük Mirzə Cəlilin ədəbi irsini, ictimai-siyasi fəaliyyətini, dövrünü, müasirlərini daha da yaxından öyrənmək məqsədilə muzeydə 1986-cı ildən "Mirzə Cəlil lektoriyası" fəaliyyət göstərir. "Cəlil Məmmədquluzadənin həyat və fəaliyyətini əks etdirən eksponatların elmi kataloqu" (Firəngiz Hüseynova), "Molla Nəsrəddin"in 1906-1907-ci illərdəki nüsxələrində Naxçıvan haqqında getmiş yazılar (İbrahim Bağırov), "Cəlil Məmmədquluzadə adına Naxçıvan MR Ədəbiyyat Muzeyi" kitabça (Sübhü Kəngərli), "Cəlil Məmmədquluzadə ədəbiyyatının klassiki və müasiri (Xanım İsmayılova) albom-sərgi hazırlanmışdır.

Muzeydə 1987-ci ildən fəaliyyətə başlayan "Teatr fondu"

zəngin eksponatlara malikdir. "Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı fondu"nda fotolar, afişa və proqramlar, kitablar, xatirə əşyaları, teatrın fəaliyyətinə aid sənədlər, qəzet və jurnal materialları, təsviri sənət əsərləri, ayrı-ayrı aktyorlar, rejissorlar, rəssamlar, bəstəkarlar haqqında, tamaşalardan eskizlər, maketlər, səs yazıları, bukletlər və başqa materiallar toplanmış, elmi cəhətdən işlənərək tarixləri müəyyənləşdirilmiş, inventar nömrələri yazılmış, kataloqlar tərtib edilmişdir.

«Muzeyin fond və ekspozisiyalarında teatrın yaranması, formalaşması və inkişafında böyük əməkləri olan görkəmli sənətkarlar, tamaşaçılar haqqında, öz orijinallığı ilə fərqlənən və diqqəti cəlb edən onlarla, yüzlərlə materiallar mövcuddur. C.Cabbarlının "Aydın" tamaşasında Dünya gözəli rolunda xalq artisti Zəroş Həmzəyeva 1945-ci il, xalq artisti Möhsün Sənani Naxçıvan teatrının yaradıcı heyəti arasında 1956-cı il, xalq artisti, quruluşçu rejissor Ələsgər Şərifov Naxçıvan teatrında tamaşaya qoyulmuş H.Cavidin "Şeyx Sənan" tamaşasının iştirakçıları arasında 1957-ci il, xalq artisti Sidqi Ruhulla Naxçıvan teatrının artistləri arasında 1960-cı il, Naxçıvan teatrının quruluşçu rəssamı əməkdar incəsənət xadimi Məmməd Qasımov və quruluşçu rejissor, respublikanın əməkdar artisti Vəli Babayev 1967-ci il, Ü.Hacıbəyovun "Leyli və Məcnun" operasında Leyli rolunda respublikanın əməkdar artisti Nəzakət Məmmədova, İbn Səlam rolunda artist Qurban Ələkbərov, xalq artistləri Lütfəli Abdullayev və İbrahim Bənəniyarlı 1972-ci il, Cəlil Məmmədquluzadənin "Dəli yığıncağı" tamaşasında Pırpız Sona rolunda xalq artisti Zemfira Əliyeva, Abbas rolunda xalq artisti Əkbər Qardaşbəyov 1974-cü il və başqa fotolar, teatrın 100 illiyinə həsr edilmiş yubiley materialları, bir çox kitablar, bukletlər, afişalar, proqramlar, dəvətnamələr, qəzet və jurnal materialları, numizmatik əşyalar, tamaşaçılara aid eski8zlər, maketlər, səs yazıları öz əksini tapmışdır» (263, s.60).

"Fondda" dünya, rus və Azərbaycan dramaturqlarının, yerli yazıçı və şairlərin teatrda tamaşaya qoyulmuş əsərlərinin proqramları, afişaları, dəvətnamələri, teatrın yaradıcı heyəti üzvlərinin rəngli bukletləri qorunub saxlanılır. Bunlardan H.Cavidin "Səyavuş", "Şeyx Sənan ", "Şeyda", C.Məmmədquluzadənin "Anamın kitabı", "Dəli yığıncağı", "Qurbanəlibəy", "Kamança", "Kişmiş oyunu", C.Cabbarlının "Nəsrəddin şah", "Od gəlini", "Aydın", "Yaşar", "Solğun çiçəklər", K.Ağayevanın "Məhsəti", H.İbrahimovun "İtirilən sağlıq", H.Razinin "Odlu diyar", "Haray səsi", "Günəş", Ə.Əylislinin "Quşu uçan budaqlar", H.Fətullayevin "Vüqarlı gözəl", Ə.Yusiflinin "Səadət naminə", H.Hikmətin "Kor padşah", "Bayramın birinci günü", O.Kamalın "Yad qızı", Saqarelinin "Tiflis yengələri", N.Ostrovskinin "Cehizsiz qız", Fiqeyredonun "Ezop", Haldoninin "Mehmanxana sahibəsi", Lope de Veqanın "Nə yardan doyur, nə əldən qoyur" və başqaları mövcuddur» (263, s. 61-62).

Naxçıvanda Cəlil Məmmədquluzadənin ev-muzeyi də ekspozisiya rəngarəngliyi ilə seçilir. Muzeyin ekspozisiyasında böyük ədibin həyat və yaradıcılığının əsas dövrləri, Naxçıvan Teatrında onun iştirakına tamaşaya qoyulan tamaşalar haqqında sənədlər, materiallar, Azərbaycan demokratik maarifçiliyindən bəhs edən bir çox foto-sənədlər, "Molla Nəsrəddin" jurnallarının nüsxələri və digər eksponatlar vitrinlərdə stendlərdə, guşələrdə nümayiş olunur.

Ekspozisiyanın II otağında molla nəsrəddinçilər və Cəlil Məmmədquluzadənin müasirləri M.Ə.Sabir, M.S.Ordubadi, Ə.Qəmküsar, Ə.Haqverdiyev, M.T.Sidqi, Məmmədəli Sidqi, M.A.Şahtaxtlı, M.Möcüz, Ə.Əzimzadə və başqalarının portretləri, fotoları, onlar haqqında ətraflı məlumatlar verilmişdir.

«Muzeyə daxil olanlar birinci salondan başlayaraq ...Qobustanın nadir qayaüstü rəsmlərinin foto surətləri xalq bədii dövründən qalmış o rəsmlər musiqi, mahnı və rəqsin qırılmaz bir vəhdət və ictimai zəhmətə üzvi birlik təşkil etdiyini göstərir.

Qədim və orta əsr Azərbaycan ədəbiyyatı şöbəsinin materialları sırasında «Dədə-Qorqud» dastanına aid eksponatlar da xüsusi diqqət cəlb edirlər. Burada orijinal kitablardan, qiymətli abidələrin dostluqdan əlavə şəkillərin surəti də vardır.

Qədim və orta əsrlər ədəbiyyatı şöbəsində klassik yazıçılarımız dahi Nizami və Fizulinin yaradıcılığı mərkəzi yer tutur. Bunlarla birlikdə istər onların Xəqani, Şirvan, Məhsəti Gəncəvi, Şah İsmayıl Xətai kimi müasirlərin, istərsə də onlardan əvvəl yaxud sonra yetişmiş, Həsənoğlu, Nəsimi Şirvani, Əcəmi İbn Əbubəkr Naxçıvani, Vidadi, Vaqif kimi söz sənətkarları və alimlərin əsərləri ekspozisiyada öz yerini tapmışdır.

İkinci şöbənin salonları özləri Azərbaycan ədəbiyyatının XIX əsr və XX əsrin ilk on yeddi ilinə həsr olunmuşdur. Həmin dövr ədəbi məktəblər, cərəyanlar və üslublar cəhətindən çox zəngindir. Təkcə Azərbaycanda deyil, bütün Orta və Yaxın Şərqdə yeni realist ədəbiyyatın, xüsusən realist dramaturgiyanın əsasını qoyan, fəlsəfi fikrin inkişafında əzəmətli bir dövr açan M.F.Axundovu ayrıca qeyd etmək lazımdır. Ekspozisiyada onun yaradıcılığı nisbətən daha geniş təcəssüm etdirilir. A.Bakıxanov, Q.Zakir, Mirzə Şəfi, H.Zərdabi, Seyid Əzim, X.Natavana aid sənədlər, fotolar, kitablar, şəkillər bu ümumi ictimaifonda qabarıq nəzərə çarpırlar» (117, s.2,3,4).

«Beləliklə, muzeydəki bütün eksponatlar azəri ədəbiyyatının bəşər mədəniyyətinin ən qədim mənbələrindən biri olduğunu sübut etməklə bərabər, onun arasıkəsilmədən qarşıya tarixi çətinlikləri qaldırmaq yolu ilə daim irəliləyib yüksəldiyini əyani surətdə canlandırır» (117, s.7).

Muzeyin ekspozisiyası çox rəngarəng, bədii memarlıq nöqteyi-nəzərdən cəlbedici olmaqla, çox dəyərli eksponatlarla zənginləşdirilmişdir.

«B.Kəngərli adına Naxçıvan MSSR Dövlət Tarix-Ölkəşünaslıq muzeyi Naxçıvan MSSR-də Sovet Hakimiyyətinin qurulduğu ilk illərdə yaranmışdır. Muzeyin ekspozisiyasında Naxçıvanın ən qədim dövrlərdən başlamış son zamanlara qədər

tarixi, maddi-mədəniyyət abidələri, təbii sərvətləri və sair nümayiş etdirilir. Muzeydə elmi ekspozisiyalar zamanı aşkara çıxarılmış çoxlu maddi-mədəniyyət nümunələri, arxeoloji, etnoqrafik və numizmatik materiallar saxlanılır» (106, s. 2).

XX əsrin 60-cı illərinin sonlarından muzey Naxçıvan MR Dövlət Tarix Muzeyi kimi fəaliyyətini davam etdirir. Hazırda muzeyin fondunda və ekspozisiyasında xalqımızın keçmişi, bu günü ilə bağlı 10 şöbəni əhatə edən 40 minə yaxın maddi-mədəniyyət nümunəsi qorunur və nümayiş etdirilir. Onların içərisində Naxçıvanın qədim dövründən bu gününədək olan tarixi özündə əks etdirən maddi mədəniyyət nümunələri, arxeoloji tapıntılar, xalq tətbiqi sənət əsərləri, numizmatik materiallar, qrafika, heykəltəraşlıq, təsviri sənət əsərləri və digər materiallar xüsusi yer tutur. Muzeyin ekspozisiyası əsasən qədim, orta əsr, yeni və ən yeni dövrü əhatə edir.

Ekspozisiyada müxtəlif əmək alətləri, paleolit və neolit dövrünün əşyaları, dən əşyaları, nukleuslar, obsidiandan lövhələr, daş çəkiclər, həvəng və dəstələr, sümük bizlər nümayiş etdirilir. Bütün bu nadir maddi mədəniyyət abidələri Naxçıvan MR ərazisində aparılmış arxeoloji qazıntılar zamanı aşkara çıxarılmışdır. I Kültəpə, II Kültəpə, Naxçıvan nekropolu, Şortəpə, Şahtaxtı və digər yaşayış yerləri ən mühüm mədəniyyət mərkəzləri olmuşdur. Bu abidələr və arxeoloji materiallar arasında forma müxtəlifliyi və zəngin boya bəzəmələri ilə fərqlənən qablar xüsusi yer tutur. Boyalı qabların bir qismi mifoloji səhnələrlə, heyvan və quş rəsmləri ilə bəzədilmişdir. Muzeydə yaradılmış xüsusi zal özümüzün gözoxşayan şəkilli materialları ilə bu abidələr haqqında geniş təsəvvür yaradır.

Ekspozisiyada Təbriz miniatür məktəbi nümunələri, Naxçıvan tətbiqi sənət əsərləri, görkəmli rəssamlar Toğrul Nərimanbəyov, Tahir Salahov və digərlərinin əsərləri nümayiş etdirilir. Müasir dövrə aid ekspozisiyada Naxçıvan mədəniyyəti və incəsənətinin bütün sahələrini əhatə edən nümunələr nümayiş

etdirilir.

Cəlilkənd Cəlil Məmmədquluzadə xatirə-muzeyində ədibə aid çox qiymətli əşya və eksponatlar toplanmışdır. Bu muzeylər Mirzə Cəlilə həsr olunsa da ekspozisiyanın quruluşu baxımından çox yüksək şəkildə qurulmuşdur. Yəni tamaşaçı bu muzeylərdə çox maraqlı, fərqli ekspozisiya quruluşları ilə rastlaşır ki, bu da muzey işçilərinin yüksək peşəkarlığını təsdiq edir.

Cəlil Məmmədquluzadənin tədqiqatçıları Əli Nazim, Mirzə İbrahimov, Əziz Şərif, Məsud Əlioğlu, Abbas Zamanov, Əziz Mirəhmədov, Əli Sultanlı, İsa Həbibbəyli və başqalarının da fotoları ekspozisiyada öz əksini tapmışdır.

Cəlil Məmmədquluzadənin həyatı və yaradıcılığı, nəsil şəcərəsi, pedaqoji fəaliyyəti, teatr yaradıcılığı zəngin materiallar əsasında bədii tərtibatla əks olunur. Cəlil Məmmədquluzadənin seçilmiş əsərləri 6 cilddə, "Ər" pyesi, "Poçt qutusu" və "Ölülər"in ilk nüsxələri fars dilində, Qulam Məmmədlinin, Abbas Zamanovun, Mirzə İbrahimovun, Əziz Şərifin, İsa Həbibbəylinin, Xeyrulla Məmmədovun, Əziz Mirəhmədovun Cəlil Məmmədquluzadənin həyatı və yaradıcılığına həsr etdiyi kitabları, "Molla Nəsrəddin" jurnalının orijinal nüsxələrindən nümunələr, tədqiqatçıları haqqında materiallar vitrinlərdə stendlərdə nümayiş etdirilir.

Nehrəm kənd Cəlil Məmmədquluzadə xatirə-muzeyinin ekspozisiyası ədibin pedaqoji fəaliyyəti, həyatı və yaradıcılığının əsas dövrləri, kənddə maarifçilik və təhsil illərinə, ailə həyatına aid zəngin materiallarla tərtib edilmişdir. Muzeydə 1000-dək eksponat mühafizə olunaraq ekspozisiyalar vasitəsilə nümayiş etdirilir.

Ekspozisiyada ədibin pedaqoji və bədii yaradıcılığı, Naxçıvanlı müasirləri, müxtəlif illərdə çap olunmuş əsərləri, ailə üzvlərinə aid geyimlər, məişət əşyaları, əsərlərinə çəkilmiş illüstrasiyalar nümayiş etdirilir. "Ölülər" əsərində Kefli İsgəndər, "Poçt qutusu"nda Novruzəli, "Danabaş kəndinin əhva-

latı"nda Xudayar bəy, "Molla Nəsrəddin" obrazları və başqa təsviri sənət, heykəltəraşlıq nümunələri, "Quzu", "Usta Zeynal", "Saqqallı uşaq", "Dəllək", "Pirverdinin xoruzu" və digər qrafik illüstrasiyalarla tamaşaçı tanış olur. Əziz Şərifin, Abbas Zamanovun, Məmməd Cəfərin, Qulam Məmmədlinin, İsa Həbibbəylinin, Əziz Mirəhmədovun Cəlil Məmmədquluzadə, "Molla Nəsrəddin" jurnalı ilə bağlı elmi əsərləri, kitabları ekspozisiyada öz əksini tapır, nümayiş olunur.

Naxçıvan Muxtar Respublikasının 86 yaşlı Naxçıvan Dövlət Tarix Muzeyi ölkəmizin zəngin muzeylərindən sayılır. Bu muzeyin qurulmasında zəngin və qədim eksponatların muzeyə toplanmasında bir çox Naxçıvan ziyalılarının, alimlərinin, şəxsiyyətlərinin, o cümlədən Mirbağır Mir-Heydərzadənin çox böyük əməyi olmuşdur. Muzeydə Naxçıvan tarixi, mədəniyyəti, məişətinə aid dəyərli əşya və eksponatlar nümayiş etdirilir.

Naxçıvan Dövlət Muzeyində 1926-cı ildə professor Millerin başçılığı altında Mir-Heydərzadənin iştirakı ilə Naxçıvan rayonunun Qızıl Vəng ərazisində elmi tədqiqat işləri nəticəsində tapılan maddi-mədəniyyət predmetləri muzeydə saxlanılmaqdadır. Mir-Heydərzadənin şəxsi təşəbbüsü ilə Naxçıvan muzeyi xeyli zənginləşdirilmiş, Zoğala kəndindən tapılan Qrifon, duz mədənindən gətirilən daş baltalar, Qızıl Vəngdən tapılan gildən və tuncdan hazırlanmış qablar, çaxmaq daşı, dəvə gözündən qayrılan midiya dövrünün oxucuları, çox keçmişi anladan qadın bəzək əşyaları – muncuq, bilərziklər və s. əldə edilib və saxlanılır.

Qeyd etmək lazımdır ki, Azərbaycanın çox qədim abidə rayonlarından sayılan Naxçıvan respublikasında aparılan bütün arxeoloji qazıntılarda şəxsən iştirak edən Mir-Heydərzadə əsil respublikaşünas olmuşdur. Məhz buna görə Mir-Heydərzadə akademik Maşaninovun və Millerin, Azərbaycanın görkəmli arxeoloqu Ələsgər Ələkbərovun və başqalarının elmi məqalələrində qeyd edilir və fəaliyyəti təriflənir.

Azərbaycan arxeoloqu Ə.Ələkbərovun şəxsən Mir-Heydərzadənin iştirakı ilə Şərur rayonunun İbadulla kəndindəki Şər-təpə, Oliviya Novaşen kəndi üstündəki Oğlan qala, Şahtaxtı kəndindəki Kavur qalada apardığı qazıntılar nəticəsində gildən hazırlanmış rəngsiz və rəngli kuzələr, küpələr, bəzəkli qablar və s.Naxçıvan və Bakı dövlət muzeylərində saxlanılır. Ordubad Tarix-Diyarşünaslıq muzeyinin ekspozisiyasında Ordubadın tarixini əks etdirən eksponatlar elmi əhəmiyyət kəsb edir.

Muzeyin böyük bir bölməsində nümayiş etdirilən qədim dövrlərə aid eksponatlar – saxsı, mis, dəmir qablar, məişət və mətbəx əşyaları, ov alətləri, silahlar, milli qadın və kişi geyimləri, sikkələr, əkinçilik və toxuculuq ləvazimatları, su novları və s. əyani surətdə sübut edir ki, Ordubad çox uzaq keçmişi olan diyardır. Məşhur Gəmiqaya arxeoloji abidəsindən tapılmış qayaüstü rəsmlərini əks etdirən daş parçaları, təbii fəlakət nəticəsində yerlə-yeksan olmuş Gilan şəhərinin xarabalıqlarından tapılan arxeoloji nümunələr ən maraqlı eksponatlardır.

Ordubad rayonunun ən yaxın keçmişini əks etdirən ikinci bölmədə ayrı-ayrı başlıqlar altında 20-dən çox guşə, 100-ə qədər fotobülleten, stend, diaqramlar, xəritələr, sərgilər nümayiş etdirilir. Burada böyük maarifçi M.Sidqinin, M.S.Ordubadinin, Y.Məmmədəliyevin, uzun müddət bu torpaqda yaşamış N.Tusinin, 300-dən artıq ordubadlı alimin, rayonun yetişdirdiyi dövlət, ictimai və mədəniyyət xadimlərinin, əmək qəhrəmanlarının, alman faşistlərinə qarşı ölüm-dirim savaşında rəşadət göstərən həmyerlilərimizin həyat və fəaliyyətini əks etdirən 1000-dən artıq eksponat var. Ordubadda təhsil sisteminin uğurları, memarlığın, nəqqaşlığın, xalq təbabətinin inkişafını göstərən materiallar diqqəti cəlb edir. Müstəqilliyimiz uğrunda göstərmiş 44 ordubadlı vətən fədaisinin foto şəkilləri və hər biri haqqında müfəssəl məlumat bölməni tamamlayır.

Muzeyin üçüncü bölməsində rayonun bugünkü sosial-mədəni həyatı əks etdirilir. Burada rayonun inzibati xəritələri,

sənaye müəssisələrində istehsal edilmiş məhsullar, kənd təsərrüfatı sahəsində əldə edilən uğurlar, ərazinin ekoloji xüsusiyyətləri diaqramlarda əks etdirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sərəncamı ilə 1998-ci ilə yaradılan Naxçıvan Dövlət Xalça Muzeyi 377 eksponatla fəaliyyətə başlamasına baxmayaraq sürətlə inkişaf etmiş və artıq bu gün 3500-dən artıq rəngarəng, dəyərli eksponata malikdir. 8 otaqdan ibarət muzeydə Azərbaycanın müxtəlif bölgələrində toxunmuş 100-dən artıq xalça məmulatı və digər dekorativ - tətbiqi sənət nümunələri nümayiş olunur. Həmçinin burada qədim məişət əşyaları, mis məcməyilər, samovarlar, saxsı qablar, şamdanlar, badyalar, müxtəlif rəngli küpələr, qədim milli qadın və kişi geyimləri nümayiş etdirilir.

Maraqlıdır ki, Naxçıvan vətəndaşlarından Lyubov Danilova, Fatma Əliyeva, Məhərrəm Tlıbov, Sabir Kəngərli bundan başqa Naxçıvan MR Ali Məclisi tərəfindən, İran İslam Respublikasının vətəndaşları tərəfindən, Milli Təhlükəsizlik Nazirliyi tərəfindən, Naxçıvan dövlət Gömrük Komitəsi tərəfindən də sənət əsərləri muzeyə hədiyyə edilmişdir. Ümummilli liderimiz Heydər Əliyevin həyat və yaradıcılığına həsr edilmiş foto və kitab sərgisi, tariximizin qan yaddaşı olan "20 Yanvar" şəhidləri və 26 fevral "Xocalı soyqırımı" gününə həsr olunmuş sərgilər tamaşaçıların diqqətini daha çox cəlb edir. Maraqlı sərgilərimizdən biri də xalçaçı rəssam İ.Kərimovun və K.Əliyevin həyat və yaradıcılığını əks etdirən foto stenddir. Bu sərgilər İ.Kərimov və K.Əliyevin Azərbaycanın xalq sənəti olan xalçaçılıq sənətinə verdiyi töhfələr gələn tamaşaçıların nəzərindən qaçmır. Muzeyə arxiv sənədləri, fotoşəkillər, fotomateriallar, kitablar, şəcərə cədvəlləri və bir çox sənədlər axtarılıb, toplanılıb, araşdırlıb və gələn tamaşaçılara təqdim olunur.

XII əsr Azərbaycan Atabəylər dövlətinin yadigarı olan Möminə Xatun türbəsi də muzeyin nəzdində ictimai əsaslarla fəaliyyətə başlamışdır. Möminə Xatun türbə ekspozisiyası muzey əməkdaşlarının səyi nəticəsində qurulub, ekspozisiyadakı

eksponatlar nömrələnib, şəhadətnamələri yazılıb və fond kitabına daxil edilmişdir.

Şərur Tarix Diyarşünaslıq Muzeyinin ekspozisiyasında eramızdan öncə IV-III minillikdən başlamış böyük bir dövrü əks etdirən nümunələr mövcuddur. Burada xalqımızın əsirlər boyu məişət əşyaları, kənd təsərrüfatı alətləri, Şərur torpağında arxeoloqlar tərəfindən tapılmış tarixi abidə qalıqları, qəbir daşları, daş, qum, alətlər, mərmər məmulatlar, xalça nümunələri, qədim pul, sikkə nümunələri, qadın, kişi bəzəkləri toplanmışdır. Şərurda neolit, enolit və tunc dövrlərinə aid arxeoloji qazıntılar zamanı tapılan və Şərur tarix-diyarşünaslıq muzeyinin salonlarında nümayiş etdirilən müxtəlif əşyalar, daş alətlər, silah nümunələri, üzəri nəfis naxışlarla bəzədilmiş boyalı gil qablar xalqımızın ulu sənətkarlığını sübut edir. Ekspozisiyada milli sənət örnəklərindən olan toxuculuqla bağlı alətlər və irili-xırdalı xalça məmulatları ilə bəzədilən guşə öz əlvanlığı ilə tamaşaçını heyran edir.

Həm qədim, həm də müasir, həm xovlu, həm də xovsuz xalçalar, çul, dəvə bəzəyi, örkən, gərdək daşı, bədii tikmələr öz bənzərsiz naxışları ilə sanki muzeyin salonlarını işıqlandırır. Şərurda dünyaya gəlmiş, burada böyümüş qəhrəman oğullara, bu torpaqdan ilham almış şair, yazıçı, alimlərə həsr olunmuş guşə muzeyi daha da baxımlı etmişdir.

Ekspozisiyada on üç bölmə fəaliyyət göstərir: təbiətşünaslıq, arxeologiya, etnoqrafiya, numizmatika, Şəhidlər, Azərbaycan Vətən müharibəsi və Böyük Vətən müharibəsi, mədəniyyət və incəsənət, Şərur torpağının yetirmələri, alimlər, şairlər və s. eksponatlar tarixi mərhələlər üzrə ardıcıllıqla yerləşdirilib.

Beləliklə, araşdırmalardan məlum olmuşdur ki, Naxçıvan Muxtar Respublikasının Heydərabad, Şərur, Şahbuz, Naxçıvan, Babək, Culfa, Ordubadın bütün muzeylərini əhatə edə bilməsək də, yuxarıda adlarını çəkdiyimiz və sərgi-ekspozisiya fəaliyyətinin tədqiq etdiyimiz bir neçə muzeyin timsalında ayrı-ayrı

amillərin muzeyşünaslıqda mühüm rolu vardır:

- Naxçıvan Muxtar Respublikasının ulu tarixə malik olmasının və muzey quruculuğunda dünya əhəmiyyətli qədim zənginliyi özündə cəmləşdirən və çox güclü bədii-estetik təsirə malik tarixi-mədəniyyət abidələrinin, nümunələrin, əşyaların, materialların, məmulatların mənbə əhəmiyyəti;
- Naxçıvan torpağının müdriklərinin alim və ziyalılarının, şəxsiyyətlərin muzey quruculuğuna təkan vermək məqsədilə əsrlərlə toplanmış dəyərli əşya və nümunələrin qorunub saxlanması, muzeylərə hədiyyə edilməsi;
- Naxçıvan MR-da xalqın qədim və milli adət-ənənələrin, maddi və mənəvi mədəniyyət nümunələrinin, dəyərləri zaman-zaman qorunub saxlanılması, dərin məhəbbətin bəslənilməsi, qorunması və gələcək nəsillərə ötürülməsi təcrübəsinin adət halını alması;
- ümümiyyətlə, muzey quruculuğu və muzeyşünaslığa böyük hörmət və məhəbbətin mövcudluğu;
- muzey quruculuğu, muzey fəaliyyəti, muzeyşünaslığa böyük marağın yaradılması;
- muzeylərarası və digər mədəniyyət və təhsil müəssisələri arasında elmi-nəzəri və təcrübi qarşılıqlı əlaqəliliyin yaradılması;
- peşəkar muzey işçilərinin elmi-nəzəri və təcrübi fəaliyyətləri vasitəsilə muzeyşünaslığın inkişafı naminə mütəmadi elmi-tədqiqat mərkəzləri kimi muzeylərdən istifadə etmələri;

Azərbaycanın rayon tarix-diyarşünaslıq muzeylərində göstərilən incəsənət muzeyləri əsasən həmin bölgənin tarixini, mədəniyyətini, təbii gözəlliklərini özündə yaşadır, mövzunu tamamlayır, ekspozisiyanı zənginləşdirir, onun estetik cəhətdən daha baxımlı olmasına təsir göstərir.

Azərbaycanın ulu yaşayış zonalarından sayılan Qarabağda dünya əhəmiyyətli qədim abidə yerləri, məskənlər olmuş, məhz bunun nəticəsidir ki, dünyanın zəngin mədəniyyət

mərkəzlərindən olan Qarabağ maddi və mənəvi mədəniyyət nümunələri dünya mədəniyyət, incəsənət xəzinəsini bəzəyir. Dünya muzeylərində Qarabağ xalçaları, zərgərlik məmulatları, daş alətlər və digər qədim və zinətli nümunələrinin nümayişi (134,135) bunları bir daha təsdiq edir. Şuşa, Laçın, Kəlbəcər, Ağdərə, Xocalı, Ağdam, Xankəndi, Xocavənd, Fizuli, Qubadlı, Cəbrayıl, Zəngilan, Bərdə, Ağcabədinin və digər qəsəbə, şəhər, kəndlərin qədim tarixi mədəniyyət nümunələri dünya muzeylərini bəzəyir (134, 135). Lakin böyük təəssüf hissi ilə qeyd olunur ki, bu gün Azərbaycan Respublikasının ərazilərinin Ermənistan hərbi qüvvələri tərəfindən 20 faizindən çox hissəsinin işğal edilməsi nəticəsində milyondan artıq insanlar-qocalar, qadınlar, uşaqlar öldürülmüş, girov götürülmüş, öz doğma torpaqlarından qaçqına çevrilmişlər. Işğal olunmuş ərazilərdə 500-dək tarixi-memarlıq, 100-dən artıq arxeoloji abidə, 22 muzey, 4 rəsm qalereyası qarət olunaraq darmadağın edilmişdir. Hələ keçmiş SSRİ-də yeganə Ağdam Çörək Muzeyi bombardman nəticəsində tamam dağılmışdır, ondan heç bir əsər-əlamət qalmamışdır.

Tematik zallardan, dəyirmandan, milli çörəklər bişirən təndirdən, dincəlmək, addamaq üçün xudmani otaqlardan ibarət olan muzey çörəyin – bu möcüzəli nemətin keçmişini, maraqlı, rəngarəng tarixi yollarını, mərhələlərini səciyyəvi boyalar, dəlil və rəqəmlərlə əks etdirirdi. Böyük yaradıcılıq əməyi və incə zövqlə yaradılmış bu muzeydə sanki hər şey çörəyin ətri ilə cilalanmışdı. Ekspozisiyada bəşər tarixində ilk dəfə taxılın torpağa düşüb təşəkkül tapmasında başlamış, yuyulub un edilməsinə, çörək bişirilməsinədək bütün istehsal prosesləri ardıcıllıqla vaxtilə əks etdirilmişdir. Ekspozisiyada ayrı-ayrı çörək növləri, məmulatları, şirniyyat növlərinin hazırlanması, nümayiş etdirilmişdi. Hələ SSRİ zamanında taxıl, çörək istehsalı haqqında çox maraqlı məlumat ekspozisiyada verilmişdir. Çexoslavakiya, Macarıstan, Qərbi Almaniya, Səmərqənddə, Qədim Misirdə taxıl-çörək istehsalını əks etdirən əyani ekspo-

natlar vaxtilə tamaşaçıda böyük maraq doğurmuşdur. Lakin hazırda bu ekspozisiyadan heç bir əsər-əlamət qalmamışdır.

Dünya şöhrətli Kəlbəcər Tarix-diyarşünaslıq muzeyinin 13 mindən çox Laçın Tarix-Diyarşünaslıq Muzeyinin 5 mindən artıq çox qiymətli əşya, material, eksponatları talan edilmiş, Ermənistana daşınmışdır. Ağdam, Qubadlı, Zəngilan Tarix-diyarşünaslıq muzeylərinin fondlarından 11 mindən çox əşya və nümunələr Ermənistana aparılmışdır, fondlar və ekspozisiyalar qarət edilmiş və dağıdılmışdır. Dünya şöhrəti tarzən Qurban Pirimovun xatirə muzeyi tamamilə dağıdılmışdır, muzeydən heç bir iz qalmamışdır. Cəbrayıl, Fizuli, Yaloba tarix-diyarşünaslıq muzeyləri də qarət olunmuş, əşyalar, eksponatlar Ermənistana aparılmış, muzeylər isə yerlə-yeksan olunmuşdur.

Şuşa, Laçın və Qubadlıda fəaliyyət göstərən rəsm qalereyalarında illərlə toplanan, qorunan Azərbaycanın görkəmli sənətkarlarının, rəssam, memar və heykəltəraşlarının əsərləri fondlardan qarət edilmiş, qalereyalar tamamilə dağıdılmışdır.

Erməni təcavüzkarlarının qarət etdikləri muzeylərdə Azərbaycan xalqının tarixi və mədəniyyəti ilə bağlı qiymətli əşyalar rəsm və heykəltəraşlıq əsərləri, dünya şöhrətli Azərbaycan xalçaları xalça məmulatları, Azərbaycanın görkəmli şəxsiyyətlərinin xatirə əşyaları, digər qiymətli materiallar olmuşdur. Bu qiymətli sərvət Ermənistana aparılmışdır. İndi həmin əşyalar işğal olunmuş ərazidən aparılmış digər əşyalarla birlikdə xarici auksiyonlarda satılır, yaxud müxtəlif sərgi və muzeylərdə erməni mədəniyyət nümunəsi kimi dünya ictimaiyyətinə təqdim olunur" (83, s.26).

Öz qədim və zəngin ədəbiyyatı, mədəniyyəti, incəsənəti ilə seçilən Qarabağımızın dilbər guşələrindən sayılan, adı dillər əzbəri olan Şuşanın alimlərimizin böyük tədqiqatlarına çox ehtiyacı vardır. Akademik Rasim Əfəndi Şuşanın zənginliyini, gözəlliyini, ulu bir məskən olduğunu aşağıdakı kimi təsvir etmişdir:

"Öz füsunkar gözəlliyi ilə insanı valeh edən Şuşa dün-

yaya nəinki böyük şairlər, musiqiçilər, müğənnilər və mədəniyyətin digər sahələrinin xadimlərini, həmçinin Azərbaycanın incəsənətinin qızıl fonduna daxil olan rəssam və xalq -tətbiqi sənət ustalarını bəxş etmişdir. Keçmişdə xalq sənətinin elə bir sahəsi yox idi ki, Şuşada inkişaf etməsin.

Qarabağ xanlığının tarixçisi Başarlının verdiyi məlumatlara görə Şuşa şəhərinin təkcə şərqində yerləşən 17 məhəllədə müxtəlif sənət növlərinə aid emalatxanalar yerləşmişdir. Burada olan hər məhəllənin adı da bu və ya digər sənət növlərinin adı ilə bağlı idi. Məsələn, xalçaçılar, zərgərlər, misgərlər, rəssamlar məhəlləsi və s. bu emalatxanalarda Şuşa sənətkarlarının bacarıqlı əlləri ilə yaradılmış əsərlər Azərbaycan hüdudlarından çox-çox uzaqlarda da məşhur idi.

Məsələn, məlumdur ki, 1872-ci ildə Moskvada, 1873-cü ildə Vyanada, 1924-cü ildə Parisdə keçirilən ümumdünya sərgilərində usta Məşədi Qurban oğlu, Kərbəlayi Əhməd Qaya oğlu, Cabbar Əkbər oğlu, Səltənət Əli qızı, Allahverdi Cavanşir oğlu öz yaratdıqları əsərlərinə görə qızıl və gümüş medallara layiq görülmüşlər"(135, s. 10).

Başdan-ayağa açıq səma altında muzey olan qədim Şuşanın hər bir məhəlləsi, binası, tikilisi, şəhərin qədim quruluşu mühüm muzeyşünaslıq əhəmiyyəti kəsb edir. Çünki, muzeylərimizdə, eləcə də dünya muzeylərində qorunan və nümayiş etdirilən dünya əhəmiyyətli nümunələrin bir hissəsi məhz Şuşa sənətkarları, memarları, incəsənət ustaları tərəfindən ərsəyə gətirilmişdir.

Şuşa binalarının bədii tərtibatında Azərbaycan xalq nağıllarından geniş istifadə edilmişdir. Bu mövzulara ən çox Səfibəyovun evində yer verilmişdir. Məlik Məmməd və başqa nağıllara həsr edilmiş bu rəsmlərin müəllifi Qəmbər Qarabağının qardaşı Səfər olmuşdur. «Bu iki qardaşın Azərbaycan incəsənəti tarixində rolu çox böyükdür. Məlumdur ki, onlar hətta Şəki şəhərindəki Xan sarayının bədii tərtibatında da fəal iştirak etmişlər.

Şuşa şəhərində anadan olmuş görkəmli şairə, rəssam, bədii tikmə ustası Xurşid Banu Natəvanın da (1830-1897) yaradıcılığı bu yerlə bağlıdır. Onun yaratdığı rəsmlər, miniatürlər, dekorativ sənət işləri hazırda bir çox dünya muzeylərində nümayiş etdirilir. Azərbaycan Elmlər Akademiyasının Əlyazmalar institutunda Natəvanın cildli öz əli ilə tikilmiş albomu saxlanılır. Bu albomda şairənin bir neçə qəzəlləri ilə yanaşı təsvirləri də vardır. Albom səhifələrində verilən karandaş və sulu boya ilə çəkilmiş rəsmlər sənətkarlıq baxımından xüsusi maraq kəsb edir» (135, s.11).

Maraqlı bir faktı qeyd etmək yerinə düşərdi: 1858-ci ildə məşhur fransız yazıçısı Aleksandr Duma Bakıda olarkən təntənəli gecələrin birində Natəvanın muncuqla tikdiyi bir kisəciyi ona bağışlayırlar. Bu əl işinin incəliyinə heyran olan Duma "ən qiymətli hədiyyə" adlandırmışdır.

Yaradıcılığımızı Qarabağla bağlı olan istedadlı rəssam, şair, musiqişünas, çoxcəhətli yaradıcılığa malik olan Mir Möhsün Nəvvab, görkəmli zərgərlər Hacı bəy Həsən Hüseyn oğlu, Alış kişi kimi tanınmış insanların yaratdığı nümunələr Bern, Vyana, London, Vaşinqton, Tehran, Paris, Nyu-York və digər şəhərlərin muzeylərində nümayiş etdirilməkdədir. Akademik Rasim Əfəndi çox təəssüflə göstərirdi:

«Təəssüflər olsun ki, indiyədək bir çox dünya muzeylərində saxlanılan Şuşada yaradılmış sənət abidələrimizin ünvanı səhv gedir. Bu işdə Nyu-Yorkda yaşayan əntiq mallar salonlarının sahibkarı Berd Abaqyan, Kaliforniyanın Nord şəhərinin sakini Karen Yesayan, parisli Albert Aşçıyan çox fəallıq göstərirlər. Onlar nəinki Şuşada yaradılmış bir çox sənət abidələrini öz xalqlarının adına çıxarır, hətta bunlara aid kitablar, albomlar dərc etdirir, sərgilər də təşkil edirlər. Belə sərgilərdən ən böyüyü 1985-ci ildə Texasda (Amerika) Kimbella muzeyində olmuşdur» (135, s.13).

Ürək ağrısı ilə qeyd edirik ki, qədim tarixi özündə yaşadan Şuşa şəhərinin tarixi muzeyinin 5 minədək əşya və eks-

ponatı, L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin Şuşa filialının, Dövlət Qarabağ Tarixi Muzeyinin 1000-dən çox dəyərli əşyaları, eksponatları ermənilər tərəfindən qarət edilmişdir. Üzeyir Hacıbəyovun xatirə muzeyindən 300-dən çox əşya, Bülbülün xatirə muzeyindən 400-dək əşya, Mir Möhsün Nəvvabın xatirə muzeyindən 100-dən artıq əşya, materiallar, dəyərli eksponatlar ermənilər tərəfindən qarət edilmiş, muzeylər isə tamamilə dağıdılmışdır.

Qarabağın qədim bölgələrindən sayılan Kəlbəcər uzaq keçmişdən soraq verən abidələrlə zəngindir. Arxeoloqlar tərəfindən burada 30 min ildən çox yaşlı olan qədim yaşayış məntəqələri aşkar edilmişdir. Hələlik rayonun ərazisində 3500-dən çox və 6-7 min il yaşı olan qaya təsvirləri qeydə alınmışdır. Bazalt qayalarının üzərində insan, günəş, keçi, qoyun, dinozavr, öküz və digər canlı və cansız cisimlərin təsvirləri mövcuddur. "Lök qalası", "Comərd qalası", "Uluxan qalası" kimim bir çox qalalar, qədim Aran-Alban dövləti dövründən qalan "Şorbulaq abidəsi" kompleksi, "Bulanıq su" , "Zar", "Təkə qayası", "Xos meşəsi", "Çiçəkli" abidələri Kəlbəcər torpağının qədim və zəngin mədəniyyətindən xəbər verir.

Təbii ki, bu qədim torpaqda yaradılmış Kəlbəcər Tarixdiyarşünaslıq muzeyi vaxtilə çox zəngin eksponat fonduna və 9 otaqdan ibarət ekspozisiyaya malik olsa da, əfsuslar olsun ki, hazırda bir qism əşyalarla fəaliyyət göstərir.

«Bu adı dillərdə dastana çevrilmiş muzey özünün orijinallığına və zənginliyinə görə başqa muzeylərdən əsaslı surətdə fərqlənirdi. Mütəxəssislər və tamaşaçılar haqlı olaraq bu muzeyi həm də geologiya, arxeologiya, incəsənət və səs muzeyi adlandırırdılar...

Bolqarıstan, Hindistan, Çin Xalq Respublikası, ABŞ, AFR, İtaliya, Kanada, Avstraliya, İran, Finlandiya və bir çox başqa ölkələrin 150-dən çox alimi Kəlbəcər muzeyinə maraqla baxmış, qiymətli rəylər yazmış və bu muzeyin zənginliyinə ürəkdən məftun olduqlarını bildirmişlər...

Muzey eksponatları zəngin bir dəhlizdən, 3 kabinetdən, 9 nümayiş salonundan və içərisində 30 mindən çox eksponat olan bir fonddan ibarət idi» (435, s.3).

Muzeyin birinci salonu rayonun zəngin təbiəti barədə tamam ətraflı məlumat verirdi. Ikinci salon rayonun qədim dövrünə həsr edilmişdir. Üçüncü salonda əsasən toxuculuq əşyaları, dördüncü salonda keçmişdə məişətdə işlənən qab-qacaq, qədim silahlar, köhnə metal və kağız pullar nümayiş etdirilirdi. Beşinci salonda yaşı 100-dən artıq olan ağbirçək və ağsaqqallar, rayonun aşıqları, alimləri haqqında maraqlı məlumatlar toplanmışdır. Yaşı 100-dən çox olanların hər 1000 nəfərə düşən sayına görə Kəlbəcər rayonu İttifaqda 1-ci yeri tuturdu (bax: "Bakı" qəzeti, 19 noyabr, 1983-cü il, №218) (435, s.18).

Altıncı salonda xalq oyunları və adətləri öz əksini tapmışdır. Yeddinci salonda keçmiş dövrün kənd təsərrüfatı, səkkiz və doqquzuncu salonlarda isə Azərbaycanın, eləcə də Kəlbəcər rayonun müasir dövrü, son qazanılan nailiyyətlər öz əksini tapmışdır (435, s.38). Hətta muzeyin 10 minə yaxın kitabı olan kitabxanası da olmuşdur (435, s. 39). Təəssüflər olsun ki, həmin eksponatlar, əşyalar ermənilər tərəfindən qarət edilərək, dağıdılmışdır.

Ağdam rayonunun Qaradağlı kəndində yerləşən Ağdam Tarix-Diyarşünaslıq Muzeyi 1993-cü ilə qədər Ağdamda 3 mindən artıq eksponatla fəaliyyət göstərmişdi. Ekspozisiyada Qarabağ tarixi mədəniyyəti Ağdamın tarix və mədəniyyətini əks etdirən məlumatlar, əşyalar eksponatlaşdırılaraq nümayiş etdirilmişdi. Hazırda isə muzey rayon sakinlərinin köməyi ilə yenidən bərpa edilmiş, Qarabağlı kəndində 700-ə yaxın eksponatla fəaliyyətini davam etdirir.

Zəngilanın zəngin sərvəti, əhalinin məişəti, həyatı, tarixi və mədəniyyəti rayonun işğaldan əvvəlki dövrdə Tarix-Diyarşünaslıq Muzeyində sanki ətrafı əks olunmaqla kompleks halda nümayiş etdirilirdi. Muzey Zəngilanda birmərtəbəli geniş, yara-

şıqlı və işıqlı bu mədəniyyət məbədgahında yerləşirdi. Hər gün muzeyə yüzlərlə ziyalı, əməkçi, məktəbli gəlirdi. Onlar rayonun təbiəti, tarixi, mədəniyyəti, adət-ənənələri, qədim daş, tunc, orta əsrlər dövrü ilə tanış olurdular.

Muzeyin ekspozisiyası üç bölmədən ibarət idi. Təbiət bölməsi rayonun fiziki-coğrafi şəraiti, bitki və heyvanat aləmi, təbii-faydalı qazıntıları rayon ərazisinin 35 faizini əhatə edən meşələr, nadir və qiymətli çinar bitkisi və s. haqqında təsəvvür yaradırdı.

Təbiət bölməsini zənginləşdirmək üçün fotoşəkillərdən, diaqramlardan, rəsm əsərlərindən, bitki nümunələrindən, müqəvvalardan və s. istifadə edilmişdi.

Sovet dövrünə qədərki bölmədə arxeoloji qazıntı zamanı tapılmış maddi-mədəniyyət eksponatları, qədim abidələr, rayonda yaşamış əhalinin keçmiş adət-ənənəsi, məişəti, kənd təsərrüfatında məşğuliyyəti haqqında tamaşaçıya geniş məlumat verirdi. Bu bölmədə qədim Şəhri-Şərifan şəhəri, Qız qalası, Məmmədbəyli gümbəzi və rayonun başqa abidələri haqqında maraqlı eksponatlar və məlumatlar toplanmışdı.

Muzeyin ekspozisiyasında hərbi vətənpərvərliyə həsr olunan sənədlərə geniş yer verilmişdir. Böyük Vətən müharibəsinin iştirakçıları olmuş həmyerlilərimizdən "Kürd pəhlivanı" adı almış, kapitan İsmayıl Sayılov, üç şöhrət ordenli Soltan Qardaşov, İdris Şıxəliyev, Nəriman Ağayev və başqalarının şəxsi sənədləri, təltifləri, orden və medalları, cəbhə qəzetlərində onlar haqqında gedən yazılar ekspozisiyanı daha da zənginləşdirirdi. Bu bölmədə yaradılmış "Həmyerli alimlərimiz" və "Qızıl ulduzlu Zəngilanın əmək qəhrəmanları", "Zəngilanın bu günü və sabahı", "Al bayraqlı respublikamız " adlı guşələr tamaşaçılarda xoş təsir oyadırdı.

İşğala qədərki dövrdə muzeydə 2300-dən çox eksponat toplanmışdı. Hər il muzeyin ekspozisiyasından 7000-dən artıq tamaşaçı sərgilərdə tanış olurdular. Çox təəssüflər ki, muzey bu gün cüzi eksponat fondu ilə öz fəaliyyətinin davam etdirmək-

dədir.

Ermənilər tərəfindən işğala, qarətə məruz qalan Qarabağ muzeylərindən biri olan Laçın Tarix-Diyarşünaslıq Muzeyinin fondunda qarətə qədər 2300-dən çox eksponat olmuşdur. Muzeyə gələnlər təbiət bölgəsində rayonumuzun ərazisindəki rəngli daşlarla və minerallarla, dərman bitkiləri nadir ağac nümunələri və rayonun ərazisində yaşayan çöl heyvanlarının müqəvvaları ilə yaxından tanış olurdular. Laçının təbiətini əks etdirən rəsm əsərlərinə baxırdılar.

Muzeyin ikinci salonunda arxeoloji qazıntılar zamanı tapılmış qədim bəzək şeyləri, məişət əşyaları, memarlıq abidlərinin fotoşəkilləri və xalq qəhrəmanı Babəkin portreti, Babək hərəkatı dövrünə təsadüf edən bəzi eksponatlar tamaşaçıda dərin maraq yaradırdı.

Üçüncü salon orta əsrlər salonu adlanırdı. Burada müxtəlif silahlar, xəncərlər, əmud, Azərbaycan xanlıqlarının miniatür xəritəsi nəzəri daha çox cəlb edirdi. Kiçik bir guşədə Azərbaycan SSR EA Geologiya institutu tərəfindən muzeyə hədiyyə verilmiş daşlaşmış dəniz heyvanlarının nümunələri yerləşdirilmişdir. Yeri gəlmişkən onu da qeyd edək ki, geologiya institutunun əməkdaşları Laçın ərazisinin vaxtilə dəniz olmasını da qeyd etmişlər. Bu salonda tamaşaçılar XVII əsrdə yaşamış həmyerlimiz, bayatı ustası Sarı Aşığa həsr olunmuş guşə ilə də tanış olmaq imkanı əldə etmişdilər.

Dördüncü salondakı Azərbaycanın, Rusiyanın tərkibinə daxil olmasını, Türkmənçay sülh müqaviləsinin imzalanmaşının, Azərbaycanda kapitalist münasibətlərinin inkişaf etdirilməsini əks etdirən sənədlr, eksponatlar - mərfəş, xalça, at çulu, gümüş pullar, zərgərlik məmulatları, inqilaba qədərki dövrdə Laçın, Mişni, Minkənd kəndlərindəki qara adamların fotoşəkilləri, Qaçaq Nəbi üsyanını əks etdirən eksponatlar, yerli sənətkarlıq məmulatlarını, milli geyimlər, o dövr haqqında daha aydın təsəvvür yaradırdı.

Muzeyin altıncı salonunda tamaşaçılar əməkdə nailiyyət

əldə edən insanların – Həsən Cümşüdoğlu, Əkbər Cümşüdov, Səfər Cahangirli, Güllü İbrahim qızı, Firiş Mirzəyeva və başqalarının sənədləri, arxiv materialları, təltifləri, fotoşəkilləri ilə tanış olurlar. Burada savadsızlığın ləğvi guşəsi də zövqlə hazırlanmışdı və seyrçilərdə böyük maraqlar formalaşdırırdı.

Bölgənin tanınmış muzeylərindən sayılan Ağcabədi Rayon Tarix və Diyarşünaslıq Muzeyinin ilk bölməsi olan təbiət bölməsi rayonun təbii xəritəsi fonunda, onun təbii gözəlliklərini, flora və faunasını əks etdirir. Bu bölmənin zənginliyi ilə yanaşı yüksək səviyyədə bədii tərtibatı da zövq oxşayır, tamaşaçıda əzəli və əbədi təbiətə qarşı estetik duyğular oyadır, adam özünün sanki muzey salonunda olduğunu unudur, bir anlığa özünü təbiətin əsrarəngiz gözəllikləri qoynunda hiss edir.

Sovet dövrünə qədərki bölmədə öz əhatə dairəsi və material zənginliyi ilə ən baxımlı bölməsidir. Burada tamaşaçılar rayonun tarixi keçmişinin, maddi və mənəvi sərvətlərinin gözəllikləri ilə tanış olurlar. Dulusçuluq sənətinə saxsı və kaşı qablar məmulatı, həmçinin ağac üzərində oyma və naqqaşlıq nümunələri daha çox diqqəti cəlb edir. Belə nümunələr el sənətkarlarımızın təfəkkür qabiliyyətlərinin məhsulu kimi xalqımızın məişət tərzini, dünyagörüşünü və həyat səviyyəsini müəyyən edir. Ona görə də belə eksponatlar tamaşaçıda bir tərəfdən tarixi material kimi geniş təsəvvür oyadırsa, digər tərəfdən orijinal bir sənət nümunəsi kimi estetik hisslər aşılayır. Muzeydəki hər bir guşə və bölmə istər elmiliyi və material zənginliyi, istərsə də bədii tərtibatı ilə tamaşaçı duyğularına təsir göstərir.

Beləliklə, araşdırmalardan məlum olmuşdur ki, Qarabağda – Kəlbəcər, Ağdərə, Tərtər, Bərdə, Xocalı, Ağdam, Xankəndi, Xocavənd, Ağcabədi, Şuşa, Laçın, Fizuli, Qubadlı. Cəbrayıl, Zəngilan və digər şəhər, qəsəbə, kəndlərində fəaliyyət göstərən muzeylərin sərgi-ekspozisiya fəaliyyəti həmin bölgənin bir neçə muzeyinin fəaliyyəti timsalında bir sıra

amillərini muzeyşünaslıqda mühüm əhəmiyyəti vardır:

- Qarabağın Azərbaycanın çox gözəl füsunkar guşəsi, barlı, bərəkətli, zəngin ərazisi olması. Bu ərazilərdə iqtisadi-sosial inkişafın sürətliliyinin ayrı-ayrı sahələrin tərəqqisinə digər regionların tez təkan verməsi;
- Elm və mədəniyyətin, incəsənətin ayrı-ayrı sahələri üzrə müdriklərin, ziyalıların, sənətkarların yetişməsi üçün mühit və şəraitin olması;
- Muzey quruculuğu və muzeyşünaslığın inkişafı üçün zehni və əyani-əşyavi mənbələrin zənginliyi;
- Nəhayət Qarabağın Azərbaycanın mədəniyyəti və incəsənətinin beşiyinə çevrilməsi dünya mədəniyyəti və incəsənətinin inkişafına təkanverici rolu;
- Azərbaycanın şimal bölgəsində - Xudat, Xaçmaz, Qusar, Quba, Şabran, Siyəzən, Xızı və digər qəsəbələrdə, kəndlərdə milli xüsusiyyətləri özündə saxlayan mənbələr olduqca zəngindir. Şimal rayonlarımızın muzeylərində etnoqrafik əşya və materiallar, sosial-məişət əşyaları, xalçaçılıq məmulatları, zərgərlik nümunələri, kənd təsərrüfatına aid əşya və materiallar nümayiş etdirilir;

A.A.Bakıxanov adına Quba Tarix-Diyarşünaslıq Muzeyinin ekspozisiyasında tarixi-mədəni, sosial-məişət, dekorativ-tətbiqi sənət nümunələri də böyük maraq doğurur. «Rəvayət görə 1147-ci (hicri) ildə Nadir şah qısa müddətli istirahət üçün Qubada dayanır. Bu gözəl füsunkar təbiətli məkan xoşuna gəldiyi üçün şəhər salmağı əmr edir. Ərdəbildən tacirlər, ustalar gəlir və ilk dini bina kimi "Ərdəbil" məscidi tikilir, yaşayış və ictimai binaların tikintisinə başlanılır.

O zaman Quba 4 hissədən ibarət olub:

1. "Bayır şəhər"- cənub-qərb.
2. "Orta qapı"- cənub şərq tərəfi əhatə edib.
3. "Məscid qabağı" – cümə məscidinin qarşı tərəfi.
4. "Ərdəbil məhəlləsi".

Hal-hazırda muzeyimizin binası həmin tarixi ərazidə

yerləşir (Ərdəbil küçəsi 93 saylı bina). XIX əsrin əvvəllərində tikilən bu bina tarixi binadır. Azərbaycan SSR Nazirlər Sovetinin 14 may 1981-ci il №225 saylı qərarı ilə tarixi abidə kimi qeydə alınmışdır. 1835-ci ildə bu binada görkəmli alim və mütəfəkkir, şair A.A.Bakıxanov yaşamış, dövrünün qabaqcıl ziyalıları ilə görüşlər keçirmiş və ilk dəfə "Gülüstan" ədəbi məclislərini burada təşkil etmişdir.

Görkəmli alim və mütəfəkkir A.A.Bakıxanovun adını daşıyan Quba Tarix-diyarşünaslıq Muzeyi 1943-1958-ci illər Azərbaycan Elmlər Akademiyasının baza muzeyi kimi, 1958-1965-ci illər ictimai əsaslarla 1965-ci ildən hal-hazıradək Azərbaycan Mədəniyyət Nazirliyini tabeçiliyində fəaliyyət göstərir. »(41,s. 21-22)

Qubada Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş Quba şəhidlərinin xatirə-muzeyi (1977), görkəmli mütəfəkkir A.A.Bakıxanovun Amsar kəndində memorial ev muzeyi (1999) fəaliyyət göstərir. Son illərdə aşkar edilən erməni vəhşiləri tərəfindən Quba əhalisinin kütləvi qırğını-soyqırımı əks etdirən məzarlığı da tarixi məkan kimi dünya tarixçilərinin, beynəlxalq təşkilat və qurumların diqqətini cəlb etməkdədir. Belə kütləvi qırğının qurbanları məzarlıqda yaşından və cinsindən asılı olmayaraq torpaqla örtülmüş və çox dəhşətli vəhşilikdən, amansızlıqdan xəbər verməklə, erməni vəhşiliyinin bir daha əyani sübutudur. "Köhnə Quba", "Quba", "Alnan", "Xırdagül Çici", "Alçagül Çici", "Heyratı", "Sirt Çici", "Qollu", "Ağgül", "Qımıl", "Qədim","Minarə", "Hacı Qayıb", "Sumaq", "Qaraqşlı", "Şəhnəzərli", "Molla Kaçmallı", "Pirəbədil", "Zeyvə", "Zaçlı", "Əlixanlı", "Bilici", "Orduc", "Afurca", "Qırız", "Cimi", "Xası", "Qonqakənd", "Səlməsöyüd" və digər xalça nümunələri nümayi.ş etdirilir. 1712-ci ildə toxunmuş "Qollu Çici" xalça Nyu-York "Metropoliten" İncəsənət muzeyinin nadir incilərindən sayılır.

Qubanın tarixi, mədəniyyəti, məişətinə aid, ermənilər tərəfindən dəfələrlə soyqırımına məruz qalmaları, Böyük Vətən

müharibəsində göstərilən şücaət və qəhrəmanlara aid XX əsrin 45-60-cı, 60-90-cı illərinə aid çox dəyərli əşya, materiallar, məlumatlar, Quba ziyalıları barəsində, müasir Quba haqqında maraqlı eksponatlar sərgi zallarını bəzəyir. Qədim mədəniyyət mərkəzlərindən olan Qubaya aid elmi-tarixi məlumatlar ekspozisiyada nümayiş etdirilir. Bu səpgili məlumatlar, əşya və materiallar AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyində, AMEA-nın Milli Azərbaycan Ədəbiyyatı Tarixi muzeyində, L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyində, bir sıra dünya muzeylərində, şəxsi kolleksiyalarda dünya əhəmiyyəti kəsb edir və Azərbaycan tarix və mədəniyyətinin çox qədimliyini, zənginliyini, dünyəviliyini təsdiq edir.

2006-cı ilin dekabrında fəaliyyətə başlayan Xaçmaz Xalça Muzeyi yeni yaranmasına baxmayaraq çox qiymətli, tarixi, bədii əhəmiyyətli xalça nümunələri ilə zəngindir. Bu nümunələr bir daha təsdiq edir ki, Xaçmaz və ətraf kəndlər, rayonlarda qoyunçuluq, maldarlığın inkişafı, bədii yaradıcılığa meyllilik, tarixən dünyəvi ticarət əlaqələrinin xalçaçılıqda öz əksini tapmasından xəbər verir. Eyni zamanda ekspozisiyada nümayiş etdirilən xalçaların bir hissəsi Quba növünə aid olmaqla, elmi baxımdan simmetrik bəzək mexanizminə malikdirlər. Artıq muzeydə 500-dən artıq eksponat - xovlu və xovsuz xalçalar ekspozisiyada tamaşaçı ixtiyarına verilmişdir.

Muzeydə nümayiş etdirilən xalça nümunələri nəinki rayonun, ətraf bölgələrdən gələn insanların, hətta çoxlu xarici ölkə vətəndaşlarının böyük marağına səbəb olmuşdur.

Xaçmaz rayon Döyüş Şöhrəti Muzeyində (1976) İkinci Dünya Müharibəsində 9000-ə yaxın insanın iştirak etməsi, onlardan 3000 nəfərindən çoxunun qayıtmaması, torpaqlarımızın azadlığı uğrunda yalnız Xaçmazdan 227 nəfərin şəhid olması, 209 Milli Qəhrəman haqqında tarixi əhəmiyyətli eksponatlar nümayiş etdirilir. Muzeydə 1000-ə yaxın eksponat ekspozisiyada nümayiş etdirilir. Köməkçi fondda 1500-dən

artıq eksponat saxlanılır. Muzey ətraf rayonların muzeyləri ilə qarşılıqlı əlaqədə fəaliyyətini davam etdirir.

Qubanın qədim Xınalıq kəndində yerləşən Xınalıq Tarix-Etnoqrafiya Muzeyi zəngin eksponat fonduna malikdir. Tədqiqatçı alim S.Əmirxanov Xınalıq haqqında gözəl təsvir vermişdir: «Şimaldan Şahdağ, Şimal-Şərqdən Qızıl Qayada yerləşən Heydər zirvəsi, Şimal-Qərbdən Tufan zirvəsi, Cənub-Qərbdən Qiblə dağı ilə əhatə olunmuş qədim Xınalıq... Ötən qərinələr "şəhərləşən", "qəsəbələşən", "yenidən şəhərləşən" Xınalıq... Qubanın qədim yaşayış məskənlərindən biri kimi, 4 minillik tarixi olan, dəniz səviyyəsindən 2300 metr yüksəklikdə yerləşən Xınalıqda hazırda 1500 nəfərə qədər əhali yaşayır. Maldarlıqla məşğul olan Xınalıq camaatının bir neçə minillik tarixi ənənəsi var. Maddi mədəniyyətlə yanaşı, mənəvi mədəniyyət nümunələri, qədim adət-ənənələr də qorunub saxlanmışdır» (178, s.5).

Qədim mədəniyyət məskənlərindən biri olan Xınalıq özü səma altında açıq muzeydir. Uca dağların ətəyində yerləşən bu kəndin hər daşında sanki qədim bir sirli tarix yaşayır. Bir neçə yüzillik yaşayış evlərini seyr etdikcə keçmişdə bu kənddə baş verən şirinli-acılı hadisələrin izlərini görür, əsrlərlə növbələşə-növbələşə, mərhələ-mərhələ ulu bir tarix yaşandığını duşunürsən. Kəndin əhatəsində olan çox qədim qəbiristanlıqlar, türbələr, qədim qəbirüstü abidələr, daşlar üzərindəki yazılar bu kəndin uzaq tarixini "seyr etməyə" imkan yaradır.

Bu yerin tarixi və mədəniyyətinin çox cüzi bir hissəsini özündə cəmləşdirən və kəndin mərkəzi hissəsində yerləşən Xınalıq Tarix-Etnoqrafiya Muzeyini 2001-ci ildə kənd ağsaqqalı Xəlil-Rəhman Abdürrəhman oğlu yaratmışdır. Xəlil-Rəhman Cabbarov camaatın köməyi ilə kolleksiya yığmış və muzeydə cəmləşdirmişdir. 160 kvadrat metrlik iki zaldan ibarət olan bu muzey, sanki "Muzey içərisində muzey"dir.

Ekspozisiyada eksponatlar qarışıq yerləşdirilmişdir. Muzeyin binası qədim qalanı xatırladır.

Xınalığın digər yaradıcı adamlarının və şairlərinin əsərləri də maraq doğurur. Birinci zaldakı eksponatlar arasında qoyun bağırsağından toxunmuş, XIX əsrə aid kilə, müxtəlif taxıl ölçən üçün səbətlər kəndin taxılçılıqla məşğul olduğundan xəbər verir. Kətan parçalar və digər geyim əşyalarının işlənilməsində istifadə edilən qədim alətlər kolleksiyası da Xınalıqda parça, xalça istehsalının mövcudluğunu sübut edir.. biçinçilikdə istifadə olunmuş müxtəlif ölçülü oraq nümunələri diqqəti cəlb edir. Çarıqlar və digər ayaq geyimləri Xınalıqda dəri məmulatlarının istehsalını göztərir. Müxtəlif ölçülü kotan ucluqlar əkinçiliyin inkişafına sübutdur. Ekspozisiyada XVII-XIX əsrlərə aid dəvə və at üzəngiləri də var. At buxovları, yabalar və digər kənd təsərrüfatı nümunələri XVIII-XIX əsrlərə aiddir.

Maraq doğuran nümunələr içərisində XVIII-XIX əsrlərə aid müxtəlif ölçülü, üzərində təsvirləri olan xurcunlar, həbbələr, namazlıqlar, corablar, uşaq geyimləri, qurşaqlar, pul kisələri təbii rənglərlə boyanmış, yundan toxunmuşdur.XIX əsrə aid daş ütülər də diqqətçəkəndir. Çox nadir əşyalar sırasında XIX əsrə aid saz Xınalığın orta əsrlərə aid musiqi mədəniyyəti nümunəsi kimi qəbul edilir.

Zalın baş tərəfində qədim, nadir əlyazmalar və daşbaşmalar nümayiş etdirilir. XII-XIX əsrlərə aid zəngin kitab kolleksiyası tarixi, dini, təbiət, etnoqrafiya, dil baxımından əhəmiyətlidir. Bu əsərlər içərisində bədii ədəbiyyat nümunələri də vardır. Bu mənbələrdən bir daha aydın olur ki, ayrı-ayrı dövrlərdə Xınalıq əhalisi müxtəlif mərkəzlərin məktəb və mədrəsələri, elm ocaqları ilə əlaqələr yaratmış və eyni zamanda Xınalığın özündə də belə məktəb və mədrəsələr fəaliyyət göstərmişdir.

Eksponatlar arasında XVII-XVIII əsrlərə aid təqvimlər də nümayiş etdirilir ki, bu da Xınalıqda astronomik müşahidələr aparıldığını təsdiq edir. Nümunələr içərisində məişət əşyalarını, yorğan-döşək yığmaq və atla aparmaq üçün XIX

əsrə aid məfrəş diqqəti cəlb edir. Məlumdur ki, belə məfrəşlərdən həm yaxın, həm də uzaq yerlərə müxtəlif məqsədlərlə səyahətlər zamanı, kömək məqsədi ilə də istifadə edilirmiş. Muzeydə XVIII-XIX əsrlərə aid misdən hazırlanmış müxtəlif ölçülü samovarlar qorunur. Çox təəssüf ki, samovarları düzəldən ustaların adları əks etdirilməmişdir. Burada müxtəlif tarixi dövrlərə aid kağız pullar və sikkələr də nümayiş etdirilir. XX əsrə aid ağacdan hazırlanan kilə eksponatlar sırasındadır.

XVIII-XIX əsrlərin Xınalıq zərgərləri, dəmirçiləri və duluzçular tərəfindən zəngin bəzəklər həkk edilmiş mis zəncirlər, sinilər, kəfkirlər, qaşıqlar, camlar, süzgəclər, sərpuşlar, məcməyilər, parçlar, həvəngdəstələr, saxsı küplər, dolçalar maraqlı bədii sənətkarlıq nümunələridir. Saxsıdan hazırlanmış çıraqlar, dolçalar, camlar 500-600 illik tarixə malikdir. XIX əsrə aid dəstəmaz almaq üçün mis ləyən, XVII əsr ustaları tərəfindən hazırlanmış mis qazanlar, səhənglər ekspozisiyanı daha da zənginləşdirir.

XV-XVIII əsrlərə aid daş kitabələr isə dərin maraq doğurur. Qəbirüstü abidələrdə öz əksini tapan belə yazılar bir daha göstərir ki, Xınalıqda qədim xəttatlıq mədəniyyəti də olmuşdur. Bu eksponatlar içərisində naqanlar, tüfənglər, müxtəlif ölçülü qılınclar, xəncərlər, nizə ucluqları XV-XVII əsrlərə aid digər silahlar xüsusi ilə diqqəti cəlb edəndir.

Muzeydə Xınalığın İkinci Dünya müharibəsi iştirakçılarının və qəhrəmanlarının təltif edildiyi medallar da toplanıb. Bu muzeyin kolleksiyalarına əlavə ediləcək külli miqdarda Xınalıq nümunələri mövcuddur, lakin təəssüf ki, bir çox dəyərli nümunələr, qədim daş kitabələr, məişət əşyaları və digər zinət əşyaları kənarda qalıb. Muzey binasının genişləndirilməsi və eksponatların mütəxəssislər tərəfindən toplanması vacibdir. Yeni muzey binasına və mütəxəssislər qrupuna ehtiyac var.

Şimal bölgəsinin muzey quruculuğu və muzeyşünaslığı bir neçə amillə əlaqədardır. Birincisi, Xəzər dənizi ətrafı olması qədim dənizçilik əlaqələrinin mövcudluğundan xəbər verir.

Ikincisi, qoyunçuluğun, maldarlığın geniş inkişafı digər sənət sahələri ilə bərabər yun istehsalı, xalçaçılıq, dulusçuluğun da inkişafına təkan vermişdir ki, muzey quruculuğu və muzeyşünaslıqda bu, əhəmiyyət kəsb edir. Üçüncüsü, ləzgilər, tatlar və digər azsaylı xalqlarla qarşılıqlı əlaqəlilik adət-ənənələrin yaxınlaşması, incəsənətin qarşılıqlı inkişafında səbəb olmuşdur.

Beləliklə, Azərbaycanın Şimal bölgəsi muzeylərinin bir hissəsinin timsalında muzey quruculuğu və muzeyşünaslığımızın inkişafı əhəmiyyətli bir sıra başlığa tələblərin yerinə yetirilməsinin məqsədəmüvafiq hesab edirik:

1. Azərbaycanın Şimal bölgəsi, şəhər və rayonları qədim tarixə, mədəniyyətə malik olduğundan, orada mövcud olan abidələrin, muzeylərdə toplanılan əşya və eksponatların araşdırılmasına muzeylərində elmi-tədqiqat işlərinin aparılmasına böyük ehtiyac duyulur.

2. Coğrafi mühit və şəraitin, digər ölkə ilə qonşuluq əlaqələri zəminində digər xalqlarla qarşılıqlı tarixi-mədəni, iqtisadi-sosial, təsərrüfat əlaqələrindən yaranan əşya və eksponatların beynəlxalq əhəmiyyətli nöqteyi-nəzərindən təbliği hazırda mühüm əhəmiyyət kəsb edir. Mətbuat və informasiya vasitələri ilə həmin nümunələrin sistemi təbliğinə əhəmiyyət verilməlidir.

Azərbaycanın şimali-qərb zonası dağlıq və dağətəyi ərazilər olduğundan burada da heyvandarlıq, kənd təsərrüfatı inkişaf etmişdir. Bu ərazilərdə - Şəkidə, Zaqatalada, Qəbələdə, Oğuzda, Qaxda, Balakəndə əsrlərlə əlaqəli inkişaf uyğun xarakterə malik olmuşdur. Eyni zamanda kənd təsərrüfatında, heyvandarlıqda, ipəkçilikdə, üzümçülükdə əlaqəli inkişaf mövcud olmuşdur. Bütün bu cür amillər, mövcud mənbələr muzey quruculuğu və muzeyşünaslığın təşəkkülü, inkişafında həlledici mərhələyə çevrilmişdir.

Şəki Tarix-Diyarşünaslıq Muzeyinin ekspozisiyasında şəhərin və şəhərətrafı ərazilərin, qəsəbə və kəndlərin qədim tarixi və mədəniyyəti, sənayesi və kənd təsərrüfatını əks etdirən

eksponatlar nümayiş etdirilir. Azərbaycan elmi, mədəniyyəti, ədəbiyyatı, incəsənətinin nəsillərə ötürən ziyalılar, alimlər, maarifçilər, dramaturqlar, bəstəkarlar, musiqişünaslar, ədəbiyyatşünaslar və digər sənət sahiblərinin həyat və yaradıcılığından bəhs edən əşya və eksponatlar ekspozisiyada ardıcıllıqla, tarixi xronologiya üzrə sistemləşdirilmişdir.

İpəkçilik, dulusçuluq, zərgərlik, saxsı istehsalı, ağac emalı sənayesinin tarixinə aid maraq doğuran əşyalar nümayiş etdirilir. Muzeydə toplanmış nümunələr-dekorativ-tətbiqi sənət əşyaları, misgərlik, dəmirçilik, məişət əşyaları ilə bağlı eksponatlar həm Şəki, həm də İsmayıllı, Lahıc, Şamaxı, Qax, Oğuz, Qəbələ ustalarına da aiddir.

Şəki Xanlarının Saray Kompleksi, Karvansaray binası, qala divarları, qədim şəhər qalıqları, milli ornamentli orta əsr memarlıq abidələri sanki bütöv memarlıq ansamblı yaratmışdır.

Azərbaycan tarix və mədəniyyətinin keçmişini və bu gününü nümunələrdə əksetdirən muzeylər içərisində Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin özünəməxsus yeri vardır. Muzeyin ekspozisiyası bizim eramızdan əvvəl III-II əsrlərdən başlamış, bu günə qədərki, yəni 2300 illik bir dövrü əhatə edir. Muzeydə təqribən eramızdan əvvəl IV əsrlərdə formalaşan Qafqaz Albaniyasının paytaxtı Qəbələ şəhərində arxeoloji qazıntılar zamanı aşkarlanan eksponatlar nümayiş etdirilir. Böyük tarixi-mədəni əhəmiyyətə malik həmin eksponatlar muzeydə mövzu əhəmiyyətinə görə tarixi ardıcıllıqla 10 şöbəyə yerləşdirilmişdir.

Ekspozisiyada orta əsrlərə aid xalq sənətinin ən zərif, incə növlərindən biri olan xalçaların yerləşdiyi xalçaçılıq bölməsi tamaşaçıda daha çox maraq oyadır. Burada eyni zamanda xalça dəzgahları, dəzgah üzərində göz oxşayan və təbii rənglə boyanmış saplar, yun əyirmək üçün istifadə olunan cəhrə tamaşaçıda müvafiq təsəvvürlər yaradır. Yerli əhali tərəfindən muzeyə bağışlanan qədim xalçalar böyük maddi və mənəvi dəyərə malikdir.

Otuz il rus ordusuna xidmət edərək general-mayor rütbəsinə ucalan, Azərbaycan tarixində yalnız hərbçi kimi deyil, həm də yazıçı, naşir, səyyah, coğrafiyaşünas, kənd təsərrüfatı istehsalçısı kimi də tanınan İsmayıl bəy Qutqaşınlının həyat və yaradıcılığını, keçdiyi həyat yolunu əks etdirən xatirə ev-muzeyi 4 otaqdan ibarətdir. Bu otaqlarda arxiv sənədləri, əlyazmalar, mebel, məişət əşyaları, xatirələr, foto-şəkillər nümayiş etdirilir.

Ekspozisiyanın birinci otağında İsmayıl bəy Qutqaşınlının uşaqlıq və yeniyetməlik illərində mütaliə etdiyi Şərqin böyük fikir bahadırları Firdovsinin, Ömər Xəyyamın, Nizami Gəncəvinin, Xəqaninin, Nəsiminin, Vidadinin, Vaqifin portretləri nümayiş etdirilir. Birinci vitrində ədibin hərbi xidmətinə dair sənədlərin surətləri, ədibin təltif olunduğu orden və medalların, mükafatların siyahısı nümayiş etdirilir.

Ikinci otaq xatirə otağıdır. Burada İ.Qutqaşınlıya məxsus eksponatlar, xatirə əşyaları toplanmışdır. İ.Qutqaşınlının general-mayor hərbi geyimi daha böyük maraqlıdır. Otaqda eyni zamanda İ.Qutqaşınlıya məxsus yazı ləvazimatı – qələm, qələmdan, mürəkkəb qabı, zərf üçün kağız,1836-cı ildə nəşr olunmuş rusca-fransızca lüğət nümayiş etdirilir. Ikinci şüşə vitrində İ.Qutqaşınlıya və onun arvadı Bikəyə məxsus olan xəncər, qılınc, xəncər qını, pistolet, qadın baş əşyası, qolbağ nümayiş etdirilir.

Sağ tərəfdə divarda İ.Qutqaşınlının qardaşlarının torpaq sənədləri asılmışdır. Stol və kreslo İ.Qutqaşınlıdan bu günlərədək qalmışdır. Stolun üstündə saat və Firdovsinin "Şahnamə" əsərinin mülyajı vardır. İ.Qutqaşınlının fotoşəkil- portreti bizə çatmamışdır. Lakin Azərbaycan xalq rəssamı, SSRİ Dövlət Mükafatı laureatı Kazım Kazımzadə müvafiq tarixi materiallara istinad edərək onun portretini işləmişdir. Digər üç rəssamlıq işi də onundur. Bunlar İ.Qutqaşınlının "Rəşid bəy və Səadət xanım" əsərinə çəkilmişdir.

İ.Qutqaşınlının vaxtilə çox zəngin kitabxanası olmuşdur.

O, Azərbaycanın dili-ndən savayı rus, fars, ərəb, türk, polyak dillərini bilirdi və kitabxanasında da həmin dillərdə kitablar saxlayırdı. Siz qədim kitab rəfində Azərbaycanca, rus, ərəb, fars, fransız kitablar görürsünüz. Kitabxanada əlyazma kitabları da vardır.

Üçüncü otaq yataq otağı adlandırılır. Burada XIX əsrin birinci yarısı üçün xarakterik olan məişət avadanlıqları toplanmışdır. XIX əsrdə hazırlanmış və bu günədək salamat qalmış taxt, sandıq, güzgü, asılqan, kitab rəfi, mücrü diqqəti cəlb edir.

Dördüncü otaqda kütləvi tədbirlər üçün muzeyin ekspozisiyasının davamı həyata keçirilir. Burada Azərbaycan generallarının və ədiblərinin fotoşəkilləri və kitabları nümayiş etdirilir. Onlar hərbçi və yazıçı İ.Qutqaşınlının mənəvi varisləri kimi təqdim olunur.

Tez-tez kütləvi tədbirlər həyata keçirilir. Ismayıl bəy Qutqaşınlının Xatirə ev-muzeyinə gələn tamaşaçıların şayı günbəgün çoxalır. Burada artıq 600-ə yaxın eksponat toplanmışdır. Deməк olar ki, onların hamısını yerli əhali və respublikamızın görkəmli alimləri muzeyə bağışlamışdır.

14 mindən çox eksponatı olan Zaqatala Tarix –Diyarşünaslıq Muzeyindən daş dövründən bu günə qədərki dövrü əhatə edən əşyalar saxlanılır. Muzeyin ekspozisiyasında qədim təsərrüfat alətləri, orta əsrlər kənd təsərrüfatında işlədilən alətlər, ustalar tərəfindən orta, əsrlər və müasir dövrə qədər ki, illəri əhatə edən dulusçuluq, saxsı, şüşə qablar, keramika məmulatı, əkin-biçin alətləri, kotanlar, vəllər, xış nümunələri nümayiş etdirilir. Ayrı-ayrı yerli ustalar tərəfindən hazırlanmış mis qablar-məcməyi, sərkiz, sərpuş, müxtəlif ölçülü qazanlar, kəfkirlər, sinilər, dolçalar, camlar, qaşıqlar, su qabları, səhənglər və sair böyük maraq yaratmışdır. Misdən hazırlanan bu camlar, qazanlar, sinilər, kəfkirlər, süzgəclərin üstündə hazırlayan ustaların adları və hazırlanan işlər göstərilmişdir.

Ekspozisiyanın mərkəzi hissəsində kişi və qadın geyimləri, bəzək əşyaları, boyunbağılar, bilərziklər, toqqalar, kə-

mərlər, gümüşdən hazırlanmış zinət əşyaları nümayiş etdirilir.

Orta əsrlər dövrü silah növləri, XVIII-XX əsrlərə aid silahlar, nizələr, qılınc və qalxanlar, tüfənglər, tapançalar da ekspozisiyada tamaşaçı marağı yaradır. Zaqatalanın kəndlərindən, yaşayış yerlərindən toplanan həmin əşyalar bu ərazilərdə qədim insan məskənlərinin olmasını bir daha təsdiq edir.

Hər daşında canlı bir tarix yatan, əsrlərlə öz qonaqpərvərlik və təbii gözəlliyinə görə dünya səyyahlarını valeh edən qədim Qax torpağı XIX əsrə məxsus 17 məscidi, Axund baba məqbərəsi, Həsən qalası, Samu qalası, Pəri qalası və sair mədəni abidələri ilə fəxr edə bilər. 1979-cu ildə "heç nədən" yaradılmış tarix ölkəşünaslıq muzeyi, 1980-cı ildə tarix-diyarşünaslıq muzeyi kimi fəaliyyətə başladı.

Muzeydə hal-hazırda 11678 ədəd tarixi və elmi əhəmiyyətə malik eksponat mühafizə, tədqiq və təbliğ olunur. Bu eksponat Azərbaycanın və onun dilbər guşəsi olan Qax rayonunun 3000 illik tarixindən soraq verir. Eksponatların 302 ədədi arxeoloji materiallardır.

Muzeyin ekspozisiyası salonlar üzrə 9 bölgüyə ayrılır:

- Qax rayonunun təbiəti və abidələri;
- Qax – qədim dövrdə;
- Qax - orta əsrlərdə;
- Qax – tarixin yeni dövründə, xanlıqlar və İlisu sultanlığı;
- Qax Rus imperiyasının müstəmləkəsidir;
- Qax kommunist rejimində;
- Qax – hərbi vətənpərvərlik tərbiyəsi, Azərbaycanın hərb tarixi;
- Müstəqilliyə gedən yol;
- Müstəqil Azərbaycan.

Muzey tamaşaçılara ən qədim dövrlərin abidələrini təqdim edir. Qafqaz Albaniyası dövlətinin qədim istehkamları olan və rayonun ərazisində yerləşən Ləkit və Qum məbədləri xüsusilə maraq doğurur. Ən qədim yaşayış məskənləri olmuş

həmin ərazilər, eləcə də "Torpaq qala" yaşayış yerindən tapılmış və ev-məişət əşyaları nümunələri muzeyin həmin guşəsində nümayiş etdirilir. Orta əsr Azərbaycanlı kəndlisinin evi, onun həyat tərzi əks etdirilmiş otaq həqiqətən xalqımızın maraqlı keçmişindən xəbər verir.

Muzeyin xüsusi guşəsində nümayiş etdirilən rayon ərazisindəki ən nadir ağacların 21 növü, meşə, dağ və çay süxurları, 60-a yaxın ən əhəmiyyətli təbii dərman bitkiləri nümunələri, heyvan və quş müqəvvaları, xüsusilə gözəl sənətkarlıqla işlənmiş dağ mənzərəsinin maketi hər bir tamaşaçıda rayonumuzun təbiəti haqqında xoş əhval-ruhiyyə oyadır. Bundan başqa Alban dövlətinin məşhur sərkərdəsi Cavanşirin və Babəkin rəngli boya ilə çəkilmiş portretləri və həmin dövrün silah və pul nümunələri tamaşaçılarda qəribə duyğular oyadır.

Muzeydəki diqqəti cəlb edən eksponatlardan biri də böyük türk şairi Yunus İmrənin portreti və onun Qax rayonunun Onçallı kəndindəki qəbrinin şəklidir. Rəsm muzeyinin tərtibatçısı rəssamı Nasir Əzimovdur.

Orta əsr Azərbaycanlı kəndlisinin evi, onun həyat tərzi əks etdirilmiş otaq həqiqətən xalqımızın maraqlı keçmişindən xəbər verir.

Muzeydə Qax sözünün mənasından tutmuş, onun keçdiyi inkişaf yolları ilə yanaşı, elm və mədəniyyət xadimlərinin, alimlərin həyatının işıqlandırılmasınadək bütün faktlar, sənədlər və materiallar toplanmışdır.

Yaxın keçmışımızın qaranlıq səhifələri repressiya illərini əks etdirən sənədlər, eləcə də 1918-1920-ci illərdə yaşamış Azərbaycan Demokratik Respublikası və bu dövlətin yaradıcısı M.Ə.Rəsulzadə haqqında tamaşaçılar ətraflı məlumatlar ala bilirlər. Bundan başqa, muzeydə öz vətəninə, xalqına, dövlətinə sədaqətlə xidmət edən həmyerlilərimiz Cəlal Məmmədov, Həşin Əfəndiyev, Baba Qabulov və Əhməd Rəcəbli haqqında ümumiyyətlə azadlıq uğrunda mübarizə aparan qaxlıların mübarizə yolu işıqlandırılmışdır.

Ağır repressiya illəri Qax rayonundan yan keçməmişdir. Repressiyanın qurbanları haqqında məlumat və arxiv sənədləri xalqın həqiqəti bilməsi naminə muzeydə qorunub saxlanılır.

Böyük Vətən müharibəsində rayonumuzdan neçə-neçə igidlər şəhid olublar. Belə ki, müharibənin ilk günlərindən sonunadək 4850 nəfər cəbhəyə getmişdir, ağır müharibə illərində misilsiz qəhrəmanlıqlar göstərmişlər. Bütün bunlar haqqında ətraflı məlumatı tamaşaçılar muzeydəki eksponatlardan ala bilərlər.

Şəhidlərə həsr etdiyimiz ayrıca bölmədə şənbə gecəsinin faciəsi inandırıcı faktlarla əks etdirilmişdir. Bütün bunları göstərməkdə məqsədimiz, ancaq və ancaq həqiqətin xalqa çatdırılmasıdır.

Muzeyin sovet dövrü bölməsindən tamaşaçılar Qax rayonunun sənaye obyektləri və istehsalat müəssisələrinin iş prinsipi və məhsulları ilə tanış olurlar. Milli musiqi alətlərindən olan "qazan-tar" da ekspozisiyada nümayiş etdirilir.

Beləliklə, Balakən-Qəbələ zonasında fəaliyyət göstərən bir neçə muzeyin timsalında muzey quruculuğu və muzeyşünaslığın inkişafında əhəmiyyəti olan amillər və başlıca tələblər mövcuddur. Araşdırmalardan məlum olmuşdur ki, müxtəlif tarixi dövrlərə aid əşya və məlumatlar, memarlıq nümunələri bu ərazilərdə qədim yaşayış məskənlərinin olduğunu təsdiq edir. Bu əşya və nümunələr yerli insanlar tərəfindən ərazilərdən, kənd və qəsəbələrdən toplanmışdır. Bu ərazilərdə hazırlanan əşya və nümunələr qonşu xalqların, ölkələrin insanlarının diqqətində olduğundan, Rusiya və Gürcüstan muzeylərində də bəzi milli nümunələrə rast gəlinir.

Muzeyşünaslığın inkişafı istiqamətində aşağıdakı vacib başlıca tələblər AMEA və müvafiq nazirliklər tərəfindən nəzərə alınması məqsədyönlüdür:

1. Bu ərazilərdə əsaslı arxeoloji qazıntıların aparılması və əşyalar üzərində tədqiqatların həyata keçirilməsi, əldə edilən elmi məlumatların muzeylərlə qarşılıqlı əlaqəli təbliği.

2. Muzey binalarının işıq və istilik sisteminin, fond fəaliyyətinin keyfiyyətinə diqqətin artırılması.

3. Yeni texnologiyanın tətbiqinin vacibliyi.

4. Muzey kataloqlarının hazırlanmasının və tətbiqinin vacibliyi.

Şamaxıda qədim və orta əsrlər dövrünə aid zəngin əşya və eksponatlarla zəngin S.Ə.Şirvani adına Tarix-Diyarşünaslıq Muzeyinin ekspozisiyasında müdriklər, ziyalılar, şair və yazıçılar, şəxsiyyətlərə aid, antik dövr və orta əsrlərə qədərki, orta əsrlər və müasir dövr sənətkarlığını əks etdirən nümunələr nümayiş etdirilir. Muzeydə ayrı-ayrı dövrlərə aid sənətkarlıq nümunələri, zinət əşyaları dekorativ-tətbiqi sənət əsərləri, Şamaxının ayrı-ayrı tarixi dövrlərindən bəhs edən çox dəyərli əşyalar qorunur, nümayiş etdirilir. Şamaxı sənətkarlarının yaradıcılığını zinət əşyaları, dulusçuluq nümunələri, geyimlər, qadın bəzək əşyaları nümunəsində əks etdirən eksponatlar maraq doğurur. Muzeydə 3000-dən artıq eksponat nümayiş etdirilir.

Muzeydəki orta əsrlərə aid eksponatlar da yerli əhalinin məişəti barədə aydın təsəvvür yaradır. Müxtəlif rəngli çıraqlar, şərab qabı və naxışlarla bəzədilmiş saxsı qablar diqqəti cəlb edir. Oyma sənətimizin gözəl örnəkləri bənzərsiz forma həllinə və ifadə tərzinə görə göz oxşayır. Xüsusilə, üzərində yazı olan məzar daşı, şərtiliyi ilə seçilən, lakonik biçimdə işlənmiş qoç başı və öküz heykəli neçə-neçə adsız ustadın sənət yadigarıdır.

Şəhərin tarixi ilə bağlı olan eksponatlar-XIV-XIX əsr, Şamaxı qalasının açarları, XVIII əsrə aid möhürlər, XVII-XVIII əsrə aid silahlar, top, xəncər, XVIII əsrlə bağlı xış, bürünc samovar da muzeyin baxımlı əşyalarındandır. Muzeydə dünya şöhrətli Lahıc misgərlərinin misdən hazırladıqları, səthi incə naxışlarla işlənmiş və rəsmlərə bürünmüş iri şərbət qabı (XIX əsr), dəmirçilərin düzəltdikləri irili-xırdalı xəncərlər (VIII əsr), gümüş qadın kəmərləri (XIX əsr), Şirvan sənətkarlarının incə zövqündən xəbər verir.

Şamaxı ipəyi həmişə dünya bazarlarının bəzəyi olmuşdur. Son illər muzey əməkdaşlarının səyi nəticəsində muzeyə gələnlər nadir parça və tikmə məmulatları ilə tanış ola bilərlər. Məşhur "Heyratı" və "Ağ zəmin" kəlağayıları, piləli və zərli tikmələr belə nümunələrdəndir.

Muzeyin bu guşəsi çox zəngindir. Bura sanki təbiətin əlvan rəngləriylə bəzənmişdir. Dünyada məşhur Şirvan xalça və palazları, əlvan boyalarla zəngin olan xurcun və heybələr el sənətkarlarının geniş fantaziyasının, yaddaqalan rəng duyumunun məhsuludur.

Şamaxının dünəni haqqında söhbət açanda istər-istəməz yadımıza bu torpağın yetişdirdiyi söz sənətkarları- Xəqani, Nəsimi, S.Ə.Şirvani, M.Ə.Sabir, A.Səhhət, M.Hadi və başqaları düşür. Diyarşünaslıq muzeyində bu sənətkarların rəssamlar tərəfindən işlənmiş portretləri, əsərlərinin əlyazmalarının foto surətləri və əsərlərinə çəkilmiş illüstrasiyalar öz sərraflarının özünəməxsus dünyası haqqında az da olsa fikir yaradır. Muzeydə Böyük Vətən müharibəsində şamaxılıların böyük qəhrəmanlığından bəhs edən materiallar mövcuddur.

Ağsu Rayon Tarix-Diyarşünaslıq Muzeyinin binası ikimərtəbəli olmaqla gümbəz formasındadır. Birinci mərtəbə üç salondan ibarətdir. Ikinci mərtəbə 60-80 $m^2$ sahəsi olan böyük salondur. Ümumiyyətlə muzeyin ekspozisiya şöbəsi 340 $m^2$ –dən artıqdır. Birinci mərtəbə ilə ikinci mərtəbəni ikitərəfli pilləkənlər birləşdirir.

Birinci mərtəbə foyedən başlayır. Foyedə Ağsu rayonu haqqında ümumi məlumatlar verilir. Muzeyin ekspozisiyasının birinci zalında rayonun fiziki-coğrafi şəraiti, flora və faunası, təbii sərvətləri barədə məlumat verilir. Ekspozisiyada qədim dövrdən başlayaraq XX əsrə qədərki bir dövrü əhatə edən materiallar nümayiş etdirilir. Rayon ərazisində əsaslı arxeoloji qazıntıların aparılmaması ilə əlaqədar muzeydə qədim dövrə aid o qədər də zəngin materiallar toplanmayıb. Yalnız təsadüfi tapıntılarla ekspozisiyanın bu zalı qurulmuşdur. Bütün bunları

nəzərə alıb köməkçi materiallardan, fotoşəkil və maketlərdən mövzunu tamamlamaq üçün istifadə edilmişdir.

Ekspozisiyanın ikinci zalında Ağsu bölgəsinin tarixində böyük əhəmiyyət kəsb edən "Şirvanşahlar dövləti" mövzusuna geniş yer verilir. Həmçinin "Yeni Şamaxı" mövzusuna da xüsusi yer ayrılıb. Bu bölmədə orta əsrlər dövrünə aid və Çar Rusiyası dövrünə aid eksponatları nümayiş etdirilir. Bunların arasında mis badyalar, sərcinlər, sinilər, samovarlar, çaynik, piyalə, qənddan, cam, tava, sərpuc, açar, teşt, abugərdan, üzəngi, taxta-dəmir kirgidlər, çar Rusiyası dövrünə aid gümüş pullar, dəmir-taxta tüfəng, dəri çarıq, dəmir maşa, çini kasa, dəmir kotan, vədaşı, araba çarxı, metal pul ("Yeni Şamaxı" xaraba şəhər adlı yaşayış məntəqəsindən tapılmışdır) qadın bəzək əşyaları və s. vardır.

Ekspozisiyanın birinci zalında 1918-1920-ci illər Azərbaycan Xalq Cümhuriyyəti 1919-cu il Azərbaycan Milli Hökumətinə aid pullar, sovet dövründə çıxan kağız və metal pullar, kolxozçulara aid fotoşəkillər, təbrik məktubları, vəsiqələr, fəxri fərmanlar, Böyük Vətən müharibəsi Veteranları haqqında məlumatlar, onların fotoşəkilləri, deputat vəsiqələri, Ağsunun "Birlik" və "Ağsu" qəzetlərinin nömrələri və s. nümayiş etdirilir.

Ekspozisiyanın üçüncü zalı ümummilli liderimiz cənab Heydər Əliyevin ölkəyə başçılıq etdiyi dövrlərdəki fəaliyyətinə və onun layiqli davamçısı Prezident İlham Əliyevin dövlətimizin müstəqilliyi yolunda gördüyü quruculuq işlərinə həsr olunmuşdur. Bu bölməni nəfis formada tərtib olunmuş fotoşəkillər, elmi və bədii əsərlər daha da zənginləşdirir.

İkinci mərtəbənin əsas hissəsi 1980-1990-cı illərin demokratik hərəkatına həsr olunmuşdur. Burada "Şəhidlər" bölməsində Qarabağ müharibəsində həlak olmuş Ağsu "Şəhidlər"i haqqında məlumatlar, onların döyüş yolu və fotoşəkilləri əks olunmuşdur. Muzeydə Ağsunun yaradıcı adamları haqqında da məlumatlar verilir, onların əsərləri saxlanılır. Ağsunun yaradıcı

adamlarından Respublikanın Əməkdar müəllimi Ağasəf Həsənovun tərcümeyi-halı, rayonun ilk müəllimlərindən olan Məsmə Atakişiyeva haqqında məlumatlar, coğrafiya elmləri doktoru, professor Ş.Həsənov, A.Mehbalıyev, C.Mirzəliyev, F.Osmanov, F.Xəlilov və başqaları haqqında məlumatlar, onların əsərləri Ağsu Tarix-Diyarşünaslıq Muzeyini daha da zənginləşdirir.

Göyçay Tarix-Diyarşünaslıq Muzeyi 1984-cü ildən fəaliyyətə başlamış və minlərlə tamaşaçının marağına səbəb olmuşdur. Digər muzeylər kimi GTDM-yi də maddi mədəniyyət abidələrinin kompleksləşdirilməsi, mühafizəsi, öyrənilməsi, kütləvi nümayişin həyata keçirilməsi işi ilə uğurla məşğul olur.

Hal-hazırda muzeyimizdə sayı 6000-ə qədər eksponat toplanmışdır. Tarixi və orijinallıq, mövzu cəhətdən bir-birindən fərqlənən eksponatların sayının gündən-günə artması və tamaşaçılarda maraq oyatması muzey işçilərinin fədakar əməyinin nəticəsidir. Muzeyin ekspozisiyasında qədim, orta əsrlərlə və sonları dövrlərə aid incəsənət nümunələri, kənd təsərrüfatında ayrı-ayrı dövrlərdə işlədilən müxtəlif alətlər, kişi və qadın geyimləri, bəzək əşyaları, müxtəlif silah növləri, mis qab-qaşıqlar və digər nümunələr nümayiş etdirilir.

Hacıqabul Rayon Tarix-Diyarşünaslıq Muzeyinin əşya və materialları iki iri zalda yerləşdiyindən, onlar tarixi prinsiplə-XIX əsrin sonuna qədərki və bundan sonrakı olmaqla iki yerə bölünmüşdür. Məhz 1880-cı illərdə Hacıqabul torpaqlarına dəmiryol nəqliyyatının çəkilişi ilə bu yerlərin siması əsaslı şəkildə dəyişdiyindən, həmin illər muzey üçün də ayırıcı tarix kimi götürülmüşdür. Rayonun ərazisində yerləşən tarixi abidələr – Pir Hüseyn xanəgahı, Şah Abbas karvansarayı, Udulu uçuq piri, ovdanlar muzeydə maddi-mədəniyyət nümunələri, eləcə də rəsm və fotolarla nümayiş etdirilir.

Səhəng, sərinc, parç, aftava, məcməi, sini, həvəng, çıraq, kəfkir, maşa, qənddoğrayan kimi metal, kürə, çıraq, bardaq tipli saxsı, cəhrə, yəhər, kürək tək taxta eksponatlar – qədim

dövr zalının əşyalarının tam olmayan siyahısı belədir.

Yeni dövr zalında isə rayon dəmiryolunun tarixçəsi, ədəbiyyat, incəsənət, elm, idman, hərb, mətbuat, təhsil və digər sahələrdə rayondan çıxmış görkəmli ayrı-ayrı stendlərdə əks olunacaq.

Təbiət guşəsində rayon ərazisindəki Kür, Pirsaat çayları, Hacıqabul yolu, dağ və meşə massivləri, bu yerlərin heyvan və bitki aləminin mümkün qədər zəngin təmsil olunması planlaşdırılır.

İmişli Rayon Tarix-Diyarşünaslıq Muzeyindən rayonun zəngin flora və faunası, heyvan və quşların müqəvvaları, bitkilər aləmi də nümayiş etdirilir. Burada rayonun tarixi keçmişinə aid maddi-mədəniyyət materialları çoxluq təşkil edir. Işıqlı və böyük otaqların birində qədim və orta əsrlərin qiymətli yadigarları – gil və saxsı qablar, zərgərlik məmulatları, hər santimetrinə qırx ilmə vurulmuş canamaz xalçası, "sehrli" sandıqça, aynalı tüfəng, musiqi alətləri, saxsı qab, görkəmli dövlət xadimi, xalqımızın fəxri N.Nərimanovun şəxsi qolu olan pullar, görkəmli inqilabçılarımızın silahları və sair tamaşaçıların diqqətini xüsusilə cəlb edir.

Vətəndaş müharibəsi illərində daxili və xarici ağ qvardiyaçılarla döyüşlərdə qəhrəmanlıq göstərən, Voroşilov tərəfindən qol saatı ilə mükafatlandırılan cəsur Paşa Rəhman oğlu Abayevin fotoşəkli, pasportu, həmkarlar bileti və digər qiymətli sənədlər ekspozisiyada nümayiş etdirilir.

Faşist Almaniyası ilə ağır müharibə illərini xatırladan eksponatların hər biri canlı kitabdır. Muzeyin Böyük Vətən müharibəsində İmişli rayonundan iştirak edən 4.047 döyüşçüsünün igidliyini, qəhrəmanlığını əks etdirən guşəsi "İmişli rayonu Böyük Vətən müharibəsi illərində" adlanır. Imişli rayonunun iqtisadiyyatını və mədəniyyət sahəsindəki nailiyyətlərini əks etdirən "İmişli bu gün" foto-panoramı da xüsusi maraq doğurur. Panoramda son iki beşillikdə tikilmiş əzəmətli obyektlərin, görülmüş nəhəng işlərin və rayonun tanınmış

nümayəndələri ilə səmimi görüşləri öz əksini tapıb.

Muzeyin binasını inşa edən Muradxanlı-neft 5 nömrəli tikinti idarəsi öz simvolik açarını, neft buruğu Muğan SES-in fəhlələri SES-in, televiziya ötürücü stansiyasının fəhlələri teleqülənin, lokomotiv deposunun fəhlələri isə parovoz, teplovoz və elektrovoz model və maketlərini muzeyə hədiyyə etmişlər. Tanınmış heykəltəraş N.Zeynalovun "Pambıqçı qız" büstü də belə hədiyyə eksponatlardandır.

Sabirabad Rayon Tarix-Diyarşünaslıq Muzeyi 600 kv. metrlik sahədə yerləşməklə 6 ekspozisiya zalından ibarətdir. 6000-dən artıq eksponata malik olan bu muzeyin ekspozisiyasının forma və məzmunu daim yeniləşdirilir, müstəqil və suveren Azərbaycan respublikasında gedən sosial-siyasi proseslərlə əlaqələndirilir, rayonun qədim dövrlərdən bugünədək olan tarixini əks etdirən sərgi və guşələr yeni eksponatlarla zənginləşdirilir.

Sabirabadın tarixi və mədəniyyətini əks etdirən eksponatlarla bərabər, müasir dövrə aid əşya-eksponatlar nümayiş etdirilir. Son illərdə müstəqil və suveren Azərbaycan Respublikasında demokratik dövlət quruculuğunun mühüm mərhələlərini, ölkə prezidenti möhtərəm H.Əliyevin yorulmaz diplomatik fəaliyyətini, milli ideologiyamızın və gənclərin siyasi təfəkkür mədəniyyətinin inkişafındakı xidmətlərini əks etdirən eksponatlardan təşkil edilmiş "Müstəqil Azərbaycan" və "Azərbaycan XX əsrdə nailiyyətləri" adlı divarboyu sərgilərə və otaq-guşələrə daha çox tamaşaçı baxışı qeydə alınmışdır. İftixar hissi ilə qeyd edilməlidir ki, Ulu Öndər rayonumuzu 15 dəfə ziyarət etmiş və hər dəfə də zəhmət adamları ilə, əməkçilərlə, ağsaqqallarla, ziyalılarla səmimi, yaddaqalan görüşlər keçirmişdir. Həmin illərin yaşantılarını əks etdirən fotoşəkillər, sənədlər, xatirələr, "H.Əliyev Sabirabadda" adlı sərgidə və otaq-guşədə nümayiş etdirilir. 1978-ci ildə rayonumuzda "Döyüş şöhrəti" otağının açılış mərasimində iştirakı zamanı Azərbaycan Respublikasının rəhbəri Heydər Əliyevin səmimi

ürək sözlərini yazdığı "Fəxri kitab" muzeyimizin dəyərli eksponatları sırasında qorunub saxlanılır.

Beləliklə, Şirvan ərazisi muzeylərinin fəaliyyətindən aydın olmuşdur ki, milli muzey quruculuğunun, muzeyşünaslığımızın inkişafı istiqamətində bir sıra başlıca tələblərin yerinə yetirilməsi məqsədyönlüdür:

1. Muzeylərarası elmi qarşılıqlı əlaqəliliyin önə çəkilməsi vacibdir. Zona muzeylərinin kompleks fəaliyyət mexanizminin həyata keçirilməsi vaxtı çatmışdır.

2. Muzey əşyalarının elmi-tədqiqi və əldə edilən elmi məlumat və faktların yerli mətbuatda və digər informasiya vasitələri ilə insanlara çatdırılması və bununla muzeyə, tarix və mədəniyyətimizə maraqların artırılmasına nail olmaq.

3. Muzeylərin müasir texniki vəsaitlə təmini və fond işinin qorunma, saxlanma mexanizminin elmi şəkildə aparılmasına nail olunması.

4. Ayrı-ayrı muzeylərimizdə vaxtaşırı Respublika Muzey müşavirələrinin təşkili.

Azərbaycanın Qərb zonası muzeyləri içərisində Gəncə, Qazax, Ağstafa və Gədəbəy tarixini, mədəniyyətini ayrı-ayrı əşyaların, eksponatların timsalında qoruyan, təbliğ edən muzeylər mövcuddur. Gəncədə ən qədim yaşayış mühitindən xəbər verən Gəncə Rayon Tarix-Diyarşünaslıq Muzeyi bölgənin ən zəngin muzeyidir. Bizim eradan əvvəlki tarixi dövrləri və bizim eranın başalanğıcından bu günə qədərki dövrləri əks etdirən çox nadir kənd təsərrüfatı alətləri, əşyaları, müxtəlif cür döyüş sursatı, bəzək, zinət nümunələri, kişi və qadın geyimi nümunələri və s. ekspozisiyada nümayiş etdirilir. Onların böyük bir qismi Yakob Hummelin Göygöl (keçmiş Xanlar) rayonu ərazisində apardığı arxeoloji qazıntılardan aşkar olunmuşdur. Ekspozisiyada eksponatlar tarixi ardıcıllıq və mövzuya uyğun qoyulmuşdur. Lakin burada da ekspozisiya avadanlığının yenilənməsinə və bəzi dəqiqləşdirmələrə ehtiyac vardır.

Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu

ilə əlaqədar abidələr Hökumət evi, Milli Şuranın iclasının keçirildiyi bina, Gəncə körpüsü, Avropa oteli, Nağı Şeyxzamanlının evi və s. bizdə böyük maraq doğurdu. Hökumət evinin binasında indi Gəncə Kənd təsərrüfatı Akademiyası Muzeyi yerləşir. Muzeydə kənd təsərrüfatının tarixi ənənəsini göstərən arxeoloji və etnoqrafik materiallar da nümayiş etdirilir.

Ağstafa Rayon Tarix-Diyarşünaslıq Muzeyinin ekspozisiyasında rayon ərazilərinin ayrı-ayrı tarixi dövr mühitlərini əks etdirən maraqlı eksponatlar nümayiş etdirilir. Qədim daş alətlər, zərgərlik və zinət əşyaları, sosial-məişət məmulatları, geyim nümunələri, təsərrüfat alətləri, dulusçuluq nümunələri, saxsı qablar və digər əşyalar nümayiş etdirilir. Rayonun ziyalıları, şəhidləri, müharibə qəhrəmanlarından bəhs edən eksponat və məmulatlar da maraq doğurur.

Gədəbəyin tarixi keçmişinin öyrənilməsi milli adət və ənənələrinin qorunması, hərbi vətənpərvərlik hisslərinin yeniyetmə-gənclərə aşılanması rayon Tarix-Diyarşünaslıq Muzeyinin müstəsna rolu vardır. Ekspozisiya bölmələr əsasında qurulmuşdur.

Təbiət bölməsində - Gədəbəyin zəngin təbiətini əks etdirən bitki və torpaq nümunələri, daş süxurları öz ifadəsini tapır. Qədim dövr bölməsində eramızdan əvvəl XVII-VII əsrləri əks etdirən arxeoloji nümunələr, tunc bəzək əşyaları, küpələr, xəncər və sair nümayiş etdirilir. Orta əsrlər bölməsində orta əsr saxsı qabları xüsusi maraq doğurur.

XIX əsr bölməsində Gədəbəydə miz zavodunun inşası, alman Simens qardaşlarının gördüyü işlər, zavodunun tikilməsi, su elektrik stansiyası, dəmiryolu, qazıntı zamanı Gədəbəy maddi mədəniyyət nümunələrinin Almaniyaya daşınması haqqında əldə olunan “Qalakənd” kitabı, “Gədəbəy - XIX əsr” fotoşəkillər və s. göstərilir.

XX əsrin əvvəli, 20-40 illər M.Ə.Rəsulzadənin hakimiyyəti illərinə aid nümunələr- yazılı məlumatlar, əşyalar həmin

dövr haqqında geniş təsəvvür yaradır.

1941-1945- Böyük Vətən müharibəsi illəri;

Müharibədən sonrakı dövr-dinc quruculuq illəri;

1969-83 -cü illər. H.Əliyevin hakimiyyəti dövrü;

1988-1993-cü illər erməni faşizminin Azərbaycanda yeritdiyi vəhşiliklər, soyqırım, 20 yanvar, cəbhə bölgəsində çəkilən fotoşəkillər, kitablar, başımıza yağdırılan qrand mərmiləri.

Müstəqillik illərinə aid bölmədə Ulu Öndər Heydər Əliyevin hakimiyyəti illərinə aid çox zəngin kolleksiyalar nümayiş etdirilir. Muzeydə "Gədəbəy alim və şairləri", "Gədəbəy incəsənət ustaları" guşəsi, "Şəhidlər guşəsi" zövqlə təşkil olunub. Gədəbəy mədəniyyətinin bir hissəsini təşkil edən məişət əşyaları: nehrə, arı dodu, xəmir təknəsi, müxtəlif oyma üsulu ilə yonulmuş çömçə, kəfkir, qaşıq, əl işləri, mis qablar - səhəng, səmic, satıl, samovar, camlar, piyalələr, qor üstüsü, qara çıraq və digər nümunələr ayrı-ayrı dövrlər haqqında dolğun məlumat verir.

Dəyirmanda işlədilən vəl, ölçü üçün ovuc (saat), şana, əl kürəyi, dırnaq, kənd təsərrüfatı alətləri olan- xış, boyunduruq, araba, araba təkərləri, sənətkarlar tərəfindən toxunmuş heybə, cicim, xurcun, qaşıqlıq, kilim, toxuculuq alətləri – cəhrə, daraq, kişkir və sair kimi eksponatlar bütövlükdə rayonun tarixi-mədəniyyəti, mübarizliyi, qəhrəmanlığını bir daha sübut edir.

Qazax Rayon Tarix-Diyarşünaslıq Muzeyinin ekspozisiyasının başlanğıcında divarda rayonun relyefini nəfis xəritəsi canlanır. Bu nəfis xəritə ilk baxışda tamaşaçıda əvvəlcə xoş əhval-ruhiyyə yaratmaqla bərabər, ilkin əyani məlumat kimi böyük maraq yaradır. Ekspozisiyadakı 5 min yaşlı daş insan fiquru, damcılı mağarası və Göyəzən dağından tapılmış saxsı qablar, silahlar, geyim və məişət əşyaları, Damcılı, Əskipara məbədlərinin dəqiq işlənmiş maketləri çox zəngin tarixi dövrlərdən xəbər verir.

Təvədöy (Xramçay) üzərində XII əsrə aid sınaq körpü

zisiyası vardır. Muzeyin ekspozisiya sahəsi 114,2 kv.metrə qədər genişlənmişdir. Birinci, etnoqrafik otaqda Həzi Aslanovun ailəsinə mənsub əşyaları nümayiş etdirilir. Ikinci zal hərbi məktəb illəri, üçüncü zal Moskva və Stalinqrad uğrunda gedən döyüşlər, dördüncü zal Belorusiya və Pribaltika uğrunda döyüşləri, beşinci zal –xatirə zalıdır. Xatirə zalında qəhrəmanın şəxsi geyimləri, muzeyə verilən hədiyyələr nümayiş etdirilir.

Muzey eksponatlarının ümumi sayı 1862 ədəddir. Bunlardan 264 ədədi əsl, 1598 ədədi elmi köməkçi eksponatlardır. Son vaxtlar qəhrəmanın uşaqlıq və döyüş illərini əks etdirən fotoşəkilləri tapılmışdır. Həmin orijinal şəkillər "Etnoqrafiya", "Hərbi məktəbdə təhsil illəri", "Moskva-Stalinqrad uğrunda döyüş", "Pribaltika uğrunda döyüş" və "Xatirə zalları"nda, bölmələrində toplanmışdır.

Bölgənin zəngin muzeylərindən hesab edilən Astara Rayon Tarix-Diyarşünaslıq Muzeyi əsasən üç şöbədən ibarətdir: təbiət, sovet dövrünə qədərki və sovet dövrü şöbələri. Təbiət şöbəsində olan eksponatlar rayonun fiziki-coğrafi şəraiti, flora və faunası, təbii sərvətləri haqqında tamaşaçıda geniş təsəvvür yaradır. Burada, Astara ərazisində yetişdirilən tərəvəz və sitrus bitkiləri, təbiət lövhələri, müqəvvalar, şəkillər, diaqramlar, meşə ağaclarından nümunələr və s. Diqqəti cəlb edir.

Sovet dövrünə qədərki şöbədə isə ictimai-iqtisadi formasiyaların inkişaf qanunauyğunluqlarını, habelə ictimai-siyasi hadisələri və inqilabi hərəkatları əks etdirən sənədlər və əşyalar nümayiş etdirilir. Bu şöbədə olan eksponatlar həm də rayonun daş dövründən tutmuş dəmir dövrünə qədər ulu babaların həyatından, məişətindən, məşğuliyyətindən xəbər verir. Ekspozisiyada yerləşdirilən mis, daş, tunc, dəmir, saxsı və ağac məmulatlar bizim eradan əvvəl neolit dövründən tutmuş əsrimizin ikinci on illiyinə kimi bir dövr haqqında müəyyən təsəvvür oyadır. Muzeydə nümayiş etdirilən xış, giv, dinc, daşdan hazırlanmış xəmir açan, saxsı qablar, su kuzələri, ağacdan hazırlanan müxtəlif əşyalar, o cümlədən qadınlara aid olan

zinət əşyaları, qədim musiqi alətləri, məişətdə istifadə olunan məmulatlar ulu keçmişimizin canlı şahidi kimi nümayiş etdirilirlər.

Bu şöbənin feodalizm guşəsində feodal münasibətlərinin meydana gəlməsi, zəhmətkeşlərin feodal asılılığı, sinfi mübarizənin güclənməsi, xalq hərəkatı, Azərbaycan xalqının xarici müdaxiləçilərə qarşı mübarizəsi, rus dövləti ilə münasibətlərin yaxşılaşdırılması, təhkimçilik hüququnun süqutuna aid eksponatlar mövcuddur.

Dördüncü salonda 1918-1920-ci illərlə bağlı material və məmulatlar bu illərdəki dəyişikliklər Astara rayonunun timsalında verilmişdir.

Beşinci salon Böyük Vətən Müharibəsinə həsr olunmuşdur. Burada üç nəfər astaralı Sovet İttifaqı Qəhrəmanı – Ziya Bünyadov, Mirzə Cəbiyev, İlya Kaverin, üç Şöhrət ordenli Ağahəsən Nehmət və Rəhmət Hətəmovun keçdikləri şanlı döyüş yolları haqqında maraqlı eksponatlar cəmlənmişdir. Altıncı salonda Azərbaycanın iqtisadi, mədəni, elmi-texniki nailiyyətləri, sülh uğrunda mübarizə mərhələlərlə verilmişdir.

Lerik Rayon Tarix-Diyarşünaslıq Muzeyi 6 otaqdan ibarət binada fəaliyyət göstərir. Muzeyin ekspozisiyası 6 bölmədən ibarətdir və ümumilikdə 3700-dən artıq eksponat nümayiş etdirilir. Ekspozisiya tarixi xronoloji ardıcıllıqla tərtib edilmişdir və antik dövrdən başlanmış, bugünə qədərki tarixi mərhələlər ayrı-ayrı nümunələrin timsalında təqdim edilir. Lerikin flora və faunası, kənd təsərrüfatı alətləri, kişi və qadın geyimləri, paltar bəzəkləri, qadın bəzək əşyaları, zərgərlik nümunələri, musiqi alətləri, saxsı qablar, misdən hazırlanmış məişət qab-qacaqları, əkinçilikdə istifadə edilən ağac xış, vəllər, su səhəngi, sərpuş, qazanlar, camlar, aşsüzənlər, kəfkirlər, ləyənlər və digər nümunələr nümayiş etdirilir. Gümüşdən hazırlanmış qadın bel kəmərləri, boyunbağılar və digər zərgərlik əşyaları da tamaşaçıda böyük maraq yaradır. Muzeyin ekspozisiyası milli ruhda, yerli ənənələrə müvafiq tərtib edilmişdir.

XX əsrin 60-90-cı illərində yubileylərə, hərbi-vətənpərvərlik tərbiyəsinə, qəhrəmanlığa, Azərbaycan miniatür sənətinə, Qarabağa həsr edilmiş, eyni zamanda gənc rəssamların yaradıcılığından bəhs edən respublika sərgilərinin keçirilməsinə də ciddi diqqət yetirilirdi. Belə sərgilər muzeylərlə bərabər, həm də sərgi salonlarında da təşkil edilirdi ki, bunun mühüm muzeyşünaslıq əhəmiyyəti olmuşdur. Azərbaycan Dövlət Rəsm Qalereyasında və V.Səmədova adına Sərgi Salonunda "Sovetlər ölkəsi" təsviri sənət sərgisi (24, s.6-7), Bakıda keçirilən "Naxçıvan günləri" münasibətilə Naxçıvan rəssamlarının əsərləri sərgisi (153, s.3), BMT-nin İnkişaf Proqramı çərçivəsində Azərbaycan Rəssamlarının sərgisi (41), Uşaq Bədii Yaradıcılığı Qalereyasında açılmış "Müharibə uşaqların gözü ilə" sərgisi (125), miniatür sənətimizin bu gününə aid İçəri şəhərdə açılmış "Miniatür-89" sərgisi (168), Şah İsmayıl Xətai və onun dövrünə aid R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində açılmış ekslibris sərgisi (167), İkinci Dünya Müharibəsində alman faşizmi üzərində qələbənin 50 illiyinə həsr olunmuş sərgi (111), Özbəkistan rəssamlarının yaradıcılığına həsr edilmiş dostluq sərgisi (122), Novruzu vəsf edən əsərlərdən ibarət sərgi (98), S.Bəhlulzadə adına Sərgi Salonunda təşkil edilmiş "Könlüm keçir Qarabağdan..." (212), "Xalq sənəti və özünə məxsusluq" (469) mövzularında, Respublika Gününə həsr edilmiş (226) sərgilər dövrün tələblərinə uyğun təşkil edilsə də, yaradıcılığın qiymətləndirilməsi əsas meyar olmuşdur. V.Səmədova adına Sərgi Salonunda təşkil edilmiş gənc rəssamların yaradıcılığı sərgiləri (479, 288, 289, 290, 291, 209), Azərbaycan Dövlət Şəkil Qalereyasında qəhrəmanlığa (241,431), bədən tərbiyəsi və idmana (12,119), əmək tərbiyəsinə (237) həsr edilmiş sərgilərə tamaşaçı tərəfindən yüksək qiymət verilmişdir.

Araşdırmalardan məlum olmuşdur ki, birincisi, muzeylər digər sərgi salonları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərdikdə daha yüksək keyfiyyət əldə edilmişdir; ikincisi, sərgi salonları

fəaliyyət üçün "müvəqqəti" fəaliyyət mənbəyi olduğundan tamaşaçı yenə də muzeyə üz tutmalı olur; üçüncüsü, sərginin kompleks təsir gücü ilə tamaşaçıya təqdimi ancaq muzey mühiti vasitəsilə verilir; dördüncüsü, ekspozisiyaya daxil olmazdan qabaq muzey mühiti tamaşaçını ekspozisiyada seyr üçün tam hazır vəziyyətə gətirmək gücünə malikdir.

Bakı şəhərinin və ayrı-ayrı rayonların müxtəlif profili 138 muzeyinin 1670 nəfər əməkdaşı ilə aparılan sorğu nəticəsində məlum olmuşdur ki, 1993-2010-cu illər ərzində respublika muzeylərinin sərgi-ekspozisiya fəaliyyəti artmış, Azərbaycan Tarixi-mədəni irsinin öyrənilməsində eksponatların gücündən yetərincə istifadə edilir. Bakı şəhəri, Gəncə, Lənkəran, Qax, Zaqatala, İsmayıllı, Şuşa, Şəki, Qazax, Bərdə, Şamaxı, Kəlbəcərin müxtəlif profilli muzeylərində sərgilərdə iştirak edən yeniyetmə gənclərdən ibarət 18.500 və 18.900 nəfər seyrçi ilə sınaq təcrübəsindən əvvəl və sonra keçirdiyimiz sorğu göstərdi ki, bu sahədə nəzərə çarpacaq müsbət dəyişiklik əmələ gəlmişdir (cədvəl 14).

Cədvəl 14.

| Elmi-bədii keyfiyyətlər | Eksperiment-sınaq təcrübəsindən əvvəl sorğuda iştirak edənlərin sayı-18.500. Ayrı-ayrı məsələlərə münasibətini bildirənlər | Eksperiment-sınaq təcrübəsindən sonra sorğuda iştirak edənlərin sayı-18.900. Ayrı-ayrı məsələlərə münasibətini bildirənlər |
|---|---|---|
| Tarix və incəsənətimizə münasibətlərini bildirənlər | 7.200 39 % | 16.470 87 % |
| Yaşadıqları ərazinin incəsənətinə münasibət bildirənlər | 5.200 28 % | 17.350 91% |
| Müxtəlif bədii yaradıcılığı növlərilə maraqlananlar | 6.100 32 % | 18.200 96 % |
| Son dövr incəsənətimizlə bağlı maraqların öyrənilməsi | 4.035 21 % | 15.000 79 % |

1-ci göstərici üzrə suallar:

1. Azərbaycanın qədim tarixi haqqında qısaca nə deyə bilərsiniz?

2. Milli bədii sənətkarlıq nümunələri haqqında nə bilirsiniz?

3. Rayonumuzun tarix və mədəniyyətinə münasibətimiz necədir?

4. Azərbaycan incəsənətinin növləri hansılardır?

5. Milli folklorumuz haqqında nə bilirsiniz?

2-ci göstərici üzrə suallar:

1. Yaşadığınız ərazidəki muzeydə hansı dövr sənətkarlığı sizi maraqlandırır?

2. Yaşadığınız ərazidəki muzey əsasən hansı nümunələri ilə zəngindir?

3. Yaşadığınız ərazinin tarixi haqqında nə bilirsiniz?

4. Milli incəsənətimizin təşəkkülü haqqında nə deyə bilərsiniz?

5. Milli kişi və qadın geyimləri və bəzək əşyaları haqqında nə bilirsiniz?

3-cü göstərici üzrə suallar:

1. Bədii-estetik təsir vasitələri haqqında nə deyə bilərsiniz?

2. İnsanda hansı bədii keyfiyyətlərin daha çox olmasını istərdiniz?

3. Hansı bədii yaradıcılıq növünə daha çox üstünlük verirsiniz?

4. Son dövr incəsənətinə münasibətiniz?

5. Həyat tərzinin daha mənalı olması üçün hansı mədəni tələbat növlərini arzulayırsınız?

4-cü göstərici üzrə suallar:

1. Son bir ildə tarix və mədəniyyətimizlə bağlı hansı ədəbiyyatları oxumusunuz?

2. Son bir neçə ayda mədəniyyətimizlə, incəsənətimizlə

bağlı hansı foto-albomlar əldə etmisiniz?

3. Hansı müğənnilərə daha çox üstünlük verirsiniz - milli yoxsa əcnəbi müğənnilərinə?

4. Hansı musiqi janrını daha çox sevirsiniz?

5. Hansı növ xalçalar tanıyırsınız?

Göründüyü kimi, müxtəlif profilli muzeylərin sərgi-ekspozisiyası ilə müntəzəm tanışlıq yeniyetmə gənclərin elmi-bədii görüşlərini inkişaf etdirir, onlarda yaradıcılığa həvəsi daha da artırır ki, bu da problem baxımından mühüm əhəmiyyət kəsb edir. Buna görə də muzeylərimiz müasir dövrün tələbatına uyğun mövzularda sərgilərə daha çox üstünlük verməlidir. Bundan ötrü yeniyetmə gənclər arasında vaxtaşırı muzey işçiləri tərəfindən marağa görə sorğular aparılmalı, buna müvafiq mövzulara müraciət edilməli, nəinki yeniyetmə gənclərdə, müxtəlif yaş qrupu və müxtəlif peşə sahiblərində böyük maraq oyadan sərgilər təşkil edilməlidir.

### 4.2. Müxtəlif muzey tədbirlərinin səmərəliliyinin artırılmasında vacib başlıca tələblərin əhəmiyyəti

Müxtəlif muzey tədbirlərinin təşkili bir tərəfdən, muzeyin hərtərəfli inkişaf mexanizminə malik olduğunu təsdiqləyir, digər tərəfdən isə, muzeyin sonrakı inkişafını daha da sürətləndirir, yeni tamaşaçı tələbatına uyğun mexanizmin təyin edilməsilə nəticələnir.

Azərbaycan muzeylərinin fəaliyyətləri üzrə aparılan müşahidələr göstərmişdir ki, muzeydaxili və muzeydənkənar tədbirlərin keyfiyyət göstəricisi:

- muzey mühitinin əhatəliliyi, muzeyin böyüklüyü, kiçikliyindən;
- muzeyin yerləşdiyi coğrafi şəraitdən;
- muzeyin elmi-yaradıcı potensialının dünya görüşündən, əməkdaşların bilik, bacarıq, vərdiş və təcrübələrindən, peşəkarlığından;

- əşya və eksponatların zənginliyindən;
- muzey rəhbərliyinin təcrübəsindən;
- muzey qurumlarının daxili qarşılıqlı fəaliyyət mexanizmindən;
- muzeyin beynəlxalq əlaqələrindən;
- muzeyin muzeyətrafı, muzeydənkənar mühitin elmi-yaradıcı potensialının gücündən istifadə mexanizmindən, yəni muzeyin muzeyətrafı mühitlə səmərəli qarşılıqlı əlaqəli fəaliyyətindən;
- müasir texnologiyanın tətbiqi dinamikasından;
- muzey tərəfindən fəaliyyətin tədqiqi, qiymətləndirmə və özünü qiymətləndirmədən və sairdən asılıdır.

Araşdırmalardan məlum olmuşdur ki, Bakı şəhərində yerləşən AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyi, AMEA-nın N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi, R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi, C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi, Azərbaycan Dövlət Musiqi Mədəniyyəti Muzeyi, "Şirvanşahlar Sarayı Kompleksi" Dövlət Tarix-Memarlıq Qoruq-Muzeyi, Azərbaycan İstiqlal Muzeyi, Gəncə, Şəki, Lənkəran, Zaqatala, Naxçıvan, Gədəbəy, Mingəçevir, Şuşa, Kəlbəcər, Astara, İsmayıllı, Quba tarix-diyarşünaslıq muzeylərinin və digər muzeylərin yerləşdiyi mühit muzeyin əhatəli fəaliyyətini tələb edir. Belə muzeylərin tamaşaçısı hərtərəfli biliyə malik olduğuna görə muzeyin fəaliyyətindən də razı qalmasını arzulayır. Buna görə bu cür tələbkar tamaşaçı tərəfindən muzeylərin qarşısında da müvafiq başlıca tələblər qoyulur. Lakin bu o demək deyildir ki, ucqar rayon və qəsəbələrin ev-xatirə muzeyləri, həmçinin nisbətən məhdud eksponat fondu ilə fəaliyyət göstərən tarix-diyarşünaslıq muzeyləri məhdud fəaliyyət göstərirlər. Ölkəmizin hər rayon və şəhərinin qədim tarixi və zəngin əşya-eksponatları mövcuddur. Buna görə də muzeydaxili və muzeydənkənar hər hansı tədbirin təsir gücünə diqqət yetirilməlidir,

ayrı-ayrı yaş qruplu insanlarda maraqlar yaradılmalıdır.

Yuxarıda göstərilən muzey fəaliyyətinin keyfiyyət göstəricisi amilləri eyni zamanda biri-biriləri ilə sıx qarşılıqlı əlaqədə olmaqla, biri digərsiz mövcud deyildir. Həmin amillərin kifayətliyi, yaxud azlığı muzey fəaliyyətinin keyfiyyətilə düz və ya tərs mütənasibliyi ilə büruzə verilir.

Araşdırmalardan məlum olmuşdur ki, AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyi, AMEA-nın N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi, R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi, «Şirvanşahlar Sarayı Kompleksi» Dövlət Tarix-Memarlıq Qoruq-Muzeyi, Azərbaycan Dövlət Musiqi Mədəniyyəti Muzeyinin geniş Beynəlxalq əlaqələri, Amerika, Almaniya, Macarıstan, Türkiyə, Rusiya və digər ölkələrdə təşkil edilən regional muzey konfranslarında, simpoziumlarda, beynəlxalq sərgilərdə iştirakları həmin muzeylərə və ölkə mədəniyyətinə nüfuz gətirməklə, eyni zamanda da çox böyük məsuliyyət hissini artırır. Muzey əməkdaşlarının daim öz üzərlərində işləmələrini tələb edir.

Hər muzey bu gün öz ziyarətçilərini axtarır, inkişaf yollarını müzakirə edir. Əlbəttə, burada təşəbbüs, müasir qiymətləndirmək, vəziyyətdən çıxış yolu tapa bilmək, onlara maddi yardım edə biləcək təşkilatlarla iş aparmaq böyük rol oynayır. İCOM Milli Komitəsi, Sorosun qrantı ilə Azərbaycan muzeyləri arasında beynəlxalq təcrübəni təbliğ etmək üçün muzeylərarası birlik yaratmışdır. Bu birliyin ilki isə Bakı muzeylərini təqdim edən "Bakı Muzeyləri" bələdçisidir. Muzeylərarası birliyin üzərinə sadəcə muzey menecmenti və marketinqi üzrə təkliflərin hazırlanması, konkret layihələrin həyata keçirilməsi işi düşmür, eyni zamanda, birlik seminarlar, treninqlər və digər tədris formalarının təşkilini də nəzərdə tutur. Məsələn, L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin eksponatların nümayişi üçün elmi, ekspozisiya şöbəsi, ekskursiya və mühazirələrin aparılması

məqsədilə elmi-kütləvi sərgi işi şöbələri fəaliyyət göstərir.

Muzeyin xarici əlaqələri də çox genişdir. Belə ki, o, İngiltərə, Fransa, Almaniya, Avstriya, ABŞ, Yaponiya, Hindistan, Macarıstan və digər ölkələrin muzeylərində öz sərgilərini təşkil edir.

Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin Vaşinqtondakı Tekstil Muzeyi, Londondakı Viktoriya Alberto adına Muzeyi, həmçinin Parisdəki Luvr Muzeyi, Nyu-Yorkdakı Metropoliten, Tehrandakı Xalça Muzeyi, İstanbuldakı Türk Islam Əsərləri Muzeyi, Sankt-Peterburqdakı Etnoqrafiya Muzeyi və digər muzeylərlə geniş-elmi əlaqələri mövcuddur. Ayrı-ayrı muzey tədbirləri muzeydə mövcud olan eksponatlara əsasən təşkil edilir. Görüşlər, gecələr, olimpiadalar, disputlar, sual-cavab saatları, dəyirmi masalar, muzey mühazirələri, viktorinalar, söhbətlər və sair tədbirlər elmi-mədəni, maarifçilik, tədqiqatçılıq, vətənpərvərlik, qəhrəmanlıq, incəsənətin ayrı-ayrı sahələrinin öyrənilməsi, təbliği, etik, estetik təsirlərin yaradılması və digər istiqamətləri əhatə etməklə yüksək mənəvi, elmi-yaradıcı, təşəbbüskar, emosional hislər yaratmalıdır. Tarix və mədəniyyətimizə muzey eksponatı prizmasından elmi-nəzəri, təcrübi amillərin köməyi ilə daxil olmaq və lazımi informasiyanı əldə etmək digər amillərin də gücündən istifadə olunmaqla əldə edilir. Hər bir muzey həm mədəniyyət, həm də maarif müəssisəsidir. Buna görə də ali və orta məktəblərdə təhsil alan gənclərin tariximizin bir parçasını özündə yaşadan, onun zəngin eksponatlarla yaddaşlarda möhkəm qalmasını təmin edən muzeylərdə olması vacibdir. Çünki muzey eksponatı qədər mənalı, təsiredici, yadda möhkəm qalan ikinci əyani vəsait yoxdur.

Muzeylərimizdə qədim tarixi dövrlər yaradıcılığına həsr edilmiş mövzular aktuallıq kəsb edir. Müharibə mövzusuna, vətənpərvərliyə, qəhrəmanlığa, mənəvi, estetik tərbiyəyə, incəsənətin ayrı-ayrı sahələrinə həsr edilmiş mövzular bu gün muzeylərimiz tərəfindən təşkil edilən tədbirlərin əsas məzmununu

təşkil edir.

Cəfər Cabbarlının ev-muzeyi təşkil etdiyi tədbirlərə görə 2008-ci ilin fəal muzeyi hesab edilmişdir. Həmin il bu muzey Bakı şəhəri Mədəniyyət və Turizm İdarəsinin mədəniyyət ocaqları arasında keçirdiyi müsabiqədə "Ən fəal muzey"i nominasiyası üzrə qalib olmuş, xüsusi diplomla mükafatlandırılmışdır. Bu mükafatlandırma muzey əməkdaşlarını daha da ruhlandırmaqla bərabər, gələcək perspektiv fəaliyyətin indidən səmərəli təşkili mexanizmini tələb edir.

Bakı şəhəri muzeyləri arasında yüksək elmi-yaradıcı nüfuza malik «Şirvanşahlar Sarayı Kompleksi» Dövlət Tarix-Memarlıq Qoruq-Muzeyi əhatəli, rəngarəng tədbirlərin təşkilində fərqlənir. Belə ki, Qoruq-Muzeyin bütün fəaliyyəti qüvvədə olan vəzifələrin həlli, yeni insan tərbiyəsi, hərtərəfli inkişafı və xalqın tarixi mədəniyyətinin sevilməsi işinə yönəldilmişdir.

Muzey bu məqsədlə kütləvi işin müxtəlif formaları olan ekskursiyalar, mühazirələr təşkil edir, məktəblər arasında əlaqə yaradır, rəngarəng sərgilər, kütləvi tədbirlər təşkil edir.

Rəngarəng iş formalarından istifadə edən muzey işçiləri müxtəlif vasitələrin köməyi ilə insanların mənəvi ehtiyaclarını öyrənir, onların ideoloji tərbiyəsində mühüm rol oynayırlar. Bunun üçün onlar müxtəlif tədbirlər planı işləyib hazırlayırlar.

Belə kütləvi tədbirlərin həyata keçirilməsində bir sıra təhsil ocaqlarının rolu danılmazdır. Bunlara misal olaraq Bakı Mədəni-maarif texnikumunu, Mədəniyyət və İncəsənət Universitetini, 36 saylı Nərimanov rayonu, 283 saylı Binəqədi rayonu, 42 saylı Nəsimi rayonu orta məktəblərinin göstərmək olar.

Artıq uzun illərdir ki, Bakı şəhəri üzrə bayram və təntənələr zamanı «Şirvanşahlar Sarayı Kompleksi» Dövlət Tarix-Memarlıq Qoruq-Muzeyi və onun filialları-"Qız qalası" və "Atəşgah"da "Açıq qapı" günü elan edilir. Həmin gün Qoruq-Muzeyə gələnlər üçün pulsuz ekskursiya xidmətləri göstərilir.

Əlamətdar günlər münasibəti ilə keçirilən tədbirlərə

mədəniyyət xadimləri, ictimaiyyətin nümayəndələri, məktəblilər dəvət olunurlar.

Respublikamızda qeyd olunan “20 Yanvar-Şəhidlər günü”, “26 Fevral-Xocalı soyqırımı”, “31 Mart-Azərbaycanlıların soyqırımı” günlərində də Qoruq-Muzeydə, ya da müxtəlif məktəblərdə bu faciə günlərinin yada salınmasında iştirak edir.

Qoruq-Muzeydə Milli bayramımız olan “28 May-Respublika günü”, “15 iyun -Milli Qurtuluş günü”, “18 oktyabr – Dövlət Müstəqilliyi günü”, “31 dekabr - Dünya Azərbaycanlılarının həmrəylik günü” və sair günlərdə də müxtəlif mövzularda da tədbirlər keçirir.

Lənkəranda qəhrəman Həzi Aslanovun ev-muzeyinin tədbirlərinə diqqət yetirdikdə məlum olmuşdur ki, hər il muzeyə 600-dək ekskursiya təşkil edilir. Yevlax, Gəncə, Şamaxı, Sumqayıt, Quba və sair rayonlardan muzeyə ekskursiyaya gələn məktəblilərə Həzi Aslanovun keçdiyi döyüş yolu haqqında geniş məlumat verilmişdir. Ev-muzeyin kollektivi il boyu müxtəlif tədbirlər keçirmişdir. Onlardan Böyük Vətən müharibəsi veteranlarının iştirakı ilə keçirilən “Yol verin, veteran gəlir”, “Siz onları yada salın”, Qarabağ veteranlarının iştirakı ilə keçirilən “İgid əsgər, möhkəm dayan”, məktəblilər üçün “Həzi burda doğulub”, “Müqəddəs ev” və digər tədbirləri göstərmək olar.

Lerik Rayon Tarix-Diyarşünaslıq Muzeyi hər il daha maraqlı geniş kütləvi tədbirlər təşkil edir. Muzey gənclərin asudə vaxtının təşkili, estetik tərbiyəsi, vətənə, xalqa, torpağa məhəbbət və mədəni irsə qayğı ruhunda tərbiyə edilməsi sahəsində ardıcıl və məqsədyönlü iş aparır. Yaşlı nəslin nümayəndələri, şəhid ailələri, Böyük Vətən və Qarabağ müharibəsi ailələri ilə gənclərin görüşləri təşkil edilir. Tarixi bayramlar, əlamətdar günlər, milli adət-ənənələrimiz, mədəniyyətimizin, incəsənətimizin təbliği ilə əlaqədar yaddaqalan tədbirlər hazırlanıb həyata keçirilir. Gənclərə yüksək hərbi vətənpərvərlik tərbiyəsi aşılamaq məqsədi ilə “Qarabağın qan yaddaşı”, “Milli

qəhrəmanlarımız", "Hərb tariximizdən" və sair sərgilər qarşısında söhbətlərdə "Keçmişini unudan xalqın gələcəyi yoxdur", "Güclü ordumuz var" və sair mövzularda ədəbi-bədii gecələrdə rayon hərbi komissarlığının, əmək və müharibə veteranları şurasının, əlillər cəmiyyətinin, Respublika Qadın Hüquqları üzrə Dövlət Komitəsi Sabirabad rayon şöbəsinin nümayəndələri, ziyalılar yaxından iştirak edərək, öz çıxışları ilə gənclərdə haqq işimizin qələbəsinə inam yaradır, onları şəhidlərimizin yolunun davamçıları olmağa çağırır.

Elmi-kütləvi işin müxtəlif forma və metodlarından istifadə etməklə milli-mənəvi dəyərlərimizin qorunması və təbliği ilə əlaqədar muzeydə və muzeydənkənar yerlərlə keçirilən sərgi və guşələr muzeylə-kütlələr arasında daha canlı əlaqə yaradır.

Muzey işi üzrə Respublika Elmi-Metodiki Mərkəzlə, digər şəhər və rayon muzeyləri ilə əlaqəli iş metodu, həmçinin onların təcrübələrindən bəhrələnmə prosesi müsbət nəticə verir. Respublikada, eləcə də rayonda muzeyin mədəni tədbirlərdə fəal iştirakı işin müsbət istiqamətə yönəlməsinə kömək göstərir.

Muzeyin ümumi fəaliyyəti, keçirilən sərgi və tədbirlər barədə məlumatlar qəzet və jurnallarda, radio, televiziyada nümayiş etdirilir və bütün bu nüsxələr "Muzey işinin təbliği" qovluğunda saxlanılır.

Rayon Tarix-Diyarşünaslıq muzeyləri hazırda çox güclü elmi-bədii, mədəni-tarixi gücə malikdirlər. Belə ki, keçmişin və bu günün həyat tərzinin, ictimai-siyasi, mədəni baxışların tarixi aspektdə, kompleks şəkildə öyrənilməsi, hər bir diyarşünaslıq muzeyinin vətənpərvərlik tərbiyəsi işinin təşkilində elmi baza hesab edilir.

Tarix-diyarşünaslıq muzeyləri əhalidə ideya-siyasi mədəniyyətin formalaşması prosesini, tarixi hadisələrin qavranılması və vətənpərvərlik hisslərini özündə ehtiva edən dünyagörüşün dərinləşməsi ilə əlaqələndirməklə zəngin informasiya mənbəyi kimi vacib əhəmiyyət kəsb edir. Bu mərhələlərdə əhalinin

müəyyən hissəsində, xüsusilə gənclərdə "elmi-nəzəri araşdırma sahəsində bacarıq və vərdişlərin formalaşmasında ilkin tədqiqatçılıq fəaliyyətlərinin genişlənməsində təsirli vasitədir. Bununla yanaşı bu profilli muzeylərimiz gənclərin peşələrə istiqamətlənməsində ayrı-ayrı elm sahələri üzrə biliklərin mənimsənilməsində böyük maraq oyadır.

Gəncə, Naxçıvan, Lənkəran, Mingəçevir, Qazax, Bərdə, Şəki, Şamaxı, Zaqatala, Kəlbəcər, Şuşa, Gədəbəy, Astara, İsmayıllı, Quba, Qax və digər rayonların tarix-diyarşünaslıq muzeylərinin fəaliyyətlərinin tədqiqi göstərmişdir ki, muzeylərimizdə keçirilən müxtəlif mövzularda, rəngarəng, kütləvi muzey tədbirləri yaş qrupu və peşələrindən asılı olmayaraq ölkəmizin tarix və mədəniyyətinin öyrənilməsi nöqteyi-nəzərindən güclü təsirə malik olmuş, bilik, bacarıq və vərdişlərin yaranmasında həlledici amil rolunu oynamışdır. Ayrı-ayrı bölgələrdə tarix-diyarşünaslıq muzeyinin 216 əməkdaşı ilə aparılan sorğudan məlum olmuşdur ki, yaşından və peşəsindən asılı olmayaraq tamaşaçıları ölkəmizin tarixi və incəsənəti maraqlandırır. Ayrı-ayrı rayon tarix-diyarşünaslıq muzeylərinə gələn 1836 nəfər seyrçi ilə aparılan sorğu da muzey əməkdaşlarının həmin fikrini təsdiq etmişdir. Eyni zamanda gənc tamaşaçıları daha çox orta əsrlər Azərbaycan bədii sənətkarlığı, həmin dövrlər yaradıcılığı nümunələrinin dünya muzeylərində təbliği, nümayişi, vəziyyəti, həmin nümunələrin yaranma mühiti, şəraiti maraqlandırmışdır.

Ümumiyyətlə, aparılan müşahidələr, müsahibələr göstərmişdir ki, müasir seyrçi yaşından və peşəsindən asılı olmayaraq çox tələbkardır, həm elmi-nəzəri, həm də təcrübi baxımdan zəngin informasiya mənbəyi olan muzeydən-güclü maddi və mənəvi tarixi-mədəni mənbə olan institutdan hərtərəfli elmi məlumatlar almaq arzusundadırlar. Bu nöqteyi-nəzərdən muzeydaxili və muzeydənkənar müxtəlif kütləvi tədbirlərin müasir tələblər səviyyəsində təşkili, yüksək keyfiyyət göstəricilərinin əldə edilməsindən ötrü aşağıdakı vacib başlıca tələblərin yerinə

yetirilməsi məqsədəmüvafiqdir:

1. Muzeyin yerləşdiyi coğrafi şərait, həmin ərazidə ayrı-ayrı tarixi dövrlərdə baş verən tarixi-mədəni hadisələri əks etdirən eksponatların ekspozisiyada təsir gücünü daha da artıran elmi informasiya vasitəsilə nümayişinə nail olmaq vacibdir.

2. Profillərindən asılı olmayaraq bütün muzeylərin əməkdaşlarının həm ümumi dünyagörüşləri, elmi bilikləri, muzeyşünaslıq əhəmiyyətli bacarıq və vərdişləri, həm də muzeyin profilinə uyğun, ekspozisiyaya müvafiq fərdi bilik, bacarıq, vərdişlərinin olması vacibdir. Bu, hər bir muzey rəhbəri, eyni zamanda muzeyin tabe olduğu yuxarı qurumun rəhbərliyinin daim diqqət mərkəzində olmalıdır.

3. Muzeyin eksponat fondu daim zənginləşdirilməli, yeni tapıntıların elmi araşdırmaları mütəmadi aparılmalı, zəngin informasiya seyrçi ixtiyarına verilməlidir. Bu prosesin müvafiq prinsiplər əsasında fasiləsiz yerinə yetirilməsinə muzey rəhbərliyi mütəmadi nəzarət etməlidir.

4. Bütün muzey rəhbərlərinin özlərinin bilik, bacarıq və vərdişlərinin təkmilləşdirilməsi, onların təcrübələrinin tətbiqinə də diqqət yetirilməlidir.

5. Muzeyin daxili qurumlarında əlbir fəaliyyət mexanizmi mühüm olduğundan, profillərindən asılı olmayaraq bütün muzeylərdə bu prosesə ciddi nəzarət vacibdir.

6. Muzeylər muzeyətrafı mühit və beynəlxalq əlaqələri yüksək səviyyədə təşkil etməli, təcrübə mübadiləsinə geniş yer verilməli, sərgi və tədbir mübadilələrinə diqqət artırılmalıdır.

7. Müasir muzey texnologiyasından maksimum istifadəyə daim diqqət yetirilməlidir.

### 4.3. Müasir texnologiyaların muzeyşünaslıqda əhəmiyyəti

Muzey texnologiyası müasir dövrdə muzey fəaliyyətinə yeni baxışlar sistemidir. Bu baxışlar sisteminə görə muzey

fəaliyyəti prosesində əvvəlkilərdən fərqli olaraq bütün sahələr üzrə texnolojiliyin əmələ gəlməsi prosesi baş vermişdir. Muzey fəaliyyətində XX əsrin II yarısına qədər müvafiq texniki vasitələrdən köməkçi vasitələr kimi istifadə edilsə də, artıq XX əsrin əvvəllərində texnikanın bu fəaliyyət sahəsinə aktiv nüfuz etməsi sürətli xarakter almağa başlamışdır. Lakin son onilliklərdə başqa sahələrdən fərqli olaraq muzey fəaliyyətində əsas sayılan insan amili (fərd) tərəfindən müəyyən tarixi dövrlər ərzində yaradılmış bədii sənətkarlıq nümunələri əsasında müvafiq texnoloji proseslərin tətbiqi sistemi yaradılır və bu sistem uşaq və yeniyetmələr, müxtəlif yaş qruplu peşə sahibləri üçün yaradıcılıq, həm də tədqiqat obyektinə çevrilir. Artıq digər elmlərdə olduğu kimi muzeyşünaslıqda da muzey texnologiyası və onun anlayışları yaranmağa başlamışdır. Proqramlaşdırma, informatika, kibernetika ayrı-ayrı sahələrə sistemli yanaşmalar muzey fəaliyyətində də texnologiyanın sistem halına düşməsinə səbəb olmaqdadır. Doğrudur, muzeyşünaslıqda texnoloji sistemlərdən ətraflı şəkildə bəhs etmək hələlik tezdir, çünki belə sistemlərin yaradılması ayrı-ayrı sahələrdə uzunmüddətli araşdırmalar tələb edir, tətbiqi proseslər vasitəsilə nəticələrin dəyərləndirilməsi, məqsəd və vəzifələrin yekununun qiymətləndirilməsi və sair vacib prosesə çevrilməlidir. Bir qrup insanlar düşünə bilərlər ki, muzeyşünaslıqda ayrı-ayrı muzey fəaliyyəti sahələri üzrə texnoloji sistemlər yaradılarsa, bu o deyilmi ki, gələcəkdə belə kompleks sistemlər vasitəsilə hər kəs bütövlükdə muzey tədbirlərinin mahiyyətini, məzmununu, yaxud sərgi-ekspozisiyanın təsvirini, hər hansı eksponatın görünüşü və bu barədə lazımi informasiyanı ekskursiyasız tam şəkildə əldə edə biləcəklər, muzeylərə gedişlər, sərgi-ekspozisiyalara baxışlar lazım olmaya da bilər. Bu, gələcək muzeyşünaslıq üçün çox "qorxunc" bir baxış olardı. Lakin yaddan çıxarmaq olmaz ki, əgər muzeyin bütün fəaliyyəti sayəsində kompleks şəkildə sərgi-ekspozisiya yaradılmasa, təbii ki, sonrakı texnoloji sistemlərin kompleks halında infor-

masiya bloklarında proqramlaşdırılmış mənbələr şəklində cəmləşdirilməsi qeyri-mümkün olardı. Yəni əyanilik, reallıq, əşyavilik, praktiklik olmasa, sonrakı mərhələlərdə onları informasiya şəklində nəzəri olaraq kompleksləşdirmək və məlumat bazası kimi ondan istifadə etmək qeyri-mümkün olardı.

Beləliklə, muzey texnologiyası dedikdə, fəaliyyətin ayrı-ayrı sahələri üzrə qabaqcadan təyin olunmuş xarakteristikalar üzrə kompüter proqramlaşdırılmalarının işlənib hazırlanması başa düşülür. Bundan başqa, praktiki planda muzey texnologiyası kimi muzey işçisi tərəfindən hər hansı bir texnoloji cəhətdən işlənib hazırlanmış metodlar, formalar, yollar, vasitələr sistemindən istifadə oluna bilər və bunun sayəsində müvafiq metodika hazırlana bilər, yeni texnoloji sahələr üçün baza yarana bilər və sair.

Texnologiyanın köməyi ilə həll olunacaq başlıca problem muzey fəaliyyətinin təşkili və idarə olunmasıdır. Təbii ki, yaradılanın, təşkil olunanın idarə olunması da mürəkkəb texnoloji prosesidir. "Qeyri-texnoloji" fəaliyyət prosesi nəticəsində "təşkil etmək" qeyri-mümkündür və təbii ki, "qeyri-müəyyənliyin" öyrənilməsi də mümkün olmazdı və bunun da idarə edilməsindən danışmağa dəyməz.

Fəaliyyət prosesində muzeyin qarşıya qoyduğu ümumi məqsədə müvafiq olaraq ayrı-ayrı bölmələrin, şöbələrin məqsədləri təyin edilməli və bu məqsədlərə müvafiq vəzifələr öz həllini tapmalı, ümumi məqsədin yerinə yetirilməsinə nail olunmalıdır. Bundan ötrü hər bölmənin və şöbənin bazası yaradılmalı, proqramlaşdırılmış mənbələr aşkarlanmalı, bunun üçün isə mütəxəssis yaradıcılığından maksimum şəkildə istifadə olunmalıdır. Bu cür proqramlaşdırılma bir sistem əhatəsində fəaliyyət göstərməli, ümumiləşdirilməli, lazımsız məlumatlar oradan çıxarılmalıdır.

Beləliklə, muzey texnologiyası hazırda muzeyin qarşıya qoyduğu məqsədə müvafiq vəzifələri həll etməyə yönəldilmiş məqsədyönlü, planauyğun qarşılıqlı əlaqəli texnoloji fəaliyyət-

dən ibarətdir. Muzey fəaliyyətinin texnologiyasının meydana gəlməsi, elmi-nəzəri və təcrübi həllini tapması elmi-texniki nailiyyətlərinin ayrı-ayrı sahələrdə müvafiq nəzəri və təcrübi fəaliyyətin tətbiqi ilə əlaqədardır. Muzey fəaliyyəti prosesi yaradıcı proses olduğundan ilk baxışdan texnoloji proses kimi qəbul edilmir. Lakin ustalıq, qabiliyyət, yaradıcılıq, məharət fərdi fəaliyyət sahəsinə aid olduğu halda texnologiya elmə əsaslanır. Yəni fəaliyyət qabiliyyətlə, yaradıcılıqla başlayır, yeni texnologiya ilə davam etdirilir.

Hazırda muzeyşünaslıq texnolojiliyinə (texnoloji əlverişlilik) sənətşünaslıq texnologiyasının tərkib hissəsi və kulturoloji texnolojinin də bir növü kimi baxılır. Həm sənətşünaslıq, həm də kulturoloji bağlılıq muzeyşünaslıq texnologiyasının daha da inkişafı üçün ikitərəfli zəmin yaradır. Digər tərəfdən incəsənətin, tarixin, arxeologiyanın, etnoqrafiyanın, toponimikanın, pedaqogikanın, psixologiyanın, fəlsəfə və digər elmlərin texnologiyalarının tərəqqisi muzeyşünaslıqda da texnolojililiyin sürətli inkişafına şərait yaradır, eyni zamanda digər elmlərin texnoloji inkişafı ilə qarşılıqlı əlaqədə inkişaf edir, daha da formalaşır.

"Muzey texnologiyası" anlayışı muzeyşünaslıqda demək olar ki, işlədilməyib. Lakin "muzey texnologiyası" anlayışının muzeyşünaslar tərəfindən sahələr üzrə tədqiqinə ehtiyac böyükdür. Bu anlayışı texniki vasitələrin köməyi ilə aparılan muzey fəaliyyəti kimi qəbul etmək düzgün deyildir. Başqa sözlə, muzey texnologiyası əvvəlcədən planlaşdırılmış muzey fəaliyyəti prosesini müəyyən prinsiplər əsasında ardıcıl olaraq tətbiq etməkdən ibarətdir. Doğrudur, fəaliyyət texnologiyası prosesində muzey texniki vasitələrinin də rolu mühümdür. Yəni muzey fəaliyyəti prosesində yeni texniki vasitələrdən ayrı-ayrı sahələr üzrə istifadə mütləqdir, məsələn kompüter texnologiyası vasitəsilə fəaliyyət layihələrinin qabaqcadan hazırlanması, eskizlərin, sərgi-ekspozisiya, material, əşya layihələrinin hazırlanmasına xüsusi diqqət yetirilir və s. Muzey fəaliyyətinin ayrı-ayrı sahə-

ləri üzrə ümumi texnolojilik olmalı, kompleks fəaliyyətə əsaslanan inkişaf müasir dövrün tələblərinə cavab verməlidir. Həm müasir muzey texniki vəsaitlərindən, həm də metodologiya, metodlardan əlaqəli, birgə istifadə texnologiyası sayəsində yeni müasir tamaşası zövqü tələbatına uyğun fəaliyyət mexanizminin həyata keçirilməsinə nail olmaq olar.

Muzeyşünaslıqda ümumi və xüsusi muzey texnologiyalarını aşağıdakı şəkildə fərqləndirmək məqsədəuyğundur:

Ümumi texnologiyalara aşağıdakılar aiddir:

Muzey fəaliyyətinin təşkili və idarəedilməsi texnologiyaları, onların arasında vəhdət.

Muzey fəaliyyətinin təşkili texnologiyalarının təsnifatını aşağıdakı qaydada verməyi məqsədyönlü hesab etdik:

1. Muzey elmi-tədqiqatlarının təşkili texnologiyası
2. Fond işinin təşkili texnologiyası:
- fondların dövlət uçotu texnologiyası;
- muzey sərvətlərinin mühafizəsi texnologiyası;
- muzey sərvətlərinin qablaşdırılması və daşınması texnologiyası.
3. Sərgi-ekspozisiya işinin təşkili texnologiyası.
4. Muzey kütləvi tədbirlərinin təşkili texnologiyası.
5. Muzeydaxili dərnək və klubların işinin təşkili texnologiyası.

Muzey fəaliyyətinin idarəedilməsi texnologiyasının təsnifatını aşağıdakı qaydada verməyi məqsədəuyğun hesab edirik:

1. Muzeyin elmi-tədqiqat fəaliyyətinin idarəedilməsi texnologiyası.
2. Muzey fondu fəaliyyətinin idarə edilməsi texnologiyası.
3. Sərgi-ekspozisiya işinin idarə edilməsi texnologiyası.
4. Muzey kütləvi tədbirlərinin idarə edilməsi texnologiyası.
5. Muzeydaxili dərnək və klubların idarə edilməsi texnologiyası.

6. Muzey bölmə və şöbələrinin idarə edilməsi texnologiyası.

7. Muzeyin ümumi idarə edilməsi texnologiyası.

Muzey fəaliyyətinin təşkili texnologiyaları bir-biri ilə sıx qarşılıqlı vəhdətdə olan üç çox mühüm texnoloji prosesdən ibarətdir:

1. Həyata keçiriləcək sərgi-ekspozisiya və yaxud tədbirin formasının (layihəsinin) yaradılması, planlaşdırılması prosesi.

2. Muzey tədbirinin məzmununun yaradılması, planlaşdırılması prosesi.

3. Metodların tətbiqi prosesi.

Muzey texnologiyası muzey işçisinin peşəkarlığı, ustalığı ilə sıx əlaqədardır. Ayrı-ayrı sahələr üzrə muzey texnologiyasına ancaq peşəkar muzey işçiləri, təcrübəli muzeyşünaslar, kamilləşmiş təcrübəçilər yiyələnirlər. Yəni peşəkarlıq muzey texnologiyasına yiyələnməyin yüksək səviyyəsidir. Bu da qəti bəllidir ki, peşəkar muzey işçisi olmaq fərdilik deməkdir, yəni hər bir muzey işçisinin peşəkarlıq səviyyəsi, təcrübəliliyi, ustalığı, qabiliyyəti, bacarığı özünəməxsus dərəcədədir, hamının peşəkarlığı eyni deyil, müxtəlifdir. Bu da hər bir peşəkarın bilik, bacarıq, vərdişləri ilə ölçülür. Ona görə də peşəkarlığı əldən-ələ vermək olmaz. Texnologiya ilə peşəkarlığın sıx qarşılıqlı əlaqəsi aydın göstərir ki, eyni bir texnologiyaya müxtəlif peşəkarlar tərəfindən müxtəlif cür yanaşılır, belə müxtəlif yanaşmalar da öz növbəsində həm təşkilatçılıq, həm də idarəçilik texnologiyalarında özünü fərqlilik baxımından qabarıq şəkildə göstərir. Eyni bir texnologiya müxtəlif peşə dərəcəsinə, keyfiyyətinə malik ayrı-ayrı muzey işçiləri tərəfindən həyata keçirilə bilər.

Muzeyin elmi-tədqiqatlarının təşkili texnologiyasında xüsusi muzey texnolojisi müxtəlifliyinə rast gəlirik. Qanunlar, muzeyşünaslıq üzrə tədqiqatlar dedikdə, muzey fəaliyyətində qarşılıqlı əlaqələr, qanunauyğunluqlar prinsiplər, quruluş, məzmun, texnologiyalar və sair haqqında yeniliklər əldə etmək,

yeni biliklər almaq üçün elmi fəaliyyət prosesi və onun nəticələri başa düşülür. Muzeyşünaslıqda aparılan tədqiqatlar faktları, materialları, hadisələri izahlı şəkildə təhlil edir, ümumiləşdirmələr aparır, nəticələr çıxarır, tövsiyələr, təkliflər hazırlayır, faktlar, hadisələr haqqında əvvəlcədən tutarlı məlumat verir.

Muzeyşünaslıq tədqiqatları istiqamətinə görə fundamental, tətbiqi və işləmələr xarakterli olur. Fundamental tədqiqatlar elmi-nəzəri konsepsiyaların işlənib hazırlanması ilə nəticələnir ki, bu konsepsiyalar vasitəsilə də muzeyşünaslığın elmi-nəzəri və təcrübi nailiyyətləri ümumiləşdirilir, yaxud muzeyşünaslıq əhəmiyyətli elmi sistemlərin modeli hazırlanır. Tətbiqi tədqiqatlar muzey fəaliyyəti prosesinin ayrı-ayrı tərəflərini dərindən öyrənmək, çoxşaxəli muzey fəaliyyəti təcrübəsinin qarşılıqlı əlaqələri və qanunauyğunluqlarını aydınlaşdırmaq məqsədilə aparılır. İşləmələr isə məlum elmi-nəzəri müddəalar, konsepsiyalar nəzərə alınmaqla, konkret elmi-təcrübi təkliflər, nəticələr əsaslandırılır, tətbiq edilir.

Muzey elmi-tədqiqatlarının təşkili texnologiyası prosesində tədqiqatın aktuallığı, mövzusu, predmeti, fərziyyəsi, metodologiyası, metodları, elmi-nəzəri və təcrübi əhəmiyyəti, elmi yeniliyi, məqsədi, vəzifələri, nəticə,. təkliflər və sair texnoloji ardıcıllıq və araşdırmalar, mövzuya yanaşmalar mərhələlərlə verilir ki, bu da xüsusi texnologiyalar sayılır.

Fond işinin təşkili texnologiyasının fondların dövlət uçotu texnologiyası üzrə xüsusi texnologiyaların əhəmiyyəti xüsusilə vacibdir. Bu bölmə üzrə:

- muzey sərvətlərinin konservasiyası və bərpası texnologiyası;
- muzeyə daxil olan əşyaların qəbulu texnologiyası;
- əşyaların təhvili texnologiyası;
- yeni daxil olan əşyaların qeydiyyatı texnologiyası;
- muzey əşyalarının elmi inventarlaşdırılması texnologiyası;

- elmi-köməkçi və xammal fondlarının əşyalarının uçotu texnologiyası;
- muzey sərvətlərinin təkrar uçota alınması, uçot sənədlərinin uçotu və mühafizəsi texnologiyası;
- köməkçi uçot formalarının texnologiyası və sair xüsusi texnologiyalar mövcuddur;

Muzey sərvətlərinin mühafizəsi texnologiyası üzrə aşağıdakı xüsusi texnologiyaların mühüm əhəmiyyəti vardır:

- muzey binalarının mühafizəsinin təşkili texnologiyası;
- ekspozisiya zallarının, eksponatların mühafizəsi ilə əlaqədar xüsusi avadanlıqla təchizi texnologiyası;
- muzey mühafizəsi rejimi texnologiyası;
- temperatur-rütubət rejimi texnologiyası;
- işıq rejimi texnologiyası;
- bioloji rejim texnologiyası və sair xüsusi texnologiyalar mövcuddur.

Muzey sərvətlərinin qablaşdırılması və daşınması texnologiyası üzrə aşağıdakı xüsusi texnologiyalar mövcuddur:

- qablaşdırma, materialların təşkili texnologiyası;
- qrafika əsərlərinin qablaşdırılması texnologiyası;
- heykəltəraşlıq əsərlərinin qablaşdırılması texnologiyası;
- dekorativ-tətbiqi sənət əsərlərinin qablaşdırılması texnologiyası və s.

Fond işi texnologiyası üzrə xüsusi texnologiyalara diqqət yetirsək aydın olur ki, ayrı-ayrı amillər üzrə peşəkar muzey işçiləri müvafiq qanunlar, qaydalar, təlimatlara əsasən fərdi bacarıq və ustalıqdan məharətlə istifadə etməlidirlər. Məsələn, muzey sərvətlərinin konservasiyası və bərpası texnologiyası prosesi aşağıdakı struktur işçilərin, ayrı-ayrı peşəkar muzey işçilərinin qabiliyyətləri, vərdişləri, ustalıqlarından bilavasitə asılıdır:

- Respublika Mədəniyyət və Turizm Nazirliyi sistemindəki ixtisaslaşdırılmış dövlət müəssisələri işçilərinin bacarıq-

larından;

- böyük muzeylərin bərpa şöbələri, emalatxanaları, muzeylərin ayrıca ştatda olan bərpaçılarının ustalıqlarından;
- muzeylərdə xüsusi bərpa şuralarının rəhbərləri, müavinləri və ya baş mühafizələrinin, eləcə də şura üzvlərinin elmi bilikləri, təcrübi bacarıqları, vərdişləri, qabiliyyətlərindən;
- abidə və nümunələrin konservasiya, yaxud bərpasına dair üsul və metodların seçilməsi, müzakirəsi, təkliflərin verilməsi ilə məşğul olan muzey işçilərinin bilik, bacarıqlarından;
- bərpanın keyfiyyəti və eksponatın sərgiyə verilməsi, eləcə də bərpaçıların attestasiyasını yerinə yetirən işçilərin bilik, bacarıq və qabiliyyətlərindən;
- bərpa komissiyaları və yaxud ayrı-ayrı ixtisaslar üzrə bərpa bölmələrinin rəhbərləri, üzvlərinin bilik, bacarıq və vərdişlərindən;
- bərpa şuraları, eləcə də onun komissiya və bölmələrinin sənədləşmə (prtokollaşdırma, layihələşdirmə və s.) prosesi ilə məşğul olan işçilərin təcrübələrindən;
- ən mürəkkəb bərpa məsələlərinə müstəsna texnoloji vasitələrin tətbiqi, abidəyə sonra əlavə edilmiş detalların, yazıların silinməsi, itkiyə məruz qalmış nümunələrin yenidən qaydaya salınması, onlarda çox mühüm konstruktiv elementlərin yaradılması ilə bağlı layihələrin tətbiqi ilə əlaqədar yaradılan geniş bərpa şurası rəhbərləri, üzvlərinin bilik, bacarıq, qabiliyyətlərindən;
- yeni bərpa üsulları metodları və materiallarını əşyalara tətbiq edən ayrı-ayrı peşəkar ustaların bacarıq və səriştələrindən;
- bütün aşkar edilən qüsurların müfəssəl olaraq sənədlərdə (protokol, akt, kartoteka, jurnal və s.) əksini tapması ilə məşğul olan mütəxəssislərin bilik və bacarıqlarından;
- hər bir işçinin attestasiyası ilə məşğul olan struktur işçilərinin bilik, bacarıq, vərdiş və təcrübələrindən və s.

Sərgi-ekspozisiya işinin təşkili texnologiyası üzrə xüsusi

texnologiyaların təsnifatını aşağıdakı kimi verməyi məqsəd-yönlü hesab etdik:

- sərgi-ekspozisiya işinin planlaşdırlması, onun məqsədi, mövzusu, forması, məzmunu və vəzifələrinin təyini texnologiyası;

- sərgi-ekspozisiya mövzusunun, zallarının, müvafiq əşya, material, nümunə, eksponatların seçilməsi texnologiyası;

- sərgi-ekspozisiya üçün planlaşdırılan yararsız nümunə, əşya, material, eksponatların bərpaya verilməsi texnologiyası;

- sərgi-ekspozisiyada istifadə olunacaq muzey texniki vəsaitlərinin, kompüter texnikası, işıq sisteminin seçilməsi və sair tədbirlərin ardıcıllıqla həyata keçirilməsi texnologiyası;

- sərginin forma və məzmun uyğunluğu, əlaqəliliyi və dolğunluğunun qiymətləndirilməsi texnologiyası;

- sərgi-ekspozisiyanın texniki vəsait təminatı ilə məşğul olacaq işçi personalının qabaqcadan hazırlanması texnologiyası;

- sərgi-ekspozisiyanın bələdçi personalının əvvəlcədən təlimatlandırılması texnologiyası;

- eksponatların zallarda məqsədəuyğun yerləşdirilməsi texnologiyası, bu texnoloji prosesdə elmilik, tarxilik, ardıcıllıq, konkretlilik, mərhələlik və digər prinsiplərin nəzərə alınması və s;

Sərgi-ekspozisiya işinin təşkili üzrə yuxarıda qeyd olunan bir hissə xüsusi texnologiyalar qrupu peşəkar mütəxəssislərin yüksək hazırlığından asılıdır. Məsələn:

- sərgi-ekspozisiya işinin ümumi planlaşdırılması həm muzey rəhbərliyinin, həm də muzeyin müvafiq bölmə və şöbə mütəxəssislərinin yüksək peşə qabiliyyətindən;

- əşya, material, nümunə, eksponatların müvafiq zallar üçün seçilməsi də müvafiq mütəxəssis qrupunun bilik, bacarıq və vərdişlərindən;

- sərgi-ekspozisiya üçün planlaşdırılan yararsız nümunə, əşya, material, eksponatların bərpası texnoloji prosesi üçün təyin olunmuş mütəxəssis qrupunun ustalıq qabiliyyətindən və sairədən.

Muzeydaxili kütləvi tədbirlərin təşkili texnologiyasının təsnifatını aşağıdakı kimi verməyi məqsədəuyğun hesab etdik. Muzeydaxili kütləvi tədbirlərin təşkili texnologiyası:

- yaradıcı sənətkarlarla görüş gecələrinin təşkili texnologiyası;
- müvafiq mövzular üzrə söhbətlər və mühazirələrin təşkili texnologiyası;
- viktorinaların təşkili texnologiyası;
- müxtəlif mövzularda yaradıcı müsabiqələrin təşkili texnologiyası;
- məktəb muzeyləri üçün eksponatların və ekskursiya təlimatçılarının hazırlanması texnologiyasından ibarətdir.

Muzeydənkənar yerlərdə planlaşdırılan mədəni-kütləvi tədbirlərin texnologiyası:

- iri yaşayış məntəqələrində ayrı-ayrı şəhərlərin, qəsəbələrin mədəniyyət evləri, saraylarında planlaşdırılan səyyar sərgilərin təşkili texnologiyası;
- ayrı-ayrı ümumtəhsil məktəblərində səyyar sərgilərin təşkili texnologiyası;
- ümumtəhsil məktəblərində söhbətlər, disputlar, viktorinaların təşkili texnologiyası;
- bədii dərnək və klubların təşkili texnologiyası;
- incənətin ayrı-ayrı sahələrindən, muzeylərin eksponatlarından bəhs edən sənədli filmlərin, foto-albomların izahlı şərhlərlə nümayişinin təşkili texnologiyası;
- muzey fəaliyyətindən bəhs edən televiziya verilişlərinin video-yazı və kompüter texnikası vasitəsilə nümayişi texnologiyası;
- müsabiqə və digər muzey tədbirlərinin təşkili texnologiyasından ibarətdir.

Muzeydaxili və muzeydənkənar kütləvi tədbirlərin təşkili texnologiyası üzrə xüsusi texnologiyaların səmərəliliyi muzeyin bütün elmi-bədii yaradıcı, işçi personalının peşəkarlıq səviyyəsindən, elmi-nəzəri səviyyəsindən, elmi-nəzəri və təcrübi

bilik, bacarıq, vərdişləri, yaradıcılıq qabiliyyətləri, ünsiyyət bacarıqlarından asılıdır.

Muzey dərnək və klublarının təşkili texnologiyasını aşağıdakı istiqamətlər üzrə fərqləndirməyi məqsədəuyğun saydıq:

- tarix profilli dərnəklər;
- arxeologiya profilli dərnəklər;
- etnoqrafiya profilli dərnəklər;
- toponimika profilli dərnəklər;
- ölkəşünaslıq profilli dərnəklər;
- təsviri sənət dərnəkləri;
- ədəbiyyat profilli dərnəklər;
- bədii-texniki dərnəklər;
- muzeyşünaslıq dərnəkləri və s.
- ictimai-siyasi əhəmiyyətə malik geniş əhatəli klublar;
- aktual tarixi mövzulu klublar;
- müasir xarakterli klublar;
- gənc muzeyşünaslar klubları və s.

Muzey fəaliyyətinin idarəedilməsi texnologiyasının yuxarıda göstərilən təsnifatına uyğun texnologiyaların əhəmiyyət vacibliyi nöqteyi-nəzərindən xüsusi texnologiyaların tədqiqinə hazırkı muzeyşünaslıqda böyük ehtiyac duyulur. Bununla belə qısaca olaraq təsnifata uyğun xüsusi texnoloji amilləri aşağıdakı formada verməyi məqsədyönlü hesab etdik:

- muzeyin elmi-fəaliyyət tədqiqatının idarə edilməsində muzey rəhbərliyi, elmi şura rəhbərliyi, bölmə, şöbə rəhbərliyinin yüksək elmi-tədqiqat bacarıqlarının olması vacib amildir;

- muzeyin bərpa, yaxud sərgi müəssisəsinin rəhbərliyi (direktor və yaxud müavin) müvafiq təlimat, yaxud əsasnamə, digər normativ sənədlərə uyğun idarəetmə işlərini yerinə yetirdiklərindən bütün texnoloji prosesləri yerinə yetirmək üçün hərtərəfli bilik, təcrübəyə malik olmaları əsas amil kimi hesab edilir;

- muzeylərin elmi-kütləvi iş və digər şöbələrin müdirlərinin, muzeydaxili dərnək və klub rəhbərlərinin də idarə-

edicilik qabiliyyətləri, vərdiş və səriştələri mühüm amildir;

- muzeyin ümumi idarəedilməsində direktor (direktorla yanaşı baş mühafiz) direktorun elmi işlər üzrə müavini, direktorun inzibati təsərrüfat işləri üzrə müavininin idarəetmə bacarığı, elmi biliyi, qabiliyyəti, təcrübəsi, ünsiyyət mədəniyyəti, etik münasibəti, yaradıcılıq həvəsi və sair amillər mühümdür.

Muzey texnologiyasının mərhələləri üzrə məqsəd texnolojiliyinə diqqət yetirsək görərik ki, ayrı-ayrı mərhələlər üzrə texnoloji proseslər mövcuddur. Texnologiyaya görə fəaliyyətin son nəticəsinə nail olmaq üçün ayrı-ayrı xırda məqsədlər təyin edilməli, həmin məqsədlərin yerinə yetirilməsi müvafiq zaman çərçivəsində vəzifələr əsasında baş verməlidir. Həmin vəzifələrə uyğun bütün elementlər ən xırda detallarına qədər layihələşdirilməlidir. Hər bir layihənin yerinə yetirilməsi müddəti, məkanı, kim tərəfindən həyata keçirilməsi və əsasən də hansı texniki vasitələrdən istifadə ediləcəyi planlaşdırılmalı, istifadə ediləcək materiallar öz əksini tapmalı, bütün bunlar üçün ayrıca maliyyə vəsaiti də qeyd edilməlidir.

Bütün bu texnoloji proseslərdə əsas amil rolunu muzey işçisi oynayır. Muzey işçisinə vacib aşağıdakı komponentlərin fərqləndirilməsi mühümdür:

- idraki komponent;
- yaradıcılıq, layihələşdirmə komponenti;
- müxtəlif fəaliyyət mərhələlərində qarsıya müvafiq məqsədi qoymaq komponenti;
- müvafiq mühiti proqnozlaşdırma, öyrənmə bacarığına malik olma komponenti;
- təşkilatçılıq komponenti;
- konstruktiv komponent;
- informasiya vermək və qəbul etmək bacarığına malik olma komponenti;
- kommunikativ komponent;
- nəzarət etmə, mühiti qiymətləndirmə və korreksiya etmək bacarığı komponenti və sair.

Beləliklə, muzey işçisinin fəaliyyət texnologiyası aşağıdakı əməliyyatlar vasitəsilə yerinə yetirilə bilər:

1) müvafiq biliklərin və bacarıqların əldə edilməsi, vərdişlərin, təcrübələrin qazanılması üçün əməliyyatlar;

2) yaradıcılıq bacarıqları əldə etmək, layihələr üçün əməliyyatlar;

3) qarşıya müvafiq məqsədin qoyulması üçün əməliyyatlar;

4) müvafiq mühiti proqnozlaşdırmaq, öyrənmək üçün əməliyyatlar;

5) təşkilatçılıq bacarıqları, təcrübələri üçün əməliyyatlar;

6) qarşıdakı tədbiri-sərgi-ekspozisiyadakı cari hazırlıq prosesini həyata keçirmək üçün əməliyyatlar, digər muzey tədbirlərinə hazırlıq üçün əməliyyatlar;

7) informasiya vermək və qəbul etmək üçün əməliyyatlar;

8) muzey işçisi - seyrçi, tamaşaçı, yaradıcı arasında qarşılıqlı fəaliyyət üçün əməliyyatlar və s.

Bütün bu əməliyyatlar müvafiq prinsiplərə əsasən həyata keçirilir və həmin prinsiplər mühüm əhəmiyyət kəsb edir.

Muzeyşünaslıqda muzey işçisinin psixoloji texnologiyası barədə fikirlərin qeyd oxunmasına ehtiyac duyulur və inanıram ki, gələcək muzeyşünaslığın inkişafı istiqamətində vacib texnoloji proses kimi həmin texnologiyanın tədqiq edilməsi ön planda olacaqdır.

"Psixoloji texnologiyalar" anlayışı elmlər doktorları, professorlar Əmrulla Paşayev və Fərrux Rüstəmov tərəfindən 2007-ci ildə çapdan çıxmış ali məktəblər üçün "Pedaqogika" dərs vəsaitində verilmişdir. "Texnologiyaların müxtəlif təsnifatları vardır. Onlardan ikisi-pedaqoji və psixoloji texnologiyalar xüsusilə qeyd edilməlidir. Pedaqoji texnologiyalarda əməliyyatlar və hərəkətlər fiziki cəhətdən qeyd olunur. Psixoloji texnologiyalar gizli xarakter daşıyır: bu konkret, insanın psixikasında baş verən əməliyyatlar və hərəkətlərdir" (378,

s.228).

Muzey işçisinin psixoloji texnoloji fəaliyyəti də mövcuddur. Məlumdur ki, muzey mühiti yaradıcı mühitdir və belə mühitdəki fəaliyyətlər də yaradıcı xarakter daşıyır. Lakin belə yaradıcı fəaliyyətlər əvvəlcə muzey işçisinin psixikasında öz əksini tapır, "fəaliyyət forması və məzmunu"na malik olur, texnoloji təsdiqini tapdıqdan sonra yerinə yetirilməsinin zamanı, məkanı planlaşdırılır və yaxud yerinə yetirilməsi nəzəri şəkildə planlaşdırılır, daha sonra isə bu proses psixi əməliyyatların formalaşmasına səbəb olur.

Müasir dövr muzeyşünaslığının sürətli inkişafı muzey texnologiyalarının yaradılması, inkişafı və tətbiqi üzrə müvafiq prinsiplərin fərqləndirilməsi və onların muzeyşünaslıq əhəmiyyətli qısa təhlilinin verilməsi olduqca dəyərlidir. Muzeyşünaslıqda sistemaltı hesab olunan və köməkçi xarakter daşıyan həmin prinsiplərin elmi-nəzəri şəkildə verilməsi və tətbiqinə böyük ehtiyac duyulur. Çünki müasir muzeyşünaslığın inkişafında hərtərəfli texnoloji tətbiqlərin həyata keçirilməsi vaxtıdır.

Artıq müasir muzey texnologiyası əsasında tam şəkildə AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyi, N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi öz fəaliyyətlərini davam etdirirlər. Bu muzeylərin bütün qurumlarında yeni texnoloji proseslər öz müsbət təsirini göstərməkdədir. Buna görə də həmin muzeylərə tamaşaçı axını daha çoxdur. L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi, R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi, Azərbaycan Dövlət Musiqi Mədəniyyəti Muzeyi, Naxçıvan Tarix-Diyarşünaslıq Muzeyi, Lənkəran, Şəki, Gəncə, Qax və digər tarix-diyarşünaslıq muzeylərində yeni texnologiyaların tətbiqi prosesinə hazırlıq işləri getməkdədir.

## NƏTİCƏ

Dünya mədəniyyətşünaslığının inkişafında mühüm yeri olan Azərbaycan mədəniyyətinin müxtəlif tarixi dövrlərinin eksponatlar vasitəsilə nümayişinin, tədqiqinin, qorunub saxlanılmasının mənbələri sayılan muzeylərimizin elmi, yaradıcı, bədii, tərbiyəvi təsiri son onilliklər ərzində daha da qabarıq şəkildə özünü göstərməkdədir.

Minlərlə dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinə, ölkə və yerli əhəmiyyətli abidə xəzinəsinə malik Azərbaycanımızın muzeylərində çox qədim dövrlərə aid zəngin eksponatların olması təbii haldır. Çünki, daş dövründən bu günə qədərki tarixi mərhələləri özündə əks etdirən elmi-bədii, maddi-mənəvi zənginliyə malik həmin əşya və eksponatlar, materiallar, nümunələr milli tariximizi, elm və mədəniyyətimizi, incəsənətimizi, bədii yaradıcılığımızın mənbəyi olmaqla, həm Azərbaycan, həm də dünya mədəniyyətini muzeyşünaslığını zənginləşdirmişdir, hazırda da dünya tədqiqatçılarının böyük marağına səbəb olmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyasının Azərbaycan Tarixi Muzeyi, Azərbaycan Milli Elmlər Akademiyasının N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyat Muzeyi, R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi, C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi, L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi, Azərbaycan Dövlət Musiqi Mədəniyyət Muzeyi, Bakı şəhəri və respublikamızın digər şəhər və rayonlarında yaranmış ev-xatirə, memorial, tarix-diyarşünaslıq muzeyləri, qədim tarixə malik yaşayış məskənləri, kurqanlar, qalalar, müdafiə xarakterli tikinti, bina, divarlar, istehkamlar, komplekslər xalqımızın müxtəlif tarixi dövrlərdəki fəaliyyətini, bədii sənətkarlıq nümunələrini özündə qorumaqla, həm də gələcək nəsillərə dərin və zəngin bədii-estetik məzmun ərməğan edir.

Ümummilli Liderimiz Heydər Əliyevin gərgin zəhməti

bahasına atəşkəs vasitəsilə məlum mənfur ermənilərin törətdikləri müharibənin dayandırılmasına nail olunmuş, ölkədə sürətlə bərpa və quruculuq işlərinə başlanılmış, əsrin müqavilələri imzalanmış, kapital qoyuluşu vasitəsilə mühüm əhəmiyyətli sənaye və kənd təsərrüfatının ayrı-ayrı sahələri inkişaf etdirilmiş, elm, iqtisadiyyat, mədəniyyət, incəsənət və idmana qayğı daha da artırılmışdır. Ulu Öndərin uğurlu davamçısı Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin çox uğurlu xarici və daxili siyasət, ölkədəki qaçqınlıq probleminin aradan qaldırılması, dünya elminə, iqtisadiyyatına, mədəniyyətinə inteqrasiya prosesinin planlı və məqsədyönlü şəkildə həyata keçirilməsi dinamik şəkil almışdır. Ölkəmizdə muzeylər şəbəkəsi genişlənmiş, muzey quruculuğuna xüsusi diqqət yetirilməkdədir. AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyi, AMEA-nın N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin binalarının əsaslı təmiri, onların yeni, ən müasir texnologiya ilə təmini, L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi sənəti Dövlət Muzeyinin yeni binasının tikintisi, digər muzeylərimizin maddi-texniki bazalarının gücləndirilməsi bunun bariz nümunəsidir. Hazırda müasir texnologiyanın gücündən istifadə edə bilən peşəkar muzeyşünasların hazırlanması istiqamətində geniş masştablı işlərin həyata keçirilməsi, bu sahədə böyük irəliləyişə səbəb olmuşdur.

AMEA-nın ayrı-ayrı elmi-tədqiqat institutları, xüsusən Memarlıq və İncəsənət İnstitutu, ali təhsil müəssisələri tərəfindən hazırlanan mütəxəssislərin diplomdan sonrakı elmi hazırlığını (aspirantura, dissertantura, doktorantura) ən müasir vasitə, forma və yollarla səmərəli istifadə ilə daha da təkmilləşdirməyə nail olunmaqdadır. Muzeylərin bir hissəsi elmi-tədqiqat mərkəzlərinə çevrilmiş, muzeyşünaslığın nəzəri metodoloji, təcrübi istiqamətləri mərhələlərlə araşdırılması artıq dinamik şəkil almaqdadır.

Elmi-ixtisas ədəbiyyatının, problemlə əlaqədar mövcud iş təcrübəsinin təhlili göstərdi ki, muzeylər bir institut kimi top-

lama, tədqiqetmə, qoruma, bərpaetmə, nümayiş etdirmə proseslərinin obyekti olmaqla elmi-tarixi-mədəni və bədii yaradıcılıq informasiyalarını əldə edir, sistemləşdirir və gələcək nəsillərə ötürür.

Tədqiqatlar göstərdi ki, Azərbaycan muzeyşünaslığının formalaşması mənbələri hesab olunan müxtəlif tarixi dövrlər milli mədəniyyətimizi, incəsənətimizi, yaradıcılıq və sənətkarlığımızı əhatə edən əşya və eksponatlar çox zəngin informasiya daşıyıcısı kimi elmi-yaradıcı, bədii-estetik təsir gücünə malikdirlər, muzeylərin yaranmasında mühüm əhəmiyyət kəsb etmişlər.

Azərbaycanda muzeyşünaslıq probleminin qoyuluşu və inkişafı mərhələlərinin tədqiqindən aydın oldu ki, 1918-2010-cu illərdə ölkəmizdə müxtəlif şəbəkəsi yaranmış, xüsusən XX əsrin 70-90-cı illərində və eləcə də son onilliklərdə milli muzeyşünaslığın inkişafı istiqamətində çox ciddi tədbirlər həyata keçirilmişdir. Müxtəlif mövzularda sərgi-ekspozisiyalar, muzeydaxili və muzeydənkənar elmi-maarif, bədii-yaradıcı xarakterli tədbirlər müxtəlif yaş qruplu və ixtisaslı insanların elmi-yaradıcı dünyagörüşlərini inkişaf etdirməklə yanaşı, tədqiqatların davamlı, məqsədyönlülüyü muzeyşünaslığımızın sürətli inkişafına səbəb olmuşdur.

Uzunmüddətli araşdırmalar nəticəsində muzeyşünaslıqda ünsürlərarası qarşılıqlı əlaqələrin qanunauyğunluğa çevrilməsi aşkarlanmış və Azərbaycan muzeyşünaslığının inkişafında həmin qarşılıqlı əlaqəliliyin əhəmiyyəti göstərilmişdir.

Fəaliyyətdə mühit və şəraitin yeri, əhəmiyyəti üzrə qarşılıqlı əlaqələr və qanunauyğunluqlarda muzey fəaliyyətinin əhatə olduğu mühitdən, şəraitdən asılılığı, fəaliyyətin bilavasitə muzey mühitindən asılılığı, muzey mühitində yaradıcı ilə tamaşaçı, seyri arasındakı qarşılıqlı əlaqəlilik, qanunauyğunluqlardan bəhs edilməsidir.

Muzey fəaliyyətinin mahiyyəti üzrə qarşılıqlı əlaqələr və qanunauyğunlarda muzey işçisi, ekspozisiya və tamaşaçı fəaliy-

yətinin bir-birini şərtləndirilməsi, muzey mühiti vasitəsilə dərketmənin ekspozisiya materiallarından asılılığı, zənginləşmənin muzey tədbirlərinin keyfiyyətindən asılılığı və muzey fəaliyyəti vasitəsilə elmi idrakla yaradıcı idrak arasındakı ziddiyyətlərin aradan qaldırılması yolları, vasitələri, formaları tədqiq edilməsidir.

Muzey fəaliyyətinin məqsədi üzrə qarşılıqlı əlaqələr və qanunauyğunluqlarda qarşıya qoyulan məqsədin həyata keçirilməsində muzeydaxili əlaqə və asılılıqların nizamlanması, əlaqələrdə vahid məqsədə xidmət edilməsi, müvafiq nəzarətin vacibliyi araşdırılmış, əlaqəliliyin qanunauyğunsuzluğa çevrilməsi mərhələlərlə verilmişdir.

Muzey fəaliyyətinin məzmunu üzrə qarşılıqlı əlaqələr və qanunauyğunluqlarda fəaliyyətin məzmununun elmi bədii yaradıcılıqdan asılılığı, muzey fəaliyyətində planlılıq, ardıcıllıq, mütəmadiliyin əlaqəsi, biri-birini şərtləndirilməsi, muzey fəaliyyətinin məzmunu ilə vasitələrinin əlaqəsi, fəaliyyətdə mövcud tədqiqat metodlarının əlaqəsi edilməsidir.

Muzey fəaliyyətinin imkanları üzrə qarşılıqlı əlaqələr və qanunauyğunluqlarda fəaliyyətin tədbiredici, təhsilləndirici, inkişafetdirici və formalaşdırıcı imkanlarının qarşılıqlı əlaqəsi və onlardan istifadənin vasitə və yolları, formaları araşdırılmışdır.

Muzey fəaliyyətinin mərhələləri üzrə qarşılıqlı əlaqələr və qanunauyğunluqlarda fəaliyyət mərhələlərinin muzey işçisindən asılılığı, fəaliyyət mərhələlərinin biri-birini şərtləndirilməsi, fəaliyyət mərhələlərinin muzeydaxili bölmə və kollektivlərin qarşılıqlı əlaqələrindən asılılığı, mərhələlərin muzeyin elmi-yaradıcı potensialının qarşılıqlı əlaqə fəaliyyətindən asılılığı ardıcıllıqla tədqiq edilməsidir.

Muzey fəaliyyətinin nəticələri üzrə qarşılıqlı əlaqələr və qanunauyğunluqlarda mənəvi zənginləşmənin nəticəsinin muzey fəaliyyətinin üsul və vasitələrindən, muzey fəaliyyəti ünsürlərinin əlaqə və vəhdətindən, biri-birini şərtləndirilməsindən asılılığı, fəaliyyət nəticəsində mənəvi zənginləşmənin elmi-

yaradıcı dünyagörünüşü və hərtərəfli formalaşması inkişaf etdirməsi araşdırılmışdır və hər bir əlaqələrinin qanunauyğunluluğa çevrilməsi öz təsdiqini tapmışdır.

Bu qarşılıqlı əlaqəliliyin muzeyşünaslıqda geniş tətbiqi, gələcək elmi araşdırmaların mənbəyi olacağını aydınlaşdırmış, eyni zamanda elmi sistem kimi dünya muzeyşünaslığı səviyyəsində yayılmasına ehtiyac vardır.

Tədqiqatlardan məlum olmuşdur ki, kompleks təsir gücünə malik sərgi-ekspozisiyaların muzeyşünaslıqda mühüm amil kimi əhəmiyyəti böyükdür və mühit-şərait, əşya-eksponat, muzey işçisi və digər vasitələrin gücündən istifadə edilərək aparılan elmi-tədqiqatlar həm elmi sistemlər yaradır, həm də sahəni inkişaf etdirir, həm də eksponatla bağlı zəngin, məzmunlu elmi informasiya yaradır.

Tədqiqatlar göstərdi ki, muzeyşünaslığın inkişafı istiqamətində elmi tədqiqatçılığa böyük ehtiyac duyulur. Bu prosesin daha da təkmil şəkil alınmasından ötrü bir sıra başlıca tələblərə əməl edilməsi vaxtı çatmışdır:

- muzeylərin elmi-tədqiqat müəssisələri kimi səmərəli fəaliyyətləri üçün ilin əvvəlindən elmi-tədqiqat işi üzrə tərtib və təsdiq edilmiş plana əsasən fəaliyyət mexanizminə əməl edilməli muzey rəhbərləri tərəfindən qarşılıqlı əlaqəli tədqiqatçılığa xüsusi diqqət yetirilməlidir.
- " Muzeyşünaslığın elmi əsasları", " Muzeyşünaslığın nəzəri əsasları", "Muzey quruculuğu və Muzeyşünaslığın mənbələri", "Muzeyşünaslığın tətbiqi əsasları", "Muzey estetikası", "Muzey etikası", "Muzey psixologiyası", "Milli mədəni dəyərlər və muzeyşünaslıq", "Muzeyşünaslıq və mədəni irs", "Muzey ekspozisiyasının təkmilləşdirilməsi imkanları, vasitələri, yolları, formaları, metod və metodologiyası, prinsipləri", "Muzey tədbirləri qarşısında qoyulan başlıca tələblərin muzeyşünaslıqda əhəmiyyəti", "Muzey texnologiyası" və sair mövzularda dərslik, dərs vəsaiti monoqrafiya, elmi araşdırmalar, metodik tövsiyələrin hazırlanması və tətbiqinə AMEA-

nın müvafiq elmi-tədqiqat instututları, bədii təmayüllü ali və orta ixtisas təhsil müəssisələri tərəfindən ciddi fikir verilməlidir;

- həm namizədlik, həm də doktorluq dissertasiyası mövzularının seçilməsi və işlənilməsi prosesində mühit və şərait nəzərə alınmalı, mövzuların aktuallığı diqqət mərkəzində olmalıdır;

- muzeylərin özlərində elmi dərəcəyə malik mütəxəssislərin fəaliyyətinə nail olunmalıdır;

- muzeylər elmi-tədqiqat mərkəzlərinə çevrilməli, tədqiqat üçün mənbə rolunu oynamalı, elmi-tədqiqatın perspektivi təyin edilməlidir;

- bütün bu proseslərdə Respublika muzeylərinin əlaqəli fəaliyyət prosesi də səmərəli şəkildə həyata keçirilməlidir;

- müasir dövrdə milli muzeyşünaslığımızın inkişafında muzeylərin əlaqələndirmə şurasının yaradılması vacibdir;

- elmi proses məhz bu şura vasitəsilə mexanizm haqqında fəaliyyət göstərməlidir;

- elmi-tədqiqat işlərinin planlaşdırılması, sərgi və tədbirlərin təşkili, muzey klubları, dərsləri, olimpiadalarının keçirilməsində və digər bu kimi tədbirlərdə qarşılıqlı əlaqəlilik prinsipinə əməl olunması müsbət nəticələrə çıxarar, eyni zamanda keyfiyyətin daha da artmasına səbəb olar, muzey mühitində baş verən fəaliyyətin dərindən elmi-tədqiqi araşdırılar, muzeyin elmi-yaradıcı potensialının psixoloji xüsusiyyətlərinə obyektiv nəzarət mexanizmi öz həllini birdəfəlik tapardı.

Muzeylərin (emalatxanalarda) nəzdində bədii sənətkarlığın ayrı-ayrı sahələri üzrə - peşəyönümlü dekorativ- tətbiqi sənətkarlıq üzrə, keramika, dulusçuluq, şəbəkəçilik və sair nadir sənətlər üzrə qrupların təşkili günün tələbidir.

Araşdırmalar göstərdi ki, milli muzeyşünaslığın dünya muzeyşünaslığına inteqrasiyası günün tələbidir və bu sahədə əsas mənbə-institut sayılan muzeylər öz geniş imkanlarından istifadə etmək hüququna malikdirlər. Bu, həm milli mədəniy-

yətimizin çox zənginliyi, dünya mədəniyyətinin inkişafına təkan verməsi, bəşəri mədəniyyətdə öz yerini daha yüksək tərzdə tanıtması baxımından, həm də milli muzeyşünaslığımızın qarşılıqlı əlaqəli inkişafında mühüm mərhələ olardı. Qeyd olunmalıdır ki, dünya muzeyləri və şəxsi kolleksiyalarda saxlanılan və indiyə qədər məlum olmayan Azərbaycan bədii sənətkarlığı nümunələrinin mövcud vəziyyəti haqqında da araşdırmalara böyük ehtiyac duyulur. Rasim Əfəndi, Lətif Kərimov, Nurəddin Həbibov, Cəmilə Novrusova, Mürsəl Nəcəfov, Mikayıl Abdullayev, Kazım Kazımzadə, Röya Tağıyeva və digər tanınmış sənətşünasların, alim tədqiqatçılarımızın çox güclü dəyərə malik araşdırmalarından, tövsiyə və təkliflərindən lazımınca istifadə olunmalıdır.

Apardığımız araşdırmalar, təhlillər göstərdi ki, muzeylər vasitəsilə maddi mədəniyyət nümunələrinin toplanması, işlənməsi, öyrənilməsi, təbliği, nümayişi ilə bağlı elmi tədqiqatlar yox dərəcəsindədir. Ayrı-ayrı bölgələrimizin tarixi və mədəniyyətinin müxtəlif əşya, materiallar, nümunələrlə tədqiqi, həmin nümunələrin tarix-diyarşünaslıq və ya müvafiq profilli muzeylər vasitəsilə təbliği istiqamətində araşdırmaların hazırda böyük əhəmiyyəti vardır. Eyni zamanda elmi fond işi mexanizminin tətbiqinə də ehtiyac duyulur. Digər muzey fəaliyyəti sahələrinin, o cümlədən bərpa, elmi-maarif, sərgi-ekspozisiya işləri, muzey kütləvi tədbirlərinin elmi əsaslarda təşkili günün tələbidir. Muzey dərnəkləri, klubları, olimpiadalarının da elmi əsaslarda təşkilinə böyük ehtiyac vardır.

Muzeylərin hər birində elmi-kataloqlaşdırma işi mexanizmə çevrilməsi, bu işdə vahid sistemin yaradılmasına böyük ehtiyac tələb olunur. Kataloqlaşdırma muzeyin bütün daxili məzmunu, əşya və eksponatları haqqında elmi məlumat, fakt deməkdir. Məhz bu elmi məlumata istinadən sərgi fəaliyyətinin təsir mexanizmi işlənməli, ekspozisiyanın kompleks sistemi təyin edilməlidir. Məhz bu məqsədlə AMEA-nın müvafiq institutları tərəfindən muzeylərdə kataloqlaşdırmanın həyata

keçirilməsi-planlaşdırılma, tərtib, nəşr üçün xüsusi redaksiyanın yaradılması məqsədyönlüdür. Kataloqların xüsusi mütəxəssis qrupu tərəfindən hazırlanması və bir neçə xarici dildə kütlə halında nəşri və yayılması milli tarixi-mədəniyyətimizin təbliği deməkdir.

Muzeylərimizdə müasir texnologiyanın tətbiqi də ciddi tələb olunur. Çünki müasir texnologiya eksponat-informasiyanın yeni müstəvidə nümayişi sistemidir. Müasir texnologiyanın tətbiqinin həmçinin beynəlxalq muzeylərarası qarşılıqlı əlaqəliliyin yaradılmasında da mühüm əhəmiyyəti vardır.

Muzeyşünaslıq və sənətşünaslıqla bağlı beynəlxalq və ölkə əhəmiyyətli simpoziumlar, konfransların yaradıcılarla, arxeoloq, etnoqraf, sənətşünaslarla görüşlərin, dəyirmi masaların, yaradıcılıq gecələrinin bölgə muzeylərində keçirilməsi əhəmiyyətlidir. Bu cür tədbirlər nəticəsində müxtəlif tarixi dövr sənətkarlığımıza dərin maraq oyanır, eyni zamanda peşəyönümü istiqamətində məqsədyönlü işlər həyata keçirilir. Belə tədbirlər sırasında müxtəlif mövzulu səyyar sərgilərin təşkilinə də xüsusi fikir verilməlidir.

Bakıda, eləcə də rayonlarımızda, şəhər və qəsəbələrimizdə fəaliyyət göstərən sərgi-salonları, bədii yaradıcılıq mərkəzlərində uşaqların, yeniyetmə gənclərin əl işlərindən ibarət sərgilərin təşkilinin, gənc rəssamların əsərlərinin nümayişi mühüm muzeyşünaslıq əhəmiyyəti daşıyır. Bu cür tədbirlər həm uşaq və yeniyetmələr arasında bədii sənətkarlığa olan maraqların daha da artmasında, həm də muzey işinin təkmilləşməsində mühüm rol oynaya bilər.

Araşdırmalar göstərir ki, fondların zənginləşdirilməsi məqsədilə əşya və nümunələr əldə edilməsinə mütəxəssislərlə birlikdə yeniyetmə gənclərin də cəlb edilməsi öz müsbət nəticəsini göstərir. Bu prosesdə həm də yeni istedadlı yeniyetmə-gənclərin, uşaqların yaradıcılıq qabiliyyətləri aşkarlanır, ümumiyyətlə əhali arasında dərin maraqlar yaranır.

Respublika televiziya və radio şirkətinin müvafiq redak-

siyaları vasitəsilə muzey işçilərinin, sənətşünasların, tədqiqatçılarımızın muzey quruculuğu, toplama, bərpa, nümayiş prosesi, ümumiyyətlə muzeyşünaslıq çıxışları müxtəlif əhəmiyyətli silsilə verilişlərdə maraqlı çıxışları müxtəlif yaş qruplu tamaşaçılar tərəfindən həmişə dəyərləndirilir.

Televiziya və radionun müvafiq redaksiyaları tərəfindən "Azərbaycan muzeyləri", "Muzey saatları" yaxud "Muzey günləri" silsiləsindən verilişlər mühüm əhəmiyyət kəsb edərdi. Artıq muzey quruculuğu və muzeyşünaslıqla bağlı xüsusi elmi-praktik jurnalın nəşri məqsədyönlüdür. Bu məcmuədə həm muzeyşünaslığımızın elmi-nəzəri, təcrübi problemləri, metodik məsələlər, tövsiyələrin vaxtaşırı çapı, ayrı-ayrı elmi-bədii, tarixi əhəmiyyətə malik eksponatlarla bağlı elmi müzakirələr böyük maraqla qarşılanardı.

# ƏLAVƏLƏR

Əlavə 1
Cədvəl 2.1

## Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsü

| Dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri: tarixi: paleolit- XX ə s r | Memarlıq abidələri V-XIX əsrlər | Arxeoloji abidələr naleolit-XX əsrlər | Bağ-park, monumental və xatirə abidələri | Dekorativ-tətbiqi sənət nümunələri (xalq daş-heykəltəraşlıq abidələri) |
|---|---|---|---|---|
| İnventar N-si:1-65 | 1-21 | 22-65 | | |
| Sayı: 65 | 21 | 44 | | |
| Ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri: tarixi:paleolit-XX ə s r | e.ə.III-II minilliklər - XX əsr | paleolit-XIX əsrlər | XIV-XX əsrlər | |
| İnventar N-si: 66- 2099 | 66-424 | 484-2099 | 425-483 | |
| Sayı: 2034 | 359 | 1616 | 59 | |
| Yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri: tarixi: orta əsrlər – XX əsr | X-XIX əsrlər | IX-XIX əsrlər | XVIII-XX əsrlər | orta əsrlər – XIX əsr |
| İnventar N-si: 2100- 6308 | 2100-5579 | 5717-6100 | 5580-5716 | 6101-6308 |
| Sayı: 4209 | 3480 | 384 | 137 | 208 |
| C ə m i: 6308 | 3860 | 2044 | 196 | 208 |

Əlavə 2
Cədvəl 2.2

1896-1950-ci illərdə Azərbaycanda fəaliyyət göstərən rəsmi və qapalı muzeylər haqqında məlumat

| S/N | Muzeylərin adı | Yerləşdiyi yer | Yaranma tarixi | Fəaliyyəti dayandırma qeydləri |
|---|---|---|---|---|
| 1 | Hehrəm diyürşünaslıq muzeyi | Hehrəm kəndi | 1896 | |
| 2 | Bakı şəhəri Xalq Məktəbi müdiriy-yəti nəzdində "Pedaqoji muzeylər" | Bakı şəhəri | XX əsrin əvvəli | 1920-ci ildə bağlanıb |
| 3 | "İstiqlal" muzeyi | Bakı şəhəri | Dekabr 1919-cu il | Aprel 1920-ci ildə bağlandı |
| 4 | Naxçıvan Diyaşünaslıq muzeyi (İndiki Naxçıvan Muxtar Respublikası Dövlət Tarix Muzeyi) | Naxçıvan | 1919-cu il qapalı 1924-cü ildən rəsmi | |
| 5 | Muzekskurs | Bakı şəhəri | 15 iyun 1920-ci il | 19 iyun 1920-ci ilə qədər |
| | Doğma Diyarın Tədris muzeyi | Bakı şəhəri | 19 iyun 1920 | 26 iyul 1920-ci ilə qədər |
| | Doğma Diyarın tədris muzeyi "İstiqlal" | Bakı şəhəri | 26 iyul 1920-ci | 25 oktyabr 1920-ci ilə qədər |

| | | | | |
|---|---|---|---|---|
| | Azərbaycan SSR Dövlət Muzeyi | Bakı şəhəri | 25 oktyabr 1920-ci il | |
| 6 | Ymumrusiya Texniki Cəmiyyətinin Bakı Şöbəsinin Muzeyi (qapalı) | Bakı şəhəri | 1920-ci il | |
| 7 | Əmək muzeyinin sanitariya-gigiyena şöbəsi | Bakı şəhəri | Dekabr 1920-ci il | |
| 8 | Lənkəran Tarix Diyarşünaslıq muzeyi | Lənkəran şəhəri | 1920-ci il 1961-ci il | 1941-ci ildə bağlanıb |
| 9 | İnqilab muzeyi | Bakı şəhəri | 1921-ci il | |
| 10 | Nizami adına Gəncə diyarşünaslıq muzeyi | Gəncə şəhəri | 1921-ci il 1924-cü il | |
| 11 | Azərbaycan Dövlət Kənd Təsərrüfatı Muzeyi | Bakı şəhəri | 1923-cü il | |
| 12 | Quba Diyarşünaslıq Muzeyi | Quba şəhəri | 1924-cü il 1944-cü il | 1937-ci ildə bağlandı |
| 13 | Şəki diyarşünaslıq muzeyi | Şəki şəhəri | 1926-cı il | |
| 14 | Xanlar Tarix-diyarşünaslıq muzeyi | Xanlar şəhəri | 1928-ci il | |
| 15 | Respublika Dövlət Xalq Təhsili Muzeyi | Bakı şəhəri | 1932-ci il 1940-cı il | |
| 16 | Azərbaycan Dövlət Teatr Muzeyi | Bakı şəhəri | 1934-cü il | |

| | | | | |
|---|---|---|---|---|
| 17 | Azərbaycan Dövlət İncəsənət Muzeyi | Bakı şəhəri | 1936-cı il | |
| 18 | Azərbaycan Təbiət Tarixi Muzeyi | Bakı şəhəri | 1936-cı il | |
| 19 | Din tarixi və Ateizm muzeyi | Bakı şəhəri | 1938-ci il | |
| 20 | Din tarixi muzeyinin Gəncə filialı | Gəncə şəhəri | 1939-cu il | |
| 21 | M.F.Axundovun ev-xatirə muzeyi (ilk) | Şəki şəhəri | 1940-cı il | |
| 22 | Xankəndi diyaşünaslıq muzeyi | Xankəndi | 1938-ci il | |
| 23 | Gizli "Nina" mətbəəsi muzeyi | Bakı şəhəri | 1938-ci il | |
| 24 | "Qudok" qəzeti redaksiyasının memorial ev muzeyi | Bakı şəhəri | 1940-cı il | |
| 25 | "Azərb.SSR EA-nın Əlyazmalar Fondunun" Qədim Əlyazmalar və miniatürlər muzeyi | Bakı şəhəri | 1950-ci il | |

Əlavə 3
Cədvəl 2.3

Muzeylərin (müxtəlif profillər üzrə) sayı haqqında məlumat

| İllər üzrə | Muzeylərin sayı (filial-larla birlikdə | O Cümlədən | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | İnqilabi Tarix Muzüyləri | İnqilabi Tarixi muzeylər | Memorial | Diyarşü-naslıq | Təbiət şünaslıq | Incəsənət | Digər profilli |
| 1930 | 11 | 1 | 2 | - | 7 | - | - | 1 |
| 1932 | 11 | 1 | 2 | - | 7 | - | - | 1 |
| 1937 | 18 | 1 | 2 | - | 7 | - | 2 | 6 |
| 1940 | 22 | 1 | 3 | - | 4 | - | 4 | 10 |
| 1950 | 19 | 1 | 2 | - | 6 | - | 2 | 8 |

Əlavə 4
Cədvəl 2.4

## Muzeylərə (müxtəlif profillər üzrə) gələnlərin sayı haqqında məlumat

| İllər Üzrə | Il ərzində muzeylərə gələnlərin sayı (min nəfər) | O c ü m l ə d ə n | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | İnqilabi Tarixi muzey-lər | Tarix muzeyləri | Memorial | Diyarşü-naslıq | Təbiətşünaslıq | Incəsə-nət | Digər profilli |
| 1940 | 461 | İnqilabi Tarixi Muzey-lər | 77 | - | 64 | - | 77 | 159 |
| 1950 | 347 | 165 | 39 | - | 56 | - | 34 | 53 |

Əlavə 5

Cədvəl 2.5

## Muzeylərin profillər üzrə sayı:

| İllər | Muzeylərin ümumi sayı (filiallarla birgə) | O cümlədən | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | İnqilabi tarixi | Tarix | Memo-rial | Diyarşü-naslıq | Təbiət tarixi | İncəsə-nət | Digər profil-li | Yarım mərhələlər |
| 1950 | 19 | 1 | 2 | - | 6 | - | 2 | 8 | 1-ci yarım mərhələ üzrə |
| 1955 | 19 | 1 | 2 | - | 6 | - | 2 | 8 | |
| 1956 | 18 | 1 | 2 | - | 6 | - | 2 | 7 | |
| 1957 | 18 | 1 | 2 | - | 6 | - | 2 | 7 | |
| 1958 | 18 | 1 | 2 | - | 7 | - | 2 | 6 | |
| 1959 | 18 | 1 | 2 | - | 7 | - | 2 | 6 | |
| 1960 | 18 | 1 | 2 | - | 7 | - | 2 | 6 | |
| 1961 | 17 | 1 | 2 | - | 6 | - | 2 | 6 | 2-ci yarım mərhələ üzrə |
| 1962 | 17 | 1 | 2 | - | 6 | - | 2 | 6 | |
| 1963 | 17 | 1 | 2 | - | 7 | - | 1 | 6 | |
| 1964 | 18 | 1 | 3 | - | 7 | - | 1 | 6 | |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1965 | 24 | 1 | 3 | 4 | 7 | - | 2 | 7 | 3-cü yarım mərhələ üzrə |
| 1966 | 25 | 1 | 3 | 4 | 7 | - | 3 | 7 | |
| 1967 | 35 | 1 | 5 | 6 | 11 | - | 5 | 7 | |
| 1968 | 38 | 1 | 6 | 8 | 11 | - | 6 | 6 | |

Əlavə 6
Cədvəl 2.6

Muzeylərə gələnlərin sayı:

| İllər | İl ərzində muzey-lərə gələnlərin sayı (min nəfərlə) | O c ü m l əd ə n | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | İnqilabi tarixi | Tarix | Memo-rial | Diyarşünaslıq | Təbiət tarixi | İncəsə-nət | Digər profilli | Yarım mərhələlər |
| 1950 | 347 | 165 | 39 | - | 56 | - | 34 | 53 | 1-ci yarım mərhələ üzrə |
| 1955 | 419 | 105 | 61 | - | 92 | - | 31 | 130 | |
| 1956 | 595 | 121 | 66 | - | 96 | - | 43 | 269 | |
| 1957 | 456 | 111 | 58 | - | 81 | - | 20 | 186 | |
| 1958 | 608 | 153 | 68 | - | 81 | - | 90 | 216 | |
| 1959 | 446 | 93 | 80 | - | 90 | - | 70 | 113 | |
| 1960 | 1206 | 636 | 94 | - | 100 | - | 80 | 296 | |
| | 4077 | 1384 | 466 | - | 596 | - | 368 | 1263 | |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1961 | 702 | 324 | 69 | - | 131 | - | 80 | 98 | 2-ci yarım mərhələ üzrə |
| 1962 | 511 | 179 | 76 | - | 115 | - | 80 | 61 | |
| 1963 | 511 | 152 | 90 | - | 130 | - | 60 | 79 | |
| 1964 | 686 | 171 | 184 | - | 157 | - | 60 | 114 | |
| | 2410 | 826 | 419 | - | 533 | - | 280 | 352 | |
| 1965 | 762 | 148 | 249 | 32 | 177 | - | 81 | 75 | 3-cü yarım mərhələ üzrə |
| 1966 | 863 | 227 | 249 | 30 | 184 | - | 89 | 84 | |
| 1967 | 899 | 247 | 326 | 17 | 146 | - | 89 | 74 | |
| 1968 | 968 | 251 | 289 | 16 | 246 | - | 67 | 100 | |
| | 3492 | 873 | 1113 | 95 | 752 | - | 326 | 333 | |
| Cəmi | 9979 | 3083 | 1998 | 95 | 1881 | - | 974 | 1948 | |

Əlavə 7
Cədvəl 2.7

1969-1991-ci illər ərzində profillərinə görə muzeylərin sayı

| İllər | Muzeyləri n sayı (filiallarla | O cümlədən | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | İnqilabi-tarix | Tarix | Memorial | Diyar-şünaslıq | Sənət-şünaslıq | Digər profilli | Yarım mərhələlər |
| 1969 | 38 | 1 | 6 | 8 | 11 | 6 | 6 | 1-ci yarım mərhələ üzrə |
| 1970 | 37 | 1 | 6 | 8 | 11 | 6 | 5 | |
| 1971 | 38 | 1 | 6 | 8 | 12 | 6 | 5 | |
| 1972 | 38 | 1 | 6 | 8 | 12 | 6 | 5 | |
| 1973 | 38 | 1 | 6 | 8 | 12 | 6 | 5 | |
| 1974 | 40 | 1 | 6 | 9 | 12 | 7 | 5 | |
| 1975 | 41 | 1 | 6 | 10 | 12 | 7 | 5 | 2-ci yarım mərhələ üzrə |
| 1976 | 43 | 1 | 7 | 11 | 12 | 7 | 5 | |
| 1977 | 46 | 1 | 7 | 13 | 13 | 7 | 5 | |
| 1978 | 47 | 1 | 7 | 14 | 13 | 7 | 5 | |
| 1979 | 49 | 1 | 7 | 15 | 14 | 7 | 5 | |
| 1980 | 63 | 1 | 7 | 19 | 24 | 7 | 5 | |
| 1981 | 78 | 1 | 7 | 19 | 39 | 7 | 5 | |
| 1982 | 82 | 1 | 7 | 19 | 40 | 10 | 5 | |
| 1983 | 90 | 1 | 7 | 19 | 45 | 13 | 5 | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 1984 | 95 | 1 | 7 | 20 | 48 | 14 | 5 | 3-cü yarım-mərhələ üzrə |
| 1985 | 106 | 1 | 8 | 22 | 55 | 14 | 6 | |
| 1986 | 117 | 1 | 9 | 25 | 57 | 18 | 7 | |
| 1987 | 121 | 1 | 9 | 25 | 57 | 22 | 7 | |
| 1988 | 120 | 1 | 8 | 25 | 57 | 22 | 7 | |
| 1989 | 118 | 1 | 8 | 25 | 55 | 22 | 7 | |
| 1990 | 124 | - | 9 | 27 | 57 | 24 | 7 | |
| 1991 | 128 | - | 9 | 27 | 56 | 29 | 7 | |

Əlavə 8
Cədvəl 2.8

1969-1991-ci illərdə profillər üzrə muzeylərə gələnlərin sayı

| İllər | Muzeylərə gələnlərin sayı (min nəfərlə | O cü m l əd ə n | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | İnqilabi-tarix | Tarix | Memorial | Diyarşünaslıq | Sənətşünaslıq | Digər profilli | Yarım-mərhələlər |
| 1969 | 981 | 228 | 341 | 16 | 231 | 77 | 88 | 1-ci yarım mərhələ üzrə |
| 1970 | 1092 | | 661 | 41 | 224 | 87 | 79 | |
| 1971 | 1053 | | 668 | 39 | 203 | 93 | 50 | |
| 1972 | 1139 | | 733 | 33 | 189 | 153 | 31 | |
| 1973 | 1086 | | 699 | 30 | 152 | 114 | 51 | |
| 1974 | 1353 | | 773 | 48 | 209 | 261 | 62 | |
| Cəmi | 6704 | 228 | 3875 | 207 | 1248 | 785 | 361 | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 1975 | 1351 | | 695 | 88 | 234 | 277 | 57 | 2-ci yarım mərhələ üzrə |
| 1976 | 1546 | | 859 | 160 | 292 | 179 | 56 | |
| 1977 | 1911 | | 1077 | 221 | 297 | 278 | 38 | |
| 1978 | 2359 | | 1244 | 289 | 411 | 360 | 55 | |
| 1979 | 2671 | 271 | 939 | 303 | 525 | 584 | 49 | |
| 1980 | 2686 | 356 | 937 | 299 | 626 | 416 | 52 | |
| 1981 | 3183 | 352 | 1138 | 368 | 921 | 349 | 55 | |
| 1982 | 3345 | 362 | 1179 | 425 | 966 | 358 | 55 | |
| 1983 | 3955 | | 1629 | 511 | 1018 | 743 | 54 | |
| Cəmi | 23.007 | 1341 | 9697 | 2664 | 5290 | 3544 | 471 | |
| 1984 | 4155 | | 1770 | 586 | 1047 | 698 | 54 | 3-cü yarım-mərhələ üzrə |
| 1985 | 4297 | 402 | 1483 | 594 | 1289 | 463 | 66 | |
| 1986 | 4357 | | 1180 | 877 | 1555 | 592 | 153 | |
| 1987 | 4124 | | 1268 | 791 | 1212 | 699 | 154 | |
| 1988 | 3557 | 351 | 695 | 714 | 1041 | 622 | 134 | |
| 1989 | 3298 | | 823 | 521 | 1285 | 566 | 103 | |
| 1990 | 1154 | | 183 | 140 | 596 | 197 | 38 | |
| 1991 | 2594 | | 286 | 399 | 1426 | 425 | 58 | |
| Cəmi | 27536 | 753 | 7688 | 4622 | 9451 | 4262 | 760 | |
| Nəti-cə üzrə | 57247 | 2322 | 21260 | 7493 | 15.989 | 8591 | 1592 | |

Əlavə 9

Cədvəl 2.9

Muzey eksponatlarının illər üzrə artım dinamikası haqqında məlumat

| İ l l ə r | Eksponatların sayı (min) | Yarımmərhələ |
|---|---|---|
| 1969 | 240 | 1-ci yarımmərhələ üzrə |
| 1970 | 286 | |
| 1971 | 300 | |
| 1972 | 312 | |
| 1973 | 327 | |
| 1974 | 344 | |
| 1975 | 362 | 2-ci yarımmərhələ üzrə |
| 1976 | 382 | |
| 1977 | 417 | |
| 1978 | 435 | |
| 1979 | 487 | |
| 1980 | 528 | |
| 1981 | 574 | |
| 1982 | 593 | |
| 1983 | 665 | |

| | | |
|---|---|---|
| 1984 | 711 | 3-cü yarımmərhələ üzrə |
| 1985 | 770 | |
| 1986 | 786 | |
| 1987 | 791 | |
| 1988 | 821 | |
| 1989 | 840 | |
| 1990 | 895 | |
| 1991 | 910 | |

Əlavə 10
Cədvəl 2.10

## Profillər üzrə muzeylərin sayı

| İllər | Muzeylərin ümumi sayı (filiallarla birgə) | Tarixi | Memorial | Diyarşünaslıq | Sənətşünaslıq | Digər profilli |
|---|---|---|---|---|---|---|
| 1992 | 128 | 9 | 27 | 56 | 29 | 7 |
| 1993 | 115 | 9 | 24 | 48 | 27 | 7 |
| 1994 | 135 | 9 | 30 | 59 | 30 | 7 |
| 1995 | 145 | 12 | 32 | 61 | 33 | 7 |
| 1996 | 145 | 12 | 33 | 61 | 33 | 6 |
| 1997 | 150 | 14 | 29 | 62 | 36 | 9 |
| 1998 | 152 | 14 | 30 | 62 | 37 | 9 |
| 2000 | 155 | 14 | 32 | 63 | 37 | 9 |
| 2001 | 156 | 14 | 33 | 63 | 37 | 9 |
| 2002 | 159 | 14 | 33 | 65 | 38 | 9 |
| 2003 | 159 | 14 | 33 | 65 | 38 | 9 |
| 2004 | 160 | 14 | 34 | 65 | 38 | 9 |
| 2005 | 163 | 14 | 35 | 66 | 38 | 10 |
| 2006 | 168 | 14 | 37 | 67 | 39 | 11 |
| 2007 | 192 | 14 | 38 | 68 | 40 | 12 |
| 2008 | 193 | 14 | 38 | 69 | 40 | 12 |
| 2009 | 195 | 14 | 39 | 70 | 40 | 12 |

Əlavə 11
Cədvəl 2.11

## Muzeylərə gələnlərin sayı

| İllər | Muzeylərə gələnlərin ümumi sayı (min) | Tarix | Memorial | Diyarşünaslıq | Sənətşünaslıq | Digər profillər |
|---|---|---|---|---|---|---|
| 1992 | 2027 | 302 | 334 | 914 | 403 | 73 |
| 1993 | 2290 | 541 | 288 | 846 | 530 | 84 |
| 1994 | 1595 | 441 | 220 | 584 | 265 | 55 |
| 1995 | 1543 | 349 | 246 | 605 | 285 | 58 |
| 1996 | 1655 | 355 | 270 | 620 | 325 | 65 |
| 1997 | 1502 | 268 | 230 | 651 | 255 | 98 |
| 1998 | 1577 | 254 | 215 | 602 | 238 | 68 |
| 2000 | 1196 | 120 | 245 | 531 | 243 | 57 |
| 2001 | 1121 | 95 | 204 | 520 | 242 | 60 |
| 2002 | 1183 | 135 | 199 | 524 | 267 | 58 |
| 2003 | 1131 | 150 | 176 | 488 | 265 | 52 |
| 2004 | 1501 | 291 | 171 | 641 | 358 | 40 |
| 2005 | 1541 | 298 | 178 | 651 | 363 | 51 |
| 2006 | 1548 | 301 | 179 | 653 | 364 | 51 |
| 2007 | 1569 | 304 | 183 | 661 | 369 | 52 |
| 2008 | 1570 | 304 | 184 | 660 | 370 | 52 |
| 2009 | 1583 | 305 | 186 | 669 | 371 | 52 |

Əlavə 12
Cədvəl 2.12

## Muzeylərin əsas iş göstəriciləri

| İllər | Eksponatların ümumi sayı (min) | Mühazirələrin sayı | Əməkdaşların sayı | Muzeydə sərgilər: Cəmi: | Muzeydən kənar sərgilər Cəmi: | Ekskursiyalar Cəmi: (min) |
|---|---|---|---|---|---|---|
| 1992 | 1018 | 5351 | 2012 | 1271 | 801 | 31,2 |
| 1993 | 980 | 6068 | 1898 | 1300 | 805 | 33,5 |
| 1994 | 1006 | 6015 | 1888 | 1303 | 809 | 34,0 |
| 1995 | 1036 | 5757 | 1922 | 1305 | 810 | 34,1 |
| 1996 | 1070 | 5422 | 1942 | 1318 | 817 | 34,2 |
| 1997 | 1111 | 3914 | 2069 | 1369 | 901 | 33,1 |
| 1998 | 1152 | 5659 | 2160 | 1421 | 993 | 33,2 |
| 2000 | 1151 | 3954 | 2226 | 1513 | 1058 | 33,3 |
| 2001 | 1124 | 4218 | 2204 | 1463 | 968 | 34,3 |
| 2002 | 1051 | 4113 | 2261 | 1373 | 944 | 34,1 |
| 2003 | 1036 | 4248 | 2297 | 1583 | 931 | 34,3 |
| 2004 | 1056 | 6026 | 2384 | 1548 | 1081 | 42,8 |
| 2005 | 1067 | 6078 | 2414 | 1551 | 1083 | 43.1 |
| 2006 | 1084 | 6081 | 2464 | 1553 | 1084 | 44.2 |
| 2007 | 1096 | 6083 | 2505 | 1554 | 1086 | 45,6 |
| 2008 | 1097 | 6087 | 2515 | 1560 | 1101 | 45,8 |
| 2009 | 1099 | 6088 | 2535 | 1563 | 1103 | 46,3 |

Əlavə 13
Cədvəl 2.13

| Ölkələr üzrə muzeylərin sayı və muzeylərə gələnlərin miqdarı | İLLƏR ÜZRƏ | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | 1991 | 2000 | 2001 | 2002 | 2003 | 2005 | 2007 | 2009 |
| Azərbaycan<br>Muzeylərin sayı<br>Muzeyə gələnlərin sayı (min) | 128<br>2,6 | 155<br>1,2 | 156<br>1,2 | 159<br>1,2 | 159<br>1.2 | 163<br>1,6 | 192<br>1,6 | 195<br>1,7 |
| Ermənistan<br>M/sayı<br>Muz.gəl.sayı | 50<br>1.2 | 93<br>0,9 | 99<br>0.9 | 77<br>0,5 | 85<br>0,3 | 83<br>- | 81<br>- | -<br>- |
| Belorus<br>M/sayı<br>Muz.gəl.sayı | 121<br>3,5 | 134<br>3,8 | 134<br>3,9 | 135<br>3,6 | 136<br>3,6 | 137<br>3,6 | 137<br>3,6 | 139<br>3,6 |
| Gürcüstan<br>M/sayı<br>Muz.gəl.sayı | 110<br>2,1 | 98<br>0.3 | 105<br>0,3 | 110<br>0,3 | 112<br>0.3 | 112<br>0,3 | 112<br>0,3 | -<br>0,4 |
| Qazaxıstan<br>M\sayı | 97 | 88 | 103 | 121 | 143 | 144 | 144 | 145 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Muz.gəl.sayı | 3,7 | 1,9 | 3,3 | 4,0 | 3,8 | 3,9 | 3,9 | 4,0 |
| Qırğızıstan<br>M/sayı<br>Muz.gəl.sayı | <br>34<br>0,8 | <br>39<br>0,4 | <br>40<br>0,7 | <br>41<br>0,6 | <br>44<br>0,7 | <br>45<br>0,6 | <br>47<br>0,7 | <br>48<br>0,8 |
| Moldava<br>M\sayı<br>Muz.gəl.sayı | <br>79<br>1.1 | <br>70<br>0,5 | <br>71<br>0,5 | <br>73<br>0,7 | <br>76<br>0,7 | <br>77<br>0,9 | <br>79<br>1.0 | <br>80<br>1.1 |
| Rusiya<br>M\sayı<br>Muz.gəl.sayı | <br>1379<br>114,4 | <br>2047<br>73,4 | <br>2113<br>74.3 | <br>2189<br>75,9 | <br>2229<br>78,6 | <br>2231<br>79,3 | <br>2261<br>79.6 | <br>2270<br>79,9 |
| Tacikistan<br>M\sayı<br>Muz.gəl.sayı | <br>27<br>0,4 | <br>28<br>0.3 | <br>33<br>0,3 | <br>38<br>0,4 | <br>39<br>0,5 | <br>40<br>0,5 | <br>40<br>0,5 | <br>41<br>0,6 |
| Türkmənistan<br>M\sayı<br>Muz.gəl.sayı | <br>28<br>0,2 | <br>29<br>0.3 | <br>29<br>0,3 | <br>-<br>- | <br>-<br>- | <br>-<br>- | <br>-<br>- | <br>-<br>- |
| Özbəkstan<br>M/sayı<br>Muz.gəl.sayı | <br>68<br>6,2 | <br>87<br>3,5 | <br>88<br>3,5 | <br>-<br>- | <br>-<br>- | <br>-<br>- | <br>-<br>- | <br>-<br>- |
| Ukrayna<br>M/sayı<br>Muz.gəl.sayı | <br>225<br>20,8 | <br>378<br>16.0 | <br>386<br>17.1 | <br>376<br>17,5 | <br>394<br>17,6 | <br>396<br>17,6 | <br>396<br>17,7 | <br>398<br>17,7 |

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Heydər Əliyev. «Mədəniyyət, mənəvi dəyərlər, mənəvi tərbiyə». Bakı, «Müəllim» nəşriyyatı, 2008, 637 səh.

2. Abbasov S. Zəngilan Tarixi və Diyarşünaslıq Muzeyi // «Mədəni- maarif», 1983, № 1, s. 20-21.

3. Abbasov N. Keçmişimizi unutmayaq, bu günümüzü yaşadaq // «Mədəni- maarif», 1991, № 3-4, s. 11-13.

4. Abbasova M. Doğma qədimliyimiz // "Azərbaycan qadını" , 1988, № 11, c. 4-5.

5. Abbaszadə F. İncəsənət qüdrətli vasitədir // "Mədəni-maarif", 1981, № 4. c. 40-41.

6. A.A.Bakıxanov adına Quba Tarix - Diyarşünaslıq Muzeyinin inventar kitabı.

7. Abdullayev M. Danışan fırça ustası. "Bakı" qəz., Bakı, 1991, 25 iyul.

8. Abdullayev K. "Bakı mənim məhəbbətim və kədərimdir". "Kommunist" qəz., Bakı, 1991, 2 avqust.

9. ABŞ-dan qaytarılmış qrafika əsərlərinin İncəsənət Muzeyində sərgisi // «Mədəni- maarif», 2001. № 5-6. s. 8-11.

10. Adıgözəlova E. "Muzeylər gecəsi" aksiyası// «Mədəni- maarif», 2005, № 9, s. 36.

11. Ağaoğlu T. Xatirələri yaşadan ünvan. "Azərbaycan" qəz., Bakı, 2009, 18 fevral.

12. Ağayeva R. Rənglərin dili ilə. "Kommunist" qəz., 1979, 11 avqust.

13. Ağayeva P. Muzeylərdə sitatlar, izahlı mətnlər və etiketlərin tərtibində elmi və estetik tələblər // «Mədəni-maarif», 2002, №6, s. 29-30.

14. Ağayev R. "Kim bilir necədir dünyanın yaşı" // «Mədəni- maarif», 1999, № 2, s. 20-21.

15. Ağdamda Beynəlxalq Muzeylər gününə həsr olunmuş tədbir keçirilmişdir. "Azərbaycan" qəz., Bakı, 2009, 20 may.

16. Allahverdiyeva A. Muzey xalqın sərvətidir // "Yeni mədəni- maarif», 2008. №1/2, s. 65.

17. Almazova P. Məktəblərlə muzeylərin birgə fəaliyyətinin təşkili // «Mədəni- maarif», 2008, № 5, s. 67-68.

18. Alxasova E.İ. Mədəni-kütləvi tədbirlər yeniyetmələrin asudə vaxtının səmərəli təşkilində vasitə kimi: Ped. elm. nam. alim. dərəcəsinin iddiası üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 1997. 28 s.

19. Alxasova E. Vətən anadır // «Mədəni- maarif», 1999, № 2, s. 42-43.

20. Arxeoloqların uğurları. "Xalq qəzeti", Bakı, 2009, 29 avqust.

21. Aslanova X. Yeni eksponatlar // «Mədəni- maarif», 2004, № 1, s.7

22. Axundov B. H.Cavid irsinə Heydər Əliyev qayğısı // «Mədəni- maarif», 2006, № 9, s. 38.

23. Axundov D.A. Azərbaycanın qədim və ilk orta əsrlər dövrü memarlığı (rus dilində). Azərbaycan Dövlət nəşriyyatı, Bakı: 1986, 299 səh.

24. Axundzadə L. Rənkarlıq. "Ədəbiyyat və incəsənət" qəz., Bakı: 1987, 6 noyabr.

25. Azərbaycan Prezidenti İlham Əliyev Respublika Muzey Mərkəzində olmuşdur. "Azərbaycan" qəz., Bakı: 2006, 19 mart.

26. Azərbaycan Respublikasının Konstitusiyası / Bakı. "Adiloğlu" nəşriyyatı, 2001, 57 səh.

27. "Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində İstiqlal Muzeyinin yaradılması və İstiqlal abidəsinin ucaldılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 18 dekabr 2006-cı il tarixli Sərəncamı. "Azərbaycan" qəz., Bakı: 2006, 19 dekabr.

28. "Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində tarixi-memarlıq abidələrinin bərpası və qorunması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // «Mədəni-maarif», 2006, № 9, s.2.

29. Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsü. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 nömrəli qərarı ilə təsdiq edilmişdir. Bakı: 2001. 202 səh.

30. "Azərbaycan Rəssamlar İttifaqının üzvləri üçün yeni emalatxanaların tikintisi haqqında" Azərbaycan Respublikası Prezidentinin 19 dekabr 2006-cı il tarixli Sərəncamı. "Azərbaycan" qəz., Bakı, 2006, 20 dekabr.

31. Azərbaycan Respublikasında mədəniyyət dövlət idarəçiliyinin obyekti kimi: reallıqlar və perspektivləri: "Xalq qəzeti", Bakı, 2009, 6 iyun.

32. "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. "Respublika" qəz., Bakı, 2007, 7 mart.

33. Azərbaycanın memorial xatirə muzeyləri. Kataloq / Bakı: "Mars-Print", 2009, 232 səh. 120 şəkil.

34. "Azərbaycan Tarixi Muzeyi" // Bakı: "Elm" , 2001, 352 səh.

35. "Azərbaycan Tarixi Muzeyi" 2002 // Bakı: "Elm", 2002, 330 səh.

36. "Azərbaycan Tarixi Muzeyi" 2003 // Bakı: "Elm", 2003, 336 səh.

37. Azərbaycan tarixə 2003-2008-ci illərdə iqtisadi cəhətdən ən sürətlə inkişaf etmiş ölkə kimi daxil ediləcəkdir. "Azərbaycan" qəz., Bakı, 2009, 23 avqust.

38. Azərbaycan xalqlarının nümunələri zəngin təəssürat doğurmuşdur. "Azərbaycan" qəz., Bakı, 2003, 11 aprel.

39. "Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 22 may 2009-cu il, № 292.

40. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə, VII c., Bakı: "Azərbaycan Sovet Ensiklopediyasının baş redaksiyası", 1983, 624 səh.

41. Azərbaycan Rəssamlarının sərgisi (1996-cı il üçün Azərbaycan Respublikasında insan inkişafına dair BMT-nin İnkişaf Proqramı çərçivəsində hazırlanan sərgi haqqında). "Azərbaycan" qəz., Bakı, 1996, 3 fevral.

42. Azərbaycan Respublikası Dövlət muzeylərində saxlanılan muzey sərvətlərinin uçotu və mühafizəsinə dair təlimat/ Bakı: 1996, 154 səh.

43. Azərbaycan SSR Qanunları, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanları və Azərbaycan SSR hökuməti Qərarlarının Xronoloji Külliyyatı. 6 cilddə, III cild, Bakı: 1963, 612 səh.

44. Azərbaycan SSR Qanunları. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanları və Azərbaycan SSR Hökuməti qərarlarının xronoloji külliyyatı (1946-1958); 6 cilddə, VI c., Bakı:1963, 954 səh.

45. Azərbaycan tarixi: 3 cilddə, II c., Bakı: «Elm», 1964, 800 səh.

46. Azərbaycan tarixi: 7 cilddə, I c., Bakı: «Elm», 1998, 476 səh.

47. Azərbaycan tarixi: 7 cilddə, IV c., (XIX əsr). Bakı: «Elm», 2000, 508 səh.

48. Azərbaycan tarixi: 7 cilddə, V c., Bakı: «Elm», 2001, 672 səh.

49. Azərbaycan tarixi: 7 cilddə, VI c., Bakı: «Elm», 2000, 568 səh.

50. Azərbaycan Sovet Ensiklopediyası. ASE Baş redaksiyası: 10 cilddə, VI c., Bakı:1982, 608 səh.

51. «Azərbaycan» qəz., Bakı, 2010, 4 sentyabr.

52. «Azərbaycan» qəz., Bakı, 1919, 24 aprel.

53. «Azərbaycan» qəz., Bakı, 1919, 11 sentyabr.

54. «Azərbaycan» qəz., Bakı, 1919, 20 noyabr.

55. «Azərbaycan» qəz., Bakı, 1952, 9 oktyabr.
56. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Arxivi, f.,13, siy.8, vv.5-6.
57. Azərbaycan Respublikası Ədəbiyyat və İncəsənət Arxivi: f.501, iş 42, siy.8, vv. 10.
58. Azərbaycan Respublikası Elmlər Akademiyasının Mərkəzi Elmi Arxivi: f. 4, siy.1, iş 12, vv.3.
59. Azərbaycan Respublikası Elmlər Akademiyasının Mərkəzi Elmi Arxivi: f. 5, siy.1, iş 232, vv.3.
60. Azərbaycan Respublikası Dövlət Arxivi: f.10, siy.1, iş 44, vv.5.
61. Azərbaycan Respublikası Dövlət Arxivi: f.51, siy.4, iş 184, vv.28-31.
62. Azərbaycan Respublikası Dövlət Arxivi: f.57, siy.1, iş 75, vv.7.
63. Azərbaycan Respublikası Dövlət Arxivi: f.57, siy.1, iş 250, vv.87.
64. Azərbaycan Respublikası Dövlət Arxivi: f.389, siy.№10, vv.7.
65. Azərbaycan Respublikası Dövlət Arxivi: f.411, siy.8, iş 2, vv.121.
66. Azərbaycan Respublikası Dövlət Arxivi: f.569, siy.1, iş 8, vv.15.
67. Azərbaycan Respublikası Dövlət Arxivi: f.895, siy.1, iş 220, vv.2.
68. Azərbaycan Respublikası Dövlət Arxivi: f.895, siy.1, iş 777, vv.92.
69. Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivi: f.896, siy.2, vv.1,3.
70. Azərbaycan Respublikası Dövlət Arxivi: f.3110, siy.2, iş 2, vv.13.
71.Babaxanova G. Şərurda bir muzey var // "Mədəni-maarif",1984. №1, s.44-45.

72. Babayev A. Rəssam Nazim Ağabəyov haqqında düşüncələr // «Qobustan», 1989, №2, s. 25-28.

73. Babayeva T. Şirvanşahlar Sarayında // «Mədəni-maarif», 2006, №7, s. 38.

74. Bayramquluoğlu A. Tarix muzeyində tarixçi yoxdursa ...: "Mədəniyyət" qəz., Bakı, 1993, 8 yanvar.

75. Bayramoğlu Alxan. Muzey tərbiyə ocağıdır: 18 May Muzeylər günüdür. «Respublika» qəz., Bakı, 1999, 18 may.

76. Bayramova A. Azərbaycan muzeyləri: keçmişdən gələcəyə // «Mədəni- maarif», 2004, №6, s. 20-22.

77. Bayramov A. İncəsənətimiz muzeylərdə // «Mədəni-maarif», 2004, №2-3, s. 54-57.

78. Bayramov A. Yaşayan ömür // «Mədəni-maarif», 1997, №1-2, s. 52-53.

79. Bayramov A. Kamala yetmiş sənət // «Mədəni-maarif», 2005, №8, s. 3-4.

80. Bayramov İ. Ağstafada rəsm qalereyası // "Mədəni-maarif", 2007, №9, s. 12.

81. Bayramov A. Fotoşəkillər önündə düşüncələr // «Mədəni-maarif», 1999, №5-6, s. 11-12.

82. Bayramov A. Azərbaycanda muzey işinin tarixindən // «Mədəni-maarif», 2000, № 4-5, s. 40-47.

83. Bayramov A. Tariximiz...yaddaşımız // «Mədəni-maarif», 2001, №5-6, s. 41-45.

84. Bayramov A. Milli-mənəvi dəyərliyimizin təəssübkeşi // «Mədəni-maarif», 1999, №2, s. 2-4.

85. Bayramov A., Məhərrəmova S. Muzeylər və milli xüsusiyyətlər // «Mədəni-maarif», 1994, №1-2, s. 21-22.

86. Bayramov A. Muzey sərvətlərinin ekspozisiyada mühafizəsi // «Mədəni-maarif», 1986, №4, s. 31-33.

87. Bayramov A. Muzeydə xalqlar dostluğu ideyalarının təbliği // «Mədəni-maarif», 1983, №3, s. 16-19.

88. Bayramov A. Muzeylərə Ümumittifaq baxışı // «Mədəni-maarif», 1982, №3, s. 9-12.

89. Bayramov A. Dünənimiz, sabahımız:// «Mədəni-maarif», 1992, №3-4, s.26-27.
90. Bayramov A. Ictimai əsaslarla işləyən muzeylərə elmi-metodiki rəhbərlik // «Mədəni-maarif», 1981, №4, s. 25-27.
91. Bayramov A. Heydər Əliyev və muzeylərimiz. B.: "Şur", 1990, 90 səh.
92. Bayramov A. Tariximiz, yaddaşımız, sərvətimiz, Bakı: "E.L." Nəşriyyat və Poliqrafiya şirkəti, 2007, 140 səh.
93. Bayramov A., Məsimov S. Tarix-diyarşünaslıq muzeylərində sovet dövrü materiallarının komplektləşdirilməsi // "Mədəni-maarif", 1981, № 2, s.11-13.
94. Bayramov Z. Muzeylər tarixi keçmişimizin yadigarıdır. "Mədəni-maarif", 1979 № 2, s.22-23.
95. Bağırova M. XIX əsrin birinci yarısına aid iki tarixi sənəd haqqında /Azərbaycan Tarixi Muzeyi - 80. Bakı: "Elm", 2001, səh.171-180.
96. Bağırov F. Nurlu şəxsiyyət /Azərbaycan Tarixi Muzeyi - 2002. Bakı: "Elm", 2002, s.64-71.
97. Bağırov Z. Qəhrəmanın ev-muzeyində //«Mədəni-maarif», 1985, № 3, s.29-30.
98. Bahar lövhələri, "Bakı" qəz., Bakı, 1996, 20 mart.
99. Bahadıroğlu A. Könlüm keçir Qarabağdan... "Bakı" qəz., 1991, 22 oktyabr.
100. Barski N. Rənglər dünyasının "səyyah"ı. "Kommunist" qəz., Bakı, 1988, 20 oktyabr.
101. Balaşova Z. Maddi mədəniyyət nümunələrinin qorunması və elmi-bərpa problemləri // «Mədəni-maarif», 1986, № 4, s. 26-33.
102. Behbudzadə H. Heydər Əliyev: İstiqlal muzeyinin yaradılması həyatın tələbidir. «Azərbaycan» qəz., Bakı. 2000, 17 fevral.
103. Beynəlxalq muzeylər günü münasibətilə: (Mədəniyyət Nazirliyinin muzey mərkəzində "Açılış sevincləri" devizi altında keçirilən tədbir haqqında). «Azərbaycan» qəz., Bakı. 1999, 19 may.

104. Bədəlov Ə. Heydər Əliyev muzeyi- ibrətamiz həyat məktəbi. «Xalq qəzeti», Bakı, 2007, 20 may.
105. Bədəlov Ə. Milli ədəbiyyat xəzinəsi. «Xalq qəzeti », Bakı, 2009, 19 may.
106. B.Kəngərli adına Naxçıvan Dövlət Tarix Ölkəşünaslıq Muzeyi / Bakı: Azərnəşr, 1967, 6 səh.
107. Bərdədə Tarix-diyarşünaslıq muzeyinin açılışı. «Azərbaycan» qəz., Bakı, 2009, 3 mart.
108. Bünyadov T. Uğurlu başlanğıc. «Ədəbiyyat və incəsənət» qəz., Bakı, 1973, 31 mart.
109. Cavadov S. Lənkəranın tarixini yaşadan ünvan. «Azərbaycan» qəz., Bakı, 2003, 13 aprel.
110. Cəbiyev Q. Qaladakılar oyanmadı. «Azərbaycan» qəz., Bakı, 1994, 30 iyul.
111. Cəfəroğlu İ. Müharibə mövzusunda sərgi. «Azərbaycan» qəz., Bakı, 1995, 20 may.
112. Cəfərova E. Saleh Qazıyev və Mingəçevirin arxeoloji tədqiqi / Azərbaycan Tarixi Muzeyi-2002. Bakı: "Elm", 2002, s.202-208.
113. Cəfərov Ə. Azərbaycanın ilk sakinləri. Bakı: «Elm», 2004, 220 səh.
114. Cəfərov Ə. Insanlığın səhəri. Bakı: Azərnəşr, 1994, 78 səh.
115. Cəfərov F. Muzeylə bağlı ömür // «Mədəni-maarif», 2005, № 2, s. 46-48.
116. Cəfərov R. Ümumtəhsil məktəbi şagirdlərinin estetik tərbiyəsində Azərbaycan memarlıq abidələrindən istifadənin imkanları və yolları. Ped. elm. nam. alim dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı: 2004. 251 s.
117. C.Məmmədquluzadə adına Naxçıvan Ədəbiyyat Muzeyi. Qısa bələdçi (buklet) , Bakı: "Azərnəşr", 1967. 8 səh.
118. Cəlilov T. Tarixi yaşadan muzey. «Azərbaycan» qəz., Bakı, 2003, 10 avqust.

119. Dadaşov A. Rekordlardan ... rəsmlərə. "Bakı" qəz., 1979, 31 iyul.
120. Dəmirova S. Onu hamımız qorumalıyıq // «Mədəni-maarif», 2007, № 7, s. 27-28.
121. Diyarşünaslar ekologiya ilə məşğul olacaqlar. "Bakı" qəz., 1998, 21 avqust.
122. Dostluq sərgisi. "Kommunist" qəz., Bakı, 1977, 23 sentyabr.
123. Dünənimizin və bu günümüzün inciləri // «Mədəni-maarif», 1983, №3, s.19.
124. Elnur İ. Dünənimizdən bu günümüzə körpü // «Mədəni-maarif», 1993, № 3-4, s.15.
125. Elsevər S. Əsrin faciəsi uşaq lövhələrində. "Mədəniyyət" qəz., Bakı, 11 iyun.
126. Esmira F. «İrsə məhəbbətlə qayıdış-gələcəyə inamla yürüş». «Respublika» qəz., Bakı, 2007, 22 may.
127. Estoniyanın sabiq Prezidenti İçərişəhərlə tanış olmuşdur. «Xalq qəzeti», Bakı: 2009, 20 may.
128. Əbilov V. Muzey təbliğat və təşviqat ocağıdır // "Təşviqatçı", 1984, № 21, s. 23-25.
129. Əbdülqasımova N. Əsrlərin yadigarı. "Ədəbiyyat və incəsənət" qəz., Bakı, 1980, 1 avqust.
130. «Ədəbiyyat və incəsənət» qəz., Bakı, 1973, 8 iyul.
131. «Ədəbiyyat və incəsənət» qəz., Bakı, 1973, 11 iyul.
132. «Ədəbiyyat və incəsənət» qəz., Bakı, 1981, 1 avqust.
133.Əfəndiyev M. Muzeyi zənginləşdirməliyik. «Şəlalə» qəz., Qax, 2004, 3 yanvar.
134. Əfəndiyev R. Azərbaycanın bədii sənətkarlığı dünya muzeylərində. Bakı: «İşıq», 1980, 166 səh.
135. Əfəndi R. Şuşa şəhərinin incəsənəti // «Mədəni-maarif», 2002, № 5, s. 10-13.
136. Əhmədov Ə. Tarix-ölkəşünaslıq işləri ilə əlaqədar olaraq yerli ərazinin öyrədilməsi təcrübəsindən / "Tarix, ictimaiyyət, coğrafiya tədrisi", metodik məqalələr məcmuəsi, Bakı: 1969, № 2, s. 60-64.

137. Əhmədova A.T. Azərbaycan muzeylərində ekspozisiya təşkil edilməsinin estetik prinsipləri. Sən. nam. alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı: 2002, 265 s.

138. Əfəndiyeva F. Hacı Zeynalabdin Tağıyev: tarixi qayıdış / Azərbaycan Tarixi Muzeyi- 80. Bakı: "Elm", 2001, səh. 23-33.

139. Əhmədov S. Azərbaycan Tarixi Muzeyində müdafiə geyimləri (zireh, dər və bədən) // Azərbaycan Tarixi Muzeyi-80, Bakı: "Elm", 2001, s. 127-136.

140. Əhmədov S. Medallar tarixi mənbə kimi / Azərbaycan Tarixi Muzeyi-2002. Bakı: "Elm", 2002, s.147-150.

141. Əhmədov S. Qolçaqların təsnifatı (Azərbaycan Tarixi Muzeyinin kolleksiyasında qorunan qolçaqlar əsasında) / Azərbaycan Tarixi Muzeyi-2003, Bakı: "Elm", 2003, s. 270-275.

142. Əhmədov S. İllüstrativ mənbələr Azərbaycan hərb sənətinin tədqiqində mənbə kimi (knyaz Q.Qaqarinin albomu əsasında) / Azərbaycan Tarixi Muzeyi-2003. Bakı: "Elm", 2003, s. 230-234.

143. Əkbərova Ş. Şöhrət muzeyi // «Yeni mədəni-maarif»", 2008, № 1/2, s.32.

144. Əkbərova Ş. Muzeyimizə gələnlər çoxdur // «Yeni mədəni-maarif», 2008, № 5, s.56.

145. Əkbərova Ş. Yubiley sərgisi // «Mədəni-maarif», 2005, № 9, s.2.

146. Əkbərova G. Tariximizi yaşadan muzey // «Mədəni-maarif», 2004, №11, s.30-31.

147. Ələkbərova N. Muzey xəzinəmizin qorunmasında mühüm addım. "Azərbaycan" qəz., Bakı, 1999, 8 dekabr.

148. Ələkbərov K. Dünyanı gəzirik. "Kommunist" qəz., Bakı, 1966, 13 dekabr.

149. Ələsgərova Z. Yeni numizmatik tapıntılar / Azərbaycan Tarixi Muzeyi-80. Bakı: "Elm", 2001, s.110-111.

150. Ələskərova G. Qovuşan muzeylər // «Mədəni-maarif», 2002, №5, s. 16-17.

151. Ələskərova G. Yubileyə töhfə // «Mədəni-maarif», 2005, № 10, s.2-3.

152.Ələsgər Q. 30 yaşlı muzey. "Azərbaycan" qəz., Bakı, 1997, 30 oktyabr.

153. Ələsgərov Ə. Qədim Yurdun töhfələri. "Kommunist" qəz., 1970, 18 mart.

154. Əliyev A., Məmmədov İ. Bu günümüzdən keçmişimizə səyahət // «Mədəni-maarif», 1985, № 54, s.18-20.

155. Əliyeva A. Yurdun keçmişi və bu günü. "Ədəbiyyat və incəsənət" qəz., Bakı, 1976, 28 avqust.

156. Əliyeva N. Geniş tamaşaçı auditoriyası qazanmış muzey. "Respublika" qəz., Bakı, 2007. 22 aprel.

157. Əliyeva N. Müdafiə silahları üzərindəki bədii işləmə və kitabələr //Azərbaycan Tarixi Muzeyi-2002, Bakı: "Elm", 2002, s.304-308.

158. Əliyeva X. Səyyar sərgi // «Mədəni-maarif», 1984, № 2, s.14-15.

159. Əliyeva R. Yubiley tədbirləri // «Mədəni-maarif», 2000, № 6, s.10.

160. Əliyeva G. «Nobel qardaşları» birliyi və yerli kiçik şirkətlər / Azərbaycan Tarixi Muzeyi-2002. Bakı: "Elm", 2002, səh. 125-130.

161. Əliyeva G. Metal əşyalar üzərində dini kitabələr / Azərbaycan Tarixi Muzeyi-2003, Bakı: "Elm", 2003, s. 254-261.

162. Əliyev K. Maddi və mənəvi sərvətlər xəzinəsi // "Mədəni-maarif", 1985, № 1, s. 27-28.

163. Əliyev F., Əliyev B. Fəhlə-rəssamın fərdi sərgisi // "Mədəni-maarif", 1983, № 2, s. 22-23.

164. Əliyev T. Stendlərdən kütləvi tədbirlərə. "Kommunist" qəz., Bakı, 1988, 17 mart.

165. Əliyev Z. "Körpü" dostluq sərgisidir. «Bakı», 16 may, 1988, № 113, s. 3.
166. Əliyev Z. Parisli rəssamın Bakı ünvanı. "Kommunist" qəz., Bakı, 1988, 23 iyun.
167. Əliyev Z. Şah İsmayıl Xətai və onun dövrü. "Kommunist" qəz., Bakı, 1989, 4 aprel.
168. Əliyev Z. Miniatür sənətimizin bu günü. "Kommunist" qəz., Bakı, 1989, 22 aprel.
169. Əliyev Z. Yollarda yaranan gözəllik. "Bakı"qəz., Bakı, 1991, 15 iyul.
170. Əliyev Z. Çağdaş təsviri sənətdə Nizami mövzusu. "Xalq qəzeti", Bakı, 1991, 11 sentyabr. № 178.
171. Əlizadə A. Məğribi Ə.Tarix-diyarşünaslıq muzeyi // "Elm və həyat", 1985, № 4, s.15.
172. Əlizadə Z. Danışan muzey. "Elm" qəz., Bakı, 2002. 19 oktyabr.
173. Əlyarova G. Muzeylər gecəsi // «Mədəni-maarif», 2006, № 7, s. 56.
174. Əmirbəyova N. Zəmburək / Azərbaycan Tarixi Muzeyi-80. Bakı: "Elm", 2001, s.137-140.
175. Əlirzayev Ə.Q. Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi (dərs vəsaiti). Bakı: «İqtisad Universiteti nəşriyyatı», 2010, 326 səh.
176.Əmirxanov S. Muzey fəaliyyətinin bu günü // "Musiqi dünyası", 2004, № 3-4, s. 206-209.
177. Əmirxanov S. Nəzəri muzeyşünaslıqda mühitlə bağlılıq, qarşılıqlı əlaqələr və qanunauyğunluqlar // «Mədəni-maarif», 2006, № 8, s. 49-56.
178. Əmirxanov S. Xınalıq - açıq səma altında muzey. "Xalq qəzeti", Bakı, 2008. 2 yanvar.
179. Əmirxanov S.A. Tətbiqi muzeyşünaslıq və onun əsas istiqamətləri // «Tətbiqi kulturologiya», Dərslik. Bakı: "Mars-Print", 2004, 412 səh., s. 213-239.

180. Əmirxanov S.A. Yuxarı sinif şagirdlərinin estetik tərbiyəsinin formalaşmasına incəsənət muzeylərindən istifadənin təsiri. Ped.elm.nam.alim. dərəcəsi olmaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 1997, 27 s.

181. Əmirxanov S. Yuxarı sinif şagirdlərinin estetik tərbiyəsinin formalaşmasına incəsənət muzeylərindən istifadənin təsiri. Ped.elm.nam. alim.dərəcəsi almaq üçün dissertasiya. Bakı, 1997, 264 s.

182. Əmirxanov S. Muzey fəaliyyətində qarşılıqlı əlaqələr (tədris-metodik vəsait). Bakı: N.Tusi adına ADPU-nin mətbəəsi, 2000, 38 səh.

183. Əmirxanov S. Muzey və məktəbli dünyagörüşü. Bakı, 2001, 160 səh.

184. Əmirxanov S. Muzey pedaqogikası. Bakı, 2004, 118 səh.

185. Əmirxanov S. Müasir muzey fəaliyyəti və pedaqoji proses / Memarlıq və incəsənət xəbərləri, 1999, № 1, s. 32-36.

186. Əmirxanov S. Nəzəri muzeyşünaslıq. Qarşılıqlı əlaqələr, qanunauyğunluqlar, texnologiyalar. Bakı: "Mars-Print", 2009, 212 səh.

187. Əmirxanov S. Yaradıcı idrak və tərbiyə / Memarlıq və incəsənət xəbərləri, Bakı, 1999, № 1, s. 29-31.

188. Əmirxanov S. Muzey mühiti nədir // "Mədəni-maarif", 1999, № 3, s. 11.

189. Əmirxanov S. Məmmədəliyevlərin şəxsi kolleksiyası. "Respublika" qəz., Bakı, 2003, 29 noyabr.

190. Əmirxanov S. Muzey fəaliyyətinin mərhələləri // "Mədəni-maarif", 1999, № 5- 6, s. 37-38.

191. Əmirxanov S. Məktəblilərin estetik tərbiyəsi üzrə işin təşkili // «Azərbaycan məktəbi», 1997, № 2, s. 20-25.

192. Əmirxanov S. Muzey fəaliyyətində ziddiyyətlər // "Mədəni-maarif", 1999, № 2, s. 22-23.

193. Əmirxanov S., Əlizadə A. İncəsənət muzeyləri və vətənə məhəbbət // "Mədəni-maarif", 1996, № 1-2, s. 7-8.

194. Əntiqə Qonaq. Tariximizin bir parçası: 18 may Beynəlxalq Muzeylər günüdür. "Azərbaycan" qəz., Bakı, 2000, 18 may.
195. Əsədova S. İlmələr, naxışlar ustası // "Mədəni-maarif", 1999, № 2, s. 33.
196. Əsədova T. Muzey məktəblərlə sıx əlaqə saxlayır. "Azərbaycan müəllimi" qəz., Bakı, 1964, 2 fevral.
197. Əsgərov Ş. Muzey də təhsil ocağıdır // "Azərbaycan məktəbi", 1990, № 9, s. 29-32.
198. Əsgərov Ş. Nadir eksponatlar. "Ədəbiyyat və incəsənət" qəz., Bakı, 1987, 3 aprel, s. 52-53.
199. Əsgərova Ş. Xalqın muzeyi xalqın tarixidir //«Mədəni-maarif», 2003, № 5-6, s. 52-53.
200. Əsgərova H. Muzeylərin tarixi və tərbiyəvi əhəmiyyəti // "Mədəni-maarif", 2007, s. 43.
201. Əzəmmədova X. Muzey işinin radio, televiziya və mətbuatda təbliği formaları // "Mədəni-maarif", 2002, oktyabr, s. 31-33.
202. Əzizbəyova A., Əlizadə X. YUNESKO-da Azərbaycan günü böyük təntənə ilə qeyd olundu. «Xalq qəzeti», Bakı, 2009, 18 dekabr.
203. Əzizbəyova P. Muzey və ideya-tərbiyə işi. "Azərbaycan kommunisti", 1977, № 8, s. 71-75.
204. Əzizbəyova P. Zəngin sərvətlər ocağı. "Bakı" qəz., Bakı, 1973, 9 iyul.
205. Əzizov Q. Nəcib yolun carçısı // "Mədəni-maarif", 1984, № 3, s. 38-39.
206. Fərəcov S. Unudulmuş mahnı - "Səni gözləyir". «Respublika» qəz., Bakı, 2005, 7 iyun.
207. Fərzəli Ə. Gəmiqaya – Qobustanda tibb elmindən soraqlar. Insan ayağının portreti. "Yeni Azərbaycan" qəz., Bakı, 2009, 29 avqust.
208. Fətullayeva T. Qəhrəmanın ev-muzeyi // «Mədəni-maarif», 2001, № 5-6, s. 46.

209. Gənclik şövqü... "Bakı" qəz., 1973, 12 dekabr.
210. Göyçəli N. Kəlbəcər başdan-başa muzeydir // "Mədəni-maarif", 1990, №1, s. 11-13.
211. Göyüşov Ə. Müqəddəs məbəd // «Mədəni-maarif», 1990, № 4, s. 4-5.
212. Gözəllikdən doymur ürək. "Azərbaycan gəncləri" qəz., 1991, 23 aprel.
213. Günəş. Səməd Vurğunun ev-muzeyi // «Mədəni-maarif», 2002, № 3, s. 31.
214. Haqverdiyev A.A. Müstəqil Azərbaycan mədəniyyətinin aktual problemləri. Kulturologiya elm.nam.alim. dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya, Bakı, 2004, 258 s.
215. Haqverdiyev T. Muzeylər milli yaddaş saxlancımızdır // "Mədəni-maarif", 1992, № 1, s. 12-16.
216. Hafizova S. Üzeyir ocağı. "Azərbaycan" qəz., Bakı, 2009, 19 may.
217. Heydərova Ş. Muzey və estetik tərbiyə. «Azərbaycan müəllimi» qəz., Bakı, 1986, 14 may.
218. Həbibbəyli İ. Cəlil Məmmədquluzadə. Bakı: «Şərq-Qərb», 1994, 24 səh.
219. Həbibov N. Rəssamlığın fədakar tədqiqatçısı. «Kommunist» qəz., Bakı, 1988, 21 sentyabr.
220. Həbibov N. Rəssamlıqdan söhbət. Bakı: «Uşaqgəncnəşr», 1961, 109 səh.
221. Həbibov N. Azərbaycan Sovet Rəssamlığı. 1917-1967-ci illər. Sənətşün. dok.alim.dər. almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, Bakı, 1969, 94 səh.
222. Həsənoğlu M. Qaxda bir muzey var. «Nəbz» qəz., 2005, 11 noyabr, №119(488).
223. Həmidova X. Muzeydə bir qız xalça toxuyur // «Mədəni-maarif», 2005, №3, s. 16-17.
224. Həsənli O. Şagird şəxsiyyətinin formalaşmasında diyarşünaslıq materiallarından istifadənin sistemi. Ped.elm.-dokt.alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Naxçıvan, 2005, 41 səh.

225. Hidayətoğlu Y. Mədəniyyətimiz 1969-2003-cü illərdə // «Mədəni-maarif», 2008, № 5, s. 19-22.

226. Hidayət qızı Rəna. Respublika gününə həsr edilmiş sərgidən qeydlər. «Ədəbiyyat və incəsənət» qəz., Bakı, 1994, 6 sentyabr.

227. Hidayətoğlu Y. Şuşa Xalça Muzeyi // «Yeni mədəni-maarif», 2002, № 3, s. 31-32.

228. Hüseynoğlu M. Hacıqabul muzeyinin ikinci həyatı // «Mədəni-maarif», 2004, № 6, s. 35.

229. Hüseynoğlu M. Muzeyimizin eksponatları // «Mədəni-maarif», 2005, № 10, s. 10.

230. Hüseynov Ə. Tarixin yadigarı. "Bakı" qəz., Bakı, 1964, 14 may.

231. Hüseynov Ə.H. Respublika Muzey işçilərinin növbəti 3-cü seminarı / Azərbaycan Tarixi Muzeyinin əsərləri, 1961, № 4, s. 204-206.

232. Hüseynova F. Teatr muzeyi-70 // «Mədəni-maarif», 2004, № 11, s. 21-23.

233. Hüseynov İ.H., Əfəndiyeva N.T. Qədim dünya mədəniyyəti. Bakı, «Mars-Print», 2009, 428 səh.

234. Hüseynov İ.H. Azərbaycan milli adət və ənənələrinin bədii-estetik mahiyyəti. Kulturologiya elm.doktoru alim.dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 2004, 51 s.

235. Hüseynov Ş. Zəhmətkeşlərin estetik tərbiyəsində muzeyin rolu // «Mədəni-maarif», 1987, № 2, s. 20-21.

236. Hüseynov S. Təbiət Tarixi Muzeyinin yardıma ehtiyacı var. "Xalq qəzeti", Bakı, 2004, 21 iyul.

237. İbrahimova L. Əmək ətirli lövhələr // «Mədəni-maarif», 1976, № 1, s. 4-5.

238. İbrahim qızı S. Eksponatların günahı nədir? «Azərbaycan» qəz., Bakı, 1994, 15 oktyabr.

239. İbrahimov F. Bakıda metalişləmə tarixi (IX-XVII əsrlər). Bakı, «Elm», 1995, 88 səh.

240. İbrahimov Ə. Sənətimizin gələcəyi. «Ədəbiyyat və incəsənət» qəz., Bakı, 1990, 8 iyun.

241. İbrahimov Ə. Qəhrəmanlıq illərinin yeni səhifələri. «Ədəbiyyat və incəsənət» qəz., Bakı, 1978, 11 mart.

242. 2006-2016-cı illər üçün Mədəniyyət sahəsində Dövlət İnkişaf konsepsiyası //«Mədəni-maarif», 2006, № 11, s. 5-13.

243. İnformasiya vasitələrindən istifadə. «Azərbaycan» qəz., Bakı, 2000, 17 may.

244. İmanova S., Şahmuradqızı L. Kənd Təsərrüfatı Muzeyinin dünəni və bu günü. «Respublika» qəz., Bakı, 2006, 27 may.

245. İsayeva M., Əhmədzadə Z. Tariximizə qiymətli töhfə // «Mədəni-maarif», 1986, № 4, s. 29-31.

246. İsayev Ə. Uğurlu, nurlu olsun! «Azərbaycan» qəz., Bakı, 1997, 29 aprel.

247. İsayev Ə. Əsrlərin yadigarı. «Azərbaycan» qəz., Bakı, 2005, 6 fevral.

248. İsayev Ə. Qayğı ilə qoruyaq gərək. «Azərbaycan» qəz., Bakı, 2004, 10 iyul.

249. İsayev N.İ. Azərbaycan Demokratik Respublikasının sosial-mədəni siyasəti (1918-1920-ci illər). Tarix elm. nam.elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 1992, 163 s.

250. İsgəndərov R. Diyarın salnaməsi. «Azərbaycan gəncləri» qəz., Bakı, 1991, 28 mart.

251. İslam aləminin zəngin mədəniyyəti dünyaya olduğu kimi təqdim edilməlidir. «Bakı-İslam mədəniyyətinin paytaxtı-2009» Mədəniyyət ilinin təntənəli açılışı mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin nitqi. «Azərbaycan» qəz., Bakı, 2009, 19 fevral.

252. İsmayılova S. Tarixi yaşadan eksponatlar. "Bakı" qəz., Bakı, 1985, 17 may.

253. İsmayılova Z. Eksponatlar axtarışında // "Mədəni-maarif", 1981, № 1, s. 41-42.
254. İsmayılbəyli Ə. Muzey bərpa olundu. «Yeni Azərbaycan» qəz., Bakı, 1996, 30 mart.
255. İsmayılqızı X. Ulu Öndərə məhəbbətim tükənməzdir. «İki sahil» qəz., Bakı, 2007, 9 may.
256. İstiqlal muzeyi. «Azərbaycan» qəz., Bakı, 1996, 19 iyun.
257. Kazımlı K. Rəsm qalereyası // «Mədəni-maarif», 2006, № 11, s. 21.
258. Kazımova İ. Yeni əlaqələr, təcrübə mübadilələri // «Mədəni-maarif», 2006, № 11, s. 32.
259. Kazımov N.M., Həşimov Ə.Ş. Pedaqogika. Bakı: «Maarif», 1996, 361 səh.
260. Kəngərli S. Naxçıvanda Cəlil Məmmədquluzadə muzeyləri // «Mədəni-maarif», 2004, № 12, s. 44-48.
261. Kəngərli S. Naxçıvanda Cəlil Məmmədquluzadə muzeyləri // «Mədəni-maarif», 2004, № 1, s. 5-7.
262. Kəngərli S. Heydər Əliyev muzeylərimizin yaradıcısı və memarıdır // "Mədəni-maarif", 2004, № 7, s. 9-12.
263. Kəngərli S., İsmayılova X. Ədəbiyyat Muzeyində teatr fondu // «Yeni Mədəni-maarif», 2008, № 5, s. 60-62.
264. Kərimova Z. Diyarşünaslıq materialları vasitəsilə məktəblilərin vətənpərvərlik ruhunda tərbiyəsi. Ped.elm.nam. dər. almaq üçün təqdim edilmiş dissertasiya işinin avtoreferatı. Bakı, 2004, 30 s.
265. Kərimov B.B. Azərbaycan tarix-diyarşünaslıq muzeylərinin təşəkkülü və inkişafı tarixi. Tar.elm. nam.alim. dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 2005, 31 s.
266. Kərimov B. Azərbaycanda tarix-diyarşünaslıq muzeylərinin təşəkkül və inkişafı. "Xalq qəzeti", Bakı, 2006, 19 may.

267. Kərimov B. Nizami Gəncəvi adına Gəncə tarix-diyarşünaslıq muzeyi. «Elm» qəz., Bakı, 2006, 18 mart.
268. Kərimov B.Azərbaycanda tarix-diyarşünaslıq muzeylərinin təşəkkülü və inkişafı tarixi. Bakı, 2008, «Ziya- Nurlan», 182 səh.
269. Kərimov B. Müstəqillik şəraitində tarix-diyarşünaslıq muzeyləri işinin təşkili haqqında / Azərbaycan Tarixi Muzeyi-2003, Bakı: «Elm», 2003, s. 106-111.
270. Kərimov B. Azərbaycanda tarix-diyarşünaslıq muzeylərinin yaranması tarixindən / Azərbaycan Tarixi Muzeyi-80, Bakı: "Elm", 2001, səh. 34-39.
271. Kərimov B. Lənkəran bölgəsində tarix-diyarşünaslıq muzeyləri / Azərbaycan Tarixi Muzeyi-2002. Bakı: "Elm", 2002, səh. 46-52.
272. Kərimov B. Vətənpərvərlik hisslərinin inkişafında muzeylərin rolu // «Mədəni-maarif», 2005, № 10, s. 8-9.
273. Kərimov K.C., Əfəndiyev R.S., Rzayev N.İ., Həbibov N.D. Azərbaycan incəsənəti. Bakı: "İşıq", 1992, 344 səh.
274. Kərimov L. Azərbaycan xalçası. I cild. Bakı – Leninqrad, 1961, (94 ç/v) 1504 s.
275. Kərimov Y. İlk məşğələ uğurlu oldu. "İki sahil" qəz., Bakı, 2003, 6 mart.
276. Kərimov Y. Azərbaycan aviasiyası inkişaf edir. «Azərbaycan» qəz., Bakı, 2009, 19 iyun.
277. «Kitabxana işi haqqında» və «Muzeylər haqqında» Azərbaycan Respublikasının Qanunlarında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının 2007-ci il 16 iyun tarixli 390 III QD nömrəli Qanununun tətbiq edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 21 iyun, 2007-ci il. «Azərbaycan» qəz., Bakı, 2007, 24 iyun; «Respublika» qəz., Bakı, 2007, 26 iyun.
278. Klubşünaslıq: dərslik / Bakı: "Maarif", 1984. 383 s.
279. Levenfus. M., Babayev A. Şöhrət yolu // "Mədəni-maarif", 1982, № 3, s. 16-17.

280.Mahmudov K. "Döyüş şöhrəti" muzeyinin necə təşkil etdik. Tarix, ictimaiyyat, coğrafiya tədrisi: metodik məcmuə, Bakı: 1984, № 2, s. 44-46.

281. Mahmud İ. Azərbaycan tarixi: dərslik "Azərbaycan ensiklopediyası" nəşriyyat - poliqrafiya birliyi. Bakı: 1997, 320 səh.

282. Mahmudova P. İncəsənət muzeyinin inciləri // "Mədəni-maarif", 1991, № 1, s. 8-9.

283. Mahmudova P. Muzeylərimizi böyük işlər gözləyir // «Mədəni-maarif», 2007, № 7, s. 4-6.

284. Mayestro Niyazinin xatirəsinə. «Azərbaycan» qəz., Bakı, 2000, 19 avqust.

285. Mehdiyeva A. Əsirlikdə qalan sərvətlərimiz. «Azərbaycan» qəz., Bakı, 2005, 18 may.

286. Mehdiyev R. Ulu Öndərin obrazı təsviri sənətdə. «Azərbaycan» qəz., Bakı, 2009, 4 may.

287. Mehdiyev R. Təsviri sənətimizin vurğunu. «Azərbaycan» qəz., Bakı, 2009, 5 mart.

288. Mehdiyev R. Əlvan rənglər. «Kommunist» qəz., Bakı, 1975, 10 sentyabr.

289. Mehdiyev R. Yeni xətlər, yeni duyğular. «Kommunist» qəz., Bakı, 1976, 31 dekabr.

290. Mehdiyev R. Yüksək sənət idealı ilə ... "Ədəbiyyat və incəsənət" qəz., Bakı. 1981, 3 aprel.

291. Mehdiyev R. Gəncliyin nəfəsi. «Kommunist» qəz., Bakı, 1976, 20 may.

292. Mehdixanlı T. Ulu Öndərin təşəbbüsü ilə yaradılan muzeylər. «Azərbaycan» qəz., Bakı, 2006, 17 may.

293. Mehdi Ş. Rənglərin dili ilə. «Azərbaycan gəncləri» qəz., Bakı, 1988, 27 oktyabr.

294. Məhərrəmova S., Bayramov A. Etnoqrafik materiallar muzeylərdə // "Mədəni-maarif", 1993, № 3-4, s. 13-15.

295. Məlikov S., Əliyev Z. Əsrlərin qovşağı. «Sovet kəndi» qəz., Bakı, 1981, 11 avqust.

296. Məlikov S. İki min iki yüz yaşlı şəhərin muzeyində // "Qobustan", 1988, № 1, s. 71-73.
297. Məmmədov T. Əsrin yaddaşı. «Kommunist» qəz., Bakı, 1980, 7 may.
298. Məmmədov R. Mədəniyyətimizin xəzinəsi. «Ədəbiyyat və incəsənət» qəz., Bakı, 1973, 7 iyul.
299. Məmmədov C. Muzeylər tərbiyə edir // «Azərbaycan məktəbi». Bakı, 1985, № 11, s. 35-38.
300. Məmmədov Ə. Yaradıcılıq dərnəklərində şagirdlərin estetik tərbiyəsi. Bakı, 1969, 39 s.
301. Məmmədov M. Orta ümumtəhsil məktəbi şagirdlərinin estetik tərbiyəsində təsviri incəsənət üzrə sinifdənxaric işlərin əhəmiyyəti və yeri. Ped.elm.nam.alim.dər. almaq üçün dissertasiyanın avtoreferatı. Bakı, 1992, 21 s.
302. Məmmədov M. Əlizadə A. Qutqaşınlının ev-muzeyi haqqında// «Mədəni-maarif», 2004, № 3, s. 20-21, 32-35.
303. Məmmədova T. Azərbaycan muzeyləri Böyük Vətən Müharibəsi illərində // «Mədəni-maarif», 1985, № 2, s. 2-5.
304. Məmmədov E. Azərbaycan Ədəbiyyatı Muzeyi 60 ildə // «Mədəni-maarif», 1999, № 5-6, s. 24.
305. Məmmədova V. Azərbaycan miniatürləri // «Mədəni-maarif», 2006, № 7, s. 39-40.
306. Məmmədov M. «Orta ümumtəhsil məktəbi şagirdlərinin estetik tərbiyəsində təsviri incəsənət üzrə sinifdənxaric işlərin əhəmiyyəti və yeri» mövzusunda ped.elm.nam. alim.dər. almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 1992, 21 s.
307. «Mədəniyyət» qəz., Bakı, 1968, 8 yanvar.
308. «Mədəniyyət» qəz., Bakı, 1974, 14 yanvar.
309. Mədəniyyət işçilərinin ümumiittifaq müşavirəsinin iştirakçıları tərəfindən «Sovet İttifaqının bütün mədəniyyət və incəsənət işçilərinə müraciəti» // «Mədəni-maarif», 1979, № 1, s. 8-9.

310. «Mədəniyyət haqqında» Azərbaycan Respublikasının Qanunu. «Azərbaycan» qəz., Bakı, 1998, 18 aprel.
311. Mədəni-maarif / Bakı: «Maarif», 1974, 387 səh.
312. Məsimov S. Muzeydə görüş. «Azərbaycan gəncləri» qəz., Bakı, 1980, 10 aprel.
313. Məsimov S., Qurbanov Z. Muzey kadrlarının ixtisaslarının artırılmasının forma və metodları // «Mədəni-maarif», 2003, № 2, s. 24-25.
314. Məsimov S., Əliyeva A. Muzeylərdə toplama işi və onun problemləri // «Mədəni-maarif», 1993, № 1-2, s. 14.
315. Məsimov S. Muzeylərimiz və hərbi vətənpərvərlik // «Mədəni-maarif», 2000, № 3, s. 30-32.
316. Məsimov S. Muzeylərin ekspozisiyasında mətnlərdən istifadə qaydası // «Mədəni-maarif», 1985, № 4, s. 13-14.
317. Məsimov S. və başqaları. Muzeylərdə milli adət və ənənələrin, bayram və tarixi günlərin təbliğinin forma və metodikaları // «Mədəni-maarif», 2003, № 4, s. 25-28.
318. Məsimov S. Muzey işini müasir tələblər səviyyəsində qurmağın forma və metodları // «Mədəni-maarif», 2001, № 7-8, s. 55.
319. Məsimov S., Kazımzadə E., Qurbanov Z. Böyük Vətən Müharibəsi mövzusu və muzeylərimiz // «Mədəni-maarif», 2004, № 5, s. 49-52.
320. Məsimov S., Qurbanova E., Eyvazova S. Tarix və tarixlər // «Mədəni-maarif», 2004, № 5, s. 37-39.
321. Məsimov S., Ağayeva R. Tarixi abidələr // «Mədəni-maarif», 2004, № 4, s. 36-40.
322. Məsimov S., Ağayeva R. Azərbaycanda xanlıqlar dövrü // «Mədəni-maarif», 2004, № 2-3, s. 40-42.
323. Məsimov S., Qurbanova E. Muzeylərə rəhbərliyin forma və metodları // «Mədəni-maarif», 2004, № 8, s. 45-47.
324. Məsimov S. Xarici dildə ekskursiyanın forma və metodları // «Mədəni-maarif», 2001, № 3-4, s. 31-32.

325. Məsimov S. Muzeylərdə və muzeylərdən kənarda sərgilər // «Mədəni-maarif», 2002, № 1-2, s. 46-49.
326. Məsimov S. Sov.İKP noyabr(1982) plenumunun materiallarının muzeylər vasitəsilə təbliği // «Mədəni-maarif», 1983. № 2, s. 10-12.
327. Məsimov S. Muzeylərdə ekskursiya // «Mədəni-maarif», 1982, № 2, s. 24-25.
328. Məşədixanım Nemət. Mis qablar üzərindəki kitabələr / Azərbaycan Tarixi Muzeyi- 80. Bakı: "Elm", 2001, s. 112-120.
329. Məşədixanım Nemət. Silahlar üzərindəki kitabələr / Azərbaycan Tarixi Muzeyi- 2002. Bakı: "Elm", 2002, s. 293-303.
330. Məşədixanım Nemət. Mis qablar üzərindəki kitabələr / Azərbaycan Tarixi Muzeyi-2003, Bakı: "Elm", 2003, s. 247-253.
331. Milli mədəni irsimizin qorunması və təbliğinə hamı qayğı göstərməlidir. «Azərbaycan» qəz., Bakı, 2002, 18 may.
332. Milli Azərbaycan Tarixi Muzeyi ilə tanışlıq. «Azərbaycan» qəz., Bakı, 2009, 14 fevral.
333. Milli Azərbaycan Tarixi Muzeyinin ekspozisiyası Suriya Prezidentinin marağına səbəb olmuşdur. «Azərbaycan» qəz., Bakı, 2009, 9 iyul.
334. Milli Azərbaycan Tarixi Muzeyi ilə tanışlıq. «Azərbaycan» qəz., Bakı, 2009, 20 may.
335. Mingəçevirdə Heydər Əliyev Muzeyi açılmışdır. «Xalq qəzeti», Bakı, 2009, 4 mart.
336. Mursaqulov F.İsmayılzadə M. Tarixdən gələn səslər. «Azərbaycan gəncləri» qəz., Bakı, 1982, 18 dekabr.
337. Muxtarova N. Qiymətli incilər ocağı // «Mədəni-maarif», 1984, № 2, s. 16-17.
338. Musayev V. Didərgin eksponatlar. «Kommunist» qəz., Bakı, 1990, 22 aprel.

339. Mustafa F. Köhnə muzey yeni ünvanda qərarlaşdı. «Mədəniyyət» qəz., Bakı, 2003, 8 noyabr.
340. Mustafayev A. Azərbaycanın maddi mədəniyyət tarixi. Bakı: «Bakı Universiteti» nəşriyyatı. 2009, 420 səh.
341. "Muzeylər baharı" aksiyası keçirilmişdir. «Azərbaycan» qəz., Bakı, 2005, 15 may.
342. Muzeylərin problemləri müzakirə edilir. «Azərbaycan» qəz., Bakı, 1998, 28 fevral.
343. Muzeylərin problemlərinə həsr olunur. «Azərbaycan» qəz., Bakı, 1995, 9 iyun.
344. Muzeylərin problemləri müzakirə edilir. «Azərbaycan» qəz., Bakı, 1998, 24 aprel.
345. «Muzey və mənəvi tərbiyə». «Azərbaycan» qəz., Bakı, 2001, 22 may.
346. Muzey 75 min illik tarixdən danışır. «Azərbaycan» qəz., Bakı, 1996, 16 noyabr.
347. Muzey menecmentinə dair beynəlxalq seminarın nəticələri Azərbaycan muzeyləri üçün faydalı olacaqdır. «Azərbaycan» qəz., Bakı, 2006, 27 yanvar.
348. Muzeyin yeni ünvanı. «Zaqatala» qəz., Zaqatala, 2003, 31 oktyabr.
349. Muzeylərin turist təşkilatları ilə əlaqəsi // «Mədəni-maarif», 1983, № 4, s. 20-21.
350. Muzey işi üzrə Respublika Elmi-Metodiki Mərkəzin Cari Arxivi. 1980, iş 12, vər. 19.
351. Muzey işi üzrə Respublika Elmi-Metodiki Mərkəzin Cari Arxivi. 1960, iş 16, vər. 11.
352. Muzeyşünaslıq. Ali məktəblər üçün dərslik, R.Ağayev, S.Əmirxanov, A.Əlizadənin redaktəsi ilə. Bakı, 2002, 439 səh.
353. Muzeylərə və abidələri mühafizə etməyə aid rəhbər materiallar / Azərbaycan SSR Mədəniyyət Nazirliyinin Respublika Mədəni-maarif işləri metod kabinəsi. Bakı, 1955, 77 səh.

354. «Muzeylər haqqında» Azərbaycan Respublikasının Qanunu. «Azərbaycan» qəz., Bakı, 2000, 22 iyun.
355. Muzeyin təmənnasız xidmətləri. «Azərbaycan» qəz., Bakı, 2009, 29 aprel.
356. Muzeyin 1983-cü il üçün elmi-tədqiqat işlərinin yekunlarına həsr olunmuş elmi sessiyasının materialları. Материалы научной сессии, посвященной итогом научно-исследовательских работ музея за 1983 год / Bakı: "Elm", 1985, 169 səh.
357. Muzeyin 1984-cü il üçün elmi-tədqiqat işlərinin yekunlarına həsr olunmuş elmi sessiyasının materialları. Материалы научной сессии, посвященной итогом научно-исследовательских работ музея за 1984 год / Bakı: "Elm", 1986, 163 səh.
358. Muzeyin 1987-cü il üçün elmi-tədqiqat işlərinin yekunlarına həsr olunmuş elmi sessiyasının materialları. Материалы научной сессии, посвященной итогом научно-исследовательских работ музея за 1987 год / Bakı: "Elm", 1988, 196 səh.
359. Mübarizlər ölməzdir // "Azərbaycan qadını", 1974, № 11, s. 5-6.
360. «Müasir İncəsənət Muzeyinin yaradılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 19 dekabr 2006-cı il tarixli Sərəncamı. «Azərbaycan» qəz., Bakı, 2006, 20 dekabr.
361. Müasir İncəsənət Muzeyində yeddi fotoqrafın yaradıcılığından bəhs edən sərgi açılmışdır. «Xalq qəzeti», Bakı, 2009, 18 dekabr.
362. Mükərrəmoğlu M. Uşaqların Beynəlxalq Müdafiə Günü Dövlət İncəsənət Muzeyində qeyd olundu. «Xalq qəzeti», Bakı, 2009, 2 iyun.
363. Naxçıvanda görkəmli yazıçı-publisist və dramaturq C.Məmmədquluzadənin ev-muzeyinin açılışı: Azərbaycan Prezidenti H.Əliyev mərasimdə iştirak etmişdir. «Azərbaycan» qəz., Bakı, 1999, 17 dekabr.

364. Nəcəfov M. Rəssam və zaman. Bakı: «Gənclik», 1977, 174 səh.

365. Nəcəfov M. Gözəllik aləminə səyahət: Bakı: «Gənclik», 1973, 130 səh.

366. Nəcəfov M. Əzim Əzimzadə və Azərbaycan incəsənətinin inkişafında onun mövqeyi. Sənətşün.dok. alim.dər. almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 1968. 51 s.

367. Nəcəfov S. Yeni ekspozisiyanın açılışı // «Mədəni-maarif», 2004, № 11, s.4.

368. Nəzirova S. Rəssamın gözəlləmələri // "Qobustan", 1989, № 2, s. 21-24.

369. Nəzirli Ş. Məmməd Aşurovun muzeyi. «Azərbaycan gəncləri» qəz., Bakı, 1987, 26 noyabr.

370. Niftəliyev B. Qax abidələri. «Azərbaycan» qəz., Bakı, 2009, 1 mart.

371. Niftəliyev B. Maddi-mənəvi xəzinə. «Azərbaycan» qəz., Bakı, 2006, 18 may.

372. Niftəliyev E. Mədəniyyətimizin parlaq güzgüsü. «Azərbaycan» qəz., Bakı, 2005, 18 may.

373. Niftəliyev M.B. Naxçıvan MR-da mədəni quruculuq (1921-1925-ci illər). Karovabad, 1957, 109 s.

374. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin ictimaiyyət üçün açılışı olmuşdur. «Azərbaycan» qəz., Bakı, 2009, 15 may.

375. Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyi // Qısa bələdçi. Bakı, 1986. 12 səh.

376. Novruzzadə E. Zəngin sərvət // «Mədəni-maarif», 1979, № 3, s. 18-19.

377. Novruzov A. Yardımlıda bir muzey var... «Azərbaycan müəllimi» qəz., Bakı, 1985, 19 iyul.

378. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Dərs vəsaiti. B., "Nurlan", 2007, 462 s.

379. Piriquliyeva Q. Şirvanşahlar muzeyinin yeni ekspozisiyası. «Azərbaycan» qəz., Bakı, 2010, 20 may.

380. Prezident İlham Əliyev. Azərbaycan Tarixi Muzeyində təmir-bərpa işlərinin gedişi ilə tanış olmuşdur. «Azərbaycan» qəz., Bakı, 2007, 11 aprel.

381. Prezident İlham Əliyev Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi üçün inşa edilən yeni binada tikinti işlərinin gedişi ilə tanış olmuşdur. «Xalq qəzeti»., Bakı, 2009, 2 dekabr.

382. Prezident İlham Əliyev AMEA-nın Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyində aparılmış əsaslı təmir və yenidənqurma işləri ilə tanış olmuşdur. «Azərbaycan» qəz., Bakı, 2009, 15 mart.

383. Qarabağlı S. 25 yaşlı mədəniyyət məbədi // «Mədəni-maarif», 2000, № 6, s. 11-12.

384. Qaraqaya Tofiq. İşıqlı rənglər // «Qobustan», 1990, № 4, s. 17-19.

385. Qasımova S., Ələsgərova Z. Balakən gümüşü sikkə dəfinəsi və Səfəvi sikkə zərbi ilə bağlı iki fərman haqqında / Azərbaycan Tarixi Muzeyi-2003. Bakı: "Elm", 2003, s. 217-221.

386. Qasımova L. Ümumtəhsil məktəbləri şagirdlərinin milli mənəvi dəyərlər əsasında tərbiyəsinin nəzəriyyə və təcrübəsi (V-IX siniflərin «Ədəbiyyat» «Azərbaycan tarixi» fənləri üzrə). Ped.elm.dokt.alim.dər.almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı: 2006, 49 səh.

387. Qasımova S. Kiçik yaşlı məktəblilərin vətənpərvərlik tərbiyəsində tarix və mədəniyyət abidələrindən istifadə. Ped.elm.nam.alim.dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 1999, 26 s.

388. Qasımov Ə. Müqəddəs nemətə ehtiram rəmzi // "Azərbaycan qadını", 1986, № 8, s. 4-6.

389. Qənbəroğlu R. İncəsənət keşikçilərinin fərəhi. «Xalq qəzeti», Bakı, 1991, 17 sentyabr.

390. Quliyeva H. Ölməz sərkərdənin ev-muzeyində. «Ədəbiyyat və incəsənət» qəz., Bakı, 1983, 29 aprel.
391. Quliyeva M. Tədbirlərimiz rəngarəngdir. «Azərbaycan gəncləri» qəz., Bakı, 1980, 23 aprel.
392. Quliyeva Z. Azərbaycan xalçaları. «Azərbaycan» qəz., Bakı, 2009, 1 mart.
393. Quliyeva G. A.Şaiqin ev-muzeyində // «Mədəni-maarif», 2002, № 4, s. 24.
394. Quliyeva Z., Əliyev Q. Tarixin canlı yadigarı // «Mədəni-maarif», 1981, № 4, s. 35-37.
395. Quliyeva Z. "Ceyms Oldric və Azərbaycan". «Azərbaycan» qəz., Bakı, 2003, 4 oktyabr.
396. Quliyeva Z. "Muzeylər baharı". «Azərbaycan» qəz., Bakı, 2004, 5 may.
397. Quliyev M. Azərbaycan Tarixi Muzeyində sərgi // "Elm və həyat", 1973, № 3, s. 16-17.
398.Quliyev M. Xalq sənətkarlığı sərgisi // "Elm və həyat", 1974, № 5, s. 23.
399. Quliyev V. Yadigar: (Şuşadakı Tarix və diyarşünaslıq muzeyi haqqında). "Sovet kəndi" qəz., Bakı, 1981, 19 sentyabr.
400. Quliyev R. Müasirliyin təsviri sənətdə inikası. «Kredo» qəz., Bakı, 2009, 2 may.
401. Quliyev L. Prezident İlham Əliyevin Bərdə və Yevlax rayonlarına səfəri bölgədə qurub-yaratmaq əzminə yeni təkan verdi. «Azərbaycan» qəz., Bakı, 2009, 6 mart.
402. Quliyev Q., Tağızadə İ. Metal və xalq sənətkarlığı, Bakı, 1968, 81 s.
403. Qurbanova E.H. Azərbaycanda bədii mədəniyyətin inkişafında incəsənət muzeylərinin rolu. Sən.elm.nam. alim. dərəcəsi almaq üçün dissertasiya. Bakı, 1998. 158 s.
404. Qurbanova E.H. Azərbaycanda bədii mədəniyyətin inkişafında incəsənət muzeylərinin rolu. Sən.nam.alim.dər. almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 1998, 26 s.

405. R.Əfəndiyev adına Şəki Tarix-diyarşünaslıq muzeyinin cari arxivi.
406. Rəcəbli Ə. Biləsuvar Sasani sikkələri dəfinəsi və VI-VII yüzillərdə Azərbaycanda sikkə zərbi və pul dövriyyəsinin bəzi özəllikləri / Azərbaycan Tarixi Muzeyi-80. Bakı: "Elm", 2001, s.78-83.
407. Rəcəbli Ə.M. Azərbaycan numizmatikası. Tar.elm. dok.alim.dər. almaq üçün məruzə şəklində təqdim edilmiş dissertasiya. Bakı, 2000, 75 s.
408. Rəcəbli Ə. Naxçıvan zərbxanaları (V-XIX yüzillər) / Azərbaycan Tarixi Muzeyi-2003, Bakı: "Elm",2003, s.201-206.
409. Rəcəbli Ə. Bizans qızılı Azərbaycan pul dövriyyəsində / Azərbaycan Tarixi Muzeyi-2002, Bakı: "Elm", 2002, s.270-276.
410. Rəfiyev C. Tarix - ölkəşünaslıq muzeyində // «Qobustan», 1989, № 3, s. 88-91.
411. Rəhimov R. Dünəndən başlanan sabah. «Azərbaycan gəncləri» qəz., Bakı, 1988, 29 mart.
412. Rəhimova G. Bəhruz Kəngərli yaradıcılığı K.Kərimovun tədqiqatlarında // «Mədəni-maarif», 2006, № 5, s. 50-51.
413. Rəhimov N. Naxçıvan tarixini yaşadan muzey // «Mədəni-maarif», 2003, № 5-6, s. 48-50.
414. Rəsulqızı M. Muzey təhlükəli vəziyyətdədir (Sumqayit Tarix Muzeyinin vəziyyəti haqqında). «Xalq qəzeti», Bakı, 1997, 23 may.
415. Rüstəmov F. Ölümün işığı // "Kənd həyatı", 1990, № 3, s.29.
416. Rzalı R. Azərbaycan muzeylərindən oğurluq dünya mətbuatının mövzusudur. «Azərbaycan» qəz., Bakı, 1997, 2 noyabr.
417. Rzayev R. "Kazbek" qutusunda yaşayan tarix. "Sovet kəndi" qəz., Bakı, 1979, 30 oktyabr.
418. Rzayeva M. Abşeron boyaları. «Ədəbiyyat və incəsənət» qəz., Bakı, 1988, 20 may.

419. Rzayev V. Azərbaycan avanqardının bəzi möcüzələri. «Ədəbiyyat və incəsənət» qəz., Bakı, 1988, 21oktyabr.
420. Sadıqov F. Pedaqogika. Ali məktəblər üçün dərs vəsaiti. "Adiloğlu" nəşriyyatı, Bakı, 2009, 600 səh.
421. Sadıqov R.F. Bunu hər bir Azəri türkü bilməlidir. Bakı, 2008, 40 səh.
422. Sadıqov M. Gənclərin mənəvi zənginliyində estetik tərbiyənin rolu // «Mədəni-maarif», 1981, № 2, s. 42-43.
423. Sadıqzadə H. Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin iş təcrübəsi // «Mədəni-maarif», 2004, № 10, s. 4-7.
424. Sadıqzadə H.Ə. Muzeylər vasitəsilə maddi mədəniyyət nümunələrinin toplanması, işlənməsi və təbliği problemləri. Kulturologiya elm.nam.alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı, 2008. 157 s.
425. Sadıqzadə H. Muzeylər vasitəsilə maddi mədəniyyət nümunələrinin toplanması işlənməsi və təbliği işinin mahiyyəti və əhəmiyyəti // «Mədəni-maarif», 2007, № 4, s. 8-12.
426. Salmanov İ. Tariximizin salnamələri. «Bakı» qəz., Bakı, 1980, 17 may.
427. Salamzadə Ə. Dizayn və informasiya. Bakı, 2006.
428. Seyidov M. Tarixdən gələn səslər. «Yeni Azərbaycan» qəz., Bakı, 2007, 18 may.
429. Seyidov M. Biz tariximizi yaşadırıq // «Mədəni-maarif», 2005, № 3, s. 4-5.
430. Səfərova R. Azərbaycan Tarixi Muzeyinin «Ən yeni tarix fondu» haqqında / Azərbaycan Tarixi Muzeyi-80. Bakı: "Elm", 2001, s. 45-49.
431. Səlimov A. İkinci həyat. «Ədəbiyyat və incəsənət» qəz., Bakı, 1978, 11 fevral.
432. Səlimov S., Mixail L., Babayev A. Qalib Sovet döyüşçülərinin şərəfinə muzey-abidə // "Elm və həyat", 1981, № 7, s. 4-6.

433. Sumbatzadə Ə. Maddi və mənəvi sərvətlər xəzinəsi. «Kommunist» qəz., Bakı, 1973, 8 iyul.
434. Şahverdiyev D. Danışan eksponatlar. «Azərbaycan müəllimi» qəz., Bakı, 1981, 29 aprel.
435. Şamil Dəlidağ, Şəhid muzey, şahid muzey. Bakı, 1997, 71 səh.
436. Şəbnəm. Dövlət İncəsənət Muzeyi // «Mədəni-maarif», 2001, № 7-8, s. 61.
437. Şükürov İ. Əsrlərə bərabər bir saat // «Mədəni-maarif», 1984, № 2, s. 17-19.
438. Tağıyeva R. Mədəni irsin qorunmasına dair normativ hüquqi aktlar toplusu. Bakı: , "Elm",2001, 240 səh.
439. Tağıyeva R.S. Azərbaycan xalçası məişətdə. Bakı, 2006, 143 səh.
440. Tağıyeva R.S. Azərbaycan xalçası. Sənətşünaslıq doktoru alimlik dərəcəsi almaq üçün elmi məruzə şəklində təqdim edilmiş dissertasiya. Bakı, 2003, 78 s.
441. Tağıyeva R. Muzeylər mədəniyyətlər arasında körpüdür. «Xalq qəzeti»., Bakı, 2005, 15 may.
442. Tağıyeva N. Muzey işçilərinin peşə bayramı // «Azərbaycan» qəz., Bakı, 2005, 17 may.
443. Tağıyeva S. 10 yaşlı xalça muzeyi // «Yeni mədəni-maarif» 2008, № 4, s. 30-31.
444. Tağıyeva X. «Müstəqillik, dövlətçilik, milli təhlükəsizliyin keşiyində...». «Azərbaycan» qəz., Bakı, 2005, 3 mart.
445. Tağızadə Ş. "Azərbaycan inciləri". «Azərbaycan» qəz., Bakı, 1997, 20 avqust.
446. Tahirli S., Məmmədov N. İmişlidə bir muzey var // «Mədəni-maarif», 1987, № 3, s. 29-30.
447. Tarix-diyarşünaslıq muzeyi // «Mədəni-maarif», 1981, № 4, s. 26.
448. Talıbov Y.P., Ağayev Ə.A., İsayev İ.N., Eminov A.İ. Pedaqogika, Bakı: "Maarif", 1993, 283 səh.

449. Tarix muzeyinin eksponatları (Onların 3 min yaşı vardır). «Bakı» qəz., Bakı, 1964, 20 yanvar.
450. Tariyev İ. Dünya şöhrətli xalçalarımız // «Mədəni-maarif», 1983, № 4, s. 14-15.
451. Taparenko V. Zəhmətkeşlərin hərbi-vətənpərvərlik tərbiyəsində muzeylərin rolu // «Mədəni-maarif», 1981, № 3, s. 28-30.
452. Teymurov A. Muzeyin «Azərbaycan salonunda». «Bakı» qəz., Bakı, 1967, 29 noyabr.
453. Təbrik edirik // "Elm və həyat", 1988, № 7, s. 7.
454. Tərlanov M.Ə. Sovet Azərbaycanının dekorativ-tətbiqi sənəti. Sən.nam. alim.dər. almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 1965, 28s.
455. Tətbiqi kulturologiya. Dərslik / Bakı, 2004, 412 səh.
456. Ulu Öndər Heydər Əliyev sənətə və sənətkara layiqli qiymət verməyi bacaran dahi şəxsiyyət idi. «Yeni Azərbaycan» qəz., Bakı, 2009, 29 avqust.
457. Vahabova S. Bir tablonun izi ilə / Azərbaycan Tarixi Muzeyi-2002, Bakı: "Elm", 2002, s. 136-140.
458. Vahabova S. Azərbaycan Tarixi Muzeyinin silah kolleksiyasında mühafizə olunan bəzi toppuz nümunələri haqqında / Azərbaycan Tarixi Muzeyi-2003, Bakı: "Elm", 2003, s. 286-290.
459. Vəfa Zeynal. Burada tariximizin bir parçası yaşayır. «Azərbaycan» qəz., Bakı, 2004, 23 iyul.
460. Vəliyeva Ş.Ş Kiçikyaşlı məktəblilərin estetik tərbiyəsində təsviri incəsənət nümunələrindən istifadənin imkanları və yolları. Ped.elm.alim.dər. almaq üçün dissertasiyanın avtoreferatı. Bakı, 2008, 28 s.
461. Vəliyev R. Yuxarı sinif şagirdlərinin mənəvi tərbiyəsinin formalaşdırılması imkanları və yolları. Ped.elm. alim. dər. almaq üçün dissertasiyanın avtoreferatı. Naxçıvan, 2007, 25 səh.

462. Vəliyev Y. Milli-mədəni irsimizin qorunması və təbliğində muzeylərimizin rolu // «Mədəni-maarif», 2006, № 7, s. 32-34.
463. Vəlixanlı N. Azərbaycan Tarixi Muzeyi-80 / Azərbaycan Tarixi Muzeyi-80. Bakı: "Elm", 2001, s. 3-15.
464. Vəlixanlı N., Fərzəliyev Ş. XIX əsrin II yarısında Azərbaycanda kəndli məsələsinə dair bir sənəd haqqında / Azərbaycan Tarixi Muzeyi – 2002. Bakı: "Elm", 2002, s. 80-105.
465. Vəlixanlı N. Naxçıvan ərəb xilafəti dövründə (VII-IX əsrlər) / Azərbaycan Tarixi Muzeyi-2003. Bakı: "Elm", 2003, s. 4-32.
466. Vəlixanlı O. Qiymətli sərvətlərin izi ilə. «Bakı» qəz., Bakı, 1988, 8 avqust.
467. Vəkilova K. Azərbaycan bədii metalişləmə sənəti barədə // «Mədəni-maarif», 1982, № 1, s. 38-41.
468. Volfram Nakel-Yeva Ştrommenker. Qalakənd. Cənubi Qafqazın Kirovabad (Yelizavetpol) ərazisində erkən dəmir dövrünün arxeoloji tapıntıları. Berlin. «Folker Şpis» Elm nəşriyyatı, 1985. Bakı, «Diplomat» nəşriyyatı, 1999.
469. Xalq yaradıcılığı tükənməz çeşmədir. «Xalq qəzeti»., Bakı, 1996, 28 fevral.
470. Xatirə muzeyi. «Azərbaycan» qəz., Bakı, 1987, 18 yanvar.
471. Xəlilli F. Azərbaycanda abidələrin mühafizəsi və muzey işi. «Şərq» qəz., Bakı, 2008, 4 iyul.
472. Xəlilov M. İbtidai siniflərdə şagirdlərin təsviri sənət üzrə bədii yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsinin nəzəri-pedaqoji əsasları. Ped.elm.nam.alim.dər. almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. B., 2006, 24 səh.
473. Xəlilov V.C. Azərbaycan ümumtəhsil məktəblərində estetik tərbiyənin nəzəriyyəsi və təcrübəsi. Ped.elm.dokt. alimlik dərəcəsi almaq üçün təqdim olunan dissertasiya. Bakı, 1994. 376 s.

474. Xəlilzadə F. Tarixi yaşadan ünvanlar. «Azərbaycan» qəz., Bakı, 2003, 18 may.

475. Xəlilzadə F. Maddi-mənəvi xəzinə. «Azərbaycan» qəz., Bakı, 2007, 18 may.

476. YUNESKO-nun Beynəlxalq normativ aktları. Bakı: «Azərnəşr», 1998, 639 səh.

477. Yunusov Ə. Respublikada muzey şəbəkəsi genişlənir // "Mədəni-maarif", 1986, № 2, s. 19-22.

478. Yunusov Ə. İmişli tarix-diyarşünaslıq muzeyi // "Mədəni-maarif", 1982, № 1, s. 8-9.

479. Yusifzadə Ş. Şairanə mənzərələr. «Bakı» qəz., Bakı, 1978, 6 iyul.

480. Zakirqızı G. Şöhrətimiz, qüdrətimiz... // «Mədəni-maarif», 2002, № 1,2, s. 11-12.

481. Zeynalova A. Muzey ekspozisiyalarının estetik əsasları. Monoqrafiya. Bakı: "Elm", 2007, 312 səh.

482. Zeynalov S., Bayramov Z. Muzeylər tarixi keçmişimizin yadigarıdır // «Mədəni-maarif», 1979, № 2, s. 22-23.

483. Zülaloğlu A. Lənkəranda bir muzey var // «Qobustan», 1990, № 3, s. 82-86.

## Rus dilində

484. Абдуллаев Ф.Ф. Дизайн в условиях информационного общества. Дисс. на соиск. учен. степ.канд. искусствоведения. Баку, 2005, 157 с.

485. «Азербайджан», 27, 28 февраля 1920 г.

486. Алиева К.Т. Тема Абшерона в Азербайджанской живописи. Дисс. на соиск. учен. степ.канд. искусствоведения. Баку, 2005, 157 с.

487. Алиева К.М. Тебризская ковровая школа XVI-XVII вв. и ее связь с ковровым искусством Ближнего и среднего Востока. Дисс. на соиск. учен. степ.канд. искусствоведения. Баку, 2003 г.150 с.

488. Байрамова А.Г. Роль музеев в сборе, сохранении, изучении и пропоганде материалов музыкальной культуры Азербайджана. Дисс. на соиск. учен. степ.канд. искусствоведения. Баку, 2004 г. 161 с.

489. Бахшиева А.Т. Становление и развитие музейного дела в Азербайджане в 1920-1940 годы. Дисс.на соиск.учен.степ.канд.истор.наук. Баку, 2004г.

490. Бахшиева А. Мероприятия в деле реоргонизации музейного строительства в республике и Аз.Гос.Музей (1929-1931) / Azərbaycan Tarixi muzeyi-2002. Bakı: "Elm", 2002, s. 27-45.

491. Бахшиева А. Формирование и деятельность музея истории Азербайджана в составе Аз.ФАН СССР (1937-1945) / Azərbaycan Tarixi Muzeyi-2003. Bakı: "Elm", 2003, s. 82-105.

492. Бахшиева А. Из истории музейного дела в Азербайджане. Баку: «Елм», 2005, 152 с.

493. Бахшиева А. Из истории образования и деятельности в Азербайджане «Музэкскурс»а /Azərbaycan Tarixi Muzeyi-80. Bakı: "Elm", 2001, s.16-22.

494. Велиханлы О. Люди должны видеть эту красоту. «Баку», qəz., Bakı, 1988, 8 август.

495. Гарник В.Я. Очерк истории музейного строительства в Азербайджанской ССР (1920-1964 гг.) /В кн.- Очерк истории Музейного дела в СССР. Москва, «Советская Россия», 1971, с. 245-291.

496. Гарник В.Я. Организация и характер краеведения и краеведческих музеев в Азербайджане в 20-х годах. Материалы Музея Истории Азербайджана, 1968, № 7, с.179-187.

497. Гугушвили П. Развитие промышленности в Грузии и Закавказье в XIX-XX вв. Тифлис, 1957.

498. Гуммель И.Я. Краяведческий Музей Ханларского района. Баку: Аз.ФАН, 1939, 17 с.

499.Джафарова Э. Вклад С.М.Казиева в развитии археологии в Азербайджане и музееведения / Azərbaycan Tarixi Muzeyi-80. Bakı: "Elm", 2001, с.58-62.

500. Записки КОИРГО, XVIII cild, I buraxılış, Тифлис, 1886.

501. Зейналов Х.А. Азербайджано-грузинские художественные связи. Автореф. дисс.на соиск.учен.степ. канд. искусствоведения. Баку, 2000, 31 с.

502. Зейналов Х.А. Азербайджано-грузинские художественные взаимосвязи . Дисс.на соиск.учен.степ.канд. искусствоведения. Баку, библиотека АГУКИ, 2000, с.175.

503. «Знамя труда», 14 февраля 1919 г.

504. Ионова О.В. Музейное строительство в годы довоенных пятилеток (1928-1941 гг.)/Очерки истории музейного дела в СССР. 1963, вып.V, ст. 84-117.

505. Каргин Л. Художнице одиннадцать лет. «Баку» qəz., Bakı, 1988, 19 may.

506. Каталог Музея Бакинского Отделения Императорского Русского Технического Общества. Баку, 1912.

507. Ковровый промысел в Кубинском уезде Бакинской губернии // Бах: Ковровый промысел Кавказа, вып. Тифлис, 1902.

508. Краснова С. Встреча... по велению резца. «Бакинский рабочий» qəz., Bakı, 1989, 3 noyabr.

509. Кулиев Т.А. Нумизматика Азербайджана в исследованиях Е.А.Пахомова. Дисс. на соиск.учен.степ. канд. исторических наук. Баку, 2004, 157 с.

510. Лятифова Э.М. Илисуйское султанство. Дисс.на соиск.учен.степ. канд. исторических наук. Баку, 2001, 148 с.

511. Мамедова А.А. Ковровое искусство Азербайджана (1956-1990-е годы). Дисс.на соиск.учен.степ.кандидата искусствоведения. Баку, 1994, 158 с.

512. Материалы научной сессии, посвященной итогам научно-исследовательских работ музея за 1982 год / Баку, «Элм», 1983, 151 с.

513. Матюшкин Г.Н.Историческое краеведение. Москва: «Наука», 1987, 250 с.

514. Музееведение. Музеи исторического профиля. Под редакцией проф. К.Г.Левыкина и проф.В.Хербста / Москва, «Высшая школа», 1988, 431 с.

515. Медведева С. О деятельности фонда документальных источников Музея Истории Азербайджана /Azərbaycan Tarixi Muzeyi-80. Bakı: "Elm", 2001, s.40-44.

516. О музейном строительстве: Постановление Всероссийского Центрального Комитета и Совета Народных Комиссаров РСФСР от 28 августа 1928 года / Известия ВЦИК, 1928, 30 октября.

517. О состоянии и мерах по улучшению музейного дела в республике: Постановление Совета Министров Азерб.ССР от 30 января 1970 года. Постановление и распоряжение Совета Министров Азербайджанской ССР, 1970, января, с. 81-82.

518. Пахомов Е.А. Монетная коллекция Азгосмузея. Т.И, вып. 8, Баку: Азгосмузея , 1928, 45 с.

519. 50-летие Музея Истории Азербайджана. Баку, «Элм», 1975, 165 с.

520. Садыкова Н. Музейное дело в Узбекистане. Ташкент: ФАН, 1975, 300 с.

521. Саламзаде Э.А. История дизайна (методическое пособие). Типография Азербайджанского Инженерно-Строительного Университета, Баку, 1995, 30 с.

522.Саламзаде Э.А. Искусствознание Азербайджана. XX век. Баку: «Элм», 2001, 352 с.

523. Саламзаде Э.А. Искусствознание и социология. Сборник материалов VIII онференции по проблемам искусства и культуры. Баку: «Элм», 1997, с.61-62.

524. Саламзаде Э.А. Методология изучения история дизайна. Материалы XI республиканской научной конференции по проблемам искусства и культуры. Баку: "Чашыгоглы" , 2000, с.89-98.

525. А.С.Сумбатзаде. Промышленность Азербайджана в XIX в. Баку, 1964.

526. Старикова Й.А. Музееведение. Конспект лекции. Москва: «Приориздат», 2006, 128 с.

527. Тагиева Н.Н. Ковровое искусство Азербайджана в Американском искусствоведении. Дисс.на соиск.учен. степ. канд. искусствоведения. Баку, 2002, 31 с.

528. Труды I Всероссийского Музейного Съезда / т.2.Москва-Ленинград: Учгиз Наркомпроса РСФСР, 1931, 166 с.

529. К.Хатисов. Кустарные промысли Закавказского края./Отчеты и исследования по кустарной промышленности в России,том II СПб., 1894, 350 с.

530. Хронологическое собрание законов Азербайджанской ССР, Указов Президиума Верховного Совета и постановлений Азербайджанской ССР / Том I, 1920-1935 гг.Баку, 1959, 260 с.

531. Шаламова Л.Из новых поступлений /Azərbaycan Tarixi Muzeyi-2002. Bakı: "Elm", 2002, s.75-79.

532. Шамхалова К. Музейная жизнь. «Хазри» qəz. Bakı, 2007, 17 aprel.

533. Шляхтина Л.М. Основы музейного дела. Теория и практика. Москва, «Высшая школа»-2009, 183 с.

534. Шрайнер К. Предмет исследования и происхождение дисциплины // Музееведение.Музеи мира.Москва, 1991, 47 с.

535. Юнусов А.Г. История музейного строительства в Азербайджанской ССР (1920-1980 гг.) Автореф.дисс.канд. ист.наук. Баку, 1986, 28 с.

536. Юренева Т.Ю. Музееведение. М., Академический Проект: Альма Матер.-2007, 560 с.

537. Яворский Н.Б. Первый Всероссийский музейный съезд / Из истории Советского исскуствознания, Москва, 1987, 67-95 с.

**İngilis dilində**

538. Alexander E.P. Museums in Motion: An Introduction to the history and Function of Museums. Nashville, Tenn: American Assosiation & State and Local History, 1979. P.9.

539. Hidson K.A. Social History of Museums: What the Visitors Thought. London and Basingtone: The Macmillan Press LTD, 1975.

540. Hidson K.A. Museums inside and outside the Establishment-the Great Britain Divide // Papers in Museology. Umea Univ., 1992.

541. Museum USA / Art, history, sciece and other museums. Washington, National endowment for the arts, 1975. P. 203.

542. Schneider E. The character and mission of the regional research work of museums // MS. 1981. № 8. P. 67-94.

543. Wittlin A.S. Exhibits Interpretive, Underinterpretive, Misinterpretive: Absolutes and Relative Absolutes in Exhibit Techniques // Museums and Education. Washington, 1968.

544. Wittlin A.S. Museums: In Search of a Usable Future. Cambridge, Mass. London: The MIT Press, co., 1970.

**Alman dilində**

545. Ennenbach W. Üьer Definitionen und Aspekte der Dinge im Museum // Neue Museumskunde. 1981, № 4, s.267-278.

546. Hofmann E. Zum Verhaltnis von Fachwissenschaften und Museologie: Versuch einer Erklarungsmodelle // Neue Mussemskunde. 1984. № 1. s. 68-77.

547. Holm L. Museum und Gesellschaft // Neue Museumskunde. 1975. № 2. s. 151-153.

**Polyak dilində**

548. Gluzinski W. Upodstaw a musjinictva. Warzawa, 1980.

## Slovak dilində


549.Beneš J. Muzejnictvi, museum a muzeologie // MVP. 1976, № 1.

550. Beneš J. Muzeum a vychova. Praha. 1980.

551. Beneš J. Muzeum a sbirky. Praha, 1977.

552. Beneš J. Museologicky slovnik. Praha, 1978.

553. Beneš J. Zbierkovy predmet v ülohe eksponatu // Muzeum. Bratislava, 1984.

554. Stransky Z. Metoddogicke otazky dokumentace současnosti (teze) // MS. 1974, s.5.

555. Stransky Z. Uvod do muzeologie. Brno. 1972.

556. Stransky Z. Die Prinzipien der Musealen Ausstelling // Neue Museumskunde. 1981, № 1, s. 33.


## İnternet


557. http: // www. tourism.az
558. http: // www. museumcenter.az
559. http: // www.icherisheher.gov.az
560. http: // www.museum.ru
561. http: // www.louver.historic.ru
562. http: // www.puchkinmuseum.ru
563. http: // www.prof.museum.ru
564. http: // www.future.museum.ru
565. http: // www.histmsu.ru/er/museum.htm
566. http: // museums. artux.ru
567. http: // supercook.ru/spr-01-mus.htm
568. http: // britishmuseum.org
569. http: // deutsche-museen.de
570. http: // topkapisarayi.gov.tr
571. http: // www.smivnova.net

## Резюме

## Актуальные проблемы музееведение в Азербайджане

За последние десятилетия глубокое изучение и пропаганда нашей древней и богатой культуры постоянно находится в центре внимания. С этой целью оказывается практическая помощь использованию национальных и человеческих образцов культуры, богатых материально-духовных ценностей с применением необходимых средств. В этом процессе созданы максимальные условия для научно-теоретического и практического исследования всех основ культуры. Это позиция без всякого сомнения выдвигает необходимость более конкретного исследования «Азербайджанского музееведения», проведения в связи с этим соответствующего анализа и обобщения.

Цель исследования заключается в изучении общих теоретических и практических вопросов, характерных особенностей музееведения посредством музейной деятельности, проведении определенных анализов и обобщений по различным направлениям, исследовании источников зарождения и формирования национального музееведения, определении значимости в национальном музееведении сущности и значения взаимосвязи между элементами, возможностей и форм музейной деятельности, исследовании форм, средств и путей работ, обеспечивающих реальное решение проблемы в соответствии с требованиями современного периода, анализировании результатов применения теории, выдвижении проблемно-значимых методических рекомендаций и предложений, обеспечивающих оптимальность.

Исследование состоит из введения, четырех глав, заключения, списка использованной литературы и дополнений. В введении последовательно даны актуальность проблемы, объект, предмет, цели, задачи исследования, использованные методы исследования, научная новизна, теоретическое и практическое значение.

В I главе системно исследованы теоретические сведения о сущности, задачах, принципах, возможностях и средствах музееведения, ссылаясь на мысли различных ученых-музееведов, сравнено музееведение зарубежных

ученых-музееведов, сравнено музееведение зарубежных стран и Азербайджана.

Во II главе в отдельных подглавах исследованы источники культуры и искусства Азербайджана, постановка проблемы и этапы развития музееведения. В первой подглаве главы исследованы источники, охватывающие национальное творчество, ремесло различных исторических этапов с каменного века по настоящее время. Во второй в подглаве этапах  и полуэтапах сравнительно даны эволюция и  сущность развития музейного создания Азербайджана с конца XIX века до сегодняшнего дня. В третьей подглаве последовательно выявлены постановка проблемы и основные этапы развития Азербайджанского музееведения в научной и специализированной литературе проведен анализ на примере отдельных музеев по регионам.

В  III главе впервые в науке определена система взаимосвязей и закономерностей между элементами Азербайджанского музееведения. В первой подглаве говорится о факторе среды в музееведении, взаимосвязях и закономерностях в деятельности, во второй подглаве – о сущности музейной деятельности, в третьей подглаве – о цели, в четвертой подглаве – о содержании, в пятой подглаве – о возможностях и закономерностях по результатам.

В  IV главе проанализировано значение форм и возможностей музейной деятельности в национальном музееведении, выявлено значение выставок-экспозиций, других музейных мероприятий в национальном музееведении. В этой главе также показано значение современных технологий в музееведении.

В заключительной части рекомендовано выполнение соответствующих научных рекомендаций и результатов, полученных в ходе исследований в направлении развития национального музееведения.

## Summary

# Actual problems of museum management studies in Azerbaijan

Deep investigation and propoganda of our ancient and rich culture has been in the centre of attention in the last decade in our country. For this purpose by means of usage of necessary methods the practical help is given to the usage of national and human culture examples, rich material and spiritual values. In this process maximum facilities have been offered for the scientific and theoretical and practical investigation of all institutions of culture. Such position puts forward the necessity for to investigate "museum management studies of Azerbaijan" concretely, to analyze and to generalize.

The aim of the investigation is to study general theoretical and practical problems, specific properties of the museum management studies by means of the activity of Azerbaijan museums, to analyze and to generalize according to different directions, to investigate the sources of the formation of national museum management studies, to define the essence and importance of opportunities and forms of museum activity in the national museum management studies, to investigate form, means, ways of problems which pay the way for real solution of matters following the demands of modern period, to analyze the applied results of the theory, to put forward the important methodical advice and offers providing the optimism.

The research consists of the introduction, four chapters, the conclusion, the list of literature and additions. In the introduction the topicality of the problem, object, subject, aim, duties of the research, used investigation methods, scientific innovation, theoretical and practical importance have been explained.

In the first chapter the theoretical information system of the essence of museum management studies, duties, principles, opportunities and methods have been given. Azerbaijan mu-

seum management studies is compared with the foreign museum management studies according to the thoughts of museum management studies scientists.

In the second chapter Azerbaijan culture, sources concerning Art, formation of national museum, statement of museum management studies problems, development stages have been investigated in the separate half-chapters. In the first part of this chapter sources of national creativity of different historical stages have been explored from the stone stage till to the modern period. In the second part of the chapter the formation and essence development of museum statement in Azerbaijan from the end of the XIX century till today have been given in stages.

In the third half-chapter in the science –professional literature statement problems Azerbaijan museum management studies and main development stages have been clarified consequently, an example of separate museum of the regions. In the III chapter interaction among the elements Azerbaijan of museum management studies and system objective low have defined for the first time in the science. In the first half-chapter environment factor in the museum management studies, interaction in the activity and objective low, in the second half-chapter goal, in the fourth half-chapter content, in the fifth half-chapter opportunity, in the seventh half-chapter interaction according to the result have been deals from objective law.

In the IV half-chapter the forms of the museum activity in Azerbaijan and opportunities of significance finances have been analyzed at the national museum management studies, exposition of exhibition other events have been explained in the national museum management studies. In this chapter also importance of modern technologies has been showed importance of modern technologies in museum management studies. In the conclusion fulfillment of corresponding scientific offers and results in the direction of the progress of national museum management studies has been advised.

## MÜNDƏRİCAT


GİRİŞ ........................................................................... 3

I FƏSİL. Azərbaycanda muzeyşünaslığın aktual problemləri ilə bağlı nəzəri məlumatlar sistemi ...... 20

1.1. Azərbaycan muzeyşünaslığının mahiyyəti ....... 20

1.2. Azərbaycan muzeyşünaslığının vəzifələri ........ 34

1.3. Azərbaycan muzeyşünaslığının prinsipləri........ 41

1.4. Azərbaycan muzeyşünaslığının imkanları və vasitələri ........................................................ 52

II FƏSİL. Tarixi mənbələr, muzey quruculuğu, muzeyşünasliğin elmi-ixtisas ədəbiyyatında qoyuluşu və inkişafı.............................. 56

2.1. Azərbaycan mədəniyyəti mənbələri................ 56

2.2. Milli muzey quruculuğu.................................. 76

2.3. Milli muzeyşünaslığın inkişafı........................ 117

III FƏSİL. Milli muzeyşünasliqda ünsürlərarası qarşılıqlı əlaqələr və qanunauyğunluqlar sistemi............ 259

3.1. Muzeyşünaslıqda mühit amili, fəaliyyətdə qarşılıqlı əlaqələr və qanunauyğunluqlar.......... 260

3.1.1. Muzey fəaliyyətinin əhatə olunduğu mühitdən, şəraitdən asılılığı............................................. 269

3.1.2. Muzey fəaliyyətinin muzey mühitindən asılılığı............................................................... 273

3.1.3. Muzey mühitində yaradıcı ilə tamaşaçı arasında qarşılıqlı əlaqələr....................................... 277

3.2. Muzey fəaliyyətinin mahiyyəti üzrə qarşılıqlı əlaqələr və qanunauyğunluqlar......................... 281

3.2.1. Muzey işçisi, ekspozisiya və tamaşaçı fəaliyyətinin biri-birini şərtləndirməsi...................... 282

3.2.2. Muzey mühiti vasitəsilə dərketmənin ekspozisiya materiallarından asılılığı........................... 285

3.2.3. Zənginləşmənin muzey tədbirlərinin keyfiyyətindən asılılığı.............................................. 290

3.2.4. Muzey fəaliyyəti vasitəsilə elmi idrakla yaradıcı idrak arasındakı ziddiyyətlərin aradan qaldırılması ........ 296
3.3. Muzey fəaliyyətinin məqsədi üzrə qarşılıqlı əlaqələr və qanunauyğunluqlar ........ 300
3.3.1. Qarşıya qoyulan məqsədin həyata keçirilməsində muzeydaxili əlaqə və asılılıqların nizamlanması ........ 300
3.3.2. Əlaqələrdə vahid məqsədə xidmət edilməsi ........ 305
3.3.3. Qarşılıqlı əlaqələrdə müvafiq nəzarətin vacibliyi ........ 311
3.4. Muzey fəaliyyətinin məzmunu üzrə qarşılıqlı əlaqələr və qanunauyğunluqlar ........ 316
3.4.1. Muzey fəaliyyətinin məzmununun elmi və bədii yaradıcılıqdan asılılığı ........ 317
3.4.2. Muzey fəaliyyətində planlılıq, ardıcıllıq və mütəmadiliyin əlaqəsi, biri-birini şərtləndirməsi ... 322
3.4.3. Muzey fəaliyyətinin məzmunu ilə vasitələrinin əlaqəsi ........ 327
3.4.4. Muzey fəaliyyətində mövcud tədqiqat metodlarının əlaqəsi ........ 331
3.5. Muzey fəaliyyətinin imkanları üzrə qarşılıqlı əlaqələr və qanunauyğunluqlar ........ 337
3.5.1. Muzey fəaliyyətinin tərbiyəedici imkanları arasında qarşılıqlı əlaqələr və onlardan istifadə ..... 337
3.5.2. Muzey fəaliyyətinin təhsilləndirici imkanları arasındakı əlaqələr və onlardan istifadə ........ 342
3.5.3. Muzey fəaliyyətinin inkişafetdirici, formalaşdırıcı imkanlarının qarşılıqlı əlaqəsi və onlardan istifadə ........ 350
3.6. Muzey fəaliyyətinin mərhələləri üzrə qarşılıqlı əlaqələr və qanunauyğunluqlar ........ 357
3.6.1. Muzey fəaliyyəti mərhələlərinin muzey işçisindən asılılığı ........ 358

3.6.2. Muzey fəaliyyəti mərhələlərinin biri-birini şərtləndirməsi........ 369
3.6.3. Muzey fəaliyyəti mərhələlərinin muzeydaxili bölmə və kollektivlərin qarşılıqlı əlaqəsindən asılılığı........ 373
3.6.4. Mərhələlərin muzeyin elmi-yaradıcı potensialının qarşılıqlı əlaqə fəaliyyətindən asılılığı........ 381
3.7. Muzey fəaliyyətinin nəticələri üzrə qarşılıqlı əlaqələr və qanunauyğunluqlar........ 385
3.7.1. Mənəvi zənginləşmənin nəticəsinin muzey fəaliyyətinin üsul və vasitələrindən asılılığı........ 386
3.7.2. Nəticənin muzey fəaliyyəti ünsürlərinin əlaqə və vəhdətindən, biri-birini şərtləndirməsindən asılılığı........ 391
3.7.3. Muzey fəaliyyəti nəticəsində mənəvi zənginləşmənin elmi-yaradıcı dünyagörüşünə və hərtərəfli formalaşmanı inkişaf etdirməsi........ 395
IV FƏSİL. Azərbaycanda muzey fəaliyyətinin formaları və imkanlarının milli muzeyşünasliqda əhəmiyyəti........ 401
4.1. Sərgi – ekspozisiyaların milli muzeyşünaslıqda mühüm əhəmiyyəti........ 401
4.2. Müxtəlif muzey tədbirlərinin səmərəliliyinin artırılmasında vacib başlıca tələblərin əhəmiyyəti........ 472
4.3. Müasir texnologiyaların muzeyşünaslıqda əhəmiyyəti........ 480
ƏLAVƏLƏR........ 504
İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT........ 524
РЕЗЮМЕ........ 564
SUMMARY........ 566

**Sabir Abuzər oğlu Əmirxanov "Azərbaycanda muzeyşünaslığın aktual problemləri". Bakı, "Bakı Biznes Universiteti" nəşriyyatı 2011, 570 səh.**

Korrektor və texniki redaktoru: Həqiqət Əmrullayeva
Kompüter tərtibatı: Gülnar Qəbləyeva
Çapa məsul: Tofiq Məmmədov

Yığılmağa verilmişdir: 07.03.2011
Çapa imzalanmışdır: 16.05.2011
Kağız formatı 60 x 90 1/16

Həcmi: 35,6 ç.v
Sayı: 500

Bakı Biznes Universitetinin mətbəəsində çap olunmuşdur.
A.370122 Bakı Zərdabi pros. 88[a]
Tel: (012)431-91-18
Faks: 430-07-80
E-mail: info@bbu-edu.az



Qobustan



Muzey Mərkəzi



AMEA-nın N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi



İçəri şəhər, "Bazar meydanı"



AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinin ekspozisiyasında



**R.Mustafayeva adına Azərbaycan Dövlət İncəsənət Muzeyi**



**AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinin ekspozisiyasında**